EYVAZ ZEYNALOV

# QIŞ GÜNƏŞİ

Redaktor: **H.Hacıyev**

Rəyçilər: R.Əliyeva

G.Məmmədova

**Z.Zeynalov.** Qış günəşi. Povest və hekayələr. Bakı, 2008, 347 səh.

© $\frac{1947007008}{1952\,(Ə)\,008}$ — 2008 ADPU nəşriyyatı

# M Ü Ə L L I F D Ə N

Hörmətli oxucu, bu kitabımda əsasən əvvəllər qəzet və jurnallarda işıq üzü görmüş hekayə və povestlərim toplanmışdır. "Ədhəmin ilk məhəbbəti", "Köhnə velosiped" (əvvəl "Göynərti") hekayələri "Rəngsiz yuxu" (1990-cı il, "Yazıçı" nəşriyyatı) kitabımdan, "Qaydasız döyüş", "Qaçha-qaçda", "Ən qiymətli", "Qəfəs" hekayələri isə "Qarabağ hekayələri" (2006-cı il, "Şirvannəşr") kitabımdan götürülərək müəyyən dərəcə təzədən işlənmişdir...

İstər qəzet və jurnallarda, istərsə də kitablarımda təkrar neçə dəfə çap olunur-olunsun, köhnə yazılarıma dönə-dönə təzədən qayıtmağım, müəyyən düzəlişlər etməyim daxili ehtiyacım, narahatlığımla bağlıdı. Neçənci düzəliş olur-olsun, növbəti düzəlişdən sonrakı rahatlığım həmişəlik yox, müvəqqəti, sıradan rahatlığımdı. Təzə yazılar üzərində işimi ləngidən bu xasiyyət nə öyüləsi, nə də iradəmdən asılı bir şeydi. Yox, çapa tələsməkdən, yaxud məsuliyyətsizlikdən də doğmur...

Boynuma alıram, qələmlə ülfət bağladığım ilk vaxtlar yazı-pozu işinə səthi yanaşır, indikindən qat-qat asan, tez yazır, çox çap olunmağa çalışırdım. Necə deyərlər, yaza-yaza, poza-poza, çap oluna-oluna bu işin nə qədər əzab-əziyyətli, ağır bir iş olduğunu (bilən bilir) anladım. Çapdan-çapa məsuliyyət də artdı. İndi üzərində dönə-dönə, aylarla, illərlə işlədiyim və həqiqi mənada razı qaldığım yazım azdı...

Yaradıcılığa çoxdan, həm də əksəriyyət kimi şeirlə başlamışam. Qısa bir müddətdən sonra nəsrə keçmişəm. Demək olar, həmişə də nəsrlə məşğul olmuşam. Amma müxtəlif səbəblərdən arada uzun fasilələrə yol vermişəm...

10-a qədər hekayəm Azərbaycanda və Ukraynada müxtəlif tərcüməçilər tərəfindən rus dilinə tərcümə edilərək çap olunub. Son zamanlar, belə demək mümkünsə, daha ardıcıl, daha ciddi işləyirəm. Hekayə və povestlərim hər il "Azərbaycan", "Ulduz" jurnallarında dərc edilir...

Əvvəllər çap etdirdiyim əsərlərimi şərti olaraq dörd yerə bölərək 2006-cı ildə bu və ya digər dərəcədə Qarabağ hadisələri ilə bağlı olanlarını "Qarabağ hekayələri", 2007-ci ildə uşaq hekayələrini "Qırmızı almalar", yenə bu ildə satirik hekayələri "Hekayələr" adlı kitablarda çap etdirmişəm. "Qış günəşi" dördüncü kitabdı...

Kitabdakı "Yaddaş" hekayəsi bir vaxt "Ulduz" jurnalında povest həcmində işıq üzü görüb. Sonralar onu qısaltmış, hekayə kimi işləmiş, belə daha məqbul saymışam. "Azərbaycan" jurnalında getmiş bir povestimi isə kitaba salmağı lazım bilməmişəm...

Bu yazıların eləsi var otuz, otuz beş il əvvəl qələmə alınıb və vaxtı ilə çap olunub. "Əks-səda", "Ədhəmin ilk məhəbbəti" bu cür hekayələrdəndi...

Kitabdakı yazılarımdan beş-üçü qədirbilən oxucuların zövqünü oxşasa, rəğbətini qazana bilsə, bu, mənim ən böyük mükafatım, yeni yaradıcılıq axtarışlarına stimul olardı!..

# H E K A Y Ə L Ə R

## Doğum evinin işıqları

Elmar yuxudan ayılan kimi saata baxdı. Səkkizdi. Həftənin beş günü gecə yatmamışdan qabaq öz əliynən "qulağını burduğu" zəngli saat hər səhər altıda (zavodda işləyirdi) yuxusuna haram qatır, ona divan eşirdi. Di gəl səbirsizliklə gözlədiyi, yatmadıqlarının əvəzini çıxmaq istədiyi istirahət günlərində (şənbə-bazar) bütöv bir gecədən şirin, dadlı saydığı sübh yuxusunu doyunca yata bilmirdi…

Dünəndən qaynı Mahirlə şərtləşmişdilər ki, qar yağsa, bu dəfəki istirahət günlərini ovda keçirəcəklər…

Sağ yanı üstə, arvadına sarı çöndü. Aynurə soyuqdan yorğanın altında büzüşərək yumağa dönmüşdü. Otağı salyarka peçiynən qızdırırdılar. Onu da bütün gecəni nəzarətsiz, yana-yana qoyub yatmaq təhlükəliydi. Odu ki, yatanda peçi söndürürdülər, səhərə qədər içəri buza dönürdü…

Əyninə bir şey almadan, yalınca ayağa qalxdı. Tez-tələsik peçi yandıraraq təzədən qayıdıb yerinə girdi. Aynurə həmin saat yorğanın altında pişik kimi ona sırmaşdı. Boylu olduğuna görə (bu gün-sabahlıqdı), qarnı əməlli-başlı maneçilik törədirdi.

- Oyaqsan? - Elmar pıçıltı ilə soruşdu.
- Hə, - arvadı da eyni pıçıltıynan cavab verdi.
- Niyə yatmırsan?..
- Səsləri eşitmirsən?.. - Arvadı bayıra işarə ilə dedi.

Eşidirdi. Özü də həmin səsə ayılmışdı. Ümumi gediş-gəliş qapılarının ağzındandı. Ata-anasının o tərəfdəki saygısız hərəkətləri, kobud ayaq səsləri, danışıqları istər-istəməz yuxularını vaxtından əvvəl qaçırdırdı.

Valideynləri, bir növ, bunda maraqlıydılar. Hesabla, gəlin gərək onlardan qabaq yuxudan dura, yalandan da olsa ev-eşikdə qaraltı eləyəydi…

- Yaxşı, mən getdim... - Aynurə yorğanı qaldırıb durdu.

Bu da valideynlərlə bir yaşamağın xeyri! Hələ harasıydı, adətən istirahət günləri bacıları (üçüydü) uşaqlı-böyüklü hamısı birdən tökülüb gəlirdi. Həm ticarət, həm ziyarət. Pisi oydu ki, hər şeyə qarışır, arabir Aynurə ilə qardaşlarının arasını da vururdular…

Yuyunandan sonra məhrəba ilə qurulana-qurulana geri qayıdan Aynurə buz kimi soyuq əllərini zarafatla Elmarın üz-gözünə, bədəninə sürtdü. Tutmaq istəyəndə qaçdı. Otağın havasını dəyişmək üçün pəncərəni açdı. Şaxtalı hava içəri doldu.

- Bir bax, qar yağır ey.. - Aynurə pəncərədən qarı göstərdi.
- Yalan demə... - Elmar yerinin içində dikəlib pəncərədən çölə boylandı. Doğrudan da, hər tərəf ağappaqdı. - Balam, bəs Mahir niyə görünmədi?.. - Öz-özünə dedi.
- Bu havada evdən çölə çıxanın ağlı yoxdu. - Arvadı dedi.
- Eh, sən nə bilirsən ov nədi!..

Aynurə əlini ilişdirib yorğanı üstündən çəkdi.

- Az danış! Dur ayağa, qayınanam xaşıl çalıb…

* * *

Elmar anasının iri boşqaba çəkdiyi xaşıla yağ, bəhməz süzüb ləzzətlə qaşıqladı. Birdən gözü qarşısındakı xəmiri toyuq kimi ditdələyən Aynurəyə sataşdı.

- O nə yeyişdi, hə?.. - Acıqlandı. - Sən allah, adamın iştahını küsdürmə.

- İnanırsan, birinci dəfədi xaşıl yeyirəm.

- Doğrudan? Sizin evdə xaşıl çalmırlar?..

- Çalırlar, mən xoşlamıram…

Televizoru yandırdılar. Nərmənazik, uzun bir qız oxuyurdu. Səsi babatdı. Ancaq açıq-aydın kimisə yamsılayırdı. Hərəkətləri də süni, oğurluqdu. (Dünyada neçə cür oğurluq var, ilahi!) Cürbəcür diringilərlə tamaşaçıların zövqünü korlayır, vaxtını oğurlayırdılar. (Bu da bir oğurluq!)

- Ə, Elmar, Mahir çağırır. - Səhərdən həyətin qarını kürüyən atası kandarda üst-başını çırpıb içəri keçdi.

- Hanı?.. - Aynurə qardaşının adını eşidən kimi pəncərənin pərdəsini aralayıb çölə baxdı. Onun qarı kürünmüş cığırla darvazaya tərəf getdiyini gördü. - Qayıdır ki. Bəs niyə yuxarı çıxmadı?..

- Yəqin maşında gözləyəcək, onsuz da yubanmışıq. - Elmar tələsik altdan-üstdən qalın geyindi.

- Xaşıl ölüsüdü, - Aynurə təəssüfləndi. - Bilsəydi, yubanmağazada baxmaz, ayaqüstü bir boşqab ötürərdi…

* * *

- Sabahın xeyir! - Elmar maşının qapısını açıb qabaq oturacaqda yerini rahatlayandan sonra qaynının iştahını sınamaq fikrinə düşdü. - Anam xaşıl çalmışdı, gərək bir boşqab aşıraydın, qışın canıdı…

Mahir onun salamını başını tərpətməklə aldı. Kal səslə:

- Getdik, - deyib maşını döndərdi.

- Səhər-səhər qanın niyə qaradı? - Qaynının qırımı Elmarı açmadı.

- Heç... - Mahir ona tərəf baxmadan dodaqlarını çeynədi. Gözləri şişib qızarmış, rəngi bozarmışdı.

Elmar:

- Ağzı belə hara gedirik?.. - soruşdu, Mahir yenə dinmədi. - Ə, sənnən deyiləm, niyə cavab vermirsən?..

Qaynıgilə yaxınlaşmışdılar. Döngəni burulanda Mahir daha özünü saxlaya bilməyib bərkdən hönkürdü.

- Anam ölüb…

- Nə?. - Elmar qulaqlarına inanmadı. - Bəs bizimkilərə demədik axı?.. - Handan-hana boğuq səslə xırıldadı.

- Atan bilir, demişəm. Aynurə hələ bilməsə yaxşıdı..

* * *

Mahirgilin darvazası taybatay açıqdı. Kişilər darvazanın ağzında vurhəşir küçənin qar-buzunu kürüyüb mağar yeri hazırlayır, arvadlar içəridə ağlaşırdılar. Eşidən-bilən qonşu-qonum, qohum-əqrəba həyətlə küçə arasında əriş-arğacdı…

Tezliklə mağarın üstü çadırlandı, içərisinə dövrələmə gəbə vuruldu, ayaq altına taxta kəpəyi səpildi, qapısı asılıb işığı çəkildi…

Ortalıqda sozala-sozala hərlənən Əmir kişi (qayınatası) gələnlər arasında simsarını gördükcə arvadların iliyə işləyən ağlaşması altında daha da kövrəlir, özünə yer tapa bilmirdi. ″Niyə, niyə belə elədin, ay Qətibə? Niyə məni yetim qoydun?..″

Dağ kimi kişinin birdən-birə beli bükülmüş, bir tərəfi əyilmişdi. Bu yaşda ömür-gün yoldaşını itirmək zarafatdımı? Qətibə arvad böyük bir ailəni birləşdirən nəhəng kötükdü. Onun əsl qədir-qiymətini hələ bundan bele biləcəkdilər. Bir var adi bir ağac yıxıla, bir də var köklü, qollu-budaqlı palıd başını yerə qoya…

Qapının ağzında maşından düşən adam Əmir kişini qucaqlayıb ağladı, onu da ağlatdı. Sonra bir-birinə toxtaqlıq, ürək-dirək verərək sakitləşdilər.

- Rəhmətliyin dərdi nəydi, ay Əmir?.. - Gələn adam kişinin qoluna girib qırağa çəkdi.

- Son vaxtlar qan təzyiqi, şəkəri, astması bir-birinə qarışmışdı. Axşam kiçik qızıgildəydi. Könlünə plov düşür, dəmlədib doyunca yeyir… Bədbəxtə düyü ziyandı. Gecənin bir aləmi halı xarablaşdı. Öyrəncəliydik, skoro çağırırdıq. İynə, dava-dərmandan sonra babatlaşırdı. Bu dəfə pristupu çox uzandı… - Əmir kişi boğazına tıxanmış qəhəri zorla uddu. - Aşağıda özümü havaya verirdim, birdən uşaqlar yuxarıda çığırışdı: ″Dədə, gəl, nənəmiz öldü!..″ Özümü yetirdim ki, Qətibə nəəzir, quş kimi ″pırr″ eləyib uçub. Heç elə bil yaranmayıbmış zalım qızı…

* * *

Xalası Mahiri yuxarı çağırtdırdı.

- Xalan gözlərinə qurban, maşını xodda, bir yer var, ora dəyək gələk.

- Yerin adı yoxdu, ay xala?..

- Ağıçı lazımdı. - Xalası çəkinə-çəkinə dedi. Bacısı oğlunun çırtqozluğuna bələddi.

- Ağıçını neynirik, ay xala?.. - Mahir əsəbləşdi. - Ağıçısız ölümüzü ağlaya bilməyəcəyik?..

- Dilnən ağlayıb-ağlatmaq ayrı şeydi, ay bala. Sən belə şeyləri bilməzsən, yası hörmətə mindirən ağıçıdı. Hər yerdə belə görmüşük. Soora deyərlər, qaraçıdılar, pula qızırqalandılar…

Molla ilə ağsaqqallar da aşağıda Mahirin atasını yola gətirməyə çalışırdılar.

- Adət-ənənə heç nəyə baxmır, Əmir kişi. Rəhmətlik sübh tezdən keçinib, bu gün də dəfn olunmalıdı. Günortadan sonra ölənin dəfnini o biri günə saxlayarlar…

- Əşi, siz allah, boş-boş danışmayın... - Əmir kişi əsəbi şəkildə əlini yellətdi. - Sizdə insaf-mürvət yoxdu heç?..

- Ahıl vaxtında özünü günaha batırma, Əmir kişi. - Ağsaqqallar tutduqlarını buraxmırdılar.

- Nə adət-ənənə, nə günah, canım?. Hamısını yaradan, qurub-qoşan özümüz deyilikmi?..

- Əmir kişi, - molla təsbehini çevirə-çevirə boğazını arıtladı, - şəriətə görə, dəfn edilməsə, rəhmətliyin ruhu sabahacan qəbristanlıqla bu ev arasında əsir-yesir olacaq. Dinclik tapmayacaq…

- Dediklərinizin heç biri beynimə batmır ey, ay molla, batmır, vəssalam! - Əmir kişi yanını basa-basa onlardan aralandı.

- Bu nədi, ə?.. - Molla Əmir kişinin dalınca baxa-baxa başını buladı. - O boyda vəzifələrdə saç-saqqal ağardıb, dünya görüb, amma uşaq kimi tərsdi…

- Yazığı qınama, ölümün zəhmi ağırdı, başını itirib. - Ağsaqqallardan biri mollanı yasaladı.

- Mənnikdimi, a başına dönüm?.. - Molla dedi. - Yadına salıram ki, filan filandı, hirslənir. Deyir, mən nə hayda, siz nə hayda!.. - Əmir kişini yamsıladı. - Guya adət-ənənəni mən qoymuşam...

- Əşi, sən də ağını çıxartma, qurtar!.. - Əmir kişinin yaxınlaşdığını görüb mollaya göz ağartdılar. - Höcətlə iş aşmaz …

Elmar fikrən qayınatasının tərəfindəydi. İnadkarlığı kişini gözündə bir az da ucaltmışdı. Meyidin böyür-başındakılar qız-gəlini, nəvələri, yaxınları, ciyərparələriydi. Qətibə arvadın haqqı-sayı boyunlarında hədsizdi. Öz halal evində-eşiyində daha bir gecə qalsaydı dünya qopmazdı! Onları bir-birindən belə tez ayırmaq insafsızlıqdı. O, əbədiyyət yolçusuydu. Bu, qapını açıb küçəyə çıxmaq, qonşu-qonuma adlamaq, yaxud beş-üç günlüyə harasa səfər etmək deyildi axı…

* * *

Yuxarıda, ikinci mərtəbədə arvad-uşağın tükürpədici ağlaşma səsi yüksəldi. Qətibə arvadın meyidini həyətin ayağında qurduqları yuat yerinə yendirirdilər. Yuyulub paklanmalı, ağa bükülməli, dualanmalıydı…

Mərasim bir saatdan artıq uzandı. Nəhayət, yuyucular yuat yerinin qabağını örtən çadırın qıraqlarını qaldırıb çardağın üstünə atdılar. Kişiləri çağırdılar. Meyidi arasında aşağı düşürtdükləri gəbəni tabutun içinə sərdilər. Ömründə ilk dəfə ölüyə, tabuta bu qədər yaxın dayanmış Elmara hər şey yuxu kimi görünürdü.

Bütünlüklə qalın ağa bələnib (bələkli çağanı xatırladırdı) bağlanmış, baş tərəfi ilə ayaq tərəfi bir elə də fərqlənməyən meyidi tabuta qoymaq lazımdı. Elmar son anda üşürgələnib arxasında dayanmış adamı irəli buraxdı.

O boyda ətli-canlı arvad necə də balacalaşıb cılızlaşmış, yazıqlaşmışdı, ilahi…

Cənazə çiyinlərdə darvazaya yönələndə (Əmir kişinin inadını qırmışdılar) yuxarıda, şüşəbəndin qarşısında sıralanmış arvad-uşaq fəğan qopartdı…

Küçədə adam əlindən tərpənmək mümkün deyildi. Maşın yolunda sürücülər maşınlarını qırağa verib boyun-boyuna dayanmışdılar. Son mənzilə yollanana ehtiram hamının borcuydu…

İzdiham ″Qaz-53″ə çatanda ayaq saxladı. Tabutu maşına qaldırdılar. Karvan Qətibə arvadı doğma kəndinə, ata-babasının əbədi uyuduğu qəbristanlığa aparacaqdı...

Qar yağırdı. Ahəstə, qəmli-qəmli, fikirli-fikirli...

* * *

Kənddən qəbristanlığa burulan yol ağappaq çöldə qapqara lent kimi qaralırdı. Qətibə arvadın kəndçiləri (qohumları) səhərdən traktorla yolun qarını-buzunu təmizləyirdilər.

Cənazəni qəbristanlığın girəcəyindəki çardağın altında yerə qoydular. Kişilər üç cərgə düzülüb gözlərini mollanın ağzına dikdilər. O, Quranı açıb xüsusi avazla oxumağa başladı. Qalanlar yalan-gerçək dodaqlarını tərpədirdi. Sonra mollanın göstərişi ilə tabutu qaldırıb qəbrə sarı apardılar.

Gözünü dolandıranda Elmar diksindi. Ona elə gəldi ki, ətrafdakı başdaşıları orda-burda qalxıb-enərək maraqla, heyrətlə onlara sarı boylanır. Hətta qulağı səsə də düşdü. Başdaşılar bir-birilə xısın-xısın pıçıldaşırdılar…

Qəbrin yanında qəbirqazanla qarşılaşdılar. Molla hörmətlə ona əl uzatdı.

- Nətəər çıxdı, usta?.. - Torpağı soruşurdu.

- Mən qazan qəbir haçan pis çıxıb?. - Kişi lovğalandı. - Bu yerin hər qarışına bələdəm...

Molla qəbrin üzərinə tutulmuş sarafan örtüyün altında təzədən Quran oxudu. Örtük mollaya yox, qəbrə görəydi. Guya yağan qardan ora düşsəydi, qırx gün dayanmazdı. Onsuz da bərkitmişdi…

Böyür-başında Əmir kişi, Mahir, bacısı oğlanları xısın-xısın ağlayır, sıxıb tökürdülər. Elmar bir gilə yaş çıxmayan gözlərini onlardan gizlətməyə çalışırdı…

Mollanın göstərişi ilə meyidi adyalın arasında yavaş-yavaş, ehtiyatla qəbrə salladılar. Sonra adyalı çəkərək sağ yanı üstə kürəyini soyuq divara söykədilər.

- Allahsızlar!.. - Əmir kişi qulağının dibində yana-yana pıçıldadı.

Əmir kişi Qətibə arvadı bahalı xalıya bükdürmək, başının altına iri yastıq qoydurmaq istəmiş, adət-ənənə (insanın yaratdığı özündən güclüydü) keşikçiləri (ağsaqqallar) birtəhər fikrindən döndərmişdilər…

Əllərdə bel görünəndə Elmar diqqət kəsildi ki, görsün meyidin üstünə birinci kim torpaq atmağa cürət edəcək. Lakin əvvəl gər

ağacından hazırlanmış yarmaları meyitdən yarım metr yuxarı yan divarlardakı çıxıntılarla eninə qəbrin içinə döşədilər. Sarafan sərdilər, ot, qaratikan kolu basdılar. Sanki bütün bunlar keçilməzliyi aradan qaldırmaq üçündü. Yoxsa birbaşa meyidin üstünə torpaq atmağa kimsə cür′ət etməzdi…

Qalaqlanan torpağı bellərin sapı ilə hamarlayıb düzəltdilər. Gər ağacından müvəqqəti baş, sinə daşı qoydular. Yastı, ağ çaylaq daşları düzdülər. Üstünə avtafa ilə su səpdilər…

Bu həngamədən sonra kiminsə xortlayıb qəbirdən çıxması yalnız cəfəngiyyatdı. Pəhləvan da dirilsəydi o haqq-hesaba gücü çatmazdı...

Dağılışdılar. Hamı tələsirdi. İçlərini qorxunc, özlərinin belə anlamadıqları bir təlaş sarmışdı. Birtəhər hər şeyi, ölüm-itimi, onun doğurduğu xofu, vahiməni dəf edərək maşınlara dolub burdan, bütün amansızlığı, çılpaqlığı ilə insan taleyinin son ucunu xatırladan qəbirsanlıqdan tez uzaqlaşmağa çalışırdılar…

Elmar həsir zənbildə ehsan, yuxahalvası paylayan oğlanla qarşılaşmamaq üçün yolunu dəyişdi. Şəriətə görə (eh, şəriət, şəriət) ehsan nə qədər çox yeyilsə, savabı bir o qədər artıq olardı…

- Ə, o halvadan bura da gətir. - Kimsə səsinin yoğun yerinə salıb ehsan paylayanı çağırdı.

Elmar səsə tərəf çöndü. Gödək, xaşalqarın kişi çatırışı halva dürməyinin üçünü birdən qamarladı…

Maşınlar sürüşkən yolda ağlı başından çıxmış kimi oynaqlayırdı...

Əmir kişi əməlli-başlı havalanmışdı.

- Heç inanılasıdı, özün öz əlinlə apar qoy qara torpağa, üstünü də torpaqla, qayıt gəl... A zalım qızı, pəncərə örtüləndə evdəkiləri qırıb-çatdırdın ki, nəfəsim daraldı. Bəs indi o qaranlıq dünyada, torpağın altında neyniyəcəksən?.. - Hönkürüb zülüm-zülüm ağladı.

Elmarın səhərdən qupquru quruyan gözlərindən yaş bulaq kimi çağladı…

* * *

Mağarın qabağında maşından töküldülər. Elmar açıq darvazadan içəri boylandı. İş-güc dalınca ora-bura tələsən qız-gəlindən savayı gözünə kimsə dəymədi. Elə bilirdi maşın dayanan kimi aləm bir-birinə qarışacaq. Arvad-uşaq Əmir kişinin yaxasından yapışıb Qətibə arvadı tələb edəcək: ″Hanı, neynədin bizim anamızı?..″

Taleyin oyunu ilə barışana oxşayırdılar. Belə tezmi?..

Birdən Elmar ikinci mərtəbədəki ağlaşmanın içindən açıq-aydın Qətibə arvadın səsini eşitdi. Ona elə gəldi ki, bu saat yuxarı çıxsa, Qətibə arvadı yenə əvvəlki kimi öz ağappaq yorğan-döşəyində xanım-xatın yastığına dirsəklənmiş görər…

Çay içib qızışmaq üçün çayçıya yaxınlaşdı. Samovara od salan, stəkan-nəlbəkini yaxalayan oğlan Elmarı qabaqladı.

- Elmar dayı, bayaq səni axtarırdılar…

Arvadının sancısı tutmuş, bacısı doğum evinə qaçırtmışdı...

* * *

Elmarın bacısından başqa baldızı da gözləmə otağındaydı.

- Nə xəbər var?.. - Çatan kimi onları sorğu-suala tutdu.

- Belə də, gözləyirik, hələ sakitlikdi…

- Anasının öldüyünü bilir?.. - Ən çox bundan qorxurdu.

- Yox. - Baldızı qeyri-ixtiyari axan göz yaşını sildi. - Bunu indi ona demək olar?..

- Dedim, bəlkə hardansa eşidib…

- Sağ-salamat qurtarsın, sonra deyərik... - Elmarın bacısı dedi.

Skamyanın bir küncündə büzüşdü. Dəfn mərasiminin təsiri altındaydı. Fikirləşirdi ki, ulu təbiət insanla həddən artıq sərt, ədalətsiz davranıb. Ölümlü yaratmışdı yaratmışdı, gərək itimli etməyəydi. Bir mö'cüzə ilə (hər şeyə qadirdi axı!) bu cəhətini də başqa canlılardan fərqləndirəydi. Əcəli çatanda insan nəsə balaca, qəşəng, sevimli bir heykələmi, balıqqulağınamı, nə bilim nəyəmi çevriləydi. Torpağa gömülməyə, basdırılmayaydı. Onları yığıb saxlaya, əzizləyə, istədikləri vaxt hansı formadasa ünsiyyətdə olaydılar…

Yorulduğuna görə gözləri tezcə yumuldu. Qəribə bir yuxu gördü. Ölənləri daha torpağa tapşırmırdılar. Onlar cürbəcür sevimli əşyalara çevrilir, əbədiləşirdilər. Ölüm ölümlüyünü itirərək bütün dəhşəti, müdrikliyi ilə bərabər özü ölmüşdü. Lakin biabırçı bir vəziyyət əmələ gəlmiş, əziz, sevimli əşyalara qarşı qəribə laqeydlik, sayğısızlıq yaranmışdı. Onlar çox urvatsızlaşmışdı. Eləsi vardı qızıla, gümüşə tutulub göz üstə saxlanılırdı. Eləsi də vardı axşamacan ayaqlar altında təpiklənir, zibillikdə küllənirdi. Uşaqlar küçədə onları bir-birinə salbalayırdılar. Böyüklər hörmətlilərini bir-birinə hədiyyə kimi bağışlayır, hətta qazanc məqsədi ilə alıb-satırdılar…

- Elmar, ay Elmar!.. - Bacısı qolundan dartıb oyatdı.

- Nədi?.. - Yuxulu-yuxulu gözlərini ovdu. - Qurtardı?..

- Hə! Ata olmağın münasibəti ilə səni təbrik edirəm!..

- Oğlandı, qız?.. - Sözgəlişi soruşdu. Oğlan oldu, qız oldu, onunçün fərqi yoxdu. Əsas oydu ata olmuşdu.

- Qız…

Elmar sevindiyindən bacısını qucaqlamaq, xoş xəbərə görə öpmək istədi. Amma baldızının yaxınlaşdığını görüb özünü yığışdırdı. Anası ölənin yanında sevinmək günahdı.

- İçəri, yanına buraxacaqlar?.. - Soruşdu.

- Görək də, medsestra söz verib. - Baldızı dedi…

* * *

Qapıdan girəndə Aynurə başını yastıqdan qaldırıb qalxmaq mənasında yatağında qurcalandı. O saat hərəsi bir tərəfdən dilləndi:

- Lazım deyil, tərpənmə, tərpənmə…

Görkəmi üzgündü. Rəngi-ruhu gül kimi solmuşdu…

Şəfqət bacısı körpəni gətirib göstərəndə bacısı Elmarın qulağına pıçıldadı:

- Bələyinə pul sancarsan, adətdi…

Yaxşıca bələnib bükülmüş bu canlı, qırmızımtıl ət parçası hələ Elmarda özünə qarşı güclü doğmalıq hissi oyatmaq iqtidarında deyildi.

- Nədi, qızdı deyə bikefləsdin?.. - Aynurə Elmarın soyuqluğunu öz bildiyi kimi yozdu.

- Yox, qətiyyən!.. - Elmar ürəkdən dedi.

- Görürəm də, sevinən adama oxşamırsan. Elə hamınız gözümə birtəhər dəyirsiniz...

- Qız da, oğlan da allahın payıdı, bacım. Sevinir, ürəkdən şadlanırıq!.. - Zorla gülümsəyərək Aynurəni öpən baldızı göz yaşlarını saxlaya bilmədi.

Elmar boğazına tıxanan qəhəri güclə udub üzünü yana çevirdi.

- Axı sizə nə olub belə?.. - Aynurə nəsə duymuş kimi təəccübləndi.

- Fikir vermə… - Elmarın bacısı onu azdırmağa, aldatmağa çalışdı. - Hamısı sevindiklərindəndi…

Aynurə inanıb sakitləşdi. Qapıdan çıxanda üzünü Elmara tutub yanındakılardan utana-utana yavaşca dedi:

- Qızımıza yaxşı bir ad fikirləşib taparsan.

- Tapmışam… - Elmar titrək səslə dedi…

Yaxşı ki, Aynurə hansı adı tapdığını soruşmadı. Onsuz da Elmar indi deyə bilməyəcəkdi…

Bayırda həm soyuq, həm də qaranlıqdı. Maşın ayağına qədər uzanan məsafə qısa olsa da beyrahatdı. Ehtiyatsız tərpənib ayağını səhv atsaydın ya palçığa batacaq, ya da sürüşüb üzü təzəcə qaysaqlanan gölməçəyə düşəcəkdin. Bu, gündüz yağan qarın fəsadlarıydı. Əriyib hər tərəfi batırmışdı.

Yaxşı ki, doğum evinin işıqları gurdu. Maşın yolunacan hər tərəfi işıqlandırırdı...

## Qaydasız döyüş

Samir qapının ağzında iki gündən bir kleylətsə də burnu təzədən aralanan ayaqqabılarını geyinərkən təsadüfən içəridə, evdə arvadı ilə qızı arasında gedən xoşagəlməz danışığın şahidi oldu.

- Ana, corablarıma bax...

- Nəyinə baxım, qızım?.. - Başından eləmək istədi.

- Neçə yerdən süzülüb, dabanı da deşilib...

- Neyniyim, bala, atayın qazancı qarnınızdan artmır... - Arvadı boğaza yığılmış, bezib-usanmış adam kimi donquldandı.

- Demişdin, təzə sumka alacaqsan, almadın.. - Qızının dünya vecinə deyildi. - Sinif rəhbərimiz üç məmməd pul istəyəb, barı onu ver... - Elə bil bütün dərdi-odu elə bu günə, bu saata qalmışdı.

Səsini içinə salıb gözlədi ki, arvadı indicə əsib-coşacaq, qapını açıb “gəl qızına cavab ver!”, deyəcək. Haqqı da vardı. Ailə başçısı kimi belə şeylərə ilk növbədə Samir cavabdehdi. Onun qazancından asılıydılar...

Yadına düşdü ki, oğlu neçə vaxtdı pul-para adı tutmur, nə əcəb? Oğlan ola, qızdan iki sinif yuxarı, altıda oxuya, xərclik istəməyə, inanılası deyildi...

Qapıdan oğru kimi, dinməz-söyləməz çıxdı. Əvvəllər gediş-gəlişi bilinərdi. Evə gələndə arvadı gülərüzlə qarşılayar, xoş dindirər, gedəndə üst-başına, səliqə-sahmanına xüsusi diqqət yetirər, ayaqqabılarını silib yola salardı... Gözəl günlərdi! Sanki nağıl, əfsanəydi, heç olmamışdı. Yoox, vəzifəsi-zadı nəəzirdi! Ali təhsilli adi

mühəndisdi. Amma maaşı ailəsini dolandırırdı. Əlavə ordan-burdan xırda-xuruş əl-qapı da vardı... Hə, "Jiquli"ni bəs nəynən artırıb almışdı? Üstəlik arvadı da işləyirdi! Bağçada musiqi (piano) müəllimәsiydi. Arvadı işləməyə-işləməyə (iş yoxdu) maaşını "donmuş maaş" adı ilə indi də alırdı. Lakin hökumətin verdiyi o üzdəniraq maaş və "çörəkpulu" deyilən dilənçipayı (qaçqınpayı) qəpik-quruş ikisi birlikdə aylıq yavan çörəklərinə güclə çatırdı... Əsas özüydü. Ölkədə qarmaqarışıqlıq, müharibə başlayandan kişilərin əksəriyyəti kimi işsiz qalmışdı. Düzdü, bəziləri kimi əli qoynunda evdə oturmamışdı, ailəsini "xalturaynan" birtəhər dolandırmağa çalışırdı. Di gəl maşını neçə ilin köhnəsiydi, istədiyi kimi əl vermirdi. Nə qədər düzəltdirsə, yaxşı baxsa da get-gedə özü kimi tökülüb-itirdi... Eh, guya arvadı yönnü vəziyyətdəydi?.. Bir vaxt altdan-üstdən geyinib bəzənəndə, vallah, padşah qızına, şahzadəyə oxşayardı! Allah ermәninin bəlasını versin, bu boyda qaçhaqaç, qovhaqov zarafatdı?.. İntəhası Bərdənin, Ağcabədinin çadır şəhərciyində (başın sağ olsun, Vətən, demə, göstərmə işdəklərin, şəhərlərin irəlidəymiş!) məskunlaşan qohum-əqrəbanının gün-dirliyini, yaşayışını gözlərinin qabağına gətirdikcə allahlarına şükür eləyirdilər. Su, qaz, işıq yox, qışı qar-çovğun, palçıq, yayı da cəhənnəm istisi, ditdili...

Samirgil tez aradan çıxmış, neçə yer dəyişəndən sonra Bakıda, bu uşaq bağçasında bənd almışdılar. Bir otaq olsa da meydan kimi genişdi. Adyalla neçə arakəsmə eləmişdilər. Bağçada tək deyildilər. Kəlbəcərli, zəngilanlı, cəbrayıllı... qaçqın damğasıynan qaynayıb-qarışmışdılar. Arabir müəyyən idarə və təşkilatlar baş-beyinlərini aparır, hədə-qorxu gəlirdilər ki, otaqları boşaldın. Amma necə boşalda, hara gedəydilər?..

Binanın qabağında, açıq havada saxladığı maşının böyür-başına keçdi, təkərlərinə, yan güzgülərinə-filana baxdı. Qapısını açıb əyləşdi. Açarı salıb buran kimi benzinin qırmızı işığı ac yalquzaq gözü tək işıldadı. Demək, bakdakı benzindən fatıya tuman çıxmazdı...

Cəbrayıllı Tahir həyətin o başında saxladığı "Zil"in kabinkasında qurdalanırdı. Mühərrikin qızmağını gözləyib maşını ora sürdü.

- Salam, qonşu. Sabahın xeyir!

- Ay aqibətin xeyir, qardaş! - Tahir uzunşüllə, keçəl başını bayıra çıxartdı. - Benzin lazımdı?.. - Bunu bilmək üçün telepat-filan olmağa ehtiyac yoxdu.

- Hə, varındı?..

Tahirin satdığı benzin ucuzdu. İntəhası neçəsi neçə yerdə neçə əməl eləyir, içinə qatqar qatırdı... Amma ona qalsa benzindoldurma məntəqələrindəki də heç təmiz deyildi. Üstəlik od qiymətinəydi. İnsafına tulanı bağladığı hökumət özü neft çıxarda-çıxarda ilin-günün bu vədəsində yanacağın qiymətini çox bahalaşdırmışdı. Qancıq eşşək balasını almayan kimi guya ac-yalavac, köçkün-qaçqın bundan deyildi...

- Sənsən də, bir kanistir düzəldərəm...

Minnətli çıxsa da Samir üstünü vurmadı.

Tahirin dediyinə görə, "Zil" özünündü, qaçhaqaçda girəvələyib özəlləşdirmişdi. Bakının harasında, hansı idarəsindəsə işə düzəlmişdi. Ancaq iş-gücünün adı məlum deyildi. Gün axşamacan orda-burda özü kimi bekarlarla domino çırpırdı. Arada bir maşınını tırıldadır, harasa dəyib qayıdırdı, benzini hazırdı. Hardan? Necə?.. Sirri-xudaydı.

- Qonşu, amma üzürlü say, nağd pulum yoxdu, ha...- Samir tər əvəzinə ətindən ət tökdü. - Borcumu axşam ödəyəcəyəm...

- Əşi, ayıb sözdü, qaçmırıq ki... - Tahir dildə belə desə də Samirə nəsə bir cür, dəvə nalbəndə baxan kimi baxdı. Bəlkə də ona elə gəldi.

Samir dünən bütün günü maşını ora-bura qovsa da düşərli müştərisi olmamışdı. Axşamtərəfi təkəri partlamiş, qəpik-qəpik yığdığı benzinpulunu da aparıb limdaş bir təkərə vermişdi...

Uşaq bağçasının tinindəki həyətin yanından ötəndə Mənzər arvad gözünə sataşdı. Maşını tanıyıb qapının dalında daldalandı.

Bura təzə gələndə Mənzər arvad qaçqınlara pis üz göstərmişdi. Nədi-nədi bir-iki dəfə qanmaz uşaqları hasarını aşmış, mer-meyvəsini ala-göy yoluşdurmuşdular.

- Qaçqın köpəyuşağı, - Mənzər arvad yaşına, ağ birçəyinə yaraşmayan, mənliklərinə toxunan sözlər işlətmişdi, - yerinizi-yurdunuzu satdınız ki, gəlib burda şəhid ailəsinin bağını kor qoya, boğazına şərik çıxasınız?..

Arvadlar dillənmək istəyəndə Samir təpinmişdi ki, baş qoşmayın. Qocalıb, ağlı azalıb, nə danışdığını bilmir. Bu taleyin oyunu, qismətiydi...

Mənzər arvad həyətinin ayağında, yol qırağında bir toyuq hini qaraltmışdı. Allahdan olan kimi günlərin bir günü yolsalanlar onu uçurdub yerini asfaltlamışdılar ki, plana düşüb. Mənzər arvad çox çığırıb-bağırmış, şəhid anası kimi ora-bura, icra hakimiyyətinə-zada qaçmışdı. Xeyiri olmamışdı.

- Axı mən onu dişim-dırnağımla zorla düzəltmişdim... - deyib küçənin ortasında zülüm-zülüm ağlamışdı.

- Görürsən, qarı nənə, - Tahirin arvadı dözməmişdi, - imanını yandırıb bizi satqınlıqda günahlandırırdın. Zəhmət çəkmisən, özüyündə deyə bir dılğır hinə görə bu qədər göynəyir, qan-yaş tökürsən. Bilirsən ki, hər nədisə onu təzədən qondarmaq çətindi. Anamız ölsün, bəs onda biz neyniyək? Gedən mal-mülkümüzü, var-dövlətimizi görsəydin, havalanardın. Yolunda ömrümüzü-günümüzü çürütmüşdük. Öz xoşuna onları kim dəyişərdi bu quru daşa-divara, türmə kimi qutu evlərə?.. - Sonra da kövrəlib bərkdən hönkürmüşdü...

Ayıbına qısılan Mənzər arvad səsini udmuş, ağ-qara dillənməmişdi...

Samir əsas yola çıxanda səkidə dayanmış qonşusu Təzəgülün ona əlini qaldırdığını gördü. Maşını ayağının dibində saxladı.

- Sabahınız xeyir. - Gülə-gülə qapını açıb qabaq oturacaqda əyləşdi. Nədənsə qadın xeylağının arxa oturacaq boş ola-ola irəlidə, sürücünün yanında oturmasına adi, normal hal kimi baxa bilmirdi. - Nə yaxşı gördünüz?.. - Eyhamla dedi.

Təzəgül geyim-kecimi, bəzək-düzəyi ilə nə üç uşaq anasına, nə də qaçqın-köçkünə oxşayırdı. Gözəldi. Təbiət bu cəhətdən səxavətini ondan əsirgəməmişdi. Di gəl haqqında pıçıltıynan danışırdılar. Ayağı sürüşkəndi...

Əri tökülüntükdü, ona heç yaraşmırdı. Buyruq quluydu, bazarın qabağında dayanıb onun-bunun buyruğuna baxır, yükünü daşıyır, işini görürdü. Nə versəydilər, qaneydi. Guya ali təhsilliydi. Hətta deyilənə görə, yerində-yurdunda vaxtıynan vazifə sahibiymiş...

- Niyə görmürəm?.. - Samir Təzəgülün atmacasını cavabsız qoymadı.

- Nə bilim, dedim, bəlkə bəziləri kimi sən də...

- Hara gedəcəksən?.. - Samir onun sözünü yarımçıq kəsdi. Artıq-əskik danışmağına imkan vermədi.

Təzəgül:

- Hara istəsən, hara aparsan, ora... - deyib qaş-gözünü süzdürdü, qəribə bir əda ilə güldü.

- Necə yəni?.. - Samir karıxdı.

- Qorxdun?.. - Təzəgül bu dəfə bərkdən şaqqıldadı. - Hara gedəcəyəm, qazanc dalınca. Səhər açılanda hamı hara gedir?..

- Hardasa işləyirsən?.. - İnanmasa da soruşdu.

- Qonşu, televizorda heç qaydasız döyüşə-zada baxmısan?..

- Hə, gərək ki, bir-iki dəfə baxmışam... - Samir bilmədi bu idman növünün mətləbə nə dəxli var?..

- Bax, bizim həyatımız o qaydasız döyüşə bənzəyir. Kim necə bacarır, o cür də yaşayır. Utanıb-çəkinmədən, heç bir qayda-qanun gözləmədən. Nəyin bahasına olur-olsun birtəhər vəziyyətdən çıxmağa məhkumsan. Rinqdəki kimi. Heç kim heç nədən sığortalanmayıb. Nə də bu oyuna özxoşuynan girməyib...

- Aydındı...

- Xətrinə dəyməsin, qonşu, - Təzəgül söhbəti yenə asanca başqa istiqamətə yönəltdi, - pulgir, xəsis adama oxşayırsan. Uşaq olsa da oğlun səndən səxavətli, əliaçıqdı...

- Nədən bilirsən?.. - Samir üçün bu əsl sürprizdi.

- Bunu bilməyə nə var! Oğlun axşamacan məhlədə uşaqlara saqqız paylayır, marojna qonaqlığı verir, sağa-sola pul xərcləyir, sən də bütün günü cıdır atı kimi qazanc dalınca ora-bura çapırsan. Gözün doymur?..

- Zarafat eləyirsən?.. - Samir ürəkdən güldü.

- Camaat hamısını görür...

- Axı nəyi görür?.. Bu maşınım, bu əyin-başım...

- Doğrudan, elə bilirsən heç nə başa düşmürük? Bunlar hamısı faqqılıq, gözdən pərdə asmaqdı. Mənzər arvadın o boyda ev əşyalarını satın aldınız. Xaladennik, şkaf, şifoner, pianino, gəbələr... Bəlkə havayı bağışladı?..

- Belə de... - Samirin matı-qutu qurudu.

Hə, demək, Mənzər arvad məsələni bu cür qurub-qoşmuşdu. Bir yana baxanda qınamalı deyildi. Axı özgə nə deyəydi?..

- Öz işindi, qonşu. Amma bu beşgünlük dünyada adama qalan kef-damaqdı. - Təzəgül istilənmiş kimi yaxasını-başını açdı, yubkasının ətəyini yuxarı dartdı.

- Bəlkə də haqlısan... - Samir dedi.

- Yaraşıqlı kişisən.. - Təzəgül birinci dəfə görürmüş kimi Samiri başdan-ayağa müştəri gözüynən süzdü. - Yaxşı geyinib-kecinsən, üstəlik bir qalstuk da bağlasan tayın-bərabərin olmaz.

- Komplementə görə təşəkkür edirəm. Amma mənim daha o vaxtım deyil, qocalmışam...

- Mənə yox də!.. - Təzəgül gülə-gülə göz vurdu. - Bəlkə bir özünü sınayasan?..

- Anlamadım... - Nəyi olsa da Samir bunu heç gözləmirdi.

- Deyirəm, bəlkə bu günümüzü birlikdə keçirək, hə? Qorxma, çox xərcə salmaram...

- Hə, çatdı... - Nədənsə əməlli-başlı utandı. - Vallah, pulum olsaydı, elə-belə də bağışlayardım sənə... - Sözlərinin pis çıxıb-çıxmayacağını fikirləşmədi.

- Mən dilənçi deyiləm. Sədəqəyə də ehtiycım yoxdu.

- Bəs ərin bu işlərə necə baxır, Təzəgül xanım? - Əbəs yerə birdəncə onu utandırmaq fikrinə düşdü.

- Necə baxacaq, normal... - Qadın adi bir şey eşidibmiş kimi gözünü belə qırpmadı.

- Doğrudan?.. - Samir inanmadı. - Yəni nəynən məşğul olduğunu bilir?..

- Qonşu, ağız verilib yeməyə. Dünya beşgünlük, ərim də fərasətsizin biri, neynəməliyəm?.. - Səsində əsəbilik vardı. - Əvvəl bir az çəm-xəmlədi, sonra tasa-pasası yatdı. - Güzgüsünü çıxardıb güzgüləndi. - Yaxşı, uzun sözün gödəyi, görürəm səndən kar aşmayacaq, havayıdan vaxt itirməyə dəyməz. Məni Azneft meydanına at, qayıt...

* * *

Bazarın qabağında boş yer tapıb yan aldı. "Taksi"sini maşının damına yapışdırmaq istədi, fikrindən daşındı. Son günlər vergi işçiləri onu bərk qaralamışdı. Lisenziyasının müddəti bitmişdi. Yenə onsuz ilişəndə deyərdi, elə-belə dayanmışam, yaxın adamımı

gözləyirəm. Düzdü, “Taksi”siz də hər müştəri maşına yaxınlaşmırdı. Ümid tanış-bilişə, köhnə müştərilərinəydi...

Gözünü bazarın qapısından zənbilli, əlidolu çıxanlara dikmişdi. Ofsunçu kimi baxışlarıynan tutub allah-allahla, ürəyi əsə-əsə maşınınacan gətirirdi, lap son anda çönüb təzə, bahalı, gözəgəlim, daha rahat maşınlara əyləşirdilər. Onları başa düşür, qınamırdı. Eyni xərcdi, pullarını rahatına, yaxşısına verirdilər... Özü ürəyi yuxaydı. Bazara girəndə hansı piştaxtanın arxasında yazıq, kasıbtəhər görürdü, bazarlığını, alış-verişini həmin adamla eləyirdi...

Naharacan ikicə nəfər yaxınlaşdı. Biri sərxoşdu. Minəndən sonra yolda bildi. Yoxsa götürməzdi. Sərxoşlardan zəhləsi gedirdi. Dediyi ünvan qaldı bir tərəfdə, neçə yerə sürdürdü, axırda da üç min manat verdi. Cibini çevirdi ki, yoxumdu, vur öldür. Heç yandırdığı benzinin haqqı eləmirdi...

O biri ucaboylu, pəzəvəng bir gəncdi. Əsgər paltarı geyinsə də xidmət eləyənə oxşamır, necə deyərlər, sir-sifətindən əsgərlik yagmırdı. Beş min manata danışmışdılar, düşəndə cibindən göy, şax bir əlliminlik çıxartdı. Deyəndə ki, xırdam yoxdu, xırda ver, kinayə ilə qımışdı.

- Yekə kişisən, - dedi, - əlliminlik nədi, onu xırdalaya bilmirsən...

Ha ora-bura boylandılarsa tərslikdən kimsə gözə dəymədi. Yaxınlıqda dükan-filan da yoxdu. Oğlan təzədən ciblərini eşələdi. İki dənə əzik-üzük min manatlıq tapıb ona tərəf uzatdı.

- Olanım budu, - deyib binada gözdən itdi.

- Ayə, ay bala... - Arxasınca çağırdı, qayıdıb baxmadı da.

Əsgərin hərəkəti qaçqınçılıqdan əvvəl başına gələn bir əhvalatı yadına saldı.

Ermənilərin qrad qurğuları rayon mərkəzini hər gün bombalayırdı. Bakıda, orda-burda ev alan, ev tikdirən ailəsini köçürtmüş, ayın-oyununu süpürgəsinə qədər daşıtmışdı. Qonşu rayonda, ucqar kənd-kəsəkdə qohum-əqrəba, tanış-biliş evinə müvəqqəti sığınan da çoxdu. Əlsiz-ayaqsızlar, kimsəsizlər allahümidinə elə odun-alovun içində, evlərindəcə oturmuşdular. Bomba atılandan-atılana qaçıb geniyir, ara sakitləşəndə yenə qayıdırdılar ev-eşiklərinə. Rayon rəhbərləri yuxarıların dilincə inandırmağa çalışırdı ki, şəhər təslim

olmayacaq. Sözlərinə qüvvət kimi müəssisə və idarələri məcbur edirdilər ki, işləsinlər. Hər atılan mərmi yalnız ev-eşik uçurtmur, eyni zamanda kiminsə ömrünə son qoyurdu. Ölən-itənin səs-sorağı o biri gün çıxırdı. Axşamlar şəhərdən ailəsinin üstünə sağ-salamat qayıdanı arvad-uşağı toy-bayramla qarşılayırdı...

Samirin evi şəhərdə təpili-tıxalı dururdu. Ayın-oyundan ehtiyacları qədər, yüngülvari götürüb ucqar kənddə, dostugildə qalırdılar. Gündəlik də olmasa iki gündən bir ev-eşiklərinə baş çəkirdilər. Hər dəfə insan ayağına həsrət qalan kimsəsiz, alaq-ulaq basmış məhlələrinə, yol-rizə, yetim kimi sıralanmış boynubükük evlərə, qapılara baxanda Samir kövrəlirdi...

Bir gün hələ evlərinə çatmamış arvadı uzaqdan baxıb heyrətlə:

- Darvazamız açıqdı, - dedi.

Yaxınlaşanda Samir gözlərinə inanmadı. İçəridə yük maşını dayanmışdı. Həyətdə əsgərlər o tərəf-bu tərəfə vurnuxur, ev əşyalarını maşına daşıyırdılar.

“Jiquli”sini bayırda saxladı. Dabanqırma içəri girdilər. Yuxarıda, eyvanda amiranə dayanmış cavan zabit damağında siqaret əsgərlərə göstəriş verirdi.

- Bu nədi, a yoldaş?.. - Nə qədər təmkinli olmağa çalışsa da həyəcandan Samirin səsi titrədi.

- Baho, siz hardan çıxdınız? - Zabit onları qəfil görüb karıxdı. Əsgərlər də yerlərində donub qaldı. Zabit özünü düzəldib onlara acıqlandı. - Siz işinizdə olun, uşaqlar! - Sonra üzünü Samirə tutub dedi: - Ağsaqqal, ermənilər yaxınlaşır, evimi köçürdürəm. Bunlar da soldatlarımdı...

- Siz dəli olmusunuz-nədi? Bu ev-eşik bizimdi. Nə cəsarətlə evimizə soxulmusunuz?..

Zabit dinmədi. Siqaretini çırtma ilə kənara tullayıb pillələri yavaş-yavaş yendi. Bərabərləşəndə spirtin iyi Samiri vurdu.

Həyətdə, tut ağacının aitında stol-stul düzülmüşdü. Ətrafa boş butulkalar, konserv qutuları atılmışdı. Görünür, zabit əsgərləri üçün əvvəlcə qonaqlıq düzəltmişdi.

- Hirslənmə, ağsaqqal, - gözü-başı qaynayan zabit əsəbi şəkildə güldü. - Neynək, sizindi, sizin olsun. Fikirləşdik ki, erməni özünü

yetirib, düşmənə qalınca... Nə paxıllıqdı? Haqqımız da çatır, vuruşuruq, qan tökürük...

- Yaman da vuruşursunuz...

- Müharibədi də, ağsaqqal. Verərik də, qaytarıb alarıq da...

- Axmaq-axmaq danışmayın… - Arvadı birdən partladı. -Şeyləri qaytarın yığın yerinə, çıxın həyətdən!..

- Bizimlə belə danışmayın, ay bacı. - Zabit arvadına tərəf çöndü. - Əziyyətlə çıxartmışıq. Hara istəyirsiniz, aparaq boşaldaq, yüngülvari hörmətimizi eləyin, vəssalam...

- Rədd olun!.. - Arvadı qəzəblə bağırdı. - Orduma bir bax, erməni qalıb orda, evləri soyurlar...

Samir əsgərlərimizin soygunçuluğu haqqında eşitmişdi. Lakin belə bir şeyin haçansa başına gələcəyinə inanmazdı.

- Uşaqlar, tez bunların əl-ayağını sarıyın! - Zabit birdən əsgərlərinə əmr etdi.

Samirlə arvadını sarıyıb yan-yana uzatdılar. Evlərini maşına yükləyib apardılar. Qaranlıq qarışanda sarıqlarını birtəhər açdılar. Maşına oturub qaçdılar. Arvadı keçirdiyi stressdən üç gün yataqda yatdı. Samir məsələni komendanta, ora-bura xəbər verdi. Elə bu zaman ordu şəhəri düşmənə təslim etdi. Hər şey unuduldu...

Hadisənin üstü hərlənib-fırlanıb bu yaxınlarda gözlənilmədən, necə deyərlər, öz-özünə açıldı. Arvadı Mənzər arvadın xahişi ilə nəvəsini pianinodan hazirlaşdırmalıydı. Musiqi məktəbinə qoymuşdular, keçilənləri qavramırdı. Evdə pianosu da vardı...

Arvadı otağa girəndən özünü nəsə bir cür hiss edirdi. Divardakı gəbələr, ayaqaltılar, şkaf, şifoner, bir sözlə, gözəgəlim əşyaların hamısı ona tanış gəlirdi. Pianinoya yaxınlaşanda yerində dondu. Əyilib altına baxdı. Orda adı yazılmışdı. Atası pianinonu bacısıynan ona cüt almışdı. Dəyişik düşməsin deyə hər ikisinin altına adlarını yazdırmışdı.

- Yaxşı pianodumu?.. - Gəlin heç nədən şübhələnmədən arvadından soruşdu. Birdən onun rənginin qaçdığını görüb özünü itirdi. - Sizə nə oldu?..

- Bu piano sizdə hardandı, ay bacı?.. - Arvadı maraqlandı.

- Rəhmətlik oğlum alıb, - Qapının ağzında dayanmış Mənzər arvad cavab verdi.

- Bu mənim cehizimdi, ay xala, mənim!.. - Arvadı həyəcanla dedi.

- Ola bilməz!.. - Mənzər arvad üzünə qabardı.

Arvadı pianinonun üst qapağını qaldaırdı.

- İnanmırsınız? Neynək, indi görərsiniz, bu küncdə mən öz gizdəncimi saxlayardım. - Əlini uzadıb ordan ölmüş rus pullarını çıxartdı. Ovcundaca gözləri qaralıb yerə çökdü.

Üzünə su vurub onu birtəhər ayıltdılar. Arvadı əhvalatı ətraflı danışdı. Gəlin ərinin şəkillərini gətirdi. Arvadı şəklə baxan kimi zabiti tanıdı. Sonrakı döyüşlərin birində minaya düşüb həlak olmuşdu...

Mənzər arvad, gəlini arvadının ayaqlarına döşənib yalvardılar ki, şeyləri qaytarmağa hazırdılar, təki bu sirri açıb-ağartmasınlar...

* * *

Nahara gecikmişdi. Hardansa axıdan radiatorda su azaldığına görə mator qızdırırdı. Əngəl çıxartmamış qapağını açıb başını doldurdu. Özü ac-susuz hərləndiyinə baxma, maşın maşındı. Qaydasız döyüş-filan hərrəmirdi...

Arvadı yeməyini tələsik çəkib getdi. Paltar yuyurdu. Çörəyə əlini uzadanda baxdı ki, qaşıq yoxdu, yaddan çıxıb. Dinməz-söyləməz durub gətirdi. Nəyisə tələb etməyə, istəməyə üzü yoxdu. Ona görə ki, özü bir ailə başçısı, ər, ata kimi öhdəsinə düşəni layiqincə yerinə yetirə bilmir, əyin-baş cəhənnəm, yemək-içməklərini belə düz-əməlli çatdırmırdı...

Yeyə-yeyə televizoru yandırdı. Bir müxbirin müsahibəsini verirdilər. İki xarici vətəndaşı (almandılar) dindirirdi. Ər-arvad işsizdi. Təzə evlənmişdilər. Əmək birjasında növbədəydilər. Ancaq oturduqları divan-kreslo, ev-eşik adamın ağlını alırdı. Müxbir soruşurdu ki, nəynən dolanırsınız? Deyirdilər, hökumət müavinət verir. Bu müavinət onların nələrinə çatmırdı, ilahi! Yeməklərinə, içməklərinə, ev kirayələrinə, əyin-başlarına...

Müxbir təzədən qayıtdı ki, (sanki qəsdən, görk üçün) verilən müavinət daha nəyə çatır? Dedilər, kinomuza, konsertimizə, qəzet-jurnalımıza...

Bay qibləsizlər! Bunnan hələ bir narazıdılar da! Samir (tək omu?) bütün günü özünü oda-közə vurur, bir çörəkpulunu zorla çı-

xarırdı... Sonra da başqa ölkələrə qaçanları qınayır, onlara pis baxırlar. Kaş cavan, həm də subay olaydı! Bu yaşda neynəsin? Arvad-uşağına yazığı gəlirdi...

Bütün ömrünü elə hey nəsə gözləmiş, ümidlə yaşamışdı. Axırı da belə... Səsini qaldıran kimi deyirdilər, dinmə, müharibə vəziyyətindəyik. Nə müharibə kimi müharibəydi, nə də sülh kimi sülh, hər ikisindən avaraydı. Nə qədər susmaq olar? Bəs alman köpəyuşağı müharibədən çıxmamışdı? Darmadağın dağıtmışdılar. Tez də hamısını düzəltmişdilər. Neftləri yox, qazları yox... Bizim başda oturanlarımız da yalnız özlərinə gün ağlayırdılar. Hamısının cibləri dolu, qarınları tox, yerləri də isti, rahatdı...

O tərəfdə qapı cırıldadı.

- Ana, çörək alıb gətirdim. - Oğlunun səsiydi.

- Sağ ol, ay bala. Huşum kəsməyib heç, evdə paltar paraşoku, qənd də yox imiş...

- Alım gətirim?..

- Pulun qalıb?..

- Hə...

- Qaqaş, noolar, mənə də bir məmməd ver də. - Bu da qızının səsiydi.

- Bir də sözümdən çıxmayacaqsan ki?..

- Qaqaşcanı, yox! - Qızı and içdi.

- Onda, tut...

Samirin qulağı səsə düşmüşdü-nədi? Oğlunda bu qədər pul hardandı? Təzəgül doğru deyirmiş ki!.. Bu da evdən səhər çıxıb axşam qayıtmağın nəticəsi. Əvvəl hamının işi-gücü bəlliydi. Böyük-kiçik sayan vardı. Savadlı-savadsız, işləyən-işləməyən, indi hamı boyaqçı küpündən çıxmış kimi bərabərdi. Aləm qarışmışdı bir-birinə. İt yiyəsini tanımırdı...

Molladan soruşurlar, səhər duranda niyə hərə bir tərəfə gedir? Deyir, hamı eyni tərəfə getsə, dünyanın o tərəfi əyilər. Vallah, billah, dünyanın onlar yaşayan tərəfi əyilmişdi...

Girəvələyib arvadını təklikdə yaxaladı.

- Bu nədi, ay arvad? Uşaqda o qədər pul hardandı?..

- Xəbərin yoxdu?.. - Arvadı bic-bic güldü.

- Nədən?.. - Soruşdu.

- Bilirsən, kişi, oğlumuzun bir sinif yoldaşı var. Eyni partada otururlar. Atası kommersantdı. Oxuyan zibil deyil. Şərtləşiblər ki, ev tapşırıqlarını gündəlik oğlumuzun dəftərindən köçürəcək, əvəzində üç şirvan verəcək...

- Nə danışırsan, ay arvad? Bunun üstü açılsa?..

- Narahat olma, məsələni atası da bilir...

- Yox, bu yaxşı iş deyil...

- Sən allah, bəsdi. - Arvadı əsəbləşdi. - Qoy uşaq gözüaçıq, fərasətli böyüsün. İndi başqa zəmanədi...

"Bu necə zəmanədi, ilahi? Nə deyir, bu arvad?.."

## Q ə f ə s

Avtobus dayanan kimi düşüb hərəsi bir tərəfə dağılan sərnişinlər yan-yörədəki adamlara qarışaraq gözdən itdilər. Yad, özgə kimi qaynayıb-qarışmayan Tapdıq oldu. Çamadanını götürüb bir qırağa çəkildi. Maraqla ətrafa tamaşa etməyə başladı...

Əyalət vağzalı o qədər də böyük deyildi. Avtobuslar gələndən-gələnə bir qədər canlanır, tezcə də suyu sovulmuş dəyirmana dönürdü.

- Allah qoysa, hansı tərəfə gedəcəksiniz, ağsaqqal?.. - Tapdığı bayaqdan qaralamış taksi sürücüsü yaxınlaşdı.

Geyim-kecimi, təhər-tövrü, qərib görkəmi tükü tükdən seçən vağzal adamlarının nəzərindən yayına bilməzdi.

- Qismət olsa, Qiyaslıya gedəcəyəm, bacıoğlu. Hesabla belə bir kənd olmalıdı. Yəqin eşidərsən?.. - İlahi! Bu nə deməkdi? Necə yəni olmalıdı?..

- Eşitmişəm, ağsaqqal. - Sürücü nəzakətlə gülümsədi.

-Yol-yolağasına necə, bələdsənmi?..

Doğma yurda lap az qalmışdı. Əlini uzatsa, çatardı. Amma yenə taleyin yazı-pozusuna, oyununa ürəyi qızmırdı.

- Beş barmağım kimi! - Oğlan lovğalandı.

Müştəri kasadçılığıydı. Bir balaca zəif tərpənsə, böyür-başda ac qurd kimi hərim-hərim hərlənən, ondan keçməyən (birinci o, irəli durmuşdu) taksi sürücüləri bir göz qırpımında kişini ″qapazlayacaqdılar″. Ürəklərində Allaha yalvarırıdılar ki, kaş sövdaları baş tutmayaydı...

- Hə, nooldu, ağsaqqal?.. - Sürücü müsafirin duruxduğunu görüb məsələni nağdılaşdırmağa çalışdı. - Yoxsa kimisə gözləyirsiniz?..

Tapdıq:

- Yox, heç kimi gözləmirəm, - deyib çamadanını qaldırmaq üçün əyildi. Oğlan cəld tərpənib onu qabaqladı.

Bir az getmiş yolda sürücü dedi:

- Bizim yerin adamına oxşamırsınız, dayı. Danışığınız da nəsə ayrı cürdü… - Tez də fikirləşdi ki, dilavərliyi birdən müştərisinin xoşuna gəlməz. İnsandı də... Bir də, nəyinə lazımdı haralıdı, necə danışır?.. Buyruq quludu, hara buyururdular, maşınını ora da sürürdü. Təki haqqını kəsməsinlər…

- Yox, lap elə bu torpaqdanam, bacıoğlu… - Tapdıq əvvəlki şirin, qarışıq-quruşuq ləhcə ilə cavab verdi. - Amma zamanın dalğaları məni sahillərimdən çox uzaqlara atıb...

Adi müştəriyə bənzəmirdi. Əsgərlikdən gələnə, həbsxanadan buraxılana ilişəndə yolpulunu güdmürdülər. Muştuluğu, şirinliyi artıqlaması ilə bəs eləyirdi... Birinci dəfəydi beləsiynən rastlaşırdı. Ya qismət...

Tapdıq şəhərdən çıxanda sürücüyə tapşırmışdı ki, maşını asta sürsün. Yaddaşını sınamaq fikrindəydi. Onun hesabıyla doğma kəndi Qiyaslı xeyli aralıdaydı. Lap elə rayon mərkəzinə (artıq şəhər adlanırdı) bitişik olsa da. Sürücü isə deyirdi ki, üç-dörd kilometrlik məsafə, beş-on dəqiqəlik yoldu. Texnikanın inkişafı təsəvvürləri dəyişmişdi. Haçansa bu məsafəni piyada, yaxşı halda at, eşşək, arabayla (maşın nəəzirdi) qət edərdilər. Bağların, cəngəlliklərin arabərəsindən keçən dolama yollar çox beyrahatdı...

Ətrafdakı tikililərə, bağ-bağata acgözlüklə baxırdı. Körpünün qulağında maşını birdən saxlatdı. Sürücüyə nə lazım olduğunu soruşmağa imkan vermədən düşüb aşağı boylandı. Sonra:

- Bu, Kötəldimi, bacıoğlu?.. - deyə xəbər aldı.

- Qaraçavadı. - Sürücü səhvini düzəltdi. - Kötəl o biriydi, arxada qaldı...

- Doğrudan?.. - İnanmadı. Demək, o boyda çay qurumuş, sızqa bir arxa çevrilmişdi?.. - Axı gərək ki, Qaraçava böyük çaydı. Gur sulu, keçilməz... - Bunlar yaddaşında uyuyan uşaqlıq, ilk gənclik duyğuları, təəssüratlarıydı...

Qaraçavanı at, araba ilə o tərəf-bu tərəfə zorla, o da dayaz yerindən, xırdan adlayardılar. Göz yaşı tək dumduru suyu, dadlı balığı olardı. At, araba xıra girəndə deyirdin bəs şüşəni ayaqlayır. Ayna sular xırçıltıynan, çırthaçırt, şırthaşırt sınır, çiliklənirdi…

- Vallah, nə deyim, dayı. - Sürücü çiyinlərini qısdı. - Mən belə görmüşəm…

Oğlanın yaşı çatmazdı, dünənki uşaqdı. Gəl indi inandır ki, bəs Qaraçava beləydi, eləydi.. Ay inandı ha! Qaraçavada Qaraçavalıq qalmışdı? Suyu lilli-palçıqlı zavallı bir arxdı. Yoxsa Kötəllə dəyişik salardı? Gör indi Kötəl nə gündə, löyündədi də! Qaraçavaya bax, Kötəlin gününü ağla! Üstündən keçib gəlib, xəbəri olmayıb…

- Misirxan arxı da irəlidədi yəqin?.. - Tapdıq əlini qabağa uzatdı.

- Eh, Misirxan çoxdan quruyub, dayı. - Bu lap qəsdə durmaq kimi çıxırdı. Əslində oğlanın fikri onu mənzil başına tez çatdırmaq, muştuluqdan-zaddan qopartmaqdı.

- Bəs o görünən körpü nədi?.. Gərək ki, Misirxan elə oralardan (asfalt lap sonralar, tozlu-torpaqlı kənd yolunun rəddiynən salınana oxşayırdı) axıb keçirdi?..

- Körpü kanalın körpüsüdü, çoxdan çəkilib. Budu bax, ağzı belə uzanıb gedir. - Sürücü əlini həvəssiz sağ tərəfə qovzadı.

İndi diqqət yetirdi. Halbuki nəhəng beton arx lap yaxınlıqdan ötürdü. Limalim, lal axır, səs-küyü eşidilmirdi.

- Soranın işidi, bizim vaxtımızda kanal-manal yoxdu. - Özözüynən danışırmış kimi o tərəf-bu tərəfə baxır, sürücünü təzədən sorğu-suala tuturdu. - Bəs bu ətrafdakı bağ-bağat hanı, bacıoğlu?..

"Bacıoğlu" bu dəfə sualı qulaqardına vurdu…

Göz işlədikcə uzanan üzümlüklər hamısı bir vaxt meşə kimi keçilməz bağ-bağatdı. Hansı meyvələr, hansı quşlar yox idi, ilahi!.. Yaz-yay aylarında bir ayrı, payızda da bir ayrı büsat, cənnətdi başdan-başa. Necə, hansı namərd əli qıymışdı onlara?. Yayın cırhacırında gündə neçə dəfə Misirxan arxında çimişər, çığırışa-çığırışa bir-birini suya basardılar… O hay-haray hələ də qulaqlarındaydı. Gözlərini yuman kimi hər şey bütün təfərrüatı ilə xəyalında təzədən canlanırdı…

Qayıdıb maşına əyləşdi. Neçə illərdi bu yerləri, bu yerlərlə bağlı xatirələrini ən əziz, ən qiymətli daş-qaş, gizdənc kimi yuxularında yaşadırdı. Elə yuxularına güvənərək, çətini özümü Kötələ, Qaraçavaya, Misirxana çatdırıncadı, deyirdi. Ordan o yana nədi! Soraqlamadan, xəbər almadan bağların arasıynan gəzə-gəzə, quşların cəh-cəhinə qulaq asa-asa, hər ağacdan, hər budaqdan bir tam dada-dada gedib kəndimizə yetişəcəyəm. Tanış cığırlar özü aparıb ata yurduna çıxardacaq. Amma indi məlum olurdu ki, yanılıb. Bərk yanılıb. Hər şey tamam dəyişmiş, tanınmaz hala düşmüşdü. Heç nə ürəyini titrətmir, qanını coşdurmurdu… Eh, bir də, o boyda çaylar, arxlar qurumuş, bağlar köçmüşdüsə…

- Bağışlayın, dayı, bu yerlərdən haçan ayrılmısınız?.. - Sürücünün sualı Tapdığın fikirlərini pərən-pərən saldı.

- Beş ilin, on ilin söhbəti deyil, bacıoğlu…

- Belə de… - Oğlanın qaşları çatıldı. - Soruşmaq ayıb olmasın, dayı, axı nə vadar etmişdi?..

- Müharibə... Lənətə gəlmiş müharibə... Hitler...

Tapdıq cəbhəyə gedəndə on yeddi yaşını təzəcə bitirmişdi. Amma boy-buxunlu, şaqqalıydı. Şər-şəbədə qoşmuşdular ki, atası yaşını qəsdən azaltdırıb, saxta sənəd-filan düzəltdirib. Elə həmin şər-şəbədənin oduna yandı…

Döyüşlərin birində yaralanıb əsir düşdü. Olmazın müsibətlər bahasına ölməyib qələbəni gördü. Ancaq Stalinin əsirlərə vurduğu xain damğası Vətənin qapılarını üzünə bağladı. Doğmalarına həsrət qaldı…

Müharibədən sonra Avstriyada lövbər saldı, ailə qurdu. Oğluna atasının, qızına anasının adını qoydu. Böyük, şöhrətli bir firma yaratdı…

- Qohum-əqrəbadan sağ qalanı varmı barı, dayı?.. - Sürücü allahına yalvarırdı ki, yaxın simsarı, doğması olaydı, babat muştuluq-zad verəydi.

- Ara açılanda, münasıbətlər ılınanda səfirlik vasitəsilə öyrəndim ki, bacım sağdı, durur… Ailəsi, uşaqları var…

"Baho!.. Dinmə, doşab almışam, bal çıxıb…"

- İki il öncə bacıma viza göndərmişdim. Oğluynan Avstriyaya, yanıma gəlmişdi. Bir kisə də Vətən torpağı gətirmişdi… O vaxtdan məktublaşırıq… - Köksünü ötürdü. - Nəhayət, işlərimi oğluma tapşırıb doğma yurdu ziyarətə gəldim. Fikirləşdim ki, ölüm-itim yaxınlaşır. Bir də, eşitdim buralarda erməni yenə suyu bulandırıb. Dedim, görüm nə məsələdi?..

- Əşi, belə də, bekara söhbətdi, onlar bizim qabağımızda bir qələt eləyə bilməzlər... - Oğlan cavanlara xas bir ötkəmliklə lovğalandı.

- Təki sən deyən kimi olsun, oğlum. Amma düşməninə sayğısız yanaşmağı türkün başına həmişə bəla açıb…

- Bəs nə əcəb sizi qarşılamırlar, dayı?.. - Söhbətin başqa səmtə yönəlməsi sürücüyə sərf eləmirdi. Axı bu erməni nə böyük zibildi ey! Dünənəcən…

- Xəbər eləməmişəm.

- Niyə?.. - Oğlan təəccübləndi.

- İntizarda qoymağı xoşlamıram. Onsuz da bu illər ərzində yolumu çox gözləyiblər...

Sürücü maşını böyük asfalt yolu sağdan, soldan kəsən yolların ayrıcında, kəndin ortasında saxladı.

- Hansı tərəfə dönəcəyik, ağsaqqal?..

Nə desin?. Yaddaşı onu aldatmırdısa Qiyaslı iki para kənddən ibarətdi. Yolun bir tərəfindəki Nurallıqol, o biri tərəfindəki Söyüdlüqol adlanırdı…

Ürəyi əsə-əsə:

- Söyüdlüqoldanam, bacıoğlu, - dedi.

Sürücü maşını sağa döndərdi.

Soraqlaya-soraqlaya ata ocağına çatdılar. Qapının ağzında maşından düşəndə həyəcandan bütün vücudu əsirdi. Uşaq kimi kövrəlmişdi.

Səs-küyə əvvəl qonşu-qonum, arvad-uşaq tökülüşdü. Sonra bircə anda həyət-baca adamla doldu. Bacısı oğlu qurbanlıq toğlunu darta-darta gətirib ayaqğının altında kəsdi. Bağda, ağacların kölgəsində uzun bir stol açdılar…

Elə hey ətrafa, həyət-bacaya boylanır, yuxularından nəsə bir nişanə axtarır, tapmırdı. Həminki çal-çəpərdən, ev-eşikdən əsər-əlamət qalmamışdı. Doğulduğu, iməklədiyi, ayaq tutub yeridiyi çiy kərpicdən tikilmiş evin yerində ağ daşdan kürsülü qoşa ev qondarılmışdı. Yola tərəf həyətin ətrafına daşdan hündür hasar çəkilmiş, ikitaylı iri, dəmir darvaza asılmışdı...

Bacısı dönə-dönə budansa da (qurd saxlayırdılar) cavan pöhrələri kükrəyib iri, yaşıl çətir əmələ gətirmiş, kötüyü cadarlanmış qocaman tut ağacı ilə yaddaşını çözmək istədi.

- Atamızın öz əli ilə əkdiklərindən qalanın biri bax bu tut ağacıdı, Tapdıq…

Durub-durub birdəncə uşaq kimi həyəcanlandı.

- Başını keçi qırpan buydumu?..

- Hə, hə!. - Bacısı qardaşının yaddaşını oyada bildiyinə sevindi. - Rəhmətlik gilas yığdığımız cəvərəni gətirib keçirtdi təpəsinə ki, keçi-meçi dəyməsin, böyüsün…

- Bir palıd ağacı da olmalıydı həyətimizin harasındasa?. - Tapdıq güclə xatırladı. - Həm də gərək ki, bu tut ağacından çox böyükdü.

- Durur, o da durur. Evin arxasındadı. - Bacısı aparıb göstərdi. - Atan çoxlu gilas ağacı əkmişdi. Hamısı qocalıb köçdü.

- Gərək ki, belə bir söz qoşmuşdular, Qiyaslı… - Tapdıq nə qədər elədi dilinin ucundakını deyə bilmədi.

- Qiyaslı, qapısı gilaslı!.. - Bacısı dadına yetdi. - Kəndimiz gilasdan bol idi.

- İndi azdı ki?..

- Eh, qardaş, indiki cavanlar bağ-bağata, əkin-biçinə bir o qədər fikir vermir. Bir yana baxanda qınanılası da deyillər. Bağ-bağat, əkin-

biçin daha kəndçini dolandırmır, xərci borcunu ödəmir. Bilmirsən günahı kimdədi…

Bacısı Tapdıqdan dörd yaş kiçikdi. Bir qardaşı, iki bacısı müharibə illərində aclıqdan tələf olmuşdu. Anası dərd-vərəmə dözməmiş, dünyasını tez dəyişmişdi. Müharibədən on il sonra da atası rəhmətə getmişdi. Bacısı bu həyət-bacadan, ev-eşikdən hənirti üzülməsin deyə ailəsiynən ata yurduna daşınmışdı…

* * *

Qəbristanlığı, valideynlərinin qəbirlərini ziyarətə getdilər. Yanaşı dəfn olunmuş, dəmir cağla dövrələnmişdi.

Bacısı dillə, bərkdən ağlayıb onu da ağlatdı.

- Oğlunuz gəlib, ay ata, ay ana, niyə yatmısınız? Niyə tərpən-mirsiniz?.. Eşidirsiz, oğlunuz Tapdıq müharibədən qayıdıb...

Qohum-əqrəba onları zorla ovutdu. Tapdıq kənd mollasını çağırıb el adətincə valideynlərinin ruhuna Quran oxutdu…

Qayıdanda həyətdə böyük mağar qurulmuş, biş-düşə baş-lamışdılar. Bütün kənd, eşidən-bilən hamısı onun görüşünə axışırdı. Yaşıdlarından tək-tükü sağ qalmışdı. Qalanın da hərəsi bir cür şil-şikəstdi. Bir-birini güclə, xatirələrin hesabına anışdırırdılar. Bəzilərindən üç-dörd yaş böyükdü. Lakin hamısından gümrah, qıvraq, cavan görünürdü. Guya qəriblikdə, qürbətdə ömr edən, həsrət yükü çəkən bunlardı. Qayğılı, fikirliydilər. Bu qayğı, fikir-xəyal nə fikir-xəyaldı, baş tapmırdı...

- Çoban dağının yal-yamacında qoyun-quzu otardığımız günlər yadındadı, Tapdıq?.. - Ağacına söykənib qəlyanını tüstülədən İsmayıl kişi bığaltı qımışdı. Onun da canı hələ suluydu.

- Hə, yadımdadı. - Tapdığın xəyalı o illərə uçdu. - Gündə neçə kərə qarpışar, götürüşərdik. Bircə sənə gücüm çatmazdı. - Gü-lümsəyərək boynuna aldı.

- O da yadındadımı, uşaqlar küylədilər, qızışıb çomağı daldan qəfil topuğuma çaldın? - Kişi bədənini əsdirə-əsdirə uğundu. - Ay dağaldın, haa…

- Bəlkə yenə güləşək, İsmayıl kişi? - Tapdıq zarafatla qollarını çırmadı.

- Yox, qardaş, qocalığa yorğalıq yaraşmaz. Bir də, indi mənə dov gələrsən. Maşallah, yaxşı qalmısan!..

- Nə tez gözün qırıldı, ay İsmayıl əmi?.. - Cavanlar kişiyə sataşdılar. - Güvəndiyimiz dağlar, sənə də qar yağarmış!..

Qəfil Dilşad arvad da böyürdən çıxdı. Tapdıqla əl tutub görüşdü. İlahi! Zaman onunla da amansız, rəhmsiz davranmışdı. Odalov saçan gözləri çuxurunda bir cüt soyuq, boz-bulanıq şüşə kimi zorla işıldayırdı. Saralıb-solmuş, bürüşüb yumağa dönmüşdü. İnana bilmirdi ki, bu, bir zaman dərdindən dəli-divanə olduğu, Diliş çağırdığı həmin o dünya gözəlidi. Hanı topuğunu döyən o uzun, gur, qara saçları?..

Çəpərə sinib səhəngi çiynindən aşırılı qızlarla Daşnovdan haçan qayıdacağını səbirsizliklə gözlədiyi sanki dünəndi…

* * *

Neçə-neçə tost deyildi, badələr dolub-boşaldı. Hamı dönə-dönə Tapdığın sağlığına içirdi. Amma o, iki-üç qurtum zorla uddu. Az qaldı ödü ağzına gəlsin. Üz-gözünü qırışdıraraq bacısı oğluna tərəf döndü.

- Bu hara arağıdı, ə?..

- Səki hökumət arağıdı, dükandan almışam.

- Zəqqumdu ki… Canınızdan bezmisiniz-nədi?..

- Heç nə olmaz, biz öyrəncəli, dözümlü millətik. Bir də, neyniyək? Olan budu. Mer-meyvə özünü yetirib, tezliklə özümüz ləyaxlısını çəkəcəyik…

(O biri gün hardansa təmiz tut arağı tapıb gətirdilər.)

- Hərə bir yolla dolanır də, Tapdıq əmi... - Qonşunun oğlu çoxbilmiş-çoxbilmiş dedi.

- Dolansın də, ay bala. Canla zarafat olmaz axı. Belə şeylərə necə dözürsünüz?..

- Yediyimiz-içdiyimiz hamısı bu gündədi. Biri qatığın-südün üzünü alır, o biri yağa, pendirə haram qatır… Bir sözlə, biz onların, o birilərin əclaflıqlarına, yaramazlıqlarına dözür, çörəkpulu qazanmasına şərait yaradırıq, onlar da başqa sahədə bizə güzəştə gedirlər. Lap o başda oturan hökumət adamlarından tutmuş üzü bəri, aşağılaracan bütün işlərimiz, bir növ, beləcə qarşılıqlı güzəştlər əsasında qurulub. Hamı yalnız özünü, öz cibini, öz stolunu fikirləşir. Dəymə mənə, dəyməyim sənə…

Öyrəncəliyik desələr də, məclisin axırında hökumət arağından bir nəfəpin halı qarışdı. Tapdıq peşimançılıqla əl-ayağa düşdü ki, həkim çağırmaq lazımdı. Məlum oldu ki, kənddə tibb məntəqəsi-zadı yoxdu. Haçansa bir feldşer məntəqəsi varmış, indi onun da yalnız ağzıbağlı qapısının üstündə adı qalmışdı. Zəhərlənəni maşına qoyub rayon mərkəzinə qaçırtdılar…

* * *

Qaranlıq qarışmış, həyət-bacadan əl-ayaq çəkilmişdi. Hardasa orda-burda it hürür, İsaq-Musaq quşu yanıqlı-yanıqlı bir-birini haraylayırdı. Hərdən bu səslərə təkəmseyrək mal-at, qoyun-quzu, hətta toyuq-cücə səsi də qarışırdı… Bütün bunlar Tapdığın içində qəribə, anlaşılmaz hüzn yaradırdı.

Birdən həyətin ortasında sacayağı kimi qoyulmuş daşların arasından alovlanan qaza gözü sataşdı.

- Bacı, qazı niyə belə boş-boşuna yandırırsınız?.. - Qoyun-quzunu rahatlayan bacısından soruşdu.

Təəccüb doğuran israfçılıqdı. Qonşu-qonumda hərə bir gödək, nazik dəmir trubanın ağzını döyüb yastıladaraq həyətə çəkdiyi qaz şlanqına taxıb odlamışdı. Gecə-gündüz lazım oldu-olmadı məşəl kimi havayıca yanırdı...

- Noolasıdı ki, ay qardaş?.. - Bacısı dedi.

- Nətəər noolasıdı?.. Havayıdı?.. Bu qazı, işığı bir belə ki, siz yandırırsınız, sonra haqqını necə çatdırıb ödəyirsiniz?..

Darvazanın ağzında, eyvanda elektrik lampalarının bütün günü boş-boşuna közərdiyini görüb elə bilmişdi söndürmək yadlarından çıxıb. Əl-ayağa düşəndə gülmüşdülər. İndi də bu qaz…

- Narahat olma, dayı, - səsə çıxan bacısı oğlu dedi, - biz belə öyrənmişik. Bir də, şotçik-zad yoxdu yaza, aylıq veririk. Bütün günü yansa da eyni ödəncdi, yanmasa da…

- Bizdə, orda bu israfçılığa dözməzlər. Axı hardasa bu qaza, işığa həsrətdilər…

- Qoy o haqda hökumət fikirləşsin…

Bacısı həm sözkəsənlik, həm də qardaşının xətri xoş olsun deyə qazın burmacını burub söndürdü…

* * *

Tək qalanda Tapdıq bacısı oğlunu sorğu-suala tutdu:

- Eşitdim ermənilər bizimkilərin hamısını Ermənistandan, dədə-baba torpaqlarından qovub çıxardıblar, indi də könüllərindən Qarabağ keçir?..

- Düz eşitmisən, dayı. Havayı deməyiblər ki, arxalı köpək qurd basar. Erməniləri üstümüzə qısqırdan ruslardı. Amma özlərini elə göstərirlər ki, guya heç nədən xəbərləri yoxdu.

- Bəs başda oturanlarımız bunu başa düşmür? Niyə bu hiyləyə qarşı ağıllı bir tədbir ortaya qoymurlar?..

- Böyüklərimizin başı bir-biriynən boğuşmaqdan ayılar ki? Öz yalaqlarını, vəzifələrini qoruyurlar...

- Yaxşı, xalqın, camaatın bu məsələyə münasibəti necədi?..

- Xalqın biri biz, neyniyək? Xalastoy eləyib yıxıblar böyrü üstə…

- Necə yəni xalastoy eləyib yıxıblar böyrü üstə?..

- Ermənilərin böyükləri əl altından xalqı silahlandırır, hamısına ucdantutma avtomat, pulemyot paylayır, bizim böyüklərimiz isə evlərdəki quş tüfənglərini belə yığıblar. Əlini tərpədənə, səsini qaldırana da araqarışdıran, provakator, deyib başından basırlar. Sanki kordular, bütün bu oyunların mayası rus ola-ola ona yaltaqlanır, ondan nəsə umur, gözləyirlər...

- Ən güclü, təsirli silah insanın daxili inamıdı. Bu inam, özünə güvənc Vətənin dar günündə ilk növbədə başçıda, sərkərdədə olmalıdı. Gərək ki, Naraleon deyib, başçısı şir olan qoyun sürüsü başçısı qoyun olan şir sürüsündən güclüdü. O, fransızların ağır günündə hakimiyyətə gələrək bunu şəxsi nümunəsi ilə sübuta da yetirib!..

* * *

Tapdıq ilk gündəncə səhər yuxudan duran kimi beli, balta-dəhrəni götürüb bağda səliqə-sahman yaratmağa girişdi. Çal-çəpərə əl gəzdirir, alaq-ulağı təmizləyir, ağacları sulayır, qurumuş budaqlarını budayır, diblərini belləyir, bar gətirib ağırlıqdan əyilən qənədinə-quyruğuna dirək verirdi…

Bacısı, bacısı oğlu mane olmaq istəsə də onunla bacarmadı. Üç-dörd gündə həyət-baca görkəmini əməlli-başlı dəyişdi. Necə deyərlər, gələnin üzünə güldü…

Gündəlik Tapdığa baş çəkən kəndçiləri onu hər dəfə həyət-bacada çalışan görüb təəccüblənirdilər.

- Əşi, sən bura işləməyə gəlmisən?.. - deyirdilər. - Özünü niyə həlak edirsən?..

Tapdıq gülə-gülə cavab verirdi ki, ən gözəl istirahət həyət-bacada işləməkdi...

Bir dəfə yaxşı çıxıb-çıxmayacağını fikirləşmədən hər gün başına yığışan cavanlardan soruşdu:

- Siz gündəlik mənə görə bura yığışırsınız, ya bekarçılıq-filandı, iş-gücünüz yoxdu?..

- Narahatçılığın nə sarıdandı, Tapdıq əmi?.. - Fikrindən nə keçdiyini başa düşmədilər.

- O sarıdandı ki, mənə görə işinizi-gücünüzü unudarsınız, sonra sizi incidərlər.

- Əşi, kimdi bizi itirib-axtaran? Kefimizin ağasıyıq.

- Nətəər kefinizin ağasısınız, ə?..- Məəttəl qaldı. - Bəs dolanışığınız hardandı?..

- Bizdə işləyən yox, işləməyən dişləyir, Tapdıq əmi. - Zarafata saldılar.

- Ə, bala, dolanmaq ayrıdı, dişləmək ayrı. Axı qazancınız nədəndi? Çapoolçuluqla məşğulsunuz?..

- Əşi, yox, çapoolçuluq əlimizdən gəlməz. Xaltura, xırda-xuruş alver-gilverlə birtəhər başımızı girləyirik…

Bu "birtəhər" Tapdığa heç cür çatmadı. Əvvəllər arvadlı-kişili səhərdən axşamacan kolxozda çalışıb-vuruşardılar. Dolanışıqları ordan çıxardı. İndi bunlar quru bəylər kimi əlləri ciblərində gəzirdilər...

* * *

Adət üzrə qohum oldu-olmadı hamı növbə ilə Tapdığı evinə qonaq çağırırdı. Bütün kəndi gəzib dolanmışdı. Hər şeyə göz qoyur, fikir verirdi. Qəribəliklər çoxdu. Məsələn, yetən iyirmi-otuz sot torpağı çəpərləyib həyətinə qatmışdı. Onu əkib-becərmək isə qulağına girmirdi. Mal-atı, qoyun-quzunu uşaq-muşağın, dirriyi, qalan işləri arvadların öhdəsinə buraxmışdılar…

- Bu qədər torpağı niyə çəpərləmisiniz?.. - Kəndçilərinin fikrini öyrənmək istədi.

- İmkan var, çəpərləmişik də, nə ziyanı?.. - Təəccübləndilər. - Bu gün, sabah uşaqlarımız böyüyəcək...

- Axı becərmir, istifadə etmirsiniz. Beş-altı dəngül-düngül meyvə ağacı əkmisiniz, qalanı fızıllıqdı…

- Kimin nə borcuna, özümüz bilərik!.. - Ötkəmliklə güldülər.

- Yaşadığım şəhərdə, evimin qabağında balaca bir torpaq sahəm var. - Tapdıq özünü misal gətirdi. - Bircə fəsil gül-çiçək əkib onu yaşıllaşdırmasam, alıb başqasına verərlər…

- Sonra da deyirlər, orda demokratiyadı... - Atmaca atdılar.

- Demokratiya bacardıqca çox torpaq qamarlamaqdı? Sən ağa, mən ağa, inəkləri kim sağa? Bəs ölkəni kim yedirdib-içirtməlidi?..

- Yedirdib-içirtmək dövlətin, hökumətin işidi…

- Eh, yaman da yedirdib-içirdir. - Başqa biri istehza ilə ağzını əydi. - Adam balası kimi yedirdib-içirtsəydi, cavanlarımız it unu kimi çörək dalınca ursetdən belə dağılmazdı…

Doğrudan da, hansı ailəni dindirirdisə, bir-iki kişisi Rusiyada, Ukraynada, Türkiyədə, İranda, nə bilim daha hardaydı…

- Fərli yedirdib-içirtmir, dərdinə-oduna yanmır deyə özbaşına buraxıb də. - Bacısı oğlu məsələyə öz bildiyi kimi aydınlıq gətirdi. - Deyir, qoy neynir, harda, nətəər dolanır dolansın, təki mənə dəyib-dolaşmasın…

Tapdıq görürdü ki, qonşu-qonum nə qədər olmaya yavaş-yavaş ondan utanıb-çəkinir. Səhər açılan kimi həyət-bacadakı işığı söndürür, qazı əvvəlki tək havayı yandırmırdılar. Kənd bir-birinə dəymişdi. Evlərdə yalnız onun söz-söhbəti gəzib-dolaşırdı. Kankan tapdırıb kəndin neçə məhəlləsində unudularaq batmış köhnə, dədə-baba kəhrizlərinin gözünü öz xərciynən açdırandan sonra onun hörməti daha çox artdı...

Kəndçiləri indi ona tamam başqa gözlə, ümidlə baxır, gənəşik yeri kimi yaxınlaşırdılar. Bu isti münasibəti görən Tapdıq özü də günü-gündən ruhlanır, daha artıq həvəsə dolurdu. Halbuki kənd-kəsək əvvəl ona bir elə də yapışmırdı…

* * *

Tapdığı bir zaman oxuduğu məktəbə də qonaq çağırdılar. Köhnə məktəb binasının uçuq-söküyünü nə qədər yamayıb abıra salsalar da ümumi vəziyyəti acınacaqlı, ağlamalı gündəydi.

- Elm, təhsil ölkədə kimsənin qulağına girmir. - Direktor yana-yana gileyləndi. - Bu boyda kəndin Nuh əyyamından qalma bir uçuq-sökük məktəbi, amma üç təzə məscidi var...

- Qoy olsun, - Tapdıq dedi, - müsəlmana məscid də lazımdı. Bir şərtlə ki, xuravat, cəhalət yuvasına deyil, qaranlıqda yol göstərən mayaka çevrilsin...

- Hacılarımız, mollalarımız müəllimimizdən, həkimimizdən çoxdu. - Direktor davam etdi. - Elə bil özgələrin sözüynən oturub-durmaq, kənardan idarə olunmaq millətin alnına yazılıb. Başqasının yaxşı cəhətlərini özümüzə uyğunlaşdırmaq, özəlləşdirməkdənsə özümüzü başqasına oxşatmağa, özəlləşməyə daha artıq meylliyik. Bir zaman bolşeiklərə uyduq, onlar bir kilsə uçuranda, bir keşiş damlayanda biz on məscid dağıtdıq, on beş molla Sibirə sürdük, hicabı, çadranı tamam atdıq. İndi təzədən vurhəşir məscid tikir, həccə gedir, saqqal buraxır, hicaba, çadraya bürünürük. Müəllimlərimiz də az qalıb molla kimi danışsın...

- Kor-koranəlik, kütləvilik millətə sürü psixologiyasından başqa heç nə verə bilməz. - Tapdıq məktəb direktorunun şəxsində həmfikir tapdığına sevindi. - Mənəvi zənginlik, yüksəliş elmdən, təhsildən keçir. Bayaqdan dinimizin siyasiləşməsindən narahatıdıq, indi onu həm də asan qazanc vasitəsinə, gəlir mənbəyinə çevirməyə çalışırlar...

- Məscidlərimiz, pirlərimiz allaha rüşvət yuvalarıdı. Mollalarımızın nəzir qutularından, qətl günü çıxardıqları şəbihdən yığdıqları pulların üstündə necə boğuşduqlarını görsəniz iyrənərsiniz. Hələ mən həcc ziyarətini təşkil edənlərin hansı oyunlardan çıxdıqlarından danışmıram. Amma ötən il, - direktor sanki birdən xatırladı, - Şeyximiz qətl günü Bakıdakı məsciddə talasimiyalı xəstələrə yardım məqsədi ilə şəxsən qan verib, müsəlmanları baş yarmaq, zəncir vurmaq əvəzinə bu cür savab işlərə qoşulmağa çağırıb...

- Müdrik adam çaşqınlıq yaradan, birliyə xələl gətirən keçmiş dava-dalaşı, qardaş qırğınını təzədən qabartmaq əvəzinə ört-basdıra

çalışar, qəzəbinə, kininə xalqının, millətinin həqiqi düşmənini hədəf seçər...

- Bir-birinin bənsinə haram pullarla günahlarını müqəddəs şəhərlərə tökən, oranı gözdən salanların, buna şərait yaradanların qarşısı necəsə alınmalıdı. - Direktor dedi. - Qayıdan ağzı köpüklənə-köpüklənə şeytanı necə daşlamasından danışır, şeytan içində ola-ola. Zəvvar günahlarını bəri başdan savab işlərlə burada yumalı, ziyarət üçün qabaqcadan mənəvi haqq qazanmalıdı...

- Müqəddəs ziyarətgahlarımızı kütlə yığnağına deyil, müsəlman dünyasının ümumi dərd-sərini araşdıran, əlac göstərənlərin həmrəylik mərkəzlərinə çevirmək, guya düşmənə qarşı yönəlmiş, əslində özünə, öz xalqına ziyan vuran kor-koranə fitvaları, terror aktlarını pisləmək lazımdır. - Tapdıq dedi. - Ağlı başında olan heç bir halda evində dava-dalaş salmaz...

Bir də, məncə, nə qədər qədim-qaim olur-olsun, bir ideya, adət-ənənə və s. torpağımızın bütövlüyünə, sülhə, əmin-amanlığa qovuşdurmağa qadir deyilsə, onun haqqında ciddi düşünüb-daşınmaq lazımdı. Deməli, kimə, nəyəsə qulluq edir, başaldatmadı...

Tapdıq məktəbdən sonra məscidlərə baş çəkdi. Axund və mollaların ağzını aradı. Heç gözləmədiyi halda onları məktəbin abadlaşdırılmasına, tibb məntəqəsinin bərpasına yardım etməyə razı sala bildi. Onlar bu işlərin xeyirxah əməllər sırasından olduğunu anlasalar da gözlərinin qabağında elə bil görmürdülər. Tapdıq yada saldı, göstərdi. Məqamında təşəbüskara hər zaman ehtiyac olub…

* * *

Tapdığın sorağını eşidib görüşünə gələn rayon qəzetinin müxbirini onun uşaqlığı, gəncliyi, cəbhədə düşmənə qarşı necə vuruşması, hansı şəraitdə əsir düşməsi, bir sözlə, hər şey maraqlandırırdı. Hətta əsir düşməkdənsə özünü niyə öldürməməsi də…

Tapdıq axırıncı suala acı bir təbəssümlə cavab verdi:

- Yaşımın bu çağında gənc Tapdığın babalını yuya bilmərəm. Çünki o an nə düşündüyünü dəqiq xatıtlamıram. Gör aradan nə qədər sellər-sular axıb! Yadımdadı ki, yaralıydım. Döyüş sürsatımız qurtarmışdı. Düşmən bizi özümüzünkülərdən kömək gözlədiyimiz bir zamanda qəfil yaxaladı…

- Faşistlərin əsirlər arasından seçdikləri könüllülərdən Sovetlərə qarşı legioner döyüşçülər hazırladıqlarını yəqin bilirsiniz? Sizə də belə bir təklif olunmuşdumu?..

- Olunmuşdu, mən razılaşmamışdım.

- Niyə?.. - Müxbir təəccübləndi.

- Füzulinin "Leyli və Məcnun"unda belə bir məqam var. Nofəl Leylinin atasına qarşı vuruşur ki, qızı alıb Məcnuna versin. Bir də baxır ki, Məcnun Leylinin atası tərəfində qılınc çalır. Səbəbini xəbər alanda deyir ki, istəyirəm qələbə yarım tərəfində olsun. SSRİ hər nəydi, mənim Vətənim idi. Mən Vətənimə qarşı vuruşa bilməzdim…

* * *

Tapdığı təbiətin səxavətlə bəxş etdiyi təbii sərvətlər bolluğunda millətinin kasıb yaşaması, həyat səviyyəsinin Qərbdəkindən qat-qat aşağı olması çox düşündürürdü. Bəzilərinin dediyi kimi, səbəb, doğrudanmı dindəydi? Axı ümumilikdə bütün İslam dünyası geri qalmışdı. Əgər bu din səmavi dinlərin ən təkmiliydisə ona tapınanlar niyə ucdantutma zəlil gündəydilər? Bir vaxt İslam dünyasını göylərə qaldıran elə bu din deyildimi? Yoxsa günah hamısı dini öz çirkin əməllərinin girovuna çevirən sonrakı İslam, mühafizəkar dövlət başçılarındaydı?..

Sönük, maraqsız, naümid həyat sürən adamlar ətrafda baş verənlərə təəccüblü dərəcədə laqeyd, biganəydi. Hamı yaxasını çətinlikdən kənara çəkirdi. Cürət edib çiynini çətinliyin altına verənə mane olan arxasınca gedəndən, dayaq durandan çox idi. Asana suyulu, meyilli olduqlarından gurultuya, yalana tez aldanırdılar. Bu biganəlik, sönüklük eyni zamanda yatmış vulkanı andırırdı. Ümumi çatışmazlıqlar girdabında boğulan, çabalayan, stress keçirən adamlar heç nədən (normal baxış bucağından adi, əhəmiyyətsiz, ötüşdürüləsi, həlli mümkün olan) qəfil partlayır, ağıla sığmayan dəhşətli hadisələr, qətllər törətməklə boşalır, sakitləşirdilər. Tapdıq bunda keçmiş quruluşu da günahlandırırdı. Bütün problemləri öhdəsinə götürən, boynuna çəkən, adamları, bir növ, buyruq quluna çevirən quruluş, sistem birdən-birə çökmüş, dağılmışdı. Yeni təcrübə, mərkəzləşdirilmiş idarə sistemi isə hələ yox idi. Kor-koranə, əl

havasına hərəkət edən yuxarılar da, aşağılar da gözləmə mövqeyindəydilər. Əlahəzrət zamandan başqa…

Tamam başqa mühitdə yetkinləşən, işgüzarlığı ilə seçilən, əlinə fürsət düşmüşkən xalqına daha artıq xeyir vermək həvəsi ilə alışıb-yanan Tapdıq gözləmədiyi halda hökumət adamı ilə kəllə-kəlləyə gəldi…

Darvazanın ağzından keçən kənd yoluna başdansovdu döşənmiş asfalt sökülüb-dağılmışdı. Üstündən çınqıl yaysalar da hər dəfə maşın keçəndə ərşə dirənən toz dumanı həyət-bacaya çökür, adamın nəfəsini kəsirdi…

Tapdıq fikirləşdi ki, doğma kəndində bir asfalt zavodu tikdirsə yaxşı olar. Həm cavanları işə qoşar, həm də yol-rizi abıra mindirər…

Bunu eşidəndə bacısının şadlığından çiçəyi çırtladı.

- El-obanın dadına yetmək savabdı, qardaş, - dedi, - Allah qoysa, yavaş-yavaş özün kök salarsan, soora da arvad-uşağını dartıb gətirərsən…

- Hara? Bura?..

Sualın ahəngi bacısını heç açmadı.

- Nədi, yoxsa uşaqlar bizim yerimizi-yurdumuzu bəyənib gəlməzlər?..

- Nə deyim, vallah… - Tapdıq çiynini çəkdi.

- Qardış, belə bərəkətli torpaq dünyanın harasında var?.. -Bacısı neçə gündü beynini doldurmağa girəvə axtarırdı. - Altı da qızıldı, üstü də…

- Onu bilirəm…

- Bəs nəyi bilmirsən?.. - Bacısı onu divara qısnadı. - Haçanacan qürbət çörəyi yeyəcəksən?..

- Görək də, allah bilən məsləhətdi… - Tapdıq üzünü göyə tutub əllərini açdı.

Bacısı ikiəlli dizlərinə vurub yanıb-yaxıldı.

- Neyniyim, oğlun evlənib, qızın köçüb, tale yazanın qələmi sınsın! Yeddi-səkkiz il əvvəl tapışsaydıq, özgəsini alınca oğluma sənin qızını alardım, hamısı öz-özünə düzələrdi…

- Nətəər düzələrdi, ay bacı?.. - Tapdıq gülümsədi.

Qızı hələ on beş, ya on altı yaşındaykən xam xəyala düşmüşdü. Gözdə-qulaqdaydı, qızını ərə verməyə halal süd əmmiş azərbaycanlı

oğlan axtarırdı. Fikrini arvadına bildirəndə, təki elə bir cavan tapılsın, bir-birini bəyənib sevsinlər, demişdi…

- Qız gələndən sonra o qərib yerdə duruşmu gətirəcəkdin? Balayın dalınca böyürə-böyürə yortacaqdın…

* * *

İcra hakimiyyətində onu əvvəl hörmət-izzətlə qarşılayıb bəhbəhlə dinlədilər. Sonra nədənsə ağzılarını sürüdülər. Balaca bir məsələni (Tapdığa görə) ötür-ötürə saldılar. Nəhayət, uzun çək-çevirdən sonra hər şeyi tamam-dəsgah razılaşdırdılar.

İcra başçısı yük altından qurtarmış kimi dərindən köksünü ötürdü.

- Hə, ay eloğlu, sənin də işini belə yoluna qoyduq. - Nəsə çox minnətli alındı.

- Sağ olun, minnətdaram. - Tapdıq üstünü vurmadı. - Xalqımın, el-obamın yolunda hər əziyyətə qatlaşmağa hazıram.

Kreslosunda yayxanan icra başçısı eyhamından əl çəkmədi.

- Ancaq bir məsələ hələ də üstüörtülü qalmaqdadı… - Fırfıra kimi çuxurunda sakit dayanmayan, hər dəqiqə bir rəngə çalan xırdaca gözləri nədənsə nigaran, narahatdı.

- O nə məsələdi?.. - Tapdığın qaşları çatıldı.

- Qorxuram deyəm, xətrinə dəyə. - İcra başçısı dedi. - Allah bizim işbazlara versin, belə şeyləri göydə oxuyurlar. İzahata-filana ehtiyac qalmır…

- Fikrinizi açıq deyin, canım. - Tapdığın səbri tükəndi.

- Bilmirəm o tərəflərdə necədi, amma bizdə eşidərsən, bir şirinlik, şapka məsələsi də var, axı…

- Şirinlik şirinlikdi, bəs şapka nədi?.. - Tapdıq gözünü döydü.

- Əşi, əhəmiyyətsiz bir şeydi. Belə deyək də, razılıq verdik, zavodunu tikdin, sağlığına qismət. Yaxşı, balam, bəs burda bizim xeyrimiz noolacaq?.. - Arsız-arsız hırıldadı. - Aldım qoz, satdım qoz?..

- Sizin, yəni kimin?.. - Tapdığa yenə çatmadı.

İcra başçısının nə demək istədiyini anlayanda doğrudan-doğruya havalandı. Uzaq bir əhvalatı xatırladı.

Uşaq vaxtı quş saxlamaq həvəsinə düşən oğlu böyük bir qəfəs düzəltdirmiş, zoomaqazindən bir neçə bülbül almışdı. Əvvəl onlara yaxşı qulluq etsə də tezliklə həvəsi tamam sönmüşdü. Yeməyini

verəndə suyunu vaxtlı-vaxtında vermir, suyunu verəndə yeməyini unudurdu. Məcbur olub arada özü əl yetirirdi…

İşiynən əlaqədar başqa şəhərə səfərə getmişdi. Qayıdanda gördü ki, quşlardan biri qəfəsdə gəbərib. Qalanı da yaman gündədi, ac-susuz, zir-zibilin içində…

- Bu nə biabırçılıqdı, oğlum?.. - Tez oğlunu çağırdı.

- Burda nə var ki, ata? Başım dərslərə qarışıb, quşlara baxmaq yaddan çıxıb, vəssalam... - Oğlu utanıb-qızarmadan dedi.

- Sağ qalan bülbülləri elə bu saat zoomağazaya qaytarmaq lazımdı!.. – Tapdıq əməlli-başlı əsəbləşdi.

- Qoy qalsın də, ata… - Oğlu mızıldandı.

- Olmaz! - Tapdıq qətiyyətlə bildirdi. - Boynuna çəkdiyi işin məsuliyyətini dərk etməyən adama dilsiz-ağızsız canlıların taleyini tapşırmaq günahdı…

- Eh, yaman da bülbüllərdi! - Oğlu bəhanəylə gileyləndi. -Nə bir yönnü cəhcəh vururlar, nə də yumurtlayırlar… Amma qonşu-nunku…

- Oğlum, yadında saxla, hər hansı bir işə girişəndə səfasını gör-mək istəyirsənsə, vicdanla cəfasını çəkməlisən. - Tapdıq ciyərpa-rasına öyüd-nəsihət verdi…

Oğlu uşaqdı, çox şeyi ağlı kəsmirdi. Bəs bunlar?.. Milləti nəhəng bir qəfəsə doldurub, məsuliyyətini də boyunlarına çək-mişdilər. Di gəl…

- Cənab icra başçısı, - Tapdıq dedi, - uzun illər qürbətdə hey eşidirdim ki, SSRİ-də adamların gün-güzaranı pisdi. Ölkə kasıbdı. Öz-özümdən soruşurdum, niyə? Axı bu nəhəng, ucsuz-bucaqsız ölkə müharibədən qalib çıxıb. Torpağının altı da qızıldı, üstü də…

Elə bilirdim müstəqillikdən sonra vəziyyət düzələcək. Nə vaxtdı burdayam. Yaxşılığa doğru ciddi dəyişiklik nəzərə çarpmır. Əksinə, olan-qalanı da dağıtmaqla məşğulsunuz. Demə, bu ölkənin qədirbilən, işbacaran, yiyəsi, sahibi çatmır…

Zilə qalxdığını görüb Tapdığın keçmişini tərs şapalaq kimi sifətinə çırpdılar. ″Hələ sevin ki, sənin kimi keçmişi qaranlıq bir adama ürək qızdırırıq…″

* * *

Bacısı içəri girəndə Tapdığın fikirli-fikirli çamadanını yığdığını görüb təəccübləndi.

- Xeyirdimi, hara yığışırsan, ay qardaş?..

- Bakıya gedirəm…

- Yoxsa çətinə düşəndə bizim cavanlar ursetə qaçan kimi sən də şələ-şəlpəni yığıb gəldiyin yerə, qürbətə qaçırsan?..

Tapdıq İcra Hakimiyyətində başçı ilə bozalaşdığını axşam bacısıgilə danışmışdı.

- Yox, bacı, mən sən düşündüyün qədər də asan, tez təslim olan adamlardan deyiləm. - Tapdıq bacısının sözündən incimədi. - Bütün gecəni yatmayıb fikirləşmiş, götür-qoy etmişəm. Qərara almışam ki, bir Bakıya da baş vurum. İstəyirəm görüm orda, Bakıda nə düşünürlər? Axı havayı deməyiblər, dəvədən böyük fil də var. Yox əgər balıq başdan iylənibsə, vay bu millətin halına!..

## Ən qiymətli

Ermənilərin kəndə atdığı ilk mərmi Əhmədin tövləsinin bir tərəfini, onun yanındakı toyuq hinini uçurtdu. Ətrafa səpələnən qəlpələri yaxınlıqdakı ulağı yaraladı, taxtapuşda şaqqıldadı, pəncərələrin şüşələrini ciliklədi...

İkinci, üçüncü mərmi kəndin ayağında partladı. Bircə anda aləm bir-birinə qarışdı. Arvad-uşağın çığırtısından, mal-qaranın böyürtüsündən, itlərin hürüşündən, toyuq-cücənin qaqqıltısından qulaq tutulurdu...

Təhlükəni duyan Əhməd tələm-tələsik əynini geyinib qızının qolundan yapışdı. Qorxudan özlərini itirərək karıxıb qalmış arvadını, oğlunu tələsdirdi:

- Tez qaçın minin maşına!..

Qəlpələrin dəlik-deşik etdiyi uzunqulaq tövlənin qabağındakı tut ağacının altında əzabla qıvrılırdı. Dəhşətdən heyvanın gözləri hədəqəsindən çıxmışdı...

Maşının mühərrikini işə salanda qonşusu Arif çəpərin o tərəfindən harayladı:

- Ayə, Əhməd, bizim uşaqları qoyub getmə!..

- Nədi, Arif, yoxsa ermənilər müdafiəmizi yarıb?. - Əhməd iki daşın arasında gümanını dəqiqləşdirməyə çalışdı.

- Hə, atan rus tanklarıdı. - Arif təsdiqlədi...

Neçə gündü kəndin yuxarı başında, çöldə erməni-rus birləşmələri ilə bizim qoşunlar arasında qanlı döyüşlər gedirdi. Günortadan sonra xəbər gətirmişdilər ki, düşmən tərəf yeni qüvvələrlə daha da güclənib, bizə dov gəlir. Kənd səksəkə içindəydi...

Əhmədin arvadı bəd xəbəri eşidən kimi öz aləmində çəkidə yüngül, qiymətdə ağır, dəyərli ev əşyalarını maşına yüklətmişdi. Bir çöpünü də yerdə qalmağa qoymazdı, insafı yol vermirdi, böyür-başdakı qonşu-qonumun arvad-uşağı da gözünü ərinin “Qaz-53”-nə dikmişdi...

Əhməd darvazanı taybatay açıb maşını genişliyə sürdü ki, arvad-uşaq gəlib minsin. Hərəsinin əlində neçə bağlaması vardı. Onları qınamaq olmazdı. İllər boyu əzab-əziyyətlə qazandığını bir göz qırpımında atıb getmək asan məsələ deyildi...

Xalqın müdafiəsini təşkil edənlər yekə-yekə inandırmışdılar ki, erməni kəndə girə bilməz. Camaat da var-dövlətini, mingünlüyünü tərpətməmişdi. İndi də belə, yağı düşmən qəfil başlarının üstünü almışdı...

Maşının banında zığıldaşan uşaqlarını sakitləşdirən arvadlar başqalarını nəzərə almadan arabir Əhmədi tələsdirirdilər.

- Qardaş, tərpən, sən allah!.. - Bu saat Əhməd onların ən böyük ümidi, pənahı idi.

Hamının yerbəyer olduğunu görən Əhməd sükan arxasına keçməzdən əvvəl dönüb həsrətlə qapısını belə örtmədiyi həyət-bacasına, ev-eşiyinə baxdı. Lakin dolan gözlərini kabinada onunla yanaşı oturmuş arvad-uşağına göstərmədi...

Maşını təzəcə yerindən dəbərtmişdi ki, nəsə xatırlayan qızı qolundan yapışıb bərk-bərk silkələdi:

- Saxla, ata, saxla!..

Əhməd nə baş verdiyini anlamasa da tez əyləci basdı.

- Nə olub, qızım?..

Qızcığaz heç nə demədən qapını açıb özünü yerə atdı. Bir göz qırpımında qaçıb evə girdi. Hamı özünü itirmişdi.

- A kişi, niyə gözünü döyürsən?.. - Arvadı Əhmədin böyrünü dürtmələdi. - Düş aşağı, gör uşaq hara getdi də!..

Əhməd o saat maşından düşüb uşağın dalınca götürüldü...

Hamı qorxu və həyəcanla gözləyirdi. Atışma səsi isə yaxınlaşmaqdaydı.

Nəhayət, Əhməd qızı da qucağında qayıdıb gəldi.

Maşın təzədən yerindən tərpənəndə anası ağzının odunu qızının üstünə tökdü:

- Bu nə oyundu çıxardırsan, ay canı yanmış?..

Yerində rahatlanan qızcığaz özünü doğrultmaq üçün evdən götürdüyü çantasını, kitab-dəftərini göstərdi.

- Axı, mən sabah bunlarsız məktəbə necə gedəcəkdim, ana? - Sabah sentyabrın biriydi. Qızcığaz birinci sinfə gedəcəkdi...

Atasının dodağı qaçdı. Demə, ən qiymətli şeyi götürmək yaddan çıxıbmış...

## Qaçhaqaçda

Dəhşətli dağıntı və yanğın törədən qrad raketləri, top mərmiləri əvvəl kəndin baş tərəfindəki bağa, o ətrafdakı həyət-bacalara, evlərin üstünə düşməyə başladı. Sonra idarə binasını, çaxır zavodunu viran qoydu. Toz dumanı ərşə dirənmişdi...

Kəndin ara-bərəsində, yol-rizdə camaat qarışqa kimi qaynaşırdı. Özgə vaxt bir-birini itirib-axtarmayan, adını anmayanlar belə İsaq-Musaq quşuna dönmüşdülər. Havalı kimi ora-bura qaçır, səs-səsə verib haraylaşırdılar...

Qaçhaqaç, köçhaköçdü. Kim necə bacarır, əlinə nə keçir, nəyə gücü çatırdısa götürüb kənddən tez çıxmağa çalışırdı. Hamı kəndin ayağındakı qəbristanlığa sarı, ordan da quru çay yatağı ilə yaxınlıqdan keçən magistral yola axışırdı. Düşmən kəndin baş tərəfindən irəlləyirdi. Artıq tankların boğuq səsi də eşidilməkdəydi...

Kənd neçə gündü onsuz da yır-yığışıqlı, hazır vəziyyətdə, ayaqdaydı. Lap dünənə qədər ermənini saya salmayıb özünü tox tutan da çoxdu. Belələrini bir tərəfdən də təzə formalaşan nizami ordu

arxayın salmışdı. Yetirişi, bir növ, əliyalın, amma qeyrətlə silahlanmış kənd fəallarını tərksilah edib buraxmışdılar ki, dünənə görə sağ olun, bundan belə vətənin namusunu biz özümüz qoruyacağıq...

Həftəsində arvadların simsiz teleqrafı duy vurmuşdu ki, kənd para saatlığa da olsa ermənilərin ixtiyarına veriləcək. Şətəl çaxır zavodunda, qeyri-obyektlərdə qaynatdıqları hoqqaları ört-basdır etmək istəyən kənd, rayon böyüklərindən, yağ yeyib yaxada gəzənlərdən keçməliydi. Qəribə, analoqu olmayan hadisələrlə zəngin bir dövrdü. SSRİ-nin dağılması ilə birdən-birə, gözlənilmədən, bir növ, göydəndüşmə bir müstəqillik qazanılmışdı. Eyforiyaya qapılan siyasi qüvvələr vəziyyəti layiqincə dərk etməyə, qiymətləndirməyə hazır deyildi. Birləşmək, girəvədən ağılla bəhrələnmək əvəzinə, kütləni də öz məkirli oyunlarına qoşaraq hakimiyyət, stol davasına qalxmışdılar. Əqidə və vicdanlarını o dərəcədə itirmişdilər ki, rəqiblərini sıradan çıxartmaq üçün ayrı-ayrı kəndləri, bütöv rayonu belə düşmənə verməkdən çəkinmirdilər. Düşünürdülər ki, müvəqqətidi, sonra hamısını geri qaytaracaqlar. Müharibə qanunlarına əməl olunmayan, cavabdehi, günahkarı yerindəcə cəzalandırılmayan ölkədə adamlar qorxu, səksəkə içində yaşayırdılar. Hər eşitdiklərinə inanırdılar da, inanmırdılar da...

Kəndin özümüzünkülər tərəfindən erməniyə satılmasına inanmayanlardan biri də Tağıydı. İnanmaya-inanmaya arvadının hökmüynən dünəndən traktorunu da sazlamış, qoşqusunu da qoşmuşdu...

Bu məqamda ləngimək nə qədər təhlükəli olsa da Tağı yol-rizdəki yiyəsiz arvad-uşağı, əlsiz-ayaqsız qocaları, şil-şikəstləri görməməzliyə salıb ötə bilmirdi. Traktorunu saxlayan kimi minənlərə aşağıdakılar aşağıdan, yuxarıdakılar, traktorun qoşqusundakılar da yuxarıdan köməklik göstərirdilər. Hər gələnlə yer bir adam qədər də daralırdı. Dinməz-söyləməz tərpəşə-tərpəşə, qurcalana-qurcalana daha artıq sıxlaşırdılar. Başqa vaxt bu qədər adamı belə bir qoşquya pərçimləmək müşkül məsələydi...

Boy-buxundan yarımayan çəlimsiz Tağı qorxu-hürkünü tamam unutmuşdu. Yolu tutduğuna, tez tərpənmədiyinə görə siqnallayaraq toza basıb keçən arvad-uşaq dolu bəzəkli minik maşınlarından ünvanına səslənən bağırtılar, hədələr də vecinə deyildi...

- Səni görüm min budaq olasan, ay Tağı!.. - Tağıya ürək-dirək verən, ruhlandıran kəndçilərinin alqışlarıydı. - Yaxşılığını heç vaxt yaddan çıxartmarıq!..

- İki gündü ləliyirəm ki, ay Tağı, traktorunu sazla, lafetini də qoş, qaçhaqaç düşər, ayın-oyun cəhənnəm, ara yerdə qonşu-qonum ayaq altında itər. - Tağının özünə yaraşmayan ətli-əndamlı (neçə adamın yerini tutmuşdu) arvadı axır dözməyib fitildədi. Dolayısı ilə qandırdı ki, bütün bu xeyirxahlığın mayası, səbəbkarı odu, alqışdan ona da pay düşür...

Alqışçılar da xəsislik etmədilər:

- Allah səni ona, onu da sənə çox görməsin!..- deyib dilənçi payı kimi bir alqış da onun ətəyinə tulladılar...

- Ana, mən düşürəm!.. - İki daşın arasında birdəncə Tağının oğlu Orxanın tırı tutdu. - Atama denən, traktoru saxlasın...-Bayaqdan arabir nəm-nüm eləsə, mızıldansa da səsini çıxartmırdı.

- Nooldu, a bala, niyə düşürsən?.. - Böyür-başdakılar soruşdular.

- Çubuşum qalıb. - Anasının üzünə baxraq ağlamsındı.

- Ə, bir çubuşdan yana özünü oda atacaqsan? - Anası onu ovundurmağa çalışdı. - Qalıb qalıb də, canın sağ olsun. Əmin oğluna xəbər edərik, birini də göndərər.

Bakıdakı əmisi oğlunun bağışladığı uzun, qıvrım tüklü (pariki xatırladırdı), pələş qulaqlı (yalan olmasın, özündən böyükdü), kotmul quyruqlu Çubuş itdən çox pişiyə taydı. Amma fəhmli, ağıllı itdi. Orxana tez isnişmiş, o da mehrini heyvana salmışdı. Orxanın xəbəri yoxdu ki, kənddən çıxanda atası haraylaya-haraylaya həyət-bacanı dörd dolanmış, küçüyü tapmamışdı. Bilirdi ki, yadına düşəndə oğlu kürlüyünü edəcək...

- Ana, mən öz küçüyümü istəyirəm... - Üzünü anasının qoluna, kürəyinə sürtərək qılıqlanan Orxan lap gerçəklədi.

- Camaatı bizə güldürmə, ağrın alım... - Anası yasaladı.

Uzaqlaşdıqca kənddə baş verənləri ayird etmək çətinləşirdi. Torpağın bağrını söküb-dağıdan raketlər, mərmilər daha partlamasa da od tutan ev-eşik orda-burda yanır, tüstülənirdi. Atışma səslərini isə traktorun tiriltısı əks qüvvə ilə qovub geri qaytarırdı...

Qəbristanlaığın yanından ötəndə dodaqları öz-özünə, pıçıltıynan tərpənən ağsaqqallar, ağbirçəklər ölülərin ruhuna salavat çevirməyi unutmadılar. Amma bu, salavatdan çox dirilərin ölülər qarşısında günahlarını yuma, təmizləmə cəhdinə, üzlərə çəkilən üzqaralığına oxşadı...

Traktor daşlı-çınqıllı çaylağı xırıltıynan yara-yara torpaq yola çıxdı. Tırıltısını aralıdan eşitsələr də əllərində bağlamaları, düyünçə-müyünçələri nə Səməd kişi, nə də arvad-uşağı ayaq saxlayıb geri döndü. Bərabərləşəndə Tağının baxışları Səməd kişinin məzlum, mağmın baxışlarıynan toqquşdu. Ürəyi tab gətirmədi, əyləci basdı.

- Ə, sür ayna, erməni onlara toxunmaz!.. - Kimdisə Tağının eşi-dib-eşitmədiyinin fərqinə varmadı.

- Yazıqdı, dəymə... - Başqa biri havadarlıqla ona gözünü ağart-dı. - Kəndin adınadı...

Səməd kişinin arvadı erməni qızıydı. İyirmi ildən çoxdu ona sədaqətlə arvadlıq edirdi. Deyilənə görə, hətta, dinini-imanını da dəyişmişdi. Səməd kişiyə iki oğlan, bir qız doğmuşdu. Qızı qonşu kənddə ərdəydi. Hazırda nədənsə oğlanlarından biri, balacası yanındaydı. Böyük evlənməli oğlandı. Əsgərliyini sovet ordusunda başa vurub qayıdanda artıq ara qarışmış, azərbaycanlıları dədə-baba torpaqlarından, Ermənistandan didərgin salan erməniər qana batmış dişlərini Qarabağa qıcamışdılar. Müharibə başlayanda hamı kimi irəli dursa da yaddaşlarda göyərən “oğul dayısına (erməni də olsa) güllə atmaz, kalamına söykənərək ürək qızdırıb ona nə silah, nə də kəndin müdafiəsini etibar etmişdilər. Həm də sıpairtməyi qopardan dayısı (dünyanın düz vaxtı onlara tez-tez gələrdi) düşmən tərəfdə bizə qarşı vuruşurdu...

Dəliqanlılar neçə dəfə Səmədgilə hücum çəkmiş, söyüb-söy-lənərək dirənmişdilər ki, arvadını qovsun. Guya bütün bəlaların səbəbkarı oydu. Guya erməni qızına evlənməsəydi, ara qarışmaz, torpaqlarımız tutulmaz, xalq isti yurd-yuvasından didərgin düşməzdi... Axı Səməd başıdaşlı bir vaxt hardan biləydi ki, haçansa erməni gor qonşusuna naxələf çıxacaq?.. Qeyri millətə evlənən azdı? Bəlkə sabah rusla da aramız dəydi. Onda camaat durduğu yerdə neçə il bir yastığa baş qoyduğu arvadını, uşaqlarının anasını boşamalıydı? Oyun-oyuncaqdı?.. Qızan, ağlını itirən beyinlər heç nə eşitmək is-

təmirdi. Ağlı başındakılar da qəzəblənmiş çoxluğa, qaragüruha qarşı durmaqdan çəkinir, səsini çıxartmırdı. Əlbəttə, vəziyyətdən bəhrələnməyə, xal qazanmağa çalışan kəmfürsətlər də vardı. Düşmən adamın üstünə ya zəiflədiyini, ya da özünü unudaraq fil qulağında yatdığını görəndə ayaq alır. Məğlubiyyətin əsl səbəbini axtarıb tapmaq, nəticlərini aradan qaldırmaqdansa əhəmiyyətsiz, ikinci, üçüncü dərəcəli məsələlərlə fikri yayındırmaq, adamları çaşdırmaq, qüvvələri parçalamaq düçmən dəyirmanına su axıtmaq, ən böyük təxribatdı. Səməd kişiyə görə, indi bütün umu-küsülər, inciklıklər bir kənara qoyulmalı, ümumi bəlanın kökləri, səbəbləri araşdırılmalı, buraxılmış səhvlər üzə çıxarılmalı, düşmənə qarşı özünün də gözləmədiyi daha təsirli, daha effektli mübarizə üsulları tapılmalıydı. Bunlardan biri arvadı erməni olanların qohumluq əlaqələrindən bacarıqla istifadə etməkdi ki, Səməd kişi dilinə gətirməyə belə qorxurdu...

İstər-istəməz özünün və ailəsinin taleyini hadisələrin axarına buraxmışdı. Vəziyyətlə barışan arvad-uşağı da gündə bir fitnəyə uyan dəliqanlıların gözünü yağır etməmək, hisslərini qıcıqlandırmamaq üçün kənd arasına çıxmır, hər tənəyə, söyüş-fərşə, hədə-qorxuya dözür, yurd-yuvalarından perik düşməyi ağıllarına sığışdırmırdılar...

Kənddə Səməd kişidən başqa da arvadı erməni olan vardı. Birinin əri sürücüydü. Hadisələr başlayanda qəza törədib tutulmuşdu. Gözümçıxdıya dözməyən arvadı uşaqlarını da götürüb Krasnodardakı valideynlərinin yanına pənah aparmışdı. Başqa biri Bakıya köçmüş, sənəd-sübutla arvadının milliyyətini, ad-familiyasını dəyişdirtmişdi...

Tağı traktorun qoşqusunu göstərərək Səmədgilə tərəf ucadan nəsə qışqırdı. Tırıltıdan ayırd etmək mümkün olmasa da əlinin hərəkətindən nə demək istədiyi anlaşılırdı.

Səməd kişinin balaca gədəsi başını qaldırıb hürkək-hürkək traktora, onun içindəki adamlara sarı boylandı (gözlərini elə bərəltmişdilər, sanki onları birinci dəfə görürdülər), sonra hoppanıb qoşqunun qırağından sallaşdı. Onunla bir sinifdə oxuyan Orxan köməyə tələssə də qaldırmağa gücü çatmadı. Bayaq qahmarçılıq edən adam onu kənara itələyib özü əl uzatdı. Anası aşağıdan hıqqıltıynan güc verdi...

Səməd kişi çiynində köhnə brezent heybə hələ də dayandığı yerdən tərpənmədən onlara baxırdı.

Bayaqdan qırıla-qırıla qalan Nazan arvad gözlənilmədən ilan çalmış kimi bağırdı:

- Dayanın!.. - Gözləri vəhşi heyvan gözləri kimi alışıb yanırdı. - Qoymaram erməni haxçığı, erməni törəməsi traktora minə!..

- Ay arvad, otu yerində... - Yanındakı böyrünü nə qədər basdalasa da sakitləşmədi. Əksinə, daha da qızışıb qorlandı.

- Yox, mən erməni ilə bir traktorda gedə bilmərəm!.. - Nazan arvadın ermənidən yana ürəyi dağlıydı. Ermənilər qızını Xocalıda uşaqlı-böyüklü evə doldurub yandırmışdılar. Oğlunu da by yaxınlarda döyüş bölgəsində vəhşiliklə qətlə yetirmişdilər...

- Ə, düz deyir də, - kimsə dil atdı, ocağa neft atan kimi, - ev-eşiyimizi topa tutub dağıdan, bizi yurd-yuvamızdan didərgin salan erməni, hələ ona ürəyimiz də yanır. Erməni elə bir zəhərli toxumdu ki, getdiyimiz yeri də zəhərləyəcək...

Səməd kişi bir həmləyə traktordan sallaşa qalan oğlunu yerə saldı..

Elə bu hayda yolla onlara tərəf yumalana-yumalana nəsə bir qaraltının yaxınlaşdığını gördülər.

- Çubuş!.. - İtini birinci Orxan özü tanıdı.

Çığır-bağır, hay-harayla traktoru saxladınca yerindən tərpənib xeyli aralandı. Dayananda ləhləyə-ləhləyə qaçan Çubuş da dayandı. Ancaq traktora sarı getməkdənsə Səməd kişigilə yanaşdı. Oğlunun şalvarına sırmaşmağa, böyür-başında atılıb-düşməyə başladı. Yəqin onu Orxana oxşatmışdı...

Traktordakılar Çubuşu tutub gətirmək üçün gimrik uşaqlardan birini aşağı düşürtdülər. İt quyruğunu qısaraq məzəli qaçışla ağzı geri götürüldü. Uşaq dayanan kimi o da dayanıb gözlədi. Dəbərən kimi başını qovzayıb arxasına baxa-baxa təzədən tozanaqladı. Sanki könlünə oynamaq, məzələnmək düşmüşdü. Tutduruq verməyəcəyini anlayıb uşağı çağırdılar. Çubuş Orxanı da eşitmədi...

* * *

Kənd əhli dəstə-dəstə, topa-topa magistral yolun qırağında sıralanmış çinarların kölgəsinə tökülmüşdü. Yaxınlıqda fantan vuran artezianın göz yaşı kimi dumduru cuyu adamı gendən çağırırdı. Tağı göz gəzdirib traktorunu kölgəsi boş olan çinarlardan birinin altında

saxladı. Düşən özünü arxa verdi. Soyuq artezian suyundan üz-gözünə vurub sərinlədi. Sonra əllərini qaşlarının üstündə günlükləyib tüstüləyən kəndə tərəf boylandılar. Bağ-bağatdan, o bağ-bağatın qoynunda qızaran, ağaran, gün işığında bərq vuran taxtapuşlardan başqa heç nə görünmür, səs-səmir eşidilmirdi...

Bir azdan arvadlar çinarın kölgəsinə paltar-palaz, şəlpə-şülpə saldılar, döşəkçə-zad döşədilər. Artezian suyundan içən uşaqlar aclıqdan çıxmış kimi arasına şor doldurulmuş lavaş dürməyinə döləcidilər. O tərəfdə haray-həşirlə bir-birini qovan, oynaşan uşaqların Araz aşıqlarından, Kür topuqlarındandı. Nə danışsalar, hara tərpənsələr, neynəsələr də qaşlarının düyünü açılmayan kişilər üzü kəndə doğru ayaq üstə qalmışdılar...

Bir azdan Səməd kişigil də göründü. Əl-ətəyi yanıb qarsalanmış, quruyub keçəlləşmiş, bayaqdan kəndçilərinin kölgəliyini bəyənmədikləri aralıdakı tək çinarın altında yerləşdilər. Ancaq Çubuş gözə dəymədi...

Köçünü qəsdən kəndçilərindən aralı salan Səməd kişi böyük oğlundan yana bərk nigarandı. Qaçhaqaç vaxtı gümanı gələn yerlərə baş vursa da onu tapmamışdı. Qorxurdu kəndçiləri oğlunun birdənbirə hara yoxa çıxdığını xəbər ala, cavab verə bilməyə. Onsuz da əskisi tüstülüydü. Ürəyində özü də oğlundan arxayın deyildi. Cavan, beyni qandı. Dayısı tərəfdən gizli, şirnikləndirici çağırış ala bilər, lap elə acığa düşər, pisikib düşmən tərəfə keçərdi. Şər deməsən xeyir gəlməz, əgər oğlu, doğrudan da, düşmən tərəfə adlamışdısa, vay Səməd kişinin, ailəsinin halına! Gərək ölüsünü qoyub dirisini ağlayaydı...

Səməd kişi kəndçilərindən nə qədər qıraq qaçsa da oğlu su istəyəndə kapron qabı götürüb arteziana getməli oldu. Suyun üstü arvad-uşaqla doluydu. Kişilər bir nəfəri bərk sorğu-suala tutmuşdular. Səməd kişi qeyri-ixtiyari qulaqlarını şəkləyib dinşədi. Bu adam kənddə ilişib qalanlardan idi. Ermənilərin həyət-bacaya necə soxulduqlarından, evlərə daraşdıqlarından danışırdı. Təsadüf nəticəsində qaçıb canını qurtarmışdı. Dediyinə görə, qəfildən evlərin hansındansa güllə səsi eşidən ermənilər ora cummuşdular. O da qarışıqlıqdan istifadə edib aradan çıxmışdı. Yenə dediyinə görə, kənddən xeyli

aralanandan sonra da həmin güllə səsini arabir eşidirmiş. Nə güllə səsiymiş, kim tərəfindən, kimə atılırmış, anışdırmamışdı...

Qulaq asan kəndçiləri də bunu bir tərəfə yoza bilmədilər...

* * *

Üç saatdan sonra xəbər gəldi ki, erməni qorxusundan duruş gətirməyib kənddən çıxıb, kənd bomboşdu. Camaat indi də qarşıdakı tüstünü, bağ-bağatı tutub dəli-havalı kimi mələyə-mələyə ağzı geri axışdı...

Erməni, həqiqətən, kəndi tərk etmişdi. Ancaq tankın, BTR-in ağzına verib dağıtdığını dağıtmış, yandırdığını yandırmış, çəkidə yüngül, vəzndə ağır çalıb-çapdığını aparmışdı. Müqavimət göstərənin, macal tapıb qaça bilməyənin də öldürdüyünü öldürmüş, qalanını girov götürmüşdü...

Ermənilər Tağının oğlu Orxanın Çubuşunu da güllələmişdilər. Leşi pilləkənlərinin ayağındaydı. Yəqin evə girməyə mane olurmuş...

Səməd kişinin ailəsi kəndə lap axırıncı qayıtdı. Qapıya çatanda kəndçilərini həyət-baca ilə bir görüb təəccübləndilər. Elə bildilər evləri ermənilər tərəfindən yandırıldığına görə yığışıblar. Ancaq belə deyildi. Yaxınlaşanda səssizcə aralandılar. Səməd kişi böyük oğlunun meyidini ortalıqda gördü. Məlum oldu ki, o, hardansa ələ keçirdiyi qoşalülə ilə təkbaşına düşmənin qarşısına çıxmış, gülləsi qurtaranacan atışmış, ermənilərdən üçünü gəbərtmişdi. Gəbərənlərdən biri dayısıydı...

## A n ı m

Nabat arvad kol-kosdan hörülüb düzəldilmiş qapağın ara-bərəsindən bağ-bağatlı geniş həyət-bacaya xeyli diqqət yetirdi. Lakin kimsə gözünə dəymədi. Günün bu vaxtı təkcə adamlar deyil, bütün canlılar günəşin yandırıcı şüalarından daldalanmağa, başını soxmağa sərin yer axtarırdı. Nabat arvad da küçəyə çıxandan sonra peşiman olmuş, amma yolundan qalmamışdı.

- Ay Fatma qarı, huyy!..

Pələş (uzun qulaqlarına görə belə çağırırdılar) əvvəl nagümana bir ağız ərincək-ərincək hürdü. Handan-hana tut ağacının (evin qabağındaydı) dibindəki köhnə taxtın altından çıxdı, silkinib döyükə-döyükə ətrafı dinşədi, sonra quyruğunu qısaraq ləhliyə-ləhliyə candərdi doqqaza yaxınlaşdı. Nabat arvadı görəndə axmaq-axmaq səsini başına atdı. ″Ham-hamm!..″

- Pələş, Pələş, məni tanımadın?.. - Guya dil qanırdı.

İt öz işində, yalandan yava-yava hürməyindəydi. Sanki deyirdi, ayda-ildə bir dəfə görməklə adam tanıyarlar? İt olmur, olsun lap hər nə…

Nabat arvad sağ əlindəki bağlamanı sol əlinə ötürərək hər ehtimala qarşı çəpərin payası əyilmiş tərəfinə keçdi. Bəd ayaqda ağacı çəkib birtəhər qorunardı.

Pələş qəsdə dolsaydı kol-kosu çürümüş, dağılıb vecsiz hala düşmüş çəpəri bir sıçrayışa aşardı. Amma istidə özünü çətinə salmaq istəmirdi. Bir də, bunu mənasız, artıq iş sayır, qarşısındakının ziyansız adam olduğunu duyurdu. Nabat arvad geriləyəndən sonra daha da arxayınlaşdı. Yerindən tərpənmədən xalaxətrin qalmasın səfeh-səfeh hürür, arabir başını evə sarı döndərib sahibindən haray gözləyirdi.

- Ay it, nə var, niyə hürürsən?.. - Nəhayət, hardansa Fatma qarının ″ay iti hürdürən, kimsən?″ mənasını verən yorğun, zəif səsi eşidildi.

- Fatma qarı, mənəm ey, Nabatdı, itin qabağına dur...- Nabat arvad çəpərin başından tələsik özünü göstərdi.

- Hayy?.. Ay adam, kimsən, hardasan?..

Nabat arvad başa düşdü ki, əsas məsələ səsidi, boğazına güc verməlidi. Verdi də. Düzdü, Fatma qarının qulağı da yaxşı eşitmirdi, amma gözü ilə müqayisədə darı dəlirdi…

Ayağında taykeş, cırıq qaloşlar, başında ucunu hərləyib boynunun dalına atdığı köhnə yun şal (guya qışdı, qar qapını almışdı), əlində kələ-kötür, əyri-üyrü dağdağan ağacı yanlarını basa-basa irəllədikcə (beli bükülmüşdü) ayaqlarına dolaşan neçə taxtalıq tumanı arxasınca torpağı süpürürdü…

* * *

Nabat arvadı itdən ötürən Fatma qarı əsasını tut ağacının altındakı taxtın başına söykədi. Şəlpə-şülpəni, limdaş döşəkçələri yan-yön elədi, Nabat arvadın köməyi ilə hıqqana-hıqqana motunu qaldırıb onların üstünə yıxdı, mütəkkəyə söykənib rahatlandı. Nabat arvad da taxtın yanındakı stullardan birini gözəyarı seçib (stullar da, onların mehribanca araya aldığı stol da sınıq-salxaqdı) ehtiyatla əyləşdi…

"Qıcc" eləyib havaya qalxan milçəklər təzədən stolun üstündəki şirəyə qondu.

Qayıdıb kölgəliyinin zəbt edildiyini görən Pələş Nabat arvadı tərs-tərs süzərək toyuq-cücəyə qəfil "xox" gəldi. Onlar da qaqqıltıynan uçuşaraq toz-torpağı havaya sovurdu. Nabat arvad səksənsə də Fatma qarının nazarına da olmadı. İtə ağızucu çəmkinməklə kifayətləndi. Bunu da Pələş vecinə almadı. Şitəngi uşaq kimi qarıyamı, ya zəhlətökən cırıltısı aləmi başına götürmüş ağacdakı cırcıramayamı bir ağız "ham!" eləyib qanuni haqqı kimi əvvəlki kölgəliyində şöngüdü. Başını qabaq pəncələrinə qoyub qulaqlarını yapırdaraq gözlərini Nabat arvadın ağzına dikdi.

- Uşaqlar hanı, Fatma qarı?..

- Gədə (sonbeşiyiydi, onunla qalırdı) səhərdən arvad-uşağını yığıb aparıb qayınatasıgilə. Qızın (gəliniydi) atasının ilidi. Mənim də getməyim ləyaxdı, intəhası, qıçlarım yerimir, qalmışam evin altında bayquş kimi təmtək…

- Neynək, oğlun, gəlinin sən əvəzdi… - Nəyə gücü çatmasa da Nabat arvad yeri gələndə dil-ağıza, toxtaqlığa pərgardı.

- Nə bilim, vallah. Sizdə nə var, nə yox, salamatçılıqdımı?..

- Salamatçılıqdı. Hamımız canına duaçıyıq…

Hal-əhval tutmaq vacibdi. Amma maraqlısı Nabat arvadın günün bu cırhacırında niyə təşrif buyurmasıydı. Bunu da açmağa tələsmir, yüngülsaqqal olmaq istəmirdi. Böyük, ağbirçək kimi ilk hərəkəti Fatma qarıdan gözləyirdi. Qarı da ev yiyəsi kimi irəli düşüb qonağın (çox da qohumuydu, ona qalsa, kəndin hamısı bir-birinə cələkliydi) qarnının azarı ilə maraqlanmağı ədəbsizlik sayırdı. Sonrası da, onu tezbazar başından eləyib bu boyda həyət-bacada, özü demiş, təzədən bayquş kimi təmtək oturmayacaqdı ki! Qulaq yoldaşını allah yetirmişdi…

- Məni yenə ruf tutub, deyəsən, Fatma qarı?.. - Nəhayət, Nabat arvadın səbri tükəndi.

- Bu yaxınlarda kişinin (ərini deyirdi)… - Fatma qarı burda güclə seziləcək bir fasilə ilə nəfəsini dərdi.

- Allah rəhmət eləsin! - Nabat arvad arif adam olmaqla bərabər müsəlmandı, tələsik qanacağını göstərdi, yəni müsəlmançılığını adəti yerinə yetirdi.

- Allah cəmi ölənlərinə rəhmət eləsin! - Təbii, Fatma qarı borclu qalmadı. - Hə, kişinin quranını gec oxutdum. Yuxuma girdi, məni dindirmədi. Başım neçə gün daş kimi ağırlaşıb boynumdan sallandı, şər qarışanda titrətmə-qızdırma canıma doldu..

- Bu saat mən elə o gündəyəm… - Nabat arvad dedi. - Ay xala, axı bu ruf məni nə tez-tez tutur belə? Yanına gəldiyim iki ay deyil heç…

Arvadın avamlığına gülən Fatma qarının işığı öləziyən xırdaca, boz-bulanıq gözləri ətrafını sarmış qırışlar içində itdi.

- Allah saxlamış, birdimi, ikidimi ölü?..

Döşəkçənin qulağını qaldırıb əl havasına altında nəsə axtardı. Tapmayanda əlini mütəkkənin baş tərəfindəki büzmədən içəri soxdu, eşələyib ordan qabıqlı, iri bir baş soğan, bir də bir aşıq sapı çıxartdı. Sapdan qırıb soğanın qurumuş saplağına bağladı. Ocaq yerindən Nabat arvada beş-altı kömür gətizdirdi. Stolun üstünə dövrələmə düzə-düzə hərəsini Nabat arvadın yaxın ölülərinin birinin adı ilə manşırladı.

- Yadında yaxşı saxla, Nabat. - Sapın ucundan tutub soğanı yuxarıdan kömürlərin ortasına salladı. Nabat arvadın bütün diqqəti onun damarları göyərmiş bir dəri, bir sümük əlindəydi. Havada sakit dayanmış soğan birdən zəif bir titrəyişlə sol tərəfdəki kömürə doğru meyilləndi. - Gördün, a Nabat? - Fatma qarının gözlərinin dərinliyində ani bir işıltı parıldadı. - Kimdi, aaz, bu?..

- Qayınanam adı batmış! - Nabat arvad o saat partladı. Ölümündən illər ötsə də, qayınanasının elə təkcə adının çəkilməsi onu həmişə özündən çıxardırdı.

- Keçən dəfə də oydumu, az?.. - Fatma qarı soruşdu. - Onda nə istəmişdi?..

- Çığırtmalı aş!..

Fatma qarı kömür qırıqlarını bir qırağa sivirəndən sonra bayaqkı qaydada soğanı yuxarıdan aşağı sallayaraq bir-bir xörəklərin adlarını sadaladı. Göy kətəsinə çatanda sap soğanqarışıq havada titrədi.

Nabat arvada elə gəldi ki, Fatma qarı bezib sapı özü tərpətdi. Bu, açıq-aydın nəzərə çarpdı. Bir də, başqa nə cür ola bilərdi axı?..

- Yəni bunlar hamısı düz, inanılası haqq-hesabdı, ay Fatma qarı?.. - Adamdan soruşardılar, inanmırsansa həftə səkkiz, mən doqquz nə ölümün var qapımda?.. Ancaq Fatma qarı hər şeyin yerini-yurdunu, məqamını bilən adamdı. - Sağlığında qayınanam göy kətəsini dilinə vurmazdı. Özümüz də səndən nə danım, bir-birimiznən itnən-pişik kimi dolanardıq. İndi bilmirəm nə sirdi bu, o qədər əzizi dura-dura rufu gəlib məni tutur?.. Kətəni mənə bişirtdirir?..

Elə bil birdən-birə Nabat arvadın başında köhnə yellər oynadı, beyninin qurdu tərpəndi. Xəyalən komsomol vaxtı ateizm təbliğatı ilə kənddə at oynatdığı illərə qayıtdı. Coşduqca coşar, bəzən nə danışdığını özü də bilməzdi. Köklü təhsili, savadı olmasa da ayıq-sayıq, diribaşdı. Yuxarıların sözlərini, ağızdan-ağıza ötürülənləri tutuquşu kimi təkrarlamaqda ustaydı...

Eh, səki indi sərbəstlik, əqidə azadlığıydı. Əslində, vallah, mahiyyət dəyişməmişdi. O zamankı ateizmin, allahsızlığın təbliğindəki naşılığın, tələskənliyin yerini bu gün yenə ciddi bir şey vəd etməyən din-imana qayıdışa çağırışdakı canfəşanlıq tutmuşdu. Nabat arvad onda da düz-əməlli bilmirdi kim kim, nə nədi, sidq ürəkdən kimə, nəyə inanır, kimə, nəyə inanmır və bu inanıb-inanmamağın xeyri-şəri nədi, indi də. Kor əl havasına yaşayan kimi yaşamışdı, yenə yaşayırdı…

- Ağız, buna bax ha!. - Ondan geri qalmayan Fatma qarı arvadın qanmazlığına qəzəbləndi. - Bura (bu dünya) başqa, ora (o dünya) başqa, ölü ayrı, diri ayrıdı, bala. Günahdı, şəkk eləmə…

- Qayınanam rufa əliklə (əl iyi) baxardı. - Nabat arvad şəkk-şübhəsini başqa formada ortaya qoydu, daha doğrusu, başqa tərəfə yönəltdi...

Keçən dəfə də bunu eşitdirmişdi. Demişdi, qayınanası yeri gələndə həmin bu əl iyi ilə özünə bala-bala yun, pambıq sap da əyirərdi. Qarı qulaqardına vurmuşdu.

- Tafotu yoxdu. - Fatma qarı yenə əhəmiyyət vermədi. -Doğrudan, ay Nabat, neynədiniz rəhmətliyin… əliyini?..

- Hər nəyi vardı, hamısını sandıqlı-zadlı öləndən sora qızları apardı...

- Yarımhəkimdi rəhmətlik… - Qarı sözarası ikinci dəfə imkan yaratsa da Nabat arvad at kimi şiniyib müsəlmançılığa riayət etmədi. - Otlardan cürbəcür dərman hazırlayar, qan alar, həkimlərin sağalda bilmədiyi çətin yaraları sağaldar, doğmayanları doğuzdurardı… Bir sözlə, əcaz arvaddı! Bacısının əri vardı, Moruc doxdur, Piterburqdunədi, doxdurruğu orda oxumuşdu. Qayınanan hamısını o kişidən yığıb-yığışdırmışdı. İmanımı yandırmaram, az-çox mənim də öyrəndiklərim Bənövşə qarının hesabınadı…

- Biz saya salmadıq. - Nabat arvad peşimançılıqla boynuna aldı. Daha onu dilə gətirmədi ki, yeri düşdü-düşmədi yazıq arvadın türkəçaralığını necə məsxərəyə qoyardı. - Rəhmətliyin təmənnası nəydi? Köhnə pulnan beş qəpik, ya da bir yumurta. Deyirdi, bunu da ona görə götürürəm ki, elədiyim müalicənin, dava-dərmanın xeyri dəysin… Köhnə həkimləri yamsılayardı…

- Guya mən nə alıram ki? - Arvadın sözü Fatma qarıya toxundu. - Köhnə adamların, irəlikilərin hamısının gözü-könlü toxuydu…

- Xala, vallah, bunları xətrinə dəymək üçün demədim… -Nabat arvad məqamı çatdığını düşünüb bayaqdan böyründə saxladığı bağlamasını açdı. Qarının könlünü təzə təndir çörəyi, bir kiloluq dovğayla aldı. - Bir bunu iç, indicə bişirmişəm. Bilirəm ki, yarpız dovğasını xoşlayırsan.

- Üzün ağ olsun, ay bala!..

Fatma qarı aclıqdan çıxıbmış kimi tez dovğanı başına çəkib hortuldatdı. Təndir çörəyindən qopardıb ağzına dürtdü. Diş adına görünən iki cüt, bir tək çürük kötüklərin arasında hərləyə-hərləyə hövkələdi…

* * *

Oğul, qız, nəvə-nəticə bir-birindən xəbərsiz ata evinə cəm olmuşdu. Maşallah, o qədərdilər ki, ortalıq stolunun yan-yörəsi tutmurdu.

Çay-çörək yeyilib yığışdırılmışdı. Ordan-burdan söhbətləşirdilər. Nabat arvadla kiçik gəlini yaxalarında döşlük, üst-başları unlu,

hisli sacda təzə bişirdikləri bir sini göy kətəsiynən içəri girdi. Otağı xoş iy-qoxu bürüdü.

- Baho, bu nədi, ay arvad?.. - Əri yerində qurcalandı.

- Anayın rufu tutmuşdu məni. Fatma xala dedi ki, göy kətəsi istəyir. Mən də bişirdim.

- Ruf yox, ay arvad, ruh… - Mehman kişi iradını bildirdi.

- Bah, səf tapanıma bax…- Nabat arvad çırt atdı. - Nuh əyyamından belə eşitmişik…

- Nə isə, allah rəhmət eləsin, qəbri nurla dolsun!.. - Böyük oğlu barışdırıcı tərzdə dilləndi. Yer-yerdən "amin!" deyib sözünə qüvvət verdilər.

Alma yanaqlı qız nəvəsi qulağındakı sapı əlləşdirə-əlləşdirə (təzə deşdirmişdi, yəqin qaşınıb incidirdi) soruşdu:

- Baba, sənin də anan var?- Qabaqdakı süd dişləri töküldüyündən səsi fışıldayırdı.

- Anasız canlı olmur, quzum?.. - Mehman kişi əlini uzadıb nəvəsinin saçlarını sığalladı. - İntəhası mənim anamı görmək siz nəvələrimə qismət olmadı.

- Adı nəydi, baba?.. - Başqa bir nəvəsi yerində dingildədi.

- Bənövşəydi, bala. - Mehman kişi ayaq tərəfdə, anasının yanında əyləşmiş qarabuğdayı, suyuşirin yeniyetməni göstərdi. Böyük oğlunun qızıydı. - Bax, Bənövşə nəvəm onun adını daşıyır.

- Torpağı sanı yaşasın!.. - Nabat arvad dedi.

Hamı qıza tərəf döndü. O da utanaraq nazik barmaqlarını əzişdirdi.

- Doxsandan artıq ömür sürdü, dünyasını da öz əcəliynən dəyişdi. - Mehman kişi əlavə etdi. - Gərək molla Mürsələ tapşıram arvada Quran oxusun…

- Mən tapşırdım, pulunu da verdim. - Nabat arvad bildirdi.

- Sağ ol, ay arvad, ölənlərinə rəhmət, xeylaq savaba batmısan... - Mehman kişi dil-ağız elədi.

- Nətəər arvad idi, xala? - Böyük gəlini, Bənövşənin anası rəhmətlik haqqında ərindən bəzi şeylər eşitsə də yenə maraqlandı. - Şəkli-zadı qalmayıb?. - Gəlin şəhərdəndi, kənd məktəbində kitabxanaçıydı. Müəllim oğluynan elə orda alışıb-verişmişdilər.

- Bir şəkli vardı, onu da Mahir çəkmişdi. - Arvad kiçik oğluna tərəf çöndü. - Yaxınlaracan dururdu...

- Sən çəkmişdin, ata?.. - Dizinin dibini kəsdirən yeddi-səkkiz yaşlı oğlu maraqla Mahiri dümsüklədi.

- Hə, oğlum. - Mahir təsdiqlədi. - Orta məktəbin axırıncı sinifdə atam, yəni Mehman baban mənə bir fotoaparat almışdı. Nə qədər şəkil çəkirdimsə qara-qura, bomboz alınırdı. Amma Bənövşə nənəmin şəkli lap atkritka kimi çıxmışdı…

- Bəs onu nənəm cırmamışdı, Mahir? - Böyük qardaşı Sadiq soruşdu.

- Cırmışdı. - Mahir dedi. - Şəkli çəkib göstərdim hirsləndi. Neçə gün yalvarıb-yaxardı ki, cırım, əlim gəlmədi. Verdim özünə ki, neynir eləsin, təki sakitləşsin. O da heyifsilənmədən tikə-tikə doğradı…

- Dindar adam idi. - Sadiq dedi. - Xurafatla beynini doldurmuşdular ki, o dünyada hər şəkil üçün sahibindən əlavə can istəyəcəklər... Şəkil çəkdirməyi günah sayırdı.

- Neqativini, lentasını saxlamışdım. - Mahir əlavə etdi. -Nənəm rəhmətə gedəndən sonra təsadüfən əlimə keçdi, təzəsini aşkarladım.

- Nə sadəlövh arvad imiş! - Böyük gəlini heyrətləndi.

- Eh, bu harasıdı! - Sadiq arvadını təəccübləndirəcək daha bir hadisəni danışdı. - İlk maaşıma maqnitofon (əl maqnitofonları təzə çıxmışdı) almışdım. Nənəmdən xəbərsiz kənarda qurdum, mikrafonu əlimdə gizlədərək başına toplaşdıq…

- Doğrudan, o nəydi, ay Sadiq?..- Bacısı Gülər axırını gözləmədən şaqqıldayıb güldü.

- Dayan də, ləzzətini qaçırtma. - Sadiq tez bacısının ağzından vurdu. - Hə, arvada cürbəcür suallar verir, o da keçmişdən-keçəcəkdən danışır, lətifə, şeir söyləyirdi…

- Allah ətini töksün, necə ki tökdü! - Nabat arvad əlini ağzına tutub bədənini əsdirə-əsdirə fısıldadı, guya gülürdü. - O nə şeirdi, hələ də qulağımdadı:

Dombalan yedim duz ilə,
Soyundum yatdım qız ilə…

Gülüşmə qopdu. Uşaqlı-böyüklü hərəsi bir tərəfdə uğundu.

- Səsini maqnitofona yazdığını nənən sonra bilmədi?. - Sadiqin arvadı gülməkdən yaşarmış gözlərini silərək soruşdu.

- Bildi! Maqnitofonu oxutduq, matı-qutu qurudu. Dedi, məni yamsılayan kimdi bele? Səsinin lentə köçdüyü heç cür ağlına sığmırdı. Biləndə ki, pozmaq mümkündü, yalvardı, dönə-dönə and verdi ki, sən dədəyin canı (ən böyük andıydı), poz o yazdıqlarını. Mən də pozdum...

Uşaqlar guya utanırdılar, gah xısın-xısın, gah da aşkarca Bənövşə qarıya isnad verilən bayaqkı şeiri öcəşə-öcəşə təkrarlayır, təzədən pıqqıldaşırdılar…

Bayaqdan oranı-buranı töküb-töküşdürərək Bənövşə arvadın şəklini tapıb üzə çıxardan kiçik gəlin, Mahirin arvadı, onu ərinə verərək dedi:

- Lap Fatma qarıdı ki, durub!..

Gəlinin şəkli gördüyü birinci dəfə deyildi. Zorla xatırlayırdı ki, uşaq vaxtı Bənövşə arvad onu Fatma qarıgildə (qonşuydular) görəndə gözünə şirin dəymişdi-nəydisə əyilib üzündən öpmüşdü, indi öpməsin. Amma bunu dilinə gətirməyə utanırdı...

- Nənəmin arxasındakı təndirxanamızdı. - Mahir izahat da verdi. - Şalı həmişə başında olardı. Mahud kofta, üstündən də kişisayağı cilet geyinərdi. Tumanı da onmu, on ikimi taxtaydı, ayağının üstünəcən örtərdi…

- Bunu çəkəndə neçə yaşındaydı?.. - Kürəkəni şəkli alıb diqqətlə baxdı. O da qonşu kənddəndi. Bitkiçilik texnikumunda qızıynan bir oxumuşdu.

- Eh, yaşını heç özü də düz-əməlli bilmirdi...

- Metirikası-zadı yoxdu, oğul. - Mehman kişi dedi. - Ağsaqqalların sözünə görə, kəndimizdə tək-tük adam anamla yaşdaşdı. On bir uşaq doğmuş, onlardan üçü ev-eşik sahibi olmuşdu. Mən sonbeşiyiyəm. Bacılarım son vaxtlaracan dururdu...

Hə, nə balaydısa yaşdan söhbət düşəndə arvad cırrıyırdı. Haçan dindirirdin, Molla Nəsrəddin kimi, deyirdi, səksənlə doxsanın arasındayam. Bacımın yetmiş beş yaşı vardı, bir gün qayıtdı ki, ay ana, onda məni beş-altı yaşında doğmusan? Sərincə güldü. Məni azdırma, dedi, sənin o qədər yaşın hardandı, dünənin uşağısan…

- Bunu da ki, lap uşaq sayırdı. - Nabat arvad istehzayla ərini göstərdi. - Elə çıxırdı ki, bu yox, mən bundan böyüyəm…

Mehman kişinin yaşı altmışı adlamış, başının ortası tökülmüşdü. Çallaşsa da hələ codluğunu itirməyən qalın qaşları buxağı sallanan sifətinə xüsusi bir görkəm, belə demək mümkünsə, zəhm verirdi. Əslində mülayim adamdı.

Xınalı saçları, bir də qıvraq bədəni Nabat arvadı ərindən xeyli cavan göstərirdi. Amma aralarında beş-altı yaş fərqi vardı. Hər ikisi təqaüddəydi…

- Ana, bizə danışırdın ey, döşəkçə məsələsi…- Gülərin qızı bayaqdan anasnın yadına nəyisə salmağa cəhd edirdi.

- Hə, uşaq onu deyir ey… - Qızının fikrindən keçənlər ona indi çatdı. - O günü döşəkçə düzəldirdim, nənəmin sözləri yadıma düşdü. Dönə-dönə tapşırardı ki, quru yerdə oturmayın, soyuqluqdu. Gərək canı uşaqlıqdan qoruyasan. Xatirinizdədi də, balaca-balaca döşəkçələr sırımışdı. Cücəli toyuq kimi bizi yanına salıb gəzdirər, hara aparsa döşəkçələrimizi də özümüzə daşıtdırardı…

- İstilər düşəndə bizi kəndin qırağındakı bağlara (sonralar vəhşicəsinə qırıb üzümlük saldılar, guya torpaq, yer qəhətliyiydi) apardı. - Sadiq bacısının xatirələrini ağzından qapdı. - Bağların sahiblərindən, necə qulaq edilmələrindən danışar, tanıda-tanıda otlardan, çiçəklərdən yığdırardı. Hətta bağların arasıynan çay kimi nərilti-gurultuynan axan (indi qurumuşdu) Misirxan arxının qıcovunda soyunub çimər, bizi də həvəsləndirərdi…

- Sizdən ayıb eləmirdi, ata? - Qızı üzünü yana tutub güldü.

- İndiki bic-bicəltək uşaqlar kimi deyildik, bala. Ağlımıza heç nə gəlməzdi…

- Bax, o dəmir krvat həmişə döşəli olardı. - Mehman kişi otağın yuxarı başındakı çarpayını göstərdi, - yatanda yatar, yatmayanda mütəkkəsinə söykənib dincələrdi. Üzü dilikli balaca bir dəmir radiomuz vardı, arvadın kravatının üstündən divara vurmuşduq…

- Orasını mən danışımmı, ay ata? - Sadiq razılıq gözləmədən üyüdüb tökdü. - Deyəsən, doqquzuncu sinifdə oxuyurdum. Məktəbdən qayıtmışdım. Nənəm çağırdı ki, bilirsən, büyün başıma nəəlib, ay bala? Günorta hərəniz bir tərəfə genidiniz, evdə tək qaldım. Özgə vaxt lal-kar dayanan radio qızışıb baş-beynimi apardı. Qalxıb hirslə

qulağını burdum. Üstünə də çımxırdım ki, yum ağzını, zəvzək oğlu! Bunu deyib mütəkkəyə təzəcə dirsəklənmişdim. Nə eşitsəm yaxşıdı? Qayıdasan ki, "a qoca Bənövşə, a qoca Bənövşə!.." İki dəfə dedi, dədəyin canıçün!.. Dedim, ay nənə, elə şey olmaz... Yalandan and içməzdi, yəqin qulağı səsə düşmüşdü. Soruşdum, yaxşı sən neynədin? Neyniyəcəm, əədə, dedi, matım-qutum qurudu, qorxdum, təkəm dana. Dodağımın altında sənnən hədələdim: "Qoy Sadiq bala məktəbdən qayıtsın, dedim, gör başına nə oyun açdıracağam…"

- Məzə arvadmış! - Kürəkən əlini-əlinə vurub güldü.

- Eh, televizor məsələsini danışmamışam sənə?.. - Gülər ərindən soruşdu. - Deməк, atam televizoru təzə almışdı. Kənddə hər evdə yoxdu hələ. - Xüsusi vurğuladı. - Bir gün qardaşı oğlugildən qayıdıb atama dedi ki, sizinki də televizordu? Bunda tumanı qısa, lüt arvadlar, kişilər atılıb-düşür (balet yadında qalmışdı), ağrım ürəklərinə, Qafargilinkində dağları, meşələri, çəmənlikləri, atları, qoyun-quzuları, tütək çalan çobanları göstərir, hayıl-mayıl oldum… - Yer-yerdən gülüşdülər. - Hə, nə qədər dedik ki, onda elə bizim televizor da həmin şeyləri göstərirdi, inanmadı…

- Nə verilişiydisə yığışıb tamaşa edirdik. - Mahir arabir ortalıqdakı kətələrin üstünə şığıyan milçəkləri qovurdu. Kətə bir qisminin xatirələrə aludə olduğundan yadına düşmür, o biri qisminin də təklifsiz (çox da bir ailəydi) ona ilk əl uzatmağa cürəti çatmırdı. - Ekranda yük maşını göründü. Şalının ucuyla burnunu tutdu ki, buy, ay bacı, benzinin iyi nətəər vurdu?.. - Uşaqlar hamıdan çox qaqqıldaşdılar. - Hər nə göstərsələr, elə bilirdi qutunun içindədi, yığışıblar ora. Televizora bir az artıq baxanda acıqlanırdı ki, a köpəyuşağı, özünüz yeyib-içir, dincəlirsiniz, barı arabir bağlayın, ordakılar da gedib istirahət etsinlər də…

- Hamısı biclikdi!.. - Nabat arvad ağzını burdu. - Qulaq dincliyi üçün, özünə görə deyirdi…

Araya kövrək bir sükut çökdü. Yüngülcə də olsa etirazını bildirməyə, bu xoş ovqatı korlamağa kimsə həvəs göstərmədi.

- Eh, ay bala, Nabatdan da, məndən də çox uşaqlar hamısı onu istəyirdi. - Mehman kişinin üzünü kürəkəninə, gəlinlərinə tutub dediyi bu sözlər bəlkə də Nabat arvada cavabdı.

- Noolsun, nənələriydi də... - Guya Nabat arvad buna təbii yanaşır, qısqanıb-eləmirdi.

Halbuki bayaqdan bəri Bənövşə qarını xoş sözlər, xatirələrlə anan balalarına, ərinə tərs-tərs baxır, üzə vurmasa da paxıllığından odlanırdı. Fikir vermişdi, lap əvvəllər, sağlığında da qayınanasının ünvanına toxunan haqsız bir söz deyəndə uşaqlar dözməz, açıq-aşkar üzünə qayıtmasalar da kənardan onu, doğmaca analarını hiddətlə süzərdilər. Xüsusən, hər xırda söz-söhbətdən ötrü qayınanası ilə ağac-ağaca qalxanda. Belə hallar isə tez-tez baş verərdi.

Bənövşə qarı da azacıq aşın duzu deyildi. Hələm-hələm özündən çıxmaz, tezcə əsib-coşmazdı. Gəlininin üç-dörd kəlməsindən birinə dillənər, onda da elə sözlər seçərdi ki, yeddi qatından keçərdi. İki daşın arasında Nabat arvadın gözü deyişməyə, bəzən söyüşməyə, qarğışlaşmaya tamaşa edən uşaqlarına sataşanda qarını buraxıb bütün ağrı-acısını onların üstünə tökərdi. Bu qızışmağın soyumağı axşama çəkərdi. İşdən qayıdan Mehman kişi heç hansına qahmar durmaz, başını bulaya-bulaya ortalığaca deyərdi: ″saçınız uzun, ağlınız gödəkdi...″

Kətəni bişirməklə qayınanasının anılmasına şərait yaratmış Nabat arvad bilsəydi, canı çıxsa, gözü bozarsa da Fatma qarıgilə ayaq basmaz, bişirmişdi bişirmişdi, kətəni belə tünlükdə ortaya gətirməzdi...

- İki-üç qara-qura dişi qalmışdı...- Gülnar əziz-xələf nənəsindən danışmaqdan hələ doymamışdı. - Hər şeyi yeyə bilməsə də, protez-filan haqqında eşitmək belə istəmirdi. Xoşladığı qındı, yumurta, bir də yağdı. Yumurtanı ılıdardı, yağı ərinmiş halda sətəkanla çəkərdi başına. - Eşidənlər, xüsusən uşaqlar çimçəşərək ″oyy!″ eləyib üzlərini çevirdilər. - Hə, hə. Birimiz yağ oğurlayıb gətirər, o birimiz pusquda durar, toyuq qaqqıldayıb yumurtasının üstündən qalxan kimi götürüb nənəmə çatdırardı...

- Nətəər, həyət-baca dolu toyuq-cücə, mal-heyvan, yağ, yumurta qəhətliyiydi ki, çırpışdırırdınız?.. - Böyük gəlin təəccübləndi.

Gülnar tutuldu. Anasına baxıb başını aşağı saldı. Qəfildən, fərqinə varmadan ağzından qaçırtdığı bu sözlərlə özünü dolaşdırmaqla bərabər, istər-istəməz anasının paxırını da açmışdı...

- Həmişə belə olmurdu, ay gəlin. - Mehman kişi qızını vəziyyətdən çıxartmağa, deyilənləri malalamağa çalışdı. - Nabat xalan cavanlığında çox hirsli-hikkəli, zodluydu. - Ona tərəf baxıb bığaltı qımışdı. - Gəlin-qayınananın bir-biriynən ağzıəyri dolanması qaydadı. Vay oydu gileyləşəydilər, anaları heç nə deməsə də uşaqlar öz yanlarından ehtiyatlanardılar. Anam kin saxlamaz, kim olur-olsun, burdan dalaşar, ordan özü çağırıb danışdırar, barışardı…

- Ata-bala bəziyin, bəziyin məni! - Nabat arvad hirs-hikkəylə oturduğu yerdə qıvrıldı. - Günah özündəydi də. - Deməyə başqa söz tapmadı…

Ehtiyatsızlıq ucbatından pis məcraya yönələn xatirələrin sonu qanqaralıqla bitdi. Nabat arvad dəymədüşər cavan gəlin kimi inciyib onları tərk etdi. Əvvəl şirin xatirələrin, sonra da dilxorçuluğun hesabına stola qoyulmuş kətəyə əl vurulmadı. Bir-bir, iki-bir dinməz-söyləməz durub dağılışdılar…

Bayırda çoxdan qaranlıq qarışmışdı. Orda-burda İsaq-Musaq quşunun qeyri-adi çağırışları eşidilirdi. Göydə sayrışan ulduzlar yerdəkilərə, həyət-bacalarda yanan gur elektrik lampaları da göydəkilərə naz-qəmzəylə göz qırpırdı. Bu, Yerin göylərə, göylərin də yerə bir başqa cür məhəbbətiydi…

* * *

Kiçik gəlin, Mahirin arvadı stolu yığışdırdı. Soyumuş kətələri sinidə mətbəxə qaytardı. Hələ sac qırağındaca neçə dəfə qalxıb çiyə gətirmək, isti kətələrdən birinin arasını yağlayıb iştahla dişinə çəkmək istəmiş, qayınanasından çəkinmişdi. Sonrası da belə...

Daha nəfsiylə bacarmadı. Kətənin ikisini dürməkləyib koftasının altında gizlətdi. Evdəkilərin gözündən oğurlanıb həyətə çıxdı. Özünü qaranlığa verərək pəyənin ayağındakı traktora (ərinindi) yaxınlaşdı. Lafetin arxasında daldalanıb kətəni yağsız-zadsız yeməyə başladı. Tələsdiyindən çoxunu çeynəmədən, diri-diri udurdu…

Qəfildən arxasında hənirti duydu. Zəhri-bağrı yarılmış geri dönəndə qaranlıqda Alabaşın bir cüt fanar kimi alışıb yanan gözlərini gördü. İt quyruğunu bulaya-bulaya maddım-maddım onun üzünə baxır, yalmanırdı. Əlində qalan kətə qırığını itin qabağına atdı. Alabaş onu yerə düşməyə belə qoymadı, göydəcə qapdı. Birdəfəyə ötü-

rüb ləzzətlə ağız-burnunun qırağını yaladı. Gəlin də ona baxıb əlinin tərsiylə ağzını sildi. İşığa sarı boylandı. Kimsə gözünə dəymədi…

Qayıdarkən ayaqyoluna aparan cığıra səmtləndi. Guya işi oralıqdı. Açıqlığa çıxanda itə tərəf döndü. Barmağını dodaqlarına yapışdırıb məsum bir təbəssümlə astadan pıçıldadı: ″Sss!..″ Bayaqdan dabanqırma onu izləyən Alabaş nəsə anlayıbmış kimi üzünü çevirib uzaqlaşdı…

* * *

Bənövşə qarı Nabat arvadın başının üstündə qaranlıq tülə bürünmüşdü. Yalnız nurlu çöhrəsi görünürdü. İlahi, necə də mehribandı! Deyəsən, Nabat arvadın üşürgələndiyini duydu.

- Mənəm, ay gəlin, qayınananam,- dodaqları tərpənməsə də zəif səsi eşidilirdi. - Dil-ağıza gəlmişəm…

- Nəyə gəlmisən?.. - Nabat arvad ya yaxşı eşitmədi, ya da deyiləni başa düşmədi. Amma qayınanası kimi bu iki kəlməni o da ağzını tərpətmədən dedi.

- Kətəyə görə sağ ol!.. - Qayınanası sanki söz-zad eşitmir, öz-özüynən danışırdı. - Molla Mürsəl qurumsaq adamdı. Pulunuzu alıb yesə də dəftərinə yazdığı ölülərə Quran oxumur. Hə, kətənin savabını da az qala batil eləmişdin…

- Niyə, ay qayınana?..

- Bircə nəfər daddı o kətədən. - Qayınanası həmin qaydada davam etdi. - Onun alqışı, savabıdı mənə çatan, sənin də qanıyın arasına girən…

- Kimdi o bir nəfər?.. - Nabat arvad indicə xatırladı ki, axşam doğrudan da, kətədən kimsə dilinə vurmadı. Təkrar-təkrar soruşsa da Bənövşə qarıdan cavab gəlmədi. Gülümsər, işıqlı çöhrəsi qaranlıqda tədricən əriyib itdi…

Nabat arvad diksinib oyandı. Səhərəcən yerinin içində eşələnsə də yata bilmədi…

* * *

Nabat arvad erkən hamıdan qabaq qalxıb mətbəxə keçdi. Kətələri saydı. İkisi çatmırdı. Adətiydi, təndirə çörək yapanda da sayardı…

- Sizi and verirəm o yaradana, deyin görüm axşam o kətələrin ikisini kim yeyib?..

Nabat arvad süfrə arxasında birdən-birə üzünü ailə üzvlərinə tutub soruşdu. Böyüklərə gümanı gəlmirdi. Odu ki, nəvələrini süzdü, onlardan şübhələnirdi. Uşaqlar suçlu-suçlu döyükür, bir-birinin üzünə baxırdılar…

- Tifilləri niyə divara qısnamısan, a imansız? - Mehman kişi arvadını qınadı. - Yemək üçün bişirməmişdin? İki kətədən ötrü məhkəmə qurassan?..

Nabat arvad uşaqlardan səs çıxmayanda nəzərlərini böyüklərə yönəltdi. Fikirləşdi ki, əgər uşaqlar sıxma-boğmaya baxmayıb susursa, deməli, məsələ daha qəlizdi…

Yuxusunu danışıb təzədən and verdi. Bu dəfə səsində tanış tələbkarlıq, hökm vardı. Uzun müddət ərinin pambıqçılıq briqadasında manqa rəhbəri kimi çalışan Nabat arvadı vəzifə (çox da kiçikdi) korlamışdı. Kollektiv davranış, tabeçiliyindəkilərə qadına xas olmayan yuxarıdan aşağı baxma, sərt, qaba münasibət hələ başındaydı. İşdə köklədiyi əhval-ruhiyyə ilə evə qayıdan Nabat arvad doğmalarına da eyni cür yanaşardı. Kiçik gəlinin bir vaxt manqasında, əlinin altında işləməsi (orada bəyənib oğluna almışdı) ona qarşı münasibətində mənfi rolunu oynamışdı…

Altdan-altdan onun hərəkətlərini izləyən gəlinin daxilində çarpışma gedirdi. Bilmirdi kətəni yediyini boynuna alsın, almasın? Görəsən sonra min bir bəhanəylə gününü göy əskiyə düyməyəcəkdi ki?.. Xasiyyətinə bələddi, dəvə kimi kinliydi.

Son günlər neçənci dəfə xəyalından keçirtdi ki, böyük gəlin ondan xoşbəxtdi. Elə təkcə ona görə ki, qayınanasından ayrı yaşayır, söz-həkətini eşitmirdi…

- Mən yemişəm… - Çox götür-qoydan sonra döyüşə atılan döyüşçü kimi başını qaldırıb qayınanasının gözünün içinə dik baxdı…

## Qarabağ dərdi

Elşən yolun qırağındakı dikdə ayaq saxladı. Günəşin yandırıcı şüaları altında dəsmalla boyun-boğazının tərini silə-silə hər gəlişində bir az da böyüyüb yaşıllaşan gördüyü çadır-şəhərciyini xeyli gözdən keçirdi. Şəhərcik get-gedə ona daha artıq öz kəndlərini xatırladırdı. İllah da doğma adamları ilə! (Əslində burda bir neçə rayonun qaçqın-köçkününün dəsti-xətti vardı. Hərə də sanki kor-koranə öz həyət-bacasının, kənd-kəsəyinin oxşarını yaradırdı…) Həmkəndlilərindən, qohum-əqrəbasından şəhərcikdə məskunlaşan çox idi. Ayağı bu tərəflərə düşəndə onlara, xüsusən də əmisinə baş çəkməmiş geri dönməzdi. Axı qayıdanda ata-anasının sorğu-sualına cavab verməliydi. Şəhərcikdəki yeniliklərlə maraqlanacaq, bir-bir qohum-əqrəbanı, əmisini, əmisi uşaqlarını soruşacaqdılar. Odu ki, Elşən bu dəfə də işini qurtarandan sonra şəhərciyə baş vurmaq, əmisigildə gecələmək, onların vasitəsi ilə ümumi vəziyyətlə tanış olmaq, səhər tezdən Bakıya qayıtmaq fikrindəydi…

Qaçanda kənddən hamısı bir çıxmışdı. Sonra yolda atası fikrini dəyişərək böyük qardaşından, əmisindən ayrılıb arvad-uşağını Bakıya aparmışdı. Elşən orta məktəbi, universitetin curnalistika fakültəsini Bakıda qurtarmış, indi onu bu rayona tamam başqa bir məsələdən yana ezamiyyətə göndərmiş qəzetdə fəaliyyətə başlamışdı…

Bir zaman desəydilər, gün gələcək bu ilan mələyən şoran çöllükdə adamlar belə bağ-bağatlı yaşıl bir şəhərcik salacaq, heç kəs inanmazdı. Dəhşətli qada-bala hamını birdən yaxalamışdı. Karıxıb qalmışdılar. Nədən, necə başlayacaqlarını bilmirdilər. Ürəkləri təzə yer-yurda qızmır, əlləri işə yatmırdı. Doğma yurd-yuvanın, kənd-kəsəyin iyi hələ burunlarındaydı. Yatanda da, duranda da oraların xiffətini çəkir, yuxularını görürdülər. Hər şey tədricən, yavaş-yavaş öz axarını tapırdı. Yarıkönül mehr saldıqları yad torpaq (çox da vətən torpağıydı) qurub-tikdikcə, nəfəsləri ilə qızdırdıqca doğmalaşırdı. Hansı əzab-əziyyətlər, məhrumiyyətlər bahasına, bunu bir allah bilirdi…

Əvvəl dindirəndə deyirdilər, buracan elədiklərimiz kimə qaldı ki, bundan beləsinə də əlimiz qalxsın? Amma sonra torpağa necə pirləndilərsə hər qarışını, daşını-kəsəyini də qənimət saydılar. Belə olmasaydı başlanğıcda geniş, enli götürdükləri küçələri sonradan doğma kənd-kəsəklərindəki kimi çal-çəpəri irəli basa-basa

daraltmazdılar. Bunu görəndə fikirləşirdin ki, yəqin daha taleləri ilə barışıb, doğma torpaqları birdəfəlik unudublar. Ağızlarını arayanda isə başa düşürdün ki, yanılmısan, heç nə yaddan çıxmayıb. Hər şey ürəklərdə nisgilə çevrilərək daşlaşmışdı. Sadəcə, kəndli psixologiyasıydı, oturuşduqca, kök atdıqca özünü biruzə verirdi…

Son vaxtlar çadır-şəhərciklərini yerli-dibli ləğv edəcəkləri, sakinlərini isə müxtəlif bölgələrdə salınan qəsəbələrə (qondarma adlarından başqa konveyerdən çıxmış kimi hamısı bir-birinin eyniydi) köçürəcəkləri haqqında söz-söhbət gəzirdi. Həm də bu adi söz-söhbətə oxşamırdı…

Çadırları çoxdan suvaqlı qarğı daxallar, kərpic, daş evlər əvəz etsə də arxivdə tozlanan köhnə lentləri müxtəlif məqsədlər, sifarişlərlə telekanallarda hərdən təkrar fırladır, Bakıda-şəkidə də baxıb qaçqın-köçkünün halına acıyır, vaysınırdılar. Hamı kimi Elşən də əvvəl buna o qədər əhəmiyyət vermirdi. Qəsəbələrin təbliği kütləviləşəndə hər şey aydınlaşdı...

O vaxt, erməni kənd-kəsəyindən qovanda olduğu kimi yuxarılar (rahat kabinetinə pir deyənlər) yenə millətin problemlərinə sərfəbazarı, öz xeyir-şər nöqteyi-nəzərindən yanaşırdılar. Bu, dolayısı ilə növbəti dəfə yaddaşlara təcavüz, on ildən artıq bir müddətdə formalaşmış əlaqələri təzədən düşməncəsinə qırıb-dağıtmaq, Qarabağı qarabağlılara unutdurmaqdı...

Əmisinin həyət-bacası dədə-baba kəndlərindəki kimi böyükdü. Ancaq qıraqları, böyür-başı ordakı kimi çal-çəpər deyildi, bu ətrafda bol olan qamışdan hörülmüşdü. Geniş qapısı da qarğıdandı…

Ortalıqda gəzən səmə it duyuq düşüb tez özünü yetirsə də nə edəcəyini kəsdirmirmiş kimi iri, ilk baxışdan zəhmli görünən pərtdə gözlərini Elşənin üzünə zilləyib durdu. Qaçıb böyründə şöngüyən qulağı təzə kəsilmiş (qanlı qartmağı hələ tökülməmişdi) küçük tez-tez itə tərəf çönür, ondan nəsə bir hərəkət, təşəbbüs gözləyirdi.

- Nədi, Vasqa, tanımadın?.. - Elşən qabaqlamaq məqsədi ilə (bir də gördün cumdular) itə qılıqlandı.

İtin birdəncə quyruğunu bulayaraq dönüb tənbəl-tənbəl uzaqlaşmasından başa düşdü ki, tanıdı. Küçük himə bənd imiş kimi ayaqlarına dolaşmağa, Elşənlə oynamağa başladı…

Yolun yarısında əmisi nəvələri (ikisi də oğlan uşağıydı) lap elə ayağına dolaşan qulağı kəsik küçük kimicə əvvəl ürkək-ürkək, utana-utana, tanıyandan sonra gülə-gülə, itələşə-itələşə Elşənə tərəf götürüldülər. Hərəsinin də altında bir qarğı at. İkisini də qucaqlayıb öpdü. Sumkasından çıxartdığı yağlı, şirin kökələri, oyuncaq tapançaları qoltuqlarına verdi. Yan-yörədə vurnuxan, girəvə axtaran küçük tullanaraq uşaqların əllərindəkini qapmağa çalışa da imkan tapmadı. Hərəsi öz payını bərk-bərk sinəsinə sıxaraq evlərinə tərəf qaçdı. Küçük də dallarınca…

Əmisinin iki oğlu vardı. Qaçanda elə onun kimi orta məktəbdə oxuyurdular. Çadır-şəhərciyində ərsəyə yetmişdilər. Böyüyü ailə qursa da kiçiyi hələ evlənmək fikrində deyildi. Bərk hazırlaşırdı ki, Bakıya gedəcək, oxuyub alim olacaq. Bu, atasının, Elşənin əmisinin də arzusuydu. Cavanlığında o da bu arzu ilə yaşamışdı. Amma atası tez evləndirmiş (elə özünün də canında vardı), arvad-uşaq başını qatmış, hər şey yaddan çıxmışdı…

Uşaqların hay-harayına əmisi oğlu, gəlini qabağına yeridi. Hal-əhval tuta-tuta əlüzyuyana su tökdülər, təmiz məhrəba gətirdilər.

- Kaçalkanız işləmir?.. - Elşən soruşdu.

- Kaçalkanın suyu soyuqdu, yol gəlib tərləmisən, ziyan eləyər. - Əmisi oğlu canıyananlıqla dedi.

- Eləməz, soyuq yaxşıdı...

Gücləri zorla çatsa da "kaçalka"nın dəstəyini basmaqdan yana bir-biriynən dartışan balacalar (aralarındakı yaş fərqi azdı, lap əkiz taylara oxşayırdılar) Elşənin boyun-boğazına vurduğu buz kimi soyuq su üstlərinə sıçradıqca atılıb-düşür, çığırışırdılar. Axırda ovcunu doldurub içəndə əmisi oğlu yenə böyürdən dilləndi ki, içmə, duzlutəhərdi, biz qaynadıb içirik, vecinə almadı.

- Bakıda içdiyimiz Kürün suyundan pisdi?..

- Deyirlər, gürcülər onu hökumət səviyyəsində heyvanlara belə verməyi qadağan edib?.. - Əlindəki zoğal ağacını divara söykəyib ona sarı gələn əmisinin səsini eşitdi. Görüşüb öpüşdülər.

- Kürü murdarlayan elə onlar, bir də ermənilərdi…

Bir azdan əmisi oğlu atasının him-cimiynən gimrik quzulardan birini qılçalayıb ərik ağacının altına çəkdi. Gəlin də əlində iri bıçaq, dolu su qabı dalınca getdi. Uşaqlar da onlara qoşuldu.

- Ay əmi, vallah, mənə heç nə lazım deyil. - Elşən məsələni başa düşüb mane olmaq istədi. - Onsuz da hər gün yediyimiz ətdi. Mən üzlü qatıq, pendir tamarzısıyam...

- Ə, az danış, otu yerində! - Əmisi acıqlandı. - Bakıda hər gün quzu əti, quzu kababı yeyirsən?..

Quzunun buğlanan içalatını çıxardıb yerə atan kimi bayaq Elşənin Vasqa çağırdığı səmə it olar-olmaz qanmadan dartışdırmağa başladı. Əmisi kənardan oğluna iradını bildirdi:

- Ə, içalatı aparın zəncirdəki itin qabağına qoyun. Buna bir az saxlasanız bəsidi. Ortalıqda sülənə-sülənə nə gəldi yeyir, özünə korluq verən deyil. Amma zəncirdəki sonalayandı, zəhmətkeşdi…

Zəncirdəki it evin arxasında, öz damındaydı. Əmisi gecə arvad-uşağın ayağı həyət-bacadan yığışanda açıb azadlığa buraxacaqdı. Onun qorxusundan bir inni-cinni bu həndəvərə hərlənməzdi...

İçalatı əlindən alınan səmə itin ağzının suyu axsa da yaxına dura bilmir, maddım-maddım baxa-baxa payının haçan veriləcəyini gözləyirdi...

Ocaq çatdılar, quzu kababını bişirib stola gətirdilər. Hər şey yaxşıydı. Bircə ortalıqda qaynaşan milçəklər könül bulandırırdı. Nə qədər qovsan da xeyri yoxdu, bir deyildi, beş deyildi. Bakıda Elşənin anası pəncərələrə tor tutmuşdu. Vay oydu evdə bircə ağcaqanad, yaxud milçək görünəydi, hərəsinin əlində bir milçəkvuran haray-həşir qopurdu. Öldürməyincə sakitləşmirdilər...

Elşənin narahatlığını görən əmisi oğlu gətirib stolun üstünə, yeməklərin ara-bərəsinə qoz yarpağı düzdü. Milçək bir az geniyib seyrəldi…

Sonra əmisinin sözü olmasın, gəlin tələsib Elşənə bir kasa camış qatığı gətirdi. O da üzə düşərək (axı demişdi, qatıq tamarzısıdı) həmin saat:

- Hə, bu başqa məsələ, - deyib kababdan əlini yarımçıq çəkdi.

Yeyə-yeyə altdan-altdan maraqla çoxdan yadırğadığı həyət-bacadakı heyvanları müşahidə edirdi. Talvarın kölgəsində bağlanmış camış arabir burnunu irəli uzadıb muşquran sayaq için-için

böyürdükcə iri qulaqları qoşa çəkilən avar kimi gülməli şəkildə enib-qalxırdı.

- Bu istidə yazığın günahı nədi bağlamısınız?.. - Elşən soruşdu.

- Ayağını yaralayıb. - Əmisi oğlu dedi. - Tayı yaxındakı göldədi deyə narahatdı...

- Heyvanın paxılı ələ düşməz, - əmisi əlavə etdi. - Bilir ki, o orda, göldə sərniyir, bunun burda canının yeri darıxır.

- Görməyə-görməyə nədən bilir ki, hardadı, neyniyir?..

- Bu camış öz dilində uzaqdan-uzağa o biriynən danışır (diqqət yetirəndə, doğrudan da, arabir hardansa başqa bir camışın da böyürtüsü eşidilirdi), harda olduğunu, neynədiyini soruşur, o da göldə kefə baxdığını bildirir. Bəlkə də heç göldə ağnıyıb sərnimir ha. Belə də, necə deyərlər, gopa basır. Amma hər şey tərsinə də ola bilər. Necəsə bu ona acıq verər, o orda bunun paxıllığını çəkər…

Bir azdan bayırdakı camışın başıynan qarğı qapını basıb çamuru süzələnə-süzələnə həyətə girməsiynən hər ikisi sakitləşdi. Hansı hansını aldatmışdı, bunu allah bilirdi…

Qonşu həyətlərdən gah orda, gah da burda eşşəklərin anqırışması da yəqin boşuna deyil, bu qəbildən olan bir şeydi...

Həyətin o başında qarğının arasından zorla içəri dürtülən qara bir it dayanıb çəkinə-çəkinə ətrafı gözdən keçirməyə başladı. Səmə it duyuq düşsə də əhəmiyyət vermədi. Yerindən qalxmağa belə ərindi. Uzandığı vəziyyətdə başını qaldırıb ona sarı əyri-əyri baxmaqla kifayətləndi. Çağırılmamış ″qonaq″ da ürəklənib bağı dolanmaq fikrinə düşdü. Evin arxasındakı it bunu gördü-nəydisə birdən özünü yeyib tökdü. Qulağını şəkləyib duran yad itin zəncirdəkindən ağlı bir şey dadmadı. Gəldiyi kimi dinməz-söyləməz geri qayıtdı. Zəncirdəki itin yava hürüşü isə o vaxt kəsildi ki, qeyrətində boğulan səmə it (sanki bu dəfə ona hürür, ona acıqlanırdı) nəhayət qalxıb yad itin dalınca qarğı hasara doğru getdi, yalandan, xala xətrin qalmasın, bir-iki ağız hürdü…

Əmisi oğlu üzünü evin arxasına tutub zəncirdəki itə acıqlandı. Əmisi dedi:

- İtnən işin olmasın!..

- Görmürsən boşuna hürür?.. - Əmisi oğlu özünə haqq qazandırdı.

- Boşuna hürmür!.. - Əmisi dedi. - Sən elə şeyləri qanmazsan! - Nə fikirləşdisə handan-hana əlavə etdi: - Kaş zamanında biz də yerimizin-yurdumuzun keşiyində onun kimi ayıq-sayıq dayana biləydik…

Barama qurduna oxşayan pipiyi dimdiyi aşağı sallanan, qanadları yer süpürən erkək hinduşka fısıltıynan onu heç saya salmadan ortalıqda dənlənən fərənin başına fırlanırdı. Əmisi nəvələri təpinən kimi pipiyi yığılır, qat-qat buxağı-başı göyərir, aradan bir az keçmiş təzədən qızarıb pörtürdü. Lakin əlindən bir iş gəlmirdi…

Hardasa yaxınlıqda arabir cırcıramaların monoton, zəhlətökən səsini batıran qəribə bir quş oxyurdu. Ancaq hansı quşdu, ayırd edə bilmir, soruşmağa da utanırdı. Uçub yaxınlıqdakı qarağatlığa qonanda gördü ki, qaratoyuqdu, təəccübləndi. Qaratoyuqda belə səs?..

Bütün bunlar kəndlə bağlı Elşənin daxilində mürgüləyən keçmiş hisslərini, xatirələrini oyadır, ürəyi qubarlanırdı. Hələ şər qarışana yaxın əmisinin o biri oğlu inək qarışıq otarmağa apardığı qoyunları gətirəndə quzuların mələşə-mələşə analarına cummaları, altdan yuxarı dox vura-vura döşlərini sortuqlamaları tamam özgə bir mənzərəydi…

- Ay əmi, heç olubmu bu məqamda quzular analarını dəyişik salsın? - Elşən soruşdu.

- Yox, - əmisi dedi. - Heyvanlarda anadangəlmə, instinktlə tanıma qabiliyyəti çox güclüdü...

Heyvanın çöldən qayıtmağı ilə həyət-bacada iş artsa da hərə neyniyəcəyini əvvəlcədən bilirdi. Əmisi nəvəsinin, həm də kiçiyinin tut ağacının altında qırtıldaya-qırtıldaya balalarını başına yığan kürt toyuğun (bağlamışdılar ki, uzağa gedər, yiyəsizlikdə balalarını qurd-quş daşıyar) ipindən yapışaraq böyüklər sayağı işgüzarlıq və səriştə ilə çəkə-çəkə aparıb hininə saldığını, dalınca balalarını içəri doldurub qapağını örtdüyünü görəndə heyrətləndi.

- Ə, sən nə ağıllı oğlansan! - Qeyri-ixtiyari uşağı təriflədi.

- Bu evdə böyükdən kiçiyə hamının öz işi var, qardaş oğlu... - Kənardan hər şeyə göz yetirən əmisi məmnunluqla güldü. - Onun da

işi səhərlər toyuq-cücəni hinindən açıb buraxmaq, axşamlar da yerinə salmaqdı.

- Neçə yaşı var, əmi? Danışa bilirmi? - Elşən gələndən fikir versə də uşağın danışdığını görməmişdi.

- Üç yaşındadı. Hələ əməlli danışmır, amma hər şeyi başa düşür…

Uşaq gedəndən sonra hardasa azıb qalan cücələrdən biri çığır-bağırla özünü yetirib qapağın böyür-başından içəri keçməyə yer axtarsa da tapmadı. Cükküldəyir, başını ara-bərədən içəri soxur, neyniyirdisə bədəni keçmirdi. O üzdə anac toyuğun qırtıltısına qarışmış cücələrin həyəcanlı civiltisi hini başına götürmüşdü. Handan-hana bu haray-həşiri eşidən uşaq qaçaraq qayıtdı. Qapağı aralayıb cücəni içəri ötürdü, sakitliyi bərpa etdi...

Həyət-bacada yır-yığışı qurtarıb təzəcə rahatlanmışdılar ki, elektrik lampasının güclə işıqlandırdığı cığırda əliağaclı bir kişi göründü.

- Qonşu, gəlmək olar?.. - Kəndçilərindəndi. Cavab gözləmədən gəlib onlarla əl tutdu, boş stulda əyləşdi. - Eşitdim qardaşoğlun gəlib. Dedim, keçim bir hal-əhvallaşım. Həm də görüm bizim başımıza gətirdiklərindən ağlı nə kəsir? Bakıda nə deyib, nə eşidirlər?..

- Nə məsələdi ki?.. - Elşən sual dolu baxışlarını əmisinin üzünə dikdi.

- Əşi, bekara söhbətdi, sənlik deyil...- Əmisi sözkəsənliklə dedi.

Sərt, qapalı adamdı. Arvadı rəhmətə gedəndən sonra xasiyyəti bir az da tündləşmişdi. Hər saat sözünü çevirmir, xətrinə dəymirdilər.

- Ə, niyə bekara söhbət olur? Bir də gördün "Kamaz"ı dirədilər ki, şələ-küləni də yığ köç, neyniyəcəksən? De, qardaşoğlu da halı olsun. Lap elə qəzetində işıqlandırsın. Bəlkə qələmi düşərli oldu…

- Az işıqlandırıblar?..

- Yaman da işıqlandırıblar! Biz burda bir söz deyirik, allah insaf vermişlər gedib orda başqa cür yazıb-pozurlar. Bəlkə yalandı?..

- Qardaş, mən heç yana köçmürəm, vəssalam!..- Əmisi elə dedi, guya bu saat onu köçürtməyə gəlmişdilər.

- Qardaşoğlu, - qonşu üzünü Elşənə tutdu, - ev-eşiyi bulduzerə verib uçurur, həyət-bacanı düzləyirlər, baxırsan ürəyin qana dönür.

Budey, bu səmtdəkiləri köçürüblər, - əlini yana qovzadı, - səhər işıqlaşanda gedib xarabasına özün baxarsan…

- Ə, yeri deyil, qızışma görək… - Əmisi elə bil ona mane olmaq, nəyisə qandırmaq istəyir, ancaq bir tərəfdən başa düşməyəcəyindən, o biri tərəfdən kimisə, nəyisə duyuq salacağından ehtiyatlanırdı.

- Boyy, ə, niyə yeri deyil?.. - Qonşusu təəccübləndi.

- Yaxşı də, bir hovur səbrini bas… - Əmisi birdən əsəbi şəkildə ayağa qalxıb evə sarı addımladı. - Rast belə oldu, durun keçin içəri… - Elə bil uşaq-muşağa göstəriş verirdi.

Qonşusu:

- Ə, ev bürküdü, - desə də durub başını bulaya-bulaya yarıkönül əmisinin dalınca getdi. - Yoxsa kiminsə esidib böyüklərə xəbərləyəcəyindən qorxursan?..

Elşən də məcbur olub onlara qoşuldu.

Ev, həqiqətən, bürküydü. Ancaq əlac nəydi, əmisi belə istəyirdi.

- Hə, indi nə qədər kefindi danış ürəyini boşalt. Ağaclar da canlıdı, hər şeyi eşidib başa düşür axı…

Hər ikisi, həm qonşusu, həm də Elşən mat-məəttəl əmisinin üzünə baxdı. Bu nə danışır, ə?.. Gözlədilər ki, sözünü xırdalayacaq, amma ağzına su alıb durdu.

Qonşu təzədən danışmağa başladı. Arada səsini qaldırdıqca əmisi yenə narahatlıqla döyükür, pəncərədən çölə, qaranlığa boylanırdı…

Elşən əvvəl elə bildi köçürsələr də bunları ürəkləri istəyən qəsəbəyə köçürtmür, istədikləri yeri vermir, ya da maşın-filanla təmin etmirlər. Əmisi deyəndə ki, özləri köçmək istəmir, inanmadı. Dedi, axı tikilən qəsəbələri tez-tez televizorda göstərir, tərifləyirlər ki, hər bir rahatlığı var. Yaxşı yolu, suyu-seli, işığı, on iki sot həyətyanı torpağı… Üstəlik bacarana, səriştəsi olana əlavə əkin-biçin sahəsi də ayırırlar…

Əmisi dedi, bunların hamısı kampaniya, küy-kələk, başaldatmadı. Bir də, onlara heç nə lazım deyil. Özləri pis-yaxşı ev-eşik qurub, bağ-bağat salıb, heyvanları üçün şərait yaradıblar. Buraların havasına, suyuna zorla öyrəşsələr də (dağdan arana qovulan nətəər

olar!) artıq özlərini, bir növ, öz kəndlərindəki kimi hiss edirlər. Durub birdən-birə təzədən onları harasa köçürmək, kəndçiliklərinə təhsilə vaxtsız, arxadan vurulan əlifba zərbəsi kimi bir şeydi. Canları, həqiqətən, yanirsa, çatmayan əyər-əskiyi düzəltsinlər, vəssalam! Təzə tikilən qəsəbələrin nəyi artıqdı?.. Qaz, kanalizasiya orda da yoxdu, burda da… Köçənlərin deməsinə görə, evlərin çölü bəzək, içi təzəkdi, bir-iki aydan sonra gərək özün təzədən remont eləysən…

- Əmi, gəl belə danışaq də, sizin gücünüz çatıb, necə deyərlər, dişli-dırnaqlı olub özünüzə şərait yarada bilmisiniz. – Elşən dedi. - Əlsiz-ayaqsız, yetim-yesir də var axı...

- Biz səninlə yüz faiz razıyıq. - Əmisinin əvəzinə qonşusu cavab verdi. - Neynək, qoy onda təzə tikilən qəsəbələrə əlsiz-ayaqsızları, şil-şikəstləri, yol qırağındakı vaqonlarda qalanları köçürsünlər…

- Ə, Bakıda-şəkidə əlsiz-ayaqsız yoxdu? - Əmisi fikrini tamam başqa cür, həm də daha kəsgin bildirdi. - Tənbəl, ver yeyim, ört yatım, kasıb, ac-yalavac həmişə, hər yerdə olub də. Quyuya su tökməklə quyu sulu olmaz axı. O qəsəbələrə çəkilən xərcin üçdən biri çadır-şəhərciklərinə xərclənsəydi, cənnətə dönərdi... Bir də, oğul, millətə iş-güc lazımdı. Yedirdib-içirdən, dolandıran ev-eşik yox, iş-gücdü. O zaman başda oturanlarımız bir-biriynən tozanağa qalxdı, ara yerdə erməni torpağımızı, ev-eşiyimizi əlimizdən aldı. Çalışıb-çabalayıb hərə bir yerdə zorla, öz fərasətinə iş-güc, dolanışıq tapıb, indi də başlayıblar ki…

Əmisi nədənsə sözünü axıra çatdırmadı.

- Torpaq verəndi, odey qaynıma verəydi də, əzəldən əkinçidi. - Qonşu dedi. - O qapı qalmadı döyməsin, yazmasın. Axırda Bakıda oturan böyüklərdən biri, nazirdi-nədi, torpaq almışdı kənd boyda, onu icarəyə götürüb becərir.

- Ə, bunlar atın qabağına ət, itin qabağına ot qoyandı. –Əmisi əsəbiliklə əlini yellətdi.

- Təzə şəhərciklərə sizin kimi köçmək istəməyən çoxdu?..

- Kim özünə babat gün ağlayıb, yaxşı həyət-baca qayırıb, ailəsini dolandıran iş-güc tapıb, köçmək istəmir. Əzəldən gözünü tulapayı yardım-yurduma tikən üçün nə fərqi var? Deyir, dərziyə dedilər, köç, iynəsini taxdı yaxasına, dedi, mən hazır…

- Bu haqda fikrinizi heç yuxarılara bildirmisiniz?..

- Bildirmisiniz də sözdü?.. - Qonşu yenə əmisini qabaqladı. - Baş nazirə, prezidentə, prezidentin arvadına teleqramanı teleqrama dalınca vurmuşuq. ANS-ə xəbər vermişik. Dedik, bəlkə xeyri oldu, yığışıb magistral yolu bağladıq. Televizordan gəlmişdilər, hamımızı danışdırıb çəkdilər. Üç gündən sonra isə köhnə çəkilişləri, şəhərcikdəki acınacaqlı vəziyyətdən dəm vuran icra başçısını, nümayəndələrini göstərdilər. Guya kimsə araya girib bizi öyrədir, pərxaşdıq qatır. Halbuki özləri altdan-altdan bizə təsir göstərir, simsarlarını zor-güc köçürürlər ki, şəhərcikdə sözümüzü deyən azalsın...

- Püşklə burda qonşu olanı bir-birindən ayırıb başqa-başqa qəsəbələrdə yerləşdirirlər. Qəsəbənin eləsi var erməniynən üzbəüzdü. Sabah erməni atanda nə hökumət harayına çatacaq, nə də ATƏT-matət…

Qəfildən işıq söndü, hər tərəf qatı zülmətə büründü. Əmisi böyük oğluna him elədi.

- Ə, akkumulyatoru qoş.

O da qalxıb küncdəki akkumulyatorun (Elşən indicə gördü) sallanan tellərinin yerini dəyişən kimi tavandan əlavə asılmış lampa otağı işıqlandırdı. Televizor da göstərdi.

- Bu nədi, ay əmi?.. - Elşən soruşdu.

- Təzə əməldi, - əmisi güldü, - işlənmiş adi maşın akkumulyatorudu. Düz dörd dənədi. İşıq olanda zaryadkaya qoyuruq. Sönəndə şunurların yerini dəyişirik, işığımız da yanır, televizorumuz da işləyir.

- O boyda lampaya gücü necə çatır?..

- Böyüklüyünə baxma, on iki voltluqdu. İkisi bəs eləyir, biri çöldə, biri evdə…

- Bəs televizorda deyirlər, qaçqınların işığını daha keçirtmirlər? Rayonlarda işıq bütün günü yanır?..

- Bütün günü yanmağı yalandı. Amma yaxınlaracan babatıydı. İndi icra nümayəndəsi işıq idarəsini öyrədir, o da bizə deyir ki, limitiniz qurtarır, daha sizə işıq verməyəcəyik. Tək işıqla sıxışdırmırlar. Köçməyənə deyirlər, vətənpərvərliyiniz çatmır. Guya

vətənpərvərlik bir yerdən başqa yerə köçmək, yaxud köçürtməkdi. Belə çıxır ki, erməni bizi qovanda elə vətənpərvərlik öyrədirmiş...

- Təzə salınan qəsəbələrin əksəriyyəti 300-350 evlikdi. -Qonşu dedi. - Hərəsində balaca bir məktəb tikiblər. Sabah uşaq çatmayacaq, eləyəcəklər ibtidai məktəb, tifillər qar-qiyamatda basa-basa qonşu kəndlərə gedəsi olacaq. Hələ müəllim problemini demirəm. Təhsilimizin də necə bərbad vəziyyətdə olduğu hamıya bəllidi…

- Barı köçənə maşın-zad verirlərmi?..

- Handa kasıbı bu neçə ildə pis-yaxşı ev-eşiyini yığıb doldurub. - Əmisi dedi. - Minnətlə bir reys maşın verirlər. O da bəs eləmir. Deyir, evini uçurt, taxta-tuxtasını, nə bilim ələ gələnini sat. Bu da satır, üstünə də qoyub əlavə maşin tutur, heyvanını, başqa şeylərini daşıtdırır...

- Bəs bağ-bağat necə olur?..

- Necə olacaq? Cəllad kimi doğrayıb tökürlər. - Əmisi bunu deyəndə bayırda eşidiləcəyindən qorxurmuş kimi səsini qısdı. - Vallah, bu, canlının canlıya xəyanətidi, günahdı. Eşidərsən, qardaş oğlu, deyir, yaponlar bir aparat icad edib. Ağaca qoşub baltanı da verirlər birinə ki, filan budağı kəs. O da üzünü həmin budağa tutub hədələyə-hədələyə yaxınlaşanda aparat nə göstərsə yaxşıdı? Baxırlar ki, ağac qorxusundan zağ-zağ əsir...

Bir müddət heç hansı dinmədi. Araya çökən sükutu qonşu pozdu:

- Hə, qardaşoğlu, dərdimiz böyükdü. Gör neynirsən…

"Eh, dəyirman bildiyini edir, çax-çax başını ağrıdır. Nə qədər ki, başbilənlərimiz, vəzifə sahiblərimiz arasında millətinə görə vəzifəsini, stolunu qurban verənlər yox, vəzifəsinə, stoluna görə millətini qurban verənlər çoxdu, vay bu millətin halına! Bu necə mentalitetdi, fələk də baş açmır..."

- Yaxşı, ay əmi, tutaq ki, sabah kənd-kəsəyimizi özümüzə qaytardılar. Yenə burda qalacaq, yığışıb yerimizə-yurdumuza getməyəcəksiniz?.. - Elşən birdən xatırlamış kimi soruşdu.

- Gedəcəyik, qardaş oğlu, öz də mələyə-mələyə gedəcəyik... - Əmisi dedi. - Bilirəm daşı hara atırsan. Amma o köçmək bu köçməkdən olmayacaq. Cinlə şeytanı qarışdırma. Bir də, qayı-

dacağıqsa, gündə bir yerə köçürtməyin, bu qədər israfçılığın nə mənası var?..

Birdən gözləri televizorun ekranına sataşdı. Qəribə təsadüfdü, xəbərlər proqramında Bərdədəki çadır şəhərciyini, sakinlərinin magistral yolu bağlamalarını göstərirdilər. Kimi təzə tikilən qəsəbədə ona ev çatmadığından, kimi də ailəsi böyük olsa da iki, üç otaqlı əvəzinə bir otaqlı ev verildiyindən şikayətlənirdi. Bəzisi də deyirdi ki, evləri tamam kənar adamlara, Bakı-şəkidə, nə bilim, ursetdə yaşayan imkanlı qaçqın-köçkünə satıblar…

- Buna nə deyirsiniz, əmi?.. - Elşən üzünü əmisinə çevirdi. – Qəsəbələrə köçmək üstündə millətin necə dava saldığını görürsünüz?..

- Vallah, nə bilim, qardaş oğlu?.. - Əmisi də, qonşusu da mat qalmışdı. - Qurama işə oxşayır. Ola bilsin əlsiz-ayaqsız, kasıb-kusubdu. Məcburiyyət qarşısındadı. Bir də, onların şəhərciyində olmuşam. Bizdəki yol-riz, şərait, bağ-bağat onlarda yoxdu. Əvvəl bizdə də camaat əlini ağdan-qaraya vurmurdu ki, bu gün-sabah geri qayıdacağıq. Dad döydüm ki, ə, atalar deyib, ək, peşiman ol. Sağ olsunlar, eşitdilər. Bənsabəns hamı əkdi, bağ-bağat saldı…

Söhbətləri xeyli uzandı. Gecədən keçmiş əmisi qonşusunu ötürməyə getdi. Az sonra Elşən də durub həyətə düşdü.

Aylı-ulduzlu, sirli-sehrli bir gecəydi. Qəribədi, rayon, illah da kənd yerində təbiət özü adamı qoynuna çağırır, dindirib-söylətmək, ünsiyyətdə olmaq istəyir. Şəhərdə isə ondan gen qaçır. Sanki səs-küydən, cürbəcür zərərli, zəhərli iy-qoxdan hürkür. Yaxud qorxur ki, saysız-hesabsız uca, nəhəng binaların ara-bərəsində, gün görməzində itib batar, necə ki itib-batır, hörümçək toru kimi bir-birinə dolaşan yollarda belədən-belə şütüyən maşınların altında qalıb şil-şikəst olar, necə ki olur...

Elşən birdən ağacların arasında pıçıltıya oxşar bir səs eşitdi. Ayaqlarının ucunda yaxınlaşanda əmisinin nar ağacıynan danışdığını gördü. Ağırlıqdan sallanan budaqlarını qaldıraraq meyvələrini sığallayıb oxşayırdı. Sonra heyva ağacına yaxınlaşdı. Ötən ildəkindən çox bar gətirdiyinə görə ağacı təriflədi. Meyvələri sulanıb ağırlaşdıqca armud ağacının dirəyi qaçmış budağı heyvanın üstünə əyilmişdi, onu düzəltdi. Əriyə onu haçansa bazardan, axsaq bir ting-

satandan aldığını söylədi. Calaqdı. Həm də qaysıydı, çərdəklərini sındırıb ləpəsini də yeyirdilər. Bitirincə naz-qəmzəsini çox çəkmişdi. Əriyin bu il ili deyildi. Çiçək vaxtı aramsız yağan yağış tozlanmaya mane olmuşdu. Tutanını da nəvələri göy-göy daş-kəsək, salbaynan tökmüş, ağızlarını bürüşdürə-bürüşdürə xəlvətdə duza batırıb yemişdilər. Almanı iki almışdı. Biri tingsatanın dediyi kimi, dədə-baba qızıləhmədisiydi. O biri anton alması çıxmışdı. Alça cırdı, çərdəkdən kopaynan bitmişdi. Yerini dəyişib seyrəldəndə ikisi qalmışdı. Birinə özü iynəburun gavalı calamış, o birinə dəyməmişdi. Cırın yağış-zad vecinə deyildi. Çınqıl kimi bar gətirirdi. Qonşu-qonumlu yediklərini yolmaşdıyıb yeyir, yemədiklərini də qışda turşu kimi işlətmək üçün gəlini çırpdıraraq yarısını tərəcədə qurudur, yarısını da lavaş bişirib sərirdi. Həyətin ayağındakı qoz ağacının bağbanı qarğaydı. Həmin qarğaydı, yoxsa yox, iki ildi bar vaxtı özünü yetirir, meyvəsindən barınırdı. Birinci ili qarğanı daşlayıb qovanda uşaqlarına təpinmiş, başa salmışdı ki, nə aparsa, öz halal haqqıdı, dəyməsinlər. Tut ağacı keçən il qəfildən az qalmışdı qurusun. Demə, dibində kimool varmış, qazıb hamısını qırmış, ağacı ölümün cəngindən qurtarmışdı… Üzüm, əncir, zoğal ağacı da əkmişdi, nübarlarını dadsalar da hələ balacaydılar...

Əmisi beləcə bir ağacdan o birinə adlayır, hərəsini bir cür, guya öz dilində dindirir, gah hal-əhvalını xəbər alır, gah tərifləyir, gah da boyunu sevib-oxşayırdı. Birinə zarafatla yerini-yurdunu, haralı olduğunu xatırladır, nəslini-nəcabətini, qohum-əqrəbasını tanıdır, o birinə ürək-dirək verirdi…

Yel vurduqca ağaclar sirli-sirli xışıldayır, yarpaq-yarpaq pıçıldaşırdı. Qeyri-adi ünsiyyətdən ağacların elə bil üzü gülür, işıqlanırdı. Axı necə sevinməyəydilər ki, əmisi cır, turş alçanın belə tərifini göylərə qaldırmışdı. Hər birini də ayrıca, dönə-dönə inandırırdı ki, köçmək söhbəti ola bilməz, bayaq qonşusunun dilindən eşitdikləri hamısı cəfəngiyyatdı. Onları bir-birindən ayırmağa heç kimin gücü çatmaz! Bir də, erməni deyillər ki, ayıralar…

Ağaclar, hətta kollarla danışıb qurtarandan sonra əmisi evin qabağındakı çin gülünə yaxınlaşdı. Güllə danışanda əmisinin səsi birdəncə titrədi, kövrəlib ağladı.

Çin gülünü əmisi arvadı doğma kəndlərindən özüynən vedrədə əkili gətirmişdi, onun yadigarıydı. Tez bir zamanda qol-budaq atıb iri ağac boyda böyüdüyünə görə vedrəsini ağac çəlləklə əvəz etmişdilər. Əmisi yanlarına tutacaq da bərkitmişdi. Soyuqlar düşəndə içəri aparır, havalar qızanda təzədən bayıra çıxardırdılar…

Çiçək vaxtı üstü qıpqırmızı, çətir kimi iri güllərlə dolu olar, baxanın ağlını aparardı. Əmisi arvadı gülə özü qulluq edərdi. Qoçaq arvaddı. Əmisi bu ev-eşiyi, həyət-bacanı allahdan aşağı onun hesabına qayırmışdı. Balağını çırmayıb ayaqyalın palçıq qatar, kərpic, daş daşıyar, heç bir işdə ərindən geri qalmazdı...

Elə o vaxt soyuqlamış, əhəmiyyət vermədiyinə görə qara ciyəri şişmişdi. Nə qədər həkimlərə düşsə, dava-dərman eləsə də sağalmaqdansa xəstəliyi üstələmişdi…

Arvadı öləndən sonra elə bil çin gülünün də çarxı çönmüşdü. Hamısı bir nəfər kimi üstündə nə qədər əssələr də o vaxtdan gül açmırdı. Həmişə yamyaşıl olan yarpaqlarının rəngi də dəyişmiş, əvvəlki şuxluğunu itirmişdi. Xəstə adam kimi sozala-sozala qalmışdı. Günlərini sayırdılar ki, daha axır nəfəsidi, quruyacaq. Lakin dözümlüydü, hələlik duruş gətirirdi. Di gəl gül açmırdı…

Əmisi oğlunun evlənən ili bir də baxdılar ki, çin gülü düymələyib. Bircə dənə gül açdı. İlahi, o necə güldü! Heç vaxt bu cür gül açmamışdı. İri, parlaq! Günəş kimi yanır, işıq saçırdı. Neçə müddət solmadı... Görüb-görəcəkləri həmin gül oldu, bir daha nə düymələdi, nə də açdı…

Elşən gecəni yatmadı. Adətən hara ezamiyyətə getsəydi həmin axşamı yerinin içində gündüz topladığı məlumatları fikrən saf-çürük edər, yazacağı yazını hardan başlayıb, necə qurtaracağını düzüb-qoşardı. Səhərisi geri qayıdarkən yol uzunu avtobusda da bu haqda fikirləşərdi. Belə Bakıya çatanda yazmaq asan olurdu. Yaddaşındakını birbaşa kağıza köçürürdü.

Bu gecə Elşənin yuxusunu ərşə çəkən Qarabağ, qarabağlılar, onların başına gələnlər oldu. Yox, bu dərd onu kənardan qəfil yaxalamamışdı. Neçə ildi canı-qanı ilə yaşadığı dərddi!.. Çadır-şəhərciklərini ləğv edənlər bəlkə də doğrudan-doğruya qaçqınların halına yanırdılar. Amma əmisigil də umu-küsülərində haqlıydı. Yeri gələndə gərək onlarla da məsləhətləşə, hesablaşaydılar. Bu adamlar

şıltaq, kür uşaq kimiydilər. Nə istədiklərini bəzən özləri də bilmirdi. Əslində nə istədiklərini bilməmələri elə Qarabağı istədiklərindəndi. Bütün kürlüklərinin mayası Qarabağdı! Nə buracan, nə də bundan belə nəyə sahiblənsələr də itirdiklərinə əvəz deyildi! Onların itirdiyini heç kim itirməmişdi. Onların dərdiynən müqayisədə bütün dərdlər heç nəydi. Qarabağlı ola-ola nə onunla düz-əməlli fəxr edə, nə də ona qovuşa bilirdilər...

Elşən öz-özünə söz verdi ki, Bakıya qayıdanda Qarabağ haqqında sanballı bir şey hazırlayacaq. Mövzunun adını da dəqiqləşdirmişdi: ″Qarabağ dərdi″…

Ata-anası Elşəndən birinci növbədə, əlbəttə, əmisigili xəbər aldı. Sonra öz ismarıcları ilə maraqlandılar. Anasına yun çırpmaq, atasına da milçəkvuran düzəltmək üçün nar, zoğal ağacı çubuqları lazımdı. Doğrusu, ismarıc Elşənin yadına çox pis vaxtda, gecə əmisi bağda ağacları ilə danışarkən düşmüşdü…

İndi ismarıclarını əmisinə niyə çatdırmadığını ata-anasına necə başa salacağını bilmirdi. Onu başa düşmək üçün gərək əmisinin ağaclarla söhbətini öz gözləri ilə görəydilər!..

## İlk məhəbbət

Ədhəm krantda yaxşı-yaxşı yuyundu. Başını qaldıranda yanında qəşəng bir qızın dayandığını gördü. Nə vaxt gəlmişdi, xəbəri olmamışdı.

Baxışları qızın baxışları ilə toqquşan anda kimsə çağırdı:

- Nə oldu, Rasimə?.. - Qız səsi idi. Həyətin o başından, Zərifə xalagildəndi.

Rasimə üzünü səsə tərəf çevirib:

- Gəlirəm, - dedi və əlindəki çaydanı krantın altına tutdu.

Ədhəm onları tanımırdı. Gözünü açandan Zərifə xalanı o evin altında tək görmüşdü. Lə′nət şeytana, haçansa o evə bir kişi də girib-çıxardı. Əl ağacının köməyi ilə azar dəymiş toyuq kimi sozala-sozala həyət-bacada hərlənər, tezcə də yox olardı. Günlərin birində Zərifə xalanın tükürpədici səsi qonşuları həyət-baca ilə bir elədi... Bir səhər

də durub gördülər ki, heç kim yoxdu. Camaat necə birdən gəlmişdisə eləcə də birdən çəkilmişdi. O vaxtdan həmin kişi bir də həyətdə görünmədi…

- Zərifə xalanın kişisi necə oldu, ana?.. - Bir dəfə balaca Ədhəm soruşdu.

- Öldü, bala. - Anası hüznlə bildirdi. - Yazıq xəstəydi…

"Ölüb" sözünün mə'nası Ədhəmə sonralar, tədricən çatdı.

Zərifə xalanın bir oğlu da vardı. Evliydi. Hardasa başqa yerdə yaşayırdı. Atası dünyasını dəyişəndən sonra neçə dəfə anasını yanına aparmaq istəmişdi, arvad razılaşmamışdı…

Ədhəm məhrəba ilə qurulana-qurulana boylanıb pəncərədən krantın üstünə bir də baxdı. Rasimə çağırılan qız dabanıəzik tuflilərini taqqıldada-taqqıldada xırda addımlarla Zərifə xalanın evinə girdi. Qapının güllü pərdəsini arxasınca saldı. Çəkib yanlarını düzəltdi…

Anası çörək doğradığı bıçağı kənara qoyub oğlunu tələsdirdi:

- Gəl otur, bala, yeməyini soyutma. Məktəbə gecikərsən.

Ədhəm stol arxasında soruşdu:

- Ana, Zərifə xalanın evindəki qızlar kimdi?..

- Zərifə xalayın kvartirantlarıdı. Sən dayıngildə olanda yığışıblar.

- Zərifə xalaynan bir yerdə qalacaqlar?..

- Yox, özü daşındı oğlunun yanına. - Əlavə nə bilirdi, onu da dedi. - İki bacıdılar. Böyüyü həkimlik oxuyur, bu il qurtarır. Sən görən kiçiyidi. İkinci kursda, müəllimlikdədi…

* * *

Həmin gündən Ədhəm daxilində nəsə çox qəribə dəyişikliklər hiss etməyə başladı. Qəlbində o günə qədər duymadığı, yaşamadığı yeni, qeyri-adi hisslər oyanmışdı. Rasimə evdə olanda Ədhəm gözünü bayırdan çəkə bilmirdi. Baxışları bacıların girib-çıxdığı qapı ilə su krantı arasında əsir-yesirdi. Hər şırıltıya dik atılırdı. Yalvarırdı ki, suya gələn Rasimə olaydı…

Rasimə instituta birinci növbə, Ədhəm isə məktəbə ikinci növbə gedirdi. Qızı bir səhərlər görürdü, bir də axşamlar. Əvvəllər

gün çıxar, qalxardı bir boy, iki boy… qızardı. Ədhəm yerindən tərpənməz, gözünü açmazdı. Anası elə hey gileylənərdi:

- Tayların nə vaxtdı durub. Sən hələ yuxu bişirirsən. Kimə oxşadın, ay bala, belə tənbəl, yatağan…

İndi bu giley-güzara son qoyulmuşdu. Günün yeri çırtlamamış sehirli bir əl Ədhəmi çəkib yorğanın altından çıxardırdı. Duran kimi də həyətə enirdi. Nəfəsi kəsilənə qədər qaçır, həyəti dörd dolanır, əl-qolunu oynadır, atılıb-düşürdü. Dönə-dönə krantda yuyunurdu…

Hamısı Rasiməyə görəydi. Səhər-səhər onu görmək, nəzər-diqqətini cəlb etmək, qumrov kimi cingiltili, məlahətli səsini eşitmək üçündü. Pis oydu ki, Ədhəm qızla üz-üzə, göz-gözə gəlməkdən çəkinirdi. Əksər hallarda Rasimə həyətdə görünən kimi yox olurdu. Hardasa daldalanır, ona kənardan oğrun-oğrun, gizlicə tamaşa edirdi. Qızla bir-iki kəlmə kəsən kimi utanıb özünü-sözünü itirirdi…

Bir dəfə Rasimə ağızucu maraqlandı ki, nə əcəb belə tez durur? O ki, ikinci növbədi? Ədhəm əvvəlcə çaşdı, sonra ağlına gələn ilk fikri dedi:

- Adət eləmişəm… - Tez də həyət-bacaya baxdı ki, görsün eşit-mədilər.

Qonşuları Hüseyn əmiyə nə desin. Aradan heç ikicə gün keçmədi Ədhəmin paxırını açdı.

- Bu kişi qırığıyın qulağına səs dəyib-nədi, ay Səlbi? Qabaqlar onu linglə qaldırardın, indi xoruz banına oyanır…

Rasimənin bir qulağı onlardaydı, eşidirdi.

Anası güldü.

- Nə bilim, ay Hüseyn qardaş, yəqin indi-indi ağlı kəsir. Deyir, müəllimimiz tapşırıb ki, səhər-səhər təmiz havada idman eləyin…

Ədhəmin uydurmasıydı. O da vardı ki, idman müəllimi bunu elə həmişə deyirdi…

* * *

Bir zaman Zərifə xala qapısının ağzındakı skamyada oturub bütün günü corab toxuyardı. İndi onu bacılar əvəz etmişdi. Böyük bacı həyətdə az-az görünərdi. O da Rasiməynən. Özünü ağır tutardı. Rasimə belə şeylərə fikir verməzdi. Gün batan kimi əlində kitab qapının ağzında peyda olardı. Yaxşı da elərdi! Həyətdə çəkinməli adam yoxdu. Kişi adına bir Ədhəmin atasıydı, bir də Hüseyn əmi.

Onlar da neft mə′dənlərində işləyirdilər. Səhər gedib axşam gəlirdilər. Bə′zən günlərlə itib-batırdılar…

Ədhəmgilin evinin qabağında bir tut ağacı vardı. Tut vaxtı allahın verən günü Ədhəmi onun kəlləsində görərdin. Tut çoxdan sovulmuşdu, Ədhəm yenə onun üstündəydi. Qaranlıq qarışan kimi balkondan adlayıb sıx budaqların arasında yerini rahatlayardı. Sanki filmə baxmağa hazırlaşardı. Bu ″film″ dünyada ən maraqlı filmdi. Bircə də qəhrəmanı vardı: Rasimə! Ədhəmə elə gəlirdi ki, ömrü boyu bu filmə eyni həvəs, eyni maraqla baxar, yenə yoruldum deməz. Çünki Ədhəm hər axşam bu "filmdə" özü üçün nəsə bir yenilik, təzəlik kəşf edər, tapardı…

Hərdən budaqlar tərpənəndə Rasimə diksinərək başını qaldırıb altdan yuxarı tut ağacına sarı boylanardı. Bir şey görməyib gözlərini təzədən kitaba dikərdi. Amma bə′zən budaqların tərpənməyi qızın vecinə olmazdı. Ədhəm bununla tə′yin edərdi ki, oxuduğu kitab maraqlıdı, ya yox…

Rasimə dizdən yuxarı, qapılarının pərdəsi kimi güllücə xalat geyinərdi. Oturanda ətəyi bir qarış qaçardı yuxarı. Qəşəng, şümşad kimi dümdüz, uzun qıçları qalardı bayırda...

Bir dəfə Rasimə Ədhəmi saxlayıb sorğu-suala tutdu:

- Neçənci sinifdə oxuyursan? Dərslərindən neçə alırsan?..

- Səkkizinci sinifdə…

Ədhəm Rasimənin bircə sualına cavab verə bildi. Qalan suallarını, sözlərini eşitmədi. Çünki qəfildən qızın nəfəs aldıqca ahəstəcə qalxıb-enən ağappaq, mərmər sinəsinə sataşan baxışları güllü xalatının açıq düymələri arasından sürüşüb içəri düşdü. Oğrun-oğrun, hürkək-hürkək. Başı gicəllənmiş kimi sinəsi aşağı yuvarlandı...

Ədhəm tez üzünü çevirdi. Rasimənin qıyqacı baxışları çatıldı, qoşa badam içi dodaqları kipləşdi, yenidən açıldı.

- Üzünü yana niyə tutdun? Olmaya məndən utanırsan?..

Ədhəm üzünü təzədən ona tərəf çevirdi. Baxışları istər-istəməz bayaq iz saldığı yerlərdə gəzdi. Yenə tab gətirmədi. Bu dəfə başını aşağı saldı. İkinci oda düşdü. Rasimənin krucevalı ipək alt köynəyi, dizdən yuxarı açıq qıçları baxışlarını yandırdı, cızıldatdı...

Aman allah! Qız bütün bunları indicə hiss etdi və cəld əlini yaxasına apardı, sinəsini örtdü. Xalatının ətəyini çəkişdirdi.

- Bağışla… - Pıçıldadı.

Ədhəm qıpqırmızı qızardı. Yanaqları, qulaqları od tutub yandı. Dayana bilməyib evlərinə qaçdı. Neçə gün Rasimənin gözünə görünmədi…

* * *

Otağın baş tərəfinə qoyulmuş bədənnüma aynanın qarşısında Rasimə daha sehrli, daha cazibədardı. İki Rasimə üz-üzə, göz-gözə dayanardı. Bir-birilə bəhsə girərdi. Bir-birinə naz satardı. Biri uşaq kimi dodağını büzər, gülə-gülə dilini çıxardar, saçı ilə oynar, yüz fason göstərərdi. O biri ondan geri qalmazdı. Sonra Rasimə oxuyardı. Həmişə də eyni mahnını, eyni sözləri. Elə bil başqa söz bilməzdi.

Qurbanlıq istəsən,
Yar, deyim özümü…

Ədhəm onun zərif, məlahətli səsində bir həzinlik də tapardı. Danışığında bu yoxdu. Oxuduğu mahnıdan süzülərdi. Bir də, Ədhəm yalnız həmin anlarda bilərdi ki, Rasimənin aynaya baxa-baxa oxuması təsadüfi deyil, səsini də orada görür…

* * *

Rasiməgilin otağında işıqlar tez sönərdi. Amma gecə lampası hələ bir müddət yanardı. Bacılar bu lampanın işığında siluetlərə dönərdilər. Siluetlər otaqda o baş-bu başa hərəkət edər, nəyisə götürüb-qoyar, kölgələri divarlarda oynar, yerlərini açıb soyunardılar…

Ədhəm bunların hamısını bacıların pəncərəyə vurduqları yarımka pərdənin üstündən görər, maraq oduna yanardı. Ürəyi az qalardı sinəsini deşib çıxsın. Hər dəfə ona elə gələrdi ki, bax, indicə nəsə olacaq… nəsə… Lakin gecə lampası da gözünü qırpar və hər şey qurtarardı. Daha doğrusu, yarımçıq qalardı...

Ən qəribəsi, Ədhəm mə′yus olmaqdansa sevinərdi. Niyə? Özü də baş açmazdı. Əlləri, ayaqları əsə-əsə ağacdan düşərdi. Düşəndən sonra da hələ nə qədər o anların həyəcanını yaşardı…

Yorğan-döşəyində kirpikləri qovuşan kimi hər şey təzədən təkrarlanar, ″gecə seansı″ başlanardı. Yenə Rasimə qapının ağzındakı

skamyada əyləşib kitab oxuyardı, aynanın qabağında dayanıb yüz fason çıxardardı və yenə gecə lampası göz qırpardı… Ədhəmin gündüz gördükləri ilə gecə gördükləri bir-birinə qarışardı. Elə qarışardı ki, hansını nə vaxt gördüyünü ayırd edə bilməzdi…

* * *

Ədhəm yenə yoxa çıxmışdı. Anası Səlbi pəncərədən üzü qaranlığa nə qədər boylandısa bir şey seçə bilmədi. Həyətin o başında Rasiməgilin lampaları da söndü. Aşağıda, pəncərədən düşən işıq zolağında Səlbinin iri, yöndəmsiz kölgəsi daha da qatılaşdı.

- Ədhəm, ay Ədhəm!.. - Səlbi əlacsız qalıb oğlunu bərkdən harayladı.

Ancaq cavab gəlmədi. Birdən tut ağacının pəncərəyə doğru uzanan budaqları tərpəndi. Səlbi başını qaldıranda nəsə bir qaraltının ona tərəf irəllədiyini gördü. Əvvəlcə qorxdu, sonra Ədhəmi tanıyıb təəccübləndi.

- Gecəquşusan, a bala? Ağacda nə gəzirsən?..

Ədhəm ağır-ağır, ehtiyatla budaqdan-budağa keçərək pəncərəyə adladı. Lal-dinməz, key-key anasının üzünə baxdı. Sonra içəri atıldı. Dayanıb yenə həmin baxışlarla gözünü döydü.

Səlbi bu müəmalı, anlaşılmaz baxışlardan ehtiyatlandı. Ədhəmin başını yüngülcə sinəsinə sıxdı. Saçlarını sığalladı. Titrək əllərini tutub ovcunda saxladı.

- Xəstəsən, Ədhəm?.. - Anası soruşdu.

- Yox... - Ədhəm handan-hana dilləndi.

- Bəs niyə qızdırmalı adam kimi uçunursan? Rəngin-ruhun da qalmayıb. Ağacda nəəzirdin gecənin bu vaxtı?..

Ədhəm öz hisslərinə görə anasından utandı. Qulaqlarının yavaş-yavaş istilənib yanmasından qızardığını anladı. Anasının qollarını aralayıb yataq otağına qaçdı. Tezcə də soyunub yerinə girdi. Səlbi də daha heç nə soruşmadı…

Ədhəm qaranlıqda anasının yüngül ayaq səslərini eşitdi. Sonra da çarpayısı cırıldadı. Başa düşdü ki, atası evdə yoxdu. Atası gecə növbəsinə gedəndə Səlbi adətən onun otağında yatardı...

Otaq bir müddət gecənin qaranlıq sükutunda üzdü. Nəhayət, bulanan göl kimi tədricən durulmağa, aydınlaşmağa başladı. Daha doğrusu, Ədhəmin gözü qaranlığa alışdı.

- Ana, eşidirsən?.. - Yastığına dirsəkləndi.

- Hə... - Anası səsinə səs verdi.

Bir-birinin sifətini yaxşı seçmirdilər. Bəlkə elə buna görə Ədhəm cəsarətliydi.

- Ana, ömründə heç bircə adamı sevmisən? Amma gülmə, haa!..

Cavab xeyli gecikdi. Səlbi fikirləşirdi.

- Daha gülmək niyə, oğlum? - Dedi. - Bax, səni, atanı sevirəm. Sağlığında anamı çox sevərdim…

- Elə sevmək yox ey… - Ədhəm anasının sözünü kəsdi. -Mən əsl məhəbbətdən danışıram.

- Bəs mənim məhəbbətim əsl məhəbbət deyil, oğlum?..

Ədhəmə elə gəldi ki, anası incidi. Nə qədər fikirləşdisə demək istədiyini çatdırmaq üçün münasib söz tapmadı. Bir də Ədhəm bu mövzuda anası ilə ilk dəfəydi danışırdı. Sıxılırdı. Nəhayət, çətinə düşən adam kimi mızıldandı.

- Məhəbbətdi e… Ancaq mən o kinolarda olur haa…

- Hə, aydındı… - Anası şuxluqla güldü. - Məgər biz atanla bir-birimizi lap elə o kinolardakı kimi sevmirik?..

Ədhəm nəsə xatırlayıb bu axmaq suala görə özünü danladı. Axı atası ilə anasının bir-birini necə sevdiyini yaxşı bilirdi. Ondan bilirdi ki, haçansa atası anasının bir cüt hörüb çiyinləri aşağı arxaya atdığı saçlarını sığallayaraq demişdi:

- Sənin bu buruq-buruq saçların nədənsə mənə həmişə bizim neft buruqlarını xatırladır, Səlbi…

Bax, onda Ədhəmə elə gəlmişdi ki, anası bu bənzətmədən bərk inciyəcək. Axı anasının ətirli, ipək kimi saçlarını mazutlu buruqla necə müqayisə etmək olardı? Çox da atası üçün o mazutlu buruqlar da anası, onun ətirli ipək saçları kimi əzizdi. Çox da kənardan baxanda anasının hörükləri o mazutlu neft buruqlarına, doğrudan da, bir az oxşayırdı…

Lakin anası bircə qram da inciməmişdi. Əksinə, atasının üzünə baxıb xoşbəxt-xoşbəxt gülümsəmişdi. Ədhəm də başa düşmüşdü ki, onlar bir-birini həqiqətən sevir. Əsl məhəbbətlə sevir. Lap kinolardakı kimi…

O axşam Ədhəm də saçlarını çiyinləri aşağı tökərək Zərifə xalanın qapısı ağzındakı skamyada oturub kitab oxuyan Rasiməni Xəzərin sahilində, bulvarda gördüyü məcnun söyüdlərə oxşatdı. Hansı ki, sevənlər onların altında görüşər, bir-birinə ürəklərini açar, baş-başa verib pıçıldaşmaqdan doymazdılar. Ədhəmin ən böyük arzusu günlərin bir günü Rasimə ilə o söyüdlərdən birinin altında görüşmək, sevişməkdi...

Ədhəm bilmədi Rasimə onun bu bənzətməsini eşitsə, anası bir zaman atasının bənzətməsini eşidib onun üzünə xoşbəxt-xoşbəxt gülümsədiyi kimi gülümsəyərdimi?..

- Ana, deyim, mən kimi sevirəm?..

Ədhəm özü də bilmədi bunu nə vaxt ağzından qaçırtdı.

Anasının çarpayısı cırıldadı.

- Kimi, Ədhəm?..

Ədhəm maraqla ona qulaq kəsilən anasına tərəf döndü.

- Rasiməni… - Dedi, tez də yorğanı başına çəkdi.

- Kimi? Rasiməni?.. - Anası təkrar soruşdu. Sonra şən-şən, ürəkdən güldü.

Ədhəm başını yorğanın altından çıxartdı.

- Niyə gülürsən, ana, pis qızdı?..

- Yox, qəşəng qızdı!.. - Anası o saat ciddiləşdi. Ədhəm də inandı ki, anası bunu sidq-ürəkdən deyir. - Kaş böyük oğlan olaydın, Ədhəm! Rasiməni sənə alardım. Həyətimizdə bir toy çaldırardıq ki!..

Ədhəm o gecə ilk dəfə Rasimə ilə özünün toyundan bə'zi şeyləri fikrində canlandırmağa çalışdı. Nə qədər baş sındırsa da doğru-dürüst heç nə alınmadı. Eləcə yuxuladı.

Yuxusunda da ilk dəfə sübhəcən toy gördü. Həyətlərində elə hey toy çalındı. Qəribə burasıydı ki, toyxanada Rasimə ilə yanaşı əyləşən Ədhəm deyildi. Qonşu məhəlləli oğlandı. Hansı ki, bu yaxınlarda evlənmiş və Ədhəm onun paxıllığını çəkmişdi. Rasimə də heç Rasiməyə oxşamırdı. Məcnun söyüddü ki, durmuşdu. Başında da qardan ələnmiş ağappaq gəlinlik örpəyi…

# Köhnə velosiped

Salman nə vaxtdı oğlu Vaqiflə bayırda, darvazanın ağzında qalmışdı. Dönə-dönə zəngin düyməsini basır, o tərəfdə, içəridə çır-çır çığıran səsinə qulaq asır, həyət-bacanı dinşəyirdi...

Nəhayət, yuxarıda qapı cırıldadı, çəkələklər şap-şapla pilləkənləri saydı.

Qardaşı arvadı Fatmanın üz-gözündən yuxu tökülürdü. Paltarını necə gəldi əyninə keçirmişdi. Saçları pırtlaşıqdı.

- Sabahın xeyir, gəlinbacı. Yuxuna haram qatdıqmı?..

Allah bilir Fatma səsindəki istehzanı duydu, ya yox. Kal-kalca dilləndi:

- Keçin, keçin... - Vaqifin boynunu qucaqlayıb üz-gözündən öpdü. - Xoş gəlmisən, kişi qırığı.

Qaracın ağzına bağlanmış qoyun onları görəndə hürküb kənara sıçradı. Vaxtından qabaq banlayan beçə xoruzlar kimi mələmək istədi. İp dartınıb boğazını boğdu. Xırıltılı, qəribə bir səs çıxartdı. Bərəlmiş qoyun gözlərini onlara dikib durdu.

Salmanın dalağı sancdı. Qoyunu qardaşına pay gətirmişdilər, bu yəqindi. Kaş gedəndə ona qoşmayaydılar. Qardaşı yenə zarafatla deyəcəkdi:

- Apar saxla, yunu, yavanlığı sənin, özü də mənim. Qonaq-qaram olanda ət eləyib gətirərsən…

Qardaşının onda neçə qoyunu vardı. Özününkülərə qatmışdı. Düzü, daha əlində hələkdi. Qardaşınınkıların da, özününkülərin də. Tək adamdı, öhdəsindən gələ bilmirdi. Qabaqkı vaxt deyildi. Kənddə örüş, biçənək qalmamışdı. Hər şeyin (bütünlükdə kəndin) ləzzəti, bərəkəti qaçmışdı…

Fatmanın sözləri onu bu qayğıdan qurtardı.

- Qardaşın dedi, meyvə qalsa da olar, qoyunu kəsib hazırlasın. Günorta gəlib aparacaqlar…

Qanrılıb qoyuna təzədən baxdı. Kəndçi sövq-təbii ilə fikirləşdi ki, saxlamalı heyvandı. Sonra da fikirləşdi ki, yəqin qardaşı əti Bakıdakı bəxtəvərə (hər kimdisə) bayramlıq göndərəcək. Lap axırda da fikirləşdi ki, əşi, mənimçün nə fərqi?..

- Yaxşı, - dedi.

Fatma pilləkənə çatanda ayaq saxlayıb:

- Çıxın yuxarı, - dedi, - çaydan-zaddan için.

Salman dil-ağız elədi:

- Sağ ol, ay gəlinbacı, içmişik.

İstədi desin, saat ondu, indiyə çay-çörəksiz adam qalar?.. Demədi. Bir də, bu vaxt, qapı zənginə duran arvadın çay-çörəyi hardandı? Görəsən qardaşı səhər-səhər işə yeyib-içib gedirdi?..

Telman vəzifə sahibiydi. Şənbəsi-bazarı (bu gün bazardı), gecəsi-gündüzü yoxdu. Evdən sübh tezdən çıxır, bir də gecə qayıdırdı.

Fatma pilləkənin başında bir də onlara tərəf döndü.

- Ə, kişi qırığı, sən gəl bəri. İndicə Samiri durquzaram, oynayarsınız.

Vaqif böyüklər sayağı:

- Yaxşıdı, - dedi. Atasına tərəf baxdı ki, görsün düz elədi, ya yox?..

Atası onu hər saat özü ilə qardaşı evinə gətirməzdi. Bu da bir iş, bir təsadüfdü. Vaqifi ona anası qoşmuşdu. Qoy gedib gəzsin, əmisi oğlu ilə oynasın, demişdi, bir-birinə isnişsinlər…

Salman qaracın qapısını açdı. İşığını yandırdı. Haçansa tavanda gizlətdiyi iri bıçağı axtarıb tapdı.

Bağçanın ayağında bellə çala qazıb qoyunu ora çəkdi. Köməyə çağırmaq üçün baxışlarıynan həyətdə oğlunu axtardı. Sürə bilməsə də gələn kimi əmisi oğlunun velosipedinə cummuşdu.

Qardaşı oğlu Samirin gözlərini ova-ova pilləkənləri endiyini gördü. Vaqifdən bir yaş kiçikdi, ancaq ondan yaşlı görünürdü. Atası kimi ətli-canlı, kökdü...

Hər ikisini çağırdı.

- Ə, xalası göyçəklər, bir tez bura gəlin görüm. - Qoyunu aşırıb böyrüstə yıxdı. Öz ipi ilə ayaqlarını çatdı. Başını qazdığı çalaya səmtlədi. - Hə, qoçaqlar, indi heyvanın ayaqlarından bərk yapışın...

Qoyunu kəsib soydu, ət elədi. Baş-ayağını, içalatını ayırıb qırağa qoydu. Gedəndə aparacaqdı. Bunlar adətən həmişə Salmana çatırdı.

Arvadı baş-ayaqdan xaş bişirəcək, içinə istiot, sarımsaq atacaqdı. Salman da sübh tezdən, qaranlıqlı həmin xaşdan qardaşına pay gətirəcəkdi. Çox da evi kənddəydi. Başqa kəndlərə baxanda (yə′ni uzaq) Salman kəndlərini kənd saymırdı. Rayon mərkəzinə bitişik kənddən nə kənd? Aradakı məsafə cəmi-cümlətani üç-dörd kilometr ola-olmayaydı. İki sarı təklikdən yana gecənin yarısı şahə qalxan anası ölmüş ″Ciquli″dən hərənin qapısında biri yatırdı. Himəcə bənddilər…

* * *

- Ayə, rolu düz tut ey, rolu! - Salman özünü saxlaya bilməyib alma ağacının başından uşaq kimi qışqırdı. - Ay sənin!.. -Oğlu velosipedi aşıranda az qaldı əlindəki almanın sıxıb suyunu çıxartsın…

Qoyunu kəsib rahatlayandan sonra (qardaşının sürücüsü gəlib aparmışdı) həyətdəcə bir-iki stəkan çay içmiş, vedrəni götürüb armud ağacına dırmaşmışdı. İki armud, üç alma ağacı idi. Üç-dörd kopa da nar kolu…

Armudu yığıb tökmüşdü hər ağacın öz dibinə. Vedrə dolduqca özüynən gətirdiyi yoğun kəndirlə aşağı sallayır, Vaqifgil də ehtiyatla yerə boşaldırdı. Alma da qurtarhaqurtardı. Axşamacan narın da axırına çıxmaq fikrindəydi. Dərdiyi meyvəni daşıyıb zirzəmiyə sərmək də ona baxırdı…

Arabir nərdivana çökür, oradaca bir ″Prima″ yandırır, tüstüsünü ağrı-acısına, yorğunluğuna dərman kimi ləzzətlə ciyərlərinə çəkir, yüngülləşmiş, qoluna qüvvət, dizinə təpər gəlmiş kimi təzədən işə başlayırdı.

Vaqif aşağıda, həyətdə Samirdən velosiped sürməyi öyrənirdi. Gələndən yamanca quşu qonmuşdu ona. Ancaq hələlik bir şey alınmırdı…

Velosipedi növbəti dəfə qaldırıb dikəltdi. Aşırılıb mindi. Samir kömək etmək, arxadan itələmək istəyəndə qoymadı.

- Dəymə, - dedi, - özüm…

Sonra sağ ayağını yavaşca yerə toxundurub təkanla irəli itələdi. Pedalı hərləməyə başladı. Samir onun dalınca qaçır, ruhlandırırdı:

- Hərlə, pedalı hərlə. Heylə, bax heylə. Yaxşıdı. Qabaqdan dön. Tez! Neynirsən? Ehh…

Pedalı hərləməyə başı qarışdığından dönmək yaddan çıxmışdı. Velosipedi saxlaya bilmədi. Xamlığına salıb divara çırpdı. Özü də velosipedlə bərabər yerə yıxıldı. Tez də qalxdı. Pərt halda yalandan velosipedin orasına-burasına baxdı, əzilib-əzilmədiyini yoxladı.

Yıxılsa da Samir onu tə′riflədi:

- Sürməyinə day sürürsən. Bircə dönə də bilsəydin…

Vaqif ürəklə:

- Dönəcəyəm!.. - deyib gülümsədi.

Oğlunun cavabı Salmanın xoşuna gəldi. Ağacın başındaca öz-özünə söz verdi ki, sürməyi öyrənsə, ona hökmən yaxşı bir velosiped alacaq. Özü vaxtında-vədəsində görməmişdi. Heç qardaşı Telmanın da velosipedi olmamışdı. Amma Samir körpəlikdən oyuncaqlar arasında böyümüşdü. Velosiped onunçün adi bir şeydi.

Vaqifin uşaqlığı atasının, əmisi Telmanın uşaqlığına bənzəyirdi. Ağlayıb-eləyəndə həyətdəki qoyun-quzu, it-pişiklə başını qatar, ovundurardılar. Bir də, Salmana görə, oyuncaq-filan ikinci dərəcəliydi. Oğlu velosiped sürməyi bacarsa da olardı, bacarmasa da. Əsas məsələ onun tərbiyəsi, təhsiliydi. Salman oğlunun gələcəyinə böyük ümid bəsləyirdi. Vaqif diribaş, zehinli, iste′dadlı uşaqdı. Dərs ə′laçısıydı…

Bir dəfə Telman zarafatla qayıtmışdı:

- Xətrinə dəyməsin, qardaş, Samir sənə çəkib. Çox korafəhmdi, oxuyub-eləmir…

Salmanın xətrinə dəyməmişdi. Eyni zaraftla soruşmuşdu:

- Bəs onda, səncə, Vaqif kimə çəkib?..

Qardaşı iri yumruğunu sinəsinə döyüb Salmanın ürəyindən keçəni demişdi:

- Vaqif mənə, əmisinə çəkib!..

Salmanın ürəyi dağa dönmüşdü. Oğlunun Telmana, əmisinə çəkməsi çox şey deməkdi. Telman lap uşaqlıqdan ə′la oxumuşdu. İnstitutu da yaxşı qurtarmışdı. Sonra da yüksək vəzifə tutmuşdu…

Salman oxumamışdı, fəhlə babaydı, sovxozda üzüm becərirdi. Amma tanrısına təpik atan, hər şeydən yana taleyindən gileylənən

adamlardan deyildi. Qardaşına, bəzilərinin dəm-dəsgahına, gen-bol yaşayışına da paxıllığı-zadı tutmurdu. Söz düşəndə, hərənin bir qisməti var, qismətdən artıq yemək olmaz, deyirdi…

Hərdən Salman qardaşının gün-güzaranını, yaşayışını qara qəpiyə almırdı. Ürək xəstə, şəkər zəhrimar çöküb boğazına, Allahın istirahəti yox, gecəsi-gündüzü al-dəyişik. Bunamı paxıllıq etməliydi? Çalış, əlləş-vuruş, yediyin də qara çörək (həkimlərin buyruğuydu). Barı züryəti bir şey olaydı. Bu tərəfdən qazanır, o tərəfdən böyük oğlu Dəmir pullarını lotu-potuynan havaya sovururdu…

Darvazanın bala qapısı açıldı. Qabaqda Dəmir (adını çək, qulağını bur), dalınca da iki nəfər içəri girdi. Yəqin yoldaşlarıydı. Əllərində maqnitofon-zad da vardı. "Bu hardan gəlir, ə, belə?.."

- Qaqaş, nə təhərsən? - Dəmir Vaqiflə əl tutandan sonra başını qaldırıb bərkdən soruşdu: - Salam, əmi, nə var, nə yox?..

Salman gülümsədi.

- Sağlığın, ay xalası göyçək. Bizi yaddan çıxartmısan.

Dəmir şit-şit hırıldadı:

- Yox, vallah, yaddan çıxmamısınız. Başım dəftər-kitaba qarışıb…

Salman istehza ilə dedi:

- Görürəm, görürəm…

Fatma yuxarıda, pilləkənin başında göründü.

- Hardaydın, ay Dəmir, bu gecə?..

Dəmir sağ yanındakı oğlanı göstərib:

- Tahirgildəydik, - dedi, - ad günüydü...

Anası başını bulaya-bulaya dinməz-söyləməz qayıdıb içəri girdi.

Orta məktəbi sürünə-sürünə, ölüm-zülüm bitirən Dəmiri atası hansı institutasa düzəltmişdi. Səki qiyabi oxuyurdu…

Balaca vaxtı Dəmir onlara tez-tez gələrdi. Onu kəndə çəkib gətirən Salmanın ot-ələf, su daşımaq üçün saxladığı boz eşşəyiydi. Çatırışı zor-güc heyvanı alıqladıb minir, nəfəsi kəsilincə dərə aşağı, dərə yuxarı çapırdı…

Onda Telmangil ailəlikcə, uşaqlı-böyüklü Salmangilə tez-tez baş çəkərdi. Telmanın vəzifəsi artdıqca qardaşı evinə gediş-gəlişləri

də seyrəldi. Yalnız xeyirdə-şərdə görünməyə başladılar. Əvvəl bu, Salmana toxunurdu. Gileylənir, umu-küsü eləyirdi. Sonra hamısına öyrəşdi. Ancaq özü qabaqlar da, indi də eyni qaydada həftədə iki-üç dəfə qardaşıgilə dəyirdi. Hal-əhval tutur, bir köməyə-zada ehtiyacları olub-olmadığı ilə maraqlanırdı. Bunu, bir növ, özünə borc sayırdı. Bir də, bilirdi ki, qardaşı evi onsuz keçinmir. Salman əzəldən qardaşının cəfakeşiydi. Bu həyət-bacada elə bir şey yoxdu ki, Salmanın əli dəyməsin. Bax, o üzüm çardağını da Salman qurmuşdu. Tənəklərini də köklü-köməcli özcə bağından gətirib əkmişdi. Hər il onu budamaq, dərmanlamaq, məhsul vaxtı məhsulunu yığmaq da Salmana baxırdı. Bir iş görmək lazım olanda qardaşı deyirdi:

- Ay Salman, sən allah, bir adam tap, filan işi filan eləsin…

Qulağı bu sözlərə öyrəncəliydi. Başa düşürdü ki, qardaşı açıq-aşkar onu buyurmağa utanır…

Telman həyət-bacada əlini ağdan-qaraya vurmazdı. Oğlu Dəmir də özünə çəkmişdi. Vecsizin biriydi. Onun Vaqifi, maşallah, indidən işcanlıydı, özü öyrətmişdi. Qardaşı elə bil uşaqlarını buyurmağa qıymırdı. Fikir vermişdi, həyət-bacada nəsə eləmək, nəyisə gətirib-götürmək lazım olanda Dəmir dura-dura onu, Salmanı buyururdu…

Odu bax, bu saat yuxarıda vurçatlasındı. Televizor bir tərəfdə işləyir, maqnitofon o biri tərəfdə bağırırdı… Allah bilir bu qar-maqarışıq musiqidən (dil də dönmür musiqi adlandırmağa) nə təməsik anlayırdılar…

Salman alma dolu vedrəni aşağı sallayanda qulağı səsə düşdü. Samir Vaqifə deyirdi:

- İstiyirsən bu velosipedi sənə bağışlayım, hə?.. - Vaqif susurdu. - Niyə dinmirsən?..

- Ata-anan razı olar?.. - Vaqif nəhayət dilləndi.

- Olarlar! Mən bağışladım, qurtardı! - Samir ötkəm-ötkəm dedi.

- Həmişəlik bağışlayırsan?..

- Əlbəttə! Gedəndə aparарsan.

- Bəs özün nə sürəcəksən?..

- Mənim təzəsi var. Atam alıb, qaracdadı.

- Goplamırsan?.. - Vaqif inanmadı.

- Mən goplayıram? Dayan bir…

Samir qaçıb qaracdan təzə velosipedini gətirdi. Vaqif heyran-heyran bir ona baxdı, bir Samirin köhnə velosipedinə, köksünü ötürdü.

Samir nəsə fikirləşib birdən yekə-yekə soruşdu:

- Bax, ayağındakı o çəkmələr kimindi?

Vaqif təəccübləndi:

- Kimin olacaq, özümün! Atam alıb bazardan.

Salman evdə özü belə demişdi. Halbuki çəkmə Samirindi. Təzəydi, bir-iki dəfə ayağa alınmışdı. Qardaşı arvadı vermişdi ki, Samir bəyənib geyinmir...

- Yox, mənimkidi, - Samir dedi. - Anam göndərib sənə.

Vaqif daha artıq təəccübləndi:

- Doğrudan?..

- Bəs necə! - Samir lovğalandı. - Anam deyir ki, yekələndə atan kimi sənin də köhnələrini Vaqif geyinəcək. Axı atamın köhnə pal-paltarını atan geyinir. - Vaqif başını aşağı saldı. - Geyinməzsən?..

Salmanın ipi sıxan barmaqları boşaldı. Salladığı vedrə gurum-bultuynan, budaqlara toxuna-toxuna aşağı getdi. İçindəki almalar ağacdan dolu kimi yağdı. Dəmir vedrə danqıltıynan yerə dəyib aşdı, dibindəki beş-altı alma da ora-bura diyirləndi…

Salmanın gözündə aləm qaraldı. Yıxılmamaq üçün kürəyini ağacın iri budağına söykədi. "Bu haramzada nə danışır, ə?.."

Uşaqlar qorxa-qorxa başlarını qaldırıb ağacda quruyub qalan Salmana baxdılar.

Samir düz deyirdi. Salman qardaşının nimdaşlarını geyinirdi. Köynəyini, kostyumunu, paltosunu, plaşını, bir sözlə, moddan düşən, əyninə dar gələn, ürəyinə yatmayan paltarlarının hamısını. Ağına-bozuna baxmadan, heç bir şey haqqında fikirləşmədən alıb taxırdı əyninə. Həm də gör neçə vaxtdı. Niyə? Yoxuydumu? Özünə əyin-baş almağa gücümü çatmırdı? İstəsə, çatardı. Sadəcə, qardaşının verdiklərini qənimət sayırdı. Kömək gözündə görürdü. Bir də, Salman götürməsəydi, qardaşı onları başqasına bağışlayacaqdı. Dost-tanış, qohum-əqrəba nə çoxdu. Arvadı da arvadının limdaşlarını geyinirdi. Bunu özünə əskiklik-zad da saymırdı…

Axır vaxtlar qardaşı arvadı Samirin də bəyənmədiyi köhnə-kürüşlərini yığıb Vaqifə göndərirdi. O da elə bilirdi atası onları bazardan alıb gətirir. Qardaşı arvadının niyyəti Salmanın yatsa yuxusuna da girməzdi. Gör bunun könlündən nələr keçirdi, ilahi!..

Salman gec evlənmişdi. Evlənəndən sonra da yeddi-səkkiz il evlərində körpə səsi, körpə qığıltısı eşidilməmişdi. Qohum-qardaşı dirənmişdi ki, arvadı boşa, başqasını al, nə çoxdu kənddə qız-gəlin. Salman deyilənləri qulaqardına vurub səbrlə gözləmişdi. Nəhayət, Vaqif dünyaya gəlmişdi. Dalınca da bir qız. Qız tez tələf olmuşdu. Vaqif onun yeganə övladı, ümidi, çırağıydı. Dünyada heç bir şey Salmanı oğlu haqqında deyilmiş bu söz qədər ağrıtmaz, göynətməzdi. Bir ata kimi oğlunun taleyini (oğlunun taleyi özünün taleyiydi), gələcəyini özünün dünənindən, bu günündən qat-qat işıqlı görürdü. Yoxsa həyatın, çalışıb-çabalamağın, özünü oda-közə yaxmağın nə mənası?..

Salman heç nəyə əl vurmadan ehtiyatla (bədəni uçalanırdı) aşağı düşdü. Üst-başını çırpdı. Krantda əl-üzünü yudu. Altdan-altdan qardaşı oğlu Samirə əyri-əyri baxa-baxa dəsmalını çıxardıb qurulandı…

Uşaqlar nəsə baş verdiyini anlamışdılar. Ancaq nə, bilmirdilər. Baxışları ilə kənardan sakitcə Salmanın hərəkətlərini izləyirdilər.

Yuxarıda, aynabəndin pəncərəsi ağzında qardaşı arvadı Fatma göründü.

- Deyəsən, yığışırsan, Salman qardaş?..

- Həə… - Salman başını qaldırmadan mızıldandı.

- İşini qurtardın?.. - Fatma görürdü ki, qurtarmayıb. Mer-meyvə yerlə yeksandı. Ancaq onunçün fərqi yoxdu. Öz işiydi, onsuz da sabah da olmasa biri gün gəlib özü yığışdıracaqdı…

- Yox…

- Yəqin bağlanmamış bazara dəyəcəksən?..

- Həə…

- Noolar. Ayaq saxla, bir-iki şey var, onu da büküm verim apar. Vaqif bala geyinər... - Pəncərədən çəkildi.

Salman dinmədi. Dinə bilmədi.

"Vaqif sizin artığınıza qalmayıb, gəlinbacı. Bundan belə o, sizin artığınızı nə geyəcək, nə də yeyəcək! Arxayın ola bilərsiniz, lap arxayın!.."

Oğlunun qolundan yapışıb qapıya doğru yeridi.

Samir arxadan köhnə velosipedini itələyə-itələyə qışqırdı:

- Vaqif, velosiped qaldı axı…

Vaqif çönüb həsrətlə velosipedə baxdı. Ancaq bu həyətdə qalan təkcə velosiped deyildi…

## Kərim kişinin eşşəyi

Kərim kişi köhnə, nikolaydanqalma təklülə tüfəngi çiynindən aşırılı doqqaza çatanda arvadı arxadan səsləndi:

-Ə, eşşəyi də aparıb oralarda bir yerə bağlayaydın. Acından öldü axı burda…

Dinməz-söyləməz qayıdıb çırpı qalağından gödək, canlı bir paya seçən Kərim kişi eşşəyin çatısından yapışaraq çəkə-çəkə doqqazdan çıxartdı. Payanı çəpərinin dibindəki göylüyə sancıb qara daşla döydü. Çatının ucunu ona bağladı. Sevindiyə düşmüş heyvan göy otdan həvəslə qırpmağa başladı…

Kərim kişi içməli su daşımaqdan ötrü saxladığı eşşəyini bağlamasaydı, qanıb-qandırmayacaq, gedib yandakı üzüm bağına girəcəkdi. Briqadir Cəbişin gədələrinə də elə bu lazımdı…

Üzüm bağları sel-su kimi kükrəyib düz-dünyanı ağzına almışdı. Adama elə gəlirdi bu tutuşla bütün kənd-kəsəyi süpürləyib adamlı-zadlı udacaq, kimsənin xəbəri olmayacaq. Necə deyərlər, bir də onda ayılacaqlar ki, lələ köçüb, yurdu qalıb. Mal-qaranın nəsli kəsilir, həyət-bacada əkdiklərini biçə bilmirdilər. Torpaq üzə durmuşdu, yetirdiyi-bitirdiyi alaq-ulaqdı. Yağışdan sonra dərmansəpən traktorların bağlara çilədiyi zəhər-zəhrimar havaya qarışaraq kəndin başına yağırdı. Üzüm sudan korluq çəkib yananda əl-ayağa düşürdülər, camaatın dərdinə-oduna qalan yoxdu. Bu boyda kənd bir bulağın, Daşnovun ümidinə yaşayırdı. Onun da suyu il-ildən quruyurdu…

* * *

Məktəbdə sakitlikdi. Uşaq-böyük tamam çəkilmişdi. Müəllim otağının qabağında ″zavuç″la rastlaşdı. Qoltuğunda dəftər bağlaması evə gedirdi. Kişini görəndə dayanıb hal-əhval tutdu.

- Nə var, nə yox, Kərim dayı?..

- Sağ ol, müəllim, birtəhər girrənirik. - Kərim kişi zavuçun xətrini dünyalarca istəyirdi. Yaxşı adamdı, böyük-kiçik sayandı…

Direktor Qafar (müəllim deməyə dili dönmürdü) güllüyü dolanırdı. Zalım oğlu gül-çiçək dəlisiydi, min bir dərd-səriynən bu boyda məktəb bir yanaydı, allahın verən günü başına dolandığı güllük də bir yana...

Kərim kişi yaxınlaşıb salamlaşmaq istədi. İtdi, qurddu, hər nəydi, müdiriydi. Amma direktor Qafar kişinin salamını ağzında qoy-du.

- Kişi, dünən gecə bu güllüyə toxunublar...

- Nədən bildin, ay direktor Qafar?..

- Budey, iki gül dərilib bu koldan…

- Vallah, görməmişəm... - Hesabnan, direktor bu anddan sonra söz güləşdirməməliydi. Kərim kişi uşaq-muşaq tayı deyildi, bir ″vallah″ı yüz anda bərabərdi...

- Bu məktəbin qarovulunu o cür ki sən çəkirsən, görməzsən də…

Direktor Qafar tabeliyindəki adamları danlıyıb-dansımaqdan ləzzət alırdı. İllah da tutarlı səbəb olanda. Kərim kişi kimi söz götürməyən adamları isə heç xoşlamırdı. Neçə ildi Kərim kişiynən bir məktəbdə işləyir və dilini gödəltməyə bəhanə axtarırdı, tapmırdı...

- Gülü dərəllər də, ay direktor Qafar. - Kərim kişi sülhə çəkdi. - Dünya dağılmayıb ki?..

Kərim kişi hərdən öz-özünə fikirləşirdi, noolaydı, kaş bir mö′cüzə baş verəydi (hərçənd bilirdi ki, möcüzə-zad hamısı na-ğıllıqdı), yaşının bu çağında bir aylığamı, para aylığamı götürüb onu müdirdən-zaddan qoyaydılar. Baxaydı görəydi bu müdirlik nəmənə şeydi? Nə sirri-xudadı ki, quşqununa qonanı o saat dingildədir, bir özgə havaya süzdürür?..

- Məndən icazəsiz burdan bir gül də dərilməməlidi! Bu gün icazəsiz gül dərən, sabah məktəbin daşını-divarını da söküb aparar...

Kərim kişi daha baş qoşmadı. Direktor gül kollarını bələdləyə-bələdləyə xeyli söyləndi. Gedəndə də bərk-bərk tapşırdı:

- Sərvaxt ol, kişi. Sinifləri dağıdar, güllüyü kor qoyarlar, xəbər tutmazsan. Yuxu ölüm kimi bir şeydi…

- Arxayın get, əşi, lap arxayın!.. - Hər axşam təxminən eyni sözləri eşidən Kərim kişi ″sdaçını″, xırdasını qaytarırmış kimi direktor Qafarı elə təxminən eyni sözlərlə də yola salırdı…

* * *

Gecənin bir aləmi (allah bilir üçüydü, dördüydü) Kərim kişinin könlü arvadını istədi, ərəsət istədi. Kərim kişidə hərdən belə şey olurdu. Vallah, billah, bu istək nəinki yaşa, heç nəyə baxmırdı. Bir də, Kərim kişi yetmişi qovsa da, maşallah, hələ canı suluydu. Cavanlıq ehtirası ilə yandırıb-yaxan ilahi istəyi, tələbi layiqincə ödəmək iqtidarındaydı. Gecənin hansı vədəsi olur-olsun, arvadı yadına düşdümü məktəbi-zadı başlı-başına buraxıb qızmış ayqır kimi evə götürülürdü. Gileylənirdi ki, kişi gündüz işləyib-gücləyər, axşam yıxılıb yatar arvadının qoynunda... Neynəsin, dünyanın gərdişi başqadı, heç kəs taleyini, qismətinə düşəni özü yazmırdı...

Cavan vaxtı bir müddət çobanlara qoşulmuş, yayda yaylaqda, qışda qışlaqda qoyun-quzu otarmışdı. İş-gücünə, çoban-çoluğa təzə isnişməyə başlayanda ferma müdiri əl-ayağına dolaşdığını, çaldığı havalara süzmək nədi, qol belə qaldırmadığını görüb sərişdəsizliyini bəhanə gətirərək fermadan uzaqlaşdırmışdı. Çox ora-bura ayaq döyəndən sonra cuar, suçu tə′yin etmişdilər. Suçuluqda da özünü istənilən kimi ″doğrultmayanda″ əvvəl anbara, dalınca da maşın-traktor parkına qarovulçu göndərmişdilər. Axırı da belə, məktəbdə bənd almışdı…

Düz-əməlli savadı-filanı olmasa da dünyanın işdəklərindən az-çox başı bir şey qaynadırdı. Bu illər ərzində niyə tikan kimi vəzifə sahiblərinin gözünə batdığını qanırdı. Di gəl dəyişə bilmirdi. Xəmiri başqa cür yoğrulmuşdu. Gözü-könlü toxdu, haram tikəyə tamahsılanmırdı. Tabe olduğu adamlar isə onu elə hey özlərinə qoşmağa, haram

tikəyə ortaq eləməyə, kirlətməyə çalışırdılar. Heç nəyi olmasa da elə bircə düzlüyü, təmizliyi onları hürküdürdü…

Həyətdə onu Bozlar qarşıladı. Quyruğunu bulaya-bulaya o tərəf-bu tərəfinə keçdi. Şalvarının balağını imsilədi. Kərim kişi xəcalətdənmi ya nədənmi itə sarı baxmadı. Guya Bozlar onun oğurluq-doğurluq işlərindən nəsə qanıb-qandırırdı. Yaxud yanına kefə gəldiyi halalca arvadı yox, yad qadındı. Bəlkə də kişini utandıran yaşıydı. Cavan olsaydı yəqin belə şeylər qulağına girməzdi…

- Sürük ayna!. - İtə yavaşca təpindi.

İt zingildəyib dayandı. Sonra quyruğunu bulayaraq arabir çönüb Kərim kişinin arxasınca baxa-baxa (buna noolub?..) gerilədi.

Kandara ayaq basmamış qapı özbaşına aralandı. Arvadı onu səssizcə içəri ötürdü. Sınamışdı, lap cavanlığından istər gecə olsun, istər gündüz, gəlişini nə qədər məsafədən duyardı.

- Ətin tökülsün, gecə vaxtı ərinmirsən?.. - Arvadı xısın-xısın pıçıldadı. Bu da tamam bir ayrı söz, bir ayrı sevdaydı…

* * *

Kərim kişi ilk dəfə arvadının yatağında yatıb yuxuya qaldı. Yuxuda gördü ki, briqadir Cəbiş sıpairtməyi qopardan gədələriynən məktəbin güllüyünü viran qoyur. Nə mö′cüzəydisə Kərim kişi yuxuda əliyalındı. Cəbişgil onu tüfəngsiz saymırdı.

- Dədəm-nənəm sizə qurban (ayıq vaxtı diri ilanı boğazına salsaydın, Kərim kişi Cəbiş kimisinə yalvarmazdı), güllüyə toxunmayın, direktor Qafar dərimə saman təpər…

Cəbişgil şaqqanaq çəkib gülürdü…

Kişini yuxudan ayıldan da elə bu gülüş oldu. Tez pal-paltarını geyinib bayıra çıxdı. Gözlərinə inanmadı. Hava işıqlanmışdı.

″Bu nə yuxuydu, ay Allah? Axırını xeyirə cala…″

Üzümlüyün arasıynan özünü dabanqırma məktəbə çatdırdı. Arxa tərəfdən çəpəri basıb həyətə adladı. Tini burulanda o yanda, eyvanda hənirti eşitdi. Daldalanıb göz qoydu. Direktor Qafardı.

″Bu nəəzir, ə, obaşdan? Yoxsa qulağına səs dəyib?..″

Oğru kimi ayaqlarının ucunda yeriyən direktor sinif otaqlarını yoxlayır, Kərim kişini axtarırdı. Kərim kişinin başını soxub daldalanmağa, dincəlməyə daimi yeri-yurdu, məxsusi otağı-zadı

yoxdu. Neçə ildi direktor Qafar daş qarovulxana boyun olur, hələ də tikdirirdi, yenə də. Kənd-kəsək yuxuya keçib ətraf tamam sakitləşəndən sonra Kərim kişi ya müəllim otağında, ya da münasib siniflərin birində açılıb-yığılan çarpayısını qurur, yatacağını döşəyir, quş yuxusuna oxşayan yuxusuynan gözünün acısını alır, sübh tezdən, alaqaranlıqlı da yorğan-döşəyini bürüb-büküb gizlədirdi. Bu gecə yatacaq-filana ehtiyac olmamışdı...

Direktor müəllim otağının da qapısını açıb-örtdü. Həyət-bacanı təzədən gözdən keçirdi.

- Hə, Kərim kişi, demək, məktəbi belə qoruyursan?..- Öz-özünə əsib-coşdu. - Neynək, indi mən sənə göstərrəm…

Kərim kişi xısın-xısın gülsə də ortaya çıxmadı.

Direktor güllüyə girib hirs-hikkəynən gülləri yolmaşdamağa (inanılasıydımı?..), ayaqlamağa başladı. Ürəyi soyumadı-nədisə gül kollarından boy-buxunlusunun, cantarağının birini ikiəlli boğazlayıb dartışdırdı…

Yuxusunu xatırlayan Kərim kişi əlində tüfəng səssiz-səmirsiz, addım-addım direktora yaxınlaşdı. Üç-dörd addımlıqdan tüfəngi enli, nataraz kürəyinə tuşlayıb (içi boşdu, hələm-hələm tüfəngini doldurmazdı) gər səslə qışqırdı:

- Ə, kimsən, tərpənmə, vurdum!..

Direktor torpaqdan köklü-köməcli qopartdığı gül kolu ilə bərabər arxası qatda yerə sərildi. Rəngi-ruhu allahın verən günü qaraladığı ağ kağıza döndü.

"Nə quşürəkmiş, ə, bu?.." Kərim kişi peşimançılıqla tüfəngini yığışdırıb aşağı əyildi. Direktor Qafar güllüyü yox, lap bütün məktəbi də dağıtsaydı Kərim kişi onu vurmazdı. Dünya malından yana adam öldürməyi Allah qarşısında ən böyük günah sayırdı. Nəyi desən təzədən düzüb-qoşmaq, bərpa etmək mümkündü, insanı yox. Kərim kişinin direktor Qafarı tüfənglə (o da boşdu) qorxutmaqda böyük bir iddiası yoxdu. Sadəcə, sınayırdı (girəvəydi) görsün bu cür nərildəyib-guruldamağın qabağında içi boşdu (onun tüfəngi kimi), ya dolu? Boşdusa (vay odu dolu olaydı, hərçənd buna inanmırdı), direktor Qafarın özünü özünə göstərər, kimin kim olduğunu qandırar, birdəfəlik yerində oturdardı...

Direktor Qafarın yaman günə qaldığını görüb fikirləşdi ki, bədbəxt oğlu qorxusundan sarılıq tapar, iraq-iraq ölüb-eləyər, hər nədi özü cəhənnəm, bir çətən balası yetim qalar, yazıqdılar…

Direktor Qafar handan-hana ayılıb Kərim kişini başının üstündə görəndə tez ayağa qalxdı, üst-başını çırpdı.

- Dəlisən-nədi, əşi? Mən yekəlikdə adamı tanımadın?.. -Yaxşı ki, ağlına başqa fikir gəlmədi.

- Vallah, tanıyammadım, ay direktor Qafar... - Kərim kişi özünü o yerə qoymadı. - Ağlıma sığışdırammadım sənin hərəkətlərini…

Direktor Qafar ağ-qara dillənmədi. Kərim kişinin təklüləsini tərs-tərs süzüb kabinetinə tərəf addımladı…

* * *

Müəllimlər, uşaqlar iki-bir, üç-bir axışıb gəldilər. Ətraf başdan-başa canlı, al-əlvan "gül-çiçək açdı". Məktəb məktəbliyinə indicə, öz şagirdləriynən oxşadı…

İlk zəng çalındı. Müəllimli-şagirdli hamı siniflərə doluşdu. Dərs başlandı. Vəzifəsini bitmiş sayan Kərim kişi də tüfəngini çiynindən aşırıb darvazaya sarı yeridi. Qapının ağzında çantası özündən yekə, balaca bir qızcığaz az qaldı qıçlarına dolaşsın. Gecikməmək üçün bərk qaçdığından təngnəfəsdi. Özünü düzəldib tələsik:

- Salam, tüfəngli müəllim! - dedi.

- Salam, bala, salam!.. - Kərim kişi bığaltı gülümsəyərək qızcığazın oğlansayağı vurulmuş saçlarını sığalladı.

Hazırlıqda, birinci, hətta, ikinci sinifdə oxuyan şagirdlər də bə'zən Kərim kişiyə beləcə "müəllim", "müəllim əmi" deyə müraciət edirdilər. "Tüfəngli müəllim"i ilk dəfə eşidirdi.

Yol uzunu qabağına çıxana salam verir, salam alır, arabir də direktoru necə qorxutduğunu yadına salıb bığaltı qımışırdı. "Həə, belə-belə işlər, direktor Qafar…"

Kərim kişi bu ovqatla doqqazı aralayıb həyətə keçdi. Bozlar həmişəki kimi sahibinin qabağına qaçdı. Quyruq bulaya-bulaya dil yalmandı, yaltaqlandı.

- Belə-belə işlər, Bozlar... - İt mehribanlığı duyub zingiltiyə bənzər bir səslə için-için qımıldandı. Elə bil sevinir, gülürdü.

Arvadı həyət-bacanı çalğılayırdı. O tərəfdə, artırmanın qabağında düdkeşi başında buğlana-buğlana oxuyan yekəqarın samovar ″muğamat″ını yekunlaşdırmaqdaydı.

- Sabahın xeyir, ay arvad!..

Arvadı əl saxlayıb ərini təəccüblə süzdü.

- Ağibətin xeyir, a kişi...

Ömründə arvada ″sabahın xeyir-zad″ deməzdi. Ona görə yox ki, qanacağı-filanı çatmırdı. Hesabnan, kişi arvadını nə qədər saymasa, özünü bir o qədər saydırardı…

Tüfəngi yük yerinin yanından, divardan asdı. Sağ tərəfə çönəndə yerdə, daha doğrusu, palazın üstünə döşənmiş qalın, yun döşəklərdə böyür-böyürə yatışan nəvələrinə gözü sataşdı. İstidən təpikləyib üst-başını açmış balaca gədə yan-dolayı çönmüşdü. Allah saxlamışın ikisi də oğlandı, böyük qızınınkıydı. Mehrlərini onlara salmışdılar. Günlərlə evlərinə (kəndin ayağındaydı) getməsələr, ata-anaları yadlarına düşməzdi. Elə Kərim kişigil də onlarsız dura bilmir, tək darıxırdılar. Nahaq deməyiblər ki, övladda nəvə…

- Qalxın, a şah tənbəlləri, ta bəsdi yatdığınız... - Uşaqları silkələyib oyatdı.

* * *

Stol başında arvadı samovar çayını süzüb bir-bir onların qabağına düzdü. İsti çayı ağzını yandıra-yandıra hortdadan böyük nəvəsi (üçdə oxuyurdu) arada bir nəfəsini dərib dilləndi:

- Baba, mənə beş manat ver.

- Neynirsən, ə, beş manatı?

- Müəllimimiz tapşırıb. Sinfi remont elətdirəcəyik…

Kərim kişi məktəblə bağlı olmasaydı, başqa valideynlər kimi deyərdi, nədi, ə, sovet hökuməti haçandan kasıb düşüb? Amma bilirdi ki, son vaxtlar təmir işləri uşaqların gücünə aparılır. Yuxarılar müəllimləri məcbur eləyir, müəllimlər uşaqları, uşaqlar da valideynləri. Arada girəvələyib yığılan puldan öz cibi üçün qəpik-quruş qırtdadan da tapılırdı. Direktor Qafar isə ümumi pulun yarısını belə tə′mirə xərcləmirdi. Bu da narazılığa, dedi-qoduya səbəb olur, məktəbin, müəllimlərin nüfuzuna xələl gətirirdi…

Kərim kişi danışıqsız çıxardıb nəvəsinə bir göy beşlik verdi. Bilirdi ki, almasa məktəbə getməyəcək. Haqqınamı, nahaqqınamı, müəllimi istəmişdi. Bu saat müəllimi onunçün, nöyzən billah, Allahdı! Puldan yana nəvəsini tay-tuşunun arasında sındırmayacaqdı ki...

- Mənə də, ay baba…- İkinci nəvəsi (hələ oxumurdu) qardaşının göy beşliyinə həris-həris baxıb boynunu qaşıdı. İmkan düşsəydi pulu bir sıçrayışa əlindən qapardı.

- Sən neynirsən, ə?.. - Böyük qardaşı ona tərəf qıcandı.

- Odey, odey… - kəkələdi, - Cübü büyün təkərli arabaynan məhləmizə marocna gətirəcək, dayna…

- Yönnü şeyə tamah salmısan. - Nənəsi ağzını burdu. - Yadındadı o dəfə boğazın necə şişmişdi?..

- Havaxt?.. - Nəvəsi kirpi kimi qabarıb fısıldadı.

Sonra da küsüb mısmırığını salladı. Kərim kişinin ürəyi yuxaldı. Cibini eşələyib iki iyirmi qəpiklik tapdı.

- Ala, a bala, bu da sənin…

- Gördün?.. - Uşaq qəpikləri əlində şıqqıldadıb oynada-oynada qardaşına dilini göstərdi.

Çay-çörək dəsgahından sonra uşaqlar dartışa-dartışa oynamağa getdilər.

- Suyumuz azalıb, kişi. - Arvadı süfrəni yığışdırmağa başladı. - Eşşəyi də axşam bağladığın yerdə tapmadım...- Əvvəl deyib çay-çörəyini haram etmək istəməmişdi.

- Necə tapmadın, ay arvad?..

- Yəqin mıxçasını yaxşı çalmamısan, çər dəymiş gedib girib üzümə. Cəbişin gədələri də tutub aparıb.

- Ağlım kəsmir... - dedisə də fikirləşdi ki, heyvanın ixtiyarı özündə olsaydı, qayıdıb gələrdi, qapını tanımır?..

* * *

Kərim kişi demisini tüstülədə-tüstülədə tənəkliyin ara-bərəsini xeyli dolandı. El arxını təmizləyən suçu Vəliynən rastlaşdı. Salamlaşdılar.

- Deyəsən, su gətirəcəksən, ay Vəli?..

- Allah qoysa, hə. Nədi, əşi, itiyi itmiş adama oxşayırsan?..

- Eşşəyimi axtarıram. Bəlkə görəsən bu tərəflərdə?..

- Gözümə dəyməyib axı… - Suçu Vəli çönüb ətrafa boylandı.

- Ə, Vəli, deyir, oğlun Ursetdən gəlib axı?.. - Onun da oğlu Kərim kişinin oğlu kimi Volqoqrad tərəflərdə dərbədərdi.

Dərdi tərpənmiş suçu Vəli arxdan çıxıb əlindəki belə dirsəkləndi. ″Avrora″dan birini damağına qoyub odladı.

- Hə, gəlməyinə gəlmişdi, - dedi. - Yenə qayıdıb getdi dünən axşam. Üstəlik balaca gədəni də özüynən apardı.

- Yox, əşi?.. Bəs sən onu evləndirirdin, ə? Niyə əlindən buraxdın?..

- Evləndi, evləndirmədim? Deyir, burda darıxıram, konserti yox, kinosu yox. Mə′dəniləşib, kənddə doğulub kəndi bəyənməyən köpəyoğlu!..

- Ehh, ay Vəli, bizim anamız ölsün, necə ki, öldü, bizə baxma. İndiki cavanlar başqa cürdü. Günləri harda xoş keçdi, quş kimi ora uçurlar…

- Onu düz deyirsən, qardaş, zəmanə dəyişib. Amma neyniyəsiyik, canları sağ olsun. Təkcə bizim başımızda görünməyib ki…

- Hə, tək bizim başımızda görünməyib. Təsəlliyə bax, bəs ərgən qızlarımız necə olsun, ə?.. - Kərim kişi bunu deyib xudahafizləşmədən arxqırağı uzaqlaşdı. Bir azdan torpaq yola çıxdı…

- Bu nə deyir, ə?.. - Suçu Vəli Kərim kişinin dalınca təəccüblə baxıb başını buladı. - Qız-gəlin dərdi çəkənsən özcə oğlunu Ursetdən niyə qaytarmır, evləndirmirsən?..

Kərim kişi tozanaqlaya-tozanaqlaya yaxınlaşan maşın üstünü batırmasın deyə kənara çəkildi. ″Niva″ ona çatıb dayandı. Toz dumanı seyrələndə briqadir Cəbiş salamsız-kəlamsız soruşdu:

- Nə axtarırsan, a kişi, buralarda?..

Kərim kişinin cavanlıqdan Cəbişi görməyə gözü yoxdu. Hamının zəhləsi ondan gedəndə, onun da zəhləsi Cəbişdən gedirdi.

- Neynirsən, ə?.. - Köntöy-köntöy dedi. - Yolunu düz gedə bilmirsən?..

Cəbiş maşının qapısını hirslə çırpdı. Yerindən hökmlə dəbərən maşın toz-torpağı tülkü sovruğu Kərim kişiyə tərəf tulladı. Amma azca aralanıb təzədən dalı-dalı qayıtdı. Kərim kişinin bərabərində Cəbiş pəncərənin şüşəsini yendirib çığırdı:

- Eşşəyini axtarırsansa, axtarma, əşi. Damlamışam.

- Niyə, ə, qırışmal?..

Cəbiş bu sözdən alındı.

- Əşi ey, ağzını təmiz saxla, üzünə qayıdaram. Dövlətin tənəyini yedirtdiyin bəs deyil, hələ bir…

- Kim yedirdir, ə, dövlətin tənəyini?..

- Yedirtmirsən, bəs eşşəyin nəəzir üzüm bağının ortasında?..

- Ə, Cəbiş, allaha, peyğəmbərə bax…

- Gədələr (oğlanlarını deyirdi) gətirib idarənin həyətindəki anbarın dirəyinə bağlayıb. İzahatını yazıb, cəriməni ödəyib apararsan. - Minnət də qoydu. - Mən sizin tayınız deyiləm ədavət-filan saxlayam…

Maşın uzaqlaşdı. Kərim kişi qəlyanını tüstülədə-tüstülədə bir xeyli onun arxasınca baxıb tüpürdü. ″Ay gidi, dünya!..″

Kərim kişi çörəyi qulağına yemirdi. Bu da bir cür adama sataşmaqdı. Cəbiş istəyirdi onu eşşəyinin dalınca gətirdib camaatın arasında ələ salsın, məsxərəyə qoysun. İndicə maşınını idarənin həyətinə sürəcək, səbirsizliklə Kərim kişinin yolunu gözləyəcəkdi…

* * *

Doqqazın ağzında Kərim kişini arvadı qarşıladı. Gördü bərk dolub, dindirib-söylətmədi.

- Eşşəyi Cəbişin gədələri aparıb… - Kişi quruca bildirdi.

- Ləcdiynən aparıb, it uşağı!.. - Arvadı bu sözə bənd imiş kimi nalə-nifrin yağdırdı. - Bu saat gedib abırlarını alacam!..

Kərim kişinin üç övladından ikisi qızdı, biri oğlan. İnstitut bitirib Kərim kişinin qarovulunu çəkdiyi məktəbdə işə başlayan oğlu günlərin bir günü Cəbişin briqadasında üzüm yığdırarkən sözləri çəpləşmişdi. Məhsul yığımı dövründə Cəbiş Əzrayıla dönürdü. Böyük saymır, kiçik saymır, oturub-durub müəllimin yanında şagirdi, şagirdin yanında da müəllimi lağa qoyurdu. Kərim kişinin oğlu buna dözməyib Cəbişə bərk təpinmişdi.

- Günah səndə deyil, - demişdi, - dəvəni eşşəyin quyruğuna bağlayandadı…

Cəbiş belə şeyləri qanmazdı. Kimsə qandırmışdı ki, bəs bu söz başqa sözdü… Həftəsində üzüm yığdırdığı cərgələrdə Cəbişin

gədələri heşan atmışdılar. Cəbiş də raykomun təhkimçisini hərləyib-fırlayıb hadisə yerinə gətirmiş, adını da qoymuşdu, müllimin gözü onu götürmür… Şər-şəbədəyə baş qoşanlar Kərim kişinin oğlunu cəzalandırmış, işinə tikilmək şərtilə şiddətli töhmət vermişdilər. Nahaqdan güdaza getdiyini bilə-bilə o boyda müəllim kollektivinin onu müdafiə etmədiyini görən oğlu müəllimliyin daşını ataraq Volqaqrada üz tutmuşdu…

Kərim kişi oğlu qarışıq istedadlı, bacarıqlı, diplomlu gənclərin savadlarını da götürüb uzaq-uzaq şəhərlərə, ələlxüsus Rusiyaya daşdanmalarına yaxşı baxmırdı. Əvvəla, sonrakı nəsilçün pis nümunəydi. İkincisi, əldə etdiklərinin xeyrini-bəhrini yadlar görürdü. Getdikləri yerdə yüksələn, şan-şöhrətə çatan cavanlar əcnəbi qızlara ilişir, geri qayıtmırdılar. Geri qayıdanlar əksərən məqsədsiz-filansız, miyanə, tutar qatıq, tutmaz ayran fikrilə gedənlərdi ki, çirkin yollara düşüb mə′nəviyyatca pozulurdular…

Həyat zahirən inkişafda, irəlləyişdəydi. Bu təəssüratı yaradan təcavüzkarcasına adamların gündəlik həyatına, məişətinə soxulan elm və texnikanın nailiyyətləriydi. Şüur ümumən ətalətdəydi. İxtiyaratlılar ixtiyaratlarından dədə-baba qaydasınca, ilk növbədə özləri bəhrələnirdilər. Hökumətin yağlı vədlərinə uyan Kərim kişi kimilərsə ayıblarına qısılıb səbrlə nəyəsə ümid bəsləyirdilər…

Kərim kişi fəhmnən anlayırdı ki, direktor Qafar kimisiynən birtəhər yola getmək mümkündü. Vay oydu təsadüfən Cəbiş kimisinin quyruğunu tapdalayaydın… Cəbiş kimilər görsəydilər ki, hökumət divanında haqq-ədalət hər şeydən alidi, dərə xəlvət, tülkü bəy oynamazdılar. Rast ki, belə deyildi, bacarıqlı, istedadlı cavanlar Cəbiş kimilərinin qabağından qaçmaq əvəzinə daha mübariz olmalıydılar. Nə qədər ki, onlar haqqını, səadətini özgə qapılarında axtaracaqdılar, Kərim kişilər dişsiz damaq kimi qalacaqdılar...

* * *

Arvadı söyüb söylənə-söylənə qayıtdı. Kərim kişi qoz ağacının kölgəsində, kötüyün üstündə oturub qəlyanını tüstülədirdi.

- Əlin ətəyindən uzundu, deyəsən, ay arvad?

- Günü qara gəlmiş vermədi eşşəyi…

- Nə deyir axı?..

- Deyir, niyə kişi özü gəlməyib? Get, onu göndər. Yoxsa acından gəbərdəcəyəm heyvanı…

- Elə beləcə dedi?..

Kərim kişi qəlyanını altındakı kötüyün başına döyüb boşaltdı. Qalxıb yeyin addımlarla evə sarı getdi. Yük yerinin üstündən asdığı tüfəngini götürdü. Döşəyin altından patron düyünçəsini çıxardıb açdı. Birini tüfəngin lüləsinə qoydu…

- Hara belə, kişi?.. - Arvadı mane olmaq istədi.

- Çəkil görüm!.. - Çımxırdı.

- Ahıl vaxtında ağlını başına top elə, a kişi…

- Çəkil, dedim sənə!.. - Əlinin arxasıynan onu kənara itələdi.

Qorxudan arvadın dizləri büküldü. Durduğu yerdə dəvə kimi xıxdı. Əllərini irəli uzadıb:

- Ayə, ay uşaq!.. - Nəvələrini çağırsa da səsinə səs verən olmadı.

Handan-hana belini dikəltdi. Tumanının balağını biləyinə dolayıb qonşuya qaçdı. Günün bu vaxtında qonşu-qonumda başıpapaqlı hardandı? Hamısı iş-gücdəydi. Arvad-uşaq da çığırışmaqdan başqa neyniyəsiydi?..

Aradan xeyli ötdü. Birdən idarə tərəfdə tüfəng səsi eşidildi.

- Aaz, vallah, bu güllə ətə dəydi.. - Köhnə arvadlardan biri əlini üzünə apardı.

- Evim yıxıldı, allah!.. - Kərim kişinin arvadı dizlərinə çırpıb qıyya çəkdi.

Çox gözləmədilər, Kərim kişi tüfəng çiynindən aşırılı doqqazda göründü. Kimsəyə sarı baxmadan, kəlmə kəsmədən yüngül addımlarla pilləkəni qalxdı. Tüfəngi aparıb yerindən asdı. Təzədən eyvana çıxdı. Arvad-uşaq himə bəndmiş kimi səssizcə dağılışdı...

* * *

Bir saatdan sonra özünü yetirən sahə müvəkkili başılovlu Kərim kişinin doqqazından içəri təpildi. Salam-kalamsız:

- Tüfəngi gətir görüm, ağsaqqal, - dedi. - Hanı tüfəngin?..

- Tüfəngi neynirsən, ə?.. - Kərim kişi üzünü bozartdı.

- Aparmalıyam!.. - Milis müvəkkili şeşələndi.

-Sən vermisən, sən də alasan?..

- Qanunla daha sənə odlu silah etibar etmək olmaz, Kərim kişi.

- Niyə, ə?..

- Hələ bir soruşursan da?..

- Öldürmüşəm, öz eşşəyimi öldürmüşəm, kimə nə dəxli?.. - Kərim kişi doğrudan-doğruya yanıb-yaxıldı. - Ax, axx!.. Bilsəydim bundan ötrü qapıma milis gələcək, o patronu Cəbiş köpəyoğlunun lap kəlləsinə çaxardım. Neyniyim, tülkü kimi vaxtında qaçıb gizləndi…

Öldür milis müvəkkilinin niyə əl-ayağa düşdüyü Kərim kişiyə çatmırdı ki, çatmırdı. Sataşana sataşmamış, sədəmə toxuyana sədəmə toxumamışdı...

- Odu haa!.. - Milis müvəkkili furackasını qoltuğuna vuraraq iri, çirkli dəsmalını çıxardıb ortası dazlaşmış başının tərini sildi. - Bu gün eşşəyi öldürən, sabah da o məsələ, adamı öldürər. Çətini əlinin qana batmağıdı…

Milis müvəkkilinin öz əzbərlənmiş məntiqi vardı…

## Psixoloci an

Bir həftəydi Hüseynqulu ikiadamlıq palatada tək idi. Odu ki, qəfəsə salınmış quş kimi darıxırdı. Başqa palatalardakı xəstələrə paxıllıq edirdi. Hərəsinin bir-iki qulaq yoldaşı vardı. Danışıb-söhbətləşir, ürəklərini boşaldıb yüngülləşirdilər. O da yalqız, kirimişcə oturur, yaxud uzanırdı, dünyanın dərd-səri üstünə ələnirdi, qalırdı altında…

Hüseynqulu adi bir kənd poçtalyonuydu. İyirmi ildən artıqdı adamlara qəzet, curnal, məktub daşıyırdı. Öz işini, kəndini, onun sakinlərini ürəkdən sevirdi.

Arıq, çəlimsiz olsa da ağlı kəsəndən azar-bezar ona yaxın düşməmiş, xəstələnməmişdi. Elə bilmişdi bundan belə də xəstələnməyəcək. Lakin gözlənilmədən böyrəkləri nasazlamış, dəvə kimi xıxırtmışdı…

- Obed! Obed!.. - Sonya xala (rusdu) başını içəri salıb cavanlara xas cingiltili səsiynən elan etdi.

Birdən-birə Hüseynqulunun qırışığı açıldı. Sürütmələrini geyinib koridora çıxdı.

Sonya xala arabası ilə artıq uzaqlaşmışdı. Lift Hüseynqulunun palatası ilə üzbəüzdəydi. Sonya xala yeməyi liftlə yuxarı qaldırır, palatasının qabağından ötəndə Hüseynquluya xəbər verirdi. O bildi, hamı biləcəkdi…

Hüseynqulu koridor boyu palataların qapısını aralayıb:

- Obedə, yoldaşlar, obedə!.. - deyərək xəstələri nahara çağırdı. Bu, bir tərəfdən bekarçılığın əlamətiydisə, ikinci tərəfdən peşə vərdişiynən bağlıydı.

Geri qayıdarkən üçüncü palatanın qabağında bir də ayaq saxladı. Başını lap içəri soxdu.

- Ə, Şəmi… - Səsi xırpadan qırıldı.

Şəmi onun yerlisi, qonşu kənddəndi. Burda çoxdan yatırdı. Artıq sağalmışdı. Neçə gündü çıxasıydı. Həkimin icazəsini gözləyirdi.

Hüseynqulu Şəmiynən elə gələn günü tanış olmuşdu. Həmin gündən də ayrılmamışdılar. Palataları ayrı olsa da bir stolda yeyib-içirdilər. İndi Şəminin yığışdığını görəndə sevinməkdənsə bircə anda kövrəldi. Nitqi tutuldu.

- Sənsən, Hüseynqulu? Gəl, gəl bəri…

Hüseynqulu özünü birtəhər ələ aldı.

- Deməmk, gedirsən?..

- Hə, qardaş, gedirəm. Gəlib səninlə görüşəcəkdim.

- Nahara qalmırsan?..

- Tələsirəm, aşağıda gözləyirlər.

Hüseynqulu ürəkdən uğur dilədi:

- Yaxşı yol, qardaş! Bir də xəstələnməyəsən!..

Şəmi yaxınlaşıb onun çiyinlərini qucaqladı.

- Sağ ol, yastığın yüngül olsun! Evə sözündən-sovundan?..

Şəmi razılaşmasa da Hüseynqulu onu axırıncı mərtəbəyə qədər ötürdü. Geri qayıdanda ayaqları yerimirdi…

- Ə, Hüseynqulu, harda qalmısan?.. - Yeməkxanada xəstələr yer-yerdən maraqlandılar. Adətən nahara hamıdan tez gələr, gecikməzdi.

- Şəmini yola salırdım.

- Getdi?.. Birdəfəlik?..

- Hə…

- Sağ əli bizim başımıza!..

Hüseynqulu yeməyini götürüb həmişə Şəmi ilə əyləşdiyi stola yanaşdı.

- Tək oturma, gəl bəri. - Böyürdən dilləndilər.

Yerini rahatlayaraq:

- Sağ olun, - dedi, - öz yerim yaxşıdı…

Şəmi savadsız, adi bir malabaxan olsa da ağıllı kişiydi. Qarnının altında sözlər yatırdı, qəzet, curnal nədi, lap kitablara layiq. Şəmi deyirdi, adam gərək yerini-yurdunu tanısın, dəyişik salmasın, gündə bir yerə səkməsin...

Hüseynqulu bu saat tək qalmaq, xəyala dalmaq istəyirdi. Çiyninə keçirdiyi poçtalyon çantası, doğma kəndi, o kəndin tozlu küçələri, dar döngələri, öz həyət-bacası, ev-eşiyi, arvad-uşağı üçün ərəsət qəribsəmişdi. Burnunun ucu göynəyirdi. Əlacını allah kəsməsəydi, burda bircə gün də böyrünü yerə verməzdi…

Nahardan sonra dincəlmək, yatmaq üçün xəstələr palatalarına çəkildilər. Hüseynqulu yatağında çox eşələndi, gözünə yuxu getmədi. Qapının yavaşca aralandığını duyub özünü yatmışlığa vurdu.

- Nədi, ə, niyə durdun?.. - Bayırdakı qapının ağzındakından soruşdu.

- Yatıb, deyəsən... - Qapının dəstəyindən yapışan adam geri qanrıldı. Domino həvəskarlarıydı.

- Nə pis oldu, ə. Yaman həvəsə dolmuşdum…

Qapı örtüldü. Ayaq səsləri uzaqlaşdı.

Hüseynqulu yata bilmədiyini görüb ayağa qalxdı. Tumbanın gözündən dominonu götürüb qapıdan çıxdı. Dominonu hər ehtimala qarşı evdən özüynən gətirmişdi. Bekar vaxtlarında yığışıb oynayır, başlarını qatır, müvəqqəti də olsa xəstəliklərini unudurdular.

Xəstələrdən heç biri dominoda Hüseynqulu ilə bacarmırdı.

- Səninlə oynamaq çətindi, poçtalyon, - deyirdilər. - Sən dominonun anasısanmış…

Hüseynqulu əvvəl fasıq-fasıq gülürdü:

- Əşi, şişirtməyin, bəxtim gətirir.

Lakin sonra, hamıya aydın olanda ki, xəstələr arasında ona dov gələn yoxdu, özünü dartırdı.

- A kişilər, mən bunu icad eləyəni axtarıram…

* * *

Domino oynamaqdan qayıdarkən palatasında səs-küy eşitdi. Uzun, yekəqarın bir kişi üzbəüzdəki boş çarpayıda tirlənmişdi. Qəşəng gəlinlə bir kişi də onun şeylərini yerbəyer edirdi…

Salamını ağızucu alsalar da fərqinə varmadı. Gözlərini qəşəng gəlindən ayırmadan palatanı doldurmuş bahalı ətir qoxusunu (nədən olmasa da bundan başı çıxırdı) duyuq salmadan (bunun ustasıydı) xüsusi yanğıynan ciyərlərinə çəkdi. Gəlinin yerişi, duruşu, baxışı Hüseynqulunu min bir xəyala (xam xəyala) saldı…

Təzə xəstə, Yelmar kişi Bakıya yaxın rayonlardandı. Mağaza müdiriydi. Bayaqkı gəlin qızı, kişi də kürəkəniydi...

Hüseynqulu tək qalanda Yelmar kişinin kötük kimi şişmiş ayaqlarını göstərib soruşdu:

- Sizin dərdiniz nədi?..

- Böyrəklərim xəstədi.

- Onu bilirəm ey… - Xəstənin məhz bu korpusda, bu şöbədə (böyrək şöbəsiydi) yerləşməsi özü çox şey deməkdi.

- Hə, daş var böyrəklərimdə. Yumurta boyda... - Kişinin dodağı bir balaca suyuldu.

- Yox, əşi?..

- Nə bilim, vallah. Rayondakı həkimlərin diaqnozudu. Zalımlara bir ətək pul tökdüm, faydası olmadı. Görək burdakılar neyniyəcək...

(Hüseynqulu sonra öyrənəcəkdi ki, Yelmar kişinin ürəyi də xəstədi, qan təzyiqi də var.)

- Əşi, sən burdakıları rayon həkimlərinə tay tutma!..

Bu sözlər Şəminin sözləriydi, gəlişinin birinci günü Hüseynqulunun özünə deyilmişdi.

Yelmar kişi təsəlli yeməkdən doymuş adam kimi əlini yellətdi.

- Bir bezin qırağıdılar, bacıoğlu. Texnika artdıqca həkimlər zaylıyır…

Hüseynqulu bu fikirlə o saat razılaşdı.

- Haqlısan… - Başını tərəptməklə təsdiqlədi. - Amma professor Biləndərovun adı-sanı respublikaynan birdi. Deyirlər, belə lap Moskvanın sağalda bilmədiyini bunun yanına göndərirlər…

- Görək də, bacıoğlu…

- Ümidsiz düşmənin olsun!..

Yelmar kişi qurcalanaraq birtəhər sol böyrü üstə, Hüseynquluya sarı çöndü.

- Səndən bir söz soruşum, bacıoğlu…

- İkisini soruş…

- Biləndərovdan sənin özüyün ağlın nə kəsir?..

Deməк, Yelmar kişi bayaqdan bəri eşitdiklərini Hüseynqulunun şəxsi fikri saymırdı.

- Nə cəhətdən?..

- Belə də, nə təhər baxır xəstəyə?..

- Yaxşı…

Yelmar kişi bic-bic güldü.

- Arxayın adam kimi danışırsan. Cibinə bir şey salmısan?..

- Nə şey, əşi?.. - Hüseynqulu key-key gözünü döydü.

Yelmar kişi şəhadət barmağını baş barmağına sürtərək əyani şəkildə göstərdi.

- Puldan-paradan, deyirəm də…

- Aydındı... - Hüseynqulu xəstələnib həkimlərə düşəndən bəri bu sayaq sözləri çox eşitmişdi. Hər dəfə də pulsuz-parasız adam hansı hissi keçirirsə həmin hissi keçirmişdi. - Yox, hələ yox… - Guya sonra verəsiydi.

- Bəs nəyi gözləyirsən, bacıoğlu? Adam dəmiri isti-isti döyər, canını əl çirkinə satmaz…

Hüseynqulu istədi desin, lənətə gəlmiş ″əl çirki″ gərək ola ki, qızırqalanmayasan də. Yoxdan allah da bezardı, bəndə də. Amma demədi. Dilxorca ayaqlarını aşırıb arxası qatda uzandı. Əllərini də cütləyib qoydu başının altına.

″Yəni görəsən bu Biləndərov da rüşvətxordu? Belə baxanda gözü-könlü tox adama oxşayır. Üz-gözündən də nur yağır. Şəmi deyirdi, girəvələyib xalatının cibinə pul saldım, abrımı bükdü ətəyimə. Hayıf ki, soruşmadım, pulu qaytardı, yoxsa yox? Qaytarar, əşi…″

Hüseynqulu yerinin içində təzədən dikəldi.

- Axı bu, pul götürmür, deyirlər, Yelmar kişi…

- Ə, sən nə danışırsan, Hüseynqulu? - Bu sahədə saç ağartmış Yelmar kişinin gözləri ətli sifətində itdi. - Həkimləri mənə tanıdacaqsan? Professorun ağzı yoxdu, yemir-içmir, bəyəm?..

- Yeyib-içir…

"Gülüşünə bax bir bunun, nə arsız adamdı, ə?.."

- Atan oldu rəhmətlik. Ət yeməyə öyrənən qana həris olar, bacıoğlu. Bu yaşa çatmışam hələ puldan doyan göz görməmişəm. Amma bir iş var də, buranın həkimləri rayon həkimlərinə bənzəmir. Bic-vələdüzənnadılar, ağılları bir şey kəsmədiyi xəstədən dünyasında pul götürmürlər…

- Niyə?.. - Hüseynqulu qanmadı. - Qorxurlar ki, agent-magent olar?..

- Əşi, yox ey. Sağalıb-sağalmayacağına əmin olmasalar, qabaqcadan pullarına yiyə durmurlar.

- Doğrudan? - Hüseynqulu bunu birinci dəfəydi eşidirdi.

- Bəs necə!..

Hüseynqulu eşidib-eşitmədiklərini beynində yenə bir balaca vələ-vürd elədi.

- Neynirlər e, axı bu qədər pulu, Yelmar kişi?..

Yelmar kişi onun sadəlövhlüyünə acıdı.

- Neyniyəcəklər, ə? Arvad-uşağı, nəsli-nəcabəti üçün mingünlük yığırlar. Bəlkə sabah qazana bilmədilər. Pul qazanmaq həmişə asan olmur ki...

- Belə dee…

Hüseynqulu təzədən arxası qatda düşdü. " Ay dadi-bidad! Gör haraları fikirləşirlər…"

Hüseynqulu da ailəsinin dolanışığı üçün cəmi-cümlətani yüz manat (armud satmışdı, onun puluydu) qoyub gəlmişdi. Bu yüz manat on günmü, bir aymı (burda yatdığı günlər artacaqdı, o pul kor qara qəpik artmayacaqdı), hər nə qədər müalicə olunsa, ailəsini o bahalıqda (şəhərdə ayrı cür bahalıqdı, rayonda, kənddə bir ayrı) yedirtməliydi də, içirtməliydi də. Hüseynqulu özüynən də otuz manat götürmüşdü. Alt paltarına tikdirdiyi cibinə atmış, ağzını da iki sancaqla sancaqlamışdı…

Yelmar kişi eşələnib-eşələnib kötük ayaqlarını birtəhər yerə qoydu. Onlarda hələ qeyrət varmış, o boyda gövdəni sürüyüb qapıdan çıxardı. Qapı taybatay açıq qaldı. Hüseynqulu "tfu!" deyib dik sıçradı. Sürütmələrini geyinmədən qaçıb qapını basdı. Qayıdıb təzədən bayaqkı qaydada uzandı. Gözlərini bərk-bərk yumdu. Hələ də otaqdan çəkilib getməmiş bahalı, məstedici ətir qoxusunu qorxu-hürküsüz, ehtiyatsız-filansız ciyərlərinə doldurdu. Bayaqkı qəşəng gəlini bütün qəşəngliyi, bütün məlahəti ilə beynində canlandırmağa çalışdı. Yelmar kişinin sir-sifətini də köməyə çağırdı (bir suyu ona çəkməliydi), bir şey çıxmadı. Əksinə, gördü atasının sir-sifəti işləri daha da korlayacaq (yəqin anasına çəkmişdi) tez fikrindən qovdu…

Sonra xəyalı uzaqlara, öz kəndlərinə uçdu. Doğma kəndin küçələrini dolana-dolana sovetliyin yerləşdiyi binanın qabağına çatdı. Pilləkənlərlə ikinci mərtəbəyə qalxdı. Həcərin, sovet sədrinin katibinin qapısını açdı.

- Salam, Həcər xanım!..

- Salam, Hüseynqulu. - Həcər əlindəki güzgünü stolun siyirməsinə atıb geri itələdi, dikəldi. - Yoldaş poçtalyon, içəri girəndə qapını döyərlər…

- Bağışla, gələn dəfə hökmən döyərəm…

- Hər dəfə belə deyirsən… - Ağzını burdu.

Hüseynqulu istədi məzə üçün desin ki, elə sən də hər dəfə mən qapını açanda eyni sözü təkrarlayırsan. Dilxoşluq əvəzinə qanqaralıq salacağından qorxdu. Bığıburma cavan olsaydı, başqa məsələ. Heç nədən qorxub-çəkinməzdi. O zaman özü kimi bütün hərəkətləri Həcərin gözünə nöqsansız görünər, acı sözü belə şəkər, bal dadardı…

Hüseynqulu hər dəfə bu qapını bir bəhanəylə, üzünə salıb açırdı. İşi-peşəsi imkan versə də onun yaşında bəhanəsiz-filansız qız xeylağının kabinetini su yoluna döndərmək ayıbdı. Bir də Həcər tapşırmışdı ki, qəzetini, curnalını evlərinə aparsın... Daha burda nə ölümü vardı?..

- Nədi, nə istəyirsən, Hüseynqulu?.. - Yerindən tərpənmədiyini görüb soruşdu.

- Mən?.. - Hüseynqulu çaşdı. - Hə, gəlmişəm ki…

Qarğadili nəsə qırıldatdı, Həcər də ona nəsə dedi. Qarmaqarışıqlıqda (məqsəd də bu qarmaqarışıqlığı salmaqdı) girəvələyib Həcərin bahalı, tanış ətrinin iyini sinədolusu udaraq (oğurluq kimi bir şeydi) dalı-dalı geriləđi. Qapının arasında ləngiyib o iyi bir də uddu, qapını örtdü. Kip örtdü. Bu iy bütün günü bəsiydi…

Həcər də Həcərdi haa… Bir ayrı candı. Di gəl o boyda kənddə bu cana yiyə duran yoxdu. Yavaş-yavaş qızlıq sərhəddini aşırdı. Canıyanmış vaxtında hərəyə bir qulp qoymuş, şəbədə qoşmuşdu. İndi özünə şəbədə qoşurdular. Kənd ki kənd. Şəhərdə olsaydı dəli-dolunun biri çoxdan qapazlamışdı. Şəhərdəki qızlara baxanda Həcər yazıq, Həcər fağır neynəmişdi!.. Gödək geyinməyə, ətirlənib-pudralanmağa, qaş-gözlə danışmağa qalsa, gərək şəhərdəkilərin heç hansına yaxın durmayaydılar. Ağzı günə qalıb qız qarıyaydılar. Eh, Hüseynqulu niyə axı cavan deyildi? Vallah, billah, alardı Həcəri. Ağzının dadını-ləzzətini bilərdi. Cəhənnəm yaşın ötməyi, arvadı, üç qızı, sonbeşik oğlunu neynəsin?.. (Guya arvad-uşağı olmasa, Həcər ona gələrdi…)

Rayon mərkəzinə yolu düşəndə Hüseynqulu hökmən univermağa, ətiriyyat bölməsinə baş çəkərdi. Bahalı-bahalı ətirləri, duxiləri bir-bir iyləyər, Həcərin ətrinin iyini axtarar, tapmazdı. Deyəsən, onlarda çatmayan Həcərin öz iyi idi…

Cavanlığında alverçidən arvadına on manata (puldu haa) bir duxi almış, sevindirmək istəmişdi. Ancaq zalım qızı qələtxərcliyinə görə evdə ona yamanca toy tutmuşdu.

- Bu nədi, ay Hüseynqulu?.. - Təəccüblə soruşmuşdu.

- Bahalı duxidi, arvad. - Hüseynqulu heç nə unamadan lovğalanmışdı. Gözləmişdi ki, indicə arvadı boynuna sarılacaq, üz-gözündən öpəcək. Bu cür hədiyyənin cavabı nə olmalıydı bəs!..

- Hüseynqulu, belə artırmısan?.. Pul tapmısan?.. - Böyük bir ziyanlıq törətmiş kimi arvadı hirslənmişdi.

- Ətri məgər artıranda, pul tapanda alırlar, arvad?.. - Hüseynqulu arvadından da bərk təəccüblənmişdi.

- Ə, bizim haramıza yaraşır bahalı duxi?..

- Vurarsan, yaraşar də…

- Tənək dibi boşaldanda, yoxsa pəyəni kürüyəndə vuracağam?..

Kəsəsi, arvadı bir fısqırıq qopartmışdı ki, sonralar Hüseynqulu ona allahın ucuz ətrini də qıymamışdı. Qızlarına da həmçinin. Axı onlar da anaları kimi tənək dibi də boşaldırdılar, pəyə də kürüyürdülər. Bəlkə o vaxt arvadı Hüseynqulunun hədiyyəsini minnətdarlıqla qəbul etsəydi, əvəzində ona heç olmasa bir-iki kəlmə xoş söz desəydi (öpməyi cəhənnəm), sonralar, lap elə yaşının bu çağında xəyalı Həcərin dalınca uçmazdı...

Qapının açılması Hüseynqulunu fikirdən ayırdı.

Yelmar kişi o tərəf-bu tərəfə baxıb əlini sildiyi məhrəbasını asmağa divarda asılqan axtardı, tapmadı. Axırda onu Hüseynqulu kimi çarpayısının başına atdı.

″Görəsən bu boyda nəhəng gövdəni o ayaqlar necə daşıyır? Yəqin vərdiş eləyib. Yoxsa birdən-birə onun altına girmək olar? Əşi, nə vərdiş, nə adət, görmürsən necə şişib kötüyə dönüb? Hələ böyrəkləri… dözməyib daş bağlayıb… Bəs səninkinə nə azar dəyib, Hüseynqulu? Hə, mənimkinin dərdi ayrı dərddi. Həcərin ətrinin iyi çürütdü mənim böyrəklərimi…″

Axırıncı fikrinə gülməyi tutdu. Üzünü çevirdi ki, Yelmar kişi görməsin.

Beşcə dəqiqədən sonra Yelmar kişi traktor kimi xoruldadı.

″Heyvanına şükür, ilahi!..″

Axşam Yelmar kişi birdən-birə öldüm-öldümə düşdü. Hüseynqulu növbətçi həkimi, şəfqət bacısını çağırdı. İynə vurdular, dərman içirtdilər. Handan-hana babatlaşdı.

Bayaqdan Yelmar kişinin varına, dövlətinə susayan, həsəd aparan Hüseynqulu naşükürlüyünə görə özünü bərk qınadı. ″Yazıq döyüləmmi, ə, onun yerində olam?..″

* * *

- Ay Hüseynqulu, professorun abxoduna nə qədər qalıb? – Yelmar kişi yerində qurcalandı.

- Azalıb. Nəyinə gərəkdi?..

- O zərfi görürsən? - Tumbanın üstündəydi. - İçində min manat var. Professor üçün hazırlamışam…

- Abxodda verəcəksən? Elə özciyəzin?.. - Rüşvəti başqasının, tanış-tunuşun əliynən ötürdüklərini eşitmişdi.

- Belə yaxşıdı. - Yelmar dedi. - Sənin işin o olsun ki, bizi tək burax…

“Abxod”dan sonra Hüseynqulu qayıdıb tumbanın üstündəki pul zərfini görmədi. Yelmar kişinin də kefi kökəlmişdi.

- Bacıoğlu, pul kəsməyən başı heç nə kəsməz. Gör bundan sonra sənin professorun bu qara ləleşiyin başına fırfıra kimi fırlanır ya yox… - Seyid cəddinə arxayın olan kimi Yelmar kişi də pulunun gücünə arxayındı...

Professor hər gün səhər-səhər eyni qaydada palatalara baş çəkir, yenə əvvəlcə Hüseynquluynan maraqlanır, şikayətlərini dinləyir, dalınca da məsləhətlərini, tapşırıqlarını verirdi. Di gəl bu pul haqq-hesabından sonra Hüseynquluya elə gəlirdi ki, professor Yelmar kişiyə qarşı daha diqqətlidi. Yanında daha artıq dayanır, vaxtını daha artıq itirir. Lap belə Yelmar kişi özü demiş, başına fırfıra kimi fırlanır...

Odu ki, Hüseynqulu yerli-yersiz hər xırda ağrı-acısını şişirdərək uzun-uzadı şikayətlənir, professoru ona tərəf buraxmaq istəmirdi…

* * *

Şəfqət bacısı başını qapının arasından içəri soxub:

- Hüseynqulu, professor səni çağırır, - dedi.

- Hardadı?..

- Harda olacaq, kabinetində…

Hüseynqulu sürütmələrini könülsüz ayağına keçirtdi.

″Həə, professor, gördün tərpənmirəm, dözmədin, özün öz dilinlə çağırtdırdın. Amma sənə veriləsi pulum yoxdu. Vallah, yoxdu, a kişi. Ağlın Yelmar kişi kimisinə getməsin...″

Professor qarşısındakı stulda ona yer göstərdi.

- Ay Qulu (adını özyanından ixtisara salmışdı), böyrəklərinin axırıncı rentgen şəklini gətiriblər. Arxayın ola bilərsən, hər şey normasındadı. Küy-kələyə ehtiyac yoxdu...

Hüseynqulu onun dediklərini eşitmirdi.

″Qurtar görək, professor, sözüyün mustafasını de, ürəyimi üzmə, kişisən…″

- Əlavə bir kurs da müalicə yazmışam. - Eynəyinin şüşəsini silib təzədən taxdı. - Uzaq başı, bir həftədən sonra buraxacağam get

balalarıyın yanına. - Gülümsədi. - Əlavə sualın-zadın yoxdu ki?.. - Hüseynqulunun tərpənmədiyini görüb bir də soruşdu: - Bəlkə səni nəsə narahat edir?..

- Nə?.. - Hüseynqulu elə bil yuxudan ayıldı. - Yox, professor, yox...

- Onda gedə bilərsən…

Hüseynqulu tez qalxıb qapıdan çıxdı…

* * *

Arvad-uşağı, qohum-əqrəbası hər gün Yelmar kişiyə baş çəkir, zənbil-zənbil pay gətirirdi. Hüseynqulu onların əlindən bezmişdi.

″Adamın nə qədər qohum-əqrəbası olar, ilahi?..″

Yelmar kişi yaxşılaşmaqdansa lap düşmüşdü. Yıxılıb qalmışdı böyrü üstə. Ərklə Hüseynqulunu buyurur, gələn yemək-içməyi ona yerbəyer elətdirirdi. Koridordakı soyuduculardan biri Yelmar kişiyə tutdurulmuşdu. Hüseynqulunu daha yeməkxanaya buraxmırdı. Sözündən çıxa bilməsə də Hüseynqulu qətiyyən istəmirdi bu dadlı-duzlu, ləzzətli yeməklərə özünü öyrətsin. Qorxurdu harınlaşa, sonra, kəndə, evinə-eşiyinə qayıdanda arvadının bişirib-düşürdüklərini bəyənməyə…

Hərdən də sadəlövhcəsinə özünə haqq qazandırırdı: ″Niyə utanmalıyam? Bütün bu naz-ne′mət bizim, mənim və mənim kimi əlsiz-ayaqsızların əlinin bəhrəsidi. Hardasa, nədəsə aldadaraq qapazlayıblar. Girəvədi, haqqımı heç olmasa bu cür qopartmalıyam. Bəlkə professor da belə fikirləşir, ona görə götürüb o pulları?..″

Hər dəfə soyuducunun ağzını açanda Hüseynqulu beş il əvvəl rəhmətə getmiş anasını xatırlayırdı.

Rayon mərkəzindəki xəstəxanada yatan anası gətirdiyi yeməyi zənbilli-zadlı geri qaytarmışdı.

- Vallah, burda hər şey verirlər, ay bala. - Demişdi. - Odey koridorda, hərənin palatasının ağzında iri bir xaladennik var, içi də dolu can dərmanı. Kimin ürəyi nə istəyir, götürüb yeyir…

Hüseynqulu bu vaxtacan belə şey eşitməmişdi.

- Nə xaladennik, ay arvad?.. - Soruşmuşdu.

- Boy, xaladennik görməmisən, ay bala?.. - Anası təəccüblənmişdi.

- Görmüşəm, - demişdi, - amma sənin dediklərini birinci dəfədi eşidirəm.

O biri dəfə gələndə anası Hüseynqulunu bir qırağa çəkib xısın-xısın gülmüşdü.

- Başıma gələni bilirsənmi, əədə?..

- Noolub, ay ana?..

- Sənə yemək-içmək deyirdim ha, demə, xəstələrin özlərininmiş. Yanına gələnlər gətirir, onlar da yığırmış palatalarının ağzındakı xaladenniklərə. Mən başı batmış da bilməmişəm. Deməyəsən, xəstələr də görür, özlərini görməməzliyə vururmuş. O günü iynəvuran qandırıb. Ətək-ətək ət tökmüşəm…

* * *

Gecənin bir vaxtı ayıldı ki, Yelmar kişi xır-xır xırıldayır. Bu adi xırıldamağa oxşamırdı. Nəsə çox pis xırıltıydı…

Hüseynqulu qaranlıqda birdən-birə üşürgələndi.

- Yelmar kişi, ay Yelmar kişi!.. - Qeyri-təbii bir səslə harayladı.

Cavab gəlməyəndə Hüseynqulu qalxıb işığı yandırdı. Ayaqlarının ucunda Yelmar kişiyə yaxınlaşdı. Qan-tər içindəydi. Ağız-burnundan köpük daşlanırdı. Boğulurmuş kimi gözləri kəlləsinə çıxmışdı...

Şəfqət bacısına xəbərə qaçdı. Bir azdan növbətçi həkim də özünü yetirdi. Bütün gecəni Yelmar kişini özünə gətirməyə çalışsalar da bacarmadılar. Səhərə yaxın keçindi…

* * *

Meyidi günorta qohum-əqrəbası apardı. Kürəkəni şeylərinin dalınca gələndə səssizcə içəri girən professor əlindəki bağlı zərfi ona uzatdı.

- Bu nədi?.. - Kürəkən soruşdu.

Professor dedi:

- Mərhumun əmanətidi, saxlamağa vermişdi.

Hüseynqulunun matı-qutu qurudu. "Pah, atonnan!. Bunlar nə utanmaz, afirist adamlardı, ə? Hər şeyi gör necə asanca yoluna qoyurlar…"

Yelmar kişinin kürəkəni kinayə ilə güldü:

- Deməkk, götürmüşdünüz ki, tutar qatıq, tutmaz ayran, eləmi, professor?..

Professor təmkinini pozmadı:

- Zorla vermişdi, bacıoğlu. Mən də ümidini qırmaq istəməmişdim. O cür adamları yaxşı tanıyıram. Götürməsəydim, şübhələnəcəkdi. Bu, elə bir psixoloci andı ki…

″ Belə dee…″

## Ç ə t i n l i k

Kresloda rahatlanıb əlindəki ikicildlik kitabın birinci cildini o tərəf-bu tərəfinə çevirdi, yelə verən kimi tələsik vərəqlədi, mündəricatını gözdən keçirdi. İkinci cildi də bu qaydada başa çıxdı. Adətiydi, təzə aldığı kitabın əvvəl bu cür qatını açar (bunların qatı çoxdan, həm də başqası tərəfindən açılsa da oxunana oxşamırdı, əzilməmişdi), ötəri tanışlıqdan sonra oxumağa başlayardı…

- Ə, hara gedirsən?.. - Aralı qapıdan koridorda telefona cavab verən qızının səsi çağırılmamış qonaq tək içəri təpildi. - Buna bax ey, gecə vaxtı küçədə avaralandığı bəs deyil, hələ üstümə çığırır da… - Qardaşıynandı. - Atam hardadı?.. Evdə. Neyniyəcək, bayaqdan qarana söylənir. Bilmirsən niyə?..

Qızı öz yanından toqqaşdırırdı. Söylənməyinə söylənmirdi. Ancaq divar saatına gözü sataşdıqca canının yeri darıxırdı. Özündən asılı deyildi, oğlu axşamlar evə gec qayıdanda başı nəyə qarışır-qarışsın fikri-zikri onun yanında qalırdı. Cavanların artıq-əskik hərəkətləri haqqında qulağı gündə bir şey eşidir, qorxurdu axmaq-uxmağa qoşula, başına iş aça. Uşaq elə balaca yaxşıymış. Həvəslənirsən tez böyüsün, böyüdükcə dərd-balası da artır…

- Kimnən gedirsən? Atam bilir? Yox?.. Onda dayan özünə deyim, soora hara gedirsən get... - Nə o, qızının üzünü görürdü, nə də qızı onun. - Ata, eşidirsən?.. - Eşitməyinə eşidirdi. - Validdi ey, deyir, guya sənə deyib, Eldarın kurtkasının zamoku xarabdı, dərziyə onu dəyişdirtməyə aparırlar...

- Qələt eləyirlər!. - Sonra bu hikkənin dalında dayanıb-dayanmayacağını fikirləşmədən səsini ucaltdı.

- Demək, deməyib, ata?..

- Deməyinə deyib, qızım... - Səsinin tonunu endirdi. - Ancaq tapşırmışdım, səkkizdə dükanı bağlayıb gedər, nə işləri var görər, tez də qayıdarlar…

Oğlu bir tin aralıdakı uşaq əyləncə komputer klubunu işlədirdi. Eldar üzbəüzdəki binadandı. Validlə yaşdaşdı. Yoldaşlıqları tuturdu. O da qonşuluqdakı danışıq məntəqəsində çalışırdı. Oğlu evə adətən ordan zəng vururdu…

- Valid, atam deyir, gecə saat on birdə dərzi olar?.. - Qızı onun dediklərini öz bildiyi kimi çatdırdı. - Dərzi on ikiyəcən işləyir? Elə o da siz ağıldadı!.. Qışqırma, ə, elə qışqırram qulağın batar!.. Atam soruşur, bu gedişlə haçan qayıdallar?.. - İndi də səlahiyyətini aşaraq onun adından danışırdı. - Yaxındadı?.. Erkən olmazdı?.. Gopa bir cansan!.. Ata, deyir, klentim vardı, ona görə ləngidim…

- Yalan danışır, nanəcib!.. - Doqquzacan klubdan uşaqların ayağı çəkilirdi. Xüsusən, indi, qışda. Qaranlıq tez düşürdü…

- Əlbəttə, yalan danışır!.. - Qızı dəstək qulağında təsdiqlədi. - Mumla, əşi, səni tanımayana lənət!.. - Qardaşı eşidib nə dedisə ağzından vurdu.

- Ağız, adam qardaşıynan o cür danışmaz!.. - Acıqlansa da istər-istəməz dodağı qaçdı. Yaxşı ki, arada qapı vardı, görünmürdü.

İtlə pişik kimi dolanır, bir-birini sancmağa, acılamağa bəhanə, girəvə axtarırdılar. Ər-arvad hərdən qıraqdan onlara baxıb gileylənirdilər, görəsən hamınınkı belədi?.. Sonra da bir-birinə təsəlli verirdilər ki, uşaq şıltaqlığıdı. Böyüdükcə tərgidəcək, düzələcəklər. Buna əsasları da vardı. Vay oydu qız ya oğlan, tafotu yoxdu, hansısa xəstələnəydi, yaxud adicə başı ağrıyaydı, həmin saat o biri əl-ayağa düşəcək, narahat olacaqdı…

- Görmürsən, Validdi də… - Qız özünü doğrultdu. - Hə, ata, bir də deyir, Eldar işini indilərdə qurtarır axı…

- Denən, sabah aparıb düzəltdirərlər... - Geri çəkilmək istəmirdi.

- Deyir, Eldar kurtkanı sabah instituta geyinməlidi. - Eldar gündüzlər idman institutunda oxuyurdu.

- Əşi, qurtarın, bəsdi bazar açdınız!.. - Əsəbləşdi.

- Ay ata, mənnikdi? Hə, budu, indi də maamı çağırır… Ə, maamı neynirsən?.. - Qız özü də mırt vurmaq, ara qarışdırmaqdan ötrü ölürdü. Hamısı bekarçılıqdandı.

- Əlimdə işim var, a bala… - Arvadı mətbəxdən dilləndi. -Telefona gələsi halım yoxdu.

- Elə maması deyil onu qudurdan?.. - Arvadına eşitdirdi.

Lakin nədənsə arvadından səs çıxmadı. Adətən cavabsız buraxmazdı. Bu da onu hər şeydən betər əsəbləşdirərdi.

- Ə, maam sənin kimi bekar deyil ey… Ay maa, gəl də. Uyy, dədə, qulağım partladı… Ə, havayıdan boğazını niyə cırırsan, gəlmir də, mən neyniyim?.. Gözdə öldürərsən, yiyəsizəm?.. - Yəqin gədə qızı hədələyirdi.

Bacısından iki yaş balaca olsa da oğlandı, hökmlüydü. Əli yetmirdi, yoxsa qız qabağında belə cükküldəməz, quş dili ötməzdi. Hesabla, bu saat dişi bağırsağını doğramalıydı.

- Maa, bəsdi özünü naza qoydun də… - Qız anasına çəmkindi.

- A bala, vallah, sizin kefiniz qalxıb… - Anası deyindi.

- Neynim, görmürsən ağcaqanad kimi əl çəkmir?.. - Valid o başda bunları eşidib təzədən bacısını hədələdi-nəydisə qız ağzını əydi. - Hə ey, hə, öldürərsən, hım…

Mətbəx tərəfdə arvadının çəkələkləri tappıldadı. Suyu artıq düşmüş xəmir kimi tezcə suyulmuşdu.

- Az, atası icazə verməyəndən sonra mən kiməm?.. - Ona eşitdirirdi. - Nədi, a bala?.. - Dəstək artıq qulağındaydı. - Ə, görmürsən atan razı deyil?.. - Baho, danışdı də! Yüz dəfə öyrədirdi ki, özünü uşağa yavaş tanıtma. - Heç gözlərindən xəbərin var?.. Qıpqırmızı qan çanağıdı ey! Axşamacan sancılırsan o komputerin qabağına, onu çıxardanın atasına lənət!. Axırda kor qalacaqsan... Axşamın xeyir, ay bala... - Valid dəstəyi dostuna ötürmüşdü. - Başına dönüm, Eldar, gecdi axı. İşıqlı sabahı əlinizdən alıblar?.. - Qulaq asırdı-nədisə arada fasilə yarandı. Sonra arvadı candərdi mızıldandı. - Yaxşı, neynək. Amma tez ha! Saata baxacağam, çox ləngisəniz, evinizə, anana zəng vuracağam. - Dəstəyi aparatın başına daş kimi necə saldısa, şaqqıldadı.

- Həə, məsələni yoluna qoydun, deyəsən?.. - Arvadına tərəf hikkələndi. - Neynək, evə qayıdacaq!..

- Neyniyəssən?.. - Arvadı əllərini döşlüyünə silə-silə üzə çıxdı. Bir gözü qıyılmışdı, daxilən gülürdü.

- Klubun açarını əlindən alacaq, özünü də evə buraxmayacaq, iti qovan kimi qovacağam.

- Hara?..

- Az, mənə elə baxma! Cəhənnəmə-gora, nə bilim hara?..

- Daha orası sənlikdi, kişi. Bu sən, o da oğlun, neynirsən, elə, gör dinsəm!.. - Üzünü döndərib xısın-xısın güldü.

- Bilirsən sən nəsən?.. İşi pozur, aləmi alt-üst çevirirsən, sonra da deyirsən, özün bilərsən. Baxarıq! Əl-ayağıma dolaşmayacaqsan ki?..

- Kişi, ürəyim durmur də, baladı. O tərəfdən də Eldar yalvardı...

- Bala yox ey, bəladı, bəla! Pişik balasını çox istədiyindən yeyər, arvad. Belə-belə kor qoyacaqsan uşağı…

- Onsuz da kor qalıb!..

- Karın könlündəki… - İstehza ilə qımışdı. - Hamısı sənin sayəndədi..

- Mənim niyə?. Bir adam tap oturt klubda, gədə də o komputerə az baxsın. Gözü-başı töküləndə deyəcəyəm sənə... - Kor tutduğunu buraxmayan kimi arvadı elə hey öz qandığı tərəfə dartırdı.

- Az, niyə tərs danışırsan?.. - Yanıb töküldü. - Axşamacan komputerə baxmağa onu kim məcbur edir?..

- Neynəsin, qurub-qoşmasın?.. Deyir, mama, çoxu balacadı, komputerdə oynamağı cəhənnəm, diski qoymağı, cosiknən rəftarı belə bacarmır. Eləsini gərək başa sala, öyrədəmi?..

- Bir-iki dəqiqəynən göz xarab olmaz, ay məsdəfsiz. O deyir, sən də inanırsan. Söhbət saatlardan gedir. Haçan kluba girirəm, Validi komputerin qabağında şöngümüş görürəm…

Qırılanı-dağılanı düzəltdirmək, haqq-hesab çəkmək, vergi-mergiyə qaçmaq və s. ona baxırdı. Arada, naharda-zadda hətta bir saatlığa, para saatlığa klubda da otururdu. Oğlunu evə, nahara yollayırdı…

- Uşaqdı, o da oynamaq istəyir də, boyu çıxdığına baxırsan?..

- Sənin sözümdən belə çıxır ki, uşağın heç bir günahı yoxdu. Bəlkə gümah hamısı məndədi?..

- Nə bilim, vallah…

Arvadının bu sözü, illah da deyiliş tərzi onu daha artıq qıcıqlandırdı. Sussa, dinməsəydi, bundan min pay yaxşıydı.

- Bax, qulağını aç, eşit, arvad, budu, deyirəm, araya girsən, səni də ona qatacağam!..

Arvadı bu xınanın o xına olmadığını duyub dinməz-söyləməz çəkildi.

Yazı-pozusunun dərdiydi, oğul minnətini çəkməz, əvvəlki kimi dükanında oturub çax-çuxunu eləyər, bilərdi qazancı nədi, xərci-xəsərrəti nə…

Bir müddət ümidini bacısı oğluna bağladı. Oğurluq-doğurluqla alış-verişini öldürüb genidi. Dükanı kluba çevirib oğluna tapşırdı. Sevinirdi ki, oğlu böyüyüb. Qeyrətə dolacaq, atasını kənar qayğılardan qurtaracaq, o da yazı-pozusundan bərk yapışacaq. Dükan, alış-verişlə yazı-pozu tutmurdu. Bir əldə iki qarpız kimi bir şeydi... Hərdən fikirləşirdi ki, kaş bu yazı-pozu əzəldən onu heç tapmayaydı! Başqaları kimi başını aşağı salıb gündəlik dərd-səriynən, adi insani qayğılarıynan yaşayar, gecələr yorğan-döşəyində fikir-xəyalsız, rahat yatardı. Onsuz da ailə, dolanışıq qayğıları (həddən artıq ailəcanlılığı yaradıcılığına əzəldən bir çidardı) ardıcıl, fasiləsiz işləməyə imkan vermirdi. Zaman-zaman eyni həvəslə təzədən köklənmək asan deyildi…

Yaşının bu çağında şan-şöhrət qulağına girməsə də özüynən, hissləriynən bacarmır, yazı-pozunu, kitab-dəftəri birdəfəlik ata bilmirdi. Vallah, billah, Kərəm məhəbbəti də yalandı bu məhəbbətin, bu haqq-hesabın yanında!..

Elə bu günü götürək. Curnaldakı povestinin qonorarını, nə qədər ehtiyacını, əyər-əskiyini ödəyəcək qəpik-quruşunu alıb Malakan bağının başındakı kitab passacına qaçmışdı. (Passacda əvvəlki passaclıq qalmamışdı, alverxanaydı, hamı alıb-satır, qarnını otarırdı, gödəniyyət mədəniyyəti üstələmişdi). Pulsuz vaxtı köhnə kitablar satan oğlanda Ə. Əylislinin ikicildliyini görmüşdü. Tanışlığa baxmayaraq (sadiq müştərisiydi, azdımı?..) nisyə götürməyə üzü gəlməmişdi, halbuki indiki alverin çoxu nisyəydi…

- Ürəyi kitab istəyənin pulu, parası yox, pulu, parası olanın da kitab almağa marağı… - Oğlan yana-yana danışırdı. - Saatlarla bu kitabların qarşısında boynunu büküb duranlar var. İçi keçəni götürüb

o tərəf-bu tərəfə varaqlayır, canlı kimi imsiləşir, gözünün qurdunu öldürsə də ürəyini varaqların arasında qoyub arxasına baxa-baxa birtəhər uzaqlaşır… Neyniyim, əlimdən nə gəlir?..

İllər boyu boğazından, əyin-başından qırta-qırta yığdığı kitabxanası (orda təzədən oxumaq istədiyi bu ikicildlik də vardı) işğal altında, erməni əsirliyində qalmışdı. Ev-eşiyi, həyət-bacası, ağacları kimi kitabları da tez-tez yuxusuna girirdi. Hamısından artıq onlara yanır, onların xüffətini çəkirdi. Pis-yaxşı dolanışıq tapmışdı. O kitabları (illah da avtoqraflı) isə bir də yığıb toplamaq qeyri-mümkündü. Əziz müəllimi İ. Şıxlı ikinci dəfə dünyaya gəlməyəcək, "Dəli Kür"ü avtoqrafla təzədən sevimli tələbəsinə bağışlamayacaqdı axı…

Kitabı qapadı. Həvəsi ölmüşdü. Onsuz da ləzzət eləməyəcəkdi. Necə ki, təzə əlifba ilə oxuduqları hələ bir elə ləzzət eləmirdi...

- Gözünüz aydın, toxdayın, odey, gülməşəkər oğlunuz səyəlləklənə-səyəlləklənə gəlir. - Bir azdan balkonda dayanan qızı pəncərəni örtüb içəri keçdi.

- Aaz, içib, deyirsən yəni?.. - Anası həyəcanlandı.

- Mən içib dedim, ay maa?.. - Qızı güldü. - Deyirəm, təşrif buyurur də…

- Canın yansın, qorxutdun məni…

Hə, indi oğluynan neyniyəcəkdi? Dilindən çıxmışdı ki, evə buraxmayacaq. Gərək sözünün üstündə duraydı. Hirsi soyuyan kimi güzəştə gedir, oğlu da yumşaldığını görüb hər şeyi qulaqardına vururdu. Nə kitab oxuyur, nə dəftər üzü açırdı. Könlündən də institut keçirdi…

- Bəs mənim məsələm necə olacaq, ay ata?.. - Yaxınlarda birdən-birəcə onu sorğu-suala tutmuşdu.

- Hansı məsələn, ay bala?.. - Təəccüblənmişdi.

- İnstitut məsələm…

- Məndən niyə soruşursan, oğlum? Qəbul imtahanlarından əli ətəyindən uzun qayıtdın. Barı çalış hazırlaş, bu il gir, hələ gec deyil…

- Hazırlaşmağa səbr, həvəs var?.. - Vicdansızcasına üzünə dirənmişdi. - Odu, Eldarın da balı çatmırdı, atası pulnan yazdırdı…

- Niyə sən instituta öz gücünə, öz biliyinə girənlərlə bəns eləmirsən, oğlum?..

- Bacım da oxumurdu, tez əl-ayağa düşdün, tanış tapıb düzəltdin. - Sualdan yayınmışdı. - Mənə çatanda…

Qızının institut məsələsini növbəti səhvlərindən biri sayırdı. Arvadının dil-filinə uymuşdu. Qız xeylağıdı, kəsikdi, gələcəkdə belə olar, elə olar, indidən əlinə sənət-sübut salmalıdı…

Özəl universitetdəydi, təhsilhaqqısını-zadını güc-bəlaynan çatdırırdı…

- Vallah, bu, oxumaq deyil, oğlum. Biz pulla qiymət yazdıran yoldaşlarımıza həqarətlə baxardıq…

- Eh, ay ata, onlar hamısı Sovet hökuməti kimi qaldı keçmişdə. İndi belə şeylər adi iş sayılır…

- Baxır kimin üçün…

- Bir də, sənə də minus, nöqsandı… - Oğlu çoxbilmişliklə qabağına daş diyirlətmişdi. - Eşidən-bilən qınayacaq ki, filankəsin bir oğlu var, onu da oxutmadı…

- Axmağın sözü milçək dızıltısı kimi yalnız könül bulandırar, oğlum. Ağlı başında olan məni yox, sizi qınayacaq…

- Niyə?..

- Deyəcəklər, heyf o ataya ki, övladları bivecdi... - Arvadı böyürdən dillənmişdi. Həmişə nala döymürdü, hərdən mıxa da vururdu.

- Ay mama, sən dayan... - Anasının cavabı qızına da sərf etməmişdi.

- Hərə boynuna düşən yükü vicdanla daşımalıdı, oğlum. Fərz elə ki, sabahdan əlimi-ayağımı uzadıb oturdum evdə, yazı-pozumla məşğul olmağa başladım. Siz də qaldınız allah ümidinə, yazı-pozu dolandırmır axı. Necə baxarsınız mənə?..

- Xətrinə dəyməsin, kişi, - arvadı özünü yenə ortaya atmışdı, - elə indi də onun kimi bir şeydi. Qaçandan sonra alış-verişə qurşanmışdın, əməlli-başlı dolanırdıq. Dükanı tikdirəndə sevindim ki, vəziyyətimiz bir az da yaxşılaşacaq. Amma tərsinə oldu, nəsə birdənbirə soyudun...

Dəhşətdi! Özlərini hərrac bazarında bilir, dünyaya yalnız pulun gözü ilə baxırdılar…

Orta məktəbi də, institutu da özminnətinə oxumuşdu. İndi uşaqlarının oxumamağı ən yaralı yeriydi. Bir çoxu kimi arvadı da günahın hamısını müharibənin üstünə yıxırdı. Hərdən ona haqq qazandırsa da (aşağı sinifdə yaxşıydılar, qaçqınçılıqda neçə kənd-kəsək, yer-yurd, məktəb, müəllim dəyişmişdilər), əslində günahın çoxunu arvadında görürdü. Gərək uşaqlarının təhsilinə daha ciddi yanaşaydı. Müharibəydi. O, ailəsinin, uşaqlarının xatirinə yazı-pozusunu müvəqqəti qatlayıb bir tərəfə qoymuş, arabir içində qımıldanaraq onu dingildədən məhrəm fikirlərini, hisslərini ürək ağrısıynan xırpalayaraq çətin əldə edilən çörək, dolanışıq dalınca düşmüşdü. Həm də əməlli-başlı çap olunduğu bir vaxtda…

Son zamanlar təzədən qələmlə ülfət bağlamışdı. Fikirləşirdi, çətini qızını (nişanlamışdı) köçürüncədi, hələ qocalmamışdı ki.. Nigarançılığı arxa çevirmək istədiyi oğlundandı. Oxumur, heç oxumasın, hamı institut qurtarmaz ki! Yaşamaq üçün ağıl-kamal, dünyagörüşü, təcrübə əsasdı. Bunu da insana həyat özü verirdi. İntəhası bəri başdan oturub-durduğunu tanımalı, xeyirxah əməl sahiblərini eşitməli, həyatını onlara görə istiqamətləndirməlisən… Oğlunun tay-tuşlarından (əlbəttə hamısından yox) ağlı bir şey kəsmirdi. Qapıdan girəndə siqaretinin iyindən burnu tutulurdu…

- Siqaret iyi evimizdə hardandı, balam?.. - Bir dəfə ortalığa söz atmışdı.

Arvadı da, qızı da o saat Validin üzünə baxmışdı.

- Məndən şübhələnirsiniz?. - Oğlu sırtıq-sırtıq gülümsəyərək əkilmişdi.

- Daha kimdən şübhələnməliyik?.. - Qızı dilotu yemişdi. -Atam çəkmir, başqa siqaretçəkən də evimizə gəlməyib…

- Axşamacan uşaqlar yanımda fısqırdır, onun da iyi hopur paltarıma, mən neyniyim?.. - O biri otaqdan səslənmişdi.

- Axı bu iy səndən həmişə gəlmir, ay oğul, çəkəndə gəlir…

Anlamaq istəmirdi ki, atası onun getdiyi yolu çoxdan yorub yolda qoyub…

Dükana yaxınlaşanda qapının ağzındakı uşaqlar çaxnaşır, tez içəri xəbərə qaçırdılar. Bilirdi ki, nəsə bir zibil qaynadıblar, ört-basdır etmək lazımdı…

Neçə dəfə kartlarını, dominolarını yığışdırmışdı. Elə-belə oynadıqlarını, baş qatdıqlarını söyləsələr də duyurdu ki, ortalıqda xırda-xuruş pul haqq-hesabı da var. Qəfildən çıxıb dəlil-sübutla yaxalamaq istəsə də ürəyində allaha yalvarırdı ki, oğluynan üzləşməyi, pisləşməyi ona göstərməsin…

Qapının zəngi çalındı. Açmağa gedən qızı gözlükdən baxıb durdu. Bu da qardaşını cırnatmağın, hayıf almağın bir formasıydı.

- Az, aç də, gözünü nəə bərəltmisən?.. - Valid hirsləndi. Bacısının qapının arxasında dayandığını duyurdu.

- Hə, gəlib çıxdın?.. - O saat qapının sürməsi şaqqıldadı.

- Noolub?.. - Kurtkasının xışıltısından ayaqqabılarının bağıynan əlləşdiyi bilinirdi…

- Heç nə... - Qız dırnaqlarını didə-didə dodaqaltı mızıldandı.

- Di onda itil burdan!..

Yerində qurcalandı. Özünü hazırladı ki, ayağa durub oğluynan haqq-hesab çəksin…

- Bala, vallah, uşaq evə bu vaxt gəlməz...- Arvadı onu qabaqladı.

- Aa, dedim də hara, niyə getmişdik…

- Könlünüzdə biclik olmasaydı, bu vaxta qalmazdınız…

- Eldarın bir dostu gəlib çıxdı, başladı komputerdə oynamağa…

- Deyəydin, klubu bağlayıram…

- Üz vurdu, neynim? Eldar da dedi, qoy oynasın, on birə qalanda məntəqəni bağlayaram, yoldaşlı kurtkamın zamokunu dəyişdirtməyə gedərik. Getməyəydim? Axı mən hara desəm o, atkaz eləmir…

- Axırıncı dəfə olsun!..

- Olsun… - Otağa keçdi. - Axşamın xeyir, ata. Necəsən?..

Üzünə baxıb qırımından ağlı bir şey dadmayanda qayıdıb tezcə sürüşdü…

Neynəsin? Dava-qalmaqal salmağa həvəsi yoxdu.

İlahi, həyatda fərli-başlı, başucalığı, canrahatlığı gətirən övlad böyütmək nə çətindi!.. Halbuki əvvəllər kağız üzərində yaratdıqlarına düz-əməlli bir həyat verməkdən çətin, əzablı iş tanımır, bilmirdi. Çox da qələm əlindəydi. Əksər hallarda yazdıqları üzünə durur, iradəsinə

tabe olmurdu. Başlayanda bir fikirlə başlayır, axırda tamam başqa cür qurtarırdı. Bilən bilirdi bu nəmənədi…

Vallah, başdan ayağa insan kimiydi. Doğuluşu, ətə-qana dolması, böyüyüb ərsəyə çatması… hamısı eyniydi. Cavabdehliyi, məsuliyyəti də həmçinin. Nə az, nə çox! Guya biri balası, ciyərparasıydı, ət-qanından qopmuşdu, o biri, yazıb-yaratdığı yox? Qətiyyən!.. Biri (yazdıqları) həyatının davamıydı, o biri (oğlu) nəslinin… Hər halda, bu cür fikirləşirdi…

## Havalı Qulu

Qulu qəbristanlığa çatanda pencəyinin astarını eşələdi, barmaqları ilə orda ğizlətdiyi gödək, dəmir lomu axtardı. Onun soyuqluğunu ovcunda duyandan sonra bir balaca toxdadı. Bu soyuqluq bir özgə soyuqluqdu. Bu soyuqluq soyuqluq deyil, bəlkə istilik, təpərdi. Qulunun barmaqlarından bütün bədəninə, ürəyinə axır, onu bu yoldan ötürürdü…

Qulunun evi qəbristanlığın bir tərəfində, iş yeri, yə'ni traktor parkı da o biri tərəfindəydi. Qabaqlar Qulu bu yolu traktorla gedib gələrdi. Gecə də, gündüz də traktorun ixtiyarı özündəydi. Lazım olanda əkib-biçir, lazım olmayanda aparıb günlərlə həyətində, qoz ağacının altında yatızdırırdı. Sonra buna icazə vermədilər. Dedilər, traktorlar hamısı axşamlar hökmən parkda cəmləşməlidi. O vaxtdan Qulu piyada qaldı. Piyada da şər qarışdımı qorxusundan qəbristanlığın yanından təmtək, yoldaşsız keçməzdi. Amma məcburdu keçməyə. Odu ki, pencəyinin astarında həmin bu lomu gəzdirməyə başladı. Bundan da bircə allahın xəbəri vardı, o da vardısa. Qulu sirrini arvadına da açmamışdı. Açsaydı gərək ağciyərliyini də (guya bilmirdilər) boynuna alaydı. Qırx-qırx iki yaşlarında bir kişi üçün bu ayıbdı. O da ola dağ gövdəli, beş uşaq atası. Çox da uşağın beşi də qızdı. Qulu bu beş qızın hər birini oğlan arzulamış, yuxusunu oğlan görmüşdü, arvadı qız doğmuş, arzusunu, istəyini gözündə qarıtmışdı…

Əvvəllər qəbristanlığın yan-yörəsi açıq-açıqdı. Mal-at, qoyun-quzu orda otlayır, qəbirləri murdarlayır (heyvan nə qanırdı qəbir-filan

nədi, babalı sahibinin boynunaydı), yan-yörəsini tapdalayır, dağıdırdı. Ağsaqqallar ev-ev pul yığdılar, qəbristanlığın dörd tərəfinə məftil ″setka″ alıb çəkdilər. Bu işin savabını bölüşənlərdən biri də Quluydu…

Qulu qəbristanlığın yarısını arxada qoymuşdu. Birdən hardasa gecənin qaranlığında bir bayquş uladı. Müdhiş səs Qulunun canına üşütmə saldı, iliklərinə işlədi. Yalançı sözü, başının tükü meşə kimi ayağa qalxdı.

Qeyri-ixtiyari ətrafa baxdı. Arxaya çöndü. Heç nə gözünə dəymədi. Bir az sakitləşsə də pencəyinin astarından çıxartdığı dəmir lomun dəstəyini ovcunda daha bərk sıxdı. Bir-iki addım atmışdı ki, irəlidə, tənəklikdə nəsə bir şeyin adam boyu (bəlkə daha iri) ağardığını gördü. Başdan ayağa ağappaqdı. Beton dirəyə söykənmişdi. Üzü də, deyəsən, bu tərəfəydi…

Qulu o saat ayaq saxladı. Daha doğrusu, ayaqları özü irəli yerimədi. Qulunun istəyini-filanı nəzərə almadan yerə mıxlandı. Lap yuxularındakı kimi. Ayaqlarının ixtiyarı özündə olaydı ha, dızırığa dən verərdi. Qulunun bərkdə əli yoxdu...

Birdən dirəyə söykənmiş ağartı yerindən dəbərdi. Belini əyib ləngərləyə-ləngərləyə Quluya sarı addımladı. Eyni zamanda əl-qol atır, başını sağa-sola bulayırdı. Nağıl-filmlərdəki divlərə, əcdahalara oxşayırdı…

″Yoxsa Əlipaşanın dediyi cin budu, ə? Yaman yerdə axşamladıq...″

Yaxın vaxtların söhbətidi, işin axırında traktorçular bir yerə yığışmışdı. Səttar qəfildən qayıtdı:

- Uşaqlar, deyirlər, qəbristanlığın həndəvərində bir hal dolaşır?..

Səttar arada niyəsə Əlipaşaya göz vurdu. Qulu bunu görmədi. O qədər sadəlövhdü ki, görsə də bir şey unamazdı...

Əlipaşanın köhnədən, cavanlıqdan Quluynan ədavəti vardı. İkisi bir qızı istəmiş, qız Quluya qismət olmuşdu. Daha doğrusu, onu bəyənmişdi. O vaxtdan da Əlipaşanın ağzı Quludan əyriydi. Ən kiçik fürsəti belə əldən buraxmır, yeri düşdü, düşmədi ona sataşır, sancır, bir növ, hayıf alırdı. Üzbəsurət, kişiyanə Quluya gücü çatmırdı…

- Hal nədi, Səttar?.. - Cavan traktorçular maraqla soruşdular.

- Nə bilim, cin-şəyətindi, nədi…

Qənbər bic-bic qımışdı:

- Onu Qulu yaxşı bilər. Yolu qəbristanlığın yanındandı…

Daşı hərlədib-fırladıb Qulunun bostanına atmayınca ayılmadı. Bu da bir nömrə, kələkdi.

- Cin-zad nəəzir, ə?.. - Qulu dedi. - Sözdü də, danışırlar. Mən heç nə görməmişəm…

Tay-tuşlarına, traktorçu yoldaşlarına da əyandı ki, Qulu gecə qorxağıdı. Adi halda, xüsusən, onların yanında şiri-nərdi. Hansını desən, bircə həmləyə ayı kimi basmarlayıb qoyurdu dizinin altına. Bu cür eşşərək hərəkətlərinə görə hər adam hər saat onunla şit, əl-qol zarafatına girişməzdi…

Əlipaşa böyürdən dillənd:

- Ayə, o cini mən görmüşəm ey, mən.

- Elə şey olmaz!

Əlipaşa and-aman elədi.

- Harda görmüsən? - Kimsə xəbər aldı.

- Qəbristanlığın yanında, şumda...

Qənbər soruşdu:

- Gecə görmüsən, gündüz, ay Əlipaşa?

- Ə, gecə ey, gecə... - Əlpaşa dedi. - Aylı-ulduzlu bir gecəydi. Yer əkirdim. Cızı başa vurub təzəcə dönmüşdüm. Traktor öz xoduynan gedir, mən də mürgüləyirdim. Birdən şumun içində bədheybət bir şey gözümə dəydi. Başdan ayağa ağappaqdı. Dedim, bəs yuxudu. Gözlərimi ovub təzədən baxdım. Bədheybət varlıq bayaqkı kimi şumun ortasında dimdik durmuşdu…

- Pah, atonnan!..

- Rəhmətlik nənəm danışardı ki, keçmişdə kəndimizdə bir Tükəzban arvad varmış. Zahıymış…

- Zahı nədi, ə, Əlipaşa?..

- İkicanlı, boyludu də...- Əsəbləşdi. - Zahının evdə kimsəsiz, tək qalması qorxuludu. Hə, görür, budu, bacadan arvad sifətində əcayib bir şey yendi. Döşləri dizlərinəcən sallanır, saçları bir yaba qaratikan kolu, gözləri də pərtdə…

- Pah, atonnan!.. - Bayaqkı traktorçu yenə partladı.

- Tükəzban arvad da arvadımış haa! Həyəcanlansa da özünü itirmir, tez yaxasındakı sancağı açıb cinin yaxasına sancır. Cin o saat quzuya dönür. Arvadın ayaqlarına döşənib yalvarır ki, onu buraxsın. İynəli, sancaqlı cin-şəyətin əl-qolu bağlı qul kimidi. Nə buyursan, yerinə yetirəcək…

- Bəh-bəh!..

- Bəs nə! Tükəzban arvad bir müddət onu ev-eşikdə, əlinin altında işlədir. Bir gün harasa gedir, evdəkilərin saqqızını oğurlayan cin sancağı açdırır, əlli-ayaqlı qeybə çəkilir. Asta qaçan namərddi. Hə, indi həmin bu bədheybəti görəndə nənəmin dedikləri yadıma düşdü. Sancağım-zadım yoxdu. Olsaydı ha, yenə cinin yaxasına sanca bilməzdim. Çox da Tükəzban arvaddı, mən kişi. - Traktorçular gülüşdülər. - Hə, boynuma alıram də, qardaş. Nənəm onu da deyərdi ki, halı, cini görəndə üç dəfə "bismillah!" pıçıldasan, o saat yoxa çıxmalıdı. Mən də üç dəfə "bismillah" pıçıldadım, cin qeyb olmadı…

- Müasir cinlərdənmiş də… - Kimsə söz atdı.

- Hə, sən öl. Bismillahdan sonra başladı şumun ortasında əl-qol oynatmağa. Guya pəhləvandı, canbaza çıxıb. Traktorun üstünə yeriməyi də vecinə deyildi. Lap burnuna dirənəndə skorusu axıracan dartıb gözümü yumdum. Tapdayıb ötdü ey!.. Dedim, yəqin sepin altında xurd-xəşil oldu. Qorxa-qorxa geri qanrıldım. Baxdım ki, odey qəbristanlığa doğru gedir. Qəbirlərin arasında itincə izlədim. Fikirləşdim ki, qayıdanbaş yenə qabağımı kəsəcək. Amma daha görünmədi…

Briqadir Qaçay dedi:

- Əlipaşa, cin-şəyətin nağılınla uşaqların bağrını yarma. Gecələr arvadlarının tumanlarından aralanmayacaqlar…

Əlipaşa təzədən and-aman elədi. Qulu and-amansız da ona inandı. Elə danışırdı, yalana oxşamırdı. Allahına şükür etdi ki, həmin gecə Əlipaşanın əvəzinə orda özü olmayıb. Çünki oranı, qəbristanlığın yanındakı tənəkliyin ayağını şumlamağı əvvəlcə Quluya tapşırmışdılar. Sovxoz bu ildən həmin yerdə kartof əkəcəkdi. Gecə şumlanacağını (nəyə görəsə) eşidəndə Qulu özünü nasazlığa vurmuş, işə çıxmamışdı…

Bu söhbətdən sonra Qulu neçə gün loma-zada bel bağlamadı. Qaş qaralandan sonra evlərinə qayıtmaq üçün bütün kəndi dolandı. Ata-anasının sözüylə dədə-baba məhəlləsində tikildiyinə, ev-eşik qurduğuna görə özünü min dəfə söydü. Həyətyanı sahələr paylananda Qulu torpaq sahəsini kəndin başqa səmtindən gözaltılamışdı. Atası rəhmətlik razı olmamışdı…

Kəndin arasında qarşısına çıxanlar ona bir cür baxır, sorğu-suala tuturdular ki, nə əcəb, xeyirdimi yolunu bu tərəfdən salıb? Qulu deməyə əməlli-başlı bir bəhanə tapmırdı. Tərslikdən bu tərəflərdə baş çəkməli elə bir yaxın simsarı, qohum-əqrəbası da yox idi…

* * *

Ağ paltarlı əcayib-qərayib varlıq irəlilədikcə Qulu qorxusundan ölüb dirilirdi. Birdən Əlipaşanın nənəsinin "bismillah"ını xatırladı. İxtiyarsız pıçıldadı: “Bismillah! Bismillah! Bismillah!” Səsi qətiyyən eşidilmirdi. Səsini çıxartmağa qorxurdu.

Qulu bu sözü üç dəfə demədi, beş dəfə demədi… Lakin ağ-paltar həminki qaydada, əl-qolunu ata-ata yaxınlaşırdı. "Bismillahlar" gücsüzdü, bircə qırıq da tə'sir etmirdi. O, kiçilmək, yox olmaq əvəzinə, deyəsən, daha da böyüyür, nəhəngləşirdi…

Hə, Qulu fikirləşdi, bu lap yəqin Əlipaşanın şumda tapdadığı cindi, söz-zad kar eləmir buna…

Qulunun qoltuq cibinin ağzında iri bir sancağı da vardı. "Bismillah"dan qabaq onu xatırlamışdı. Ancaq Quluda o hünər hardaydı ki, sancaqla cin tutaydı. Bir də, tutub neyləyəcəkdi? Sancaqlı cin yalvara-yalvara dalına düşəcəkdi. Di gəl cinlə yol yoldaşlığı elə, evinə-eşiyinə apar, ordakıların da ürək-göbəyini qopart…

"Bircə cin-şəyətinimiz çatmır. Tükəzban arvadın uşağı-böyüyü də yəqin özü kimi dördböyrək, qurdürəkmiş…"

Qulu bir də ayıldı ki, cin lap onun qarşısında dayanıb. Dəhşətli, qeyri-insani bir bağırtı ilə bayaqdan əlində samballadığı lomu qaldırıb onun boynunun kökünə zolladı. Cin müdafiə üçün əllərini qabağa uzatdı, ancaq gecikdi. Zərbədən tir-tap yerə sərildi. Boğazına bıçaq çəkilmiş heyvan kimi xırıldaya-xırıldaya çabalamağa başladı.

Qulunun qırışığı elə bil elə bu zərbəynən açıldı. Ayaqlarının ixtiyarı özünə qayıtdı. Güc verdi qaçmağa. Dərə, təpə getdiyinin

fərqində deyildi. Birdən gölməçəyə girdi. Ayağını hara atdısa su şappıldadı. (Tənəyə buraxılandı, aşıb ətrafı basmışdı) Sonra sürüşüb yıxıldı. Bir müddət də palçıqda eşələndi. Təzədən qalxıb irəli cumdu. Həyətlərinə çatdı. Nəfəsini dərmədən qapılarını itələdi. Tərslikdən açılmadı. Ürəyi ayağının altına düşdü. Bu nə vaxtın qapı bağlamağıydı, ilahi! Geri çəkilib çiyni ilə necə təpindisə taxta qapı ″şarr″ eləyib köklü-köməcli uçdu. Hürkmüş dəli mal kimi özünü eyvana, oradan da evə atdı. Arvad-uşaq Qulunu belə görəndə çığırışdı.

- Bu nə halətdi, kişi?..

Başına gələnləri danışası halı qalmamışdı. Arvadı tez yatağını döşədi. Əyin-başını dəyişdi, üstünü bərk-bərk basdırdı…

Qulu o yıxılan düz iki gün yataqdan qalxmadı. Qorxusundan ağzı-burnu uçuqlayıb yara-xora tökdü…

Bir balaca babatlaşan kimi yastığının yanını kəsdirənlər sorğu-suala tutdular. O da hadisəni bacardıqca püləyib şişirtdi. Kimi şübhə ilə fikirləşdi ki, Qulu elə əzəldən ağciyərdi, yazığı yəqin qara basıb. Kimi də onun səfsəfəsinə inandı…

- Anan ölsün, ay Qulu!..

Dizinə-başına çırpan anası bir hinduşqa tutub mollaya qaçdı. Kitaba baxdırdı, gədəyə (qırx yaşında kişiyə) qələm çaldırdı…

Traktorçu yoldaşları xəbər gətirdilər ki, bəs Qulu yıxılan gündən Əlipaşa da yorğan-döşəkdədi. Deməyəsən, şumda traktorun altına saldığı cin neçə vaxt imiş qəbristanlığın böyür-başında Əlipaşanı güdürmüş. Əvvəl girinə Qulu keçib. Anası namaz üstdəymiş. Burxulub əlindən çıxıb. Cin dalınca düşmək istəyəndə görüb Əlipaşa da gəlir. Qayıdıb cumub Əlipaşaya. Əməlli-başlı tutaşıblar. Vurğun vurmuş baxıb ki, Əlipaşaya gücü çatmayacaq, fənd işlədib, Əlipaşanın boynunun kökünə bir yumruq çaxıb…

Qulunun matı-qutu qurudu.

- Yəni deyirsiniz, onun vəziyyəti daha pisdi?..

- Pis də sözdü?.. - dedilər. - Boynu şişib kötüyə dönüb. Axşamacan yerdə zarıyır. Həkimi-zadı da yaxın buraxmır. Yastığının qırağında molla Ramazan oturub. Guya Əlipaşanı cinin əlindən o qurtarıb...

Qulu o axşamkı səhnəni bütün təfərrüatıyla təzədən xatırlamağa, gözünün qabağında canlandırmağa çalışdı. Elə bil kölgəsindən qorxan Qulu deyildi. Hissi, duyğusu ona tamam başqa şeylər pıçıldayırdı. Traktorçu yoldaşlarının dedikləri birdən-birə onu ayıltmışdı. Deyəsən, axı, həmin axşam lomla boynunun kökünə vurduğu ağpaltarlının ayaqları insan ayaqlarıydı? Daha dəqiqi, Əlipaşanın ayaqlarıydı? Dizdən aşağı açıqdı. Brezent çəkmələrdəydi. Hələ əlləri… İkinci dəfə qolaylananda lomdan yapışmış, bərk-bərk qırraşmışdı. Qulu da qorxusundan lomu buraxıb qaçmışdı. Görəsən lomu indi hardaydı? Yəqin orda qalmışdı. Axı traktorçular lom haqqında heç nə demədilər. Yumruq sözü işlətdilər. Bəlkə Əlipaşa qəsdən onları azdırıb? Bu necə işdi, ilahi? Axı bu oyun Əlipaşanın nəyinə lazımmış?..

* * *

Qulu səhər oyananda sapsağlamdı. Sanki heç nə olmamışdı. Durub geyindi. Həmişəki qaydada əl-üzünü yudu. Çay-çörəyini yeyib evdən çıxdı.

Arxasınca baxan anası öz-özünə pıçıldadı: ″Cəddinə qurban, ay molla Ramazan! Bir hinduşqaya oğlumu qaldırıb qoydun ayaq üstə. Sənə inanmayan kafirdi…″

Qulu o gecə qəbristanlığın yanında ağpaltarlıynan tutaşdığı yeri, palçıqlı gölməçələri, tənəkliyi nə qədər axtarsa da lomunu heç harda tapmadı.

Traktor parkına, işə yollandı. Qulu baş verənlərə yuxu kimi baxır, eşitdiklərinə hələ inanmırdı. Ona elə gəlirdi bütün bunlar hamısı növbəti bir zarafatdı. Gedib görəcək Əlipaşa işdədi...

* * *

İşdən sonra Qulu traktorçu yoldaşlarına qoşulub Əlipaşagilə yollandı. İçində bir qorxu, xof vardı. Əlipaşa onu necə qarşılayacaqdı? Axı Qulu onu bilə-bilə, qəsdən vurmamışdı. Bilsəydi qarşısındakı Əlipaşadı, qorxub-hürkməz, ona əl qaldırmazdı.

″Eh, ay Əlipaşa, nə deyim sənə?..″

Qulu qapının ağzında divara söykəli əl ağacını dəmir lomuna oxşatdı, ürəyi düşdü...

- Ə, di keç də... - Yoldaşları onu arxadan itələdilər.

Qulunu görəndə Əlipaşanın maddım-maddım baxan donuq gözləri bir az canlandı. Bədəni yay kimi gərilib təzədən açıldı. Altında köhnə çarpayı cırıldadı. Nəsə demək istədi-nədisə dodaqları tərpəndi. Ancaq xırıltıdan başqa heç nə eşidilmədi...

Dili batan Əlipaşa hər dəfə qımıldananda (Qulunu tər basırdı) molla Ramazan böyürdən ona gözünü ağardırdı.

- Xamuş, xamuş!..

Əlipaşa yazıq-yazıq, mağmın-mağmın mollanın üzünə elə baxırdı ki, deyirdin bu saat hönkürüb zülüm-zülüm ağlayacaq.

″ Bu nəəzir, ə, burda?..″

Əlipaşanın molla Ramazandan zəndlə zəhləsi gedirdi. Ölü yeri deməz, diri yeri deməz, harda rastlaşsaydı, ələ salar, dolayar, əlləm-qəlləm sualları ilə yediyini-içdiyini burnundan tökərdi. Molla Ramazan onu görəndə yolunu dəyişər, tez aradan çıxmağa girəvə axtarardı. İndi Əlipaşanın əziz adamı kimi yastığının dibini kəsdirmişdi. Ağsaqqallıq edir, qonaq-qarasını qarşılayıb yola salırdı. Əlipaşanı cinin cəngindən necə qurtarmasından, sürüyüb evlərinə gətirməsindən danışırdı. Qulunun üzünə, gözünün içinə baxa-baxa danışırdı. Qulu cıqqırını da çıxartmırdı. Niyə, özü də bilmirdi...

* * *

Əlipaşa bu dərddən öldü. Molla Ramazan onu el adətincə, ədəb-ərkanla dəfn etdi. Quranını oxudu. Üçünü, yeddisini verdi…

Əlipaşa qurduğu qurğu ilə təkcə dünyasını dəyişmədi. Qulunun qorxuluğunu apardı. Kölgəsindən qorxan Qulu indi hansı vədə desən qəbristanlığın yanından nədi, lap ortasından keçirdi. Lom nədi, əl ağacı gəzdirməyi də özünə sığışdırmırdı...

Əksinə, Əlipaşanın hayıf çıxmaq, Qulunu dəli etmək üçün qurduğu kələk bu boyda kəndi qorxu azarına salmışdı. Gecə nədi, günün günorta çağı kimsə qəbristanlıq tərəfə üzükmürdü. Bu qorxunun, xofun çəkilib getməsi üçün uzun illər, bəlkə təzə, özgə bir sarsıntı lazımdı…

Damazlıq, günahkar Əlipaşa, qazanan molla Ramazandı. O Ramazan ki, bir zaman el arasında oğru, əyyaş, arvadbaz kimi

tanınardı. Tutulmuş, həbsxanadan saç-saqqallı molla kimi qayıtmışdı. Sanki qiyafəsi yaddaşları korşaltmışdı…

Hadisədən dördəlli yapışan molla Ramazanın dili şah ərşininə dönmüşdü: "Cini kəndimizə allahtala özü göndərib. Yolunu azmışları, allahını, peyğəmbərini tanımayanları cəzalandırmaq, yoluna qaytarmaq üçün…"

Qulu nəinki molla Ramazana, el arasında onun hədyanlarına uyanlara, lap bu sayaq bəndələr yetirən allahın özünə belə gülürdü. Amma nə faydası, onlar da Quluya gülürdülər. Bir nəfərin gülməyi hara, yüz nəfərin, min nəfərin gülməyi hara?..

Yaxınlaracan din-xurafat, molla-zad unudulmaq üzrəydi. Xəstələnən, evi yağmalanan, hər hansı bir bədbəxtçiliyə düçar olan... molla yanına qaçmağı ağlına da gətirmirdi. Birdən-birə başda, kəllə-çarxda oturan yekə mollalar nə sayaqsa dövlətin saqqızını oğurlayaraq qadağaları sındırıb dağıtdılar. İndi dünənki oğru-quldur, cüvəllağı mollalar Quran oxuyur, dua-cadı eləyir, kəbin kəsirdilər…

* * *

- Ay el, ay oba!.. - Məclisin birində Qulu coşdu. - Eşidin, bilin, Əlipaşanı gecə qəbristanlığın yanında lomla mən vurmuşdum. Vallah, billah, cin-zad hamısı əfsanədi. Cin, qulyabani cildində adamlar var molla Ramazan kimi. Onlardan qorxun, onlardan hürkün, vəssalam!..

Ağzını ayırıb təəccüb və heyrətlə ona qulaq asan adamlara baxanda Quluya elə gəlirdi ki, molla Ramazanın kitabını birdəfəlik bağladı. Amma üzdə özlərini ayılmış kimi göstərənlər evə qayıdanda sövqi-təbii uşaqlarını yenə molla Ramazanın özəlləşmiş (ax bu özəlləşdirmə!..) qulyabanısıynan qorxudurdular. İllər uzunu haqqa yox, gücə tapınanlar sanki həqiqət axtarışından bezmiş, manqurtlaşmışdılar…

Kəndçilərinin psixologiyasını Quludan yaxşı bilən (dabbaqda gönlərinə bələddi) molla Ramazan daldada xüsusi əda ilə deyirdi:

- Quluya fikir verməyin, cinin havası başına vurub. Mən bunu çoxdan gözləyirdim. Hələ uzun çəkdi. Qulağına çatmasın (qəsdi çatdırmaqdı), tezliklə ağzı da əyiləcək…

Camaat Quluya yox, molla Ramazana, onun sözlərinə daha artıq sayğı göstərirdi. İndi o, Qulu ilə qarşılaşmaqdan qorxmur, əksinə, açıq-açığına ona meydan oxuyurdu.

- Nədi, ə, yoluq, nə istəyirsən məndən?.. - deyirdi. - Nə vermisən mənə, ala bilmirsən, hə? Mənə gücün, zorun çatmaz axı, ay dılğır. Guya bilmirəm Əlipaşanı sən vurmusan?..

Beləcə Qulu dönüb oldu havalı Qulu. Qulunu havalandıran, din-məzhəbdən çıxardan kəndçilərinin onu, həqiqəti qoyub yalana, molla Ramazana inanmasıydı. Yoxsa başı əvvəlkindən də yaxşı işləyirdi. Qulunun səhvi məsələni vaxtında milisə çatdırmamasıydı. Çatdırsaydı, məsələ belə yoğunumazdı. Lakin bir çətən külfətini başsız qoyub öz ayağınla qoduqluğa girmək də sizə zarafat gəlməsin! Tülkü tülkülyünü sübuta yetirincə dərisini boğazından çıxardırlar…

Di gəl Qulu bilsəydi axırı belə qurtaracaq, heç nəyə baxmazdı. Hər şeyə tüpürər, bu boyda kəndi güdaza verməzdi…

Daha gecdi. Şərə gücü çatmırdısa, onunla yanaşı yaşamaq kişilikdən deyildi. Arvad-uşağını da götürüb bu kənddən birdəfəlik getsə yaxşıydı…

* * *

Qəbristanlığın yanından ötəndə maşını saxlatdı. Dinməz-söyləməz aşağı düşdü. Qəbristanlığa girdi. Düz gedib durdu Əlipaşanın qəbrinin yanında. Üzünü baş daşındakı şəklə tutub göynəyə-göynəyə, yana-yana bərkdən dedi:

- Gorun çatlasın, ay Əlipaşa!..

Ürəyi soyumadı. Şalvarının qabağını açıb Əlipaşanın qəbrini murdarladı. Sonra dinməz-söyləməz qayıdıb təzədən maşına mindi…

## Əks–səda

- Allo!.. Kimdi?..

Elə bil məni yüksək gərginlikli elektrik dövrəsinə caladılar. Bu, onun səsinə necə də oxşayırdı. O da həmişə "sənin Məhəbbətin", deyərdi. Bax, elə bu cür, bu sayaq!..

- Axı, siz kimsiniz? Məni haradan tanıyırsınız?..

Bu cür kobudluqdan özümün də xoşum gəlməzdi. Ancaq inanın ki, mənim yerimə olsaydınız, siz özünüz də bundan yaxşı cavab tapa bilməzdiniz…

Dəstəkdə isə onun məlahətli səsi qulaqlarımı oxşayırdı:

- Mənəm də, Məhəbbətəm! Səni mən də tanımayanda, bəs kim tanıyacaqmış?..

Sərsəm bir hərəkətlə dəstəyi qulağımdan araladım:

- Məhəbbət?.. Yox, bu ola bilməz…

Onun coşqun dağ çayı kimi şaqqanaq çəkən gülüşləri dəstəyi əlimdə əsdirdi və mən bir anlığa özümü itirdim. Aman allah! Gülüşlər də bu qədər əkiz olarmış! Xəyalımda onun əksi canlandı: qara şanı-gözləri, sol yanağında sifətinə xüsusi bir gözəllik verən göz müncüğü-xalı, qönçə dodaqları… Dayan, dayan, bu ki Məhəbbət olardı. Bəlkə elə?.. Yox, axı o…

- Özün məndən də yaxşı bilirsən ki, bunu yalnız dilin deyir, Qədir.

- Allah xatirinə, bu oyunu qurtarın. Bəsdir əsəblərimlə oynadınız…

- Keçmə sənin də dəcəlliyindən, Qədir. Başladın, qurtarmazsan. Səhər işə gedəndə özün demədinmi məni kəndə, atamgilə yola salmağa gələcəksən?..

- Məni ələ salmısınız-nədi? Onlar heç zaman kənddə yaşamamışlar!..

- Maraqlıdı, görəsən daha nələr uyduracaqsan?..

- Biz xoşbəxt idik. Qəlbimiz ata, ana olmaq həsrətilə çırpınırdı və əmin idik ki, bu səadət uzaqda deyil. Fəqət səadətə bircə addım qalmış əlimiz bir-birindən əbədi olaraq üzüldü. Heç olmasa onun gözlərinə də doyunca baxa bilmədim. Axırıncı dəfə Moskvadan, mə′zuniyyətdən qayıdanda məni qarşılayan onun dünyaya uğursuzluqla yenicə qədəm qoymuş əziz yadigarı oldu…

- Belə çıxır ki, mən xortdamışam?..

- Bilmirəm…

O, dəcəl bir uşağın inadını qırmağa çalışan adam kimi danışırdı:

- Amma mən bilirəm. Sən bu gecə də yuxunu qarışdırmısan. Axı, o günü söz vermişdin ki, bir də belə yuxuları danışmayacaqsan. Və′dini nə tez unutdun?..

İlahi!.. O, mənim yuxularımdan da xəbərdardı!..

- Düz deyirsən, yuxu görmək mənim elə adətimdi. Ancaq?..

- Nə ancaq?..

- And iç ki, sən osan, Məhəbbətsən…

- Qədircanı!.. Hə, inandın?.. İstəyirsən yenə and içim?..

- Yox, inanıram. O da həmişə belə and içərdi…

- Yenə o?.. Yaxşı, yaxşı, bəsdi özünü bicliyə qoydun…

Bəlkə mən özümü, həqiqətən, bicliyə qoymuşdum?..

- Ay səni, Qədir!.. Başımı elə qatdın ki, qatar bir azdan tərpənəcək. Tez gəl, yoxsa küsərəm, ha. Öpürəm səni!. - Dud… dudd…

Mən hələ də dəstək əlimdə hipnoz edilmiş kimi dayanmışdım. Sanki kiçik bir hərəkətim nəyəsə səbəb olacaqdı. Hər şey öz ülviyyətini itirəcəkdi. Birdən fikrimə gəldi ki, gör nə qədər vaxtdı beləcə dayanmışam…

Qapı səssiz aralandı. Divardakı elektrik açarının səsi eşidildi və gecə öz qara çarşabını qapıb pəncərədən bayıra atıldı…

Geri qanrıldım. Anam idi. Yazıq arvad telefon söhbətimizi eşidib, elə zənn edib ki, keçən gecələrdəki kimi yenə sayıqlayıram. Ah, ana ürəyi!..

Onun təəccüb dolu çuxura düşmüş gözləri üzümə zillənmişdi.

- Gecənin bu vaxtı hara belə, oğlum?..

- Vağzala, ana. Məhəbbəti yola salmağa. Axı bu gün o, kəndə gedir…

- Bıy, başıma xeyir, dilim-ağzım qurusun, gədə birdən dəli olub-elər…

Anamın dodaqları dua edirmiş kimi pıçıltıyabənzər bir səslə tərpənirdi…

O, əllərimi arıq, sümükləri çıxmış ovucları arasına aldı.

- Nə danışırsan, oğul?.. Məhəbbət?..

- Hə, ana, ölməyib! İndicə telefonda mənimlə danışan elə o özü idi!..

- Oğul, səni qara basır-nədi?..

Qapıya yaxınlaşdım. Anam qabağa keçib yolu kəsdi.

- Yox, buraxmaram, - deyib məni bərk-bərk bağrına basdı.

Onun arıq vücudu qorxudan tir-tir əsirdi.

- Məni başa düş, ana. Getməyə bilmərəm!.. - Yalvarmağa başladım.

Lakin anam məni heç cür buraxmaq fikrində deyildi. Özüm də bilmədim, necə oldusa anamın qolları arasından pişik kimi sivişib bayıra atıldım…

Küçə qaranlıq və boş idi. Qonşular yuxuya getmişdilər. Gözəl yuxular görmək həvəsi ilə…

Bu qaranlıq aləmdə məni bir nəfər təqib edirdi. Sevimli anam, can-ciyərim… Başına örtdüyü şalın bir ucu boğazına dolanmışdı. O biri ucunu isə külək yellədirdi. O, arabir boğuq səslə:

- Qədir, oğlum… - deyə çağırırdı.

Nəhayət, onun səsi eşidilməz oldu. Mən baş alıb gedirdim. Qarşıda isə nə bir insan, nə vağzal görünürdü. Qəflətən namə′lum tərəfdən çıxan qatar yaralı əcdaha kimi fısıldaya-fısıldaya qarşımdan ötüb keçdi…

Nəzərlərim bir vaqonun pəncərəsindən başını bayıra çıxarmış qadına sataşdı. O, əlindəki yaylığı gülə-gülə mənə sarı yellədirdi…

Bu, o idi!.. Mənim Məhəbbətim!..

- Məhəbbət!.. - deyə mən dəli kimi çığıraraq qatarın arxasınca qaçmağa başladım…

O, hələ də gülürdü. Lakin günəş qürub edən kimi o da qaranlıqlar qoynunda yox olurdu. Səsimə isə yalnız dağlar-daşlar cavab verirdi:

- Məhəbbət!.. məni bağışla… gecikdim, Məhəbbət…

Öz boğuq və iniltili çığırtıma yuxudan ayıldım. Tər bədənimdən sel kimi axırdı.

Yan otaqda çarpayı cırıldadı və mənim körpə Məhəbbətimin çığırtısı, onun əks-sədası eşidildi…

## M ə h ə b b ə t

Rəşad "Bukinist"in qarşısından ötəndə istəmədən, qeyri-ixtiyari ayaq saxladı. Gözucu mağazaya tərəf boylandı. Bayram xonçaları kimi vitrinə düzülmüş çeşidli, alabəzək kitablar görən kimi içini tərpətdi, onu özünə çəkdi. Daxili tələbatını boğa bilmədi. Çox da hündür olmayan mərmər pilləkəni könülsüz yuxarı qalxdı, ağır, qədimi taxta qapını açıb içəri girdi…

Neçə vaxtdı gözləri ağır xəstəydi. Qara eynəkdə gəzirdi. Kitabları, yazı-pozusu, kompüteri ilə birbaşa ünsiyyətə həkim ciddi qadağa qoymuşdu. Arvadı daim üstündə göz idi. Hər bir hərəkətini izləyirdi. Onu yaxşı başa düşürdü. Hamısı Rəşada görəydi. Ürəyi yandığındandı. Amma…

Əvvəl xəstəliyinə bir elə fikir verməmişdi. Əhəmiyyətsiz, ötəri bir ağrı-acı kimi yanaşmış, həkimə getməmiş, türkəçarə müalicə ilə vəziyyətdən birtəhər çıxmağa çalışmışdı. Nəticəsi olmayanda, məsələ daha da qəlizləşəndə, pisləşəndə arvadının təkidi ilə həkimə yollanmışdı.

Həkim çatırışı xəstəxanaya yazmışdı. Rəşad heç cür ipə-sapa yatmamış, razılaşmamışdı. Arvadı da həkimlə həmfikirdi. Qorxurdu ki, evdə öhdəsindən gələ bilməsin, şıltaqlıqları ilə bacarmasın. Rəşadı yazı-pozusundan ayırmaq asan məsələ deyildi. Xüsusən namizədlik dissertasiyasını yekunlaşdırdığı bir zamanda. Əsas hissə yazılıb qurtarmışdı. Axı gör nə vaxtdı gecə-gündüz yatmır, çalışıb-vuruşurdu. Namərd xəstəlik bir az da imkan, möhlət versəydi, tezliklə arzusuna çatacaqdı…

Rəşad hər şeydən əvvəl ona görə ev şəraitində müalicəni seçmişdi ki, arvadının köməyi ilə yaradıcılığını davam etdirmək fikrindəydi. Arvadı hər ehtimala qarşı yarızarafat, yarıciddi demişdi ki, sözünə baxsa, özünü ağıllı aparsa, hər cəhətdən layiqli yardımçısı olacaq. Yox, əgər baxmasa… Çarəsi nəydi?.. Bu vəziyyətdə Rəşad, doğrudan da, həddən artıq gücsüzdü. Ona ehtiyacı böyükdü.

Onlar ikisi də hələ çox cavandı. İnstitut illərini bir yerdə başa vurmuşdular. Həm də müvəffəqiyyətlə. Evlənmişdilər. Sonra da Elmi Tədqiqat institutunda işə düzəlmişdilər. Aspiranturanı təzəcə bitirmişdilər. Uşaq məsələsi araya girməsəydi yəqin ki, arvadının da

dissertasiyası indi hazırdı. Əlbəttə, bunlar hamısı müvvəqqəti çətinliklərdi...

Rəşadın orcinal fikirləri, tarixi faktlara, hadisələrə (həyatını xalqının tarixini yazmağa həsr etmişdi) yanaşma tərzi elm aləmində artıq nəzər-diqqəti cəlb etmişdi. Nüfuzlu xarici curnallarda çap olunmuş son bir neçə məqaləsi isə ona əməlli-başlı şöhrət gətirmişdi…

Bu gün istirahət günü olmasına baxmayaraq səhərdən arvadı ilə iş otağına qapılaraq birlikdə dissertasiyası üzərində işləmişdilər. Arvadı yenə onunçün həm oxuyur, həm də kompüterdə yazırdı. Yeri gələndə qeydlərini, iradlarını da bildirirdi. Rəşad onun fikirləri ilə adətən hesablaşırdı.

Nahar fasiləsindən sonra arvadı ev-eşiyi töküb-töküşdürmüş, təmizlik işlərinə başlamışdı. Onu da geyindirib zorla evdən çıxartmışdı ki, gedib dəniz kənarında, şəhərdə bir az gəzib dolansın, fikrini dağıtsın. Rəşad özü də hiss etmədən hərlənib-fırlanıb yolunu bu tərəfdən salmışdı...

Bir qədər kitablar arasında eşələndi. Satıcını (Rəşadı yaxşı tanıyırdı) yanlayıb bə′zi köhnə nəşrlərlə maraqlandı. Ürəyinə yatan təzə bir şey tapmadı. Bayıra çıxanda çöldə, qapının sol tərəfində qoca bir kişinin üşüyürmüş kimi yumaq kimi büzüşərək divara qısıldığını gördü. Pırpız saçlarının arasına dolan və ordan havaya qalxan siqaretinin tüstüsü kişinin başını korun-korun tüstülənən tonqala bənzədirdi. Qarşısında yerə sərdiyi qəzetin üstünə bir yığın köhnə kitab düzmüşdü.

Kənardan, ilk baxışdanca onlar Rəşadın nəzər-diqqətini cəlb etdi. İstər-istəməz yaxınlaşdı. Təsadüfə bir bax! Əksəriyyəti tarixi kitablardı. Həm də necə! İlahi, Rəşad bu kitablardan yana nədən desən keçərdi. Gözlərinə inanmırdı. Sanki qiymətli xəzinə üstünə çıxmışdı. Görəsən bu kişi kimdi belə? Kitablar onun əlinə hardan, necə keçmişdi? Bəlkə çırpışdırmışdı? Sir-sifətindən, təhər-tövründən kitab-dəftər adamına heç oxşamırdı. Yəqin elə buna görə də ötüb-keçənlərin nəzər-diqqətindən yayınmışdı. Kimin ağlına gələrdi ki, belə bir adamın gətirdiyi kitabların arasında nəsə ciddi bir şey tapmaq mümkündü. Eh, bir də kimdi indi kitab-dəftərlə maraqlanan? Camaat

qarnının çörəkpulusunu zorla tapırdı. (Guya özü yaxşı vəziyyətdəydi.) Başqa dərdi-azarı azdımı?..

Rəşadın kitablara bərk girişdiyini duyan qocanın qırışığı birdəncə açıldı. Sifətində bir ümid ilındı. Siqaretinin kötüyünü atıb dizlərini dəvə kimi qatlayaraq çöməldi. Kitabları ona daha yaxın itələdi.

- Qardaşoğlu, görürəm bunların xiridarısan, - dedi. - Ucuz satıram. Hamısını götürsən, lap yenərəm. Mənə yalnız çörəkpulu lazımdı…

- Bu kitablar səndə hardandı, kişi?..- Rəşad sınayıcı nəzərlərlə qocanı başdan ayağa süzdü.

- İş yerimdə yenə var... - Qoca cavab vermək əvəzinə Rəşadı daha artıq şirnikləndirmək fikrinə düşdü. - İstəsən, mənimlə gedərik, onlara da baxarsan. Hə, nə deyirsən?..

- Uzaqdadı?

- Yox, lap yaxındadı. Avtobusla iki-üç dayanacaqdı. Gedəkmi?..

Rəşad yolda nəsə xatırlayıb hiss etdirmədən əlini gizlicə cibinə saldı. Pulunu yoxladı. Xırda-xuruşdu. Ona da evə qayıdanbaş arvadı üçün yüngülvari bir hədiyyə almalıydı. Axı ad günüydü. Təmtaraq-filan sevməzdilər. Ancaq bir-birinin doğum gününü nə iləsə anmağı, təbrik etməyi heç zaman unutmazdılar. Əşi, nə olur olsun …

Qazanxanada qeyri-adi bir sakitlik hökm sürürdü. Havalar qızdığından fəaliyyəti dayanmışdı. Bir neçə gün əvvəl nərilti-gurultu ilə alovlanan iri, nəhəng qazan divarda oyulmuş vəhşi heyvan gözü kimi qaralırdı. Qazanxananın aşağı tərəfində, küncdə kitablardan tığ atılmışdı. Ortalıqda, tozun-torpağın içində əzilən, cırılan, tapdalanan da çox idi…

Rəşad qapının ağzında dəhşətdən daşa dönmüşdü.

Qoca ocaqçı cınqırını belə çıxartmadan təəccüblə onu süzürdü. Üzündəki ifadədən nəsə oxumağa çalışır, səbrlə haçan dillənəcəyini gözləyirdi.

Rəşad birdən ocaqçıya tərəf döndü. Gözlənilmədən ikiəlli yaxasından yapışıb bərk-bərk silkələdi:

- Bu nədi, kişi? Səndən soruşuram, bu nədi belə?..

Özgə vaxt yəqin ki, Rəşad bu cür rəftara görə təsadüfən rastlaşdığı, tanımadığı bu qocanın üstündə başqası ilə yumruq davasına çıxardı. Amma indi …

Qoca ocaqçı qəfil hücumdan özünü itirdi. Dil-dodağı təpidi.

- Ay oğul, ay bala… bir… dayan görüm... - Yaxasını Rəşadın əlindən güclə qopartdı. - Səni bura bundan ötrü gətirmişəm, a bala?.. Kitabdı, almırsan, deginən, almıram, day məni niyə öldürürsən əcəlsiz? Günahım nədi?..

Rəşad təzədən qızışdı.

- Bəs bunlar səncə kimin günahıdı, kişi, hə? Kitaba da bu cür hörmətsizlik olar? Bu ki vəhşilikdi!..

Ocaqçı bu dəfə günahkarcasına əllərini yanına saldı. Uşaq kimi başını aşağı dikdi. Qocalara məxsus sakit, aram səslə dedi:

- Allahdan gizlin deyil, oğul, səndən nə gizlədim? O qarşıdakı binanın ikinci mərtəbəsindən üzü bəri baxan meynəli balkonu görürsənmi? - Əlini uzadıb qapıdan göstərdi. - Orada cavan bir ər-arvad yaşayır. Oğlan alimlikdi-nədi ondan oxuyurdu. Durduğu yerdəcə gözləri tutuldu. Allahın bəlasıdır də. O şəhər, o ölkə qalmadı aparmasın, dava-dərman eləməsinlər, əncam yemədi. Arvadı, ərimin gözlərini kor qoyan bunlardır, deyib nə ki kitabı vardı hamısını zibil kimicə tökdü bayıra. Eh, çox, lap çoxdu. Eşidən-bilən dartıb apardı. Mən də eləmədim tənbəllik, əlimə keçəndən daşıyıb yığdım bura. Bir tərəfdən heyfim gəldi. Sel-su xarab eləyəcək, əl-ayaq altında itib-batacaqdı. O biri tərəfdən fikirləşdim ki, haçansa qara günümdə sataram, dadıma yetər. Gərəkli olmasaydı, üstündə o cür qaphaqap qopmazdı yəqin ki?..

Rəşadın ürəyi ağrıdı.

- Nadanlığa bir bax! Niyə onu başa salmırdınız ki, bu kitablar dilsiz-ağızsız körpə kimi günahsızdı? Onları oxumaq yox, oxumamaq adamı kor qoyar. Bax, beləcə, bu cür… - Rəşad bu vəziyyətdə antik ədəbiyyatlardakı faciə qəhrəmanlarını xatırladırdı. - Bunları bir kitabxanaya, bir məktəbəsə vermək olardı...

Qoca qorxa-qorxa onun sözünü kəsdi:

- Axı mən nə karayam, ay rəhmətliyin oğlu?..

Gözlədi ki, Rəşad bu saat yenidən kükrəyib coşacaq, onu alıb aparacaq. Ancaq başını qaldıranda gözlərinə inanmadı. Rəşad geri

dönüb sür′ətlə qapıdan çıxdı. ″Buna nə oldu, balam?.. Qəribə adamdı!..″

Taksiyə mindiyini görəndə lap mat qaldı.

Maşın qarşıdan əsən küləyi yara-yara asfalt üzərində qıcıltı ilə şütüyürdü. Rəşad əsəbi halda yerində qurcalanır, tez-tez əyilib sürətölçənə baxır, sürücünü tələsdirirdi. Ona elə gəlirdi ki, maşın çox ləng gedir. Gecikəcəyindən qorxurdu. Özünü tə′cili evə çatdırmaq istəyirdi. Arvadının dediklərini xatırladıqca onu dəhşət bürüyürdü. ″Vallah, gözlərinə bir şey ola haa, od vurub bu kitablarının hamısını yandırram!..″

Bu sözləri səhər-səhər xəlvəti iş stoluna yanaşanda arvadından eşitmiş, səsində nə qədər həyəcan, qayğı, məhəbbət duymuş, sonsuz bir minnətdarlıqla üzünə gülümsəmişdi. İndi isə az qalırdı başına hava gəlsin. Beynində cürbəcür pis fikirlər dolaşırdı…

Yüngül ayaq səslərinin tələsmədən, yavaş-yavaş necə yaxınlaşdığını aydınca eşidir, əsəbləşirdi. Budu, arvadı qapının arxasında dayandı. Hövsələsi çatmadı, zəngin düyməsini bir də basdı. Həmin saat da qapı aralandı.

Arvadının böyründən saymazyana adlayaraq özünü birbaş iş otağına atdı. Yan-yana düzülmüş kitab rəflərinin qarşısında dayanıb sinədolusu, arxayınca nəfəsini dərdi. Diqqətlə baxanda kitabların üzərinə qonmuş səhərki tozu görmədi. İş stolu da səliqəyə salınmışdı…

Bayaqdan bəri onun hərəkətlərindən qətiyyən baş açmayan, təəccüblə qapının ağzında quruyub qalan arvadına sarı döndü. Onu elə beləcə, heyrət içində qucaqlayıb öpdü…

## Susatan Şiraslanın oğlu

Susatan Şiraslan tösmərək, keçəl, sarıyanız bir kişiydi. Bazarın girəcəyində balaca, taxta budkası vardı. Yayda, havalar qızanda şirəli, qazlı su, soyuqlar düşəndə, qışda isə xırda-xuruş satardı. Rayonda susatan çoxdu, amma nə sirdisə Şiraslanın suyunun dadı-tamı, sərinli-

yi, lap elə qazı heç birində yoxdu. Yəqin buna görə ″Şiraslan bulağı″ adlandırılan budkasının qabağında həmişə qələbəlik olardı. Yaxınlıqdan ötüb-keçən hökmən ayaq saxlayıb dönər, ″Şiraslan bulağı″ndan bir stəkan su içərək yanan ürəyini sərinlədər, atasına rəhmət oxuya-oxuya yoluna davam edərdi…

Susatan Şiraslanın oğlu Nadir bizimlə bir sinifdə oxuyurdu. Məktəb bazarın böyründə olduğuna görə susayanda atasının yanına qaçardı. Hərdən üzümüzə salıb biz də Nadirə qoşulardıq. Susatan Şiraslan müştərilərini unudaraq əl-ayağa düşər, uşaqların sayı qədər şirəli-qazlı su ilə limalim doldurduğu sətkanları piştaxtanın üstünə düzərdi. Qabarcıqları çırt atan suya baxıb utana-utana udqunar, Nadirin haçan hərəkətə gəlib birinci irəli duracağını gözləyərdik. Susatan Şiraslan hər dəfə hər birimizə canı-dildən ikinci stəkanı təklif edərdi. Dilimizə vurmamışdan bizə elə gələrdi nəinki ikincisini, hətta üçüncüsünü də içə bilərik. Birinci stəkanı bu həvəslə başımıza çəksək də axıracan güclə içərdik. Soyuq dişlərimizi göynədər, kəsərdi…

Nadir diribaş, əlaçı şagirddi. Anası erkən rəhmətə getmiş, atası ona həm analıq, həm də atalıq etmişdi…

Orta məktəbi bitirib arzularımızın dalınca hərəmiz bir tərəfə uçduq. Nadir lap uzağa, Moskva ətrafındakı İvanova şəhərinə gedib çıxdı. Daha doğrusu, birinci ili instituta girə bilməyib ordu sıralarına yollandı. Hərbi xidmətini başa vursa da geri dönmədi, elə orada da qaldı. Atasının dediyinə görə, ali məktəblərdə oxuyan sinif yoldaşlarının üzünə əli ətəyindən uzun qayıtmağa utanırdı. Sonra eşitdik ki, orada texnikum qurtarıb, işləyir…

Tətildə rayona, evimizə gələndə susatan Şiraslanla hökmən görüşərdim. Mən Nadirlə, o da mənim təhsilimlə maraqlanar, oğlundan danışardı. Ondan bərk nigarandı. Tez-tez məktub yazar, oğlunu geri çağırardı. O da elə hey söz verərdi ki, işlərini sahmana salan kimi gələcək…

* * *

Məni institutdan tə′yinatla özgə rayona işləməyə göndərdilər. Bir müddət susatan Şiraslandan, oğlu Nadirdən xəbərim olmadı. Növbəti görüşdə susatan Şiraslanı çox üzgün, kədərli gördüm.

Birdən-birə lap balacalaşmış, qocalmışdı. Nadiri xəbər alanda özünü saxlaya bilməyib ağladı.

- Nə olub, Şiraslan əmi?.. - Beynimdə qara-qura fikirlər dolaşsa da ağlıma başqa şey gəlmədi. - Niyə ağlayırsan?..

Handan-hana toxtayıb:

- Nadir daha dünyada yoxdu… - dedi.

- Necə yə′ni yoxdu?.. - Əməlli-başlı karıxdım.

- Öldü, balam öldü… - Yanıqlı-yanıqlı sızıldadı.

Qulaqlarıma inanmadım. Nadir öləsi oğlan deyildi. Di gəl ölüm belə şeyləri qanıb-qandırmırdı...

Nadirin necəsə qəfildən ödü (təfərrüatı atasına sonralar şahidlər danışmışdı) partlamışdı. Cərrahiyyə stoluna gec çatdırıldığından həkimlər heç nə edə bilməmişdilər…

* * *

İş yerimi rayonumuza dəyişəndən sonra ayağım bazara tez-tez düşərdi. Susatan Şiraslana dəyər, bir stəkan sərin suyunu içər, hal-əhvallaşardıq. Söhbətimiz hərlənib-fırlanıb Nadirin üstündə dayanardı. Onunla bağlı xatirələri yada salardıq. Bacardıqca təskinlik verər, dərdini yüngülləşdirməyə çalışardım. Oğlundan danışanda nəfəsi geniyər, ürəyi atlanardı. Onu yaşadan xatirələrdi. Nadirlə bağlı ən kiçik hadisələri belə yada salmaqdan doymaz, yorulmazdı. Bəzən bir hadisəni bir neçə dəfə, daha ətraflı, xeyli artırılmış şəkildə təkrarlayardı. Üstünü vurmaz, özümü birinci dəfə eşidirmiş kimi göstərərdim. Diqqətlə qulaq asdığımı görüb daha da həvəslənərdi. Dediyinə görə, sinif yoldaşlarımızdan yeganə adam idim ki, onunla mütəmadi maraqlanırdım. Odu ki, məni özünə hamıdan yaxın, məhrəm sayar, kimsəyə demədiklərini mənə deyərdi…

Müxtəlif qayğılarla əlaqədar gec görünəndə susatan Şiraslan özü məni axtarıb tapardı. İş yerim mərkəzi küçələrdən birində, rahat yerdəydi. Astadan, ehtiyatla qapımı döyər, səsimi çıxartmasam açmazdı. Mən qapının döyülüşündən bilərdim ki, gələn susatan Şiraslandı. Ayağa qalxıb onu içəri özüm də′vət edərdim. Katibəni çağırıb çay sifariş verəndə oturduğu stulda qurcalanardı:

- Camaatı əziyyətə salma, oğlum, mən indicə gedirəm…

- Nə danışırsan, Şiraslan əmi?.. - Özümü incik kimi göstərərək zarafata salardım. - Sizin kimi içməyə sərin suyumuz olmasa da pürrəngi çayımıza çay çatmaz…

- Təsadüfən burdan keçirdim, atüstü döndüm ki, görüm necəsən, işlərin qaydasındadımı?.. - Kabinetə göz gəzdirə-gəzdirə gəlişini doğruldardı. Arabir qapı açılıb-örtüldükcə, katibə, yaxud başqa işçilərim vacib bir məsələdən yana içəri girib çıxdıqca bərk narahat olardı. - Bəlkə mən gedim, başqa vaxt?..

Sakitləşdirəndən sonra "tələsdiyini" unudub saatlarla stuldan qopmazdı. Susatan Şiraslan bədxah adam deyildi. Ancaq hisslərini nə qədər gizlətməyə, cilovlamağa çalışsa da içi mən qarışıq Nadirin sinif yoldaşlarının hamısına (əlbəttə, ən çox həyatda nəyəsə nail olanlara) necə həsəd apardığını, hərdən hətta paxıllıq etdiyini gözgörəti büruzə verərdi. Buna görə ondan qətiyyən inciməzdim. Əksinə, taleyi kəm bir adam üçün bunu təbii, insani bir şey sayardım...

* * *

Susatan Şiraslan oğlu ilə bağlı həyata keçməyən və daha heç zaman keçməyəcək arzularını yavaş-yavaş gecələr gördüyü (guya) yuxularının vasitəsilə gerçəkləşdirməyə cəhd edərdi. Bir gün gələrdi ki, yuxumda gördüm Nadir ölkənin ən mö'təbər, ən hörmətli akademiyasını qurtarıb. O biri gün yuxusunda Nadiri samballı vəzifəyə qoyardılar. Üçüncü dəfə Nadir özünə isbatlı ev-eşik düzəldərdi. Sonra Nadiri evləndirər, dəm-dəsgahlı toy çaldırardı. Nəvəsi dünyaya gələr, susatan Şiraslan baba olardı və sair və ilaxır. Lakin bunları o qədər bacarıqsızlıqla uydurub toqqaşdırardı ki, ağ yalan danışdığını, yuxu-zad görmədiyini o saat başa düşərdim…

- Sən necə, Nadiri heç yuxunda görürsənmi?.. - Bir dəfə məndən soruşdu.

Bilmədim nə cavab verim. Heç cür qəlbinə toxunmaq istəmirdim.

- Mənmi?.. – dedim. - Gərək ki, haçansa bir dəfə görmüşəm…

- Doğrudan?.. - Əməlli-başlı dirçəldi. - Bəlkə yuxunu danışasan?..

Qurama bir şey uydurdum. Məntiqsiz-filansız. Bir də yuxunun nə məntiqi?.. Üstəlik görmədiyin yuxunun. Düzü, belə bir bacarıq

sahibi olduğumu heç bilmirdim. Amma hər şey susatan Şiraslanın istəyinə uyğun gəldiyinə görə ürəyinə sarı yağ kimi yayıldı…

Onda mən hələ bilmirdim ki, durduğum yerdə özüm özümü bəlaya, tora salıram. Çünki sonralar susatan Şiraslan hər görüşəndə Nadiri yuxuda görüb-görmədiyimlə maraqlanar, yalvarıcı baxışlarını üzümə dikib nəsə təzə bir şey danışacağımı gözləyərdi. Bu əməlli-başlı oyundu. İstər-istəməz əvvəlcədən özümü bu oyuna hazırlayar, yuxular quraşdırardım. Susatan Şiraslanın arzu və istəyinə uyğun Nadiri təzədən ali məktəbdə (həm də ən mö′təbərində) oxudar, evləndirər, oğul-uşaq sahibi edər, gündə bir vəzifəyə mindirərdim…

Bəyənilən ″yuxuları″ bir yox, bir neçə dəfə ″görər″, unutqanlıqdan hətta bir-birinə qatıb-qarışdırardım. Təkcə ona diqqət yetirərdim ki, Nadir bütün ″yuxularımda″ ağıl, bilik, xeyirxahlıq, vəzifə, bir sözlə, hər cəhətdən içi mən qarışıq sinif yoldaşlarının hamısından yüksəkdə, ucada dayansın…

- Bilirsən, - deyərdim, - yuxuda qəbuluna düşdüyüm adam kimdi?..

- Kimdi, kim?.. - Susatan Şiraslanın gözləri işıq saçardı.

- Əvvəl anışdırammadım. - Qəsdən uzadardım. - Ayağa qalxıb gülə-gülə mənə sarı yeriyəndə tanıdım ki, Nadirdi. Qucaqlaşdıq. Soruşdu ki, sən hara, bura hara? Dedim, bəs hal-qəziyyə belədi, məni incidirlər, sənin yanına şikayətə gəlmişəm...

- Yəni o cür yüksək postdadı ki, özüyün vəzifən ola-ola oğlumun köməyinə möhtacsan?.. - Susatan Şiraslanın həyəcandan az qala nəfəsi tutular, dili dolaşardı…

- Əlbəttə!..

Susatan Şiraslan məsələni, daha doğrusu, yalançı yuxumu müxtəsərcə yekunlaşdırmaq istədiyimi duyanda imkan verməzdi:

- Bəs axırı, axırı necə oldu?.. - Deyərdi. - Yoxsa hansı mərdiməzarsa, bağışla, sən allah (iki daşın arasında üzrxahlığı da unutmazdı), səni yuxudan yarımçıq oyatdı?..

İnsafım yol verməz, Nadirin yuxuda necə dadıma yetdiyini bütün təfsilatıynan danışardım. Bir anda üzü gülən susatan Şiraslanı axırda yenə nəsə razı salmaz, qane etməzdi. Bəzi məsələlərə xüsusi vasvasılıq, xırdaçılıqla aydınlıq gətirməyə çalışardı.

- Sən mənim canım, tezbazara salma... - deyərdi. - Yəni oğlum belə düz-əməllicə müdürdü? Yepyekə kabineti, uzun stolu, stulları, əlinin altında telefonları, qapısında findi-furuş katibəsi-zadı, hamısı, hamısı yerli-yataqlıydımı?.. - Birdən qəfil qayıdardı. - Ə, bəlkə yalan-palanla könlümü alırsan?..

Başımı aşağı salıb gözünün içinə baxmamağa çalışardım. Amma dünyada ən çətin iş elə buydu. Günahım nəydi? Axı məni yalan danışmağa özü öyrətmiş, özü şirnikləndirmişdi. İlahi, özü aldanmaq istəyəni aldatmağa nə var! Susatan Şiraslan ürəyinin dərinliklərində aldadıldığını yaxşı bilirdi. Mən buna yüz faiz əmindim. Siqaretə, içkiyə, nə bilim daha nəyə öyrəşən adamlar kimi susatan Şiraslan da gündəlik ehtiyac kimi bu yalanlara öyrəşmişdi. Bu yalanlarla yaşayırdı…

Susatan Şiraslanın oğlu ″yuxularımda″ nələr etməzdi! Hər dəfə də lap axırda atasının bazarda, öz köşkündə yenə qazlı su satıb-satmadığıynan maraqlanar, ondan muğayat olmağı tapşırardı…

Susatan Şiraslan bunları eşidəndə kövrələr, başını yana döndərib xalatının ətəyi ilə gözlərinin yaşını silərək öz-özünə pıçıldayardı:

- Balamın ruhu məndən yana nigarandı…

* * *

İki aydı e′zamiyyətdəydim. Qayıdan kimi bazara yollandım. Əvvəlcə susatan Şiraslanın dükanına baş çəkdim. Bağlıydı. Fırlanıb bazarlığımı eləyəndən sonra təzədən budkaya yaxınlaşdım. Yenə bağlıydı. Diqqətlə baxanda böyür-başını toz basdığını gördüm. Demək, çoxdan açılmırdı…

Qonşu mağazada işləyən cavan oğlanı yanladım. Susatan Şiraslanı soruşanda üzü kölgələndi.

- Xəbəriniz yoxdu? - dedi. - On gündü rəhmətə gedib…

Yamanca kədərləndim. Sanki əziz bir adamımı itirmişdim.

* * *

Aradan illər ötüb. Hər dəfə susatan Şiraslanın dükanının qabağından keçəndə (indi orda başqası işləyir) qeyri-ixtiyari bir an ayaq saxlayır, onu, oğlu Nadiri xatırlayıram. Həmin gecə səhərəcən onları yuxumda görürəm. Təmtəraqlı nekroloqlarda yazıldığı kimi, onlar ölməyib, ruhən yaşayırlar. Mənim, onları tanıyan qeyrilərinin yaddaşında…

Yox, insan göz qırpımında, birdəncə ölüb itmür. Nə bilim, bəlkə heç ölmür, forma və məzmun dəyişikliyinə uğrayır. Ya özü qeyb olsa da yüz illərlə işığı üzülməyən sirli ulduzlar kimi tanış-bilişlə tədricən, adam-adam ölür. Nə qədər çox tanınırsa, o qədər gec əriyir-itir. Əvvəl doğmalarında, sonra dost-tanışlarında rahatlıq tapan ruhu axırıncı tanış, yaxud xatırlayan ölən zaman sağlığında sahibi dünyada ən çox nəyə meyl, mehr-məhəbbət salıbsa (gülə-çiçəyə, ağaca, ota, suya, lap elə daşa-kəsəyə..), ona köçür. Yox, öləndən sonra ruhumuzun bədəndən ayrılaraq göylərə uçmasına inanmıram, bu, cəfəngiyyatdı. Maddi, cismani varlıqla doğulanın, ona bağlı olanın, yerdə insani ömür sürənin və sürdürənin yabançı bir boşluqda nə işi var?..

# Y a d d a ş

Sadıq müəllim nə qədər cəhd etdisə qarşısındakı adamın üzünü görə bilmədi, yalnız səsini eşitdi.

- Niyə belə elədin, oğul?..

- Axı, siz kimsiniz?.. - Sadıq müəllim tıncıxdı. - Məndən nə istəyirsiniz?..

- Mənə Qara Ələkbər deyərlər, atayın qohumuyam... - İşığa sarı duranda lopa bığı, əyri, donqar burnu, qalın, qara qaşları aydınlaşdı.

- Axı, mən neynəmişəm, Ələkbər əmi?.. - Ayamasını deməyə üzü gəlmədi, tayı-tuşu deyildi.

- Daha bundan artıq neyniyəcəksən? Bir oğlum var, dəli Vidadi, vallah, dəli-zad deyil, uşaqdı, qanmır, beyni qandı, tutub qoyun kimi rus qibləsinə kəsmisən imtahandan…

- Ələkbər əmi, axı, o… - Sadıq müəllim istədi toydan sonra çalınan nağara kimi giley-güzarla özünə haqq qazandırsın, kişi qulaq asmadı, üzünü çevirib uzaqlaşdı…

***

Yuyunub stol arxasına keçdi. Arvadının gətirdiyi buğlanan çayı nəlbəkiyə tökdü ki, tez soyusun. Əlini çörəyə uzadanda səhərə yaxın gördüyü yuxusunu xatırladı.

Qara Ələkbərin dəli Vidadisi səkkizinci sinifdə Sadıq müəllimin şagirdiydi. Nə oxumağı-yazmağı, nə də mərifəti-qanacağı vardı. Həqiqi mənada dəli-ifləmənin biriydi, yeri dəyişik düşmüşdü. Di gəl nə döyüb-söyə, nə də sinifdə saxlaya bilirdilər…

Vidadinin şıltaqlıqlarına dözmək Sadıq müəllim üçün daha çətindi. Sinif rəhbəriydi. Qeyrilərinin barmaqarası baxdığı, göz yumduğu əyər-əskiyi aradan qaldırmaq, düzəltmək birbaşa vəzifəsiydi. Bir sözlə, Vidadinin təlim-tərbiyəsiylə bağlı hər şeyə cavabdehdi. Ayağını əyri qoyan kimi Sadıq müəllimə şikayətlənir, tədbir görməsini tələb edirdilər. Bir də, dəliydi, hər nəydi, qohumuydu. Qorxurdu döyə-söyə (başqa cür bacarmırdı), valideynlərinin xətrinə dəyə (çox da bu ərkəsöyünlükdə uşaq böyütdüklərinə körə günah özlərindəydi), sonra özünü duruluğa çıxarda, doğrulda bilməyə...

Neçə dəfə xəlvətə çəkib öyüd-nəsihət vermiş, oxumursan, əcəb eləyirsən, cərə oxu, cəhənnəmə oxu, demişdi, barı sinifdə sakit otur, dərsi pozub müəllimləri üstümə qaldırma…

Vidadi qulaqardına vurmuşdu. Sadıq müəllimin də səbr kasası dolub daşmış, müəllimə yaraşmasa da, təpiyinin altına salıb xubunca əzişdirmişdi. Vidadi məsələni evdə açıb-ağartmaq, valideynlərini məktəbə gətirmək əvəzinə (dabbaqda gönünə bələddilər, özlərinin əkib-biçdikləriydi) Sadıq müəllimin dərslərindən qaçmağa başlamışdı. Dərsinin vaxtı çatanda, tənəffüsdəcə aradan çıxır, əkilirdi…

Sadıq müəllim də uşaq kimi hikkəli, tərsdi. Heç vəchlə bu dılğırın dalınca düşmək (şagirdi olsa da ayağa getmək, əyilmək kimi çıxırdı) istəmirdi. İzzət-nəfsinin xatirinə hər şeyi qurban verməyə hazırdı. Ürəyində bu cür övlad böyütdüklərinə görə qohumlarının kölgəsini qılınclaya-qılınclaya nəyisə gözləyirdi. Qulağı dincəlsə də

daxilən nigaran, narahatdı. Sanki tikan üstdə gəzib-dolanırdı. Halbuki qəti qərara gəlmişdi, Vidadini imtahana buraxmayacaq, sinifdə saxlayacaqdı…

* * *

Vidadinin məsələsindən xəbər tutan məktəb rəhbərliyi dava-mərəkə qopartdı.

- Bu, Sovet tə'lim-tərbiyəsinə zidd hərəkətdi, Sadıq müəllim. - Qırımxan müəllim (tədris işləri üzrə müavin) əlini-qolunu oynada-oynada İsmixan müəllimin (direktor) üzünə baxır, sözünə söykək, kömək umurdu.

- Bilirəm... - Sadıq müəllim rişxəndlə təsdiqlədi.

- Ay yoldaş, şagirdlə intires aparmaq müəllimə yaraşmaz. Tem bole, sən sinif rəhbərisən! - İsmixan müəllim nəhayət müavininin sözünə qüvvət verdi. - Məktəbdən yayınıb qaçanı, uzaq düşəni tapıb geri qaytarmaqdansa, özün buna şərait yaradırsan.

- İsmixan müəllim, ən pisi odu ki, dərs ili başa çatmaq üzrədi. - Qırımxan müəllim xüsusi nəzərə çarpdırdı. - İmtahanlara beş-üç gün qalıb…

Bu fitvanın təsiriynən təzədən əsib-coşmağa hazırlaşan İsmixan müəllim bir də baxdı ki, Sadıq müəllim heç onlara qulaq asmır, əlindəki qələmlə cidd-cəhdlə qarşısındakı kağızı qaralayır, birdəncə fıs yatdı. Sadıq müəllim başını qaldırmadan bu ani sükutdan yararlandı:

- Vidadini sinifdə saxlayacağam, İsmixan müəllim!..

- Demək, bayaqdan bəri çənə döyməyimizə bir qoz, hə? Görürsən də, İsmixan müəllim?.. - Qırımxan müəllimin qaydasıydı, çığır-bağırla aranı qatar, çəkilib durardı qıraqda.

Əsəbləşəndə adəti üzrə bığına həşir gələn İsmixan müəllim necə dartdısa tüklərindən ikisini qopartdı. Barmaqlarının arasında ağrıdan yaşaran gözlərinə tutub hirslə kənara atdı.

- Ə, tay sənin... - Demək istədi ki, dəli Vidadidən fərqin nədi (bunu Sadıq müəllim də başa düşdü), demədi, uddu.

Əvvəl bığını, tükünü yolduğu yeri sığalladı, tumarladı. Sonra altındakı stulu kənara itələyib ayağa qalxdı. Təzədən bığına həşir gələrək iri addımlarla otağın enini-uzununu ölçməyə başladı.

Qırımxan müəllim onun aydın eşidilən ayaq tappıltılarını züy tuturmuş kimi (nə irəli qaçır, nə də geri qalırdı) fərqinə varmadan barmaqları ilə stola mıxlayırdı.

İsmixan müəllim bunu duyan kimi dayandı. Qırımxan müəllimin stolun üstündə havadan asılı qalan əllərinə tərs bir nəzər saldı. Qırımxan müəllim o saat özünü yığışdırdı.

- Yaxşı, Sadıq müəllim, get papağını qoy qabağına, bir də fikirləş... - Direktor dedi.

Nə onlarda məsələni uzatmağa, çözməyə həvəs qalmaşdı, nə də Sadıq müəllimdə onları eşitməyə...

* * *

İmtahana bir gün qalmış Sadıq müəllimin ağzını arayan Qırımxan müəllim təzə bir söz eşitməyib onu yenidən direktorun kabinetinə dartdı. Direktor süni bir mehribanlıqla müavininə göz vurub köhnə vaxtları yada saldı:

- Bəlkə bir şahmat düzək, sadıq müəllim?. - İsmixan müəllim bərk şahmat həvəskarıydı. Sadıq müəllim də heç ondan geri qalmazdı. - Hə, Vidadinin məsələsini neynədin?.. – Cavab almayanda valı dəyişdi.

- Neyniyəcək, daşı ətəyindən tökmür. - Qırımxan müəllim onu qabaqladı. - Sabah da imtahandı.

İsmixan müəllim dilxor oldu.

- Sadıq müəllim, axı bir qotur gədəyə görə münasibətləri niyə korlayırsan?..

- İsmixan müəllim, eşitdiyimə görə, Qara Ələkbər özü də qohumudu ey bunun… - Qırımxan müəllim dedi.

- Ə, mənə tanıdacaqsan? - İsmixan müəllim bığına əl qatdı. - Hamımız bir el, bir obayıq. Xeyrimiz-şərimiz birdi. Bunlar şəhərə köçüb yaxalarını qırağa çəkməklə qohumluğu, kəndçiliyi danacaqlar?.. - Sadıq müəllimgil rayon mərkəzində yaşayırdı.

- İnsafən, Qara Ələkbər yaxşı adamdı. Oğlu kimə oxşayıb bilmirəm?.. - Qırımxan müəllim təəssüfləndi.

- Övladdı də, bədəsil çıxanda çıxır. - İsmixan müəllim damağına qoyduğu siqaretini alışdırdı. - Amma iti yiyəsinə görə sayarlar. Vidadi kimdi ki?..

- Bu nə söhbətdi salmısınız, İsmixan müəllim?.. - Sadıq müəllim birdən bozardı. - Təlim-tərbiyə heç nəyə baxmir!..

İsmixan müəllim əsəbləşərək siqaretini külqabına basıb yarımçıq söndürdü.

- Yaxşı, Sadıq müəllim, hər şeyi qoyduq bir kənara. Bilirsən ki, müvəffəqiyyət faizləri maarifə gedəcək. Orda da buraxılış siniflərinə, səkkiznən ona xüsusi diqqət yetirirlər. Soruşacaqlar, kimdi bunun müəllimi? Biləndə, deyəcəklər, əcəb sinif rəhbəridi! Başqaları siniflərinin intiresini qoruyur, müvəffəqiyyət faizini artırmaq üçün müəllimlərə ağız açır, bu da öz-özünə badalaq vurur…

İnsafən, İsmixan müəllim haqlıydı. Elə ki, rüb yekunlaşırdı, şagirdlər qalırdı qıraqda, sinif rəhbərləri düşürdülər müəllimlərin canına. "İki"ni "üç", "üç"ü "dörd" və s. elətdirirdilər. Müəllimlərin qiymət davasını görən şagirdlər bic-bic bir-birinə baxıb xısınlaşırdılar…

- Sadıq müəllim, vallah, səni istədiyimizdən danışırıq. - Qırımxan müəllim dedi. - O dılğırın ucbatından qohum-əqrəbaynan üz-göz olacaqsan, maarifdə adın pisliyə çəkiləcək, iclaslarda hallandırılacaq, protokollara düşəcək, adıbeddam olacaqsan. Ağrımayan başına niyə buz bağlayırsan?..

- Ə, di bir dillən də!.. - Səbr kasası daşan İsmixan müəllim gözlərini qoşalülə tüfəng kimi Cadıq müəllimin gözlərinə dirədi.

Sadıq müəllim baxışlarını yayındırdı.

- Bir nəfəri sinifdə saxlamaqla dünya dağılmaz, İsmixan müəllim. Yazmaq cəhənnəm, Vidadi kitabı üzünə düz-əməlli oxuya da bilmir. Axı bu biabırçılıqdı…

- Ə, kiri, eşidər, sənə güləllər, ayıbdı! - İsmixan müəllim Sadıq müəllimin ağzına vurulmalı (fikrində o cürdü) iri şapalağını hirslə öz ağzına şappıldatdı. - Bu sözü bizim yanımızda dedin, bir də heç harda demə…

- Niyə axı?…

- Adamdan soruşallar, niyə öyrətmirdin? Nəynən məşğuldun bu vaxtacan?..

- Bağışlayacaqsınız! - Sadıq müəllim e′tiraz etdi. - Hırnan-zırı qanmaya-qanmaya onu buracan gətirəndədi günah! Mənim proqramımda″a″, ″b″öyrətmək yoxdu…

- Əşi, daha ondan keçib. - Qırımxan müəllim yasalayaraq sülhə çəkdi. - Cəhənnəmə-gora oxusun! İtaparan bir ″üç″ yaz, sənin də canın qurtarsın, bizim də. Sinifdə saxlamaqla təzədən oxudacaqsan?..

- Guya doqquza keçirəndə canımız qurtaracaq?..

- Kimdi, ə, onu doqquza buraxan? - İsmixan müəllim dedi. - Şəhadətnaməsini göndərəcəyəm peşə məktəbinə, vəssalam.

Elə bildilər Sadıq müəllim yumşalıb. Amma o, Vidadinin hərəkətlərini yadına salıb təzədən qızdı.

- Siz allah, üz vurmayın! Sinifdə qalmağı məsləhətdi. Başqalarına da dərs olar…

Sadıq müəllim bütün günü fikirli gəzib-dolandı. O boyda dağdan ağır kişilərin, məktəb rəhbərlərinin sözünü yerə salmaq hünər istəyirdi. Bunun dalında durmaq lazımdı!...

* * *

Birdən Sadıq müəllimin ağlına gəldi ki, ay dadi-bidad, imtahan günü Qara Ələkbər oğlunun qolundan yapışıb çəkə-çəkə məktəbə gətirər, hamının qarşısında üzünü Sadıq müəllimə tutub deyər, qohum, yadındadı, atan səni dayına qoşub instituta göndərəndə yol-pulu tapmadı, üstümə qaçdı?.. Balam, əl tutdum ki, oxuyasan, müəllim olasan, gəlib mənim uşağımı kəsəsən?..

Sadıq müəllimin bədəni istiləndi. Neçə gündə bu, heç ağlına gəlməmişdi. Olmaz, Qara Ələkbər eləməzdi bunu? Niyə eləmirdi? Haqqı da vardı!.. Sadıq müəllim o boyda kişinin üzünə necə çıxar, nə cavab verərdi? Çox da oxumur. Çox da nadincdi. Belə lap dəli-ifləmənin biridi. Buracan başqaları necə yola verib?. Nooldu, gözüqara elə bircə Sadıq müəllim çıxdı? Gərək elə ona, Qara Ələkbərin oğluna ilişəydi? Camaat yüz acını bir şirinin xətrinə hoppadan udur, uf da demir...

Sadıq müəllim beləcə fikirləşə-fikirləşə çayını yarımçıq qoyub məktəbə tələsdi…

***

İmtahan başlanmışdı. Sadıq müəllimin assisenti nazirlikdən göndərilmiş inşa mövzularının adlarını lövhəyə köçürürdü. Sadıq müəllim də bir gözü qapıda ştamplanmış qoşavərəqləri şagirdlərinə paylaya-paylaya xırda-para göstəriş və məsləhətlərini verirdi. Nigarançılığı Vidadidəndi, imtahana gəlməmişdi. Yolda fikirləşmişdi ki, gəlsə, özünü görməməzliyə vuracaq…

Bu hayda Qırımxan müəllim qapıdan girdi. Salam-kalamdan sonra üzünü sinfə tutub şagirdlərə müvəffəqiyyət arzuladı. Sadıq müəllimin də qulağına İsmixan müəllimin çağırdığını pıçıldadı. Əlbəttə, İsmixan müəllimi yenə Vidadinin məsələsi maraqlandırırdı. Sadıq müəllimi sınayırmış kimi dedi ki, sənə görə atasına xəbər verməsəm də gədənin dalınca uşaq göndərmişdim, gəlməliydi axı... Qırımından yumşaldığını duyaraq əlavə etdi ki, hökmən hardasa ətrafda, məktəbin böyür-başında veyillənir. Nəhayət, Sadığın susmağını tam razılıq əlaməti sayaraq durub imtahan otağına keçdi. Sinif yoldaşlarından birini Vidadini tapıb gətirmək üçün göndərdi...

Vidadi İsmixan müəllimin təkidiynən gəlib Sadıq müəllimdən üzr istəddi. O da yarıkönül keçib əyləşməsinə icazə verdi. Hətta onun yazı işini sinif yoldaşından köçürməsinə belə axıracan göz də yumdu...

***

Sadıq Attestatını təzəcə almışdı. Ən böyük arzusu Bakıya getmək, universitetin jurnalistika fakültəsinə qəbul olunmaqdı. Amma dayısı məsləhət görmüşdü ki, tələsməsin, əvvəl işləsin, pul-pənə toplasın, təhsilini qiyabi davam etdirsin. Rayon qəzetinin mətbəəsində Sadığa iş də tapmışdı… Valideynləri dayısının fikrinə şərik çıxsalar da neçə gündü Sadığın qaş-qabağı açılmırdı.

Atası işdən qayıtmışdı. Tut ağacının altında oturub dərdləşirdilər. Söhbətlərinin mövzusu yenə Sadığın təhsil məsələsiydi.

- Darıxma, bala, - anası Sadığa təskinlik verirdi, - dayıların da bir vaxt qiyabi oxuyublar... - Anası dayılarını hər işdə onlara nümunə göstərərdi.

- Getdiyinə görə biləsən girəcəksən, dərd yarıdı. - Atası anasına haqq qazandırırdı. - Deyir, institutlarda rüşvətsiz iş aşmır. Çatan saat doğrayıb tökürlər çölə…

- Belə çıxır ki, dayımın pulu var, arxayındı, oğlunu ona görə instituta aparır?.. - Sadıq dedi.

- Hardandı, ay bala?.. - Anası qardaşının əvəzinə sızıldadı, eşitdiyini deyirdi.

- Onda bəs niyə aparır? Düzəltsin işə, qiyabi oxuyar də...

Sadıq demək istəyirdi ki, dayım niyə oğluna rəva bilmədiyini mənə rəva bilir?..

- Ə, onun oğlunun mətbəə işindən nə başı çıxır?.. - Anası sadəlövhlüklə dedi. Guya iş-gücün hamısı mətbəəlikdi. - Yazı-pozuynan maraqlanan, qəzetə, mətbəəyə gedib-gələn sənsən...

Sadıq doqquzuncu sinfəcən bütün fənləri ə'la oxumuşdu. Ən çox sevdiyi isə riyaziyyatdı. Məktəbdə dörd səkkizinci sinifdən riyaziyyat olimpiadasına uşaq seçəndə riyaziyyat müəllimi Qönçə müəllimənin Sadıqla susatan Şiraslanın oğlu Nadirin üzərində dayanması təsadüfi deyildi…

Doqquzuncu sinifdə Qönçə müəlliməni Musa müəllim əvəz etdi. Çox tündməcaz, ətiacı adamdı. Amma fənnini yaxşı bilirdi. Necə deyərlər, rayonda barmaqla göstərilirdi. Sadıqgil onun gəlişinə sevinmişdilər.

Musa müəllimin qəribə adətləri vardı. Dərsini yaxşı danışana iki qiymət, bir "üç", bir "dörd" verər, hər ikisini də curnala yazardı. Döşünə döyüb deyərdi ki, məndən bir "üç", bir "dörd" alan elə bilsin alimdi…

İntizamsız, dəcəl şagirdə əlini də vurmazdı. Amma vay oydu hansı sıradansa səs eşidəydi, həmin sıradakıların hamısını sinifdən qovardı… Məktəb rəhbərliyi biliyinə görə onun şıltaqlıqlarına dözərdi…

Bir məsələ Musa müəllimin Sadığa qarşı münasibətini əməllibaşlı korladı.

O zaman qənd, çay qıt idi. Müəllimlərə pulunu ödəmək şərtilə norma ayırmışdılar. Sadıqgilin məktəbini atasının üstünə, daha doğrusu, dükanına yazmışdılar. O da hörmət mənasında müəllimlərin qənd-çaylarını gətirib məktəbin anbarında (qapısına iri hərflərlə "ambar" yazılmışdı) paylayardı…

Musa müəllim növbəsini gözləmədən müəllim yoldaşlarının başı üzərindən ərkəsöyünlüklə (bəlkə də ərklə, uşağına dərs deyirdi) öz payını, normasını tələb etdi. Atası əl saxlayıb bir Musa müəllimə, bir qarşısındakı müəllimlərə (hamısı uşaqlarına dərs deyirdi) baxdı, başını aşağı salıb təzədən işiynən məşğul oldu.

- Ə, eşitmirsən?.. - Musa müəllim əlini havada oynadaraq səsini qaldırdı.

Sadığın atası kasıb olsa da ömründə kimsəyə əyilməz, kimsənin sözünü götürməzdi. Təmkinlə:

- Əvvəla, qanacağın-mərifətin olsun, "ə" özünsən, - dedi. -İkincisi, bu müəllimlər səndən əskikdi, yoxsa sən bunlardan artıqsan?..

- Ə, cərə ver, cəhənnəmə ver! - Musa müəllim dodağının altında donquldanaraq uzaqlaşdı.

- Sən də cərə get, cəhənnəmə get!..

Hirs-hikkəynən sinfə girən Musa müəllim Sadığı qabağa çıxartdı. Kinli-kinli süzərək:

- Bunun dədəsinə-zadına bir bax! - Dedi. - Get denən, mənim qənd-çayımı versin, ə.

Məsələdən xəbərsiz olan Sadıq qızararaq başını aşağı salıb sinifdən çıxdı. Növbəyə dayanan müəllimlərin arxasında xeyli gözlədi. Onları basıb irəli keçməyəcəkdi ki!

- Nədi, ə, nəyə gəlmisən?.. - Yaxşı ki, atası təsadüfən onu gördü.

Biləndə ki, nəyə gəlib, pulunu göndərib-göndərmədiyini soruşdu. Başını bulaya-bulaya Musa müəllimin payını Sadığın qoltuğuna verərək tapşırdı ki, utanma, pulunu al.

- Bu nədi, ə?.. - Musa müəllim qənd-çay payını əlində samballadı. - Bir çay artıq qoya bilməzdi?.. - Sadıq susub durdu. - Yaxşı, keç otu…

- Atam dedi, pulunu versin...

- Nəə?.. - Musa müəllim eynəyinin üstündən gözünü necə ağartdısa Sadıq dinməz-söyləməz keçib əyləşdi…

Bu hadisədən sonra Musa müəllim hər addımbaşı Sadığa söz atır, acılayırdı.

Musa müəllim Sadıqgilin həm də sinif rəhbəriydi. Qəzet-curnala abunə yazılışının qızğın çağıydı. Sadıq hər gün evdə valideynlərindən qəzetpulu istəyirdi. Onlar da "yoxdu" deyirdilər. (Altı uşaqdılar, altısı da oxuyur, altısından da qəzet-jurnalpulu tələb edirdilər.) Bilmirdilər ki, Sadıq məktəbdə, sinif yoldaşlarının qarşısında nələr çəkir…

Musa müəllim növbəti dəfədə Sadığı bir neçə nəfərlə bərabər sinifdən qovdu. Məktəbin həyətində veyillənir, o biri dərsi gözləyirdilər. Birdən direktor onları görüb dərs vaxtı niyə çöldə gəzdiklərini soruşdu.

Direktor Sadığın dayısıydı. Məktəbi də, özü də bütün respublikada sayılırdı.

Uşaqlar Sadığı irəli verdilər ki, de də, de... Ağıllı, ədalətli, alim adam kimi tanınan dayısı məsələdən hali olanda lap elə Musa müəllim kimicə qəzetpulunu niyə gətirmədiklərini soruşdu.

- Atam deyir, yoxumuzdu… - Sadıq ərkyana dedi. - Bu da dirənib ki, gəti…

- Ə, itilin gözümdən! - Dayısı onları aparıb sinfə doldurdu. - Qoy otursunlar, Musa müəllim, gətirəllər... - dedi.

Sadığa görə (lap elə o uşaqlara görə də), dayısı Musa müəllimə daha artıq hirslənməliydi. Onlardan olsaydı, qəzetpulu yox ey, nə pulu desələr, gətirərdilər. Sadıq dayısının Musa müəllimə hirslənə bilməməyinin səbəbini sonralar özü müəllim olanda anlayacaqdı, Musa müəllim dayısının, dayısı da başqalarının tapşırığını yerinə yetirirdi. Amma dayısı elə oradaca çıxardıb Sadığın qəzetpulunu ödəyə bilərdi. Heç olmasa ona görə ki, uşaqlar sonra Sadığın başına qaxıb deməsinlər ki, bizim dayımız hökmən ödəyərdi…

Musa müəllim Sadıqdan zəif ola-ola birinci rübdə dayısı oğluna riyaziyyatdan ″beş″, ona ″dörd″ yazdı. Bu, hər şeyi, Sadığın sonrakı taleyini tamam dəyişdi. Birdən-birə riyaziyyata həvəsi söndü. Təzəlikcə şe′r qaralamağa başlamış sinif yoldaşı Mövsümə qoşuldu. Doqquzuncu sinifdə rayon qəzetində ilk hekayəsi çap olundu... Onuncu sinifdə riyaziyyatdan o dərəcədə zəiflədi ki, Musa müəllim ″dörd″ü ona dayısının xətrinə yazdı. Qalan fənlərdən əvvəlki kimi irəlidəydi…

- Ata, ″üç″lə oxuyanlar gedib instituta sənəd versinlər, özlərini sınasınlar, mən qalım?..- Sadıq atasına yalvardı. - Mətbəə qaçmır, kəsilsəm, qayıdıb işləyərəm. Yolpulundan keç, gedim mən də özümü sınayım...

- Nə deyirəm, ay oğul, həmişə sən bizim sözümüzlə oturub-durmusan, bir dəfə də biz səni eşidəndə dünya qopmaz ki... - Gözləmədiyi halda atası razılaşdı. - Amma gərək yolpulunu kimdənsə borc alam, yoxumdu.

- Kimdən alacaqsan?.. - Anası soruşdu.

- Ürəyim yenə Qara Ələkbərə qızır. - Atası həmin saat ayağa qalxdı.

- Şər vaxtı Qara Ələkbərin dalınca kəndə gedəcəksən?..

Yrəyində anasına bərk acığı tutdu. Qorxurdu atası sabahacan fikrini dəyişə.

- Az, kənd deyəndə, üç kilometrdi də. Bir də, onu evdə axşamlar tutmaq mümkündü. Gündüz alver-gilverindədi…

Qara Ələkbər atasının qohumuydu. Taxta-şalban alveriynən məşğuldu. Mərd, əltutan adamdı. Kasıbçılıqla böyümüş, öz fərasətiynən gün-güzaran qazanmışdı. Haçansa əli aşağı olanda Sadığın atası da ona kömək durmuşdu…

- Gərək elə ona ağız açasan?.. - Arvadı yəqin qardaşlarını nəzərdə tuturdu. Yaxında yaşayırdılar.

- Qara Ələkbər məni naümid qaytarmaz… - Atası əmin-arxayın dedi.

Atası borc götürdüyü iki yüz manatı qaynına verib Sadığı ona qoşdu. Dayısı onsuz da öz oğlunu (Sadıqla bir sinifdə oxuyurdu) Bakıya, instituta aparırdı…

***

İnstitutun qarşısında qələbəlikdi. Necə deyərlər, iynə atsaydın, adam əlindən yerə düşməzdi. Sadıq divardakı lövhədə ″Pedaqoci İnstitut″u oxuyanda uşaq kimi geri dartındı ki, dayı, mən universiteti, jurnalistika fakültəsini istəyirəm...

- Ə, yeri görüm! - Dayısı onu irəli itələdi. - Hələ bura gir, qalsın universitet…

Sadığın onda hələ öz iradəsinin, sözünün üstündə möhkəm dayanan vaxtı deyildi. Ömründə nə rayondan qırağa, nə də böyüyün, xüsusən dayısının (həm də müəllimiydi) sözündən çıxmışdı...

***

Sadıq dayısına qulaq asmaqda necə böyük səhv buraxdığını üçüncü kursun axırlarında başa düşdü. Zaçotlar başlayan bir vaxtda ərizə yazıb sənədlərini geri almaq istədiyini bildirdi.

Müəllimli tələbəli hamı bir-birinə dəydi. Heç kim eşitdiyinə inanmırdı. Yaxşı oxuduğuna görə hər semestr dekanlıq valideynlərinə təşəkkür məktubu göndərirdi. İndi birdən-birə…

Sadıq Moskvadakı Qorki adına Ədəbiyyat institutuna getmək niyyətindəydi. Qəti dedilər ki, valideynsiz sənədlərini verə bilməzlər. Valideynləri daş atıb başlarını tutdular. Dayısı başına ağıl qoymağa çalışdı.

- Heç olmasa bu ilin zaçot-imtahanlarını ver. Şər deməsən, xeyir gəlməz, gələcəkdə əlin boşda qalanda, bir spravka alıb aşağı siniflərdə müəllimlik edərsən.

Sadıq deyəndə ki, elə müəllimlikdən qaçır, dedi, qayıt get imtahanlarını ver, institutu bitir, səni bir gün də müəllim işləməyə qoymayacağam. Bakıdakı redaksiyaların birində işə düzəldəcək, arxan,köməyin olacağam... Sonralar həyat adlı cəngəllikdə (oxumaq başqa şeydi, həyat başqa) tək qalan Sadıq ilk kitabında əhdinə vəfa qılmayan dayısına dolayısıynan vədini xatırladanda, ondan bərk inciyəcəkdi...

***

26-lar bağının yanındakı "Təbriz" mehmanxanasına düşmüşdülər. Dayısı oğluynan aşağıda, Sadıq yuxarıda, başqa nömrədə qalırdı.

İlk imtahana (ədəbiyyatdan yazılıydı) gedən axşamı dayısının başına yığışmışdılar. Sinif yoldaşlarından təpəl Qasım (başının qabağında bir çəngə tükü ağdı) da burdaydı. Birdən o, dayısına dedi ki, Sadığın ədəbiyyatdan bir dənə də şparqalkası-zadı yoxdu. Dayısı, dayısı oğlu Sadığın üstünə düşdülər ki, bəs sabah imtahanda neyniyəcəksən? Sadıq dedi ki, onuncu sinifdə, buraxılış imtahanında başımdan necə yazmışamsa, elə də qurub-qoşub yazacağam.

- İndiyəcən eşitməmişəm ki, institutda ədəbiyyat yazılıdan kimsə şparqalkasız imtahan verib qiymət alsın...- Təpəl Qasım istehza ilə güldü. - Orta məktəb başqa şeydi. Deyirlər, burda elə həyəcanlanırsan ki, beynyndə aləm bir-birinə qarışır...

- Boş söhbətdi, - Sadıq dedi.

- Bacı oğlu, heç höthötlüyünü yerə qoymursan ha. - Dayısı narazılıqla başını buladı.

Təpəl Qasım dedi ki, ondakı şparqalkaları qardaşı filan müəllimə (rayonda məşhurdu) hazırladıb. Qoy aparıb köçürtsün, onlarda (politexnlk institutda) ədəbiyyat imtahanı lap axırdadı.

- Götür, ə, yekələnmə. - Dayısı Sadığa təpindi.

Sadıq xırda hərflərlə yazılaraq qarmoşka şəklində bükülmüş şparqalkaları götürüb otağına qalxdı. Bir-ikisini oxudu, bəyənmədi. İşığı söndürüb yatdı.

Tezdən imtahana gedəndə Qasımgilin otağına girib dedi:

- Şparqalkalarını tumbayın üstünə qoydum, götürərsən.

- Niyə, ə?.. - Qasım yarıyuxulu dikəldi.

- Xoşuma gəlmədi, - deyib qapıdan çıxdı...

* * *

Nəhəng imtahan zalındakı sakitlikdə eşidilən xışıltı Sadığa kənddə, babasının tərəcələrdə tut yarpağıynan bəslədiyi acgöz ipəkqurdlarının yeyişini xatırladırdı. Abituriyentlər başlarını aşağı salıb inşalarını yazırdılar…

Sadıq seçdiyi mövzunun adını imtahan vərəqinə köçürərək hardan, necə başlayıb necə qurtaracağını fikirləşirdi. Çoxu artıq birinci səhifəni doldurub ikinci səhifəyə keçmişdi...

Ortalıqda var-gəl edən nəzarətçi müəllimin haçan başının üstündə dayandığından xəbər tutmamışdı. Qəfil:

- Nədi, oğlum, yaza bilmirsən?.. - deyəndə diksindi.

- Yaza bilirəm, - dedi, - fikrimi cəmləyirəm.

Müəllim uzaqlaşan kimi sol tərəfindəki oğlan pıçıltıynan öz köməyini təklif etdi. Bayaqdan ovcunda gizlətdiyi şparqalkadan şötdələyirdi. Diqqətlə baxanda gördü ki, hamısı səhvdi. Bunu oğlana deyəndə çəmkindi:

- Sənə dəxli qalmayıb! – Sir-sifəti Sadığın yaddaşına həkk olundu.

İmtahandan yorğun-arğın qayıdan Sadığı mehmanxanada dayısı, dayısı oğlu, təpəl Qasım top-tüfənglə qarşıladı.

- Bu nə hərəkətdi, ə?.. - Dayısı hirsləndi. - Şparqalkanı niyə aparmamısan?.. - Sadıq susmağı daha sərfəli saydı, niyə aparmadığını Qasıma demişdi. - Özündən yaman müştəbehsən. Görəcəyik necə yazdığını!..

Onların Sadığa qarşı inamsızlığı (illah da dayısının, halbuki qafasına yaxşı bələddi) daxilində qəribə bir şübhə toxumu göyərtdi. Canını qorxu hissi bürüdü. Kəsilsə, bunlara nə cavab verəcək, özünü necə doğruldacaqdı?..

Yazdıqlarını cümlə-cümlə, söz-söz xəyalında canlandırır, məqamında abzaslara riayət edib-etmədiyini, durğu işarələrini qoyub-qoymadığını yadına salmağa çalışırdı. Bə′zi şeyləri dəqiq xatırlaya bilmirdi…

Səhərisi dayısı oğlunun ilk şifahi imtahandanca kəsilməsi vəziyyəti daha da gərginləşdirdi. Dayısı atasının pulundan Sadığa bir az xərclik verərək oğlunu da götürüb rayona qayıtdı.

- Tofiq, bacı oğlu əmanəti, - deyib Sadığı mehmanxananın administratoruna tapşırdı.

Tofiq onların həmyerlisiydi. Yeyib-içən, kefqom, zarafatcıl adamdı. Əlini Sadığın kürəyinə vurub şirin-şirin güldü.

- Ay müəllim, arxayın get, qız-zad deyil ki, götürüb qaçalar.

- Ə, deyirəm, yəni kəsilib-eləsə, şəhəri yaxşı tanımır də, biletini-zadını alıb yola salarsan gələr.

- Müəllim, vallah, bu qarabala heç kəsilən oğlana oxşamır.

Ədəbiyyatdan şifahi imtahan bir həftə sonraydı. Qeyri zallarda imtahan verənlərin kəsilənləri məlum olsa da Sadıqgilinki tərslikdən axıracan bilinmədi...

Onları imtahan zalına axşam saat altı radələrində buraxdılar. Dedilər, kəsilənlərin siyahısını oxuyacağıq, adı çəkilən zalı tərk etsin. Sadığın nömrəsi 517-diydi. Dalbadal 515, 516 deyiləndə ürəyi əsdi. Bir də onda özünə gəldi ki, 523 eşitdi. Zalı tərk edənlərdən biri də imtahanda Sadığın sol tərəfində əyləşən oğlandı…

Həyəcanı bir balaca səngisə də sevinmək hələ tezdi. Səhər-səhər çamadanını yığmış, şeylərini yerbəyer eləmiş, öz-özünə qət

etmişdi ki, yazıdan ″üç″ alsa, şifahi imtahanı verməyəcək. 220 yerə min beş yüzdən artıq abituriyent göz dikmişdi. Böyük konkurs gözlənilirdi. Çox da əlavə bal qazandıran tə′rifnaməsi-zadı vardı…

- Nə axtarırsan, oğlum?.. - Müəllim bilet çəkmək əvəzinə gözünü palaz kimi sərilmiş siyahıya dikən Sadıqdan soruşdu. Biləndə ki, adını axtarır, üstəlik, "üç" almış olsa, bilet çəkməyəcək, təəccübləndi. - Doğru sözündü?.. - Sadıq başıynan təsdiqlədi. –Yaxşı, baxaq də. - Eynəyini taxıb siyahının üzərinə əyildi. - Hə, bu da Sadıq. - Barmağını yavaş-yavaş irəli surçutdu. ″Dörd″ü görəndə hər ikisi eyni vaxtda başını qaldırıb bir-birinə baxdı.

Sadıq gülümsəyərək biletini çəkib əyləşdi. Suallarını bilirdi. Bəxti gətirmədi. Bayaqkı müəllimi harasa çağırdılar. Sadıq ətiacı bir müəllimlə qaldı. Biletini danışdı, əlavə suala da cavab verdi. Di gəl bu adam elə bil heç onu eşitmirdi. Yazdığı ″dörd″ü görəndə Sadıq cırnadı.

- Nədi, bala, pis qiymətdi? - Müəllim minnət vurdu. - Camaat özünü cırır, bunu ala bilmir…

Qalmaqal salmaq mə′nasızdı. Bir də, buna nə həvəsi, nə də halı qalmışdı. Səhərdən boğazından su da keçməmişdi. Ayaq üstə güclə dayanmışdı.

Qiymət vərəqini götürüb çıxdı. Bayırda şər qarışmışdı. Qapının ağzı adamla doluydu. Hamı öz yaxınını gözləyirdi. Ürəyi qübarlandı…

Yer-yerdən səslər eşitdi:

- Ə, kəsdilər?..- Düşgün görkəmi belə deməyə əsas verirdi.

- Neçə aldın, oğlan?..

- Ə, görmürsən yazığın rəng-ruhu qalmayıb…

Sadıq dinməzcə sağ əlinin dörd barmağını yuxarı qaldıraraq adamların arasından özünə yol açmağa çalışdı. Birdən kimsə arxadan onu qucaqladı. Çönəndə xalası oğlu Vidadini gördü.

- Noldu, ə, qiymət aldın?.. - Xalası oğlu çoxdan Bakıdaydı. Əmisinin aptekində işləyirdi.

- Hə… - Sadıq boğazına tıxanan qəhəri zorla uddu. Az qala kövrəlib ağlayacaqdı.

Xalası oğlu qiymət vərəqindəki dördləri görəndə Sadığı təzədən qucaqladı.

Qarınlarını doyurandan sonra danışıq məntəqəsindən xalasıgilə, rayona zəng vurdular. Xalası oğlu nə qədər bərkdən qışqırırdı ki, Sadıq imtahanlardan qiymət alıb, xalası kar könlündəkini anlayan kimi elə hey soruşurdu, bileti hansı vaqona almısan?.. Çox müsibətdən sonra məsələni birtəhər anlatdılar...

O axşam Sadığın atası bu şad xəbəri evlərinə torpağı ayaqlarının altında hiss etmədən, uça-uça çatdırmışdı...

***

Üçüncü imtahandan qayıdanda koridorda administrator dedi ki, dayısı gəlib, filan otaqdadı..

...Dayısı oğlunu instituta ikinci ili gətirəndə də həmin nömrəyə düşmüşdü. Sadıq da qardaşını gətirmişdi. Dayısı birdən qayıtdı ki, bacıoğlu, gədənin (oğlunun) R. Rzadan bir inşası çatmır, yaza bilərsənmi? Sadıq dayısı oğlundan ədəbiyyat kitabını istəyəndə:

- Baho! - dedi. - Bacı oğlu, kitabı köçürtmək lazım deyil ey…

Sadıq dedi, narahat olmasın, yaddaşını təzələyəcək. Yazdığında kitab cümləsi tapsa, götürməsin. Saat yarımdan sonra dayısı inşanı gözdən keçirib məmnunluqla güldü, yox, balam, dilinə görə də dilçəyin varmış, dedi...

…Dayısı otağında səhər qəzetlərini oxuyurdu. Onu gülərüzlə qarşıladı.

- Hə, bacıoğlu, demək, bizi təəccübləndirmək fikrindəsən?..

Sadıq həmişə dayısına oxşamaq istəmişdi. Tanıdığı adamlar arasında o, hamıdan istedadlı, bilikliydi. Məntiqli, şirin danışığı vardı. İncikliklərə, umu-küsülərə baxmayaraq Sadıq dayısını sonralar da yüksək qiymətləndirmiş (dargözlər belə şeyləri qanmaz), ona pərəstiş etmişdi…

Sadıq növbəti, üçüncü imtahanı (tarixdi) ilə maraqlanan dayısına deyəndə ki, elə bu saat imtahandan gəlir, həm də bu dəfə biletini fikirləşmədən danışıb və yenə "dörd" alıb, təzədən təəccübləndi.

Hələ orta məktəbdən bilet çəkib fikirləşməyə səbri çatmazdı. Sonralar institutda, dövlət imtahanında da biletini fikirləşmədən

danışmış, ″ə′la″ almışdı. Bu haqda o vaxtkı ″Bakı″ axşam qəzeti də yazmişdi...

***

Xarici dil (fransız dili) imtahanı başlayana yaxın qəbul komissiyası radio ilə elan etdi ki, bu fəndən attestat qiyməti ″ə′la″ olan qiymət vərəqini bəri başdan imtahan komissiyasına təhvil versə, imtahansız-zadsız ″kafi″si yazılacaq. Amma özünü sınamaq fikrinə düşüb cavab verə bilməyənə sonradan güzəşt edilməyəcək, kəsilmiş sayılacaq…

Sadıq tərəddüd içindəydi. Çox da xarici dildən qiyməti ″əla″ydı. Hətta bu fəndən müvəffəqiyyətinə görə direktorluq onu kitabla da mükafatlandırmışdı. Qiymət, mükafat başqa, həqiqi bilik tamam başqa şeydi. Xarici dildən qiymətləndirmə nisbiydi. Rayona, məktəbə görə hesablanmış nəticəydi. Daha artıq dərs saatına malik rus dili də bu vəziyyətdəydi…

Buracan yaxşı gəlmişdi. Son, axırıncı sınaqdı. Uğursuzluq bir göz qırpımında hər şeyin üstündən qara xətt çəkə bilərdi. Sadıq başa düşürdü ki, yaxşı halda ″dörd″ə şanslıdı. “Üç″ ehtimalı daha realdı. Yox, bu cür həlledici məqamda risq etməyinə dəyməzdi. Yəqin dayısı yenə danışacaqdı. Olsun, kəsilsə, lap dəhşətdi...

Çox götür-qoydan sonra əsə-əsə qiymət vərəqini imtahan komissiyasına təhvil verdi.

Dayısının danışmağı canıyananlığındandı. Sadığın instituta girməsi onun da başının ucalığıydı. Gün gələcək, məclislərin birində Sadığın onun hesabına institut qurtardığını deyənin ağzından vuracaqdı ki, onun heç kəsə minnəti yoxdu...

***

Rayona qayıtmışdılar. Həyəcanla imtahanların nəticəsini gözləyirdilər.

Gün günortadan ötmüşdü. Sadıq qış üçün pomidor bankası bağlayan anasına kömək edirdi. Birdən darvazaları danqıltıynan açıldı, dayısının kiçik oğlu içəri girdi.

Dayısı uşaqları balacalıqda onlara tez-tez gələr, bə′zən gecələr də yatıb qalardılar. Böyüyəndən sonra ayaqlarını çəkmişdilər.

Hərdən, xeyirdə-şərdə görünərdilər. Deməmk, dayısı oğlu indi havayı gəlməmişdi. Bircə anda Sadığın ürəyi yarpaq kimi əsdi.

- Xeyirdimi, a bala?.. - İrəli duran anası hal-əhvaldan sonra soruşdu.

- Vidadi Bakıdan zəng vurmuşdu... - Dayısı oğlu mızıitıynan bunu deyib susdu. Çox utancaq, karsala uşaqdı. Vidadi Sadığın aptekdə işləyən xalası oğluydu.

- Maman qurban, di ürəyimizi üzmə də, de görək niyə zəng vurmuşdu?.. - Sadığın anası tab gətirmədi.

- İnstituta qəbul olunanların siyahısı çıxıb... - Dayısı oğlu susub təzədən ürəklərini üzdü.

- Sadığın adını siyahıda görübmü?.. - Anası sözü onun ağzından zorla qopartmağa çalşdı.

- Hə…

- Ay səni xeyir xəbər olasan!.. - Anası qucaqlayıb qardaşı oğlunun o üzündən-bu üzündən marçamurçla öpdü. Qaçıb evdən muştuluq gətirdi...

* * *

Dayısı institutlarının qonşu rayondakı filialında da dərs deyirdi. İşi, yazı-pozusuynan əlaqədar Bakıya tez-tez gəlib-gedirdi. Sadıq institutda dərslərinə təzə başlamışdı. Koridorda təsadüfən dayısıynan rastlaşdı. Hal-əhval zamanı dayısının bir gözü onun üst-başında, qoltuğundakı adi, ucuz məktəbli sumkasında qalmışdı...

Qış tətilinə gələndə anası qayıtdı ki, dayın deyir, Sadığın qoltuğundakı sumkaya görə yaman utandım.

- Utanmalı o qədər şey var ki, ay arvad!.. - Atası eyhamla böyürdən dilləndi. - Gərək deyəydin, utanınca bir yaxşısını niyə alıb vermirdin, ay qardaş?..

Axşam anası Sadığı dayısıgilə yolladı. Sonralar da hər Bakıdan gələndə anası dirənərdi ki, get, dayıngilnən görüş. Halbuki dayısı oğlanları atasının bacısı kimi bircə dəfə onun adını anmaz, qapısını açmazdılar. Əksinə, anası qardaşı uşaqlarının Bakıdan tətilə gəldiklərini eşidən kimi özü gedib onlarla görüşərdi…

Dayısı Sadığın semestr imtahanları ilə maraqlandı. Bir-bir müəllimlərini soruşdu. Psixologiya müəllimi Əbdülün adını eşidəndə

dedi ki, dostudu, Bakıya gedəndə deyər, ona məktubu olacaq, aparıb verər...

Sadıq məzmunundan həmişəlik xəbərsiz qaldığı o məktubun ağrı-acısını yaşadı. Əbdül müəllim növbəti mühazirələrinin birində qəfil qayıtdı ki, uşaqlar, aranızda mənə tanışlıq məktubu yazdıranlar var, ar olsun...

Tələbə yoldaşları şübhəylə bir-birinə baxıb pıçıldaşdıqca Sadıq utanıb xəcalət çəkirdi.

Əbdül müəllim bircə anda gözündən düşdü. Psixoloq-alim üçün bu, böyük qəbahətdi. Sadıq onunla qarşılaşmaqdan qaçır, mühazirələrinə katorqaya gedən kimi gedirdi...

İmtahanda Sadıq biletini təsadüfən Əbdül müəllimin assisentinə, İbad müəllimə danışası oldu. Arabir kənardan baxışlarını öz üzərində tuturdu. Sonda İbad müəllim Sadığı Əbdül müəllimə göstərib dedi:

- Biletini danışdı, əlavə sualınız olacaqmı?..

- Babatdı yəni?.. - Əbdül müəllim şübhəylə soruşdu.

- Məni qane etdi. Mühakiməsi var.

Əbdül müəllim Sadığı təzədən sorğu-suala çəkdi. Sadığa görə, Əbdül müəllim bu müddət ərzində onun şəxsində özü üçün əfəl, korafəhm, sifarişlə qiymət qopardan bir tələbə obrazı yaratmışdı və daha nəyisə dəyişmək mümkün deyildi. İndi onun fikri-zikri alim dostunun xətrinə Sadığa bir itaparan "üç" yazmaqdı…

Təbii, belə bir əsəbi, gərgin vəziyyətdə Sadığın cavabları Əbdül müəllimi razı salmadı.

- Kifayətdi, bir "üç" yazarıq, - dedi. Sadıq biletinin suallarını danışdığını söyləyib razılaşmayanda əsəbləşdi. - Zaçot kitabçanı da qoy, çıx bayıra!..

Sadıq zaçot kitabçasını götürüb çıxdı. Qrup nümayəndəsi, yoldaşları Əbdül müəllimi zorla inandırdılar ki, o, qrupda iki-üç nəfər oxuyandan biridi. Sübut üçün gətirib zaçot kitabçasındakı qiymətlərini göstərdilər. Axır "dörd" yazdı...

***

Sadıq müəllim əsəbləri korlanmamış Vidadinin yazısını birtəhər yoxlayıb başından eləmək istədi. Əvvəl qoşa vərəqin üstünü

oxudu. Vidadi sözlərin, demək olar, hamısını, hətta adını, familiyasını da səhv yazmışdı. Əl vurmadı. Vərəqin arasını açdı. Dəhşətdi. Sanki gözünü yumub köçürtmüşdü…

Sadıq müəllim odlandı. Yazıdakı səhvlərin hamısını qırmızılamaq, aparıb direktorun, müvinin qabağına qoymaq fikrinə düşdü. Baxar və görərdilər ki, Sadıq haqlıdı. Uşaqda da vicdan, məsuliyyət olmalıdı axı. Özləri qiymətləndirər, özləri də altından qol çəkərdilər...

- Nədi, Sadıq müəllim, deyəsən, ilişmisən?.. - Qafar müəllimdi. Qocaman dil-ədəbiyyat müəllimi.

- İlişmisən də sözdü?..

- Vidadiyə qiymət yazdınmı?. Yoxsa acı bağırsaq kimi hələ uzadırsan?.. - Məsələdən Qafar müəllim də halıydı. - Bəlkə o biri qələmi də əlinə alasan?.. - Güldü.

Başa düşdü. Birinci iliydi. Uşaqların yazılarını yoxlayıb bir-ikisinə “dörd”, qalanına ″iki″, ″üç″ vermişdi. ″Beş″dən danışmağa dəyməzdi. Direktor, müavini xəbər tutub onu günahlandırdılar. Dedilər, niyə keçən il yaxşı qiymətlər alırdlar, bu il pis? Sadıq müəllim dəftərləri gətirib tökdü qabaqlarına. Dedi, heç elə bil bunlara yazı-pozu öyrətməyiblər... Yer-yerdən müəllimlər ona əyri-əyri baxdılar. Axı uşaqlar bu məktəbə Aydan təşrif buyurmamışdılar. Onların yetirmələriydi...

Onda Qafar müəllim böyürdən gülə-gülə soruşdu:

- Sadıq müəllim, dəftərləri neçə qələmlə yoxlayırsan?..

- Necə yəni neçə qələmlə? - Başa düşmədi. - Əlbəttə, bir, qırmızı qələmlə…

- Bundan sonra bizim müəllimlər kimi iki-üç qələmlə yoxlayarsan. - Qafar müəllim eyhamla dedi. - Nə qədər gec deyil, öyrən!..

Sadıq müəllim sonra gördü ki, müəllimlər yazı işlərini yoxlayarkən əllərinin altında iki, üç, bə′zən hətta dörd-beş qələm (yazılara düşər), üstəlik ülgüc də saxlayırlar. Səhvləri düşər qələmlə düzəldir, yaxud ülgüclə pozub yazır, sərfəbazarı qiymətləndirirdilər...

Sadığa görə, aşağı siniflərdə yazı-pozu işinə diqqət artırılmalı, yuxarılarda ifadə, inşa yazılarının sayı azaldılmalı, sadələşdirilməliydi...

Sadıq müəllim bilmirdi vəziyyətdən necə çıxsın? Halbuki necə olur-olsun gözünü yumub Vidadiyə qiymət yazacağına qərar vermişdi. Yazı ilə tanışlıqdan sonra fikri təzədən qarışmışdı. Vicdanı əlini tərpətməyə qoymurdu... Bu tərəfdən də Qara Ələkbərin xəyalı gözünün qabağından çəkilmirdi...

Qara Ələkbər Vidadinin imtahandan kəsildiyini, həm də kim tərəfindən kəsildiyini bilən kimi yəqin sürüb məktəbə, ya da Sadıq müəllimgilə gələcəkdi. Onu yaddaşın məhkəməsinə çəkəcəkdi. Heç bir üzr-filan da qulağına girməyəcək, gözünə görünməyəcək, ağlına batmayacaqdı. Bir zaman etdiyi yaxşılıq buna mane olacaqdı…

Yaxşılıq (istər kiçik, istər böyük) yaddaşı olan üçündü...

# P o v e s t l ə r

## Qış günəşi

Birinci sağlığı Etibar dedi:

- Bunu içək dostumuz, qardaşımız Asifin can-ciyəri, yeganə oğlu Firuzun sağlığına! Səkkiz yaşı tamam olur. Böyük oğlan olsun, neçə-neçə belə ad günü keçirsin!..

- Amin, amin!.. - Badələrini Asifin badəsinə toxundurdular.

Asif minnətdarlığını bildirərək qürurla oğlunu süzdü.

- Sənin sağlığına, oğlum!..

Firuz qonaqlardan çəkinə-çəkinə yavaşca atasını dümsüklədi.

- Ata, bəs mən?.. - Uşağın özünü yada salması hamını əl saxlamağa məcbur etdi. Karıxmış halda bir-birinin üzünə baxdılar.

- Sənə olmaz, oğlum, - Asif dedi. Ancaq bu, primitiv, çeynənmiş üsuldu. Nəsə başqa bir söz demək, uşağı inandırmaq lazımdı.

- Dostlar, səbəbkar iradında haqlıdı! - Bu, çətin anda həmişə nəsə bir şey fikirləşib tapan Rauf idi. - Stəkanı verin bura, onaa… - uzatdı, - limonad süzəcəyəm.

- Doğrudan da! - Hamı rahat nəfəs aldı. Halbuki Firuzun içdiyi elə bayaqdan da limonad idi.

Fərq onda oldu ki, bu dəfə badələrini Asifin deyil, Firuzun stəkanına vurdular. Çalışdılar ki, bir-birinə dəyəndə bərk cingildəsin, əyləndirsin.

Böyüklərin hərəkətini izləyən Firuz gördü ki, atası badəsini toqquşdursa da içmədi. Qaytarıb stolun üstünə qoydu. Burda təəccüblü bir şey yoxdu. Həkimlər spirtli içkiləri ona qadağan etmişdilər. Hər halda, məclisdəkilərin bildiyi buydu…

Firuz mənasını başa düşməsə də atasının hərəkətini təkrarladı...

Çox sağlıq deyildi. Axırda Çingiz söz istədi.

- Dostlar, gəlin bu badələri də içək Asifin özünün sağlığına! - Şəhadət barmağını yuxarı qaldırdı. - Bir şərtlə ki, tezliklə subaylığın

daşını atmalıdı. Çox da eşidib ki, subaylıq sultanlıqdı. Bu məsələyə necə baxırsınız?..

- Lap əntiqə!.. - Rauf onun sözünə qüvvət verdi.

- Subaylığın, yoxsa dulluğun?.. - Son anda kimsə dilini dinc saxlamadı. Hamısı içkinin təsirindəndi.

Asif alınsa da üzə vurmadı. Bir də, düz sözə nə deyəsən?.. Acı olsa da həqiqətdi.

- Ayrıldığınız neçə ildi?.. - Çingiz soruşdu.

- Dörd il olar …

- Vaxtını keçirmə, qardaş, evlən. Allaha şükür, qocalmamısan ki!..

Böyürdən söz atdılar:

- Sənin tayların hələ evlənməyib!.. - Dodağı qaçan olsa da gülüş doğurmadı.

Nəhayət Çingiz fikrini tamamlamağa imkan tapdı:

- Oğlunu da alarsan qanadının altına, əməlli-başlı qayğısına qalarsan…

- Onu indi də eləyərəm, anası vermir… - Asif bunu özündən, sözgəlişi dedi. Oğlunu tələb etməyə onda üz hardandı?..

- Nə deyib vermir?..

- Deyir, anası mənəm, vermirəm... - Çətini yalanı uydurmaqdı. Dalını düzüb-qoşmağa, toqqaşdırmağa nə var!..

- Dərəbəylikdi? Çək divan-dərəyə! - Etibar bunu elə dedi ki, güldülər. Asifin özünün də dodağı qaçdı. - Sən yadsan?.. Sən də atasısan! Haçanacan doğma balanı məktəb qapısında, tində-bucaqda əzizləyəcəksən?..

* * *

Birinci sağlıqdan sonra o biri otağa keçən və orada başı nəyəsə qarışan Firuzun qayıtması ilə kənar söz-söhbətə son qoyuldu. Asifin canından oldu. Eyni zavodda, eyni sexdə işləsələr də dostları hələ çox şeydən xəbərsizdi.

- Saat neçədi, ata?.. - Firuz nigarançılıqla soruşdu.

- Neynirsən, oğlum?

- Gecikərik axı…

- Hara?.. - Asifin ağlı yenə heç nə kəsmədi.

- Necə hara?.. - Firuz təəccübləndi. - Məni evimizə aparmayacaqsan?..

Elə bil Asifin daxilində nə isə qırıldı. Pis vəziyyətə düşdüyünü dostları da gördü, amma dinmədilər. Handan-hana divar saatına tərəf döndü.

- Hələ vaxtımıza var, oğlum. - Gülümsəsə də təbəssümü çöhrəsini belə işıqlandırmadı. - Anasına söz verib ki, axşam qayıdacaq. - Axırıncı cümlə dostlarına aiddi.

Sonra qalxıb televizorun yanındakı köhnə, iri maqnitofonun qapağını açdı.

- İndi sənin səsini lentə yazacağam, oğlum.

- Doğrudan?.. - Firuz sevindi. - Ay can, ay can!..

- Bəs necə!.. - Üz-gözündə bayaqkından fərqli ılıq, işıqlı bir gülüş oynadı.

Maqnitofonu qurdu. Düyməsini basan kimi körpə qığıltısı, sonra ağlamaq səsi otağı doldurdu. Firuz əlini əlinə vurub şaqqanaq çəkdi. Asifin dostları da ona qoşuldu.

- O kimdi, ata?.. - Firuz birdən nə fikirləşdisə ciddiləşdi.

- Sənsən də, oğlum, körpə vaxtı yazmışam.

Bu dəfə böyüklər güldü, Firuz utandı. Körpəsini oxşayan məlahətli qadın səsi araya girdi.

- Ağlama, oğlum, atandı e, atan. Tanımadın?.. Ay sənin canını yeyim. Ə, dillənsənə… - Qadın ərklə acıqlandı.

- Hə, mənəm, Firuz, atanam… - Kobud kişi səsi (əlbəttə, Asifdi) uşağı inandırmağa çalışdı.

Otaqda çox adam vardı-nəydisə bir müddət ara qarışıb məzhəb itdi, ağız deyəni qulaq eşitmədi. Səs-küyü yenicə dil açmış uşaq səsi əvəz etdi.

- Ata, maa qənnet alaysan?.. - Bu artıq təzəcə dil açmış Firuzdu.

- Alaram, oğlum… - Burda Asifin səsi əvvəlkindən fərqlənirdi. - Özü də lap qırmızısından!.. - Ürəkli danışırdı.

- Anaya da alaysan?..

- Heç onu yaddan çıxartmaq olar!..

Asif kəskin hərəkətlə düyməni basdı. Maqnitofon xırıldayıb susdu. Üzü yenə kölgələndi.

- Qənnət nədi, ata?..

- Konfetdi də, özün deyirdin ki... - Asif oğlunun üzünə bozardı. Kobudluğuna görə tez də peşiman oldu. Kürəklərinin arası buz kimi soyudu.

- Ordakı mənəm, ata? - Firuz qalınlığına saldı.

- Hə…

- O xala da anamdı?

- Hə…

- Bəs o kişi kimdi?..

Əməlli-başlı karıxdı.

- Mənəm də… ay… dəli… - Kəkələdi.

Bu sualları ona bir vaxt dörd, beş yaşlı Firuz da vermişdi. Altı, yeddi yaşlı Firuz nə həmin söhbəti eşitmiş, nə də lentə düşmüşdü. Bu saat oradakı Firuzun da yaşı bugünkü səkkiz yaşlı Firuzdan asılıydı. İkiillik fasilədən sonra yeni səslər, yeni gülüşlər qəfəsə salınan quşlar kimi maqnitləşib lentə köçəcəkdi…

Asif qorxa-qorxa barmağını maqnitofonun düyməsinə toxundurdu. Kasetlər sürətlə fırlandı. Səsini azaldıb saxladı. Ehtiyatla bayaqkı yerlərin ötüb-ötmədiyini yoxladı. Mikrafonu taxıb Firuza yaxın tutdu.

- Hə, oğlum, indi bir şey de, yazsın…

- Nə deyim axı?.. - Firuz dilini sürüdü.

- Nə istəyirsən …

- Dayan, dayan, niyə ki?.. - Rauf imkan vermədi. - Qoy desin görək neçənci sinifdə oxuyur?..

- İkinci ″A″ sinfində… - Firuz elə bil onun ağzını açmağına məəttəldi.

- Mənim sualım lap çətindi. - Çingiz dedi. - Dərslərindən neçə alırsan? Amma yalan danışma, ha! - Barmağı ilə hədələdi.

- Şifahidən ″dörd″, ″beş″, yazıdan ″üç″ alıram… - Duruxdu. Sonra cürətlə: - Hərdən ″iki″ də alıram, - dedi. Bic-bic gülüb əlləri ilə üzünü örtdü.

- Yoox! Bax, bu olmadı!.. - Hamı bir nəfər kimi narazılığını bildirdi. - Sənin kimi oğlana ″iki″ almaq yaraşmaz. Dünyasında!..

- Neynim ee, tez-tez yazıram, müəllim də ″iki″ verir…

- Demək, günah hamısı müəllimdədi, həə? Ay-ay…- Rauf başını buladı. - Dost, sən adamı heç nədən baqaca qoyarsan…

Gülüşdülər. Firuz girəvəykən mövzunu dəyişdi.

- Ata, ad günüm bir də nə vaxtdı?

- Gələn il bu günkü gün, fevralın onunda…

- Elə həmişə fevralın onunda?.. - Qaşlarını çatdı.

- Bəs necə, oğlum? Adam bir ildə neçə dəfə doğulur?.. –Təəccübləndi ki, uşaq bu sadə məsələni də anlamır.

- Amma mən istəyirəm bir dəfə də mayda olsun… - Sınayıcı nəzərlərlə altdan yuxarı atasını süzdü. Guya hər şey onun istəyindən və atasının razılığından asılıydı.

- İki ad günü nəyinə lazımdı, oğlum?..

- Onda tez yekələrəm…

- Bəxtəvər başına, tez böyümüşük əlimiz bala batıb, qalmısan sən… - Çingiz istehza ilə qımışdı.

Hərə bu məsələyə münasibətini bir cür bildirdi. Boş-boş deyib güldülər, hırıldaşdılar. Yada düşəndə ki, Firuz, bir növ, oyundan kənar vəziyyətdə qalıb, onun başına yığışıblar, onu əyləndirməli, dindirib-söylətməlidilər, bir-birinin üzünə baxıb susdular. Etibar yəqin ki, soruşmağa elə bir şey tapmadığından böyüklərin uşaqlara ən çox verdikləri bir sualı verdi:

- Firuz, atanı çox istəyirsən?..

- Hansını?.. - Firuz sualı sualla qarşıladı.

- Necə yəni hansını? Asifi …

- Həə… - Könülsüz mızıldandı. - Orda da bir atam var …

- Harda?..

- Evimizdə…

- Hmm... - Asifdən sonra arvadının başqasına ərə getdiyini eşitsə də bu Etibarın ağlına heç gəlməmişdi.

- Ata, niyə hamının bir atası var, mənim iki, hə?.. - Lap dəlinin yadına daş salmaq kimi bir şey alındı.

Asif diksindi. Yox, sual gözlənilməz deyildi. Oğlu böyüdükcə, ətrafında nələr baş verdiyinin fərqinə vardıqca hələ ondan çox şeyə cavab istəyəcəkdi. Amma bu saat, bu əziz gündə belə bir şeyi gözləmirdi...

- Bilmirəm, bilmirəm!.. - Firuz sualını bir də təkrarlayanda əsəbləri dözmədi, səsini qaldırdı. - Evdə anandan soruşarsan…

Araya çökmüş sükutda qurğuşun ağırlığı vardı. Bu ağırlığın altına girmək çətindi…

* * *

Üçüncü mərtəbəyə çatanda Asif pilləkənin ayağında dayandı.

- Gəl xudahafizləşək, oğlum… - Əlini uzatdı.

Firuz təəccüblə geri qanrıldı. Bu nə deməkdi? Küçənin o üzündən bu üzünə keçincə atası fikrini dəyişmişdi.

- Bəs ad günümdə iştirak etmək istəmirsən?.. - Yol boyu yalvarıb güclə razı salmışdı. Daha doğrusu, atası bir növ başından eləmişdi.

- Bu dəfə yox, oğlum... - Baxışlarını yayındırdı. - Qalsın gələn dəfəyə…

- Nə deyirəm… - Firuz atasının son anda gəldiyi nəticədən məyus olsa da bir qədər fikirləşib hər şeyi anlayırmış kimi razılaşdı…

Sonra yuxarı qalxdı. Atasının aldığı hədiyyələri, nağıl kitabını, fotoaparatı, kağıza bükülü şokalad qutusunu yerə qoydu. Dabanlarını cütləyərək ayaqlarının ucunda əlini uzadıb qapının zəngini güclə basdı. Çönüb şəstlə atasına baxdı. Asif gülümsədi. ″Görürəm, oğlum, daha zəngə də əlin çatır…″

Bu yaxınlara qədər zəngi onunçün Asif çalardı. Əli düyməyə toxunan kimi dəcəl uşaqlar sayağı pilləkən aşağı qaçardı. Axırıncı dəfə qonşulardan biriynən bərk toqquşmuşdu...

Qapı açıldı. Oynaq musiqi sədaları, danışıq və şən gülüş səsləri tıxacı qəfil partlayan şampan şərabı kimi birdəncə aşıb-daşdı. Oğlunun ad gününə burda da hazırlaşmışdılar.

- Keç, oğlum. Tək gəlmisən?.. - Asif Naziləni səsindən tanıdı.

- Yox, odey, atam pilləkəndə…

Asif tezcə daldalandı. Siqaretini alışdırdı. ″Uşaq ki uşaq. Yüz dəfə demişəm, mənim pilləkəndə dayandığımı anana bildirmə…″

Bir tərəfdən bunu ürəkdən deyirdi, o biri tərəfdən yox. Asifə elə gəlirdi oğlunun sözlərini eşidən Nazilə haçansa onu görməkçün başını qapının arasından çıxardıb aşağıya boylanacaq. Bu ümidi

içində göyərdən hər dəfə Nazilənin öz dilindən eşitdiyi sorğusuydu: "Tək gəlmisən?.." Bilə-bilə ki…

Pillələri ağır-ağır endi. Tık…tak…tık…tak…

* * *

Qaranlıq qarışmışdı. Şaxtanın, sazağın naxış vurduğu pəncərələrdə işıqlar sayrışır, ulduz-ulduz bərq vururdu…

Özünü yaxınlıqdakı telefon budkasına təpdi. Boylanaraq qarşıdakı binanın mərtəbələrində Nazilәgilin pəncərəsini axtardı. Siqareti kötüyünəcən sümürüb tulladı. Dəstəyi qaldırıb barmaqlarının hərarətini yuvacıqlardakı soyuq, cansız rəqəmlərə ötürə-ötürə 33-00-34-ü yığdı. Canlı təmasdan isinib cuşə gələn rəqəmlər indicə o başda çağırış himni çalmağa başlayacaqdı. Əvvəl Nazilənin özü pəncərədə görünəcək, sonra da dəstəkdə səsi eşidiləcəkdi. Telefonları pəncərənin qabağındaydı və Nazilə bu himnin kimin şərəfinə çalındığını biləcəkdi…

- Aloo?.. - Budu, bax!

Asifin ürəyi tez-tez, həyəcanla döyündü. Nəfəsini qısdı. Üstəlik dəstəyin səsötürən tərəfini əliynən bərk-bərk qapadı ki, ürəyinin guppultusunu Nazilə eşitməsin…

- Alo? Alo? Kimdi?.. - Bu lap uşaq oyununa bənzəyirdi.

Əvvəl telefon susdu, sonra da Nazilə pəncərədən uzaqlaşdı. Yox, uzaqlaşmamış pardənin qulağını qaldırıb şüşənin o tərəfindəki soyuq qaranlığa sarı boylandı, tez də çəkildi...

Asif isə dəstək qulağında donub qalmışdı. Daha bir səsin, hənirtinin tamarzısıydı…

* * *

Restoranın qabağında dayandı. Bura necə gəlib çıxdığından xəbəri olmamışdı. Pəncərələrdəki tül pərdələrin o üzündə, gur işıqda ora-bura hərəkət edən qaraltılara baxdı. İkinci mərtəbədə çalınan musiqi döşəməyə dəyən ayaq, gülüş səslərinə qarışmışdı. Külək bu səsləri, yeməklərin iştahaçan qoxusunu qabağına qatıb gecənin qaranlığında harasa uzaqlara yayırdı. Bu saat orda, yuxarıda başqa, tamam özgə bir həyat yaşanırdı. Bütün qəm-qüssədən, qayğıdan azad yeyib-içir, çalıb-oynayırdılar. Nə bayırdakı şaxta, qar-qiyamat

veclərinəydi, nə də Asif adlı adamın bu axşam şəhərin küçələri ilə ürəyinin başında gəzdirdiyi daş kimi əzablardan xəbərdardılar…

Qapını çiyni ilə yavaşca itələyib içəri girdi. Dayanıb ətrafa göz gəzdirdi. Burda hər şey ona tanışdı. Kimi soyunur, kimi güzgülənir, kimi tualetin ağzında gəzişərək siqaretini tüstülədirdi…

Asılqana yaxınlaşdı. Bu da Kərim kişi, onun qeyri-adi, zəhmli baxışları, o baxışları daha da tündləşdirən lopa bığları, qalın qaşları…

Duruxdu. Ağlına da gəlməzdi ki, bu axşam onunla burda yenidən rastlaşacaq. Qayıtmağı şəstinə, qüruruna sığışdırmadı. Dünyada Kərim kişinin baxışlarından çəkinib qorxduğunu heç nədən qorxmurdu. Niyə, nə təhər baxışlardı, təkcə onunmu qənimiydi, bilmirdi. Ac toyuq yuxusunda darı görən kimi həbsxana divarları arasında, yuxularında tez-tez bu restoranı görərdi. Görərdi dostlarını başına yığıb əvvəlki kimi kef partladır. Ancaq qəribəydi ki, həmin yuxularında dəm vaxtlarındakı kimi nə Kərim kişi gözünə görünərdi, nə də o zəhmli baxışları. Yəqin onların özünün də ehtiyatlandığı, qıraq gəzib dolandığı şeylər vardı…

Asif indi, iki il həbsxanada yatıb qayıtdıqdan sonra da həmin baxışların altında əzilə-əzilə paltosunu Kərim kişiyə uzatdı. Həm də çalışdı ki, onunla göz-gözə gəlməsin.

Kərim kişi dinməz-söyləməz paltosunu aparıb paltarasılandan asdı. Üstündə ″36″ rəqəmi yazılmış dəyirmi, yastı alüminum lövhəni gətirib ona verdi. Asif nömrəni alan kimi dərhal çönüb uzaqlaşdı. Pillələri tələm-tələsik yuxarı qalxdı. ″Yaxşı ki, tanımadı…″

Nəzərləri uzaq küncdəki stola sancıldı. Bir zaman haçan gəlir gəlsin həmin stol boş olardı. Restoranın müdirindən tutmuş qapıçısınacan hamı bilərdi ki, o yer Asifindi. Harda olur-olsun başının dəstəsi ilə bu saat qapıdan girəcək. Gəlməyəndə axıracan düzülü qalardı. Sabahısı Asif bu sayğını, hörmət-izzəti əvəzsiz qoymazdı. İndi həmin stolda başqaları əyləşmişdi. Onu unutmuşdular…

Boş stol tapmayıb yaxınlıqdakı iki gəncə yanaşdı.

- Yanınızda olarmı?..

- Buyurun, buyurun…

Əyləşən kimi xörəkpaylayan qız özünü yetirdi. Saçlarına taxdığı kruceva kimi ağappaq, tərtəmiz önlüyünün cibindən qələmini, dəftərçəsini çıxardıb sifarişi yazdı…

Asif onu tanımadı. Yəqin təzəydi. Cavanlar həddən artıq gödək geyinmiş bu qızın arxasınca acgözlüklə, yana-yana baxıb pıçıldaşdılar: ″Gözəl candı, haa…″

Görkəmləri sadəydi. Qurtum-qurtum qırmızı çaxır içirdilər. Yedikləri də fərli bir şey deyildi.

Orkestr çalmağa başlayanda qalxıb qabaqcadan him-cimləşib gözaltıladıqları qızlara yanaşdılar. Nə dedilərsə, qızlar bir-birinin üzünə baxıb gülə-gülə əzilib-büzüldülər. Naz-qəmzəylə ayağa qalxıb ortalıqda rəqs edənlərə qarışdılar…

Asif badəsini konyakla doldurub içdi. Köhnə zamanlarda olduğu kimi dilim-dilim doğranmış duzlu xiyardan birini şokala-dsayağı dişlədi. Aclıqdan çıxıbmış kimi soyuq yemək-içməyə dö-ləcidi…

Qızları ötürüb qayıdan cavanlar bir neçə dəqiqəlik xoş təmasın, yaxınlığın təsiri altındaydılar.

- Uşaqlar, bəlkə birlikdə vuraq, hə?.. - Təklif etdi. - Tək getmir, ürəyimə yatmır…

Yüngülvari tanış oldular. Asif daha bir incə qonaqpərvərlik təklifiynən onların da badələrinə konyak süzdü. Tək içdiyi ikinci badədən sonra başı dumanlanmışdı. Halbuki əvvəllər içki onu gec götürərdi. Gör nə vaxtdı içmirdi…

-Bunu şəxsən sizin sağlığınıza içirəm. Dediniz, hansı institutda oxuyursunuz? Eh, bir də nə mənası? Tələbəsiniz, vəssalam. Bəxtəvərsiniz. Haçansa mən də… Nə isə… Bircə xahişim var, necə bir böyük qardaş kimi. Uzaq gəzin bu bər-bəzəkli, gurultulu restoranlardan. Bataqlıq kimi sizi də təkinə çəkər…-İlahi, bu nə sərsəmlikdi? Elə bircə öyüd-nəsihət verməyi çatmırdı!..

Sözünü tamamlamadan badəsini birnəfəsə boşaltdı. Cavanlar dodaqlarında təbəssüm mənalı-mənalı baxışdılar…

Başını əlləri arasına alaraq stola dirsəkləndi. Oynayanlar sanki parket üzərində deyil, havada süzürdülər. Həm də ağ tülə, dumana bürünərək tədricən ondan uzaqlaşırdılar…

Birdən orkestr susdu. Araya çökən sükut həbsxana günləri qədər uzandı. Asifə elə gəldi ki, oturanlar indicə durub dağılışacaqlar. Təklikdən yaman qorxdu. Qalxıb müqəvva kimi yellənə-yellənə çalğıçılara yaxınlaşdı. Cibindən çıxartdığı dolları onlara tərəf vızıldatdı.

- Qaytağı!..

Çalğıçılar çalmaq əvəzinə dayanıb key-key Asifin üzünə tamaşa etdilər.

- Çalsanız, gözünüzü niyə bərəltmisiniz?. - Bərkdən, var səsilə bağırdı.

Asifi tanımışdılar. Birdən peyda olması birdən yoxa çıxması kimi onları bərk çaşdırmışdı. Bir vaxtlar yolunu çox gözləmiş, sifarişsiz-filansız çox ″Qaytağı″ çalıb-çağırmış, onu haraylamışdılar. Oturanların səs-küyü, çəpiyi, fiti altında Asifin od parçası kimi ortaya atılması onları cuşə gətirərdi. Oynayanda əl-ayağını görməzdin…

Orkestr nəfəsini dərib yeni bir həvəslə gurladı. ″Qaytağı″ bütün restoranı titrədərək ikiillik bir yuxudan oyatdı. Asif qol götürüb ortaya atılmaq, oynamaq əvəzinə təəccüb dolu baxışlar altında geri qayıtdı. Yemək-içməyinin pulunu artıqlaması ilə ödəyərək siqaretini, alışqanını götürüb aşağı düşdü…

Kərim kişi başını bulaya-bulaya paltosunu gətirdi.

- Görən kimi paltondan tanıdım səni, Asif. Asılqanımda bəlkə sənin əynindəkindən də çox olub. Amma inanmaq istəmirdim. ″Qaytağı″nı eşidəndə şübhəm qalmadı. Bildim ki, bu sənsən, qayıtmısan…

- Gəl səni öpüm, Kərim kişi, vallah, billah, ağıllı kişisən…

Asif səndələyə-səndələyə onu qucaqlayıb marçıltıynan öpdü. İlahi! Bəs hanı bir saat öncə onu uşaq kimi qorxudan, əzən müdhiş baxışları?..

Kərim kişi Asifi özündən birtəhər araladı.

- Yox, heç ağıllanmamısan, heyf zəndimdən. Həminki daşsan, həminki də dübək. Nə itirmisən axı bu xarabada?..

- Çox şey, Kərim kişi, çox şey …

- Tapdınmı?.. - Kərim kişi istehza ilə qımışdı.

Asif cavab verməyə macal tapmadı. Güzgünün qabağına çatanda elə bil onu ilan çaldı.

- Yox, yalandı! Vallah, yalandı! - Birdən vəhşi kimi bağırdı. - Mən hələ o qədər içməmişəm ki, adam balası kimi dayana bilməyim. - Sübut üçün ayaqlarını bərkdən yerə döydü. - Hə, eşitdin? Eşitdin tappıltısını? Gördün ayaqlarım üstündə dayanmışam?..

Havalı kimi qəhqəh çəkib güldü. İçəndə bu güzgüdəki əksi onun gözünə nəsə bir cür, baş-ayaq görünərdi…

Qolları qırılmış quş qanadı kimi yanına düşdü. Üşüyürmüş kimi əllərini cibinə salıb yazıq bir körkəm aldı. ″Səni yaxşı tanıyıram, dost, tərssən. Kor tutduğunu buraxmayan kimi əvvəllər də bu xarabadan çıxanda məni beləcə məsxərəyə qoyardın. Deyirdim, daha unudarsan. Yamanca kinli şeysənmiş …″

Bir dəfə Asif güzgünü çilik-çilik etmək istəmişdi.

- Kərim kişi …

- Nədi, oğlum?..

- Bu güzgünü qıracağam.

- Niyə, səni pis göstərir?

- Məsələ də ondadı ki, pis göstərir…

Kərim kişi məşhur, məlum bir məsəli xatırlatmışdı. O da güzgünü qırmamış, uşaq kimi hədələmişdi. Xeyri olmayanda dil tökmüş, yalvarıb-yaxarmışdı: ″Ay zalım, insaf elə, barı bircə dəfə məni ayaq üstə, adam balası kimi göstər …″

* * *

Qapını saymazyana buraxdığına görə arxasınca bərkdən çırpıldı.

Bayırda sazaqdı. Bakı küləyini əlində siyirməqılınc edən qış qar dənələrini qırma kimi adamın üz-gözünə, açıq yerlərinə çiləyirdi…

Əl-ələ verib restorandan çıxan oğlanla qız qar-buz üzərində sürüşə-sürüşə Asifin yanından yel kimi ötdülər. Az qaldılar toxunub onu yerə sərsinlər. Qız birdən müvazinətini itirdi. Cikkə çəkərək dartıb oğlanı da yıxdı. Qırma kimi səpələyən qara, çovğuna əhəmiyyət vermədən yolun ortasında qucaqlaşıb uzun-uzadı öpüşdülər. Sonra qız ovcundakı qarı oğlanın üzünə atıb qaçdı. Oğlan

da dalınca. Şən qəhqəhələri Asifin qulaqlarında qaldı. Bəlkə də bunlar illərin arxasından eşidilən öz gəncliyinin qəhqəhələriydi…

* * *

Balaca bir budka qondarmışdı. Ərzaq şeyləri satırdı. Hər səhər işə gedib-gəldiyi küçədə rastlaşdığı adamların əksəriyyətini üzdən tanıyır, hansı tində kimdən sonra qarşılaşacağını əzbərdən bilirdi. Yay-qış çətir gəzdirən rus qarısı, yanından ötəndə sir-sifətinə yaxdığı boyanın iyindən burnunu tutduğu parikli qadın, bığ yeri təzəcə tərləyən məktəbli oğlan… Hansı ki, ikinci mərtəbənin balkonu altında dayanıb sarışın qızı gözləyərdi. O da məktəbli formasını, yaxud önlüyünü düzəldə-düzəldə özünü göstərib ikicə kəlmə:

- İkram! Gəlirəm!.. - deyər, gülümsəyərək yenidən qapı arxasında yox olardı.

Məhəbbətlə ona tərəf boylanan İkram həmin sözləri tükənən səbrinə calayar, bu möhnətə dözərdi…

Yolunun üstündə bir söyüd ağacı bitmişdi. Tağ kimi səkinin bu tərəfindən o tərəfinə uzanaraq daş barıya dirsəklənib qadağa, qoruq-qaytaq bilmədən qonşu həyətə boylanırdı. Günlərin bir günü tələsdiyindən həmin söyüd ağacının altında azca qala qəşəng bir qızla toqquşacaqdı. Saçları çiyinlərinə dağılmış, sol yanağında gözləri tək qapqara xalı, çənəsində də balaca bir çapığı vardı. Qız gülümsəyrək kənara çəkildi:

- Keçin, keçin…

Özünü birtəhər düzəldən Asif tez etiraz etdi:

- Yox, nə danışırsınız? Əvvəlcə siz keçin!..

Qız göz qapaqlarını endirdi, qaldı o gözlərin içində.

- Sağ olun!. - Məlahətli bir səslə təşəkkürünü bildirib keçdi.

Sehrlənmiş kimi dayanıb qızın arxasınca xeyli baxdı. Qız da gedə-gedə arabir çönüb uzaqdan ona sarı boylanırdı…

Beləcə, həmin gündən o küçədə rastlaşdığı adamların siyahısına daha bir nəfər də əlavə olundu. Hər səhər söyüd ağacının bir tərəfində Asif dayanardı, bir tərəfində qız. Salamlaşardılar. Eyni qaydada!..

- Sabahın xeyir!..

- Sabahın xeyir!.. - Hər dəfə də birinci qız ona yol verərdi. - Buyurun, keçin!..

- Yox, yox! Siz keçin! - Asif heç cür razılaşmazdı…

Vəssalam! Bu görüş yazıçı qələmindən çıxmış və dəyişdirilməsinə qadağa qoyulmuş teatr səhnəciyinə oxşayırdı. Eyni sözlərlə başlayır, eyni sözlərlə də qurtarırdı. Nə bir kəlmə artıq, nə bir kəlmə əskik! Amma Asif çox istəyirdi ki, münasibətləri dəyişsin, ürəyincə olan məcraya yönəlsin…

Hər necə olsa yeknəsək görüşlər Asifi usandırdı. Fikirləşdi ki, işlər başı hamısı özüdü. Ortada heç bir hiss-filan yoxdu. Hətta belə şeylər qızın qulağına da girmir. Bəlkə ürəyində ona gülür də...

Yolunu, yaxud o söyüd əyrisinin altından keçdiyi vaxtı bir balaca o tərəf-bu tərəfə dəyişməklə qızı sınamaq fikrinə düşdü. Evdən gec çıxdı. Yol uzunu isə ürəyi əsə-əsə öz-özünə elə hey deyirdi: ″Kaş o da gecikəydi …″

Söyüd ağacına çatmamış uzaqdan orada kiminsə dayandığını gördü. Bu, o idi! Saatına baxırdı. Ondan yana nigarandı. Asifi ürəkləndirən də elə bu oldu…

- Bəlkə tanış olaq? Mənim adım Asifdi… - Bu sözləri birnəfəsə dedi.

- Adını hər yoldan ötənə deyirsən?..

Başa düşmədi. Bu nə deməkdi? Bəlkə rişxənddi? Yəni nə əcəb özündə təpər tapıb tilsimi qıra bildin?..

- Sən artıq mənim üçün hər yoldan ötən deyilsən!.. - Necə var, onu dedi.

- Mənim də adım Naziləddi!.. - Qız da ciddiləşdi…

* * *

Nazilə texnikumu qurtarıb işləməyə başlayanda yolları kimi görüş qaydaları da dəyişdi. Söyüd əyrisinə küsüşəndən-küsüşənə pənah gətirərdilər, barışmaq üçün. Küsüşmək də, necə deyərlər, əllərindəydi. Nə çoxdu söz-söhbət. Evlənəndən sonra da bu ənənə qalırdı. Əyişən günün sabahı bir də görürdün hərəsi bir tərəfdən çıxdı. Elə burdaca, ötüb-keçənlərin təəccüblü baxışları altında qucaqlaşıb öpüşər, əl-ələ tutub gülə-gülə yollarına düzələrdilər…

Asif bayaqdan bəri söyüd ağacının altında (xatirələrin axarında) təmtək dayanmışdı. İliyinə işləyən soyuq, boyun-boğazına dolan qar vecinə də deyildi. Son dəfə burda neçə ay əvvəl həbsxanadan buraxılanda (günahının bir hissəsini bağışlamış, amnistiyaya

salmışdılar) olmuşdu. Əlində balaca çamadan taksiyə əyləşib birbaş bura sürdürmüşdü. Düzdü, sürücü tündməcaz, ətiacı adam çıxmışdı. Az qalmışdı qanqaralığı salıb ovqatını tamam korlasın…

- Bura bax, xalası göyçək, bu dar küçələri, döngələri boş-boşuna hələ çox dolanacağıq?..

Bilməmişdi nə cavab versin. Küçəni dəyişik salmışdı.

- Odu, o söyüd ağacının yanında saxlayarsan. - İrəlidə söyüd ağacını görəndə uşaq kimi sevinmişdi…

Könlünü almaq mənasında sürücünün haqqını artıqlamasıynan ödəyib gözləmişdi ki, çıxıb getsin. Lakin maşını yerindən tərpədib yavaş-yavaş uzaqlaşınca daş daşı kəsmişdi. Güzgüdə şübhəylə onu güdürdü…

Günün ikinci yarısıydı. Söyüd ağacının altında dayanıb küçənin bir aşağısına baxmışdı, bir yuxarısına. Bürküydü, hər nəydisə küçədə gediş-gəliş seyrəkdi…

Söyüd ağacı yaralanmışdı. Yolsalanların səhlənkarlığı göz qabağındaydı. Asfalt döşəyəndə qırbasan maşın toxunub gövdəsini zədələmişdi…

Nabələd küçədə azmış qərib müsafir kimi dayanıb qəlbinin dərinliklərində ilahi bir möcüzə, nağıl arzulamışdı. Lakin nağıl çin olmamışdı. Özünə təskinlik vermişdi ki, Nazilə onun azadlığa buraxılmasından xəbərsizdi. Daha üç gün bura ayaq döymüşdü…

Asif unutmuşdu ki, müqəddəs ənənəni birinci özü pozub. Nazilə axırıncı dəfə acıq eləyib atası evinə dönən günün səhəri bu söyüd ağacının altında gözlərində yaş Asifi çox gözləmişdi. And içmişdi ki, Asif gəlib çıxsa, ağır da olsa günahından keçəcək, gəlməmişdi…

* * *

- Anam səni görmək istəyir, Nazilə… - Bir gün Asif bəyan etdi.

- Neynir axı məni?.. - Nazilə gülməli şəkildə soruşdu.

- Eh, guya bilmirsən?.. - Asif birtəhər başa saldı.

- Həə?.. - Nazilə səsini uzadaraq fikrə getdi. - Evdə hamısını danışmısan?..

Asif başını tərpətməklə təsdiqlədi.

- Nə vaxt gedirik?..

- Hara?.. - Nazilə soruşdu.

- Bizə də… - Asif tıncıxdı. - Bayaqdan nə haqqında danışırıq?..
- Bəlkə tezdi?.. - Nazilə barmaqlarını sındırdı.
- Tez, ya gec, bir gün səni görməlidimi?..
- Görməsə olmaz?.. - Nazilə məzələndi.
- Olsaydı, deməzdim ki!
- Qorxuram axı... - Nazilə nazlandı.
- Nədən?..
- Birdən anan məni bəyənmədi?..
- Bəyənər, zövqünə bələdəm.
- Demisən, nətəər qızam? Ay allah, kaş məni tərifləyəndə kənardan eşidəydim…
- Nə bilirsən tərifləmişəm?..
- Tərifləməsəydin uzaqdan-uzağa bəyənməzdi ki... - Nazilə bic-bic göz vurdu.
Asifə elə gəlirdi Nazilə tez razılaşacaq.
- Bir az döz, mən də anama sənin haqqında danışım, sonra…
- Nazilə, yoxsa evdən arxayın deyilsən?.. - Asif şübhələndi.
- Nə sarıdan?.. - Nazilə başa düşmədi.
- Deyirəm, birdən valideynlərinin başqa fikri olar, məndən gizlədərsən.
Asif qaralandığını yenə tam dilinə gətirmədi.
- Başqasını gözaltılayar, məni sənə verməzlər, hə?.. - Nazilə daha cəsarətliydi.
- Hə də…
- İndi hansı zamandı, Asif?..
- Kimdi zamanla hesablaşan?
- Ciddi sözündü?.. - Nazilə küçənin ortasında qolunu Asifin boynuna doladı. - Sənə verməzlər, başqasına da getmərəm!..
- Burda mənim xeyrim nədi?..
- Doğrudan da!.. - Nazilə bərkdən güldü. - Eh, məsəlçün, deyirəm də. Valideynlərimdən arxayınam. Xüsusən anamdan. Mənim istəyimə qarşı çıxmaz…

* * *

- Asif, yaxşı bir şəklin var?.. - Neçə gündən sonra Nazilə soruşdu.
- Neynirsən?..

- Anama göstərəcəyəm.

- Söz açmısan?.. - Asif həyəcanlandı.

- Hə, dünən axşam...

- Yəqin məni tərifləmisən, hə?.. - Naziləyə sataşdı.

- Əlbəttə! Dedim, elə təkcə kiloluq armud boyda burnunu görsəniz bəsdi, bəyənəcəksiniz.

- İşlərim düzəlib ki. - Asif burnunu əlləşdirdi. - Doğrudan armuda oxşayır?..

- Şübhən var?..

- Sən canın, güzgünü çıxart, burnuma baxcağam…

Nazilə yalandan sumkasını axtardı. Dedi ki, güzgüsü evdə qalıb...

* * *

Asif axşam köhnə şəkillərini töküb-töküşdürdü. Ürəyinə yatanı olmadı. Naziləyə elə belə də dedi. Birlikdə yaxınlıqdakı foto-atelyeyə getdilər. Şəkilçəkən onları peşə marağıynan başdan ayağa süzüb təxminini bildirdi:

- Qoşa çəkdirəcəksiniz?.. - Bu, Asifin ağlına heç gəlməmişdi.

- Yox … - Nazilə o saat geri dartındı.

- Doğrudan, bəlkə bir yerdə çəkdirək, Nazilə?.. - Güzgünün qabağına keçən Asif dayandı.

- Sonra, sonra… - Nazilə tələsdirdi.

Dönə-dönə Asifin saçının durumuna, əyin-başının səliqə-sahmanına əl gəzdirdi. Hətta şəkilçəkəndən qalstuk tapıb boynuna bağladı…

Şəkil yaxşı alınmadı. Nə Nazilənin xoşuna gəldi, nə də Asifin. Gözünün biri qıyıq düşmüşdü. O saat nəzərə çarpırdı. Təzədən çəkdirməliydi. Tərslikdən axşam saçlarını dibindən qırxdırmışdı. Hər yay havalar qızanda məhəllənin oğlanları sözləşib bir nəfər kimi dazlaşardılar. Asif bu il Naziləyə görə nə qədər üz vurmuş, yaxasını kənara dartmışdısa güzəştə getməmiş, ″sıradan qalan qoturdu″, deyib durmuşdular.

- Eybi yox... - Nazilə çıxış yolu tapdı. - Deyərəm, həm də idmançıdı. Saç saxlamağa qoymurlar. Belə də, yalandan…- Asif boy-buxundan, həqiqətən, idmançıya oxşayırdı.

Başqa bir çətinlik də ortaya çıxdı. İstiyə görə qısaqol köynək geyinmişdi. Şəkilçəkən dirəndi ki, yaxşı şəkil üçün hökmən pencək lazımdı. Axırda öz pencəyini zor-güc Asifin əyninə keçirtdi.

- Axı yekədi, lort durur... - Asif şəkilçəkənə şişmanlığını xatırlatdı.

- Dayan bir baxım… - Foks göstərirmiş kimi Asifi stulda o tərəf-bu tərəfə döndərdi. - Məncə o qədər bilinmir. Şəkildə heç fərq verməyəcək…

Birinci şəkil ikincinin yanında muştuluqdu. Başı iri, şişman gövdəsinin üzərində fındıq boyda görünürdü. Şəkilçəkən səhvini qayçının köməyi ilə düzəltmək istədi. Doğrayıb tökdü, neynədisə şəkillər bir şeyə yaramadı. Elə oradaca qoyub çıxdılar…

* * *

Nazilənin atası Asifin peşəsini, iş-gücünü bəyənmədi. Dükan, satıcı sözünü eşidəndə yalançı sözü, dilxorçuluqdan bığını yoldu. Ciddi kişiydi. Hər adam hər saat sözünün qabağına söz qoymazdı. Məktəbdə müəllimli-şagirdli hamı başına and içirdi. Di gəl…

- Nədi, kişi, - arvadı hücuma keçdi, - sənin sözünlə hamı müəllim olmalıdı? Ölkə ticarətə, bazar iqtisadiyyatına can atır, sən də başlamısan... Satıcının nəyi pisdi? Əli həmişə pulla oynayır...

Belə ciddi, zəhmli adamı arvadı çənəsinin altına salıb muma döndərdi.

Asifin əmisi (arvadları yaxşı tanıyırdı) şirniiçdi, "hə" axşamı boynunu büküb məzlum-məzlum arvadlardan bir işarə gözləyən kişilərə baxıb dedi:

- Qardaşlar, yoldaşlar, nəyi gözləyirsiniz? Onsuz da arvadlar çoxdan alışıb-verişiblər. Bizlik bir iş qalıbsa, o da yeyib-içməkdi. Havayıdan çay-çörəyinizi soyutmayın…

Yeri al-dəyişik düşən qız evinin kişiləri:

- Düz sözə zaval yoxdu, - deyib hərəkətə gəldilər.

* * *

Nigahkəsdirmə otağı həyət evlərinin əhatəsində, birmərtəbəli, görkəmsiz bir binadaydı. Müdirə xanımın dəvətilə içəri təzə keçmişdilər. Hardansa caydaq, bazburtlu bir xoruz şappadanxeyir özünü ortalığa atdı. Əl çalırmış kimi qanadlarını şappıldadaraq iri

addımlarla təkəş-təkəş o tərəf bu tərəfə gərdiş etməyə başladı. Qız-gəlin pıqqapıq, xısın-xısın güldü.

- Hə, nədi, nə istəyirsən, ay allahın heyvanı?.. - Müdirə xanım əlini yellətməklə onu qovmağa çalışdı. - Kiş, kiş!..

- Qaqqaq-qaq!.. - Xoruz  pərtdə gözlərini bərəldib döyükdü.

- İşiniz olmasın, bəlkə təbrikə gəlib?.. - Kimsə söz atdı.

Qapıda on yaşlarında bir oğlan uşağı göründü. Qoltuğunda da kök, bədheybət bir toyuq.

Oğlan tünlüyün zəhmi altında özünü itirdi. Bilmədi irəli keçsin, yoxsa qayıdıb bayıra  çıxsın.

- Nədi, qaqaş, nə istəyirsən?.. - Müdirə bu dəfə oğlana tərəf döndü.

- Heç… - Oğlan gülümsəyərək çiynini dartdı. Amma bir gözü ortalıqda təkəş-təkəş fırlanan xoruzdaydı.

- Heç, bəs nəəzirsən?..

- Xoruzumu aparmağa gəlmişəm...

- Belə de də, sənindi?..

- Həə…

- Bəs niyə qaçır?..

- Toyuğu döyürdü. Təpindim, qaçıb girdi bura…

- Kişidi də, - müdirə xanım dodaqaltı qımışdı.

- Bığı da var… - Kimsə əlavə etdi.

- Hanı, yoxdu axı… - Oğlan sadəlövhlüklə güldü. - Atam təzə alıb…

- Toyuğu ya xoruzu?..

- Toyuğu...

- Bunu bayaqdan de də. Döymürmüş, ay qaqaş, tanış olurmuş. - Asifin əmisi burda da farağat durmadı. - Girəvədi, bəri elə, müdirə xanım onların da kəbinini kəssin. Xərci mənim boynuma…

* * *

Tini buruldu. Qarşıdakı Asifgilin binasıydı.

Yolun qırağında, ağappaq qarın içində kalafaya oxşar bir şey qaralırdı. Bu, istilik sistemi keçən lyukun ağzına qoyulmuş çuqun lövhəydi. Zolaqlı bir pişik yumaq kimi büzüşərək onun üstündə şöngümüşdü. Asif yaxınlaşanda yazıq-yazıq, məzlum-məzlum miyoldadı.

- Miyo… miyo… - Asif bilmədi bu adi ehtiyat tədbiridi, yoxsa nəsə bir umacağı  var.

Əhəmiyyət vermədi. Saymazyana qıyqacı bir nəzər salıb ötdü. Bir neçə addım atmış nə fikirləşdisə dayandı. Geri döndü. Pişik öz aləmində bu qayıdışı necə qiymətləndirdisə bayaqkı kimi təzədən tənbəl-tənbəl miyoldadı.

Asif əyilib ustufca toxundu. Tüklərini sığalladı. Pişik tərpənmədi. Xoşhallanaraq gözlərini yumdu. Deyəsən, insan nəvazişinə biganə deyildi.

Asif ürəklənərək pişiyi tutmaq istədi. O son anda əlinin altından sivişib qar üzərində iz sala-sala uzaqlaşdı.

Asif heyvanı yerindən elədiyinə peşiman oldu. Çuqun lövhə istiydi. İçəridə truba zədələnmişdi-nəydisə ordan qalxan buxar altdan qızdırırdı. Qar dənəcikləri üstünə düşən kimi əriyib suya dönürdü.

″Sənin azarın-çorun nədi, ay allahın heyvanı? Bu qar-qiyamatda niyə küçədəsən? Səni kim incidib isti yuvandan didərgin salıb? Yoxsa yaranmışından nəsibin səfillikdi? Bəlkə küçədə, xarabalıqda doğub-törəmiş, böyümüsən? Elədisə, sənin halın mənimkindən yaxşıdı. Hər şeyə qane, dərdin-odun az… Çox da mənim başımı soxmağa isti komam, bir parça çörəyim var…″

Asif gedə-gedə fikirləşirdi.

″Səni evə aparar, yedizdirib-içizdirərdim. Amma, vallah, bu sənin xeyrinə yox, ziyanınadı. Əkilməkdə ağıllı tərpəndin. Mənim dərdim çox, behim-bazarım yoxdu. Bir də gördün heç nədən hirslənib özümdən çıxdım. Qovdum səni iti qovan kimi. Hələ kötəkləməsəm yaxşıdı. Mehrini mənə salandan, rahatlığa öyrəşəndən sonra di gəl küçədə təzədən yaşa görüm necə yaşayırsan. Yox, sən allah, sən tanrı, incimə məndən. Durduğum yerdə daha bir günaha batırma məni. Onsuz da günahlarım xirtdəyəcəndi…″

* * *

İşığı yandırdı. Hər tərəfdə ümumi bir səliqəsizlik hökm sürürdü. Ortada üstü yığışdırılmamış yemək stolu, döşəmə tör-tökülü… Otaq suyu sovulmuş dəyirmana bənzəyirdi…

Yır-yığışla başını qatmaq istədi. Əlini bulayan kimi stəkanın birini salıb sındırdı. Nazilənin sözlərini xatırladı. ″Evdə şüşə qab

sınanda onun sayını mütləq üçə çatdırmaq lazımdır. Yoxsa bədbəxtlik baş verər…"

Şaqqanaq çəkib bərkdən, dəli kimi güldü. "Ha-haa!.. İslanmışın sudan nə qorxusu?.."

Handan-hana nə ağıl elədisə boşqabın birini qəsdən itələyib yerə saldı. Qırılmadı. Başqa birinə toxundu. O da üzə durdu, bir balaca çatladı. Əsəbləşərək qoluynan stolun üstünü başdan ayağa döşəməyə sivirdi. Sonra da qırılmış qab-qacağı saya-saya zibil vedrəsinə yığmağa başladı…

Badələrdən ikisi salamat qalmışdı. Yaxalayıb servanta qoydu. Yan-yana düzülmüş xurustal stəkanlardan birinin içində nəzərləri nəyəsə ilişdi. Ağzı üstə ovcuna çevirdi. Səksənlik mıxı görəndə dodağı qaçdı…

* * *

Qız evi Nazilənin cehizini gətirmişdi. Gəlin otağını bəzəyirdilər. Ağsaqqalları Nazilənin xalasıydı. Ağır işlərdə Asif də onlara əl tuturdu…

Anası o biri otaqda stol açmış, yemək-içmək hazırlamışdı.

- Qurtarırsınızmı, qızlar?.. - İşin axırında yaxınlaşdı.

- Azalmışıq...

Gəlin otağında ləngiyən Nazilənin xalası yumurtası tərs gəlmiş anac toyuq kimi ora-bura vurnuxurdu. Anasının dalınca çıxsa da Asifin fikri-zikri ondaydı. Nazilənin xalası aranı xəlvət bilib birdən qapının ağzında çömbəldi. Qoftasının altında gizlətdiyi çəkiclə mıxı çıxardıb tələm-tələsik girəcəkdəki ayaqaltı taxtaya çaldı. Sonra çəkici aparıb sumkasına basdı. Taqqıltıya dönən anası Asifin qolundan yapışıb arxasınca dartdı.

- Belə dur, işin yoxdu …

Anasının hərəkəti Asifi daha da şübhələndirdi.

Qonaqlar əllərini yuyub yemək-içməyə başları qarışanda Asif dözmədi, geri qayıtdı. Qapını açıb içəri keçdi. Girəcəkdəki taxtada təzəcə çalınmış mıxın papağı ağarırdı. Qonaqlar yığışıb gedəndən sonra onu anasına göstərdi.

- Bu nə deməkdi, ay ana?..

- Nə bilim, ay bala?.. - Anası güldü. - Köhnə adətlərdəndi. Arvadların oyunu, quramasıdı. Fikir vermə…

- Axı bir mənası olmalıdı ya yox?..

- Guya mismarla qızlarının taleyini bu evə bağlayır, bərkidirlər…

Yaxınlarcan mıx yerindəydi. Bir axşam gözünə nəsə bir cür dəydi, kəlbətini qapıb düşdü üstünə. Xeyli əlləşib-vuruşandan sonra neçə illik mıxı vecsiz diş kimi dartıb çıxartdı. Əvvəl zibil qutusuna atmaq istədi. Nə ağıl elədisə matah bir şey kimi (deyəsən, çıxartdığına peşimandı) silib servanta qoydu. Beyninin qurdu tərpənsəydi, indi də götürüb harasa fırıldadacaqdı. Bəlkə də əksinə, qaytarıb yerinə çalacaqdı, kim bilir…

Bu, Nazilənin xalası ilə bağlı baş verən yeganə macəra deyildi.

* * *

Toy gecəsi saat on iki, bəlkə bir az da artıqdı. Qonaqların ayağı tədricən çəkilmiş, ev-eşikdə hiss ediləcək seyrəklik, sakitlik yaranmışdı. Asifi axtarırdılar.

O, dostları, tay-tuşları ilə yeyib-içmiş, yaxşıca dəmlənmiş, neçə gündə toya hazırlıqla əlaqədar ora-bura qaçdığının əvəzini artıqlamasıynan çıxmışdı. Pis oydu ki, çox içəndə yuxu basırdı.

- Asif, hardasan?.. - Kimsə başını içəri soxub harayladı.

- Burdayam… - Tənbəl-tənbəl əsnədi.

- Təcili çıx üzə, bu tərəfə!

- Nədi, pacardı? Neynirsiniz məni?..

- Şorabaya basacaq, duza qoyacağıq. - Uşaqlar məzələnərək gülüşdülər. - Bilmirsən neynirik?..

- Başqası yoxdu?.. - Eyhamı anlamamışdı.

Necə uğundularsa barmaqlarını kəssəydin xəbər tutmazdılar.

- Ayə, ay zalım, başqası da var ey, - onu zorla bayıra dartdılar. - Tərslikdən bu iş sənlikdi də. - Üst-başını, saçlarını qaydaya salıb duxilədilər…

- Nədi, nə vurhavurdu?.. - Gözünü döydü. Hələ də heç nə anlamırdı.

- Dolama, yekə kişisən. Camaat səni gözləyir. - Tələsdirdilər.

- Kim?..

- İndi bilərsən.. - Uzun hazırlıq-filandan sonra dostları qapını aralayıb onu gəlin otağına itələdilər. - Kişi ol, adımızı batırma!.. - dedilər.

Nazilə ilə adi günlərdəki kimi görüşüb öpüşdülər. Balaca bir zarafatdan, laqqırtıdan sonra işığı söndürdülər, bir-birinə sarılaraq paltarlı-zadlı yıxılıb yatdılar. Necə deyərlər, Araz aşıqlarındandı, Kür topuqlarından…

Bir azdan taqqıltıya ayılan Nazilə Asifi silkələdi.

- Nədi, nə var?.. - Asif yuxulu-yuxulu soruşdu.

- Qapını döyürlər…

- Döysünlər də, yat ayna…

- Xalamgildi axı…

- Neynirlər ey?.. - Deyindi. - Qoymazlar də yataq …

Naziləni qucaqlayıb təzədən o biri üzü üstə çevrildi.

- Nazilə, eşidirsən?.. - Xalasının səsiydi. Qapının dalında asta-dan çağırırdı.

Nazilə xalasının (həm də yengəsiydi) tapşırıqlarını indicə xatırladı. İçəri girən kimi girəvələyib Asifin ayağını tapdalamalı, ilk gündəncə hökmranlığı ələ almalıydı. İşlərini görüb qurtardıqdan sonra işığı yandırmalı, Asifi bayıra çıxartmalıydı. Xalası da ″üzağlığını″ yığışdırıb bacısına muştuluğa qaçacaqdı. Qohum-əqrəbanın gözü yoldaydı. Aşağıda bununçün xüsusi maşın da dayanmışdı…

Nazilə ayağa qalxdı. Üst-başını düzəldib işığı yandırdı. Qorxa-qorxa qapını açıb maddım-maddım xalasının üzünə baxdı. Xalası heç nə ağlına gətirmədən qaş-gözlə onu tələsdirdi.

- Gecikirəm, gədəni bayıra çıxart, tez…

- Axı…

- Ağız, tez elə …

Nazilə dinməz-söyləməz qayıdıb Asifi durquzdu…

Səhərə yaxındı. Hava yavaş-yavaş işıqlanırdı.

- Nooldu, ə?..

- Oğlansan, qız?..

Dostları hərəsi bir tərəfdən Asifin üstünə töküldülər.

- Sən öl, yamanca yatmışdım… - O, yuxulu gözlərini ovub bərkdən əsnədi.

İçəri təpilən xalası yatağa cumdu. Əlini ilişdirib yorğanı kənara tulladı.

- Görək nə qələt qarışdırmısınız… - Döşəyin üstünə sərilmiş mələfəyə, ora-bura nəzər yetirdi. Günahkar kimi bir küncdə büzüşüb qalmış Naziləyə tərəf çönəndə rəngi-ruhu qaçdı. Həyəcanla:

- Nooldu, azz?.. Hanı bəs?..

- Nə?.. - Nazilə barmaqlarını sındıra-sındıra dodağının altında mızıldandı.

- Boy başıma xeyir!.. - Xalası əlini üzünə apardı. - Yatıb-durmamısınız, az?..

- Yatmışdıq…

- Nətəər yatmışdınız, aaz?.. Paltarlı-palazlı? - Lağca dedi.

- Həə… - Nazilə təsdiq mənasında başını tərpətdi.

- Gədə əl vurmadı, bala, sənə?.. - Bayaqdan qapının ağzında dayanıb onları müşahidə edən Asifin anası həyəcanla dilləndi. Qızın suçlu hərəkəti onu da qorxutmuşdu.

- Yoox… - Nazilə başını buladı.

- Neynirdiniz, aaz, bəs bu neçə saatı? - Xalası utanmaz-utanmaz ət tökdü.

Handan-hana, çox çək-çevirdən sonra məsələni anlayıb yüngüllüklə gülüşdülər…

* * *

Televizoru yandırıb kanalları qurdaladı. Döşünə yatan fərli bir şey tapmadı. Onunku futbol, ya da döyüş filmləriydi. Gündüzlər nisbətən asandı. İş-gücdə, orda-burda vaxtını keçirir, fikrini dağıdırdı. Dəhşət evə qayıdandaydı. Gecələr divarlar adamı məngənə kimi sıxırdı. Tənhalığın nə demək olduğunu dadmasan, bilməzsən. Nə yaxşı dünyada anasının şəkli vardı.

- Mənə niyə elə baxırsan, ana?..

- Soruşma, bala. Ürəyim səndən yana narahatdı.

- Niyə, ana?..

- Deyəsən, başında köhnə havalar dolaşır, bala?..

- Qurban olum, ana! Hardan bildin o xarabaya, o viranəyə ayaq basdığımı?..

- Başına dolanım, ay bala, mən həmişə səninləyəm. Allaha-tanrıya bax, ağlını başına top elə. Yurdunu-yuvanı təzədən soyutma…

Şəkillə danışmağı anasından öyrənmişdi. Canlı adamla danışırmış kimi bir vaxtlar ərinin şəkli ilə tez-tez danışardı. Asif ilk dəfə eşidəndə heyrətlənmişdi…

- Asifi evləndirmişəm, Firuz. Gözlərə bıçaq, bilirsən gəlinimiz necə qəşəngdi? Bircə qucağım nəvə də görsəydi. Deyirsən, nə yaşı vardı? Vallah, yekə kişidi, Firuz. Niyə özün hesabla də, o boyda institutda işləyirdin, adlı-sanlı geoloqdun. Neçə ildi qayadan uçub bizi yetim qoyduğun? On iki, eləmi? Asif də on yaşındaydı. Elədimi iyirmi iki? Eh, ay Firuz, illər tez ötür…

Anası ən xırda sevincini də ərinin şəkli ilə bölüşərdi.

- Muştuluğa gəlmişəm, Firuz. Baba olmusan ey, baba. Eşidirsən o tərəfdə çır-çır çığıranı? Nəvəmiz Firuzdu də. Bəs nə bilmişdin, sənin adını qoymuşam. Torpağın sanı yaşasın, demişəm adın itməsin…

- Nəvəmiz yeriyib-yüvürür, ay Firuz. Hələ dili əməlli söz tutmur, amma bax, "ana", "ata", "nənə" deyir. "Baba" da deyir, Firuz. O saat da soruşur, hanı baba? O günü şəklini göstərmişəm. Deyirəm, odey, baba. Kimə deyirsən? Baxır, baxır, qayıdır ki, ata, ata! Elə bilir atasının şəklidi. Uşaqda nə günah, ayırd etmək olur bəyəm?..

* * *

Firuzu uşaq bağçasına qoymaq istəyəndə Asifin anası daş atıb başını tutdu.

- Nə danışırsınız? Mən ölmüşəm bəyəm? Ordakılar uşağıma məndən yaxşı baxacaqlar?..

- Ay ana, sənə əziyyətdi axı. - Nazilə dedi. - Mən də bütün günü işdə…

- Ay qızım, nəvəmin əziyyətini çəkmək mənə xoşdu. Bir də işimin-gücümün adı nədi? Bayquş kimi axşamacan evdə tək oturmaqdan bezmişəm...

Razılaşdılar. Nənəsi hər gün Firuzu həyət-bacaya çıxardır, evin yanındakı parka gəzməyə aparırdı…

İki gündü zökəm olduğundan (burnu-başı axırdı) Firuzu özünə yaxın buraxmağa qorxurdu. Yaxşı ki, şənbə-bazardı, anası evdəydi. Amma iki gündə çöl-bayır üzü görməyən Firuz qəfəsə salınmış quş kimi darıxırdı. Axşamtərəfi Nazilənin ətəyini dartışdırıb zığıldamağa başladı…

- Nə istəyir, ay bala, uşaq?.. - Qayınanası soruşdu.

- Gəzməyi tutub…

- Nənən qurban, sağalım, sabah özüm aparacağam.

- Neyniyim, neyniyim, mən indi istəyirəm!.. - Uşaq kürlüyündən əl çəkmədi.

- Ay gəlin, çıxart bir hovur havada hərlə, özüyün də eynin açılsın. Nə qədər iş-ev, ev-iş olar?..

Nazilə saatı göstərib:

- Atasının dükandan qayıdan vaxtıdı, - dedi. - Yemək-içməyini verəndən sonra gedərik. Hə, Firuz, ağıllı?.. - Oğlunun başını sığalladı.

- Lap yaxşı, Asifi də özünüzə qoşun. - Qayınanası gəlininin fikrini bəyəndi.

Bu hayda qapı açıldı, Asif içəri girdi. Firuz şadlığından atılıb-düşdü.

- Atam gəldi, ay can, ay can!..

Asif əvvəl ərindi. Oğlu dirənəndə yumşaldı…

Firuz çatırışı parkın kənarındakı "filə" cumdu. Doğruçul fil boyda, dəmirdəndi. İri qulaqlarının arasından sallanan enli, dərin nov şəkilli uzun xortumunu belindən aşıraraq quyruq kimi arxasında yerə bərkitmişdilər. Quyruq həm də pilləkən rolunu oynayırdı. Uşaqlar itələşə-itələşə, çığırışa-çığırışa filin belinə çıxır, xortumu aşağı sürüşürdülər…

- Nazilə, qabaqda dayan, uşağı tut. - Asif yuxarıdan xəbərdarlıq etdi.

- Aaa!.. - Firuz oturulu vəziyyətdə, gülə-gülə əllərini yuxarı qaldıraraq anasının üstünə şığıdı…

Sürüşdükcə ləzzət eləyir, daha da qızışırdı.

- Firuz, imkan ver başqaları da sürüşsün!.. - Asif axırda yorulub özləri ilə götürdükləri alabəzək topu ortaya atdı. - Gəl indi də top-top oynayaq. Vur görüm, onnan yox, o biri ilə, sağ ayağınla…

Axırda bezib sərbəst buraxdılar. Nazilə ilə skamyada əyləşib həm Firuza göz qoyur, həm də ətrafda qaynaşan uşaqlara, yaxınlıqdan ötüb-keçənlərə tamaşa edirdilər.

- Asif, Asif, bir o qızın yubkasına bax... - Nazilə Asifin qoluna toxundu. - Gör nə qədər gödəkdi. Üstəlik razrez də qoydurub…

Asif qızın arxasınca çox baxdı.

- Hayıl-mayıl oldun ki!..

- Vallah, gözəldi!.. - Heyranlığını gizlətmədi. - Düz, qəşəng də ayaqları var yanmışın. Beləsinə gödək yaraşır. Yəqin özü də bilir bunu…

- Şorgöz!.. - Nazilə yarızarafat Asifə bir dürtmə ilişdirdi.

- Eləmi?.. - Asif ona daha artıq sıxıldı. - Gəl onda belə eləyək, mən sənə baxım, sən də mənə… - Bu zaman gözü qeyri-ixtiyari bir qadının ayaqqabılarına sataşdı. Tez Nazilənin üzünü həmin tərəfə döndərdi. - Bu da təzə moddu? Ayaqqabısının biri dabanlıdı, biri dabansız…

- Dəlidi-nədi? - Nazilə pıqqıldadı. - Hələ bir rənginə bax, biri sarıdı, o biri qırmızı. Vallah, beş-altısı geyinsə moda minəcək…

Gözlənilmədən iri giləli yağış tökdü. Qara bulud xəbərsiz-ətərsiz başlarının üstünü almışdı. Parkı çığır-bağır bürüdü.

- Asif, tez ol uşağı götür, qaçdıq!..

Binaya çatanda əməlli-başlı islanmışdılar…

Bu, həyatlarında üçlükdə keçirdikləri ən yadda qalan günlərdən biriydi.

* * *

Uşaqlıqdan "Zaporocest" markalı maşının həvəsindəydi. Yaşa dolub imkanı artdıqca tay-tuşlarının yanında arzusunu dilə gətirməyə utanırdı. Heç "Ciquli"ni bəyənmirdilər…

Allahdan olan kimi tanışı, daha doğrusu, müştərilərindən biri gözlənilmədən "Zapı"sını (Asifin sözüydü) dil-fil tökərək götürdüyü malın əvəzinə ona sırıdı. Sərfəli olmağına sərfəliydi. Maşını dəyər-dəyməzinə, malları isə satış qiymətinə hesablamışdılar. Həm də malların hamısını birdən yox, yarı-yarı aparacaqdı…

Maşını binanın qabağında, görünən yerdə saxlayıb yuxarı qalxdı. Nazilənin qolundan yapışıb pəncərəyə tərəf çəkdi.

- Hara aparırsan məni? - Nazilə qolunu dartışdırdı.

- Maşın almışam, baxmaq istəmirsən?..

- Doğrudan?.. - Nazilənin o saat çiçəyi çırtladı. Sevincək pəncərədən aşağı boylandı. - Hanı bəs?..

- Düz bax ey, düz…

Pəncərə ilə üzbəüzdə "Zapı"ydı, bir qədər aralıda bir neçə təzə, yaraşıqlı "Ciquli" dayanmışdı. Nazilə gözünü onlara zilləmişdi.

- Ağ "Ciquli"di?..

- Hara baxırsan? Ora yox, "Zapı"dı ey!.. - Səbri bir tikə oldu.

- Nəə?.. - Nazilə ilan çalmış kimi sərt hərəkətlə geri döndü. - Sən allah, doğru sözündü?..

- "Zapı" maşın deyil?.. - Asifin həvəsi öldü. Səhərdən maşının altını, üstünü təmizlədib yudurtmuş, silib par-par parıldatmış, birbaş evə sürmüşdü ki, Naziləyə göstərsin.

- Səni biabır olasan, Asif! Yekə kişi utanmır hələ bir deyir, maşın almışam. - Nazilə düdüləyib tökdü. - Fikrin qonum-qonşunu, camaatı bizə güldürməkdi?..

- Niyə gülürlər? Atalar deyib, eşşəyi min, ata çatınca.

- Eşşəyi minməkdənsə minməmək, piyada gəzmək yaxşıdı. Kimsə xəbər tutmamış, dilə-dişə düşməmiş kimdən almısansa dinməz-söyləməz apar qaytar özünə. Ona yaxın da getmərəm!..

- Niyə axı?.. - Asif arvadının hikkəsini heç cür anlamırdı.

- Bir o qalmışdı padruqalarım məni "Zapı"da görsünlər… - Nazilə dedi.

- Noolu, özüm minnəm. Mən belə şeyləri man bilmirəm.

- Guya səni qoyacağam onu sürməyə? Gözünü yığ ondan!..

- Bəs neynim, malın yarısını aparıb axı?..

- Özün bilərsən, mənlik deyil!..

- Ayıbdı, Nazilə…

- Qaytar, yoxsa pis olacaq…

- Neyniyəcəksən?..

- Çıxıb gedəcəyəm dədəmin xarabasına…

- Elə buna görə?.. - Asif bərkdən güldü.

- Az işdi? Axı özünü niyə bu qədər əskik tutursan, Asif? Onun-bunun artığına, tullantısına qalmısan? Zabilənin (iş yoldaşıydı) idbar

əri ″Mersedes″də gəzsin, mənimki də ″Zapı″da?.. -Yalvarmağa başladı. - Qurban olum, ayaqlarının altında ölüm, Asif, noolar bircə dəfə də məni eşit…

* * *

Dərdi-səri rəfiqəsi Zabiləydi. Nə qədər ki, ayaqlaşa bilmirdi, daldada paxıllığını çəkir, qeybətini qırırdı. Asif bir balaca dirçələn, pullanan kimi onunla bəhsə girdi…

- Bilirsən bu gün kimi görmüşəm? - Asif əl-üzünü yuyub təzəcə əyləşmişdi ki, Nazilə başının üstünü kəsdirdi.

- Kimi?.. - Yalandan da olsa maraq göstərməsəydi, inciyəcəkdi.

- Zabilənin ərini.

- Nə böyük şeymiş!.. - Asif sancdı.

- Əlbəttə, səninçün heç nədi!.. - Adətinə rəğmən davam etdi. - Deyirdim, görəsən o qədər daş-qaşı alan kişi kimdi, necə adamdı? Şəxsiyyəti, vid-fasonu…

- Hə, nə oldu?..

- Eybəcərin, idbarın biriymiş!. - Turş alça yeyirmiş kimi üz-gözünü bürüşdürdü.

- Kişini kişi kimi göstərən qaralığı, kobudluğudu də, Nazilə. - Asif güldü. - İncə-mincə kişiyə də arvadyosun, deyirlər…

- Qara, kor-kobud başqa şeydi, eybəcər başqa. Ağzının cırımını görsəydin… - Əliynən göstərməyə çalışdı. - Ayıranda elə bilirsən begamotdu.

- İki daşın arasında ağzını niyə ayırmışdı? Dəyyus bəlkə səni qorxudurmuş?.. - Asif zarafatından qalmadı.

- Bah, allah vurmuşdu! Rolun dalında oturub əsnəyə-əsnəyə Zabiləni gözləyirdi.

- Nazilə, amma sözündən belə çıxır ki, heç Zabilə özü də bir şey deyil… - Asif onda hələ Zabiləni görməmişdi. Görəndən sonra Naziləyə haqq qazandırmış, hətta bir el məsəlini də dilinə gətirmişdi: ″meşədə armudun yaxşısı çaqqala qismət olur…″

- Allah var adamın üstündə, Asif, Zabilə qəşəngdi.

- Səndən də?.. - Asif məzəli şəkildə gözünü qıyıb sataşdı.

- Eh, mənim haram qəşəngdi?.. - Nazilə nazla əzilib-büzüldü.

- Yox, niyə, qəşəngliyinə lap qəşəngsən. Qəşəng olmasaydın, səni bəyənməzdim ki. Amma o zaman gözüm qamaşıb bircə eybini görməmişəm…

- O nədi elə?..

- Deyim yəni?..

- De…

- Qulaqların bir az yekədi, kişi qulaqlarına oxşayır…

- Özünə lağ elə! - Nazilə o saat qulaqlarını saçlarının arasında gizlətdi.

- Qəşəng qız idbar kişiyə ərə gedər? - Asif dedi. - Oğlan tapılmırdı?..

- Yazıq kasıb ailədə doğulub, itin zülmünü çəkib, Asif. Deyir də, deyir, çirkinliyini də görürdüm, məndən on beş yaş böyüklüyünü də bilirdim… - Nazilə arada sezdirmədən qulaqlarını əlləşdirdi. Vasvasıydı, yalan-gerçək hər deyiləni ürəyinə salırdı. - Fikirləşib ki, ömrünün qalanını adam balası kimi gen-bol yaşayar, ata-anasına əl tutar…

- Atalar məsəlidi, cavana gedən yumruq yeyər, qocaya gedən quyruq.

- Allah kəssin o cür quyruğu!

- Dildə hamınız elə deyirsiniz, ürəyinizdə isə …

- Yox, vallah! O cür olsan, səninlə küçəyə belə çıxmaram..

- Eh, pulsuz kişi də bir şey deyil… - Asif dərindən köksünü ötürdü. - İşinin-gücünün adı nədi onun?

- Adi qapıçı, nəzarətçidi. Zavodu çapıb-talayanlarla əlbirdi. Zabilənin deməsinə görə, zır savadsızdı. Amma pul saymağı bacarır…

- Müftə pulu saymağa nə var?

- Müftə pul olmur, Asif…

- Bir gün keçəcək qarmağa… - Bəlkə də Asif bu sözü paxıllığından dedi.

- Bicin kəlləsidi. Pulu termosa yığır...

- Necə yəni pulu termosa yığır?.. - Asif başa düşmədi.

- Evləri zavodun böyründədi. Tez-tez zəng vurur ki, arvad, gədəni göndər gəlib termosu aparsın…

- Termos nədi ey, çayxordu?..

- Yox, əşi, pulu deyir də. Termos kənardan baxanı azdırmaq üçündü. Bufetçi bir gün qayıdıb ki, Qasım dayı, ver termosunu doldurum, çaydan yana camaatı niyə kirinc eləmisən? Deyib yox, qadan alım, allergiyam var, yalnız arvadımın dəmlədiyi çayı içirəm…

- Soruşmaq ayıb olmasın, Nazilə, bunları sən hardan bilirsən?..

- Zabilə özü danışıb.

- Özgə yerdə ağzından qaçırma, Nazilə. - Asif ciddi dedi. -Hərləyib-fırlayıb bir gün kişini ilişdirər, tutarlar, şətəlin səndən keçdiyini düşünərlər...

- Sənə danışdığıma baxma, özgəsinə danışmaram...- Nazilə dedi. - Amma pis gəlin deyil, vallah, hamısı ürəyinin təmizliyindəndi. Söz düşəndə deyir, bacı canı, qızıllarım, briliyantlarım sənə qurbandı. Haçan xətrindi, xeyirdə-zadda, apar tax, bəzən, noolacaq, əti yeyilməyəcək ki… - Yeri gəlmişkən Asifin ağzını aradı.

- Özününkülər bəsindi, Nazilə, peşimançılıq olar.

- Eh, kaş anam məni kişi doğaydı… - Nazilə kələyinin keçmədiyini görüb yanıqlı-yanıqlı köks ötürdü.

- Danışdı də!.. İndiki kişilər arvad olmaq istəyir, bu da…

- Yerə soxum o cür kişiləri! Adları kişidi onların. Qeyrətləri, fərasətləri çatmır, dolanmırlar, ona görə. Qohumun Fərəcullaya bir bax…

* * *

Anası bu Fərəcullanı allahın bəlası adlandırır, tapşırırdı ki, ondan gen gəzib dolansın. Fərəculla özü Asifdən qopmurdu. "Qohumbala" deyib möhkəm yedəkləmişdi. Adətiydi, gələndə top-tüfənglə gələrdi.

- Tut görüm bu beşliyi, qohumbala, xırdası-zadı da lazım deyil... - Gündə neçə dəfə gəlsə hamısında əl uzadardı. - Xalam da yaxşıdımı? Ayə, yeri düşəndə məndən salam deyirsənmi arvada heç?.. Heyf, çox heyf, arası yoxdu də mənnən, bilmirəm neynəmişəm?..

Asif müştərini bəhanə edib üz göstərməsə də altdan-altdan Fərəcullaya göz qoyurdu. O, pəncərənin şüşəsində qalstukunu düzəldir, canfəşanlıqla keçəlini darayır (başının ortasında iki cüt, bir tək tük vardı), ac tülkü toyuq-cücəni marıtlayan kimi ötüb-keçən

qəşəng qız-gəlini marıtlayırdı. Elə ki, sərbəstlik yarandı başını içəri soxurdu.

- Qohumbala, qurumboş dükana nə vaxtacan qarovul çəkmək fikrindəsən? Özünə bir gün ağla, yazıqsan…

- Axı necə?..

- Ayə, pula gedən mal gətir yığ dükana... - Fərəculla bir-bir dəyərli, pula gedən malların adlarını sayırdı.

- Axı onları mən yazıq hardan tapım, hardan alım?.. - Asif mızıldanırdı. - O malların indiyəcən yalnız adını eşitmişəm.

- Bu tutuşla bundan belə də adını eşidib üzünü görməyəcəksən. - Fərəculla bığaltı təkəş-təkəş qımışırdı. - Tənbəl, fərasətsiz adamsan ey, qohumbala. Pulgətirən mal küçəyə tökülməyib. Adamını axtarıb tapmalı, əlaqə yaratmalısan.

- Saya salırlar ki?..

- Qaynayıb-qarışmırsan axı. Səninki qıraqdan-qırağa quru-quru salamməlikdi. Onlar da sənin salamməliyini alır, əvəzində salamməlik qaytarırlar. Ütül-dürtül, əl tut, görəcəksən sənin də əlini tutdular. - Fərəculla, necə deyərlər, bazar uşağıydı. Alverə su satmaqla başlamış, xırdavatla özünü tutmuşdu. İndi sifarişlə işləyirdi. Dubaydan belə su yolu eləmişdi…

- Boş-boşuna ütülüb-dürtülməkdən nə çıxar? Əsas maya-məskəndi, o da məndə yoxdu. - Asif özünə haqq qazandırırdı.

- Pulun, mayan yoxdu, ilanı yuvasından çıxardan dilin, qılığın olsun. Camaatın mağazasına nisyə malı gətirib tığnan yığırlar. İşiyin, dolanışığıyın xətrinə erməniyə ″dayı″ deməklə xançalıyın qaşı düşəcək? - Asif ağzını doldurdu ki, desin, elə erməniyə ″dayı″ deyə-deyə mindirdik də boynumuza, gecikdi. – Əlinə su tökməyə yaramayanlar dünyanı qazanır, sən də lay divar kimi oğlan, ömrünü yelə verirsən. Vicdan haqqı, yandığımdan danışıram. Ayə, hər nəsən, qohumbalasan, ətini yesəm də, sümüyünü çölə atmaram axı, məndən niyə hürkürsən? Mal istəyirsən mal tapım, adam lazımdı adam. Qarnının azarını de də…

- Bəzi işlərdən mən də xəbərdaram, amma qorxuram… -Asif demək istədi ki, sən bildiyin qədər də qanmaz deyiləm.

Canavar ovqabağı balasına necə təlim keçərsə Fərəculla da ərinmədən, yorulub-usanmadan Asifi eləcə öz məqsədləri üçün hazırlayırdı. Bilirdi ki, bir gün yaxşı geyinib-kecinməyi, yeyib-içməyi, əylənməyi xoşlayan Asifin boş damarına düşəcək…

Asif bir müddət arxasını yerə vermədi. Necə deyərlər, Fərəculla irəli itələdi, Asif qorxub-hürküb geri dartındı. Eyni sözü təkrarladı:

- Bacarmaram, qorxuram …

- Qorxan gözə çöp tez düşər, qohumbala. Dünya beş gündü. Ağıllı adam bu beş günü toy-bayrama döndərir.

- Müvəqqəti toy-bayramdan nə çıxar, Fərəculla?. - Asif pişik arxasını yerə verməyən kimi söz güləşdirirdi.

- Çürük, paslı-puslu sözlərlə ətimi tökmə, qohumbala. Axırını fikirləşən, bu başdan qəbrini qazdırmalı, kəfənini biçdirməlidi. Kim bilir sabah, lap elə bu gün başına nə gələcək? Bəlkə getdiyin yerdə maşın vuracaq? Ya qəfildən səndə rak tapacaqlar? Zəlzələ, tufan qopacaq, dünya dağılacaq?.. Yaxşı, bəs onda niyə gəlmişdin dünyaya? Nə gördün, nə yaşadın? Dərd-vərəm? Bununçün nə çoxdu axmaq adam. Qohumbala, ac dünya qara quruşa da dəyməz. Deyirsən, müvəqqətidi, tutarlar, damlayarlar. Beş-üç ildən sonra buraxmayacaqlar? Bir də, de görüm axı türmədəkilərdən yaxşı yaşayırsan? Adam tanıyıram sən onun türmədə çəkdiyi kefin onda birinə də tamarzısan. Eşidərsən, hansı ölkədisə ölənin yalnız ağ günlərini hesablayıb baş daşına yazırlar. Məsələn, üç il, beş il… Pis günlər ömürdən sayılmasa yaxşıdı. Sonra kimin insan, kimin səfil ömrü yaşadığı bilinməz. O hesabla mənimki bir on il var. Sabah yıxılıb ölsən, iraq-iraq, sənin baş daşına neçə il yazılmalıdı?..

Papağını qabağına qoy fikirləş, qohumbala. Yalan sözdü, dal-dan atılan daş çox vaxt heç topuğa da dəymir…

* * *

Asif səhər-səhər dükanı açmamış Fərəculla maşının açarlarını barmağında təsbeh kimi oynada-oynada qapını kəsdirdi.

- Salamməleyküm, qohumbala! Bazar olsun!..

- Əleykümməsalam!..

- Qohumbala, maşında beş-altı karobka düzəltmə, geydimə arağım var, gəl onu verim sənə, ərit. Sən öl, müftədi. Qədrimi bi-lərsən də sağ ol, bilməzsən də…

- Axı…

Asifin ağzını sürüməyindən qırımını qandı. Sözü çevirmədi ki, qənbərqulusu çıxar. Əlüstü baqacı açdı. Karobkanın qulağından yapışanda Asif irəli yeridi. Araqları tələsə-tələsə, böyür-başına boylana-boylana dükana daşıdı.

- Dəyər-dəyməzinə döşə, yenə gətirəcəyəm. - Fərəculla əlini razılıqla Asifin kürəyinə şappıldatdı. - Tezliklə səni bu ətrafda optavoy kimi məşhurlaşdıracağam. Ləzzətini özün görəcəksən...

Asif araqları asanca satdı. Yaxşı da qazandı. Fərəcullaya da elə belə bir uğurlu başlanğıc lazımdı…

* * *

Asif yeni tanışları, dostları arasında özünü quruya atılmış balıq kimi hiss edirdi. Fərəcullanın dediyi kimi, ütülüb-dürtülür, özünü ora-bura toxuyur, onlarla ayaqlaşmağa çalışır, bacarmırdı. Nəsə azlıq edir, çatmırdı. Çatmayan, deyəsən, puldu. Bəs əvvəllər niyə çatırdı? Bu haqda dərindən düşünmək, kələfin ucunu tapmaq gün-gündən çətinləşirdi…

Əl-ayaq seyrələn tək Fərəculla stolun üstünə ağzıbağlı bir cüt balaca kisə tulladı.

- Bu nədi belə?.. - Asif soruşdu.

- Ağzını aç, bax də!.. - Fərəculla keçəlini sığallaya-sığallaya səbrlə gözlədi.

Asif kisənin ağzını səliqəylə araladı. Çalışdı ki, içindəkiləri dağıtmasın. Ancaq gördükləri ona heç nə demədi. Sual dolu baxışlarını Fərəcullanın üzünə dikdi.

- Heç anaşa-manaşa eşitmisən?.. - Fərəculla soruşdu.

Asif o saat torbanı geri itələdi. Fərəculla güldü.

- Qorxma, əlini dişləməz… - Kisəni çevirdi. - Bax bu üstünə quş qoyduğum spiçka karobkalarındakı əfqan nasıdı, ucuzvaridi. O birilər anaşadı, tumu yarpağından bahadı. Bazarın qabağındakı qəzet kioskunda Murtuz vardı, yadına gələr. Dənəynən oğrunca "Kazbek", "Belamorkanal" satardı. Özü doldurardı, yarısı tütündü, yarısı anaşa…

- Fərəculla, bəlkə?..

- Ağciyər olma! - Fərəculla ağzından vurdu. - Düzdü bu səninçün araq deyil sağına-soluna, ağına-bozuna baxmayıb necə gəldi döşəyəsən, qandravat maldı. Amma gəliri həyatdı, sel-su kimi axır.

Asifin narkotik maddələr, narkomanlar haqqındakı məlumatı, təsəvvürü təxminən xarici filmlərdən görüb götürdükləri qədərdi.

- Fərəculla, bəs kokain, geroin, tiryək nədi?.. - Birdən-birə maraq Asifi üstələdi. Girəvəykən bəzi şeyləri də soruşub öyrənmək istədi.

- O dediklərin xatalı şeylərdi, qohumbala. Əsl "ağ ölüm"dü. Həm güclüdü, həm də bahalı. Narkoman iynəyə oturmasın, iynəyə oturdumu, batdı... - Fərəculla çoxbilmişliklə aydınlaşdırdı. - Bax, bu gördüklərini bu gün çəkər, çeynəyər, sabah bəyənməyib atarsan, cana sən deyən bir elə ziyanı dəyməz…

- Hökumətdə satanla çəkənin günahı, təqsiri eynidi, Fərəculla?..

- Satanın günahı da, statyası da böyükdü. Amma qazancı risqini pakrıvat eləyir. Çəkən bədbəxtin itirdiyi canıdı, qazancı yoxdu…

Asif bir neçə dəfə bu zəhrimarın dadına da baxdı. Ancaq xoşlamadı, iyrəndi. O da Fərəculla kimi içkini daha çox bəyənirdi. Onsuz boğazından çörək keçmirdi…

* * *

Nazilənin ad günüydü. Birinci dəfəydi ona bahalı hədiyyə almışdı. Bağlamanı ortalığa qoyub qəsdən yubadır, başının üstünü kəsdirmiş Nazilənin səbrini imtahana çəkirdi.

- Şubadı!.. - Axıra qədər açmamış Nazilə sevincək bərkdən dedi.

- Ss!. Neynirsən?.. - Asif barmağını dodaqlarına yapışdıraraq qaş-gözlə qonşu otağa işarə etdi. - Norka şubadı, özü də qretski…

- Axır ki!.. - Nazilə bunun çoxdan arzusundaydı. Geyinib bədənnüma güzgünün qarşısında fırlandı. - Bax gör yaraşır?..

- Gəlsin hələ bir yaraşmasın da!..

- Səndən yoxdu, Asif!.. - Qucaqlayıb o üz-bu üzündən öpdü. - Bəs anana nə deyəcəyik?..

Anası üzə vurmasa da axır vaxtlar Asifə görə bərk narahatdı. Ona da, gəlininə də bir cür baxırdı. Odu ki, arvaddan çəkinirdilər…

- Deyərsən, ucuz, mestni şeydi. Nə başa düşür?..

* * *

Anası atasının divardan asılmış şəkli ilə yenə danışırdı. İndi onun səsində bir həyəcan, qorxu vardı.

- Oğlumuz yolunu azıb, Firuz. Tanımadığım, yad adamlarla oturub-durur. Başa düşdüyümə görə, əyri, xatalı yollara qulluq eləyir. Pulu pul kimi xərcləmir. Gündə bir dona girən arvadının (artıq gəlinimiz demirdi) qayır-qayır qaynaşan gözlərinə baxanda qorxuram…

Asif daha bunları eşitmirdi. Ayıq vaxtları az olurdu. Restoranlardakı kef məclislərindən başı açılmırdı…

* * *

Nazilə də öz kefindəydi. Əl-ayağı yerə dəymirdi. Bahalı brilyantları, daş-qaşları ilə rəfiqəsi Zabilənin ciddi rəqibinə çevrilmişdi. Yavaş-yavaş hər cəhətdən onu üstələməyə başlamışdı. Gecə-gündüz Asifin baş-qulağını aparırdı ki, ″Mersedes″ alsın. Həm də lap axırıncı buraxılışdan, təzəsi, yağın içində olmalıydı…

- Nazilə, bəlkə əvvəlcə… - Asif hələ özünü gücə salmaq istəmirdi.

- Yenə başladın? - Nazilə ona aman vermir, sözünü tamamlamağa qoymurdu.

- Qulaq as də, Nazilə, gör bir nə deyirəm. Əvvəl bir az işlənmişini götürüm, köhnəsini yox ha, sonra dəyişərəm... - Əslində Asifin fikri tamam özgəydi.

- Köhnədi köhnədi, elə öz ″Ciquli″ni sürürsən də…

Asif ürəyindən keçənləri açıq söylədi:

- Nazilə, düzünü bilmək istəyirsənsə, mənim ″Nissan″ xoşuma gəlir. Təzə, yağın içində “Nissan” alacağam...

- Asif, qurban olum, bircə bu arzumu da yerinə yetir, daha səni heç nəyə məcbur etməyəcəyəm…

- İnanım yəni?..

- İnan!.. - Pişik kimi ərinə sırmaşdı.

Nə qədər qazanır qazansın elə bil əvvəlki halal, az pulu indikindən bərəkətliydi. Onda səhərlər də başqa cür açılır, Günəş də başqa cür işıq saçır, zaman da başqa cür ötürdü. Arzu, həvəs, sevinc də özgəydi…

* * *

Arvadının təkidiynən Asif ″Mersedes″ də aldı. Fikirləşdi ki, təki Nazilənin başı qarışsın, hardan gəlib hara getdiyi ilə maraqlanmasın…

Nazilənin uçmağa qanadı yox idi.

- Ay allah, gözlərimə inana bilmirəm!.. - Gah ″Mersedes″in o tərəf-bu tərəfinə keçərək sığallayır, gah da qayıdıb Asifi öpürdü. - Zabiləni ortasından partladacağam! - deyirdi.

Səhərisi "Merseders"in arxa oturacağında yayxanaraq düz iş yerinə sürdürdü. Halbuki Asif Naziləni işə yalnız pis havalarda, yağışda-qarda ″Ciquli″siynən aparar, adi günlərdə isə marşrutla gedərdi…

Nazilə iş yoldaşlarının nəzərini cəlb etmək üçün maşından düşmür, boş-boş sözlərlə Asifin zəhləsini tökürdü. Görməyib böyründən etinasız ötəni başını pəncərədən çıxardıb xüsusi salamlayırdı...

Asif dözmədi.

- Nazilə, bilirəm, sən Zabiləni gözləyirsən, amma mənim də öz işim-gücüm var axı…

Tərslikdən Zabilə həmin gün işə gecikmişdi.

- Yaxşı, onda get… - Nazilə saatına baxdı. - Amma axşam gəlib özün apararsan, danışdıq?.. - Marçıltıynan Asifin yanağına pamadalı bir sığorta öpüşü yapışdırdı…

Axşamtərəfi də Nazilə Asifi aşağıda çox gözlətdi. Xəbər göndərsə də tələsmədi. Bəs necə, işdən çıxanlar görməli, maraqlanmalıydılar ki, bu par-par yanan xarici maşın burda kimə görə boynunu büküb durub…

Nazilə iş yoldaşlarının hamısının ayağı kəsiləndən sonra gəlib çıxdı. Zabilə də yanındaydı.

- Ağız, keç bu yana!.. - Zabiləni zorla dartıb maşına saldı.

- Xeyirliynən işlədin, bacı, cansağlığıynan!.. - Zabilənin altdan-altdan maşına acgözlüklə baxmağı Naziləyə ləzzət eləyirdi. - Bizimki daha köhnəlib, kişiyə dirənmişəm ki, təzələsin. Deyir, hələ vaxtı deyil...

- Bacı, sizinki gərək elə əvvəldən köhnəydi də?.. - Nazilə xüsusi vurğuladı.

- İşdənməyinə işdənmişdi, amma o qədər də yox…

- Ağız, vallah, təzənin yerini heç nə verməz, - Nazilə dil-dil ötdü. - Asif də köhnəsini almaq istəyirdi. Dedim, gec olsun, yağın içində olsun!

- Eh, bacı, mənimki sözə baxmır… - Zabilə gileyləndi. -Öz bildiyini dünya dağıla dədəsinə də verməz...

* * *

- Barıqa, qohumbala, tay bizi vecinə almırsan?.. – Fərəculla Asifi saymazyana süzdü. Üz-gözündən dava axtaran adama oxşayırdı.

- Vecimə almayıb neynəmişəm, qədeş?..- Asif fərqinə varmadı. Son vaxtlar Fərəcullanın danışıq ədaları xoşuna gəlmirdi. Üzünə qayıtmasa da özü də onunla eyni əda, eyni dillə danışmağa başlamışdı.

- Malımı bəyənməyib geri qaytarmısan, qohumbala. Xeyir ola?..

- Satıcın-zadınam, qədeş?.. - Asif eyni tonda davam etdi. -Haçanacan zir-zibilini satmalıyam?..

- Vaxt vardı zir-zibil adlandırdıqlarını gözünə təpirdin, qohumbala…

- İndi yaxşı kayf verən təmiz mala maya qoyurlar, qədeş!..

- Ə, bəsdi də, nə qədeş-mədeş salmısan?.. - Fərəculla axır dözmədi. - Axırıncı dəfə olsun, bir də mənə ″qədeş″ demə!..

- Bəs nə deyim, qədeş?.. - Asif kinayəli qımışdı. - Bəlkə müəllim? Ya cənab, mister?.. Hə, hansı daha çox döşünə yatır?..

- Müəllim deyilənin hansından əskiyəm, qohumbala, hə? Qəssab Vəlidən, yoxsa çayçı Qələndərdən?..

- Demək, könlündən "Fərəculla müəllim" çağırılmaq keçir? Noolar, mən razı! Onda sən də yığışdır bu ″qohumbala″nı, ″barıqa″nı-zadını birdəfəlik!..

- Eləmi?.. - Fərəculla hirslə dil-dodağını gəmirdi. - Qəmin kəm, qalsın qulluğunda!..

Fərəculla hələ də Asifin əvvəlki Asif olmadığını qəbul edə bilmirdi.

* * *

Nazilə kənara çəkilib xısın-xısın ağlayan Zabiləni görüb yaxınlaşdı.

- Nə olub, Zabilə?..

Zabilə Naziləni qucaqlayıb bərkdən hönkürdü.

- Başıma daş düşüb, ay bacı. Evim yıxılıb… - Ağlamaqdan Zabilənin gözləri qızarıb şişmişdi.

- Bir əməlli danış görüm noolub?.. - Nazilə heç nə anlamadı.

- Kişini tutub, damlayıblar... - Zabilə bunu deyərək dəsmalını gözünə basıb təzədən zığıldadı…

Yaxınlarda Qasım kişidən şübhələnib qəfil yaxalamaq istəmişdilər. Duyuq düşüb pəncərədən bayıra atılmış, bir termos pulu tualetə boşaldaraq üstündən su axıtmışdı. Demə, onlar Qasım kişidən də tədbirliymiş. Onu ala qoyub bir müddətdən sonra pul dolu termosu evə aparan uşağı yolda yaxalamışdılar. Üstəlik tifili kələkləyib danışdırmış, dediklərini diktafona yazmışdılar…

- Bəs qızılların hanı, Zabilə?.. - Barmaqlarında, üst-başında, boyun-boğazında zinət şeylərindən əsər-əlamət yoxdu.

- Gizlətmişəm. Evdəki qiymətli şeyləri də yığıb-yığışdırmışıq. Konfiskovat eləyəcəklər, deyirlər.

- Barı ərini qurtarmağa ümid varmı, Zabilə?..

- Görək də, qardaşım dünəndən ora-bura qaçır, əli girən tanış axtarır.

- Mərdiməzara lənət!.. - Nazilə ürəkdən qarğadı. - Allah özü kömək dursun ərinə, qapısını açsın!..

Nazilə həmin gün bərk qorxdu. Təhlükənin yaxınlığını ilk dəfə duydu. Asifə yalvardı ki, ehtiyatlı olsun. Ancaq gecdi. Asifi adi sözlərlə saxlamaq daha mümkün deyildi. Beyni qızmışdı. Gözləri ayağının altını seçmirdi...

* * *

Yataqda yanaşı uzanmışdılar. Gecə köynəyi, alt paltarı əynindəydi. Əvvəllər Asif Naziləni yatağına bu cür buraxmazdı. Tamam, lütanadangəlmə soyundurar, qucaqlayıb ehtirasla öpər, sığallayar, təzədən öpərdi…

İndi ona qarşı çox soyuq, laqeyddi. Bir də çönüb baxacaqdı ki, böyründə yuxulayıb. Yataq ritualını lap əvvəldən Asifin öhdəsinə buraxmış Nazilənin daş-qaşa, var-dövlətə hərislik başını elə qatmışdı ki, bu soyuqluğun haçan, necə yarandığını hiss etməmişdi. Hərdən canında baş qaldıran ehtirası, istəyi içində boğaraq ilk təşəbbüsü, hərəkəti həmişə Asifdən gözləmişdi. Guya belə Asif onu daha bərk istəyəcəkdi... Alınmayanda öz yanından Asifdən küsmüş, hayıf çıxmaq mənasında onu özünə yaxın buraxmamışdı. Yersiz, mənasız iradları ilə Asifi bezdirmişdi…

İndi Asifdən gördüyü bu etinasızlıq, soyuqluq ilk dəfə həqiqi mənada Nazilənin mənliyinə, qüruruna toxundu. Bəlkə də bu gün işdə təsadüfən oxuduğu qəzet məqaləsi olmasaydı hələ ayılmayacaqdı. Məqalədə özündən həddən artıq razı, eqaist bir qadının acınacaqlı taleyindən yazılmışdı. Qadın ailəsinin bütövlüyü, xoşbəxtliyi üçün yataqda da füsunkar, təşəbbüskar olmalı, ərinin diqqət mərkəzində dayanmağı bacarmalıydı. Bu məhrəm aləmə sayğısız münasibət əlverişli məqamda yerinin başqası tərəfindən tutulmasına gətirib çıxarda bilirdi…

Nazilə məqalədəki özündənmüştəbeh qadın kimi bunu heç zaman nəzərə almamışdı. Gecələr ərinin yanına necə gəldi, yorğun-arğın, səliqə-sahmansız yıxılar, lazım olanda, Asifin kefi qalxanda kişilik ehtiyacını candərdi, başdangetdi ödəyərdi…

Asif qurcalanaraq o biri tərəfə çönmək istəyəndə Nazilə imkan vermədi. Birdən-birə qolunu onun boynuna doladı, üzündən öpdü. Asif inanmırmış kimi arvadına baxıb key-key gözünü döydü. Elə bildi Nazilənin yenə ona işi düşüb, nəsə aldıracaq. Amma yaxşı baxsaydı görərdi ki, arvadı hər gecə yanına yıxılan qadına heç oxşamır. Gəlin kimi bəzənib-düzənib, alt paltarından belə təzə geyinib...

- Yatırsan?.. - Nazilə nəvazişlə ərinin sinəsindəki qapqara şəvə kimi tükləri sığalladı. Axı bu hisslər, sevgilər ona yad deyildi…

- Hə, bərk yorulmuşam… - Asif əlini ağzına tutub əsnədi.

- Əvvəllər heç belə tez yatmazdın… - Nazilə ilk dəfə yataqda ərindən yalnız nəvaziş, sevgi-məhəbbət uman qadın kimi gileyləndi. - Yaman soyumusan…

- Axır vaxtlar işim çox olur… - Asif süni şəkildə, xalaxətrin qalmasın gülümsəyərək yavaşca onu özünə sıxdı. Bu lap dilənçi sədəqəsinə oxşadı...

Nazilə hər nədisə buna da qane olaraq qollarını təzədən ərinin boynuna doladı. Sonra nə fikirləşdisə təşəbbüs-filan güdmədən əynindəki köynəyini də sivirib atdı…

Deyəsən, təsiri oldu. Alt paltarını da (hansı ki, onu arvadının əynində görəndə ürəyi keçərdi) Asif çıxardıb ehtirasla ona sarıldı. Nazilə keçmiş hərəkətlərinə, sayğısızlığına görə çox peşimandı. İndiyəcən yataqda Asifdən nəvaziş, sevgi-məhəbbət uma-uma əvəzində ortaya hikkəsindən başqa heç nə qoymamışdı…

Birdən Nazilənin burnuna pomada iyinə oxşayan qəribə iy gəldi. Diqqətlə baxanda alaqaranlıqda Asifin çiynində gözünə nəsə bir ləkə dəydi. Dinməz-söyləməz ərinin qollarını özündən aralayaraq ayağa qalxıb işığı yandırdı.

- Neynirsən, Nazilə?.. - Asif çaşıb qaldı.

- Bu saat bilərsən…

Asifin qolundan yapışıb hikkəynən işığa sarı dartdı. Bayaq çiynində gözünə dəyən ləkəni axtardı. Tapdı. Barmağını pomada yaxılmış dodaq yerinin üstünə qoydu.

- De görüm hansı ləçərdi səni belə gəmirən?.. - Hədəqəsindən çıxmaq dərəcəsinə çatan gözlərini Asifin gözlərinə dirədi.

- Sən nə danışırsan, Nazilə, başına hava gəlib?.. - Asif hələ məsələnin nə yerdə olduğunu düz-əməlli bilməsə də özünü itirmədi.

- Bu pomadalı dodaq yerini ərinin çiynində görən arvadın başına hava da gələr, hələ o yana da keçər!.. - Hirsindən-havasından tir-tir titrəyirdi.

- Aaz, indicə, bu saat özün öpmədin?.. - Asif nə ağıl etdisə rişxəndlə gülərək zarafata salmaq istədi.

- Yalandı!.. - Nazilə vəhşi heyvan kimi qabardı. - Budu bax, çiynindəki pomadanın rəngi tünd qırmızıdı, mənim dodağımdaki isə rəngsizdi…

Asif barmağıynan həmin yeri sürtərək qızartdı. Heç nə olmamış kimi:

- Yat ayna, - dedi, - hər nədisə gözünə görünüb. Qarışqadan fil düzəltmək sənin köhnə adətindi...

- Ay allah, bunun heç vicdanı yoxmuş, əliynən silir, sonra da deyir, nəsə gözünə görünüb.. - Nazilə hirsindən hönkürüb ağladı.

Asif qalxıb işığı söndürdü. Naziləni qucaqlayıb yatağına basdı.

- Yaxşı, di qurtar, yekə arvadsan. Ayda-ildə bir dəfə şeytanın qıçını qırıb məni xoşbəxt etmək istəyirdin (demək, diqqətindən yayınmamışdı), axırı da belə …

- Onda and iç, and iç ki, o qadın öpüşü deyildi… - Nazilə göz yaşları içində Asifin sinəsini yumruqladı…

* * *

Yağmurlu hava olduğuna görə Asif Naziləni işə öz "Merseders"ində aparırdı.

Yolda Nazilə ayağını qabağa uzadanda oturacağın altında nəyəsə dəydi. Əyilib birtəhər qaldıranda gördü ki, qadın sumkasıdı.

- Bu kimin sumkasıdı, Asif?.. - Həyəcanlanmış halda soruşdu.

- Hardaydı?.. - Asif suçlu kimi diksinərək arxaya çöndü. Gecə məşuqəsi düşərkən maşında sumkasını axtarmış, tapmamışdı. Elə bilmişdilər yaddan çıxıb restoranda qalıb. İkisi də sərxoşdu…

- Guya xəbərin yoxdu?.. - Nazilə əsəbi halda sumkanı havada oynatdı.

- Xəbərim olsaydı, heç qoyardım orda qalsın?.. - Asif bic-bic güldü. Bir yana baxanda düz deyirdi.

- Əlbəttə, əlbəttə, qoymazdın burda qalsın!.. - Nazilə odlandı. - Səndən soruşuram, sumka kimindi? Sənin maşınında nəəzir?.. - Sumkanın ağzını açıb üzüaşağı çevirdi. İçindəki daraq, güzgü, ətir, pomada, xırım-xırda şeylər oturacağa səpələndi.

- Dayan, dayan, yadıma düşdü!.. - Asif birdən əlini alnına çırpdı. - Yəqin vergidə işləyən qadının sumkasıdı. - Ağlına gələn fikirdən sevindi.

- Bəs sənin maşınında nəəzir?..

- Dünən vergi işçiləri bizim tərəfdəki mağazalara reydə çıxmışdılar. Qayıdanda xahiş etdilər ki, idarəyə aparım, boyun qaçıra bilmədim.

- Yenə tez qurub-qoşdun, hə?.. - Yaxında yad qadın öpüşü ilə bağlı yataqda baş verən insidenti xatırladı. - Belə şeylərdə ustasan…

- Səhər-səhər qanımızı qaraltma, Nazilə…

- Hara sürürsən?. - Birdən əlini Asifin çiyninə vurdu. - Buralarda bir yerdə saxla, piyada gedərəm.

- Əşi, sən allah otur yerində... - Asif əsəbləşdi. - Yağışı görmürsən?..

- Olsun də, çətir götürmüşəm…

Nazilə əvvəl maşını iş yerinin lap qabağına sürdürərdi. Dayanandan sonra da düşüncə daş-daşı kəsərdi. Zabilənin əri tutulandan bəri buna son qoymuşdu. Göz-nəzərdən qorxurdu. Elə Zabilə bəsdi…

Asif acığa maşını lap səkiyə dırmaşdırıb pilləkənin ayağında saxladı.

- Daha bu dəfə məni aldatmaq asan olmayacaq, Asif. Get, yaxşı-yaxşı fikirləş, axşam evdə danışarıq... - Nazilə hirslə qapını çırpıb uzaqlaşdı.

Asif vəziyyətdən qalmaqalsız, səs-küysüz qurtarmaq üçün çox fikirləşdi. Necəsə yalanını doğrultmalı, başlıcası, Naziləni buna inandırmalıydı. Məsələni çürütməmiş əl çəkməyəcəkdi. Yaxşı ki, qadının adını soruşmamışdı. İşdən zəng eləyib maraqlana bilərdi. Hirsli başda ağıl olmaz, darmacalda yadına düşməmişdi…

Asifin fikrində tutduğu vergidəki qadın dünən, doğrudan da, onların dükanında olmuşdu. Reyd-filan isə uydurmaydı. Rəfiqəsi ilə yaxınlıqdan ötərkən təsadüfən dönmüşdülər. Asif onları qonaqpərvərliklə qarşılamış, şirin dillə yola salmışdı. Haçansa işi düşər prinsipi ilə hər ehtimala qarşı hərəsinə kiçik bir hədiyyə də bağışlamışdı. Uzaqgörənlik bax buna deyərlər...

Tələsik vergi idarəsinə yollandı. Qadını nəzakətlə bayıra çağırdı. Ona da başqa bir yalan sırıdı. Guya qısqanc arvadı (daşa-divara da qısqanırdı) təsadüfən maşınından qadın sumkası tapıb qalmaqal salmışdı. O da sumkanın maşınına hardan, necə düşdüyünü (bəlkə də düşmənçilik məqsədi ilə kim tərəfindənsə atılmışdı, bunu araşdırmaq sonranın işidi) doğru-düzgün bilmədiyinə görə əldə qalmış, davanı birtəhər yatırtmaq, arvadını sakitləşdirmək xatirinə məcburiyyət qarşısında sumkanın sahibi kimi arvadına onu isnad vermişdi…

Asif buna görə qadından dönə-dönə üzr istədi, imkan daxilində ona köməklik göstərməsini xahiş etdi.

- Niyə bəs məhz məni isnad vermisiniz, hə?.. - Bu məsələ qadına maraqlı gəldi. - Başqa qadın tapmadınız?..

- İnanın ki, bunu heç özüm də bilmirəm. - Asif qadının inanıb-inanmayacağını fikirləşmədən həqiqəti etiraf etdi. - Sırf təsadüfdü.

- Yox, nəsə çox dolaşıq məsələyə oxşayır.. - Qadın çaşıb qalmışdı. Xeyirxahlıq naminə də olsa belə bir işin altına girməyə ürək etmirdi. - Məni bu işə nahaq qatmısınız…

- Çox-çox üzr istəyirəm!.. - Asif təzədən yalvar-yaxara başladı. - Nəzərə alın ki, çıxılmaz vəziyyətdəyəm. Allah xatirinə köməyinizi əsirgəməyin. Bir xatadı də, keçin günahımdan…

Çox dil-fildən, hətta yüngülvari bir şirinlikdən sonra qadın yumşaldı.

- Yaxşı, indi mən neyləməliyəm? Sizə necə kömək etməliyəm?..

- Sağ olun, minnətdaram!.. - Əlavə qalmaqala səbəb olmasaydı Asif sevindiyindən qucaqlayıb qadını öpərdi. - Sizi çox çətinə salmayacağam. Sadəcə, təsadüfən maraqlanıb-eləsə sumkanın sahibi olduğunuzu təsdiqləməli, arvadımı buna inandırmalısınız…

- Daha neyniyim, əl çəkmirsiniz də, mən razı... - Qadın minnət vuraraq məkirli-məkirli gülümsədi. - Amma budu deyirəm, başqa əngəli çıxsa, geri çəkiləcək, sözümdən qaçacağam haa... - Qadın hər ehimala qarşı bəri başdan şərtini də kəsdi.

* * *

İşdən qayıdan kimi Nazilə Asifin başının üstünü aldı.

- Hanı o sumka?..

- Hansı sumka?.. - Asif özünü bilməməzliyə vurdu. Guya hər şeyi unutmuşdu.

- Özünü bicliyə qoyma, səhər-səhər maşınından tapdığım sumkanı soruşuram… - Nazilənin birinci səhvi vergidəki qadının adını öyrənməməkdisə, ikinci səhvi sumkanı maşında qoyub getməsiydi. Bu, sonra ağlına gəlmişdi.

- Verdim yiyəsinə. - Söhbət əhəmiyyətsiz bir şeydən gedirmiş kimi Asif özünü çox sakit aparırdı.

- Kimdi yiyəsi?..

- Səhər maşında dedim də, kimdi…

- Dur, bu saat gedəcəyik həmin qadının evinə. Sənin dediklərini təsdiqləməsə, inanmaram.

- Birincisi, xeyir ola, mən ərli, yad qadının evini nə münasibətlə tanımalıyam? İkincisi, bunu aydınlaşdırmaq üçün gecənin vaxtı durub harasa getməyə ehtiyac yoxdu. - Asif meydan oxudu. - Telefon nömrəsini deyim, zəng vur, nə qədər kefindi danış. - İşini ehtiyatlı tutmuş, qadının telefon nömrəsini də götürmüşdü.

- Soruşmaq ayıb olmasın, o ərli, yad qadının evinin telefon nömrəsi səndə hardandı?.. - Nazilə eyhamla dedi.

- Bilirdim ki, axşam sənə lazım olacaq, xahiş eləyib özündən aldım. - Asif eyni eyhamla cavab verdi.

Nazilə o saat telefona cumdu. Qadını hərtərəfli sorğu-suala tutandan sonra nisbətən sakitləşib dəstəyi yerinə qoydu.

- Nooldu, mənə inanmırdın?.. - Asif qalib kimi gülə-gülə arxadan onu qucaqladı.

- Yalan-gerçək, girdi də qanıyın arasına… - Nazilə hələ də şübhələr içində çırpınırdı.

* * *

Aygün gəzdiyi qızların ən gözəli, ən cazibədarıydı. Onun dərdindən dəli-divanəydi. Ala gözləri, ehtiraslı baxışları, işvəli gülüşləri Asifi sehrləmişdi...

Ancaq ilk dəfəydi daş qayaya rast gəlmişdi. Aygün heç cür ipə-sapa yatmırdı. Gülür, əylənir, içir, rəqs edir, hərdən lap qucaqlaşır, öpüşürdülər… Camaat arasında, restoranlıq nə mümkündüsə, vəssalam! Münasibətləri bundan artıq irəli getmirdi. Hər dəfə görüşəndə Asifə elə gəlirdi ki, məqsədinə lap yaxındı. Daha bir cəhd kifayətdi. Lakin son anda hər şey tamam başqa məcraya yönəlir, Aygün balıq kimi sürüşüb əlindən çıxır, Asifin ümidləri puç olurdu…

Bu da son vaxtlar istədiyinə çox asan, müqavimətsiz-filansız çatan Asifi həddən artıq üzürdü. Gah tezcə əsəbləşir, gah da sakitləşib qıza dil tökür, yalvarıb-yaxarır, necə olur-olsun onu yola gətirməyə çalışırdı...

Asif binanın başına üçüncü dövrəni vuranda Aygün sükandan yapışdı.

- Nədi, niyə saxlamırsan? Yoxsa fikrin səhərəcən beləcə fırlanmaqdı?..

- Neyniyim, ay insafsız, saxlayan kimi düşüb gedirsən, qalıram arxanca baxa-baxa. Bütün gecəm cəhənnəm əzabına dönür…

- Sabah görüşəcəyik də… - Aygün əyilib təsəlliverici öpüşlə yanağından öpdü.

- Təzədən ayrılmaq üçün, eləmi?.. - Asif nəhayət əyləci basdı.

- Ay xatakar, dinc durmayacaqsan axı... - Aygünün səsində qəfil bir yumşalma, geri çəkilmə duyuldu. - Xasiyyətinə bələdəm də...

- Duracağam!.. - Asif uşaq kimi söz verdi. Həyəcandan ürəyi sinəsində sürətlə döyünürdü.

- Demək, şərtləşdik?..

Aygünün deməyinə görə, tək yaşayırdı. Guya haçansa ərdə olmuş, ancaq əriynən dolanmayıb tez də boşanmışdı. Başqa vaxt ərinin təyyarə qəzasına düşdüyünü söyləyirdi. Asif üçün bütün bunların heç bir önəmi yoxdu. Onu daha artıq əlçatmaz bir qadın kimi fəth etmək, yatağında duymaq haqqında düşünürdü…

Uzun çək-çevirdən, and-amandan sonra Asif Aygünə qoşulub yuxarı qalxdı. Özünə yaraşan zəngin, zövqlə bəzənmiş otağı vardı…

Divanda yanaşı əyləşib televizora baxırdılar. Bir əli Aygünün çiynində, o biri də dizinin üstündəydi. Gecə keçmişdi...

Aygün Asifin badəsini konyakla ağzınacan doldurdu (belə xoşlayırdı), özünün yarımçıq badəsinə də bir az əlavə etdi.

- Bəs sabah arvadın soruşanda ki, gecəni hardaydın, nə cavab verəcəksən?..

Çətin sualdı. Asif bilmədi bunu soruşmaq birdən-birə Aygünün hardan ağlına gəldi. Məqsədi nədi? Bəlkə Asifi evinə buraxdığına peşimandı? Nəsə şər-şıltaqla başından eləmək fikrinə düşüb?..

- Bilmirəm... - Düzünü boynuna aldı. - Hələ sabaha çox var. Yəqin fikirləşib bir şey taparam. - Başından eləməyə çalışdı.

- Məsələn, nə də, nə?.. - Aygün təkid etdi. - Mənimçün maraqlıdı ki, görüm kişilər arvadlarını necə aldadırlar?..

Belə de! Əgər qəsdi, doğrudan da, bunu öyrənməkdisə, cavab vermək olardı.

- Məsələn, deyərəm, mal dalınca rayona getmişdim. - Asif dedi. - Hə, necədi, inandırıcıdı?.. - Əl atıb Aygünü qucaqlamaq istədi. - Əşi, sən allah, qurtar görüm…

- Dayan, dayan!.. - Aygün ona mane oldu. - Mal dalınca rayona gedəndə arvadına xəbər vermək lazım deyil?..

- Lazımdı. Amma imkan tapmadım, alınmadı... - Asif üzüyola uşaq kimi oyunun qaydalarına tabe oldu.

- Qısqanmır?..

- Həm də necə!..

- Bəs nədən bilirsən ki, sənə inanacaq?..

- İnanmayıb neyniyəcək?.. - Asif kişiləndi.

- Hə, düz deyirsən… - Baxışları dalğalanan Aygünün üzünü qəm kölgəsi bürüdü. - Bu saat heç kimə etibar yoxdu… - Allah bilir fikrindən nələr keçirdi…

- Qadınlardan başqa, hə?.. - Asif zarafatla onun kefini açmaq istədi.

İndiyəcən Aygünü bu cür qəmli görməmişdi. Aygün Asif üçün eyni zamanda həm də başdan-ayağa qədər sirr dağarcığıydı...

- Eh, nə kişi, nə qadın?.. - Aygün dedi. - Məsələn, səni götürək. Gör haçandı arxamca ac qurd kimi sürünürsən. Çoxdan başımdan eləmişdim. Amma boynuma alıram, sən də mənim xoşuma gəlirsən. Di gəl ailən, uşağın var…

- Onlara yazığın gəlir?.. - Asif soruşdu.

- Belə də, nə bilim. Birdən dirəndim ki, evlənək? Onda necə olsun?..

- Rəsmiyyətsiz də ötüşərik. - Asif dedi. - Vallah, mənim aləmimdə sərbəst yaşamaq, sevib-sevilmək daha dadlı, daha şirindi…

- Bəlkə də haqlısan... - Aygün dedi. - Onsuz da elə də, belə də həyatda hər şey bir gün adamı yorur, bezdirir …

Televizorda film gedirdi. Maneken qadın restoranda striptiz göstərirdi. Asif gördüklərinin təsiri altında Aygünü bərk-bərk qucaqlayıb özünə sıxdı. Əlini sinəsinə uzatdı. Aygün yavaşca əlinə vurdu.

- Dinc dur, söz vermisən. - Ərkəsöyün, şıltaq qız kimi dedi.

- Daha taqətim qalmayıb, Aygün. Rəhm elə, öldürmə... -Asif ilan dilini işə salıb yalvardı.

- Məndən ötrü ölürsən, yoxsa?.. - Aygün gözlərini süzdürərək eyhamla soruşdu. Bircə anda necə dəyişdisə bayaqkı hüzndən çöhrəsində əsər-əlamət qalmadı.

- Fərqi nədi, ay insafsız, eyni can deyil? - Əlini aşağı aparanda Aygün cəld sıçrayıb ayağa qalxdı, Asif də arxasınca.

- Yox, yox, əyləş, mənə yaxın gəlmə!.. - Aygün əllərini qalxana çevirib irəli tutdu.

Asif işləri vaxtından qabaq korlayacağından ehtiyatlanıb əyləşdi. O saat da ağzınacan konyakla dolu badəsini götürüb birnəfəsə başına çəkdi.

Aygün otağın işığını söndürərək gəlib onun qarşısında dayandı.

- Bu saat səninçün ömründə görmədiyin bir striptiz göstərəcəyəm, Asif…

Maqnitofonu qoşub televizorun səsini aldı. Alaqaranlıqda, oynaq musiqi sədaları altında rəqs etməyə başladı. Ortada fırlana-fırlana bir-bir, tələsmədən paltarlarını soyunub atırdı. Asif həyəcan və titrətmə-qızdırma içində bir müddət gözlədi. Sonra dəli-cinli kimi dik sıçrayıb bir göz qırpımında əynindəki paltarları didib-dağıdaraq ayaqları altına tökdü. Aygün axırıncı paltarına çatanda Asif artıq lütlənmişdi. Ehtirasla bir-birinə sarıldılar...

* * *

İşdən qayıdan Naziləyə poçtalyon həyətdə şişman bir zərf verdi. Asifin adına göndərilmişdi. Nazilə o tərəf-bu tərəfinə çevirib üstünü oxusa da zərfin ağzını evdə açdı. Aygünlə Asifin plyacda lüt çəkilmiş rəngli şəkillərini görəndə dəhşətdən ürəyi qısıldı. Gözləri qaralaraq yerə sərildi…

Qayınanası tappıltıya özünü yetirdi. Bu vaxt Asif qapıdan girdi. Arvadın başı gəlini ayıltmağa qarışdığına görə döşəməyə dağılmış şəkillərə fikir vermirdi.

Əlüstü şəkilləri yığışdıran Asif gözlərinə inanmırdı. Bu kimin, hansı namərdin işiydi? Son zaman araları dəymiş, münasibətləri korlanmış dost-tanışlarını bir-bir xəyalında dolandırdı. Ən çox Fərəculladan şübhələndi. Özü eləməsə də elətdirə bilərdi. Mağaza qonşularının da ağzı Asifdən əyriydi. Köhnə dükanını söküb yerində zirzəmili, əlavə anbarlı, kabinetli-filanlı böyük mağaza tikdirmiş, bazarlarını öldürmüşdü. Narkotika alverçiləriynən də sözü heç düz gəlmirdi…

- Asif, səni and verirəm əzizləriyin canına, düzünü de görüm bunlar nədi belə?.. - Nazilə axşam təklikdə ərinin ayaqlarına döşənib yalvardı. Ağlamaqdan gözləri qıpqırmızıydı…

- Nə olacaq, məni gözü götürməyənlərin işidi... - Asif dodağının altında mızıldandı.

- Yanındakı qadın kimdi?.. - Asifin gözlərinin içinə baxmağa çalışdı.

- Mən nə bilim, tanımıram. İndi komputerdə bu cür şəkilləri quraşdırmaq, mantaj etmək su içimi kimi bir şeydi...

Asifin axırıncı sözlərini rəfiqəsi Zabilə də təsdiqlədi. Ancaq Nazilə tam yəqinlik hasil etmək üçün şəkilləri ekspertə göstərdi. Ekspert dedi ki, şəkillər həqiqi şəkillərdi. Nazilə təzədən qalmaqal salmağın mənasızlığını anlayıb səsini çıxartmadı. Asifi güdmək qərarına gəldi...

* * *

Nazilə qarşı tərəfdə, üzbəüz mağazanın tinində dayanıb restorana gəlib-gedənləri güdürdü. Amma allahına yalvarırdı ki, gözlədiyi hadisə baş verməsin…

Qara "Mersedes" restorana çatanda yavaşıyıb arxadakı dayanacağa yönəldi. Şüşələri tünddü deyə içi seçilmirdi. Qoluna qırmızı bağlamış oğlan əlbəəl özünü yetirdi. Gülə-gülə, yaltaqlıqla sürücüyə yer göstərdi. Nəzakətlə arxa qapını açdı. Maşından düşən ucaboylu, nərmənazik, sarısaç, qəşəng qızın sifəti Naziləyə tanış gəldi. Ürəyi sıxıldı. Son ümidini hələ də içəridə ləngiyən sürücüyə bağlamışdı. Gözlərinə, gördüklərinə inanmaq istəmirdi. Şəhərdə Asifinki kimi o qədər qara "Mersedes", bu cür oxşar qız vardı ki!..

Asif qapını açıb boy verəndə Nazilə əllərini gözlərinə basıb hönkürməkdən özünü saxlaya bilmədi…

* * *

Oğlu yanında, çamadan əlində qapıdan çıxanda qonşudan qayıdan qayınanası ilə qarşılaşdı. Arvad təəccübləndi.

- Hara belə, ay gəlin?.. - Gəlini ilə oğlu arasında baş verənlərdən xəbərsizdi.

Düzdü, son vaxtlar bir-biriynən soyuq, küsülü kimi davrandıqlarını görsə də qarışmırdı. Fikirləşirdi ki, müvəqqəti haldı. Hansı ər-arvadın arasında umu-küsü olmur?..

O biri tərəfdən, arvad artıq oğlu, gəlini üzərindəki təsir qüvvəsini çoxdan itirmişdi...

Nazilə cavab vermək üçün ağzını doldursa da hönkürəcəyindən qorxub dinmədi. Bir də, iki daşın arasında nə deyəcək, olub-keçənləri qayınanasına necə başa salacaqdı? Mənası vardımı?..

Dinməz-söyləməz Firuzun əlindən tutub arxasınca dartdı…

* * *

Axara düşməyə nə var, axardan çıxmaq çətindi. Nazilənin getməyi də Asifi ayıltmadı. Daha doğrusu, üzüqara dostları ayılmağa qoymadılar. Belə yaxşıdı, dedilər, üçdə alacağın yox, beşdə verəcəyin. Səninçün arvad qəhətliyidi?.. Sonra da…

İçəri girənlər adi, mülki paltarda olsalar da Asifin dalağı sancdı.

- Salam, Asif sizsiniz?.. - Gələnlərdən biri vəsiqəsini göstərdi. Asifin orda yazılanları oxumağa halı qalmamışdı. - Bu vətəndaş əlindəkiləri sizdən alıb?.. - Xəcalətli halda yanında boynunu büküb durmuş oğlanı göstərdi. Ovcunda saxladığı heroini indicə satmışdı.

- Mən bu adamı tanımıram… - Asif işin nə yerdə olduğunu anlayıb müqavimət göstərmək istədi.

- Uşaqlıq eləməyin, onsuz da ilişmisiniz… - Demə, oğlan orqan işçilərinin özlərinin adamı, işverəniymiş…

Nə qədər çalışıb-çabalasa, ora-bura əl atsa, minnətçi-filan salsa da əncam yemədi. Asifi qurtarmaq üçün Fərəculla da çox yüyründü. (Özünə görə qorxurdu, ancaq Asifdən az sonra onu da ilişdirdilər.) Asifin razılığı ilə mağazasını, maşınını satdı. Guya güzəşt elədilər, dörd il iş kəsdilər. Günəş batanda yox olan kölgə kimi dost-tanış qeybə çəkildi…

Anası bu dərdə dözməyib dünyasını dəyişdi. Həbsxanadan qayıdıb qapılarını bağlı gördü…

Asifin kirpiklərindən asılmış bir cüt göz yaşı putluq daşlar kimi başını sinəsinə əymişdi. Havasızlıqdan boğulurdu. Yaxınlaşıb pəncərənin bir tayını açdı. Qış sərt, boz üzünü göstərdi. Boğazına tıxanan qəhəri birtəhər udaraq zorla nəfəsini dərdi…

* * *

Nazilə ayaqlarının ucunda oğlunun çarpayısına yaxınlaşdı. Yatıb-yatmadığını yoxladı. Deyəsən, tərpənirdi.

- Yatmısan, oğlum?.. - Hər ehtimala qarşı soruşdu.

- Yox, yuxum gəlmir… - Anasına tərəf döndü.

Nazilə yorğanının ətəyini qaldırdı, oğlunun kürəyini basdırdı. Yanını ehtiyatla, ustufca çarpayısının qırağına qoydu.

- Məclisiniz necə keçdi, oğlum?..

- Yaxşı… - Bilirdi hansını soruşur. - Atam səsimi maqnitofona yazdı.

- Doğrudan?.. - Nazilə özünü sevinirmiş kimi göstərdi.

- Hə. Orda sənin də səsin vardı.

- Bilirəm. - Nazilə dedi. - Özü necədi?..

- Səni soruşurdu… - Oğlu hansı suala cavab verib-verməməyi də yaxşı bilirdi.

- Yalan demirsən?.. - Elə bil Nazilə rol oynayırdı. Məqsədsiz-filansız sual-cavabı uzadırdı. Bir tərəfdən Asiflə bağlı hər şeyi öyrənmək istəyirdi, o biri tərəfdən yox. İçində yepyeni, anlaşılmaz bir duyğu oyanmışdı…

- Atam canı!.. - Uşaq öz adi halındaydı.

- Firuz, axı bunu sənə qadağan etmişəm… - Nazilə üz-gözünü turşutdu.

- Məhəlləmizdəki oğlanların hamısı belə and içir. - Oğlu dedi. - Onlara heç qadağan etmirlər…

"Haqlısan, oğlum. Onların uşaqlarının iki atası yoxdu. And içəndə də bilirlər kimin canına and içir…"

- Məni soruşanda sən nə cavab verdin?..

- Dedim, anam da həmişə səni soruşur…

- Bax, bunu nahaq demisən!

- Noolar e, ana? Belə bir cür adamsan, ey. Elə atam da qəribə adamdı. Tapşırır ki, aşağıda dayandığını sənə xəbərləməyim…

- Özündən çıxma, mənim hirsli balam. - Nazilə oğlunun saçını qarışdırdı. - Yat, yuxun şirin olsun... - Sorğu-sualı uzatmaqla özünü dolaşdıra biləcəyindən ehtiyatlandı.

Firuz nəsə xatırlayıb təzədən dikəldi.

- Ana, niyə hamının bir atası var, mənim iki, hə?..

Bu qəfil, gözlənilməz sual Naziləni sarsıtdı. Cavab verməyə hazır olmadığına görə əsəbləşdi.

- Sənə dəxli olmayan işlərə burnunu soxma. Yat, ütü yandı orda…

Gedə-gedə çönüb səksəkə ilə arxaya baxdı.

"Yaman da dəxli yoxdu. Hamımız bir bezin qırağıyıq. Cavab vermək lazım gələndə günahımızı boynumuza almaq əvəzinə dağallayırıq… Guya səhvlərimiz yalnız özümüzə aiddi. Bəs altını çəkən necə olsun?..

Darıxma, oğlum, bir az da böyü, hamısını necə var eləcə də açıb sənə danışacağam. Atanın da… Yox, mən ancaq öz günahlarımı… Həqiqəti etiraf etməyə indi onun özünün də cəsarəti çatar…"

Neçə dəfə oğlunu ötürüb qayıdarkən tini burulanadək pəncərədən, pərdənin dalından Asifin arxasınca göz qoymuşdu. Çox dəyişmişdi. Saçları ağarmış, beli də elə bil bir az əyilmişdi. Həmişə şax yeriyərdi.

"Elə hey zəng vurur. Neyniyim axı?.."

Elektrik şəbəkəsinə sancdığı ütünün qızıb-qızmadığını yoxladı. Gecədən keçsə də o, hələ ərinin köynəyinə ütü çəkməliydi...

İçməyi olmasaydı Asif pis oğlan deyildi. Bir yana baxanda kim içmir? Kimin kişisi dilinə vurmur o zəhrimarı?..

Allah rəhmət eləsin, qayınanası son vaxtlar bir rəvayət danışardı. Guya uşaq qonşunun toyuğunu oğurlayır. Anası "afərin!" deyib kürəyinə vurur, tərifləyir. O da şirnikir, böyüdükcə özü kimi tamahı da artır. Tutub damlayanda anası ilə görüş istəyir. Dilini çıxart, ana, deyir, dilindən öpüm. Öpmək əvəzinə anasının dilini dişləyir. Məni bəlaya salan bu dilindi, deyir…

"Demə, qayınanam bütün bunları dolayısı ilə mənə çatdırırmış. Mən ağılsız da heç nə başa düşmürdüm. Nəfsimin quluydum. Asif pulları cibindən qom-qom çıxardanda sevincim yerə-göyə sığmırdı. O qədər pulu nə ər evində görmüşdüm, nə də ata…"

Ərinin iş otağının qapısı ağzında quyurub qalmışdı. Nə içəri girə, nə də gedib yerində yata bilirdi. Qəfil qapıya toxunub cırıldatdı. Əri o saat başını döndərib (başqa vaxt hiss etməzdi) altı torbalanmış yorğun gözlərini eynəyinin arxasından ona sarı bərəltdi. Deyəsən, ağzını doldurdu ki, nəsə desin, Nazilə imkan vermədi, tez çəkildi…

Əri yazı-pozusundan ayrılıb dalınca gələndə Nazilə yatağında uzanıb gözlərini tavana zilləmişdi. Fikirləşirdi ki, niyə axı görəsən həyat bu cür mürəkkəbdi? Niyə axı Asifin pulu artanda ona dönük

çıxmalıydı?.. Axı onlar bir-birini xoşbəxt etmək üçün yaranmışdılar. Fikir, düşüncə, dünyagörüşü… demək olar, hər cəhətdən eyni adamdılar. Asiflə, necə deyərlər, daha sərbəstdi, lap suda balıq kimi…

- Nədi, Nazilə, nə lazımdı?.. - Həmişəki kimi ərinin dili tərpənir, gözü baxır, fikri isə öz içində, yazı-pozusunun yanındaydı.

- Sən gərək heç evlənməyəydin, Şahbaz... - Nazilə elə bil hələ də öz-özüynən danışırdı.

- Niyə, Nazilə?.. - Əri iki adam olmağı bacarırdı. - Yenə nə olub?..

- Şahbaz, səninçün arvad, uşaq cansız ev əşyalarından heç nəynən fərqlənmir. Çox da biz yeyib-içə, hərəkət edə, danışa bilirik. Sən bunları eşitmir, görmür, duymursan. Yalnız ehtiyacın olandan-olana… - Nazilə kövrəlib hönkürdü.

- Səhvin var, Nazilə. - Şahbaz arvadının yanında əyləşib nəvazişlə saçlarını sığalladı, göz yaşlarını sildi. - Mən həmişə səninləyəm.

- Yox, yox, sən daha artıq o yazı-pozun, kitablarınlasan, Şahbaz. - Nazilənin ürəyi doluydu. - Bu əziz gündə belə qonaqların dağılışmağını gözləmədən öz otağına çəkildin, yazı-pozuna qapıldın…

- Nazilə, axı qonaqlar yad deyildi, hamısı özümüzünkülərdi… - Şahbaz öz hərəkətinə haqq qazandırmağa çalışdı.

- Başa düşürəm, Şahbaz. Özümüzünkülərlə bir yerdə olmaq səninçün maraqsızdı...

- Sən mənim yazı-pozuma yaman qısqanc yanaşırsan, Nazilə. Bu, mənim işim-gücüm, həyat tərzimdi. Mən bu cür yaşamağa adət etmişəm. Təzədən necə dəyişə bilərəm?..

Nazilə Şahbazla Asifdən sonra, iş yerində, kitabxanada tanış olmuşdu. Daha doğrusu, bu tanışlığa Şahbaz özü can atmışdı. Onda hələ elmi dərəcəsi-filanı yoxdu. Gününü Nazilələgilin kitabxanasında keçirərdi. Bəhanəylə minbir kitabın adını sadalayar, gözünü ondan çəkməzdi... Küçədə arxasınca düşsə də Asifə görə heç zaman yaxinlaşmazdı. Ziyalılığına, savadına yaman güvənirdi. Nazilənin tezliklə bunun fərqinə varacağını, Asiflə müqayisədə onun üstünlüyünü qiymətləndirəcəyini, seçimini dəyişəcəyini düşünürdü...

Ancaq Nazilə artıq Asifi sevirdi. Gözündə yalnız o idi! Hər hansı üstünlüyünə görə onu Şahbaza dəyişməyi ağlına da gətirmirdi...

Asiflə evlənəndən sonra Şahbaz Naziləndən ümidini üzdü. Kitabxanadan da ayağını kəsdi. Sonralar Nazilə Şahbazı bir dəfə televizorda gördü, vəssalam...

* * *

Nazilə Asifdən təzəcə ayrılmış, rəsmi şəkildə boşanmışdı. Bir gün Zabilə işdə onu kənara çəkib uzada-uzada dedi:

- Bilirsən dünən küçədə kimi görmüşəm?..

- Kimi görmüsən?.. - Nazilə elə bildi Asifi görüb. O saat ürəyi əsdi.

- Şahbazı. Yadındadı də Şahbaz?..

- Yadımdadı. - Nazilənin rəngi üstünə gəldi.

- Təsəvvür edirsən hələ də evlənməyib... - Gözlədi ki, Nazilə niyəsini soruşacaq, soruşmadı. - Başı elmi işlərinə qarışıbmış. Elmi tədqiqat institunda vəzifə sahibidi. Doktorluq müdafiə etməyə hazırlaşır. Ayrılarkən səni xəbər aldı...

- Boşandığımı deməyəydin... - Nazilə tezcə dedi. Guya tələsməklə nəyisə dəyişəcəkdi.

- Niyə?.. - Zabilə təəccüblə soruşdu.

- Axı nə mənası var?..

- Bilsəm istəmirsən, deməzdim. Boşandığını eşidəndə təəssüfləndi...

* * *

Tezliklə Şahbaz təzədən Nazilənin iş yerinə gəlməyə başladı. Xarici görkəmi xeyli dəyişmiş, əməlli-başlı kişiləşmişdi. Amma sadəliyi, uşaq xasiyyəti elə əvvəlki kimi qalmışdı.

Günlərin bir günü çəkinə-çəkinə dedi:

- İcazə ver səni evinizə ötürüm, Nazilə...

- Bu, əlavə dedi-qoduya şərait yaratmaqdı, Şahbaz. - Naziləni ən çox qorxudan dedi-qodu, şər-şəbədəydi. Cavan qız deyildi ki, heç nəyi vecinə almayaydı. - Hamı kənardan bir-birinə gözdü.

- Olsun! - Şahbaz qətiyyətlə dedi. - Doğrudanmı, mən boş-boşuna vaxt itirən adama oxşayıram, Nazilə? Başına gələnlərdən az-çox xəbərdaram. Bəlkə bu, taleyin oyunudu, bizi bir-birimizə qovuşdurmaq istəyir?..

Həmin gün Şahbaz Naziləyə fikrinin ciddi olduğunu bildirdi. Yaxşı-yaxşı düşünmək üçün vaxt verdi.

Növbəti dəfə görüşəndə Hazilə yenə ona dəqiq bir söz demədi. Səhv addım atmaqdan qorxurdu. Çox da taleyin oyunundan heç kim sığortalanmamışdı.

- Heç bilmirəm sənə nə cavab verim, Şahbaz? - Nazilə dedi. - Axı mənim bir oğlum da var…

- Bilirəm, - Şahbaz dedi, - Zabilədən eşitmişəm… Sənin xətrinə mən hər şeyə, ona atalıq etməyə belə hazıram…

* * *

- Şadlığından tanrına təpik atma, Nazilə... - Zabilənin fikrini öyrənmək istəyəndə başına ağıl qoydu. - Şahbaz Asifin tayı deyil, ciddi adamdı…

- Dünən boşan, bu gün ərə get... - Nazilə onu narahat edən daha bir məsələni ortaya atdı. - Eşidib-bilən deyəcək, Asifin acığınadı...

Asif təzə tutulmuşdu.

- Kim, ay qız, kim deyəcək?.. - Zabilə acıqlandı.

- Qayınanamgil…

- Qayınanangildən qurtarmısan.. - Zabilə dedi. - Fürsəti əldən buraxma, bacım. Uşaqlı qadına şans hər gün verilmir. Bu gün-sabah yaşlaşacaqsan, üzünə baxan, oğluna yiyə duran olmayacaq. Mənimki, pis-yaxşı, bir gün buraxılacaq, qayıdıb gələcək xarabama. Sən kimi gözləyirsən?..

- Bədbəxt oğlu heç yadımdan çıxmır, Zabilə… - Nazilə tez-tez yuxusunda Asifi görürdü. Yuxularında Asiflə elə mehriban, elə xoşbəxtdilər!.. - Hərdən özümü lap unuduram. Qapının zəngi çalınır, qaçıram açmağa. Elə bilirəm gələn odu, Asifdi…

- Ay qız, sən lap dəli-divanəsənmiş!.. - Zabilə mat qaldı. -Belə görürəm bütün bü həngamədən sonra yenə bağışlayardın onu?..

- Hər halda, bu dəfə onunla tamam başqa cür davranardım, Zabilə. - Nazilənin gözləri yaşardı.

- Can bacı, üzülmə. Günah özünündü, özü də cəzasını çəksin.

- Elə bilirəm günahın çoxu mənimdi, Zabilə…

Nazilə Asifin tutulduğunu eşidəndə dünya başına fırlanmış, hönkürüb ağlamışdı…

* * *

Bayırda külək sakitləşib quzuya dönmüşdü. Əl-ayaq küçələrdən tamam yığılmışdı. Hamı, dünyanın özü belə yatmışdı. Şirin, nağıllı yuxular görmək həvəsiynən...

Qış fürsətdən istifadə edib aram-aram, səssiz-səmirsiz yağan qardan dünyasına ağappaq yorğan tuturdu. İrili-xırdalı evlərin, binaların kor qalmış göz kimi qaranlıq pəncərələri arzu, ümid dolu səhərin açılmasını gözləyirdi. Səhər hökmən açılacaqdı. Günəş də doğacaqdı. Amma bu qış günəşindən sən deyən elə bir hərarət ummaq sadəlövhlükdü. Taleyin gecikmiş təbəssümü kimi soyuq-soyuq işıldayacaq, qızarıb-bozaracaqdı…

# Q i s a s

Qisas fikri hadisənin özü kimi qəfil, gözlənilmədən doğulmadı. Tədricən, hətta sonrakı hadisələrin, kənar amillərin təsiri ilə formalaşıb möhkəmləndi...

* * *

Gün adi, mülayim bir qış günü idi. Amma Sabir müəllimin əhval-ruhiyyəsi adi deyildi. Adidən heç olmasa bir az yuxarıydı. (Bu cür əhval-ruhiyyə ilə bir tərəfdən mərdiməzara tuş gələcəyindən qorxursan, mərdiməzarı axtarıb-axtarmamaqla deyil, o biri tərəfdən nəsə xeyirxah bir iş görmək həvəsinə düşürsən.) Bilmirdi niyə? Yaxşılığa doğru nəsə dəyişməmişdi. Nəzərə çarpacaq bir dəyişiklik vardısa, o da xarici görkəmindəydi. Palto-plaşsız kostyumunun altından təsadüfdən-təsadüfə geyindiyi ağappaq köynəyindən toya, ya da harasa vacib görüşə, tədbirə hazırlaşana oxşayırdı. Qalstuku çatmırdı, onu da cavanlıqdan xoşlamırdı. (Olmağına varıydı ha, almamışdı, arvadı, qızı ad günündə-zadda köynəyi ilə dəst bağışlamışdı.) Axırıncı dəfə haçan, nə münasibətlə, ümumiyyətlə, ömründə neçə dəfə qalstuk bağladığını düz-əməlli xatırlamırdı… Bir də, indi bu saat getdiyi yer nə qalstukluqdu, nə də palto-plaşlıq. Oğlunun dükanı (Sabir müəllim özü tikdirmişdi) evinin böyründəydi (üşüməyə vaxt olmayacaqdı), ora gedirdi. Naharda-zadda müvəqqəti onu əvəz edirdi. Alver deyilən şeydən zəhləsi gedirdi. Di gəl

dolanışıqları dükandan çıxırdı, məcburdu. Boş qalanda başını qatmaq üçün özüynən qəzet, curnal, yaxud kitab da götürürdi…

* * *

Dükanın qabağında maşın dayananda eynəyinin üstündən pəncərəyə ötəri bir nəzər saldı. Şüvərək, sarımurquz, yemişbaş oğlan içəri girəndə (əvvəllər dükanlarında olmuşdu, oğlunun dediyinə görə, polis rəisinin sürücüsüydü) müştəri qisminə sayğı mə′nasında (oğlana qalsa hərəkəti, danışığı, özündən müştəbehliyi adamı əsəbləşdirirdi) qəzetini, eynəyini yığışdırdı. Oğlan (mülkü paltardaydı) özü küçədəki adamlardan, sürdüyü ″Ciquli″ də (06-ydı) qeyri maşınlardan seçilmirdi. Yəni fərqlənmə nişanı-filanı yoxdu ki, baxanda deyəydin, bax, bu, polisdi, bu da polis maşını…

- Bu tozsoran neçəyədi?.. - Oğlan salam-kalamsız soruşdu.

Karın könlündəki, ayağını kandardan içəri basandan birinci növbədə salam-kalam (mərifətin ilk işartısı ) eşitdiyinə və ona uyğun kökləndiyinə görə nə dediyini yaxşı başa düşmədi. Üzünü yana tutması məsələni bir az da qəlizləşdirdi.

- Bacıoğlu, nəyi soruşdun?..

Oğlan əl atıb piştaxtanın üstündəki tozsoranı quyruqladı. Qiymətini görəndə təəccüblə geri döndü.

- Necə?.. On şirvan? Bəs dedilər, kitayskilər ucuzdu?..

Sabir müəllim oğlanın "artistliyinə" əhəmiyyət vermədi.

- Aşağı yeri neçədi?.. - Oğlan alan adamlar kimi çənə döydü. - Yaxşı qiymət de ha, rəisin kabineti üçün götürəcəyəm...

- Doxsan beş min… - Sabir müəllim candərdi dilləndi.

- Doqquz şirvan yarım? Əşi, nə danışırsan?.. - Ağzını nırçıldadaraq mərifətsiz-mərifətsiz kəhildədi. Sonra da sərt bir hərəkətlə geri dönüb qapıdan çıxdı.

Pəncərədən oğlanın sükan arxasına keçdiyini görüb (sağ tərəfdə kimsə oturmuşdu) maşının tərpənməyini gözləmədən qəzetini, eynəyini qaldırdı. Az sonra qapıda ayaq səsi, hənirti eşidib qəzeti təzədən gözündən araladı.

Hündürboy, pəhləvana oxşayan cantaraq, qarayanız, qalın qaraqaş, lopabığ, yekədodağın biri ona sarı saymazyana bir nəzər

fırladıb dəvə yerişiynən bayaq yemişbaş oğlanın (dabanqırma müşayət edirdi) quyruqladığı tozsorana doğru addımladı.

- Neçəyədi, ə, bu tozsoran?..

Herti-pertinin saymazyana duruşu, baxışı, qanacaqsız müraciəti Sabir müəllimə bərk toxundu. Elə təkcə yaşda kiçikliyi (görkəmindən məlumdu) ona bu haqqı vermirdi. Oğlanın kölgə davranışından bu adamın şefi, başqa sözlə, vəzifə, hökm sahibi (yəqin polis rəisi buydu) olduğu anlaşılırdı. O da mülkü paltardaydı. Başqa sahədə çalışanlar üçün xidməti paltar məcburi sayılsa da yüksək çinli polis məmurlarının təkəş-təkəş mülkü geyimdə gəzmələrinə nədənsə irad tutulmurdu…

- Üstündə yazılıb... - Sabir müəllim saymazyana münasibətə saymazyana da cavab verdi, mərifət dərsi kimi. Hesabla, vəzifə sahibi ikiqat mərifətli, nəzakətli olmalıydı.

- Bu nədi, ə, on şirvan?.. Odey o tərəfdə dörd şirvan yarımdı... - Harasa üzüyuxarı, çox uzaq qolaylandı.

İlahi, bu pəzəvəng üstünü unlu görüb ona necə də həqarətlə baxırdı…

Sabir müəllim əsəblərini zorla cilovlasa da pis çıxıb-çıxmayacağını düşünmədən:

- Varsa, on dənə gətirin, altı şirvandan götürək, - dedi.

Pəzəvəng bərk tutuldu. Qalın, qara qaşlarının arası düyünləndi. Sir-sifətindən zəhrimar yağa-yağa piştaxtaya yaxınlaşdı. O üzdən bu üzə, Sabir müəllimə sarı bağıra-bağıra əl-qolunu ölçdü.

- Bay sənin ananı... - Ağzını söyüş anbarı, söyüş kahası kimi açdı.

Sabir müəllim bunu qətiyyən gözləmirdi. Həm də belə bir adamdan. Özünü itirmiş halda:

- Ağzını təmiz aç… - dedi. - Mərifətli danış… - Sanki başına söz qəhətdi, qırıq val kimi eyni şeyi təkrarladı. Niyə söyüldüyünü bilmirdi. Axı qarşısındakını nə söymüş, nə döymüşdü…

- Kəs, sənin!.. - Pəzəvəng piştaxtanın ayağından fırlanıb Sabir müəllimin üstünə ley kimi şığıdı. - Ə, sən bilirsən kimnən danışırsan? Məni tanımırsan?..

Sabir müəllim dedi ki, tanıyıb-tanımamağın məsələyə nə dəxli? Ayağa qalxıb daha nəyisə ona başa salmaq, aydınlaşdırmaq istədi.

- Ə, mən səninçün alverçi-zadam?.. - Yumruğunu Sabir müəllimin gözünün qabağında dəyənək kimi oynatdı.

- Axı mən nə bilim kimsən?.. - Artıq yüz faiz əmindi ki, bu, polis rəisidi.

- Ə, sən öl səni dəli mal kimi çığnayaram! Ənginə birin vurram, dişlərin qarnına dolar! - Sabir müəllimlə yanaşı dayanan rəis nağıllardakı divə oxşayırdı. Bəlkə də onu belə coşduran vəzifəsindən çox elə bu üstünlüyüydü. - Keç bu tərəfə, ə! Magazanı bağla, düş qabağıma! Sənin... - Şortu arvadlar kimi yenə ağzının zir-zibilini ətrafa dağıtdı.

- Dedim ki, söyüş söymə… - Sabir müəllim ha istəyirdi daxili xariciynən uyuşmayan bu əndirəbadi adama elə öz söyüşlərinin çəkisi bərabəri ağır bir cavab versin, bacarmırdı. Nəsə, hansı qorxu hissisə buna mane olurdu... - Qapının açarı oğlumdadı. Nahara gedib, indi gələr, hara lazımdı gedərik…

- Ə, tez elə, sənin!.. - Hər dəfə ağzını açanda Sabir müəllimin nümayişkaranə şəkildə burnunu tutması rəisi bərk təəccübləndirməklə bərabər bərk də əsəbləşdirirdi. - Ə, axı sən kimə güvənib mənnən belə danışırsan?.. - Bu lap oğru neynədi, doğru bucağa qısıldıya oxşasa da rəisin hərdən belə alt-üst vurması kəşffiyyat xarakterliydi. Daxilən özünə tam arxayın olmadığını göstərirdi. Yəqin ehtiyatlanırdı ki, birdən Sabir müəllimin əli böyüklərin ətəyində olar, söyüş-fərşə görə sonra başı ağrıyar.

Yemişbaş oğlan yaxınlaşıb kassanın daxılını çəkəndə Sabir müəllim qıraqdan üstünə qışqırdı:

- Əlini çək, ə! Nə axtarırsan orda?..

- Açarı… - Oğlan o saat gerilədi.

Dükanın açarı, doğrudan, oğlunun cibindəydi. Ehtiyat açarını götürməyi unutmuşdu. Rəisdən betər sürücüsünə hirslənməsi isə, bir növ, eşşəyə gücü çatmayıb palanı toqqaşlamasıydı. Palan da palanlığında qalmırdı axı…

- Ə, qurtar, bizi məəttəl qoyma!.. - Gözləməyə səbri çatmayan rəis Sabir müəllimi bayıra çıxardıb dükanın qapısını çəkdi. - Şöbəyə gedəcəyik!..

- Mənim şöbədə nə işim var?.. - Sabir müəllim indicə “hara lazımdı, gedərik”, desə də rəisin gerçəklədiyini görüb üzünə qabardı.

- Ağzına gələni deyir, söyüb təhqir edirsən, sonra da şöbəyə aparırsan?..

- Sən hələ məni tanımırsan!.. - Rəis əlini əsəbiliklə sinəsinə döyüb yerində fırlandı.

Sabir müəllim az qaldı desin, mənim eşidib-bildiyim rəissənsə, rayonda səni hamı çırtqoz, yetənə yetən, yetməyənə bir daş atan pis, murdar adam kimi tanıyır. Tuği-lə′nət olub keçmisən camaatın boğazına. Demişdilər, səndən uzaq olum, amma mərdiməzardan qaçmaqla deyil...

Yolun qırağında bir ″Ciquli″ dayandı. Polis formasında düşüb rəislə görüşən kapitan tanışdı. Neçə dəfə Sabir müəllimgildən mal almışdı. Axırıncı dəfə aldığının pulunu borclu qalmışdı. Uzatmağından vermək fikrində olmadığı anlaşılırdı.

- Ə, bunun, - rəis Sabir müəllimi göstərdi, - dükanını bağlatdır, özünü də tez şöbəyə gətir, eşitdin?.. - Maşınına doğru addımladı.

Kapitan belə bir vaxtda gəlib çıxdığına peşiman olan adam kimi çönüb bir Sabir müəllimə baxdı, bir rəisə, ürəksiz, xalaxətrin qalmasın dil buladı:

- Rəis, münasib adamdı ey…

- Ə, gətir ora, görüm kimə arxayındı məni saymır?..

Rəisin maşını özü kimi iddialı, əsəbi şəkildə asfaltı cırmaq-layaraq yerindən tərpənəndən sonra kapitan Sabir müəllimə yanaşdı.

- Müəllim, noolub axı?..

Hamısını artırıb-əskiltmədən danışdı. Kapitanın hər hansı bir təmənnasız köməyinə bel bağlamağa dəyməzdi. Bir də özünü heç günahkar da saymırdı…

Nahardan qayıdan oğluna tapşırığını verib kapitanın maşınına əyləşdi. Rəşid arxadan soruşdu:

- Ata, bəlkə mən də gəlim?.. - Oğlu hələ nə baş verdiyini bil-məsə də polisi, dükanın qabağına yığışan, böyür-başda hərlənən adamları görüb həyəcanlanmışdı.

- Narahat olma, indi qayıdıram… - Toxtaq dedi ki, pis fikirlərlə beynini yormasın.

Bir də burda nə vardı? İntahası ilanın ağına da lənət, qarasına da, polisin özbaşınalığına görə adı beddamdı. Çoxu sanki bu

millətdən deyildi. Polis paltarını əyninə geyinən kimi qudurub adamları dalayırdı. Sanki hər nə vardısa o paltarda vardı. Bəlkə qurd yağı sürtüb verirdilər?..

Yolda kapitan Sabir müəllimin keçmişdən-keçəcəkdən rəislə nəsə bir ədavəti, haqq-hesabı-zadı olub-olmadığı ilə maraqlandı. Sabir müəllim dedi, nə haqq-hesab, canım? O kim, mən kim?..

İki daşın arasında kapitana borcunu andırdı-nəydisə, o da dolayısı ilə, bir növ, cavabını qaytardı ki, xətrinə dəyməsin, müəllim, nəsə belə qəribə adamsan ey. Başqa sözlə, zəmanə adamı deyilsən. Dil tapıb yola verməkdənsə işin keçən adamların hərəsini bir cür özündən narazı salırsan. Rəis demiş, bəlkə, doğrudan, kiməsə arxayınsan, xəbərimiz yoxdu?..

Sabir müəllim gördü beləsini qandırmaq onluq deyil, mənalı bir təbəssümlə başını bulayaraq yerində qurcalanmaqla kifayətləndi…

Kapitan bəlkə də ondan tamam başqa bir cavab, başqa bir hərəkət gözləyirdi. Məsələn, dil-fillə peşimançılığını bildirəcəyini, nəsə boyun olacağını, əvəzində rəislə onu barışdırmağı xahiş edəcəyini…

* * *

Bölmənin girəcəyində Sabir müəllimlə salamlaşan növbətçi polis (tanışdı) him-cimlə xəbər aldı ki, xeyirdimi? ″Hə″, deyib başıynan təsdiqləsə də düşündü ki, bu xarabaya xeyirə gələn olur bəyəm?..

Kapitan koridorda ″gözlə″, deyib rəisin kabinetinə girdi. Sabir müəllim görüntü xatirinə (guya polis bölməsinə zorla gətirilməmişdi) əlini ağayanə belinə vurub ortalıqda gəzişməyə başladı…

Rəisin göstərişi nə oldusa kapitan otaqlardan birinin qapısını açıb Sabir müəllimi içəri çağırdı. Qabaqqabağa qoyduğu iki kreslonun ortasında qıvrılaraq pal-paltarlı yatan sıravi polis nəfəri səsə gözlərini ovuşdura-ovuşdura qalxıb üst-başını qaydaya saldı, furackasını başına keçirib əkildi. Yəqin növbətçilərdəndi, dincəlirdi, mərdiməzara lənət!..

Kapitan rəisin otağından əlində gətirdiyi ağ vərəqi, qələmi stolun üstündə nümayişkaranə şəkildə təkrar-təkrar sığallayıb sahmanlayaraq nəsə yazmağa başladı.

- Nədi, nə yazırsan?.. - Sabir müəllim kənardan eynəksiz aydın seçmədi.

- Rəis tapşırdı ki, protokol tərtib edim… - Dana gözü kimi iri gözlərini onun üzünə dirədi, yə′ni, mənlik bir iş yoxdu, buyruq quluyam…

Sabir müəllim polisin şərə-şürlə, cibə nə′şə-filan atmaqla adamları necə bədbəxt etdiyini çox eşitmişdi. Bu saat istədiklərini boynuna qoyar, yalançı şahidləri üzünə durquzar, üstəlik protokola qol da çəkdirərdilər. Neyniyəcəkdi?.. Tülkü tülkülyünü sübut edincə dərisini boğazından çıxarırlar. İş-işdən keçəndən sonra harayına çatsaydılar xeyri nəydi? Əslində, polisin onu tək, vəkilsiz, şahidsiz-filansız şöbəyə gətirməyə ixtiyarı yoxdu. Amma hünəriydi gəlməyəydi!.. Kağız üzərində yaxşı oxunan qanunlar əl tulası kimi məmurların, vəzifə sahiblərinin qulluğundaydı. Vəzifə zirehini yırtmaq, parçalamaq isə adi adama hələm-hələm nəsib olmurdu...

Sabir müəllim məsələnin buracan yoğunuyacağını gözləmirdi. Bəlkə də rəisi hürküdən, protokola, ehtiyat tədbirinə əl atmağa sövq edən onun hələ də özünü tox tutmağıydı...

- Qardaş, bu lap ağ oldu. - Sabir müəllim polis zabitini saxladı. - Get rəisinə denən, yekə kişidi, məsələni uzatmasın. Əks halda məcburam mən də yuxarılara, yerinə-yurduna, televiziyaya, qəzetə-filana şikayət edəm, aləmi bir-birinə qatam…

Kapitan bunu gözləyirmiş kimi qələmi kağızın üstünə qoyub otaqdan çıxdı. Aradan bir qədər keçmiş rəisin özü ilə geri qayıtdı.

- Ə, bilirsənmi səni təpiyimin altına salaram?.. - Rəis yumruğunu bayaqkı kimi təzədən Sabir müəllimin başı üzərində silkələdi.

Qəfil daxilində baş qaldıran gülməyini zorla boğan Sabir müəllim üzüyolalıqla dedi, bilirəm…

- Ə, sənin… - Sabir müəllimin sakitliyi, arın-arxayın tərpənməyi açıq-aydın rəisin əsəblərinə toxunur, onu haldan-təbdən çıxarırdı.

- Söymə, mərifətli danış… - Rəis əsəbləşdikcə Sabir müəllim daha artıq təmkinli olmağa çalışırdı.

- Ə, kəs… sənin… Mənə danışmaq öyrədəcəksən? Özün dükanda mənnən necə danışırdın?.. - Ağız-burnunu əyərək meymun kimi yamsıladı. - Əlində qəzet, gözündə açki... Sənin!..

Hə, aydındı, demək, rəisi qıcıqlandıran Sabir müəllimin qəzeti, eynəyi olmuşdu. Onun nəzərində satıcı heç nəydi. Hesabla, içəri girən kimi ayağına durmalı, üzünə gülməli, sürücüsü kimi qabağında quyruq bulamalıydı...

- Dedim ki, söyüş söymə, mən müəlliməm… - Sabir müəllimi bu ətarfda, qəsəbədə hamı "müəllim" çağırsa da çoxu heç bilmirdi bu nə müəllimlikdi? Çünki müəllimliyini (çoxdan atmışdı) görən olmamışdı, elə-belə, ağızdan-ağıza keçməydi…

- Bah, neyniyim, ə, müəllimsən, gözüm aydın!.. - Rəis yenə onun üstünə qıcandı. - Məndən yaşlı olmayaydın, görəydin əngini necə əzirəm…

- Əzərsən, əzərsən... - Sabir müəllim altdan yuxarı qanlı-qanlı baxır, toparlanıb bu pəzəvəngin çənəsinə karlı bir yumruq ilişdirməkdən özünü zorla saxlayırdı. Daxilən özünə təlqin edirdi ki, qanan qanmaza borcludu. Rəis bədəncə, can-cəsədcə nə qədər nəhəng olsa da onun nəzərində çürük ağac kimi içi boşdu. Ağıllı adam özünü belə ləyaqətsiz aparmazdı...

Bütün bunlar bəlkə də rəisin öz eşşərək hərəkətləriynən sərhəddi tamam aşdığını duymasından irəli gəlir, bir növ, xoflanırdı. Yəqin başqası səhvini özgə cür düzəltməyə cəhd edərdi. Bununku tülküsovruğuydu. Sabir müəllimin yaxşı yadındaydı, hələ orta məktəbdə işləyərkən bir dəfə o da özünü təxminən buna oxşar bir vəziyyətə salmışdı. Əsəbləşərək canını boğazına yığan şagirdini qeyri-məqbul sözlə təhqir etmiş, sonra özünü doğrultmaq, sözünün təsirini azaltmaqçün fırlatmağa, şər-şıltaqla şagirdinin dilini gödəltməyə çalışmışdı ki, valideyninə xəbərləməsin, xeyiri olmamışdı... İndi rəis yekəxanalığından elə-belə, adam balası kimi sakit geri çəkilməyi şəninə sığışdırmır, başından yekə qarışdırdığı qələtini, günahını öz qandığı kimi yumaq istəyirdi. Amma nə ağzından tökdüyü zir-zibil Sabir müəllimin işlətdiyi söz kimi siniriləsiydi, nə də Sabir müəllim uşaqdı…

* * *

Marşrut avtobusundan dükanın qabağında düşdü. Utandığından başını qaldırıb sual dolu baxışlarla ona tərəf gələn Rəşidin üzünə dik baxa bilmədi. Rəis tərəfindən təhqir olunduğuna, alçaldıldığına görə

xəcalət çəkirdi. Daxilini gəmirən bu dəhşətli hiss get-gedə daha da güclənirdi…

- Axı rəisin sənnən nə işi, ay ata?.. - Rəşid ucundan-qulağından nəsə bir şey öyrənmək ümidindəydi.

- Boş şeydi... - Oğlunu başından elədi. Axı nə deyəydi, olub-keçəni ona necə başa salaydı?..

Dükan qonşularının atmacalarını da cavabsız qoydu. Özünü bu günəcən ona xüsusi hörmət və sayğı ilə yanaşan adamların qarşısında əzilmiş, rəzil edilmiş sayırdı...

* * *

Evə gec döndü ki, hissləri bir az soyusun, əsəbləri sakitləşsin. Arvadının nəsə duymasını istəmirdi. Ancaq pis aktyor kimi rolunun öhdəsindən gələ bilmədi.

- Kişi, gözümə birtəhər dəyirsən?.. - Mətbəxdə biş-düşlə məşğul olsa da arabir bu biri otağa keçən Xalidənin iti baxışlarından nəyisə yayındırmaq qeyri-mümkündü. - Yoxsa ağrıyırsan?..

İstədi desin ki, ağrımağına ağrıyıram, arvad, amma bu ağrı o ağrıdan deyil, demədi. Anlaşılmaz şəkildə mızıldanmaqla kifayətləndi. Arvadı qayıtdı ki, nə deyirsən de, bayaq geyindirib-kecindirib dükana gülərüz, şən yola saldığım adama heç oxşamırsan...

Bayaq arvadı qapının ağzında Sabir müəllimə baxıb demişdi, göz dəyməsin, kişi, lap cavan oğlana oxşayırsan. O da qayıtmışdı, Məşədi İbadın sözü olmasın, mənim cavan oğlandan nəyim əskikdi?.. Hər ikisi gülmüşdü. Amma indi xatırlanan o xoş ovqatın özü belə əlavə utanc, sıxıntı gətirdi…

Ağıllı-başlı cavab almayan Xalidə gələn kimi oğlunu mətbəxə çəkib sorğu-suala tutdu ki, dədəyin qaş-qabağı açılmır, noolub?.. Rəşid cavab vermək əvəzinə stolun üstündəki almalardan birini götürüb xartıltıynan dişinə çəkdi, bir növ, vəziyyəti qiymətləndirmək üçün vaxt qazandı.

- Demək, gizlədirsən? Ata-bala sözləşmisiniz?.. - Xalidənin kəmhövsələliyi işləri korladı.

Rəşid başa düşdü ki, atası ona heç nə deməyib. Atasının yanına keçdi. Sabir müəllim özünü televizora baxan kimi göstərsə də fikri onlardaydı. Oğlunun salamını alıb Xalidəyə sarı döndü.

- Az, nə istiyirsən gədədən? Dedim, bekara söhbətdi də...

- Bekara söhbətdisə ata-bala məndən niyə gizlədirsiniz?.. - Haqlı sözdü.

Sabir müəllim polislə ağızlaşdığını söylədi. Arvadının sakitləşmək əvəzinə daha da həyəcanlandığını görüb ucundan-qulağından bir az xırdaladı. Hətta rəis tərəfindən söyülüb təhqir olunduğunu da boynuna aldı. Axırını da miyanə bir sonluqla yekunlaşdırdı, guya bütün bunlar hamısı adi anlaşılmazlıqdı…

- Bu boyda anlaşılmazlıq olar? - Arvadı hikkələndi. - Gərək o səni bir söyəndə, sən onu lap iki söyəydin! Noolsun ki, polisdi, rəisdi, nə bilim nədi, gözümüz aydın...

- Söyə bilmədim, arvad… - Sabir müəllim günahkar uşaq kimi başını aşağı saldı…

- Ata, rəis səndən sonra şoferini göndərmişdi. - Rəşid məqamında araya söz qatdı.

- Nə istəyirdi?..

- Gəldi ki, bəs rəis xahiş eləyir tozsoranı versin, pulunu sonra ödəyərik…

- Verməyəydin!.. - Sabir nüəllim tez dedi. Guya azca da ləngisəydi, iş-işdən adlayacaqdı.

- Vermədim də. Dedim, nisyə mal satmırıq…

- Yaxşı eləmisən! Həyasız oğlu, həyasız!.. - Sözün rəisə, yoxsa yemişbaşa ünvanlandığı anlaşılmadı… - Artıq-əskik danışmayaydın, ilana ağı verəndi, hamısını aparıb qoyacaq köpəyoğlunun ovcuna… - Daldan atılan daş kimi atdı.

- Nə itdi ki! Dedim, ə, ayıb deyil, burdan atamı şöbəyə aparır, ordan xahişə adam göndərir?..

- Bəs o, nə dedi?.. - Mənasız uculama oğlunun, arvadının fikrini özündən yayındırmaq, azdırmaqdı. Şükür ki, rəis onu söyəndə oğlu yanında olmamışdı. Oğlundan keçməz, yaxud oğlu dikbaşlıq edər, söyüş-fərşin axırı tamam başqa cür qurtarardı.

Oğlunun, necə deyərlər, qabağından yeməməyi bir tərəfdən Sabir müəllimin xoşuna gəlir, qürur duyurdusa, o biri tərəfdən hərdən onu qorxudurdu. Xatalı zəmanəydi. Mənliyi olanı sevmir, gözümçıxdıya salırdılar. Son vaxtlar "qorxulu baş salamat olar" prinsipinə haqq qazandırırdı. Halbuki cavanlığında bu məsəlin zəiflər,

qorxaqlar, yaltaqlar tərəfindən toqqaşdırıldığını düşünərdi. İndi, illər ötəndən sonra başa düşürdü ki, bu məsəli təcrübəli, hansı məqamdasa başını salamat saxlamaq xatirinə mənliyinin tapdanmasını güzəştə gedən atalar söyləyib. Gəncliyə ildırım çaxmasını andıran cəsarət, "ağıllı fikirləşincə, dəli vurdu Kürü keçdi" məsəli xasdı. "Ağıllı" təcrübəli, başı daşdan-daşa dəyən, gözü qorxan, "dəli" beyni qan cavan kimi (qorxu-hürkü qanmaz) başa düşülməliydi…

Gözü haçan, necə qırılmışdı, bilmirdi. Yaşının bu çağında itiriləni təzədən geri qaytarmaq mümkündü, ya yox, bunu da bilmirdi. Amma yaxşı bilirdi ki, çətini insanın öz idealına, amalına bir və ya iki dəfə xəyanət edincədi. Sonra yavaş-yavaş buna alışır, öyrəşirsən... Dəhşət də elə bundan sonra başlanır...

Sabir müəllim, necə deyərlər, bəxti gətirməyən, taleyi kəm elm adamıydı. İnstitutda elmi işçi kimi fəaliyyətə başlamış, tez bir zamanda namizədlik müdafiə etmiş, nəfsinin ağası, şərəf və ləyaqətinin qulu kimi tanınmışdı. Partiya və dövlətə sədaqət göstərmişdi. Baxmayaraq ki, babası, dayıları repressiya dövrünün qurbanlarıydı…

Elm sahəsindəki uğursuzluğu doktorluq dissertasiyası ilə başlanmışdı. Bu, Brecnevin xətt-hərəkəti, siyasəti ilə bağlı böyük, samballı bir işdi. Rəhbər qəfil ölmüş, müdafiə dayandırılmışdı. Sonra bəzi fəsillərini dəyişib Sovet quruluşunun özündən təzə bir şey hazırlamışdı. Bəxti yenə gətirməmiş, yenidənqurma yenidənqırmaya çevrilib hər şeyi alt-üst etmişdi...

Bəziləri üstüörtülü, bəziləri isə açıq-aşkar ona sataşır, deyirdilər, fərqi nədi, qollarını çırmala indi də Qorbaçovdan yaz… Arada dolanışıq xatirinə kimlər üçünsə bir-iki namizədlik dissertasiyası, kitab, curnal məqaləsindən başqa (hər birinə ürəyinin qanını axıtmışdı) heç nə yazmamışdı. Onları əşya kimi satın alıb üstünə öz imzalarını qoyanlar (yazılarını yad imzalar altında görən Sabir müəllim körpəsini yarı zor, yarı xoş başqasına övladlığa verən ananın hisslərini keçirirdi) tez bir zamanda oxşar üsullarla vəzifə kürsüsünə, titullara yiyələnmiş, ona yuxarıdan aşağı baxmağa, gözümçıxdıya salmağa başlamışdılar. Ölkədə ara qarışıb məzhəb itəndən, bir növ, hər şey, o cümlədən işlədiyi institut da özəlləşəndən sonra Sabir

müəllim maddi sıxıntıya, illah da iyrənc ab-havaya dözməmiş, işini könüllü tərk etmişdi. Neçə müddət ailəsini sınıq-salxaq maşınıynan ora-bura adam daşımaqla dolandırmışdı. Sonra şəhərdəki dədə-baba evini, mülkünü babat qiymətə satmış, qəsəbədən ucuzvari bir ev almış, qalan puluna da hazırkı dükanı tikdirmişdi. Bunu da ağlına qohumlarından biri salmışdı. Demişdi, oğlun da böyüyür, baş-başa verib işlədərsiniz..

Hərdən təsadüfən dəyərli bir şey oxuyanda və yaxud eşidəndə elmə, kitablara olan hədsiz həvəsi, sevgisi, hiss-həyəcanı yatmış vulkan kimi qəlbinin dərinliklərində təzədən oyanır, bütün vücudunu titrədirdi. Həmin anları çox ağrılı keçirirdi…

* * *

Sabir müəllim sübhəcən yerinin içində eşələndi. Hadisəni bütün təfərrüatı ilə dönə-dönə yadına salır, arabir, necə deyərlər, imam üçün ağlayanda yezid üçün də ağlayır, yə'ni özünü də günahlandırırdı. Gərək hisslərini cilovlaya, rəisə kobud cavab verməyəydi. Hər halda, rəis rəisdi... O saat da daxilindəki birinci məni ikinciyə etiraz edirdi. Tutaq ki, kobud cavab vermişdi. Rəis də kobud, lap ikiqat kobud cavab qaytaraydı. Daha o cür iyrənc söyüş-fərş hara sığandı?.. Barı görəsən hirsi soyuyandan sonra öz hərəkətlərinə görə o da peşimandımı? O söyüşlərə görə heç vicdan əzabı çəkirdimi? Yoxsa söydükcə qarşısında Sabir müəllimin necə aciz-avara qaldığını yadına salıb şellənirdi özü üçün? Bəlkə hansısa çoxmərtəbəli söyüşünü söyməyi unutduğuna, yumruğunuənginə çaxmadığına təəssüflənirdi?..

Fikirdən həm ürəyi, həm də dişi ağrıdı. Dişi çürükdü, arabir ağrısa da sakitləşirdi. İndi üzə durmuşdu. Bu ağrılar, fikir-xəyallarla səhərə yaxın bir az mürgülədi…

Yuxuda gördü ki, rəisdən nazirinə şikayət edib, qəbulundadı. Nazir Sabir müəllimin yanındaca utanıb-çəkinmədən rəisi lap elə onun özü kimi çoxmərtəbəli, ədəbsiz söyüşlərlə yuyub sərirdi. Arabir nəfəsini dərib xoruz səsi eşitməmiş söyüşlər tapır, rəisi təzədən çamura batırırdı. Sanki özünü göstərirdi. Yə'ni mən rəisdən də çox, sənin heç eşitmədiyin, bilmədiyin (nazirəm axı) söyüşləri də bilirəm. Söydükcə ağzı köpüklənir, köpükləndikcə dişlərini qıcayır, rəisin

yumruqlarından da iri, ağır (nazirdi axı) yumruqlarını demokl qılıncı kimi rəisin başı üzərində oynadır, amma aşağı endirmirdi. Rəis də elə bil bunu bilir, gözünü də qırpmırdı. Onun əvəzinə Sabir müəllimin ürəyi əsirdi. Az qalırdı nazirin yumruğunu göydə tutsun...

Sonra nazir yalançı, qısır göy gurultusuynan nərildəyib-guruldayıb birdəncə sakitləşdi. Göz-qaşla rəisə çımxırdı:

- Ə, başından yekə qarışdırdığın qələtə görə müəllimdən üzr istə, həm də yaxşı-yaxşı üzr istə! - Tülkü cildinə girən rəis hardan, necə başlayacağını bilməyib bir az ləngidi. - Tez ol, ə, kəmsər gədə! - Nazir tələsdirdi.

- Atam-anam sənə qurban, a müəllim müəllim! - Rəis yad, gövdəsinə yaraşmayan bir səslə cığıldadı, nazir qulluğundaydı axı. - Bir qələtdi qarışdırmışam əbəcdadımla. Məni balalarıyın başına çevir, keç günahımdan. Ailəm, uşaqlarım var, onlara qıyma!..

Sonra mağmın-mağmın Sabir müllimdən nəsə bir söz, bir hərəkət gözlədi. Onun karıxdığını görüb şefinin, nazirinin üzünə baxdı. Nazir, deyəsən, Sabir müəllimin razı qalmadığını düşünüb təzədən göy gurultusu kimi guruldadı, ildırım kimi çaxdı.

- Ə, əməlli üzr istə!..

- Baş üstə nazir müəllim! - Rəis tülküləndi. - Bəlkə ayaqlarına döşənim, ayaqlarından öpüm?.. - Ayaqlarına düşmək istəyəndə Sabir müəllim mane oldu.

- Bəs könlündən keçən nədi, qardaş?.. - Nazir təəccübləndi. - Bağışlamaq fikrin yoxdu?.. Deyirsən, yəni bu köpəyoğlunun mitilini ataq bayıra?.. Cınqa-cınqa balaları var axı…

- Mən rəisin öz günahını həqiqətən başa düşüb-düşmədiyini doğru-dürüsüt bilmək istəyirəm... - Nəhayət Sabir müəllimin ağzından qıfıl götürüldü. - Peşimandımı?.. Özü özünü bağışlayardımı?..

- Ayə, ay müəllim, bizi avara qoyma. - Nazir cığalladı. -Mənə onun yox, sənin onu bağışlayıb-bağışlamadığın lazımdı. Düzünü de, bəs eləmədisə, sən də onun ana-bacısını, arvad-uşağını (arxayın ol, hamısı cağbacağdı), nəslini-nəcabətini, yeddi arxa dönənini (çatar çatar, batar batar) üzünə qarşı söy. Belə lap heç birimizin (özünü, rəisi göstərdi) indiyəcən eşidib-bilmədiyimiz söyüşlərlə söy-bula. Bəlkə sən bizdən yaxşı söyəcəksən? Yadına düşmür, söyüşləri də yadına salaq. Təki ürəyindən tikan çıxsın. - Sabir müəllim yenə din-

mədi. - Başla də nəyi gözləyirsən, müəllim? Qorxursan?.. Qorxma, mən olan yerdə dilini tərpədə bilməz! Dibindən kəsərəm!..

Sabir müəllim birdən-birə rəisi ən pis söyüşlərlə, heç olmasa onun öz söyüşləri ilə söymək istədi. Görərdi necə sinirir... Di gəl nə qədər fikirləşdi, baş sındırdısa nəinki rəisin söyüşlərini, başqa, ən adi söyüşləri də yadına sala bilmədi. Düzünü axtarsan, axırıncı dəfə haçan söyüş söydüyünü xatırlamırdı. İstər kişi, istər qadın olsun, yanında söyüş söyəndə özünü pis hiss edər, söyənin əvəzinə xəcalət çəkərdi. Bir dəfə onu bərk hirsləndirənə ağzını doldurub yekə bir ″donuz″ demişdi. Həmin adam da bu söyüşü uşaq konfet qapan tək göydə qapmış, gülüb özündən getmişdi. ″Ə, sən heç əməlli-başlı söyüş də söyə bilmirsən,″ demişdi…

- Nooldu, ay müəllim?.. - Nazir əsəbləşdi. - Rəhmətliyin oğlu, söyüş nədi söyə bilmirsən?.. Yaxşı, bəlkə sənin əvəzinə elə mən özüm bir partiya da söyüm, raşot olun, hə?.. Yoox?.. Di onda döşə qabırğasına!..

- Ay sənin…

Sabir müəllim ağzını zırpı bir söyüşlə doldurmuşdu ki, qonşunun balkonunda banlayan (sanki qaqqanaq çəkib gülürdü) xoruz mane oldu. Kənddən pay gətirmişdilər, xoşuna gəlmiş, kəsməyə qıymamışdı…

* * *

Bütün günü ürəyi, dişi ağrıdı. Dərman atdı, ürəyi sakitləşdi, dişinin vecinə olmadı. Məzələnirmiş kimi öz-özünə sızıldayırdı. Nə bərkidən kimi bərkidir, nə də sakitləşən kimi sakitləşirdi…

Diş həkimi tanışıydı. Baxıb dedi, müalicəlikdi. Dirəndi ki, çək getsin, həkim. Bezmişdi.

- Müəllim, vallah, heyifdi... - Həkim ağzını açdırıb ağrıyan dişini ağacdələn kimi təzədən taqqıldatdı. - Böyründəkinin də yeri boşdu. Çəksəm, gələcəkdə bu araya diş salmaq olmayacaq. Calaq, körpü üçün diş qalmır...

- Çək, qadası, çək, vəssalam!.. - Sabir müəllim elə bil dünəndən bəri içini gəmirən, canını boğazına yığan bütün ağrı-acısının hayıfını çürük dişindən almaq istəyirdi.

- Çək, deyirsən, çəkim, müəllim. Amma gözüyün altına al ki, protezliksən... - Həkim nəsə gözləyirmiş kimi bundan sonra da astagəlliklə vurnuxdu. - İynə vurum?..

- Əşi, iynəni neynirəm!.. - Özgə vaxt iynəsiz razılaşmazdı.

Heç nə anlamayan həkim başını bulayaraq kəlbətini qapdı. Sabir müəllim cınqırını da çıxartmadı.

Amma bir dişlə canına dolmuş ağrı-acıdan yaxasını qurtara bilmədi…

* * *

Qəzet köşkünə çatar-çatmaz (dükanı ilə böyür-böyürəydi) içəridən çıxan qəzetsatan təzəcə uzaqlaşan ″Ciquli″ni ona göstərərək havalı kimi söyüb-söyləndi:

- Görürsən, müəllim, bu it oğlunu?.. - Maşın gözünə tanış dəysə də heç nə başa düşmədi. - Rəisdi də, o günü səni söyən. İki gündən bir gədələrini göndərirdi ki, təzə qəzet-curnal ver, verirdim. Bu səhər vermədim, dedim, bir sınayım, bəlkə gələn özyanından gəlir, rəisin heç xəbəri yoxdu? Axı nə qədər havayı qəzet-curnal paylayarlar, müəllim? Dədəmin zavodu var? O tərəf-bu tərəfə adlayanda birin uçastkovu götürür, o birin…

- Axırı nooldu?.. - Sabir müəllim dözmədi, yəni mustafasını de qurtar.

- Noolacaq? Köpəyoğlu durub basa-basa gəlib ki, qudurmusan ismarıcımı eşitmirsən? Söydü buladı. Gördüm dinsəm vuracaq, dinmədim. Neyniyim, müəllim? Dərəbəylikdi, nə bilirlər, onu da eləyirlər...

- Dişində şirə qalıb…

- Düzdü!.. - Qəzetsatan fərqinə varmadan təsdiqlədi. - İtoğlu qudurub hamını dalayır. Yaxında televizorda göstərdilər, beləsinin biri bir fağırın canını boğazına yığıbmış. Gözünə döndüyüm növbəti dəfə gələndə rus qibləsinə baltalayıb…

- Bu da gora salamat baş aparmayacaq... - Axırıncı sözlər Sabir müllimin ağzından qəfil çıxdı. Özü də bilmədi niyə, nə mənada dedi.

- Hanı canından bezmiş, müəllim? Qabaqkı kişiləri söymək olardı?..

Sabir müəllimə elə gəldi ki, qəzetsatan daşı məhz onun bostanına atdı.

- Əşi, onda dövran başqa dövrandı...

- Dövranda günah yoxdu, müəllim, qeyrətimiz korşalıb… - Qəzetsatan baltanı dibindən vurdu.

Sabir müəllim dedi, qeyrət neynəsin, adam arvad-uşaqdan keçmir… Dedi, o saat da fikirləşdi ki, arvad-uşaq da bir bəhanədi. Vuran oğul dədəsinə gənəşməz. Qeyrətli kişilərin də arvad-uşağı olub... Eh, bir də günah hamısı yaşadıqları mühitdə, cəzasızlığa rəvac verəndədi. Rəis cəzalanacağını bilsəydi, belə qələt qarışdırmaz, Sabir müəllim, qəzetsatan kimilər də qisas haqqında düşünməzdi. Qisas şərəf və ləyaqətin keşikçisi qanun korşalanda baş qaldırır...

Addımbaşı təhqirə məruz qalanlarının bir qismi qeyrətində boğulan, bir qismi qaçıb yad ölkələrə dağılan, qalan qismi də qeyrətinin qurbanı olan cəmiyyət bakirəliyi zorlanan qızın fahişəliyə sürüklənməsi kimi bir şeydi...

* * *

Sonrakı gün Sabir müəllim ayın-oyun alıb bazardan çıxanda qapının ağzında təsadüfən rəislə qabaqlaşdı. Baxışlarını yayındırsa da elə bil onu ildırım vurdu. Bədənindən bu vaxtacan nəmənəliyini duymadığı yad, qəliz bir cərəyan keçdi. Alnında soyuq tər puçurladı...

Sabir müəllim əvvəllər rəisin yalnız adını, bir də haqqında nəsə eşitmiş, üzünü görməmişdi. Bəlkə də görmüş, hətta neçə dəfə üzbəsurət gəlmiş, rastlaşmışdı da, amma tanımamışdı. Rəis də yəqin onun, Sabir müəllimin haqqında ucundan-qulağından nəsə eşitmişdi. Ancaq bütün bunlar, Sabir müəllimin onun haqqında, onun da Sabir müəllimin haqqındakı cüzi, natamam məlumatı bu günəcən rastlaşanda heç birində hər hansı bir mənfi hiss-duyğu oyatmamışdı. Bundan belə üz-üzə, göz-gözə gələndə rəisin hansı hissləri keçirəcəyini, onun haqqında nə fikirləşəcəyini Sabir müəllim istəsə də doğru-dürüst bilə bilməzdi. Bircə bu aydındı ki, rəisin hərəkətləri, Sabir müəllimə qarşı təcavüzü cavabsız qaldıqca onu hər görəndə, adını eşidəndə daxilində baş qaldıran qəliz hisslərin əlində beləcə acizləşəcək, yazıqlaşacaqdı...

* * *

Qapıdan girəndə özünü nə qədər tox tutsa da taksist Nazimin (hamı belə çağırırdı, qonşusuydu) sərxoş olduğunu duydu. Nazim ″taksavatdığını″ (özünün sözüydü) şəhərdə eləyirdi, günü orda keçirdi. Qəsəbədə onu az adam tanıyırdı. Qəsəbədəydi, həm də piyadaydısa, deməli, içmişdi. İçəndə sükan arxasında oturmazdı. Hərlənib-fırlanıb Sabir müəllimin dükanına baş vurardı. Həm də əvvəlcə pəncərədən diqqətlə içrəi nəzər salar, Sabir müəllimi görəndən sonra qapını açardı. Hər dəfə də uzun-uzadı, zəhlətökən söhbətləri ilə baş-beynini aparardı...

Taksist Nazimin də gözünün düşməni qaişnik Condu. Nazim demiş, bu adamda kişi sifəti yoxdu, bir sifəti vardı, qaişnik sifəti, bu da öz-özlüyündə elə çoxsifətlilikdi. Gözünə ala-bula dəyəni, basdığını kəsməliydi, necə deyərlər, havayı atasına da güzəştə getməzdi. Dükan-bazara girəndə isə dilənçidən betər ″ağlayar″, qiymət ″öldürərdi″…

Nazim yeri gəldi-gəlmədi oturub-durub hamının yanında (əlbəttə, içəndə, içməyəndə allahın dilsiz-ağızsızıydı, deyirdin bundan fağır, avam adam yoxdu) deyirdi ki, girəvə axtarır, bir gün qaişnik Conu öldürəcək. Maşınının, taksisinin altına salıb asfalta yapışdıracaq. Arvad-uşağın, lap elə öz boğazından kəsib bahali bir ″Samsunq″ cib telefonu almışdı. Həm telefon kimi istifadə edirdi, həm də qaişnik Conun ″Zil″, ″Kamaz″ maşınlarından ciblədiklərini çəkirdi. Guya ANS-ə göndərəcəkdi, amma göndərmirdi. Sərxoş vaxtı damarını tutan dost-tanışına göstərirdi. Sabir müəllimə də göstərmişdi. O da məsləhət görmüşdü ki, dilini dinc saxlasın, hər adamın yanında hər sözü danışmasın. Taksist Nazim inciyəntəhər olmuşdu. Sən elə bilirsən mən o şortu qaişnikdən qorxuram, demişdi. Qorxmuram! Qoy çatdırsınlar. Nə qədər gizlədim? Partlıyıram axı…

- Nə var, nə yox, qonşu?.. - Taksist Nazim adəti üzrə əvvəl dillənsə də Sabir müəllim fərqinə vardı ki, qonşusu ona nəsə həmişəki gözlə, həmişəki baxışla baxmadı. Dindirişi də həmişəki dindiriş deyildi, bu günəcən ″müəllim″ əvəzinə ona heç vaxt ″qonşu″ deməmişdi.

- Sağlığın…

- Qonşu, eşitdim rəislə bərk atışmısan?.. - Nazim ayıb söz danışırmış kimi böyür-başına boylanıb səsini lap qısdı.

Sabir müəllim dedi, boş şeydi. Sonra əlavə etdi ki, sənlik deyil. Hərdən adamlara öz yerini tanıtmağı, həddini bildirməyi çox istəyirdi.

- Balam, onun sənnən nə işi?.. - Nazim qulaqardına vurdu. - Sən hara, o hara?..

Sabir müəllim birdəncə istədi Nazimin qolundan tutub bayıra atsın, tez də fikrindən daşındı. Yenə qanan qanmaza (o da ola sərxoş) borcluydu.

- Qonşu, o köpəyoğlunun donuzgülləsicə əskikdi. Yetənə yetir, yetməyənə nədi o… güllə atır. - Əlində dolu torbası vardı, yəqin mağazadan gəlirdi, ağırdı-nəydisə tez-tez bir əlindən o birinə ötürürdü. - Amma sənin onun qabağından qaçmağın məni heç açmadı… - Üzündə qəribə bir ifadə dolaşdı.

- Kim dedi, ə, qaçmışam?.. - Bircə bu çatmırdı.

- Eşitdim də… - Gözünü qıyıb nırçıldadı. - Qonşu, sən taksist Nazimi elə-belə oğlan sayma! Qəsəbədə yox ey, bütün şəhərdə baş verənləri taksist Nazim elə həmin gün eşidir, bilir. Həm də dasqanalnı!.. Qardaşcanı…

- Nazim, onu da bilirsənmi keçinin əcəli çatanda buynuzunu gətirib çobanın çomağına sürtər?.. - Sabir müəllim rəislə baş verən insidentdən sonra ikinci dəfə hissə qapılaraq eynən taksist Nazim kimi yekə-yekə danışdı.

- Qonşu, belə başa düşdüm ki, çoban sənsən, keçi də rəis, hə?.. Ha-haa!.. Ay müəllim, day çoban-çomaq getdi ey!.. - Taksist Nazim söhbət əsnasında ilk dəfə ona "müəllim" dedi, lakin açıq-aydın bir rişxəndlə.

- Connan aran necədi ey?.. - Sabir müəllim birdən adət etmədiyi bir manevrlə bu xoşagəlməz söhbəti başqa məcraya yönəltdi. - Çəkdiklərini "İç xəbərə" göndərdinmi?..

- Hardan?.. - Nazimin əhvalı birdən-birə tamam qarışdı.

- Niyə bəs?..

- Yaxınlarda şəhərdən qayıdanda məni dördyolda (bilirsən də çox vaxt orda dayanır) saxladıb nə desə yaxşıdı? - Sabir müəllim dəm

tutmadı. - Mobilnini ver, bir nəfərə zəng vuracağam. Dedim, rəis, özüyün mobilninə su düşüb? Dedi, zaryadkası qurtarıb. Axmaq kimi o mamentdə ağlıma heç nə gəlmədi, çıxardıb verdim. Neynəsə yaxşıdı? Bir də ayıldım ki, fırladıb çəkdiklərimə baxır. Hamısına baxandan sonra qayıtdı ki, bu nədi, ə, agent köpəyoğlu? İndi də sukalıq eləyirsən? Dedim, əstəfurallah... Soruşdu ki, bəs niyə çəkmisən? Dedim, elə belə, özümçün çəkmişəm, bilmədim nə deyim. Dedi, mən sənə göstərrəm özünçün çəkməyi… Sonra da mobilnimi qatlayıb qoydu dədə malı kimi cibinə. Mən də ən axırıncı çuşka kimi dinməz-söyləməz başımı aşağı salıb oturdum maşına… Bir-iki dəfə yolda görüb yavaşıtmışam ki, bəlkə sözü-zadı var, gəldiyimi görüb üzünü çevirib, guya məni tanımır…

- Tanımır tanımasın də, saxla, mobilnini tələb et.

- Yox, bunu bacarmaram. Allah ölənlərinə rəhmət eləsin, babam deyərdi, bir su ki səni apardı, onu sel bil. Haram xoşu olsun, təki bundan belə mənə dəyib-dolaşmasın…

- Belə çıxır ki, Conu öldürmək fikrindən daşınmısan?..

- Nə bilim, vallah…

Taksist Nazim gedəndən sonra Sabir müəllim birdən-birə fikirləşdi ki, kaş rəisi öldürə biləydi. Uşaqlıqda ona sataşanı gücü çatmayanda xəyalən asıb-kəsər, tapdanan heysiyyatını, mənliyini bu cür sakitləşdirərdi. İndi nə o, uşaqdı, nə də düşməni. Vurulan yara da söz yarası, düşmən yarasıydı. Dərinə, iliyə işləmişdi. Layiqli cavab düşməni məhv etmək, öldürməkdi. Yalnız bundan sonra başını dik tuta, arvad-uşağının üzünə şax baxa bilərdi.

Ancaq taksist Nazim kimi niyyətini hər addımbaşı dilinə gətirməməliydi. Bayağılaşar, zarafata, oyuna çevrilərdi. Düzdü, artıq iki dəfə dözməyib sirrini ağzından qaçırtmış, daha doğrusu, belə bir fikrə düşdüyünə işarə vurmuşdu. Amma danışmaq başqa şeydi, işarə vurmaq tamam başqa. İşarəni kimdi başa düşən?..

* * *

- Ata, o günü rəis səni, doğrudan, pis-pis söyüb?.. - Aradan neçə gün keçəndən sonra oğlu onu təkləyib yenidən sorğu-suala çəkdi.

- Nədi ki?.. - Sabir müəllim bilmədi nə cavab versin.

Qəzetsatan rəis tərəfindən pis-pis söyüldüyünü nə münasibətləsə qonşu dükançılara danışırmış. Rəşid qayıdıb ki, niyə cavabını vermirdin?.. Qəzetsatan da deyib, rəis o söyüşlərlə məndən əvvəl atanı söyüb, atandan soruş, niyə cavab verə bilmədiyimi o, sənə daha yaxşı başa salar... Pərt olan Rəşid deyib, ola bilməz ki, rəis atamı söysün, cavabını artıqlamasıynan almasın, sənə baxma... Qəzetsatan and içib…

Sabir müəllim oğlunun gözünün içinə baxa bilməsə də qəzetsatanın andını başını tərpətməklə təsdiqlədi.

- Yəni əməlli-başlı söydü, lap ana-bacı söyüşüynən?..- Rəşid bunu heç cür ağlına sığışdıra bilmirdi. - Sən də dinmədin, cavabını vermədin?..

- Neyniyim, a bala, qudurğanın biridi. Gücüm gücünə çatmır…

- Ay ata, sən nə danışırsan, dərəbəylikdi?.. Quduran iti öldürərlər… - Rəşid bunları birnəfəsə deyib otaqdan çıxdı.

Oğlu cavandı, beyni qandı, həyatda hələ çox şeyi öz canı-qanı ilə yaşamamış, sındırılmamışdı. Görəsən özünə haqq qazandırmaq üçün desəydi, müqəddəs kitablarda belə düşmənini bağışlamaq böyüklük, ucalıq sayılır, oğlunun qulağına girərdimi?..

Qəribə, paradoks bir vəziyyət yaranmışdı. Rəisə güzəştə gedərkən ailəsini, arvad-uşağını da nəzərə almışdi. İndi günahını yumaq, oğlunun, arvadının gözünün içinə düz baxa bilmək üçün qayıdıb onu öldürməliydi…

* * *

Əvvəl bir para işlərini qaydaya salmalıydı. Evi, maşını öz adına deyildi. Sənədləşdirmə xeyli pul tutduğuna görə əksəriyyət kimi o da maşını etibarnamə ilə sürürdü. Dükan öz adınaydı, qohumlarından birinin adına keçirtməli, tutulardısa şəxsi əmlakının müsadirə edilməyəcəyinə arxayın olmalıydı. Zaman etibarsız, qanunlar miyanə, çay daşı kimi sürüşkəndi...

- Nədi, a kişi, dükanı satmaq fikrindən hələ daşınmamısan?.. - Dükanın sənədlərini axtaranda arvadı başının üstünü aldı.

Bu fikrə keçən ay düşmüşdü. Satıb, necə deyərlər, başqa bir işin qulpundan yapışmaq istəyirdi, arvadı mane oldu. Həm də fərli-başlı pul vermədilər. Dükanın satılması Rəşidin də ürəyindəndi. Cavandı, bütün günü onu dükanda oturtmaq quşu qəfəsə salmaq kimi

bir şeydi. Günün müəyyən saatını Sabir müəllim oğlunu əvəz etməsəydi, yəqin daha pis vəziyyət yaranardı...

Sənəd deyəndə, var-yox bir sərəncamdı. İcra hakimiyyətində onu başqasının adına neçəyə dəyişəcəklərini dəqiqləşdirməliydi. ″Kupça″lı dükanın alış-verişi asan olsa da özəlləşdirmənin həngə-hozarı çoxdu. Odu ki, dükan alıb-satan məsələni təzədən icra hakimiyyətində çürüdürdü. Sanki qanunları qəsdən alaşıq-dolaşıq, qırx qapılı, qırx açar-qıfıllı qurub-qoşmuşdular. Ayağı sürüşkən qadın kimi özü məmurları şirnikləndirir, yoldan çıxardırdı…

* * *

İcra hakimiyyətində mülkiyyət məsələlərinə baxan məmur dükanını başqasının adına keçirtmək istədiyini biləndə xəbər aldı ki, satır? Sabir müəllim dedi, qardaşına bağışlayır. Adını belə qoymuşdu, halbuki hələ qardaşının xəbəri yoxdu…

- Ayə, ay müəllim, birdəfəlik denən, satıram də... - Mənalı-mənalı qımışdı. - Bu saat heç kim heç kəsə heç nə bağışlamır....

- Niyə bağışlamır?.. - Sabir müəllim lap uşaq-uşaq soruşdu.

Qarşısındakı söz güləşdirmədi. Dedi, bağışladın, bağışlamadın, sərəncamı dəyişməyin ″dasqısı″ beş yüz dollardı.

- Beş yüz çox deyil?..

- Dasqını başçı kəsir. Biz ələbaxan, buyruq quluyuq…

″Hamınız buyruq qulusunuz. Sən icra başçısının, bəs o kimin? Xalqın, millətin qulu olan varmı?..″

Sabir müəllim gecə yuxusunda bu sualla soruşa-soruşa gedib çıxdı lap kəlləçarxa, prezident aparatına. Orda məsələ daha qəlizdi...

* * *

Sabir müəllim beş yüz dollardan başqa silah da tapmalıydı. Həm də elə silah tapmalıydı ki, özüynən gəzdirə bilsin. Nəzər-diqqəti cəlb etməsin. Sərfəlisi yenə tapançaydı. Hansı ki, üzünü bir neçə dəfə yalnız təsadüfdən-təsadüfə kənardan görmüşdü. Adi adamların açıq şəkildə tapança alması, onu üstündə gəzdirməsi qanunla qadağandı. Deməli, tapançanı gizli yolla əldə etməliydi...

Silah tapınca rəisi güdməli, nə vaxt, hardan gəlib hara getdiyi ilə maraqlanmalı, necə aradan götürəcəyini ölçüb-biçməliydi. Bununçün boş vaxt lazımdı. O da Rəşiddən asılıydı…

Rəşid əsgərə getməmişdən klassik güləşlə məşğul olsa da (axırıncı ili gənclər arasında respublika yarışında bürünc medal almışdı) gələndən alış-verişə girişmişdi. Bu da Sabir müəllimin həm boş vaxtını, həm də ümidini artırmışdı. Oğlunu sahibkar, gələcəyin biznesmeni görmək arzusundaydı. Zamanın diqtəsiydi...

Ancaq bir neçə gün əvvəl Rəşid birdən-birə təzədən idman çantasına pirlənmişdi. Dediyinə görə, idmana qayıtmışdı. Fərq ondaydı ki, güləşi atıcılığa dəyişmişdi, niyə, bilmirdi…

* * *

Bir də onda ayıldı ki, polis şöbəsindədi, rəisin qapısı ağzında dayanıb. Bura niyə gəlmişdi, düz-əməlli bilmirdi. Bəlkə özünü sınayırdı ki, görsün istədiyi vaxt içəri, şöbəyə girə bilər, ya yox?.. Rəisin işini elə öz kabinetindəcə bitirmək olardı...

Qəfildən açılan qapı sinəsinə dəydi. İçəridən çıxan rəislə üzbəsurət qaldı. Hər ikisi təəccüblə bir-birini süzməyə başladı. Birinci rəis dilləndi:

- Sən burda neynirsən? Nə lazımdı?.. - Həmişəki kimi üz-gözündən zəhrimar yağırdı.

- Heç... - Ağıllı-başlı cavab verə bilmədi. Rəislə qarşılaşacağını düşünməmişdi. Qapısı ağzında dayanmağı da bir təsadüfdü. - Hə, nədi adı, o kapitanın yanına gəlmişəm... - Yaxşı ki, bunu uydura bildi.

- Hansı kapitanın?.. - Rəis ona çox şübhəli baxdı. - Nəyinə lazımdı?..

- Şəxsi məsələdi… - Burdan beləsini düzüb-qoşmaqdan çox şey asılıydı. Gərək hamısı məntiqə uyğun olaydı.

- Əşi, nağıl danışma. Şəxsi məsələnin idarəyə, öz də polis idarəsinə nə dəxli?..

Sabir müəllim uzadaraq heç nədən rəisi daha artıq şübhəyə salmaq istəmədi.

- Dükana bir az borcu vardı. Burdan keçirdim, dedim, xatırladım, bəlkə yadından çıxıb... - Darmacala düşməsəydi belə bir şeyi heç zaman dilinə gətirməzdi. İki daşın arasında bundan yaxşı bəhanə tapmadı.

- Nə qədərdi?..

- Nə?.. - "Sənə nə?" demək əvəzinə dedi.
- Borcu…
- İki şirvan yarım…
Rəis onu xeyli tərs-tərs süzüb dedi:
- Ə, sən nə qəpişnik adamsan! - Sonra üzünü növbətçiyə tutub kapitanın yerində olub-olmadığı ilə maraqlandı. O da dedi ki, bayaq yerindəydi, harasa çıxdı. Rəis hirsləndi ki, onda bəs bunu (Sabir müəllimi göstərdi) niyə içəri buraxmısan?..

Növbətçi polis cavab verə bilmədi. Çünki Sabir müəllim qapıdan keçəndə postunu yiyəsiz qoyub beş-üç dəqiqəliyə tualetə getmişdi...

Yox, rəisi şöbədə, öz kabinetində öldürmək sərfəli deyildi. Növbətçi qapıda adamın üst-başını yoxlamasa da (Kimin ağlına gələrdi ki, dılğır bir polis bölməsinin rəisini günün günorta çağı girib kabinetində güllələsinlər?) içəri girəndə, yaxud çıxanda polis işçilərindən hansısa onu görüb tanıyacaq, yadında saxlayacaqdı. Sabir müəllim tanınmaq, tutulmaq istəmirdi…

* * *

Sabir müəllim polis bölməsinə ikinci dəfə rəisi kənardan güdmək, izləmək məqsədiynən təşrif buyurdu. Maşınını təxminən əlli-altmış metr aralıda saxlayıb bölməni müşahidə etməyə başladı. Ətrafda bekar-behdin fırlanan, tez-tez içəri girib-çıxan polis nəfərlərindən çoxunu üzdən tanıyırdı. Neçəsiynən "salamməlik" də vardı...

Bir qədər irəlidə, sağ tərəfdə avtobus dayanacağıydı. Sol tərəfdə ticarət cərgəsi uzanırdı. Polis bölməsiynən üzbəüzdə evlər idarəsiydi… Belə bir qələbəlikdə Sabir müəllimi kimdi itirib-axtaran?..

Yemişbaşın bölmədən çıxıb maşınına yaxınlaşması ilə polis işçiləri özlərini yığışdırdılar. Dalınca qapıda rəisin pəzəvəng gövdəsi göründü. Arxadan səs eşitdi-nəydisə çönüb kiməsə nəsə deyərək özündən razı halda təzədən maşına doğru addımladı. Qapını açıb oturacağa yayxanaraq sağ əliynən tutacaqdan yapışan kimi maşın yerindən tərpəndi...

Sabir müəllim ara məsafəsi saxlaya-saxlaya onların dalınca düşdü. Bir neçə küçəni ötüb yuxarı məhəlləyə buruldular. Rəisin maşını irəlidəki hündür hasarlı, iri, dəmir darvazalı mülkə çatanda dayandı. Tikilinin təzəliyi göz qabağındaydı. Sovetin dövründə pulu çatsa da rəisin belə bir saray ucaltmağa cəsarəti çatmazdı…

Xeyli aralıda, küçədəki ağacların arxasında daldalandı.

Demək, rəis evinə nahara gəlmişdi. Maşından düşməmiş darvazanın bala qapısı aralandı. Rəisin özü kimi pəzəvəng, şəppə-qulaq qara bir it başını bayıra çıxardıb ləhləyə-ləhləyə maşına sarı boylandı. İtin arxasında xaltasından yapışıb dartan bir oğlan uşağı dayanmışdı.

Yemişbaş it qarışıq uşağa yaltaqlandı ki, qucağındakı korob-kanı içəri keçirtməyə yol versin. Rəis qapıya çathaçatda ayaq saxladı. Deyəsən, əl telefonu çağırırdı, çıxardıb qulağına tutdu. Nə it gözə dəyirdi, nə də uşaq…

Sabir müəllim qeyri-iradi ətrafa göz gəzdirdi. Küçədə sa-kitlikdi. Silahı olsaydı rəisi asanca öldürər, səs-küyə qaçan ən yaxın qonşusu belə özünü yetirincə aradan çıxar, ilim-ilim itərdi. Təəssüf, çox təəssüf!.. Görəsən belə bir fürsət bir də ələ düşəcəkdimi?..

* * *

Sabir müəllim gecə yuxusunda gördü ki, xəlvətcə rəisin evinə girib. Qara maskadaydı. Əlində də səsboğucusu olan yekə bir tapança vardı. Hər şey lap kinolardakı kimiydi. Bir-bir otaqları gəzir, rəisi axtarırdı. Qəfildən qarşısına qapqara, zırpı bir it çıxdı. Hürüb-elə-mədən lal-dinməz dayanıb Sabir müəllim üzünü hansı tərəfə tutsa o tərəfə baxmağa başladı.

Əlindəkini itə göstərib pıçıldadı:

- Görürsən bunu?.. - İt təsdiq mənasında başını tərpətdi. - Ta-pançadı. Səsboğucusu da var. İstəsəm, səni öldürərəm, sahibin xəbər tutmaz. Amma öldürmürəm. Çünki mənim düşmənim rəisdi. - İt lap adam kimi gülümsəyərək təzədən başını tərpətdi, yəni ki, qanıram, elə buna görə də dinmirəm. - Di onda yolumdan çəkil! - İt bu dəfə inkar mənasında başını yana buladı, yəni ki, çəkilə bilmərəm. Sən də məni başa düş, hər necə olsa məni yedirdib-içirdib saxlayanı, sahibimi qorumalıyam!..

Sabir müəllim özünü unudaraq hirslə səsini qaldıranda yuxudan oyanan rəis tumanpaça qaçıb gəldi. Sabir müəllim də cəld pərdənin dalına girdi. Rəis itdən soruşdu ki, kimnən danışırdın? İt ona tərəf baxsa da qorxusundanmı, ya nədənmi səsini çıxartmadı. Amma rəis qazdan ayıqdı, məsələni anladı. Yaxınlaşanda Sabir müəllim tapançanın tətiyini çəkdi. Lüləsindən güllə əvəzinə mazuta oxşayan qara bir maye şırnaq kimi fışqırıb rəisin üz-gözünü batırdı. İt gülür, Sabir müəllim əlləşir, tapançanın tətiyini geri qaytara, şırnağı saxlaya bilmirdi. Qara maye əl-qol atan, özünü qorumağa çalışan rəisin ətrafında göllənirdi. Sabir müəllim, nəhayət, tapançasını ona tərəf qolaylanıb pəncərədən ağzı aşağı tullandı…

* * *

Gümanı bacanağına gəlirdi. Silah tapsa yenə o, tapacaqdı. Ov, tüfəng həvəskarıydı. Dənizdə balıq vətəgəsi vardı. Fikirləşdi ki, bir bəhanə ilə ona baş çəksin, ağzını arasın…

Arabir təkəmseyrək qar yağsa da, yerdə qalmır, tez əriyirdi…

- Pa, gör kim gəlib?.. - Altdan-üstdən bərk geyinmiş bacanağı onu görüb maşının qabağına yeridi. - Bir az da geciksən, uşaqlarla (balıqçılarla) dənizə, quş ovuna çıxırdım. Bəlkə bizə qoşulasan?..

Sabir müəllim boyun qaçırtdı. Dedi, üzə bilməyənin çömçəynən (qayıqla) dənizdə nə işi? Artıq tüfənginiz olsaydı, siz ovdan qayıdınca sahildə özümçün fırlanardım.

Qoşalülə bir tüfəng verdilər. Maşınla gələndə sahil boyu yemlənən qaşqaldaqları gördükcə silahı olmadığına təəssüflənmişdi.

- Əvvəl o qayalığa baş çəkərsən, orda həmişə quş olur. -Bacanağı əliynən sağ tərəfi göstərdi. - Ehtiyatlı tərpən, qaşqaldaq bic quşdu. Duyuq düşən kimi uçur, o biri quşları da işə-başa salır…

Bir növ, məşq etmək, özünü sınamaq üçün əla fürsətdi. Əlbəttə, bir şey vursaydı pis olmazdı. Ovu sudan necə çıxardacaqlarını soruşanda bacanağı dedi, təki sən vur, çıxartmaq bizlikdi. Vuracağına inanmırdı…

Qoşalüləni bacanağından bir yolla alardı, amma özüynən gəzdirməyə çox iriydi. Bir də, ilişsə, bacanağı da güdaza gedəcək, bir ailə əvəzinə iki ailə başsız qalacaqdı. İstər-istəməz mərdiməzar kimi lənətlənəcəkdi...

Qayalıqda, dənizlə əlaqəsi üzülməmiş göldə quşları görüb sinəsinə yaxınlaşdı. Elə sayğısız üzürdülər, deyirdin, bəs təhlükə veclərinə deyil…

Bacanağıgil boyaboy dayanıb ona baxırdı. Bir az da yaxınlaşdı. İlk gülləsinin boşa çıxmasını istəmirdi. Tüfəngi üzünə qaldırıb nişan aldı. Əli tətikdə nədənsə birdən-birə quşların davranışından şübhələndi. Dənizdən əsən meh onları suyun üzərində eyni qaydada vecsiz-vecsiz yırğalayırdı…

Tüfəngi yendirib dikəldi. Bir daha diqqətlə baxanda gördü ki, onlar taxta, oyuncaq (primanka) quşlardı. Balıqçıların kələyi, quramasıydı. Onu qəsdən bu tərəfə yönəltmişdilər.

Uzaqdan bacanağıgilə yumruğunu silkələdi. Onlar da qaqqıldaşa-qaqqıldaşa qayığa sarı getdilər.

Qayaların arasında xeyli dolandı. Birdən sahildə iki qaşqaldağın suya baş vura-vura yemləndiyini gördü. Belə yaxınlığı gözləmədiyindən əməlli-başlı həyəcanlandı. Tələsik nişan alıb tətiyi çəkdi. Geri təpən tüfəngin qundağı, daha doğrusu, küpü çənəsini tutdu. İsti-isti ağrı hiss etmədi. Bütün fikri quşlardaydı. Qaşqaldaqlardan biri uçdu. İkincisi azca partlayıb suyun üzündə qaldı. Deməli, gülləsi dəymişdi. Lap uşaq kimi bərkdən qışqırdı: ″Vurdum, vurdum!..″

Çənəsindəki isti mayeni hiss edib əliynən yoxladı. Ağzı qan içindəydi. Tüpürür, qan təzədən ağzına dolurdu. Nəsə ciddi məsələydi. Yarı canı vurduğu quşun yanında çönüb vaqon-evə tərəf addımladı.

Güzgüdə sir-sifətini yoxladı. Tüfəngin qundağı alt dodağını parçalamış, dişinin birini sındırmışdı…

* * *

Yaxşı deyiblər ki, çalışıb-çabalamaqla deyil, gərək adamın işi düz gətirə. Qaracında yır-yığış aparan qaynına kömək edirdi. Taxta yeşiklərdən birini eşələyəndə içindən keçəyə bükülü bir tapança, üç daraq da patron tapdı.

Qaynı keçmiş Qarabağ döyüşçüsüydü. Silahı da vaxtıynan düşməndən qənimət kimi götürmüşdü. Müharibədən sonra nə yerinə-

yurduna təhvil verməyə, nə də atmağa qıymışdı. Heç indi də onu neyniyəcəyini bilmirdi.

Sabir müəllim qaynının ağzını aramaq fikriynən dedi:

- Ə, bundan belə silah sənin nəyinə lazımdı? Təhvil ver hökumətə, qurtarsın getsin.

Qaynı dedi:

- Çək-çevirə başlayacaqlar ki, indiyəcən hardaydın? Niyə vaxtında təhvil verməmisən, nə bilim nə?..

Sabir müəllim dedi, onda yaxşısı budu ver mənə, mən saxlayaram. Qaynı bic-bic güldü ki, yoxsa ermənilərlə müharibəni təzələmək fikrindəsən? Sabir müəllim də zarafata saldı ki, içimizdə ermənidən də pis adamlar var... Qaynı daha bərkini tutmadı, razılaşdı…

Evə qayıdanda yolda dalınca süründüyü köhnə "İkarus"u (qapqara tüstüsü nəfəsini kəsmişdi) qadağan nişanında keçəndə (birtərəfli yiyəsiz trasda əvvəllər sürəti 80 göstərən nişanlar 60-lıqlarla əvəzlənmişdi) DÜP-ə ilişdi. Tələsini qurub yolun kənarındakı balaca təpənin dalında marığa yatmışdı. Miqalkasını yandırıb xışıltıynan nəsə dedi. Başa düşmədiyinə görə sürətini alsa da maşını saxlamadı. Bir də baxdı DÜP hay-harayla dalına düşüb. Tapançanı xatırlayanda bədənindən qəribə bir üşütmə keçdi.

Başqa vaxt qaydanı pozsa da yol polisini vecinə almazdı. İndi tez maşından düşüb pişvazına çıxdı.

- Salamməleyküm! Eşidirəm, cənab rəis... - Gülə-gülə əl də uzatdı. Özü öz yarınmağına təəccüblənsə də yol polisi bunu nəzərə almadı. Ətiacı adama oxşayırdı.

- Nədi, balam, sirenaya-zada məhəl qoymursan?.. - Onu saymazyana başdan-ayağa süzdü. - Qaydanı niyə pozursan?..

Sabir müəllim tüstüsü hələ də yolda qalan "İkarüs"u göstərərək məsələni aydınlaşdırmaq istədi. Polis eşitmədi (eşitmək üçün saxlamamışdı), sənədlərini tələb etdi. Sabir müəllim dübarə dil bulayanda polis kobudluqla səsini qaldırdı:

- Sənədlərini, vətəndaş, sənədlərini!..

Sabir müəllim fərasətli sürücülərin belə məqamda məsələni əlüstü, həm də asanca çürütdüklərini çox görmüşdü. Maşından

düşməkdə səki özünü buna hazırlamışdı, polisin kobudluğu (nəsə gözünə ala-bulu dəymişdi) işləri korladı. Sənədlərini alıb protokol yazdı. Maşının sənədini qaytarsa da sürücülük vəsiqəsini saxladı. Əvəz verdiyi sənədin bir ay vaxtı vardı. Bu müddətdə baş DYP-də məsələsinə baxacaq, vəsiqəsini yaşadığı ərazidəki yol polisinə göndərəcəkdilər. O da cərimələsini ödəyib vəsiqəsini geri alacaqdı. Dildə hamısı asan, yüyrəkdi...

DÜP-dəki süründürməçiliyi (hansı dövlət idarəsində yoxdu!..) eşitsə də inanmazdı ki, ora iki ayacan ayaq döyəcək. Şöbədə gileylənəndə qandıracaqdılar ki, gərək orda, yerində vəsiqəsini əlində bərk saxlayaydı (rüşvət dərsiydi). Ən qəribəsi, deyəcəkdilər ki, özün şəxsən maraqlan gör vəsiqən harda, hansı distansiyada ilişib qalıb…

* * *

Dükanın məsələsi hələ dururdu. Artıq onu qardaşının yox, oğlunun adına keçirəcəkdi. Fikrini dəyişməyə səbəb qəsəbədə baş verən hadisəydi. Maşın qəzasında ölənin şirkəti qardaşının adına olduğuna görə yetimləri havada qalmış, yalvar-yaxar qaynını düz yola qaytara bilməyən arvadı silah əldə edərək onu qətlə yetirmişdi…

Hər ehtimala qarşı məsləhətləşmək üçün hüquq məsləhətxanasına da baş çəkdi. Otaqdakı üç hüquq məsləhətçisindən biri kompüterdə nəsə yazır, o biri qarşısındakı yaşlı qadına (yəqin müştərisiydi) nəyisə aydınlaşdırır, üçüncüsü, lap cavanı, çay içə-içə qəzet oxuyurdu. Qəzet oxuyan:

- Buyurun, ağsaqqal, sizi dinləyirəm, - deyib qarşısındakı stulu göstərdi.

Salam-kalamdan sonra müxtəsərcə dedi, bacıoğlu, fərz elə ki, biri onu təhqir edəni tapança ilə öldürüb, qisas alanın əmlakı hər hansı bir qanunla müsadirə oluna bilər, ya yox?..

- Ağsaqqal, belə başa düşdüm ki, əslində hələ heç kim heç kəsi öldürməyib... - Oğlan məsələyə aydınlıq gətirməyə çalışdı.

- Təxminən, düz tapmısan… - Sabir müəllim təsdiqlədi.

- Bağışla, ağsaqqal, olmaya düşməninizi öldürməyə hazırlaşırsınız?.. - Sabir müəllimin gözünün içinə baxan oğlan lap telepat kimi soruşdu. - Başqa cür mümkün deyil, ağsaqqal? Gərək elə öldürəsiniz?..

- Hə… - Sabir müəllim uşaq kimi birdəncə kövrəlib fərqinə varmadan başına gələnləri oğlana danışdı...

- Ay dayı, bəlkə it oğlu it başdanxarabın biridi, qoşulmağa dəyməz? Havayıdan ömrünü türmədə niyə çürüdəsən? Söyüb? Hesab elə ki, yel vurub aparıb. Ölkədə gündə nə qədər adamı söyür, təhqir edirlər, veclərinə olmur heç…

- Baxır adamına də, oğul... - Sabir müəllim köksünü ötürdü.

- Dayı, hər təhqirə məruz qalan killerə, terrorçuya dönsə, aləm bir-birinə dəyər ki...

- Dil-ağız üçün sağ ol...

Birdəncə qalxıb qapıya sarı yönəldi. Bayıra çıxdığını görəndə oğlan sözlərini arxasınca, bir növ, salbaladı:

- Dayı, adam öldürməyə görə əmlak müsadirə olunmur...

Sabir müəllim hüquq məsləhətxanasına gəldiyinə, hər şeyi açıb ortaya tökdüyünə görə özünü danladı. Yaxşı ki, oğlan rəsmiyyətə keçib adı, familiyası, ünvanı ilə maraqlanmadı. Qabaqlayıcı tədbir kimi yerinə-yurduna çatdırardı...

“Yox, cavan oğlan, hər bir cinayətin, terrorun belə mayası olan cəzasız təhqirləri (gecaçılan bombadı) bizə adi, əhəmiyyətsiz bir şey kimi sırımaq dolayısı ilə dözümlülük, qeyrətsizlik aşılamaq, anlamadan haqqın qələbəsini ləngitməkdi. Cəmiyyəti onun fövqündə dayanan birmənalı, dünyəvi qanunlar idarə və tərbiyə etməlidi. Hər hansı paralelliyə (dini və s. ) uymaq özünüaldatma, uzundərədi…”

* * *

Növbəti dəfə rəisi güdəndə Sabir müəllimin nəzərini yaşıl bir ″Ciquli″, ″07″ cəlb etdi. Rəisgilin küçəsində, əks tərəfdəki döngədə dayanmışdı. Tünd şüşələrindən içərisini yaxşı seçmək olmurdu…

Fikri rəisdə olduğuna görə əvvəl maşına o qədər əhəmiyyət vermədi. Təzədən diqqət yetirəndə şübhələndi, ürəyinə nəsə damdı. Maşının içində kiminsə olduğunu və ağzı bəri, ona sarı baxdığını tam yəqinləşdirəndən sonra narahatlığı artdı…

Rəisin maşını qapısının ağzında, bayırda, sürücüsü içəridəydi. Sabir müəllim bir az da ləngiyib hər ehtimala qarşı maşınını işə saldı. Ehtiyatla rəisin maşınını ötüb yaşıl ″Ciquli″yə yaxınlaşdı. Bəlkə də bu səhv addım idi. Lakin maraq hər şeydən güclüydü.

Sükan arxasındakı adamın əlində qəzet olsa da oxumurdu. Tələsib fərqinə varmadan baş-ayaq vəziyyətdə sifətinə tutmuşdu. Açıq-aşkar qəzetin arxasında daldalanmağa çalışırdı. Axı niyə? Görəsən bir-birini tanıyırdılarmı? Düz adamdısa üzünü niyə gizlədirdi?..

Hər kimdisə vaxtından qabaq hürkütməməliydi. Ötüb keçəndən sonra maşının nömrəsini götürmək yadına düşdü. Ancaq geri çönməyə cəsarəti çatmadı. Salonun güzgüsü isə arxanı aydın göstərmirdi. Deyəsən, nömrə firma nömrəsiydi, yerliyi sarıydı...

İrəlidən o biri döngəyə buruldu. Yaşıl "Ciquli"nin dalınca gəlmədiyinə arxayın olub maşından düşdü. Küçədə kimsə gözə dəymirdi. Yalandan maşının o tərəf-bu tərəfinə keçdi, təkərlərini təpiklədi. Ehtiyatla yaşıl "Ciquli"yə sarı boylandı. Xeyli aralıydı. Kimdi, ay allah? Bəlkə rəisi qoruyurdu? Nədən? Kimdən? Bəs keçən dəfə niyə gözünə dəyməmişdi? Yəqin özünü unutmuş, fikir verməmişdi...

Birdən yaşıl "Ciquli"nin yerindən dəbərdiyini gördü. Rəisin darvazasından çıxan vardı.

Tələsik maşınına oturub uzaqlaşdı. Günün qalan hissəsini bu naməlum maşın, onun sahibi haqqında fikirləşdi…

İki gündən sonra rəisin mülkü ətrafında yaşıl "Ciquli" ilə bir də rastlaşdı. Sahibinin üzünü yenə görə bilmədi. Çox ehtiyatlıydı. Növbəti cəhddə naməlum adam nümayişkaranə şəkildə aradan çıxdı...

Qırx-qırx beş yaşlarındaydı. Saçları çallaşsa da gur idi. Qara eynək taxırdı. Geyim-kecimi sadəydi...

Sabir müəllim yüz gümana düşdü. Bəlkə düşmənçilik məsələsiydi, rəisin bu adama da pisliyi dəymişdi?.. Hər halda, ehtiyatlı tərpənməli, vaxtından əvvəl özünü dolaşdırmamalıydı…

* * *

Səhər-səhər Xalidə rəngi qaçmış halda Sabir müəllimi yatağından qaldırdı.

- Bu nədi, a kişi?.. - Asılqandakı pencəyinin qoltuq cibindən daş kimi sallanan tapançanı göstərdi.

- Görmürsən nədi, arvad?.. - Sabir müəllim gözlərini açsa da hələ yuxudan tam ayılmamışdı.

Qaracda yer düzəltmişdi. Maşını salandan sonra tapançasını orda gizlədirdi. Axşam maşını qaraca oğlu aparmışdı, tapançası cibində qalmışdı.

Xalidə matı-qutu qurumuş dayanıb ərinin üzünə baxırdı.

- Az, oyuncaq tapançadı də… - Ayağa qalxan Sabir müəllim birdəncə arvadının başını aldatmaq fikrinə düşdü, tutar qatıq, tutmaz ayran. - Oyuncaq tapança görməmisən?.. - Əlindən alıb pencəyinin cibinə dürtdü.

- Oyuncaq tapançaya oxşamır axı? Deyəsən, sən məni lap avam sayırsan ha?.. Yekə kişi cibində oyuncaq gəzdirirsən?..

- Tutaq ki, doğruçu tapançadı, soora?.. - Kələyi keçməyəndə ciddiləşdi.

Arvadı soruşdu ki, axı tapança nəyinə gərəkdi? Lazımdı, desə də dirəndi ki, mən bilsəm olmaz, arvadın deyiləm?.. Sabir müəllim təzədən alaşıq-dolaşıq danışdı. Olar, dedi, niyə olmur? Qardaşın verdi ki, it-bata salım. Arvadı nadəmətin biriydi, inanmadı. Dedi, qardaşım o qədər acizdi ki, əl boyda dəmirini özü it-bata sala bilmir?..

Xülasə, Xalidə bütün günü Sabir müəllimin yaxasından əl çəkmədi. Çox yalvar-yaxar, and-amandan sonra saqqızını oğurladı. Elə bil nə vaxtdı ürəyini deşən sirrini açıb danışmağa, yüngülləşməyə bəhanə axtarırmış. Lakin əvvəlcə bərk-bərk and içdirdi ki, kişi qızı kimi möhkəm olacaq, qara-qışqırıq salmayacaq, kimsəyə ağzından bir kəlmə qaçırtmayacaq…

Xalidə axıracan dinməz-söyləməz qulaq asdı. Amma sonra Sabir müəllimi dilə tutmağa, məqsədindən daşındırmağa çalışdı.

- Olmadı də, arvad... - Sabir müəllim əsəbləşdi. - Birdəfəlik başa düş ki, məni yolumdan heç kim, heç nə döndərə bilməz. Rəisdən qisasımı hökmən almalıyam. Bu, namus, qeyrət, şərəf məsələsidi…

* * *

Sabir müəllim o biri axşamı arvadına yaşıl "Ciquli" haqqında danışdı. Xalidə bu dəfə ərini təmkinlə dinlədi. Elə bil bu iki gündə ona nəsə olmuş, daxilən dəyişmişdi…

Sabir müəllim əvvəllər, başı yazı-pozusuna qarışan vaxtlarda arvadıynan heç yola getmirdi. Bəzən hər sözü, hər hərəkəti onu hirsləndirir, hövsələdən çıxardırdı. Necə deyərlər, Sabir müəllim həmnən həmə deyəndə, Xalidə dəmnən dəmə başa düşür, daha doğrüsu, onu anlamırdı. Elm, kitab, yazı-pozu dünyasına yad bir adamdı. Orta məktəbi kənddə birtəhər qurtarmışdı…

Anasının seçimi, yaxın qohumuydu. Bir yana baxanda taqsır Sabir müəllimin özündəydi, yaşı ötürdü. Anası ha başa salır, eyham vururdu ki, oğlum, getdiyin, oturub-durduğun yerdə (getdiyi kitabxana, oturub-durduğu kitablardı) heç qız-mız olmur?.. Qulaqardına vurur, tərpənmirdi…

Xalidənin ən böyük məziyyəti evcanlı, ailəcanlı olmasındaydı.

Sabir müəllim yazı-pozunun daşını atandan elə bil arvadıynan, bir növ, bərabərləşmiş, mehribanlaşmışdılar. Bir-birini daha asan başa düşürdülər…

* * *

- Nə var, nə yox, qohum?.. - Fikirli getdiyi yerdə kiminsə birdən qolundan yapışdığını gördü.

Hə, arvad tərəfdən qohumuydu. Arabir elə indiki kimi küçədə, xeyirdə-şərdə rastlaşır, hal-əhvallaşırdılar.

Ağızucu:

- Sağlığın, - dedi. Etika xatirinə heç olmasa qohumunun öz sözlərini özünə qaytarmağı lazım bildi. - Sizdə nə var, nə yox?.. - Tezbazar aralanmaq fikrindəydi. Xasiyyətinə bələddi, çənəsinin altına düşdümü, çıxmaq çətindi…

Qohumu, deyəsən, fikrini duymuş, Ərəbzəngi kimi ensiz səkini tutmuşdu. Aşağı düşsə, ayağı batacaqdı, yer-yurd palçıqdı. Arvadının zəhmətinə heyfi gəlirdi, səhər-səhər ayaqqabılarını silməklə kifayətlənməmiş, mazlayıb parıldatmışdı…

Bəli, qohumu iki daşın arasında iş-gücünün düz gətirməməsindən, müdiriynən kəlləşməsindən, lisenziya vermədiklərinə görə (yalan-gerçək, yüz dollar əvəzinə beş yüz istəyirdilər, yoxuydu) reysə çıxa bilməməsindən (TİR sürürdü, öz sözüydü), evdə də yoxu qanmayan arvad-uşağın onu divara dırəməsindən giləyləndi... Hirsindən-havasından danışa-danışa dişiynən damağındakı siqareti didirdi...

- Əlimə bir avtomat verəydilər, müdirimiz qarışıq allahsızların hamısını alaq otu kimi biçər, gözümü də qırpmaz, uf da deməzdim. Nəzərə almazdım ki, ailəsi, uşağı var. Çünki onlar özləri belə şeyləri nəzərə almırlar... - Yox, qohumu taksist Nazimin tayı deyildi, gözlərinə baxanda adam qorxurdu.

Sabir müəllim son vaxtlar adamları müşahidə etmək, içini, daxilini oxumaq azarına tutulmuşdu. Birində az, o birində çox, gözlərdə qisas, intiqam kabusu dolaşırdı. Eləsi vardı bunu gizlətməyə çalışır, eləsi də vardı qohumu kimi heç nədən çəkinmirdi. Çoxu balaca bir himə bənddi, şüursuz arı kimi əlüstü sancır, zəhərini tökürdü. Arı sancmasına dözmək asandı, vay oydu rəis kimi əqrəb sancaydı...

Amma Sabir müəllim hərdən tamam özgə bir müdrikliklə rəisə də əqrəb qismində (özəl xislətiydi) haqq qazandırırdı. Axı onu da yetirən mühit, cəmiyyətdi. Həm də naqis bir mühit, cəmiyyət…

* * *

Hələ girəcəkdə pilləkənlə yuxarıdan düşənlərin ayaq səslərini eşitdi. İkinci mərtəbədə, pilləkənin başında qəfildən rəislə qarşılaşdı. ″Bu nəəzir, ə, burda?..″ Haçansa rəislə doğma divarlar arasında rastlaşacağı ağlına da gəlməzdi. Sürücüsü, yemişbaş gədə də yanındaydı. Rəis onu yuxarıdan aşağı kinli-kinli süzərək saymazyana dedi:

- Hə, sənsən?.. - Bu görüş yəqin rəisin özü üçün də bir sürprizdi. - Salam niyə vermirsən?.. - Sabir müəllim əməlli-başlı karıxmışdı. Özünə gələndə böyründən dinməz-söyləməz adlamaq istəsə də rəis mane oldu. - Burda, bu binada yaşayırsan?..

- Nəyinə lazımdı?.. - Sabir müəllim tərs cavab verdi.

- Mənimlə belə danışma! - Rəis ötkəm səsini qaldırdı.

- Necə danışım? Bəlkə danışmaq öyrədəsən?.. - Sabir müəllim hər dəqiqə rəisin qayıdıb onu pis-pis söyəcəyindən ehtiyatlanırdı. Qonşular eşitsə, gərək bir də onların üzünə çıxmayaydı.

- Lazım gəlsə danışmaq da öyrədərəm! - İri, nataraz gövdəsiynən yolu tutan rəis meydan oxudu. - Deyəsən, keçən dəfəki dərs olmayıb sənə?..

- Niyə, olub… - Sabir müəllim əsəbi şəkildə rişxəndlə dedi.

- Belə ha!.. - Rəis özündən razı halda şeşələndi. - Amma son vaxtlar nəsə yaman tez-tez rastlaşırıq…

Sabir müəllim onu əliynən yolundan kənarlaşdırmağa çalışdı. Rəis müqavimət göstərmədi. Çönüb davamlı baxışlarla arxasınca baxdı. Bu ağır baxışlar altında yuxarı qalxan Sabir müəllim öz-özünə dedi: ″Get, get! Səninlə də mənim aramda bir şey qalmayıb…″

Üçüncü mərtəbəyə, evinə çatıb zəngin düyməsini bassa da aşağını dinşədi. Ayaq səsləri küçədən gəlirdi. Sonra binanın qabağında tırıldayan rəisin maşını yavaş-yavaş uzaqlaşdı...

Üst mərtəbədəki qonşusugildən də kimsə bayaqdan yuxarıda rəisi güdürmüş, qapını örtdü, arasında qalan sözləri xışdandı: ″get…di…lər…″

Xalidə Sabir müəllimin rənginin ağardığını görüb həyəcanlandı:

- Sənə nə olub?..

Əsəbi halda pencəyini çıxardıb asılqandan asaraq:

- Heç, - dedi, - pilləkəndə o alçaqla raştlaşdım...

- Rəislə?. - Necə əsəbləşmişdisə arvadının belə asanca tapmağı diqqətini çəkmədi. - Sənə demirdim, budu neçə gündü yuxarıdakı qonşumuzgilə gəlib gedir... - Qonşuları Ermənistan qaçqınlarıydı. - Demə, yığışdıqları ev Siranuş adlı dul erməni axçiyininmiş. Qovhaqovda bunlarla alışıb-verişərək gedib İrəvandakı evlərini tutub. Ordan da ursetə köçüb. Vətəndaşlıq alıb. İndi şappadanxeyir qayıdıb qonşularımızı məhkəməyə verib ki, ərimin (azərbaycanlıymış) evini zəbt ediblər. Məhkəmə nə alıb-neyniyibsə qərarı erməninin xeyrinə çıxardıb. Bu köpəyoğlu rəisin də keçmişdən Siranuşla arası sazmış. Birləşib qonşularımızı bayıra atmaq istəyirlər…

Sabir müəllimin matı-qutu qurudu. Fikirləşdi ki, görəsən ermənilərin Ermənistandan, dədə-baba torpaqlarından qovduqları yüz minlərlə azərbaycanlıdan hər hansı biri (lap elə Siranuşun Bakıda məhkəməyə verdikləri) gedib İrəvan məhkəməsində öz ev-eşiyinin iddiasını qaldıra bilərdimi? Qaldıra bilərdisə, erməni məhkəməsi, erməni rəisi ona havadar çıxardımı?..

Arvadı dedi ki, rəis kimilər şər mücəssəməsidi. Elələrini bir güllə ilə tezbazar yox, işgəncə verə-verə elə öldürmək lazımdı ki, ölməmişdən əvvəl peşiman olmağa vaxt tapsınlar...

* * *

Sabir müəllim gecə yuxusunda rəisi dirəyə sarımışdı. Qəsdi öldürməkdi. Ancaq öldürməmişdən qabaq onu peşiman etmək istəyirdi. Qəssab bıçağına oxşar iri, küt bir bıçaqla dərisini soyurdu. Rəis zülüm-zülüm ağlayıb-sızlasa da Sabir müəllim vecinə almırdı...

Rəis axırda Xalidəyə yalvarmağa başladı. Xalidənin ürəyi bu işgəncəyə dözmədi, tezcə yumşaldı. Sabir müəllimin əl-ayağına dolaşmağa, mane olmağa çalışdı. Sabir müəllim arvadını da saya salmadı...

Xalidə birdən başındakı yaylığı açıb ərinin ayaqları altına atmaq fikrinə düşdü. Qana, ölümə "yox" deyən bu qədim adətə görə, qadın yaylığını müqəddəs sayan türk, azərbaycanlı kişisi ən qatı düşmənini belə bağışlamalıydı!..

Sabir müəllim arvadının niyyətini duyub onu qabaqlamağa, saxlamağa çalışdı. Dedi, bir zaman el ağbirçəyi Xuraman Abbasova da erməninin dərsini verməyə qalxan ağdamlıları yaylığı ilə geri qaytardı. Düzdü, o yaylığın, o adətin, nəhayət o qadının şəninə dünya şöhrətli rus şairi Yevtuşenkodan belə şeirlər qoşdular. Amma tarix boyu türkün bu cür comərd adətlərindən bəhrələnən namərd erməninin azğın hərəkətlərini, əməllərini o yüksəklikdən vaxtında pisləyən, lənətləyən tapılmadı...

Xalidə dedi ki, hərə öz əməlinə cavabdehdi. Necə olur-olsun biz adətimizdən əl çəkməməli, ucalığımızdan enməməliyik!.. Dedi və yaylığını Sabir müəllimin ayaqları altına atdı. O da yaylığı qaldırıb arvadına qaytardı. Rəisin əl-qolunu açıb buraxdı...

Amma Xalidə bir an sonra gördü ki, rəis (qəribəydi, həmin anda o, erməniyə də oxşayırdı) tapançasını arxadan Sabir müəllimin kürəyinə tuşlayıb. Çığırıb-bağırmaq, ərini duyuq salmaq istəsə də səsi çıxmadı. Sabir müəllim arvadının iniltisinə yuxudan ayıldı. Silkələyib onu da ayıltdı...

* * *

- Kişi, eşitdin?.. - Televizora baxan Xalidə qəzet oxuyan ərini dümsüklədi. - Hansı ölkədi, bilmədim, cavan bir oğlan seçiciləri ilə

görüşən baş nazirə etiraz mənasında pamidor atır, üst-başını batırır. Cangüdənləri, polis işə qarışanda nazir mane olur. Oğlanı çağırıb ona qarşı səhv mövqe tutduğunu inandırıcı dəlillərlə sübuta yetirir. O da günahını başa düşüb nazirdən üzr istəyir…

- Vəssalam, oğlana dəymirlər?..

- Təsəvvür et ki, dəymirlər... - Xalidə üçün bu, inanılası deyildi. - Bizim böyüklər də ağızları köpüklənə-köpüklənə yalançı söz azadlığından, demokratiyadan dəm vururlar. Elə bir ölkədə doğulmaq, yaşamaq özü xoşbəxtlikdi!.. - Arvadı ümidsiz xəstə kimi köksünü ötürdü.

- Xalidə, mühitdən, tərbiyədən çox şey asılıdı. O oğlan bilir, inanır ki, yeri gələndə bir pamidor atmaqla da nəyisə dəyişmək mümkündü. Nazir də əmindi ki, baş vermiş insidentin həlli qarşılıqlı anlaşma, sivil kompromisdədi…

- Maraqlıdı, kişi, görəsən o üst-başı pamidora batan baş nazir sənin yerində olsaydı, rəisi də bağışlayar, günahından keçərdimi?..

- Yox, arvad, qarışdırma. Sən özün dedin axı, rəis şər mücəssəməsi, şər qüvvədi. Şər qüvvəni bağışlamaq günahdı…

Sabir müəllimin gecəsi, gündüzü yoxdu. Rəislə daim qovğadaydı. Gündüzlər xəyalən, gecələr yuxularında dartışırdı. Yuxuda işi yenə bir az asandı. Təpinən saat rəis it kimi zingildəyə-zingildəyə ayaqlarına yıxılır, yalvarırdı ki, onu öldürməsin. Məni öldürmə, deyirdi, məni öldürməkdən qorx… Niyə, ə, dəyyus, Sabir müəllim soruşurdu, niyə?.. Əlini qanıma batırsan, rəis deyirdi, killer, vampir olacaqsan, öldürmək sənin üçün su içmək kimi bir şeyə çevriləcək… Sabir müəllim şaqqanaq çəkib gülürdü. Mən elə killer olmaq, yer üzünü sənin kimi murdarlardan təmizləmək istəyirəm, deyirdi. Lakin yuxuda da rəisi öldürə bilmirdi. Lap son anda ona nəsə mane olurdu...

* * *

Qonşu ərzaq mağazasının sahibi Sabir müəllimə xəbərdarlıq etdi ki, vergi işçiləri ətrafda dolaşır, ehtiyatlı olsun. Satdıqları mala çek vurub-vurmadıqlarını yoxlayırdılar...

- Vallah, bizim bu sadələşdirilmiş vergi sistemimiz mürəkkəbin mürəkkəbidi, - dedi. Kassaya vurulanın dörd faizi vergi kimi ödənirdi. - Niyə malın fakturası olanda maya dəyəri, xərc-xəsərrəti kassaya vurulandan çıxılır, yerdə qalanı qazanc sayılır, ona vergi

ödənir, faktura olmayanda heç nə çıxılmır, hamısından vergi tutulur? Günah məndədi ki, aldığım mala faktura vermirlər? Təşkil et, versinlər də... Bax, fəhləli-zadlı beş işçim var, ayda hərəsinə 80-120 şirvan verirəm. Bilirəm ki, müasir tələbatla hələ azdı. Nə mən hökumət deyiləm, nə də malım hökumət malı deyil ki, işçimi dolandırmayım, mənə kələk gəlsin, malımı oğurlasın. Beşindən biri vergidə uçotdadı, guya on beş şirvan alır. Hamısını uçota saldırıb o qədər əməkhaqqı verdiyimi desəm, gərək vergiyə, pensionnu fonda hərəsi üçün filan qədər də əlavə ödəyəm. Hardadı? Bunun işıqpulu (təkcə kondinsioner hər ay on yeddi-iyirmi şirvan yazır), supulu, zibilpulu, kanalizasiyapulu, maşınhaqqı (mal dükana özxoduna gəlmir!), nə bilim nə haqqı var. Qırılanı, dağılanı, əl-ayaq altında itib-batanı, itə-qurda payladığımı və s. demirəm.. Ağzıbirlik ola, yığışıb deyəsən, ay filan-filan, adam balası kimi düz-əməlli vergi tut, biz də düz-əməlli işləyək də... Qərbin hansı qanunu döşlərinə yatır, götürüb sərfəbazarı bizə soxuşdururlar. Millətin xeyrinə olanlara, hələ tezdi, deyirlər...

- Cərimələnənləri televizorda göstərəndə baxaydın, - Sabir müəllim dedi, - hansından soruşurlar, niyə çek vurmamısan, deyir, bilməmişəm, səhlənkarlıqdı. Nooldu, balam, millətin hamısı səhlənkar, gicbəsərdi?.. Qaçan da, qovan da açıb-ağartmaqdan qorxur. Tələ sahibi də razı. Lap o pəltək molla kimi. "Əlif" hərfini göstərib deyir, uşaqlar, bax bu "Ənif"di. Hamısı bir ağızdan "Ənif" deyəndə, xımır-xımır gülüb çəmkinir ki, mən "Ənif" dediyimə baxmayın, siz "Ənif" deyin…

Qonşusu əlini əlinə vurub bərkdən güldü.

- Təzə uçastkovu dünən səni axtarırdı...

- İsmarıcını oğlumla çatdırıb...- Sabir müəllim dedi.

Gündə bir sahə müvəkkili dəyişirdilər. Gələn dükanları gəzir, utanmaz-utanmaz aylıq yığırdı. Sanki dədələri dədələrinə, özləri də özlərinə borcluydular...

Keçmiş sahə müvəkkilinə demişdi, kömək dur "qara" dəftərdəki qırdı-qaçdı nisyələrimizi yığaq, hörmətini artıqlamasıynan eləyim. Boyun olmamışdı ki, belə şeylərə baxmırıq, bununçün məhkəmə-zad var. Sabir müəllim də demişdi, işimə yaramadığına

görə aylıqdan gözünü yığ. Hökumətə işləyirsən, qoy o da səni dolandırsın...

- Bəs İstehlak Departamenti ilə neynədin?.. - Dükan qonşusu soruşdu.

Departament ultimatum göndərmişdi ki, köhnə lisenziyanın vaxtı qurtarıb, təzəsini almalıdılar. Halbuki ilin sonunda prezidentin fərmanıyla bu başabəla departamentlər ya tamam ləğv edilmiş, ya da fəaliyyətləri məhdudlaşdırılmışdı. Bilmirdi prezident gücsüzdü, fərmanı belə tez kəsərdən düşmüşdü, yoxsa departament dikbaşdı ki, ara sakitləşən kimi təzədən əl-qapa başlamışdı?..

Hədə-qorxu ilə dükanların hərəsindən 300-400 min manat pul yığırdılar. Ötən il çox çək-çevirdən sonra 250 min manat vermiş, sonra öyrənmişdi ki, bu mənasız vərəqin dəyəri heç nədi...

Sabir müəllim şöbə müdirinə (üzdən polis rəisinə oxşasa da qılıqlı, siyasətcildi) Fərmanı xatırlatsa da dediyindən dönmür, istədiyini qopartmağa çalışırdı. Guya onu yanlış məlumatla çaşdırmışdılar. Onlar hökumət siyasətini həyata keçirirdilər və s.

- Belə hökumət siyasəti olar? - Sabir müəllim əsəbləşdi. - Lisenziyada yazılana inansaq, dükanın filan ərazidə yerləşməsinə, fəaliyyət göstərməsinə icazəni siz verirsiniz. Halbuki yerləşmə hüququnu yerli icra hakimiyyətindən sərəncamla bir ətək pula satın almışıq, fəaliyyət hüququnu isə vergi idarəsi vöönlə təsdiqləyib. O biri tərəfdən istehsalçı olmadığımız, malı talkuçkadan aldığımız halda siz ona sertifikat, vergi də faktura tələb edir. Talkuçka isə nə sertifikat, nə də faktura verir...

- Ağsaqqal, indi ki belə oldu, gedirik bazara, aldığın mala sertifikat tələb edirsən. Gözüyün qabağında verməyənin anasını ağladıram, sən də baxırsan, danışdıq?..

- Bacıoğlu, buna ilanı Seyidəhməd əliynən tutmaq deyərlər…

- Gördünüz, köməyiniz lazım gələndə yaxanızı kənara çəkirsiniz.

- Bilsəm qəsdiniz, həqiqətən, düzəltməkdi, kişi deyiləm irəli durmasam. Məni bağışla, bunlar tülküsovruğudu. Tutaq ki, o boyda talkuçkadan mənim əlimlə bir nəfəri cərimələdin. Belə ümumi iş düzəlmir axı. O adam cərimısini ödəyəcək, malını satacaq. Amma məni daha o bazara buraxmayacaqlar...

- Kim buraxmayacaq?..

- Nə çoxdu bazarkomun şilləvuranı, böyür-başında sülənəni. Lap elə əraziyə təhkim olunub ordan dolanan polislər. Özünə belə arxayınsansa, gedək pulu verim sənə, malı da sən al, sənəd-sünədi də. Bacardın, oğulsan...

- Yaxşı, ağsaqqal, bazar açdığımız yetər.. - Oğlan birdən gerilədi. - Problem sənindi, özün bilərsən. Bizi yola ver, qurtaraq…

Sabir müəllim dedi ki, problemin yekəsi özünüzsünüz. Siz yox idiniz, problemimiz də yoxdu. Adam olanın, düzəltdiyinin davasını çəkər, olmayanın yox…

Oğlan qılıqlandı ki, ötənilki kimi 25 "şirvan" versin, amma qonşularına deməsin. Guya şəhərin yaşıllaşdırılması, yolların təmiri, abadlaşdırılması-zadı hamısı departamentin öhdəsindəydi.

- Ağsaqqal, qonşularından aylıq da yığacağıq, - oğlan yekunlaşdırdı. - Sənə dəymərik...

Sabir müəllim pulu olmadığını bəhanə gətirərək bir həftə möhlət aldı. Departamentin fəaliyyətinin dayandırılıb-dayandırılmadığını dəqiqləşdirmək istəyirdi. Şöbə müdiri çox alt-üst vurmuşdu...

Ötür-ötürlə gedib çıxdığı iqtisad nazirliyində fil qulağında yatıblarmış kimi departamentin kölgəsini qılıncladılar. Pulunu artıqlamasıynan alıb (ayının yüz oyunundan biri) bir nəzarət kitabçası sırıdılar. Vergidən başqa nə yoxlama-zad gəlsə, qoymalıydı qabağına, qeydiyyatdan keçməyəni iti qovan kimi qovmalıydı!..

İstədi desin, qanunlar işləməyən yerdə quru kitabçaya bel bağlamaq, quranı qılıncın ucuna keçirib düşmən qabağına çıxmaq kimi bir şeydi, demədi, daşı ağırdı…

Təlimatçı oğlan üzüyolalığını görüb dilənçi kimi diləndi:

- Varındısa, bizə də bir şirvan ver, bufetdə çay içək, maaşı hələ almamışıq…

Matı-qutu qurumuş, hipnoz olmuşdu. Ayılanda aşağıdaydı. Qayıtmaq, kitabçanı başlarına çırpıb pulunu geri almaq istədi. Yenə cəsarəti çatmadı, yazıq şeytanı lənətlədi…

Sabir müəllimin başını qatan, qarşısına qoyduğu məqsədə çatmaq üçün fikrini toplamağa mane olan bu hadisələr Xalidəni

sevindirirdi. Xalidə vaxt ötdükcə kin-küdurətinin soyuyacağını, ərinin qisas fikrindən daşınacağını düşünürdü. Odu ki, hər saat bu dartışma ilə maraqlanır, Sabir müəllimi onlara qarşı qızışdırırdı...

* * *

- A kişi, deyəsən, gədəni evləndirmək daha yadına düşmür?.. - Xalidə qaranlıqda yanaşı uzandığı ərinə tərəf çöndü.

Departamentlə üzülüşəndən sonra ərinin fikrini yayındırmaq üçün başqatan nəsə təzə bir şey tapmağa çalışsa da heç nə alınmırdı. Oğlunu evləndirmək haqqında əvvəl tez-tez danışardılar. Xalidə nə vaxtdı oğluna qız da gözaltılamışdı. Sabir müəllim də seçimlə razılaşmışdı. Qərara almışdılar ki, Rəşid əsgərlikdən gələn kimi nişan taxsınlar, üç-dörd aydan sonra da toy çaldırsınlar…

Rəşid əsgərlikdən qayıtsa da evlənmək fikrində olmadığını bildirib möhlət istəmişdi.

- Allah mərdiməzara lənət eləsin!.. - Sabir müəllim yerində qurcalandı.

- Ə, mərdiməzar kimdi?.. - Arvadının ağlına başqa şey gəldi.

- Bizi oda salanı deyirəm də, rəisi...

Xalidə qolunu ərinin boynuna dolayıb qılıqlandı:

- Kişi, gəl hər şeyi kənara qoyub oğlumuzu evləndirməklə məşğul olaq...

Sabir müəllim ″hər şey″ deyəndə arvadının nəyə işarə etdiyini qansa da sözünün başına ip salmadı.

- Bəs atası demədi ki, qız axırıncı kursdadı, qoy institutu qurtarsın?.. - Bayaq Xalidə elə bilmişdi ″mərdiməzar″ deyəndə əri qızın atasını nəzərdə tutur.

- Biz get-gəl edincə, hazırlaşınca qurtaracaq də. Vaxta nə qalıb?..

- Gədəni necə yola gətirəcəksən?..

- Gədə özünə gülür... - Xalidə belə desə də oğlundan beli bağlı deyildi.

Rəşid əvvəl yumşaq danışıb anasını ümidləndirsə də son günlər qəti bildirmişdi ki, onu qarşıda hələ hansısa daha vacib bir məsələ, sınaq gözləyir. Bu sınaq nə sınaqdı, oğlu bu sınaqdan nə vaxt və necə

çıxmaq fikrindəydi, məlum deyildi, heç nə açıqlamırdı. Elə bil birdən-birə uşağa nəsə olmuşdu…

* * *

Qonşuynan bazarlıqdan qayıdan Xalidə hədiyyələr mağazasının qabağından ötəndə səkinin qırağındakı "Ciquli"dən şınqrovlu bir qadının düşdüyünü gördü. Üst-başı zər-zibaydı. Boyun-boğazı, qulağı, əlləri gün işığında bərq vururdu. Sanki səyyar zərgər mağazası, reklam agentliyiydi. Bədəninə kip oturan gödək yubkası baldır-bacağını daha artıq nəzərə çarpdırırdı. Cavan, qəşəngdi. Yanındakı göyçək qız uşağı özünə oxşayırdı, yəqin qızıydı…

- Bunu tanıyırsan, az?.. - Qonşusu göz-qaşla pıçıldadı. - Rəisin arvadıdı...

- Hansı rəisin?.. - Xalidə tanımadı.

- Qəsəbədə neçə rəis var? Polis rəisinin... - Yaxınlaşdıqlarını görüb səsini uddu.

Yanlarından ötəndə qəribə, qeyri-adi xoş ətir iyi onları vurdu.

- Sən hardan tanıyırsan?.. - Xalidə birdən xatırladı ki, kişisinin öldürmək istədiyi rəis yəqin bu gözəlçənin əridi.

- Qızı baldızımın oğlu ilə bir sinifdə oxuyur. Deyir, korafəhmin biridi. Amma müəllimlər kukla kimi başına fırlanırlar. Çünki anası həftə səkkiz, mən doqquz qiymətli padarkalarnan məktəbdədi…

Bircə anda Xalidənin qəlbində bu qadına qarşı kin-küdurəti, nifrəti aşıb-daşdı. Hamısı da rəis ərinə, onun qudurqanlığına görə. Qeyri-iradi ayaq saxlayıb qadının arxasınca qanlı-qanlı bir də baxdı.

- Deyəsən, paxıllığın tutdu axı?.. - Qonşusu onun üzündəki dəyişikliyi öz bildiyi kimi yozdu.

- Allah vurmuşdu, nəyinə paxıllığım tutacaq?.. - Xalidə o saat ağzını burdu.

- Mənim ərim də varlı-hallıları görəndə özünə belə toxtaqlıq verir. Deyir, sağ canın tərəfdarıyam, qadam ürəklərinə, var-halları olsa da həmişə qorxu-hürkü içindədilər.. Amma, vallah, yox! Heyf deyil var-dövlət? Pul olmayanda sağ can da xəstə düşür…

Xalidə axşam Sabir müəllimə rəisin arvad-uşağını küçədə gördüyünü söylədi. Sonra dedi, ağlına yaxşı bir ideya gəlib. Sabir müəllim arvadının ağlına bələd olsa da soruşdu ki, nə ideyadı? Xalidə

dedi ki, rəisi öldürməkdənsə qızını oğurlayıb çoxlu pul qazanmaq olar...

Elə bilirdi əri bunu eşidəndə sevinəcək. Hətta belə bir fikrə görə onu tərifləyəcək...

Amma Sabir müəllim bərk hirsləndi. Dedi, arvad, uşağı bura qatma! Xalidə dedi, axı biz onu öldürməyəcəyik. Sabir müəllim dedi, arvad, başa düş, mən tapdanmış bir haqq-ədaləti bərpa etməyə çalışıram. Sən isə məni günahsız bir körpənin qan-qarğışına, əlavə günaha batırmaq istəyirsən…

- Onda gəl belə edək, - Xalidə ərinin əsəbləşdiyini görüb tezbazar, düşünüb-daşınmadan daha bir ağılsız təklif irəli sürdü, - rəisi öldürməyi mənim öhdəmə burax…

- Nə?.. Sən rəisi öldürə bilərsən?.. - Sabir müəllim əməlli-başlı təəccübləndi.

- Niyə öldürmürəm? O xarici kinolardakı ərlərinə kömək edən qadınlardan nəyim əskikdi?..

- Arvad, axı sən adi bir çəyirtkədən, yarasadan, siçovuldan qorxduğun halda rəisi necə öldürəcəksən?..

- Öldürərəm!.. - Xalidə geri çəkilmədi. - Adam qəsdə dolanda hər şey eləyə bilər.

Hər halda, bütün bunlar arvadının daim vəziyyətdən nəsə bir çıxış yolu axtardığını göstərirdi.

- Tutaq ki, bacararsan. - Sabir müəllim dedi. - Axı mən dura-dura rəisi niyə sən öldürməlisən? Eşidən-bilən buna nə deyər?..

- Eşidən-bilən özünə gülür! Yadından çıxartma ki, mən qadınam, qadınlara da həmişə güzəşt var…

- Cinayətə, adam öldürməyə nə güzəşt, arvad?..

- Birincisi, öldürdüyüm adam ərimi təhqir edib. - Elə dedi, elə bil müstəntiq qarşısında əyləşmişdi. - İkincisi də... - Ağlına gələni dilinə gətirməyə qorxdu.

- İkincisi də, nə?..

- Qızma haa... Məsələn, deyərəm, mənə sataşıb, söz atıb...

- Ay arvad, xəriflәmə, ayıbdı. - Sabir müəllim havalandı. - Deyirsən, rüsvay olaq? Qaş düzəltdiyindi, vurub gözünü də tökdün! Sonra nəyin doğru, nəyin yalan olduğunu kimə, necə sübut edə-

cəksən?.. Yox, yaxşısı budu, əl-ayağıma dolaşma. Bu da olsun mənə köməyin…

Sabir müəllim sirrini arvadına açdığına peşimandı…

* * *

Müştərini yenicə yola salmışdı ki, bayırdan çağırdılar. Çıxanda rayon, qəsəbə icra hakimiyyəti nümayəndələrini, arxitektoru, polis rəisini, bələdiyyəni, sahə müvəkkilini, daha bir neçə nəfəri dükan qonşularının əhatəsində gördü. İcra Hakimiyyəti başçısının tapşırığıynan gəlmişdilər. Gərək dükanlarının qabağı tezliklə abadlaşa, ağac, gül əkilə, bir sözlə, kiçik parkı xatırladaydı. Xərc-xəsərrəti də dükançıların boynunaydı. Hesablamışdılar, hərəsinə beş-səkkiz yüz dollar düşürdü. Halbuki qəsəbənin abadlaşdırılmasına dövlət büdcəsindən külli miqdarda vəsait ayrılmışdı. Rrezidentin səfəri gözlənilirdi…

Növbə dükançılara çatanda hərəsinin ağzı bir hava çaldı. Sabir müəllim susub gözləməyi daha münasib saydı. Yoxsa hər dəfə qabağa düşür, sonra da altını çəkirdi. Əgər icra başçısı belə bir mötəbər nümayəndə heyəti göndərmişdi və qorxub-hürkmədən bu cür açıq-saçıqlıqla danışırdılarsa, demək, məsələ ciddiydi, hər şey qabaqcadan ölçülüb-biçilmiş, nəzərə alınmışdı…

- Yoldaşlar, qar-qurla iş aşmaz. - Arxitektor ağıllı-başlı bir söz eşitmədiyini görüb əsəbləşdi. - Bəlkə aranızdan özünüzə ağsaqqal seçə, yaxşı-yaxşı düşünüb-daşınıb fikrinizi bizə sonra bildirəsiniz?..

- Çətin məsələdi… - Kimsə mızıldandı.

- Niyə?..

- Beş-səkkiz yüz çoxdu... - Bayaqkı adamdı. - Özümüzün dərdimiz-odumuz başımızdan aşır...

- Guya buraların sizə dəxli yoxdu? Dükanlarınızın qabağının abadlaşdırılması, yaxşı görünməsi hamınızın xeyrinədi…

- Hərəmiz dükanımızın qabağını üzlük daşla üç-dörd metr enində döşətmişik, bəs deyilmi? Səkini, yolu da biz düzəltməyəcəyik ki…

- Hökumətin gücü çatmır də… - Bələdiyyə miyanə bir söz atdı, qarmaq atan kimi.

- Çatmır, asfaltı təzələsin də, gərək keramika döşənə?..

- Biz hələ sizinlə yavaşcalıqla danışırıq. - İcra nümayəndəsi buynuzunu göstərdi.

Göz gördüyündən qorxar, qulaq eşitdiyindən, bunlardan nə desən çıxardı. Acıqca deyərdilər, dükanının sərəncamı qeyri-qanunidi, əvvəlki icra başçısı kitab-dəftərə salmayıb, sökülməlidi. Yoxladacaqdın ki, həqiqətən, arxivdə heç nə yoxdu. Təzə icra başçısı neçəsinin yarımçıq (lap elə başa çatmış) evini, dükanını əlavə pul qoparda bilmədiyinə görə bu əsasla traktorun ağzına verdirmişdi. Cavabdehlik olmadığından vəzifə sahibləri ixtiyaratlı vaxtlarında atlarını kefləri istəyən kimi çapır, taxtdan düşəndə isə törətdikləri cinayətlərin altını zavallı millət çəkirdi. Bu cür üsullarla dinəni borclu çıxardıb yerində oturtmaq, milləti qorxu altında saxlamaq, idarə etmək asandı. Hər təzə gələn əvvəlkindən bəd gəlir, bədliyiynən sələfinin atasına rəhmət oxudurdu…

- Ə, vapşe, bunnarnan pişiyim-pişiyimlə danışmaq lazım deyil. - Bayaqdan bir yerdə qərar tuta bilməyən, dalaşqan xoruzlar kimi hərim-hərim hərlənən polis rəisi birdən partladı. - Dünyanı qazanırlar, amma kömək deyəndə canları çıxır. Yaxşısı budu tapşırığınızı verin, qoy papaqlarını qabaqlarına qoyub fikirləşsinlər. Özbaşınadılar? Çəm-xəm eləyənin anasını ağladaram! - Axırıncı sözü deyəndə Sabir müəllimin üzünə baxdı.

"Doğrudan, bunun başının donuzgülləsi əskikdi..."

İcra elçiləri sözlərini yekunlaşdırıb getdilər. Dükançılar məsələni hələ bir müddət öz aralarında müzakirə etdilər. Lap dimdiklərindən ilişmişdilər. Dükanlarının hamısı sərancamlaydı. Hərəsi sonradan bir-birinə baxaraq qonşu obyektlə aralarında boş qalmış gərəksiz ərazini tutub tualet-zad qondarmışdılar ki, sərəncamsızdı. Neçə dəfə əlaqədar təşkilatlara müraciət etmişdilər ki, hər şeyi, lap elə dükanlarını da qanuniləşdirsinlər, şəhadətnamə-filan alsınlar, tələsməyin, gözləyin, demişdilər…

Bayaqdan üzdə başını tərpədərək gedənlərə "bəli, bəli" deyən dükançı birdən-birə xoruzlandı ki, qələt eləyirlər, mənciyəz heç kimə bir qəpik də verməyəcəyəm! Buna hamam suyuynan dost tutmaq, deyərlər. İcra başçısı bizim pulumuzla abadlıq aparacaq, adını "daxili imkanlar hesabına" qoyub televizora çıxacaq, "malades" qazanacaq, bizə də bir qoz?.. İşimiz düşəndə barı bircə xahişimizi rüşvətsiz aşıralar, yenə dərd yarıdı…

İkibaşlı münasibət təəccüb doğursa da onun fikriylə həmrəydilər. Televizorda prezidentin bu tipli səfərlərini işıqlandıran reportaclara baxanda adamın əti tökülürdü. Biri soruşmurdu ki, ananı ağladım, axı bu "daxili imkanlar hesabına" nə deməkdi?.. Olmazdımı prezident bir dəfə də qəfildən, xəbərdarlıqsız gələydi? Axı qonaq deyildi! Hazırlıq görüntü, gözdən asılan pərdəydi. Hazırımı, yoxsa hazır olmayanımı görmək millətin xeyrinəydi? Tərəflər millətəmi, bir-birinəmi işləyirdilər? Pərdəni xəbərdarlıq edən, gözündə görmək istəyənmi, yoxsa xəbərdar olunan, pərdəni asanmı daha artıq maraqlıydı?..

Sabir müəllim gecə yuxusunda gördü ki, prezidenti qəsəbədə təntənəli şəkildə qarşılayanlar arasındadı və əl-qolunu ölçərək ona nəsə demək istəyir, amma o, eşitmir. Nə də irəli getməyə, prezidentə yaxınlaşmağa qoymurlar. Bu istəyi görənlər kömək etmək əvəzinə nədənsə hər vəchlə ona mane olur, kütlənin arasında itirməyə çalışırdılar. Sabir müəllim kütləni birtəhər yara-yara irəlləsə də axırda çiyni zopalı yekəpəri keçə bilmədi. Bu, ayıq vaxtı öldürmək istədiyi rəis idi. Rəis səsini çıxartmasa da qıcanaraq üz-gözünü əyişdirir, himcimlə onu geri itələyir, irəli buraxmırdı. Birdən prezident çönüb Sabir müəllimi gördü və yanına çağırdı. Kütlə, hətta zopalı rəis də bu çağırışdan sonra prezidentə tuşlanan hırıltıynan onu irəli itələdi. Prezident ona əl uzatdı. Di gəl əlini sıxan, üzünə gülən, necə deyərlər, öz prezidenti deyildi. Gözü pencəyinin yaxasındakı pamidor ləkəsinə sataşanda xatırladı ki, ay aman, bu adam, deyəsən axı, arvadının televizorda gördüyü həmin o baş nazirdi-nədi, odu!.. Oydu ya qeyrisiydi, gülə-gülə (kefi kökdü) soruşdu ki, nə məsələdi, sözün var, deysən? Allah insaf versin, Sabir müəllim elə birnəfəsə, mustafasız-zadsız dedi ki, bilmək istəyirəm görüm bu həngamə haçan bitəcək? Prezident elə bildi söhbət hazırkı həngamədən, görüşdən gedir. Sabir müəllim başa saldı ki, gündəlik ətrafda, ölkədə baş verən, yaşanan həngaməni soruşur… Prezidentin cildi o saat dəyişdi. Yaxasındakı pomidor ləkəsi də yox oldu. Qəfil qəribə bir itələşmə, qarışıqlıq düşdü. Tornado tipli dəhşətli bir fəlakət göz açıb yumunca hər şeyi adamlı-zadlı silib-süpürdü. Sabir müəllim bir də gördü meydanda, açılışına yığışdıqları nəhəng heykəlin qarşısında təmtək qalıb. Bir

suyu rəisə oxşayan heykəl ona baxıb bic-bic qımışırdı… Sağa, sola, arxaya, hara çöndüsə heykəli qarşısında gördü…

* * *

Televizorda milli məclisdən xəbərləri verirdilər.

- Sən bunların qeyrətinə, vicdanına bir bax!.. - Sabir müəllim özündən asılı olmayaraq bərkdən səsləndi.

- Yenə nə var, kişi?.. - Şalvarına ütü çəkən arvadı başını təəccüblə qaldırdı.

- Görmürsən bu harınlamışları?.. Millət çörəkpulunu güclə tapır, bunlar aylıqlarından şikayətlənir, əlavə konpensasiya tələb edirlər. Həm də nə az, nə çox, beş yüz min manat?..

- Əlli şirvan?.. - Xalidə özü üçün dəqiqləşdirmək istədi.

- Hə. Handa savadlı müəllimin, həkimin maaşı heç bunların istədiyi konpensasiya qədər deyil. Deputat aylığı, hardasa işlədiklərinin, yaxud obyektlərinin, şirkət-mirkətlərinin aylığı, üstəgəl kiməsə, nədəsə krışkalıq edib çırpışdırdıqları aylıq pay… yenə gözləri doymur.

- İkinci qrup əlilin pensiyası doqquz şirvan, bunların konpensasiyası əlli şirvan?. Əlillər pensiyalarının artırılmağını tələb edəndə, həmin bu deputatlar hökumətə havadar çıxdılar ki, imkan yoxdu. Bəs indi necə olur?..

- Adamı yandıran elə budu. Bir milli məclis, yaxud ora yığışan dırnaqarası millət vəkilləri ki, milləti unudub ilk növbədə özlərini düşündü, vay o millətin halına. Belə çıxır ki, millətin bir, bunların beş-on qarnı var. Sonra da başda oturanlarımız qarışıq hamımız Amerikanın, qeyri super dövlətlərin erməniynən bizə fərq qoyduqlarından, ikili standartlarla yanaşdıqlarından şikayətlənirik. O dövlətə, o millətə ikili standartlarla yanaşırlar ki, onlar özləri ikili, üçlü, nə bilim neçəli standartlarla yaşayırlar…

Sabir müəllim fikirləşdi ki, o pul üstündə dartışan deputatlardan hər hansı biri rəisin yerinə olsaydı, yəqin onu daha betər təhqir edərdi. Onların üzdəniraq hərəkəti, haray-həşiri problemlər içində çabalayan (azı onlar kimi yaşamaq haqqı olan) adamlara dolayısı ilə rəisin qisas hissi doğuran oxşar təhqiriydi. Onlar utanmaz-utanmaz bir daha sübut etməyə çalışırdılar ki, seçilmişlərdi və o məclisə

millətin deyil, öz günlərini ağlamağa yığışıblar. İş-güclərinin mahiyyəti isə ölü, şil-şikəst, bic qanunlar doğmaqdı…

Camaatın uşaqpulu deyilən aylığını ucdantutma kəsmiş və əvəzində imkansızlara daha artıq, yəni minimum dolanışıq, sosial təminat vəd etmişdilər. Yoxlayır, televizoru, soyuducusu, babat mebeli olan, gündəlik təsadüfi, əksər halda adi, əhəmiyyətsiz görünən, ehtiyac ucbatından, hökumətin kəramətindən normaya çevrilən dələduzluq, aldatma, fırıldaq, xırım-xırda əl-qap və sairlə dolananlar (cəmiyyət tərəfindən pozulmamış adamın hansı istəməz sakit, rahat, halal yaşasın?) həmin siyahıya salınmırdı. Dəhşətli dərəcədə qlobal, əhatəli bir məsələyə bu cür dar, naşı münasibət, kosmetik müdaxilə təsadüfi gəlir, qazancla dolananları (ölkədə əksəriyyət bu cür dolanırdı), qəsdən, cinayətkarcasına uçruma yuvarlatmaqdı. Demək belələri haçansa əldə etdiyini hər hansı bir səbəbdən (həyatdı, bunun xəstələnməyi vardı və s.) bir gün satıb-sovub tamam dilənçi kökünə düşməli və bu halını aylarla əlaqədar təşkilatların qapısında yataraq sübuta yetirə bilməliydi ki, kompensasiya alsın… Sabir müəllimə görə, uşaq ilahi tərəfindən varlı-kasıb fərqi qoyulmadan verilən pay, qismət, "uşaqpulu" da hardasa, bir növ, həmin uşağın halal puluydu (dövlət versə də). Azı artırmaqdansa kəsmək haçansa tarazlaşdırılmış sosial ədaləti pozmaqdı… Cəmiyyətin acınacaqlı vəziyyətə düşməsində, pis günə qalmasında səlahiyyəti daxilində onu yaxşılaşdırmağa borclu olan hər bir səlahiyyət sahibi, millət vəkili isə ikiqat günahkardı…

İnkişafı yaraşıqlı maşınlar, dəbdəbəli restoranlar, göydələnlər, topdağıtmaz xəzinə və sairlə ölçmək qoca tarixə rişxənddi. Yuxarıdan başlamış aşağıyacan hamı imkanı daxilində əl-qapdaydı və heç kəsin də sabaha inamı, könül dincliyi, qəlb rahatlığı yoxdu. Həqiqi inkişafın meyarı mənəviyyatdı ki, xəzinəsi bomboşdu və kəlləçarxda oturanların nəfsinin girovuydu…

Könül dincliyi, qəlb rahatlığı istəyən millət hər şeydən əvvəl özü özünü tanımalı, özü özünə qiymət verməli, bir-birinə eyni gözlə baxmalıdı…

* * *

Sabir müəllim növbəti dəfə rəisi izləyərkən qəsəbənin uzaq bir guşəsindəki dar küçə-dalana gedib çıxdı. Dalanın axırında balaca, xudmani bir həyət evi vardı. Ucundan-qulağından eşitdiyinə görə rəis bu həyət-bacanı, ev-eşiyi əri Qarabağ müharibəsində şəhid olmuş qəşəng bir gəlin üçün almışdı. Onunla qeyri-qanuni ər-arvad kimi yaşayır, gününün müəyyən hissəsini burda keçirirdi...

Evə yaxınlaşmaq təhlükəliydi. Hər saat nəzəri cəlb edə bilərdi. Adamdan soruşardılar, çıxışı olmayan bir dalanda nə itin azıb?.. Amma rəisi aradan götürmək üçün əlverişli yerdi…

* * *

Rəşidin təzədən idmana qayıtması (Sabir müəllim buna növbəti şıltaqlıq, adi, ötəri həvəs kimi baxırdı) əl-qolunu tamam bağlamışdı. İşini başa çatdırmağa mane olurdu. Amma bunu birbaşa dilinə gətirə bilmirdi.

- Ayə, ay bala, vallah, bu özünü havayıdan, bilə-bilə geri atmaqdı. Axı bundan belə səndən çempion-filan çıxası deyil…

- Çıxar, ata, çıxar, - Rəşid gülümsəyərək başını aşağı saldı. - Çempion çıxmasa da səsi çıxar… - Axırıncı sözləri çox müəmalı səsləndi.

- Ə, ondansa təhsilinin dərdini çək, instituta hazırlaş…

- İnstitut qaçmır…

- O qaçmır, bu qaçmır, bəs nə qaçır? Bir də görəcəksən əli aşından da olmusan, vəli aşından da… - Sabir müəllim bunu deməklə evlənmək məsələsini də xatırlatdı.

Bir tərəfdən özünün başının qarışması, o biri tərəfdən Rəşidin idmana getməsi alış-verişlərini tamam öldürmüşdü…

* * *

Nahardan sonra divanda uzanıb televizorda heyvanlar haqqında göstərilən filmə baxırdı. Ceyranlarla meymunların öz düşmənlərinə qarşı fərqli reaksiyası əyani müqayisə edilirdi. Gözlərinin qabağında yoldaşlarını şirlər parçalayan ceyranlar heç nə olmayıbmış kimi dağılışıb getsə də meymunlar onlara toxunanlardan bacardıqları kimi hayıf, qisas almağa çalışırdılar...

Bu vaxt telefon çır-çır çığırmağa başladı. Sabir müəllim telefona cavab verməyi, danışmağı əvvəldən xoşlamırdı. Günlərlə ona yaxın düşməzdi. Əksinə, telefon səslənən kimi arvadı yağı daşsa da həmin saat özünü yetirərdi. Ancaq bu dəfə telefon özünü cırsa da Xalidə görünmürdü.

"Hardadı, balam? Yoxsa qonşuya adlayıb? Bəlkə zibil atmağa gedib?.." Telefonun susmadığını görüb qalxdı.

- Alo?.. Alo, kimdi?.. Cavab ver də…

Xəttin o başındakı kimdisə bir az dinşəyib əlaqəni kəsdi. Əsəbi halda girəcəkdəki nömrəyazan aparata yaxınlaşdı, ekranında qırıq

xətlər qalmışdı. Elektron sistemə qoşulandan zənglərin çoxunu yazmırdı…

Mətbəxə keçdi, balkona boylandı, qonşu otağa baxdı. Yataq otağına çatanda qapısını örtülü gördü. Hər ehtimala qarşı içini arıtdı, öskürdü. Son vaxtlar arvadı lap ağciyər olmuşdu. Adamı birdən yanında görüb dik atılır, heç nədən səksənir, əsməyə başlayır, sonra da hirslənirdi. "Niyə oğru kimi gəlirsən? Səsini çıxartsana..." Hamısı özünə çox qapıldığına görəydi. "Bizi azara saldın", deyirdi...

Sabir müəllim qapını açanda arvadı oğurluğunu ört-basdır eləyən uşaq kimi yatacağı qarışdırdı. Əvvəl heç nə unamadı.

- Neynirsən, ay arvad?..

- Heç, elə-belə… - Açıq-aydın özünü itirmişdi, əlləri əsirdi. - Ağları dəyişmək istəyirdim, çirklənib…

Yorğanın altından qulağı görünən pencəyi gözünə sataşdı. Qaldıranda arasından tapançası, sonra patron darağı düşdü. Lap axırda güllələr yerə səpələndi...

Sabir müəllim Xalidənin tapançaya bu qədər maraq göstərəcəyini bilməzdi. Yaxşı ki, oğlunun xəbəri yoxdu. Bir də gördün tay-tuşları firitlədi, beyni qızıb xata törətdi. Ordudan buraxılmağa az qalmış heç nədən (dediyinə görə) bölük komandirini döymüş, Sabir müəllimi xərcə salmışdı...

Öz cavanlığındı, deyənlər yanılmırdı. O da əsgərlikdə birinci dəfə starşina (rusdu) anasını söyəndə heç nəyə baxmamış,ənginə birini ilişdirmişdi. Amma indi…

* * *

Heyvanlar haqqındakı filmi axşam televizorda təkrar göstərirdilər. Alimlər qisas hissinin heyvanlar arasında geniş yayılmadığını dəlil-sübutlarla əsaslandırmağa çalışırdılar. İnsanlar isə bu hissi çox ağrılı, həm də fərqli yaşayırdılar. Bəziləri onları təhqir edən, alçaldandan qisasını özlərinə sədəmə toxumaq, hətta özlərini öldürməklə alırdılar. Lakin əksər hallarda təhqir olunan təhqir edəndən hayıfını artıqlamasıynan çıxmağa çalışırdı. Çinli bir qadının ona xəyanət edən ərindən aldığı qisas çox orjinaldı. Ərinin şəkillərini küçələrə yapışdırır, altından da telefon nömrəsini yazır ki, zəng vurub onu biabır etsinlər...

Bu qisas üsulu Sabir müəllimdə gülüş doğursa da gecə yuxusunda rəisin şəkillərini küçələrə yapışdıracaq, altından da törətdiyi əməllərini yazacaqdı...

İndilikdə isə çinli qadının qisası Sabir müəllimə gündüz arvadının əvəzinə telefona qaçmasını, zəng vuranın cavab verməyəndə hirslənməsini xatırlatdı. Dübarə hirslənməkdənsə sevindi. Elə bil itiyini tapmışdı.

Əgər rəisi hələ öldürə bilmirdisə, hayıfını telefon xuliqanları, paketləri kimi onu dolamaq, cızdanağını çıxartmaqla almalıydı. Amma bu oyuna çox uymamalı, aludə olmamalıydı, yoxsa məqsəddən yayınar, soyuyardı. Təəssüf ki, Sabir müəllim rəisin telefon nömrəsini bilmirdi. Bilsəydi də belə bir oyunu ev, yaxud cib telefonu ilə oynamaq oturduğu budağı öz əliynən kəsmək kimi bir şeydi. Sonra fikirləşdi ki, hələlik telefonu məktubla əvəz etməlidi. Yəni rəisə dolaq məktubu yazmalı, onu ürəyi istəyən kimi dolamalıdı. Müvəqqəti, rəisin telefon nömrəsini əldə edincə…

Qalxıb yazı otağına keçdi, çoxdan unutduğu, yadırğadığı komputerinə yaxınlaşdı. Əvvəl barmaqları güclə sözünə baxsa da getgedə işləmək asanlaşdı. Sabir müəllim dolaq məktubunu səhərisi şəhərin ən gur poçtundan yola saldı. Həm də sifarişlə. Üstünə yad, təsadüfi bir ünvan, ad-familiya qaralamışdı. Yaxşı ki, sifarişlə göndərilən məktuba poçtda pul-para, haqq alsalar da vəsiqə-zad tələb etmirdilər…

Sabir müəllim rəisin bu məktubu alarkən necə təəccüblənəcəyini, açıb oxuyandan sonra necə hirslənəcəyini təsəvvür etməyə çalışsa da bacarmadı. Amma yenə bu cür məktubdan dalbadal bir neçəsini toqqaşdırdı. Hərəsini də şəhərin ayrı-ayrı poçtlarından yola saldı. İkinci dəfə əvvəlki uydurma ünvanı, ad-familiyanı təkrar yazmaq istəsə də yadına sala bilmədi. Sonrakı məktubları eyni ünvan, ad-familiya ilə göndərdi. Bu, axtarış üçün daha cəlbedici, inandırıcıydı. İstəyirdi ki, rəis məktublarla ciddi maraqlansın, yalançı ünvanı tapanda hirslənib özündən çıxsın, əzab-əziyyət çəksin…

Məktubgöndərmə gecələr yuxusunda tamam başqa bir şəkildə təkrarlanırdı. Sabir müəllim yuxularında o məktubların necə yazılması və göndərilməsi ilə bərabər rəis tərəfindən necə alınması və oxunmasının da şahidi olurdu. Televizorda filmə baxırmış kimi hər

şeyi, bütün mərhələləri kənardan aydınca görə, izləyə bilirdi. Rəis həmin məktubların hayıfını onu gətirənlərdən, əlinin altındakılardan alır, hirsini-havasını ətrafındakıların, lap elə ailəsinin üstünə tökürdü. Onu dolayanı tapmaqçün işçilərini poçtlara, hətta ən adi, gözdən-könüldən uzaq poçt qutularına belə nəzarətçi qoyurdu. Sabir müəllim rəisin güdükçülərini üzdən tanıyır, onlara sataşır, ələ salırdı. Məktublarını daha "zakaznoy" göndərmirdi, təsadüfi küçə uşaqlarına marocna, şar, konfet və s. bağışlamaqla poçt qutularına atdırırdı. Rəisin güdükçüləri böyüklərdən şübhələnsələr də uşaqları saya salmırdılar…

Nəhayət, bir gün yuxusunda rəisin güdükçüləri uydurma ünvanı axtarıb tapdılar. Təsadüfə bax, orda yaşayanlardan birinin adı məktubun üstündəki uydurma adla uyğun gəlmişdi. Pensioner bir babaydı. Çox da uydurmaydı, Sabir müəllimdən soruşsaydılar, deyərdi, qəhrəmanı cavandı. Çünki bu cür əlləm-qəlləm iş cavanın, heç olmasa onun yaşda adamın ağlına gələrdi. Lakin hirsli başda ağıl olmaz, rəis belə şeylərin fərqinə varası halda deyildi. Nə qədər and-aman eləsə də yazıq qocanı saqqalından tutub kabinetində o baş-bu başa sürüyür, axşam da ağzıbirə salırdı. Qarısının gətirdiyi pay-pürüşü də tulalarına, güdükçülərinə yedirdirdi…

Sabir müəllim bunu görüb elə yuxusundaca tezbazar növbəti məktubunu qaraladı. İlk dəfə üstünə uydurma bir qadın ad-familiyası yazdı. İstəyirdi rəis qocanı rahat buraxsın. Görsün ki, məktubu yazan nəinki o, heç kişi xeylağı deyil. Tərslikdən (yuxuydu də) ünvanı dəyişməyi unutdu. Ay aman, demə təzə yazdığı arvad ad-familiyası elə qocanın qarısının ad-familiyasıymış. Rəis qarını da gətirdib qatdı ərinə, qocaya…

Sabir müəllim yuxudan dəli kimi ayıldı. Həmin gündən dolaq məktubu yazmaqdan əl çəkdi. Onsuz da o məktuları oxuyarkən rəisin necə əsəbləşdiyini, pis günə qaldığını yalnız yuxuda görüb məmnunluq duyurdu…

Sabir müəllim rəisin heç olmasa hirslənən, əsəbləşən canlı səsini eşitmək istəyirdi. Telefon nömrəsini öyrənib şəhərin ən ucqar, gözdən-könüldən uzaq bir yerində xudmani, yaxşı işlək avtomat telefon tapdı. Rəis handan-hana çox arxayın, adi bir səslə onu

eşitdiyini, kimliyini soruşdu. Sabir müəllim səsini dəyişib gülə-gülə dedi:

- Dəyyus, köhnə dostunu tanımadın?..

Rəis əvvəl tutuldu, sonra dolandığına inanmayıb saxta bir gülüşlə güldü.

- Ə, Paşa, sənsən?.. - Deyəsən, Sabir müəllim düz onluğu vurmuşdu. Paşa hər kimdisə rəisin onunla zarafatı vardı.

- Paşa belə sənin ananı, arvadını… - Sabir müəllim ha ağzını doldurdu ki, rəisi tamam-kamal, açıq-saçıq, lap rəisin onu söydüyü kimi axıracan, adıynan söysün, yenə bacarmadı. Amma elə belə də rəis onu gözəl başa düşdü. - Yaxşımı, dəyyus köpəyoğlu?..

Rəis qulaqlarına inanmırdı, dəstək qulağında donub qalmışdı. Sonra başqa bir tanışının adını çəkdi, hələ də nəyəsə ümid edirdi.

- Ə, filankəs, bəsdi də, - dedi, - mən iş başındayam axı, eşidib-eləyən olar…

- Dəyyus oğlu dəyyus, cəhənnəmə iş başındasan, gora iş başındasan!.. - Qəribəydi, bu saat Sabir müəllimin beynində cürbəcür, növbənöv ağır, iyrənc söyüşlər dolaşırdı. Hətta onlardan eləsi vardı haçan, kimdən eşitdiyini, söyüş olub-olmadığını belə bilmirdi. Ürəyindən keçirdi ki, onları güllə kimi rəisin murdar bədəninə döşəsin və onu təəccübləndirsin. Di gəl alınmırdı ki, alınmırdı… Əvəzində rəis onu yenə öz tanış və tanış olmayan söyüşləri ilə mükafatlandırırdı. Həm də yəqin ki, ağzı köpüklənə-köpüklənə. İndi olmasa da gecə yuxusunda Sabir müəllim dəstəkdən üst-başına sıçrayan tüpürcəkdən qorunmaq üçün onu özündən aralı saxlayacaqdı…

Sonra rəis yana-yana dedi (yuxuda təpəsindən çıxan tüstüsünü də görəcəkdi) ki, kişisənsə dəstəyi asma, səni indicə tutduracağam. Sabir müəllim onun dəstəkdə qulbeçəsini necə çağırdığını, tapşırıqla harasa göndərdiyini eşitsə də hədə-qorxusunu vecinə almadı (yuxuda ehtiyatlanacaqdı), hələ bir müddət də onu hürdürdü. Axırını da belə yekunlaşdırdı ki, sənin ciyərini çıxardacaq, ananı ağladacağam, dəyyus köpəyoğlu!.. Tez də dəstəyi asdı ki, rəisin hərcayi söyüşlərini eşidib əvəz-əvəz olmasın…

Sabir müəllim sonrakı zənglərində tutulmamaq üçün danışıq yerini, gününü, hətta saatını belə dəyişirdi. Rəis onun əlindən zəncir

çeynəyirdi. Qızışıb ağzına gələn, gözünə görünən söyüşlərlə söyür, sonra da ruhdan düşüb Sabir müəllimə yalvarır, kələkləyirdi ki, hər kimdisə üzə çıxsın. Barmağını da toxundurmayacağına, əksinə, nə istəsə verəcəyinə, onu razı salacağına and içirdi, təki ondan əl çəksin…

Yuxuda Sabir müəllim rəisi ürəyi istəyən kimi söyür, gündüz seanslarında aşa bilmədiyi maneələri aşır, heç nədən utanıb həya etmirdi. Hətta bəzən nadir, ekzotik söyüşlərlə rəisin gözünü kəlləsinə çıxardırdı…

Gündüz danışıqlarının birində rəis dedi:

- Sənin kimliyini artıq yüz faiz dəqiqləşdirmişəm!.. - Bu, əlbəttə, şantacdı.

- Kiməm, ə, mən, dəyyus köpəyoğlu? Bilirsənsə niyə tutdurmursan?..

- Sən o məktubları yazan adamsan... - Sabir müəllim daha məktub yazmasa da rəis bunu doğru deyirdi. - Hə, boynuna al, görürsən tapmışam? - Sabir müəllimin cavabında ləngiməsi rəisi daha da ruhlandırdı. - Yəqin deyəcəksən, noolsun, məktubyazanın ki, kimliyini bilmirsən? Bilirəm, bunu da bilirəm, məktubu yazan da, sən də həmin o elektrik malları mağazasının sahibi, müəllimsən!.. - Səsində bir arxayınlıq, inam duyulurdu.

Sabir müəllim bir anlığa özünü itirdi. Yaxşı ki, telefon müasir, göstərən (hamı kimi o da hərdən telefonun belə bir kəramətə sahib olmasını ürəkdən arzulayırdı, demə, nahaq, gəl ondan sonra haça-puça saxla görüm necə saxlayırsan) telefon deyildi, yoxsa bunun altından çıxmaq olardı?..

- Elektrik malları mağazası nədi, müəllim kimdi, ə, dəyyus köpəyoğlu? - Sabir müəllim çalışdı ki, rəis səsindəki dəyişikliyi hiss etməsin.

- Hə, hə, hamısı sənsən. - Rəisin səsindəki inam, arxayınlıq özündən müştəbehliyə, nə bilim nəyə çevrildi. - Bilirsən nədən bildim? O dükançı müəllim də söyüş söyə bilmir, sən də. İndicə dükanına adam göndərəcəyəm, hər şey aydın olacaq…

- Ə, sənin də, lap elə o dükançı müəllimin də anasını!.. -Sabir müəllim bu söyüşü lap öz adıynan söydü. Utanıb-çəkinmədən, gözünü belə qırpmadan. Öz söyüşünə özü də mat qaldı. Hər şey

birdən, qəfil alındı. Yəqin qabaqcadan ölçüb-biçsə, düşünüb-daşınsa, fikirləşsəydi, heç nə alınmazdı. Necə ki, dönə-dönə cəhd etsə də başqa vaxt alınmamışdı. Bir də özgə çıxış yolu, şansı da qalmamışdı…

Deyəsən, rəis belə gözləmirdi. Əməlli-başlı çaş-baş düşdü. Sabir müəllim ona özünü düzəltməyə, daha nəyisə götür-qoy etməyə imkan vermədən telefon danışığını kəsdi. Birbaş dükana qaçdı. Rəis zənnində yanılıb-yanılmadığını bir daha, hər ehtimala qarşı yoxlaya bilərdi. Dükanda olub-olmamağı heç nəyi sübut etməsə də əhəmiyyətsiz görünən balaca bir şübhəyə də əsas vermək istəmirdi. Yaxşı ki, qəsəbədən danışırdı...

- Nə var, nə olub, ata?.. - Qəribəydi, qapıdan girən kimi oğlu üz-gözündən daxilindəki narahatçılığı oxuya bildi.

- Heç nə!.. - Sabir müəllim özünü doğrultmağa, hisslərini ört-basdır etməyə çalışdı.

Bir azdan polis işçisi qapını açıb içəri girəndə aydın oldu ki, zənnində yanılmayıb. And içərdi ki, rəis bu adamı onun dalınca göndərib...

Polis nəfəri yalandan bir neçə şeylə maraqlandı və heç nə almadan çıxıb getdi…

* * *

Sabir müəllim küləkli bir havada rəisin evindən iki tin aralıda yaşıl "Ciquli"ni qəfildən qarşısında gördü. Əvvəl çaşıb qaldı, bilmədi neynəsin, ötüb keçsin, ya dayansın? Sonra əyləci basıb maşını yavaşıtdı.

Üzübəri gələn iki məktəbli oğlana (təxminən on yaşlarınday-dılar) çatanda yaşıl "Jiquli"nin qapısı açıldı. Sürücü uşaqlardan birini basmarlayıb içəri salmağa çalışdı. O biri qorxusundan çığıraraq kənara qaçdı. Səs-küy qaldırdı. Tutulan uşaq balıq kimi partlayır, kişinin əl-qolunu dişləyirdi…

Sabir müəllim elə bil yuxudaydı, birdən ayıldı. İrəli şığıyıb kişinin boynunun ardına bir yumruq ilişdirdi. Kişi sağ əliynən ondan müdafiə olunanda uşaq bic tərpəndi, sol əlini dişləyib aradan çıxdı. Sabir müəllim yumruğunu ikinci dəfə yendirmək istəyəndə baxışları

bir anlığa ″Ciquli″ sahibinin baxışları ilə toqquşdu. Nədənsə o saat da qolu boşaldı...

Maşın uzaqlaşıb gözdən itəndən sonra Sabir müəllim üst-başını qaydaya salan uşağı sorğu-suala tutdu:

- Bu adamı, səni qaçırtmaq isətəyəni tanıyırsanmı, oğlum?

- Yox... - Qada-balanın sovuşduğunu başa düşən oğlanın rəngi-ruhu tədricən özünə gəldi.

- Eviniz uzaqdadı?.. Qorxursansa, əyləş maşina, aparım.

- Rəisin oğludu ey… - Bayaqdan kənarda dayanaraq çığır-bağır salan oğlan da ürəklənib yaxınlaşdı.

- Hansı rəisin, ə?.. - Sabir müəllim duruxdu.

- Polis rəisinin…

Təsadüfə bir bax! Belə bir şey yatsa yuxusuna da girməzdi. Daha heç nə soruşmadı. Dinməz-söyləməz qayıdıb maşınına oturdu...

Xalidə hadisəni eşidib mat qaldı.

- Kişi, sənin yerinə kim olsaydı uşağı aparıb anasına təhvil verər, qiymətli bir hədiyyə qopartmamış əl çəkməzdi. Bu, qəhrəmanlıq kimi bir şeydi…

* * *

Sabir müəllim həmin gecə yuxuda gördü ki, rəisin oğlunu özü qaçırdır. Maşınında bir qadın da vardı. Bu da gah arvadına oxşayırdı, gah da tamam yad bir qadına. Xalidə uşağı aldadırdı ki, xalasıdı, anası göndərib dalınca. Uşaq da onun sözünə inanıb maşına minir, arvadının yanında əyləşirdi. Qəribəydi, Sabir müəllim uşağı yerdə oğlan gördüyü halda maşında, Xalidənin böyründə qız olurdu. Həm də uşaq birdən-birə lap balacalaşır, bağça yaşında uşağa dönürdü. Xalidəni doğrudan-doğruya xalası bilir, ″xala″ çağırırdı.

Sabir müəllimgil uşağı qaçırtmaq əvəzinə rəisin evinə aparırdı. Onları rəisin arvadı qarşılayırdı. Sabir müəllimgil deyəndə ki, uşağınızı qaçırtmaq istəyirdilər, saldırmışıq, sevindiyindən bilmirdi neynəsin. Dönə-dönə minnətdarlığını bildirirdi. Arvadı utanıb-eləmədən qayıdırdı ki, bizə sənin minnətdarlığın-zadın lazım deyil, gətir görək o boyda risqimizin müqabilində hörmətiniz nə olacaq? Sabir müəllim utandığından üzünü əlləriynən gizlədir, az qalırdı yerə girsin. İstəyirdi arvadının qolunu çimdikləsin ki, bəsdi. Baxırdı ki, bu

sözləri deyən Xalidə yox, tamam başqa bir qadındı. Sonra Sabir müəllim necəsə kənardan özünə də baxa bilir və məlum olurdu ki, heç o özü də özü, yəni Sabir müəllim deyil, yad bir adamdı. Bəlkə yaşıl "Ciquli"nin sahibidi...

Rəisin arvadı əlacsız qalıb hədiyyə dalınca içəri evə keçirdi. Bu zaman rəisin özü peyda olurdu. Əlində bağlama-hədiyyə qayıdan arvadı məsələni sevinə-sevinə ərinə danışırdı, onun heç tükü də tərpənmirdi. Sevinmək əvəzinə sir-sifətindən zəhrimar yağırdı. Otaqda o başa-bu başa var-gəl edə-edə arabir öz-özünə deyirdi:

- Mən bilirəm bunlar kimdi…

Arvadı xəlvətcə onu dümsükləyirdi ki, ə, kiri, ayıbdı, balamızı düşmənimizdən saldırıblar. Rəis kor tutduğunu buraxmayan kimi eyni sözləri təkrarlayırdı. Arvadı isə əlində gətirdiyi bükülünü zorla Xalidəyə (Xalidəyə oxşayırdı da, oxşamırdı da, büqələmun kimi dəqiqədə bir dəyişirdi) sırımağa (canfəşanlığından belə görünürdü) çalışsa da, nə illah eləyir, bacarmırdı. Soruşurdu ki, bəs bizdən nə istəyirsiniz? Axı belə olmaz, biz yaxşılığınızın əvəzini mütləq çıxmalıyıq, borclu qalmaq istəmirik. Bəlkə ərimin dedikləri xətrinizə dəydi? Ona fikir verməyin…

Yenə daş-divardan səs çıxırdı, Sabir müəllimgildən yox. Axırda qadın sir-sifətindən zəhrimar yağan ərinə göz-qaş eləyirdi ki, ə, sən də bir dillən görək bizdən nə istəyirlər də? Rəis xahiş-minnət əvəzinə birdəncə məkirli-məkirli gülür və bərkdən deyirdi:

- Mən bilirəm bunlar kimdi və bizdən nə istəyirlər…

Qadın elə bil ərinin sözlərini birinci dəfə eşidir və sevinirdi.

- Nə istəyirlər?..

Rəis üz-gözündən zəhrimar yağa-yağa Sabir müəllimə yanaşırdı:

- Yaxşı, bəsdi, gəl bu oyunu qurtaraq. Nə qədər istəyirsən, necə istəyirsən məni söy, raşot olaq…

Xalidə ərinə qayıdırdı ki, söy də, kişi, niyə durub baxırsan? Sabir müəllim də nə qədər ağzını doldururdusa rəisi söyə bilmirdi. Xalidə ərinə deyirdi, kişi, icazə ver sənin əvəzinə mən söyüm? Rəisin arvadı sevincək deyirdi, hə, olar, bacı, söy, nə qədər kefindi söy bizi, sizin də, lap elə bizim də canımız dincəlsin...

Sabir müəllimin canını qorxu alırdı. Arvadını qabaqlamaq, demək istəyirdi ki, söymə, arvad, qoy onlar bizə borclu qalsınlar. Lap ömürlərinin axırınacan. Ən böyük qisas elə budu!..

Amma deyə bilmirdi və elə deyə bilmədiyinə görə də az qalırdı ürəyi partlasın...

* * *

Səhərisi gün rəisin arvadı televizorda göründü. Uşağının xilaskarını axtardığını söylədi. Əgər onu eşidirsə, üzə çıxmasını xahiş etdi. Sonra ona qiyabi təşəkkürünü çatdırdı… Həmin adamı tapanı, yaxud ünvanını deyəni də qiymətli hədiyyə gözləyirdi…

Xalidə təzədən öz fikrini yeritdi ki, başqası mütləq bu təsadüfdən bəhrələnər, qəhrəman kimi məşhurlaşardı. Sabir müəllim yenə arvadına cavab vermədi…

Verilişdən bir qədər sonra Sabir müəllimə bir zəng gəldi.

- Həə, Sabir müəllim, televizordakı elanı eşitdinmi?..

- Siz kimsiniz, məni hardan tanıyır, telefon nömrəmi necə əldə etmisiniz?.. - Sadəlövh suallarını bir-birinə caladı. Guya qəsəbədə onu az adam tanıyırdı? Bir də telefon nömrəsini əldə etmək nə çətin işdi? Atalar sözüydü, axtaran tapar, əlbəttə, yaxşı axtaran…

- Əsəbləşməyin, Sabir müəllim, siz də məni tanıyırsınız, amma mənim qədər yox…

- Axı siz kimsiniz? Sizi hardan tanıyıram?..

- Sizin düşməniniz mənim də düşmənimdi. Polis rəisini deyirəm…

- Yoxsa siz həmin adamsınız?.. - Sabir müəllim inanmasa da gümanını bildirdi. - Yaşıl "Ciquli"nin sahibi, rəisi güdən, oğlunu qaçırtmaq istəyən?..

- Gördünüz, dedim axı tanıyırısınız. Diqqətli adama oxşayırsınız. Yəqin hələ o birilərini də tanıyırsınız? Rəisi güdənləri deyirəm…

- Necə?.. - Sabir müəllim heyrətləndi. - Başqaları da var?..

- Əlbəttə!.. - Yaşıl "Ciquli"nin sahibi bərkdən güldü. - Bəlkə hələ mənim nəzərimdən qaçanları da tanıyırsınız, yalandan özünüzü tülkülüyə qoymusunuz?..

- Yaxşı, niyə zəng vurmusunuz, hə?.. Bunları çatdırmaq üçün?..
- Elə bildi telefondakı onu söymək, ürəyini boşaltmaq fikrindədi. Məsələni uzatmaq istəmədi.

- Gərək siz mənə mane olmaya, uşağı əlimdən almayaydınız...

- Əvvəla, özünüzün dediyiniz kimi, mən sizi yaxşı tanımıram. İkincisi də, uşağın nə günahı?..

- Bilsəydiniz o köpəyoğlu mənə nə dağ çəkib, bu sualı verməzdiniz…

- Neyniyib axı sizə?.. - Çox namünasib sualdı. Gözlədiyi kimi cavab almadı. O özü də bu cür hərəkət edərdi.

- Biz ümumi düşmənə qarşı birləşə bilərdik...

- Axı siz hansı əsasla bu qərara gəlmisiniz ki, rəis mənim düşmənimdi?..

- Uşaq deyiləm məni azdırasınız, Sabir müəllim…

- Lap tutaq ki, sizin dediyiniz kimidi. Biz yenə birləşə bilmərik. Çünki düşmənə qarşı mövqeyimiz, düşmənçilik iddialarımız tamam fərqlidi…

- Düşmən düşməndi, Sabir müəllim. Ona qarşı mübarizədə bütün vasitə və üsullar məqbuldu. - Yad adam öz arqumentləri ilə bir daha onu inandırmağa çalışdı.

Sabir müəllim dedi, rəisin oğlunu təsadüfən, bilməyərəkdən saldırıb. Ancaq təzədən belə bir vəziyyət yaransaydı və qabaqcadan bilsəydi ki, qaçırılan uşaq rəisin, başqa sözlə, düşməninin uşağıdı, yenə əvvəlki kimi hərəkət edərdi. Çünki onun hesab-kitabında kimin olur-olsun, uşaq günahsızdı. Ona toxunmaq, zərər yetirmək özü ən böyük günah, cinayətdi…

- Qorxmursan rəisin evinə zəng vuram, ünvanını deyəm?..

Sabir müəllim bir anlığa tutuldu, fikrə getdi.

- Yox, inanmıram ki, siz belə bir səfeh iş tutasınız…

- Sizi başa düşmürəm. Axı əla şansdı, rəislə barışa, dost ola bilərdiniz?..

Sabir müəllim cavab vermədən dəstəyi asdı. Nəyisə başa sala biləcəyinə inanmırdı…

* * *

Yuxuda rəisin arvadı oğlunun xilaskarını tapmış, xilaskar qismindəki adam və qızı ilə (oğlunun xilaskarı desə də yanındakı

qızıydı) təzədən televizora çıxmışdı. Bu adam gah Sabir müəllimə oxşayırdı, gah da yaşıl ″Ciquli″nin sahibinə. Qəribəydi, uşaq onu sorğu-sual edən aparıcıya, əməkdaşa dəqiq deyə bilmirdi ki, yanındakı onun xilaskarıdı, yoxsa qaçırdanı? Əvəzində anası dil-dil ötürdü ki, oğlu (gah oğlu deyirdi, gah qızı) həyəcanlı olduğuna görə xilaskarının üzünü yaxşı yadında saxlaya bilməyib…

* * *

Son zəngində rəis növbəti dəfə olan-qopan bütün təcrübəsini, bacarığını işə salıb alaşıq-dolaşıq sualları ilə Sabir müəllimi fırlatmağa, dolaşdırmağa çalışsa da axırda özü qarmağa keçdi. Sabir müəllim əvvəl dedi ki, ə, dəyyus, nahaq yerə məni dağda-daşda axtarma. Eyni idarədə, sənin əliyin altındaca işləyirəm. Sonra da təzə baxdığı bir xarici filmin təsriynən əlavə etdi ki, axırın çatıb. Yarım saatdan sonra idarəli-zadlı külünü göyə sovuracağam, qonşu kabinetlərdən birində bomba quraşdırmışam. Rəisin nitqi tutuldu. Kreslosunda dovşan kimi əsməyə başladı... Yox, lənət şeytana, Sabir müəllim rəisin kreslosunda dovşan kimi əsməsini hələ gecə yuxusunda görəcəkdi. İndilik rəis handan-hana alt-üst vurdu ki, ə, Səxavət (yəqin qulbeçələrindəndi, deyirdilər, hirslənəndə onları da söyür), qoduq, sənsən məni dolayan? O şillənin (demək, ortada ″şillə″ məsələsi də vardı) hayıfını alırsan?.. Sabir müəllim dedi, ə, dəyyus, hər kiməm, nəyin hayıfını alıram, özüm billəm… Rəis tələsik aşağı çinli polislərindən daha birinin adını çəkdi. Məlum oldu ki, haçansa bunun da var-yoxunu söyüb. Amma guya hər şeyi çoxdan unudub. Hətta son vaxtlar onu mükafata təqdim etmək fikrinə də düşüb…

Ciddi yanaşmadığı bu dolaq zənginin əks-sədasını Sabir müəllimə iki saatdan sonra müştərilərindən biri çatdırdı. Demə, rəis elə həmin dəqiqə bütün rayon, şəhər üzrə bombanı zərərsizləşdirməyə dəxli olub-olmayanların hamısını bir nəfər kimi ayağa qaldırıb, polis bölməsində bir həngamə qopub, gəl görəsən. Görüntü televiziya kanallarının axşam xəbərlərində də işıqlandırıldı…

* * *

Sabir müəllim səhər-səhər axırıncı podyezdin qabağında, səkidə qara örtüklü mafə gördü. İçini qeyri-adi məşum bir hiss sardı. Yanından keçməyə imkan olsa da səkidən düşüb boş mafəyə əyri-

əyri, nəsə özünün də anlamadığı hisslərlə baxa-baxa kənardan adladı. Giriş qapısının ağzında kimsə gözə dəymədi. İçəridən də səs-küy eşidilmirdi. Lakin mafənin burda qoyulması çox şeydən xəbər verirdi. Fərqi yoxdu, əcəl zəngi bu girişdəki mənzillərdən hansındasa birində çalınmışdı. Səs-küyü bir azdan çıxacaqdı. "Görəsən bədbəxt kimdi?." Yəqin əlsiz-ayaqsız, sayılıb-seçilməyəndi. Yoxsa səs-küyü elə bəri başdan bütün binanı ayağa qaldırardı…

Taksist Nazimin taksisi bir az aralıda, adəti üzrə hardasa nə münasibətləsə içib işə çıxmadığı günlər dayandığı yerdəydi. Özgə vaxt onu məhəllədə tapmaq müşkül məsələydi. Haçan gəlib, haçan getdiyindən kimsə xəbər tutmazdı. Çünki ayıq vaxtı məhəllədə kimsə ilə oturub-durmaz, ünsiyyət saxlamazdı. Harda içdiyini də kimsə bilməzdi. Bir də onda görərdin səndələyə-səndələyə şappadanxeyir qabağına çıxdı, üzünə gülə-gülə, alt-üst vura-vura heç dəxli olmayan bir məsələdən söz saldı. Sözünün də nə əvvəli məlumdu, nə axırı…

"Sabah-sabah bu nə içməkdi, ə? Yəqin axşamdan bərk vurub… Hə, bir azdan görəcəksən gəldi…"

İki saatdan sonra evə qayıdan Sabir müəllim binanın həmin girişində səhər gördüyü mafə ilə təzədən qarşılaşdı. Bu dəfə içində bükülü, qara örtük altında meyid də vardı. Qonşular çiyinlərində bayıra çıxardırdılar. Həyətdəkilər də qonum-qonşuydu, yad adam tək-tükdü. İçəridən sən deyən ağlaşma-filan eşidilmirdi…

Sabir müəllim ayaq saxlayıb qonşulara qoşuldu. Yenə fikirləşdi ki, yazıq hər kimdisə, deyəsən, simsar, bacı-qardaş, qohum-əqrəba sarıdan yarımayıb...

Mafəni girişdən bir az aralı, binanın qabağında yerə qoydular. Molla böyür-başda pərakəndə dayananları özündən arxaya keçməyə çağırdı. Hamı itaətkarcasına əməl etdi. Qoltuq cibindən çıxartdığı balaca quranı avazla oxumağa başladı. Sabir müəllim səbrini basıb gözlədi. Molla quranı oxuyub qurtarandan sonra üzünü cavanlara tutub dedi:

- Mafəni ehtiyatla qaldırın, yük maşınına aparacağıq.

Cavanlar hərəkətə gəldi. Sabir müəllim yalnız indi böyründəki qonşusundan pıçıltıynan soruşdu:

- Kimdi?..

- Xəbərin yoxdu, Nazimdi də, taksist Nazim…

- Yox, əşi?.. - Sabir müəllimin heyrətdən ağzı açıla qaldı.

Qeyri-iradi Nazimin taksisinə tərəf boylandı. Maşın elə bil həmişəki, lap elə səhərki maşın deyildi. Yaman yazıq, miskin, boynuburuq dayanmışdı…

Sabir müəllim qonşusunun ölümünə inanmadı. Sanki bütün bunlar hamısı növbəti bir qəmədiyyə, zarafatdı. Sadəcə Nazim yenə içib sərxoş olmuş, həm də həmişəkindən çox içmiş, belə bir oyun çıxartmışdı. Yəqin yük maşınına qaldıranda qalıxb üstündəkiləri bir qırağa atacaq, "həvəsdi, zarafatdı, daha bəsdi, uşaqlar", deyəcək, sonra da mafədən düşüb heyrət dolu baxışlar altında ilk dəfə səntirləyə-səntirləyə, yıxıla-dura taksisinə oturacaq (Nazim hələm-hələm içib sükan arxasına keçməzdi), dızıltıynan sürüb harasa öz iş-gücünün dalınca gedəcəkdi. İçi Sabir müəllim qarışıq hamı bunu (nəinki Nazimin mafədə çiyinlərdə getməyini) təbii qarşılayacaq, rahatlanmış halda dərindən nəfəsini dərəcəkdi…

- Avariya eləyib?.. - Hamı kimi Sabir müəllim də taksistin ölümünü birinci növbədə qəza-qədərlə bağlayırdı. Amma sualı verəndən sonra yadına düşdü ki, Nazimin maşını həyətdə sağ-salamatdı, əzilib-eləməyib.

- Bədbəxtin ürəyi dayanıb…

- Xəstəydi?.. - Sabir müəllim bundan xəbərsizdi.

- Dərindən yoxlasan indi hamının ürəyi xəstədi! - Qonşu bunu qəribə bir hökmlə dedi. - Həkim deyirdi, içmə, bu da elə bil acığa düşüb daha artıq içirdi son vaxtlar canından bezmiş kimi…

- Öləndə içkili olub?..

- Yox. Ələtə klent aparırmış. Salyanski şosseyə çıxanda pavarotnikini yandırıb dayanıb. Klent baxıb ki, maşınların ayağı kəsilir, təzədən açılır, bu yerindən tərpənmir, gözü yolda, əlləri rolda gözləyir. Toxunanda görür ki, bədbəxt aşdı. Demə, keçinibmiş…

- Pah atonnan, ölümə bax!.. Toyuq ölümündən betərdi…

Arxası açıq yük maşını yolun o biri tərəfindəydi. Mafəni çiyinlərində aparanlar durub belədən-belə şütüyən maşınlardan macal gözləsələr də onlar dayanmır, elə bil nə baş verdiyini görmür, anlamırdılar...

Bu zaman belindəki miqalkasını yandırıb yaxınlaşan DÜP maşınının xışıltısı eşidildi. Həmin saat yolu keçən maşınların o tərəfdəki o tərəfdə, bu tərəfdəki bu tərəfdə yerə mıxlandı. Baxdılar ki, qaişnik Condu. "Görəsən kimin meyidi üçün yol açdığından xəbəri varmı?" Sabir müəllim daha sonra başqa cür fikirləşdi. "Bəs Nazim necə?.."

- Yazıq içən kimi deyirdi, bu qaişnik Conu bir gün maşınımın altına salıb əzəcəyəm… - Böyründəki qonşusu öz-özünə qımışaraq pıçıldadı. - Deyirdi, həm də bunu ayıq vaxtı eləyəcəyəm. Deyirdim, axı içkili ürəkli olarsan. Deyirdi, içkili statyamın biri də artar, işim ağırlaşar... Dərddən içirəm, deyirdi, içməsəm bu dünyanın zıppıltısına dözə bilmərəm…

Həmin gün, taksist Nazimi basdırıb qayıdan axşamı Sabir müəllim yuxusunda gördü ki, beş arşın ağa büküb qəbirə salladıqları Nazim yox, elə onun özüdü. Amma qəribəsi oydu ki, ətrafdakılar onu basdıra-basdıra taksist Nazimdən danışırdılar. Tərifləyir, ölümünə heyifsilənirdilər. Qəbrin içində birdən Sabir müəllimin qulağına amiranə bir səs gəldi.

- Dayanın, bir dəqiqə əl saxlayın!.. - Bu, Sabir müəllimin öldürmək istədiyi polis rəisinin səsiydi.

Qəbri torpaqlamağa hazırlaşan lopatkalılar səsə tərəf çöndülər. Rəis iti addımlarla yaxınlaşıb əlindəki hər nəydisə ehtiyatla qəbrin içinə atdı. - Allah rəhmət eləsin, - dedi, - ruhu şad olsun! Torpaqlayın…

Təəccüblə aşağı boylananlar baxıb gördülər ki, rəisin qəbrə qoyduğu adi cib telefonudu, markası da "Samsunq"…

Qəbrin üstünü torpaqladılar. Molla dübarə quran oxudu və hamı tezbazar maşınlara doluşdu. Əl-ayaq tamam çəkiləndən sonra bayaq rəisin qəbrə atdığı telefon qəfildən xışıldadı. Sonra Qədirin yanıqlı "Sona bülbüllər"i eşidildi. Sabir müəllim Qədirin səsinin dəlisiydi. Odu ki, ağlına heç nə gəlmədən huş-guşla qulaq asmağa başladı. Elə bil evində yumşaq divanda uzanmışdı. Balaca radiosu da sinəsinin üstündəydi. Musiqi axıra çatmadan yarımçıq kəsilib təzədən çalındı və Sabir müəllim yalnız indicə başa düşdü ki, məsələ nə yerdədi, bu musiqi nə musiqidi. Əlini kəfəndən çıxardıb sinəsi üstündəki telefonun düyməsini basdı və qulağına tutdu. Rəisin səsini

eşidən kimi ″nədi, ə, dəyyus köpəyoğlu?″ dedi. Rəis də həmişəki kimi onun anasını xalatladı. Axırda da ″necəsən, halındı, dəmin?″ soruşub bərkdən hırıldadı. Sabir müəllim daha dinmədi. Qəbir kimi susdu. Başa düşdü ki, rəisi öldürməyi ləngitməkdə böyük səhvə yol verib. Demək, nə qədər ki, rəis sağdı, işıqlı dünyada gəzirdi, Sabir müəllimə bu qaranlıq dünyada da dinclik yoxdu. Telefonu qəbrinə havayı qoymamışdı ki!..

* * *

Sabir müəllimin ürəyinə damdı ki, rəis yenə məşuqəsinin yanına gedir. Dalanın ağzında qabaqlamaq üçün özünü ora daha əvvəl çatdırdı. Maşını dalandan çıxan bir vəziyyətdə, girəcəkdə yatırtdı. Bir gün əvvəl yağış yağdığından küçə palçıqdı. Hesabla bunun özü də bir şansdı...

Rəisin maşını yaxınlaşanda aşağı düşdü. Kapotu qaldırıb yalandan qurdalanmağa başladı. Hər şey düşündüyü kimi alınsa, onun işini bitirəcəkdi. Yemişbaşın da həmçinin. Başqa variantı yoxdu...

Yemişbaş aralıdan maşının işığını yandırıb söndürərək işarə edirdi ki, yolu boşaltsın. Sabir müəllimin kapotun arxasından çıxmadığını görüb siqnalladı. Yaxınlaşanda pəncərədən bağırdı:

- Ey, sənnənəm! Yoldan çıxacaqsan ya yox?..

Sabir müəllim nəhayət özünü göstərdi:

- Görmürsən işləmir?.. - Nə qədər sakit desə də səsi azca titrədi.

- Ciddi məsələdi?.. - Yemişbaş səsini yendirməkdə onu tanımışdı.

- Bilmirəm, bura çatanda mator öz-özünə söndü.

- Ə, qurtar, bizimlə məzələnmə. - Rəis də başını pəncərədən göstərdi.

Sabir müəllim yalandan mühərrikin ora-burasını qurtdalayıb sükan arxasına keçdi. Açarı burduqca maşın dığıldayır, ancaq işə düşmürdü. Düşə də bilməzdi, sekretini vurmuşdu…

Yer palçıq olmasaydı rəisin maşını bəlkə də böyür-başdan birtəhər adlayardı. Ancaq indi sürüşmə ehtimalı böyükdü. Sabir müəllim də elə bunu nəzərə almışdı.

- Sveçaları yoxlamısan, islatmayıb ki?.. - Yemişbaş düşüb yaxınlaşdı.

- Durduğu yerdə niyə islatmalıdı?.. - Əli gicişən Sabir müəllim onu qanlı-qanlı süzdü. - Bəlkə kömək edəsən bir tərəfə itələyək?..

Rəisin köməyə gələcəyinə inanmırdı. Bəxti gətirsə, başqa sözlə, rəisin taleyi ondan üz döndərsə, hər şey ola bilərdi. Girəvəni əldən verməməliydi. Allah bilir bir də nə qədər gözləməli, arxasınca sürünməliydi... Həyəcandan bütün bədəni əsirdi. Dili-dodağı da qurumuşdu.

- İkimizin gücümüz çatar?.. - Yemişbaş qolunu çırmaladı.

- Palçıq olmasaydı, çatardı. Amma belə çətin...

- Gəl hələ bir sınayaq…

Sabir müəllim sükanı bayırdan düz saxlamaq üçün pəncərənin şüşəsini yendirdi. Yemişbaş arxaya keçdi. Güc versələr də maşın yerindən tərpənmədi.

- Bəlkə rəisindən xahiş edəsən?..

- Mənlik deyil... - Yemişbaş yaxasını qırağa dartdı. - İstiyirsən özün de…

- Ə, niyə demirəm... - Sabir müəllim qəti hərəkətlə irəli yeridi.

Bəlkə taleyin bəxşişiydi? Düşüb gələrdi, daha yaxşı, gəlməzdi, onu acılayardısa, yerindəcə işini bitirər, sonra da yemişbaşı öldürərdi... Artıq tutulub-tutulmamaq haqqında düşünmürdü.

İlk addımını atmışdı ki, küçəyə burulan boş "Qazel"i gördü. Bu da taleyin bəxşişi! Maşın arxadan rəisin "06"-sına dirənib dayandı.

- Nədi, xoda getmir, ay müəllim?.. - Dazbaş qəsəbədaxili marşurutdandı. Cavab gözləmədən aşağı düşüb yaxınlaşdı. "06"nın yanından keçəndə rəisə quyruq bulamaq şansını da qaçırtmadı.

- Necəsiniz, rəis?..

- Ə, kömək elə, tez maşını yoldan çıxardın!.. - Rəis salamı almaq əvəzinə kobudluqla əmr verdi.

"Anan namaz üstdəymiş, a köpəyoğlu!.."

Sabir müəllim suyu süzülmüş qayıdıb sükan arxasına keçdi. Əlüstü sekreti vurdu. Dalını-qabağını fikirləşmədən açarı burub mühərriki işə saldı. Rəisi qanlı-qanlı süzərək böyründən vıyıltıynan ötdü...

- Bəs bayaqdan xoddanmırdı, ə?.. Yaxşı, neynək!.. - Rəis yumruğunu oynadaraq arxasınca bağırdı.

Sabir müəllim "Qazel"dən azca aralanmışdı ki, yolun qırağında yaşıl "Ciquli"ynən rastlaşdı. "Bu da burdadı ki..."

Növbəti tini burulanda dayanacaqda arvad-uşağıynan avtobus gözləyən tanışını gördü. İstər-istəməz onları götürdü...

Qayıdanda təkərinə mıx batdı. Birtəhər dəyişib dükana tələsdi. Oğlunu şam yeməyinə bəribaşdan, erkən göndərmək, gələndən sonra gedib birdəfəlik dincəlmək fikrindəydi…

Dükanın qapısını bassa da açılmadı. Yəqin gecikmiş, oğlunun gözləməyə səbri çatmamışdı. Aclıq köpəyoğlu şeydi. Saatına baxdı. Yox, tezdi. Cibindən ehtiyat açarını çıxartdı.

- Balam, hardasınız, dükan səhərdən bağlıdı?.. - Müştəri hay-harayla dalınca girdi.

- Xəbərim yoxdu, indi gəlirəm…

- Son vaxtlar tez-tez bağlı olur…

- Təsadüfdü... - Sabir müəllim fikirləşdi ki, şişirdir.

- Təsadüfdü?.. Dünən, bu gun elə hey bağlı görmüşəm. O 60-dıq lampalardan ikisini ver mənə. Sən canın, Sumqayıt olmasın, lampa dəyişməkdən yorulmuşam…

Rəşidin gəlməyi xeyli çəkdi. Gələn kimi də dinməz-söyləməz keçib müştərini yola saldı. Sabir müəllim fikirləşdi ki, yəqin televizorda şouya-zada baxırmış. Soruşanda adətən buna oxşar bir cavab verirdi, odu ki, heç soruşmadı…

* * *

- Arvad, tez elə olan-olmazdan nə gətirirsən gətir, acından öldüm…

- Pacardı, indicə qapıdan girmədin?..

- Aaz, gəlir oturur o televizorun qabağında, demirsən, a bala, dincəldiyin bəsdi, dur get, qoy dədən də gəlib yeməyini yesin...

- Yazıq elə tələsə-tələsə yedi ki, heç on dəqiqə çəkmədi. Havaxt oturdu?..

- Nə?.. - Sabir müəllim təəccübləndi. - Az, bəs bayaqdan evdə deyildi?..

- Yox, hardan? Deyir, bağlayıb kontur almağa getmişdim, qayıdanda qıraqdan gördüm atam gəlib açıb, tay dönmədim…

- Az, nə danışırsan? Kontur almaq çəksin on dəqiqə, yemək də on dəqiqə. Düz gəlmir axı. Hesabnan (müştərinin dediyinə görə) o, iki saatdan artıqdı yoxdu…

- Ə, yaxşı!.. Aclıq səni karıxdırıb…

Şübhəli məsələyə oxşadı. Sabir müəllim fikrə getdi, oğlu son zamanlar nəsə çox adamayovuşmaz, qaradinməz olmuşdu. Narahatlığı dost-tanışlarındandı. Qorxurdu başını aldadıb ora-bura aparalar, dükandan soyudalar. Ağlına başqa şey gəlmirdi…

* * *

Sabir müəllim oğlunu talkuçkaya mal almağa göndərmişdi. Dünyadan xəbərsiz dükanda oturub nisyə dəftərini vərəqləyirdi. Qonşusu, qəzetsatan qəfilcə başılovlu içəri təpildi. Salamsız-kalamsız soruşdu:

- Müəllim, xəbərin var xəbərdən?..

- Nə olub, ə?.. - Sabir müəllimin fikri hələ nisyələrin yanındaydı.

- Ağsaqqal, bəlkə bu elə sənin işindi?.. - Qəzetsatanın gözlərindən cin-şəətin yağırdı.

- Nə, ə?..

- Dünən axşam rəisi öldürüblər…

- Yox, əşi?.. - Sabir müəllim karıxdı. - Kim, harda öldürüb, ə?..

- Məşuqəsinin qapısında. Öldürən aradan çıxa bilib…

- Yemişbaş gədəni də öldürüblər?..

- Yemişbaş gədə kimdi?..

- Sürücüsünü deyirəm də?..

- Onu bilmirəm... - Qəzetsatan Sabir müəllimi yenə şübhəli-şübhəli süzdü. - Hər kimdisə halaldı, qeyrətinə qurban olum! Eşidəndə ürəyimdən tikan çıxdı. Vallah, bilsəm sənin işindi, döşənib ayaqlarından öpərdim, müəllim...

- Ə, axmaq-axmaq danışma. Dedim, mən öldürməmişəm..

- Qorxursan, müəllim?.. - Qəzetsatan qəribə bir sırtıqlıqla üzünə hırıldadı.

- Öldürməyəndən sonra nədən qorxacağam?.. - Sabir müəllim bilmirdi rəisi öldürmədiyinə görə sevinsin, ya təəssüflənsin.

Öldürsəydi, intiqamını almış olardı. O da vardı ki, elə qəzetsatan bəsdi, yəqin o saat satardı…

"Görəsən kim öldürüb, ilahi? Yəqin o yaşıl "Ciquli"nin işidi?.. Bir də köpəyoğlunun düşməni birdi, ikidi?.."

Sabir müəllim dükanı bağlayıb evə qaçdı. Hər ehtimala qarşı tapançasını gizlətməliydi. Şər deməsən xeyir gəlməz, birdən olmadı elə, oldu belə… Neçə dəfə ağzını doldurdu ki, rəisi öldürdüklərini arvadına desin, nədənsə fikrindən vaz keçdi…

- Hara yoxa çıxmışdın, qonşu?.. - Qayıdanda qəzetsatan yenə başının üstünü aldı.

- İşim vardı... - Sabir müəllim əsəblərini güclə cilovladı...

- İndicə müştərilərdən biri dedi ki, şübhələndikləri adamlardan neçəsini artıq tutub damlayıblar…

- Ə, cəhənnəmə damlasınlar, gora damlasınlar... - Sabir müəllim birdəncə bozardı. - Başqa dərdin-sərin yoxdu?..

- Əşi, niyə hirslənirsən?.. Eşitdiyimi deyirəm də. "Qazel" şoferi danışırmış ki, dünən axşam həmin radələrdə sənin maşınını da o ətrafda, hətta həmin küçədə görüb…

"Bahoo!.." Sabir müəllimin nitqi tutuldu.

* * *

Günortadan sonra polis idarəsindən gəlib Sabir müəllimi şöbəyə apardılar və axşamacan orda saxladılar. Axşam zorla görüş alan arvadı xısın-xısın soruşdu:

- Kişi, doğrudan, rəisi sən öldürmüsən?.. - Arvadının rəngi-ruhu qaçmışdı.

- Ay arvad, başın xarabdı?.. - Sabir müəllim bilmədi nə cavab versin. Durub-durub handan-hana əlavə etdi: - Vallah, mənim heç nədən xəbərim yoxdu.

Amma beynindən ildırım çaxmasını andıran ani, qəribə bir fikir keçdi ki, görəsən rəisi o, öldürsəydi, arvadı onunla öyünərdimi?.. O başqa məsələydi ki, tutulmağına razı olmazdı.

- Bəs onda bunlar səndən nə istəyirlər?.. - Arvadı əlindəki dəsmalla nəmli gözlərini sildi, şübhələrini silirmiş kimi.

- Kimsə, hansı mərdiməzarsa rəislə dalaşdığımı çatdırıb. Üstəlik, deyib guya hardasa ağzımdan qaçırtımşam ki, onu öldürəcəyəm...

- Yəni rəisi öldürmək istədiyini məndən başqa kiməsə demişdin?..

Sabir müəllim ha fikirləşdi, belə bir şeyi yadına sala bilmədi. Düzdü, işarə vurmuşdu. Lakin işarə vurmaq başqa şeydi, öldürmək başqa!..

## Ömrə atılan daş

İlk daş evlərinin üstünə atılanda təxminən gecə saat on iki idi. İsmayıl kişigil yatmağa hazırlaşırdı. İşıqları söndürüb yerlərinə təzə uzanmışdılar. Mərdiməzar daşı göz qırpımındaca sakit bir həyatın ahəngini pozdu.

Daşın danqıltısı güclü deyildi. Hamısı diqqət kəsilsə də səs təkrar olunmadı.

- O nəydi, ay arvad?.. – Qulağı ağır eşidən İsmayıl kişi yastığına dirsəklənərək arvadından soruşdu.

- Daşa oxşadı, axı, kişi... – Böyründə uzanmış Sənəm arvad gümanını bildirdi. – Deyəsən, evin üstünə, dəmirə düşdü.

- Hə, dəmirə düşdü. - İçəri otaqdan oğlu İlqar da təsdiqlədi.

- Yəni armud deyildi də?.. - İsmayıl kişi qəsdənmi, ya qeyri-qəsdənmi başqa tərəfə çəkri.

- Karın könlündəki... – Sənəm arvad o saat əsəbləşdi. – Armudun danqıltısını eşitməmişik, kişi? Armud o cür danqıldayır?..

Evin arxasındakı nəhəng armud ağacının budaqları taxtapuşun üstünə uzanmışdı. Külək əsdikcə tökülən meyvələri dəmirin anasını ağladır, gecə handa bərk yatanı səksəndirirdi. Di gəl evin ağsaqqalı İsmayıl kişi qulaqardına vurur, yarpaqları dəmiri çürütsə də (özü demiş, qalanı cəhənnəmə!) ağaca qıymır, qol-qanadını budamağa əli qalxmırdı.

- Yatın ayna, hər nədisə bekara şeydi… - İsmayıl kişi özlüyündə nə fikirləşdi-nə fikirləşmədisə belə deyib yerində təzədən arxası qatda çöndü.

Bir-birinə bitişik yanaşı otaqların hər ikisinin qabağı arakəsməli şüşəbənddi. İçəridə, böyük otaqda kiçik oğlu İlqar, şüşəbənddə İsmayıl kişiynən Sənəm arvad, ikinci otaqda böyük oğlu ailəsi ilə yatırdı. Gəlin ağciyərin biriydi. Dəmirin danqıltısını eşidib yorğanın altında ərinə daha bərk qısıldı.

- O nəydi, ay İbrahim?..

İbrahim xeyli dinşəyəndən sonra arvadını arxayın salmaq xatirinə:

- Armuddu, - dedi. Guya uşaq aldadırdı.

- O cür armud olar?.. - Arvadı inanmadı.

- Armud deyilsə, mişooldu... - Öz yalanına yalandan əsnədi. Əslində daxilində nəsə anlaşılmaz, qəribə bir nigarançılıq baş qaldırmışdı.

Rahilə inanmasa da dinmədi. Düzdü, son dövr siçan, mişovul bu ətrafda yamanca artmışdı. Səhərəcən çardaqda ciyildəşə-ciyildəşə min oyundan çıxır, atlı kimi belədən-belə, elədən-elə çapırdılar. Amma bu vardı ki, armud kimi onların da səs-küyünə öyrəncəliydilər, başqa səslərdən fərqləndirə bilirdilər…

Bir azdan o biri tərəfdə şüşəbəndin qapısı yavaşca cırıldadı. Bayıra çıxan İsmayıl kişi adəti üzrə astadan içini arıtdı, yəni ki, özgəsi deyil, mənəm. Həyət-bacada xeyli öskürüb-asqıraraq gəzib-dolanandan sonra geri qayıtdı. Yalnız bundan sonra İbrahim arvadının ahəngdar mışıltısını eşitdi…

* * *

Daş ikinci gün bir qədər er atıldı. Səsi açıq-aydın seçilirdi. Ondan əvvəl dəmirin üstünə armud düşmüşdü, heç əhəmiyyət verməmişdilər.

- Dünənki balacaydı, deyəsən. - Sənəm arvad atılan daşların özünü belə fərqləndirdi.

- Həm də düşəndən sonra dünənki daş yan tərəfə, bugünkü isə qabağa diyirləndi. - İbrahim əlavə etdi. - Armud isə həmişə arxaya düşür, ağzıaşağı yumalanır…

İkinci daş olmasaydı, birinci belə yerli-yataqlı, təfsilatı ilə xatırlanmaz, təsadüfi bir şey kimi unudulardı.

- Uşaq-muşaq işidi... - İsmayıl kişi bu dəfə bilə-bilə, qəsdən onların da, elə özünün də zənnini azdırmaq istədi. - Yəqin antennaya

quş qonub, raqatqayla ona atırlar. Lənətdəmələr ev-eşik sahibidilər, yenə quş fitləyirlər...

Arxa tərəfdəki qonşunun (bir çəpər aralıydı) qarasına deyinirdi. Göyərçin saxlayırdılar. Qonşu-qonumun abır-isməti getmiş, canı boğazına yığılmışdı…

- Başımızı tovlayırsan, kişi?.. - Sənəm arvad dedi. - Gecə vaxtı antennada quş nəəzir?..

İsmayıl kişi ərinməyib həyətə yendi. Hündür televiziya antennasının altında durub üzüyuxarı xeyli boylandı. Millərini boş görsə də gözlərinə inanmadı. Əlini yetirib uzun trubanı bərkdən necə silkələdisə az qaldı yerindən qopsun.

- Ə, dəlisən?.. - Arvadı içəridən çığırdı. - Antennanı uçurtdun ki!..

İsmayıl kişi yerinə qor dolmuş kimi səhərə qədər o tərəf-bu tərəfə çevrildi, elə hey fikirlşdi. "Kimdi, ə, bu namərd oğlu? Yoxsa şətəl yenə qonşulardan keçdi?.."

* * *

Bu daş İsmayıl kişinin ömrünə atılmış, ürəyinə tıqqıltı salmış, acılı-şirinli mürgüləyən, yatan xatirələrini oyatmışdı…

Sağ, sol və arxa tərəfdəkilərlə otuz ildən artıqdı çəpər qonşusuydu. Həyətinin qarşısından keçən yolun (qabağı bağlıydı) o biri üzü təzə məhəlləydi, kənd sayılırdı. Son beş iləcən yerində pambıq əkilib becərilirdi. Birdəncə götürüb həyətyeri kimi paylamışdılar, daha doğrusu, satmışdılar. Bir onlarla, bir də evinin arxasındakılarla get-gəlləri yoxdu. Bir-birlərinin qapılarını təsadüfdən-təsadüfə, xeyirdə-şərdə açardılar.

İsmayıl kişi Bəhlulla (sağ tərəfdəki qonşusuynan) kənddən şəhərə, bura, demək olar ki, eyni vaxtda köçmüşdü. Elə orda, kənddə də qonşuydular. Danışıb-bitişib gəlmişdilər. Sonradan Qaraş gəlib sol tərəfdə tikilmişdi. O da kəndçisiydi. Qurdalasan İsmayıl kişinin hər ikisiynən qohumluğu çatırdı...

Təxminən iyirmi il qabaq da birdən-birəcə İsmayıl kişinin evini daşlamışdılar. Həm də çox davamlı şəkildə. Niyə, nəyə görə, özü də bilmirdi. Qaranlıq qarışandan sonra həyət-bacada ehtiyatla hərlənirdilər. Ağ çarpanaq daşlar çox təhlükəliydi. İsmayıla görə, daşlar

Qaraş tərəfdəki el yolundan atılırdı. (Qonşusu sonralar çəpərini irəli basa-basa əvvəl at arabası işləyən yolu daraltmış, axırda da həyətinə qatıb camaatı dağa-daşa salmışdı.) Qaraşın təklifi ilə gecələr pusquda durur, gedib-gələnə göz qoyurdular. Kimdisə bu pusqudan xəbərdardı. **B**ircə gün güdməyəndə daş yenə atılırdı…

İsmayıl kişi axırda bu mənasçız pusqudan bezdi. Daşatan da elə bil atıb-atıb yoruldu. Demə, işin içində iş varmış…

* * *

Yayın oğlan çağıydı. İsmayıl kişi bürküdən təndirə dönən evdə yata bilmir, gecələr yatacağını eyvanda döşədirdi…

Yatmamışdan içəridə körpəsini əmizdirən arvadına qapını arxadan bağlamağı tapşırdı. Sənəm dedi ki, yatanda bağlayar, hələ yatmır. Lakin uşağı əmizdirə-əmizdirə yuxuladı. Qapı taybatay açılı, işıq da yanılı qaldı...

Sənəm gecənin bir vaxtı xışıltıya gözünü açdı. Başının üstündə üzü o tərəfə bir adam dayanmışdı, qoltuğunda da ağac. Sanki yuxu görürdü.

- İsmayıl, sənsən?.. - Elə bildi səhərdi, əri işə gedir. Yuxu necə karıxdırmışdısa qoltuğundakı ağacın fərqində deyildi.

Yad adam üzünü göstərmədən dalı-dalı gerilədi. Qapıya çatan kimi bayıra atıldı.

Sənəm birdən ayıldı. Qapını açıq, işığı yanılı görəndə dəhşətə gəldi.

- Ə, İsmayıl, oğruya bax ey, oğruya!.. - Dəli kimi çığırıb özünü ərinin üstünə atdı.

İsmayıl yarıyuxulu döşəyin yanını qaldırdı. Əli boşa çıxdı. Hər axşam dəhrədən, baltadan döşəyinin altına kəsər qoyardı. Bu axşam tərslikdən o da yaddan çıxmışdı.

Əliyalın, tumanpaça oğrunun dalınca götürüldü. Aralarındakı məsafə lap azdı. Əlində bir şey olsaydı, arxadan onu hökmən vurardı. Çöl qapıdan (dalına daş qoyulmuşdu) adlayınca dabanqırma qovduğu oğru küçədəki arxın üstündən tullanıb pambıqlığa girdi.

İsmayıl dayandı. Gecə vaxtı, qaranlıqda evdən uzaqlaşmaq xatalıydı. Yəqin ki, oğrunun üstündə silahı, pambıqlıqda yoldaşı vardı. Qorxudan ona sədəmə yetirə bilərdilər...

Oğrunun arxasınca yana-yana baxıb dinməz-söyləməz geri qayıtdı…

- O kimdi, ay qonşu?..

İsmayıl qəfil eşitdiyi səsə dönəndə qonşusu Qaraşı arvadı Qızbəslə aralarındakı çəpərin başında gördü. Bərk təəccübləndi. "Bunlar hardan xəbər tutub çıxdı bu tezliyində, balam?.."

Paltar-palazı, xırda-para ev əşyalarını, bir sözlə, güc çatan nə vardısa, oğrular hamısını daşıyıb aparmışdılar.

İsmayıl ərzaq dükanı işlədirdi. Səhərlər banka təhvil verəcəyi pulları axşamdan sayıb kağız torbada balıncın altına qoyurdu. Gecə oğru balıncı götürəndə torbanı görüb maraqlanmış, kağızın xışıltısı Sənəmi oyatmışdı…

- Alabaş!.. Alabaş, hey!.. - İşıqlaşanda İsmayıl itini harayladı. Gözünə dəyməyəndə elə bildi oğrular onu öldürüb.

Evin arxasına keçdi. Alabaşı ağacın dibində tapdı, yatmışdı. Qabağında da gəmirilmiş sümüklər…

İti elə həmin gün azdırdı…

* * *

Bacısı oğlu İsanı (peşakar oğruydu) növbəti dəfə türmədən buraxmışdılar. İsmayıl bu münasibətlə qurban kəsmiş, şadyanalığa yığışmışdılar. Ümid edirdi ki, bacısı oğlu bundan belə (yaşlaşmışdı) daha köhnə əməlindən əl çəkər...

- Dayı, de görüm o zaman evini yaranların kimliyini öyrənə bildinmi?.. - İsa arada dayısını xəlvətə çəkərək soruşdu.

- Nədi, iki daşın arasında uşaqlar xəbərlədi?.. - İsmayıl dilxor oldu. İstəmirdi gələn kimi ona hər şeyi xəbərləsinlər. Onsuz da dinc dayanan deyildi.

- Biz oğruların bilmədiyi oğurluq yoxdu, dayı!.. - İsa lovğalandı. - İçəridə yatsaq da hər şeyi vaxtlı-vaxtında bizə çatdırırlar. Bizim öz kanallarımız var. Sən axı milisdə işləmisən, buları bilməliydin...

- Düz-əməlli işləməyə imkan verdin ki?.. - İsmayıl yeri gəlmişkən bacısı oğlunu qınadı.

İsa enli alnı, qara, lopa bığı, qalın qaşları, zəhmli baxışlarıynan dayısı İsmayılın eyniydi. Boydan bir az qorxaqdı. Uşaqlıqdan ərkəsöyün böyümüşdü. Tüfəng, tapança, silah həvəskarıydı. Qorxu-

hürkü qanmırdı. Özünü tanıyandan oğrulara qoşulmuş, neçə dəfə tutulub buraxılmışdı. Düzünü axtarsan, İsmayıl bacısı oğlunun üzündən kənddən, ata-baba yurdundan baş götürüb şəhərə köçmüş, amma nə qədər gen qaçmışdısa başağrısını həmişə çəkmişdi…

- Məsələ belədi, ispalkom qaynın o it oğlunun əmisini işdən çıxardıb. Ona gücləri çatmayıb, hayıfını səndən alıblar. Eşidən kimi türmədən xəbər göndərdim ki, şeyləri qaytarsınlar. İsmarıcımı gec çatdırıblar. Yalan-gerçək, aparan adamın dediyinə görə, biləndə ki, mənim dayımsan, peşiman olub. Amma şeylərin çoxunu xırıd eləyibmiş. Həm də qaynından ehtiyatlanıblar…

- Əşi, yalandan səni başından eləyib, - İsmayıl dedi.

- Yox, mənə yalan sata bilməz!.. - İsa qəti bildirdi. - Eşidib ki, buraxılmışam, dünən axşam qüçük balası kimi qapıma üzrxahlığa gəlmişdi. Üzünə açıq dedim ki, o hayıfı sizdə qoymayacağam…

İsmayıl nə qədər üz vurdusa İsa nə oğrunun, nə də əmisinin kimliyini açıqladı.

- Gecdi, - dedi, - nə mənası?..

Su sənəyi suda sınar, İsa yenə oğru-əyriynən oturub-durur, əlini ağdan-qaraya vurmurdu.

Aradan təxminən bir ay keçmiş İsa dükana gəlmişdi. İsmayıl konfet-peçeniyə büküb verdi ki, uşaqlara aparsın.

- Payın çox olsun, dayı, - dedi. - Amma haramda aparcağam? - Sonra nə fikirləşdisə bükülünü qoltuğuna vurdu. - Yaxşı də, sənsən. Gedim görüm astanovkada qonum-qonşudan kimi tapıram, göndərim kəndə, evə… - Qapıdan çıxanda geri döndü. -Hə, dayı, onu deməyə gəlmişdim axı. Ürəyini buz kimi saxla, evini yaran vardı ha, onun özünəcə həmin fitva verən əmisinin evini yardırdım. Arvadının tursikindən belə daşıtdım…

İsmayıl kişi ilk dəfə bacısı oğluna baxıb qürur duydu. Qucaqlayıb bağrına basdı.

- Sənə çəkdiyim əziyyətləri halal eləyirəm!..

Demə, o vaxt İsmayıl kişinin evinin üstünə atılan daşlardan, oğurluqdan Qaraş xəbərdarmış. Qaynının işdən çıxartdığı adamın evində tez-tez yallanırmış…

* * *

- Ay Sənəm, ay İsmayıl, çıxın bayıra!.. - Beş-altı mundar olmuş qaz ölüsünü həyətdə yan-yana düzmüş Qızbəs əli belində təkəş-təkəş meydan sulayırdı.

- Bu nə danışıq, bu nə hərəkətdi, a qonşu?.. - İsmayıl səsə çıxdı. - Adam balası kimi başa sal görüm nə olub?..

- Görmürsən?.. Özünü tül… - Qızbəs birdən sözünü dəyişdi, - bicliyə qoyma! Qazlarımı necə öldürmüsünüz, eləcə də qaytarın!..

Qaraşgil sürü ilə qaz saxlayırdı. Uşaqları qoyun-quzu kimi otarır, balasını, yumurtasını, tükünü, tükündən düzəltdikləri yastıqları satırdılar. Pis oydu ki, aralarındakı çəpəri aşıb İsmayılgilin həyət-bacasını kor qoyurdu. Axırı da belə, danadişiyə görə göy-göyərti ləklərinin qırağına səpdiyi dərmanlanmış çörək qırıntılarını yeyib mundar olmuşdular…

- A bacı, hardan biləydik ki… - Sənəm Qızbəsi yasalamaq istədi.

- Qəsdən zəhərləmisiniz!.. - Qızbəsin səs-küyü, çığır-bağırı daha da artdı. - Bu saat aləmi bura tökəcək, milis çağıracağam…

Qaraş lal-kar dayanıb arvadına baxır, dinmirdi. İsmayıl bilirdi ki, o boyda gövdə (yekəpərdi) bu tösmərək arvadın əlində mücdü. Amma yenə üzünü ona tutub acıqlandı:

- Ə, Qaraş, arvadıyın ağzını niyə yummursan?..

- Düz deyir də, İsmayıl, qazlarımızı qaytarın. - Qaraş kişiləndi.

- Qaraş, qəsdən öldürmüşük? - İsmayıl yanıb-yaxıldı. - Bir də, adamdan soruşarlar, ayıb olmasın, sənin qazların mənim dirriyimdə nəəzir, hə?..

Sənəm yenə sülhə çəkdi. Dedi, neynək, imkan verin, qazların pulunu yavaş-yavaş ödəyərik. Qızbəs hürər-tutmaz it kimi səsini başına atıb getdi ki, pulumu bu saat qəpiyinəcən dalımca evə göndərməsəniz, sizi milisə verəcəyəm...

İsmayıl arvadını danladı ki, günah hamısı səndədi, nə deyir, qabağınca gedirsən, o da qudurur. Fikir vermə, qoy kimə şikayət edir etsin. Onsuz da bizim taqsırımız yoxdu...

Aradan bir az keçmiş Qaraş İsmayılı çəpərin başına çağırdı.

- Qazların pulu nooldu, qonşu?..

- Ə, get ağlına dua yazdır, Qaraş. - İsmayıl dedi. - Bizi nə hesab edirsiniz?..

- Axırı pis olacaq, İsmayıl.

- Ə, gedin hara qəlbidi ora çıxın! Əlinizdən gələni beş qaba çəkin!..

Sənəm təzədən araya girdi. Yalvar-yapışla aranı sakitləşdirdi…

* * *

İsmayıl bir axşam işdən qayıdıb gördü ki, Qaraş aralarındakı çəpəri söküb daşdan barı çəkdirir. Həm də səpərin yeri qalıb o tərəfdə, barını bir metr irəli basıb. Təəccübləndi.

- Ə, Qaraş, neynirsən? Bu da el yolunu bağladığındı?..

- Ay qonşu, barı çəkdirirəm də. - Qaraş özünü tülkülüyə vurdu. - Salamın, xeyir-duan harda qaldı?..

- Ə, Qaraş, özünü gicliyə qoyma.

- Ey, ey, İsmayıl, ağzını dağıtma!. - Böyürdən çıxan Qızbəs yuyulmamış çömçə kimi ortaya atıldı.

- Az, itil ayna!.. - İsmayıl Qızbəsə təpindi. - Arvadsan, get arvad işinə qarış!..

- Hansı işə qarışıb-qarışmamağı özüm billəm, sənə dəxli yoxdu. - Qızbəs dedi. - İtilmək lazımdısa özün itil!..

- Ə, ay Qaraş, adamsan, adam balasısan, qancığıyın ağzını yum də!.. - İsmayılın hövsələsi daraldı.

- Qancıq səninkidi!.. - Qızbəs cavab qaytardı.

Bir anda İsmayılın ağlı yerindən oynadı. Qıraqdakı dəmir yabanı qapıb Qaraşın təpəsinə yendirdi. O boyda gövdə çürük ağac kimi tir-tap yıxıldı, üz-gözünü qan götürdü...

Haraya yetişən qonşular İsmayılı hadisə yerindən uzaqlaşdırdılar. Qızbəsgil Qaraşı ortada qan içində qoyub uşaqlı-böyüklü söyə-söyə İsmayılgilin ev-eşiyini daşlayırdı…

Yabanın dişləri azca da dərinə işləsəydi, Qaraş o dünyalıqdı.

- Gərək səbirli ola, arvada baş qoşmayaydın. - Qohum-əqrəba yığışıb bir nəfər kimi İsmayılı qınadı. - Axı sən o çərhəyanin tayı deyilsən. Atalar məsəlidi, bilmirsən ki, qanan qanmaza borcludu?..

Məsləhət belə oldu ki, milisə düşməmiş ağsaqqallar minnətə getsinlər.

- Həkimdən kağızımız var, İsmayılı damlatmalıyıq!.. - Qaraşın atası gedənləri qapıdan qaytardı.

İşi belə görən ispalkom qaynı İsmayıla da bir həkim kağızı düzəltdi. Guya döyülmüş, neçə qabırğası zədələnmişdi...

Qaraşgil başa düşdü ki, uduzacaq, geri çəkildilər…

* * *

İl yarım sonra Qaraş qəflətən, bircə gecənin içində soyuqdəymədən canını tapşırdı.

Qaraş daş karxanasında fəhləydi. Başqası növbə ərzində bir-iki maşın yükləyəndə, o, üç-dördünü yükləyirdi. Fasilələrdə yeməkxanaya getmir, evdən gətirdiyi soğan-çörəklə kifayətlənir, pul yığırdı. Maşın, ″Volqa″ həvəsindəydi…

İsmayıl kişi şirin yuxuda eşitdi ki, evin qapısı döyülür, hay verdi.

- Mənəm ey, Qızbəsdi, İsmayıl qardaş, Qaraş ölür…

İsmayıl elə bildi onu qara basır. Tələsik əynini geyinib qapını açdı. Qızbəsi bayırda toyuq kimi domuşmuş görəndə ayıldı...

Qızbəs ağladı ki, bəs Qaraş bərk soyuqlamışdı. Bankaladım, keçi piyiynən ovdum, xeyri olmadı. Pis vəziyyətdədi, qızdırma içində sayıqlayır…

- A zalım qızı, bəs bunu axşamdan niyə deməmisən?..

- Allah boynumu qırsın, dedim, indi sovuşar, bir azdan sovuşar, axırı da belə…

Qorxudan alacalanmış yaşlı gözlərini ümidlə İsmayıl kişinin üzünə dikən uşaqlar küncdə bir-birinə qısılmışdılar. Qaraş yönü divara çarpayıda uzanıqlıydı. Tərpənmirdi. İsmayıl kişi əyilib baxanda diksindi, o artıq keçinmişdi…

Qızbəsin zülmət gecənin bağrını parçalayan tükürpədici nalə-fəryadı qonşuların yuxusunu qaçırtdı…

* * *

Sağ tərəfdəki qonşusu Bəhlul tikintidə çalışırdı. Taxta-tuxta, şifer, daş, sement… əlinə keçəni oğurluq-doğurluq daşıyıb gətirirdi. Qəribə xasiyyəti çoxdu. Küçədə əlidolu rastlaşanda başını qaldırıb adamın üzünə baxmaz, salam-kalamsız böyründən sivişərdi. Başqasının qapısından içəri bir şey girdimi, həmin saat orda hazırdı…

Aralarındakı hasarı tikintidən çırpışdırdığı taxta-tuxtadan quraşdırmışdı. İsmayıl kişinin evinə bitişik balaca bir qapı da asmışdı. Şey-şüy, ayın-oyun gətirib-götürəndə, kabab-zad çəkəndə əlini atsaydın, arxadan yekə, qara bir qıfılın sallandığını görərdin...

Üzünə xoş baxmayanda, uşaq bir-biriynən dalaşanda çəkici qapıb düşəcəkdi qapının canına. Qıfıl heç, onnan ürəyi soyumayacaqdı, əlavə neçə yerdən mıxlayacaqdı...

Nə tökmüşdüsə, uşaqları onu yığışdırmışdı. Arvadının işi-peşəsi ağlayıb-sıtqamaqdı. "Dolanışığımız itin dolanışığı, hamımız xəstə…" Səki göz qaytarırdı.

Barışıb danışsalar da İsmayıl kişi axırıncı dəfə ara qapının açılmasına razılıq verməmişdi.

- Ayıb deyil, nə qədər oyun oynayarlar?. - demişdi. - Kimə lazımdı, qoy zəhmət çəkib küçədən fırlansın...

O vaxtdan get-gəlləri küçədəndi…

Qurdalasan qonşularla xırda-para umu-küsünün sayı artardı. Amma hal-hazırda araları babatdı. Daş atmaq, sataşmaq üçün ciddi bir səbəb yoxdu…

* * *

İsmayıl kişi adəti üzrə erkən oyanıb həyətə yendi. Ətrafa göz gəzdirdi, taxtapuşa boylandı, evin arxasına keçdi, axşam atılan daşdan əsər-əlamət görmədi. Danqıldaya-danqıldaya dəmirin üstüynən ağzı aşağı necə dığırlandığı qulaqlarındaydı…

Evin qabağındakı bağçaya adladı. Hər ağacın yanında ayaq saxlayır, hey nəyəsə diqqət yetirirdi. Əslində bir gecənin içində nəzər-diqqətini çəkəcək dəyişiklik baş verməmişdi. İşi-gücü bütün gün bağda gəzib-dolanmaq, dümələnməkdi. Dəhrə ilə ağacların qurumuş budaqlarını kəsir, bellə diblərini boşaldır, suvarır, arx açır, arx bağlayırdı…

Payız girmiş, qızılı-sarı yarpaqların yağışı başlamışdı. Yarpaqlar seyrəldikcə ağacların üstündəki meyvələri daha aydın nəzərə çarpırdı. Armuddan başqa üstündə meyvəsi qalan bir də nar ağacıydı. Yeni il oyuncaqlarına bənzəyirdi. Narın iliydi, yaxşı bar gətirmişdi. Ancaq çoxu ağzını ayırıb paçallamışdı. Nə qədər baxdısa salamatını

tapmadı. ″Bu qədər məhsul zay oldu. Zalımın qızı qoymadı vaxtında yığıb atım çardağa…″

Beş-on gün əvvəl dərmək istəyəndə arvadı qonşu-qonumu göstərib imkan verməmişdi.

- Tələsmə, narrı çıxmısan? Görmürsən hamınınkı üstündədi?..

- Ay arvad, bəlkə biri özünü qayadan atacaq, mən də atmalıyam?.. - Hirslənib öz-özünə söylənməklə kifayətlənmişdi.

İsmayıl kişi son vaxtlar həmişə arvadına güzəştə gedirdi…

″Dərmana bir dənəsi də yoxdu…″

Gülöyşə narın paçallamışından birini qırıb kənara çəkildi. Ovcuna dənələyib ağzına atdı. Daşı xatırladı-nədisə bircə anda könlü küsdü. Nəzərləri evin üstündəki biri bu, biri də o başdan qabaq-qabağa dəmirdən kəsilib bəndlənmiş göyərçinlərə sataşdı. Hər dəfə onlara baxanda dəmirçinin məharətinə heyran qalardı. İndi heç bir şey gözündə deyildi.

″Kim atır, ay allah, bu daşı?.. Kimdi yenə mənə sataşan? Kimə neynəmişəm? Başqasının cəzasını axı mən niyə çəkməliyəm?.. Eh, oğlanlarıma nə var, Araz aşıqlarından, Kür topuqlarındandı. Mənim ələyim ələnib, xəlbirim göydə fırlanır. Vallah, gorum çatlayar bu dərdi özümlə qəbrə aparsam. Yoox, hərə öz haqq-hesabını bu dünyada özü çəksə, günahını sağlığında özü yusa yaxşıdı… ″

İsmayıl kişi beş övlad atasıydı. Qızlarının ikisi də ev-eşik, ailə, uşaq sahibi idi. Böyük oğlu İbrahimi üç ildi evləndirmişdi. Ortancıl Sibirdəydi. Kiçiyi maşın ustası, dəmirçiydi… Bir sözlə, yeri gələndə bu ailənin qeyrətini onlar da çəkirdi. Amma hər şeyi sərfəbazarı, öz arşınlarıynan ölçə-ölçə hardasa, nədəsə onu bəyənməsələr də (canları sağ olsun!) ağsaqqal kimi ağırlığın, məsuliyyətin çoxu hələ İsmayıl kişinin boynundaydı…

- Xalqa baxanda atamız bizə neyniyib?.. - Üzə vurmasalar da bərkə düşəndə oğlanları daldada analarıynan öcəşirdilər.

- Bir məni əməlli başa salın görüm atanız sizə daha neynəməliydi?.. - Arvadı çox vaxt ərinə, İsmayıl kişiyə qahmar dursa da hərdən nala-mıxa döyürdü. - Bəs bu ev-eşiyi, həyət-bacanı kim qayırıb? Sizi kim böyüdüb?..

- Eh, onu hamı eləyir də. Xalqın elədiyindən xəbəriniz yoxdu?..

Xalq çalıb-çapan, oğurluq-doğurluq dəm-dəsgah yaradandı. Halalla haramın fərqini dəyişik salırdılar. Kimdi günahkar? Kələfin ucunu tapmaq günü-gündən çətinləşirdi…

- Mənimçün heç bunları da eləyən olmayıb... - Yeri düşəndə İsmayıl kişi özünə haqq qazandırırdı…

İsmayıl kisi altı ayına çatanda atasını itirmiş, yetimçiliklə, ayaq-yalın, başaçıq böyümüşdü. Özünü tanıyanda müharibə başlamışdı. Sonra da qıtlıq, kasıbçılıq... Çox da qalib ölkənin vətəndaşlarıydı. Təsəlliləri buydu ki, hamı eyni vəziyyətdədi, acdısa, qonşu da acdı. Oğurluq-əyrilik, rüşvət-filan azdı deyə yad adam kimi nəzərə tez çarpırdı. İsmayıl kişi əzəldən halal qazanca tapınmışdı. Məhəllədə birinci daş evi o, tikdirmiş, ətrafına daş hasar çəkdirmiş, dəmir darvaza asdırmış, nələr, nələr etmişdi. Sonra birdən-birə dünənki gədə-güdələr gəlib onu üstələmiş, ötmüşdülər. Nə təhər, hansı pulla? Maaşa qalsa məhəllədə yalnız onun arvadı işləyir, bir maaş artıq dolanırdılar…

Çirkli su bağçanın ayağındakı gölməçənin üstündən aşıb cığırı basmışdı. Gəlin dünən suyu çox axıtmışdı. Uşağın əskilərini, nələr pal-paltar yuyub suya çəkmişdi.

″Sənin də ömrünə az qalıb...″

- Qonşulardan hansının həyətində bu cür göl var?.. – Arvadı hər oturub-duranda deyinirdi. - Hərə bir quyu qazdırıb, suyunu ora axıdır. Kişi sənsən, fikirləş, çarəsini tap də…

Şəhər kanalizasiyasından kənardaydılar. Çirkli suyun ayağını haçansa İbrahimin şitillik üçün qazdığı xəndəyə calamışdılar. İylənmiş gölməçədə (xəstəlik, azar-bezardı) cürbəcür cücülər, çömçəquyruqlar qaynaşır, qurbağalar quruldaşırdı…

Kankanlar quyunun metrasını on beş, daşa çıxanda iyirmi manata qazırdılar. On metrlik (azı) quyunun yan-yörəsini düzəltmək, üstünü örtmək də lazımdı. Hesablamışdı, üç yüzəcən eləyirdi. Bu məbləği yığmaq çətindi. Hər dəfə ortaya daha vacib işlər çıxır, kanalizasiya məsələsi təxirə düşürdü. Nəhayət dünən danışıb kankanları gətirmişdi. Quyunun yarısını qazmışdılar. Bu gün axıra çatdırmalıydılar. Gözü yoldaydı, nəsə gecikirdilər…

Bəhlul kişigillə aralarındakı hasarın dolayı taxtaları (bağlamalar) mağaza vitrinlərini xatırladırdı. Alma, armud, şüşə qablar düzülmüşdü. Meyvələrin kal-kal, vaxtından əvvəl yerə düşənlərini zibilliyə atmağa qıymırdı. Ötüb-keçəndə yumşalıb yetişənini yeyir, qonaq gələn nəvələrinə verirdi. Bayaq dərdiyi narı da onların yanına qoydu.

- Nə təhərsən, ay İsmayıl dayı?..

Səsə başını qaldıranda Bəhlulun oğlu Nadiri evlərinin üstdə, taxtapuşda gördü. Dəmiri rəngləyirdi. Öz evinin belinə baxdı, onunku da rənglənəsiydi, çoxdan bozarmışdı. Hər il könlündən keçirir, imkansızlıqdan qalırdı.

- Yaxşıyam, a bala. - Kal dilləndi. Özgə vaxt bir dindirişə bənddi. Ordan-burdan danışıb vaxtını öldürür, gününü başa vururdu.

Amma bu gün işi çoxdu. Lom, balta, kəndir dalınca gedirdi. Köhnə quyunun betonunu sürüyüb bayıra, küçəyə çıxartmaq, təzənin ağzına qoymaq istəyirdi. Nə ağıl elədisə soruşdu:

- Nadir, gecələr evin belini daşlayırlar, səncə kim olar?.. -Tez də peşimanladı. Bəlkə heç səsə salmaq lazım deyildi...

- Mahının oğludu. Axşamacan raqatqa əlindədi. Hərdən bizimkinə də atır…

- Yekə uşaqdı?.. - İsmayıl kişi itiyini tapmış kimi sevindi.

- Hə, dəli-xayın biridi... - Mahı dul arvaddı, arxadakı adaşıynan qonşuydu. - Atam neçə dəfə sürüb evlərinə gedib. Anası deyir, neyniyim, məni saymır, öhdəsindən gələ bilmirəm?..

- Bay onu heç böyüməsin!.. - Kişi bütün yanğısını ağzından tökdü.

Təndirxanaya quş kimi girdi. Qalın çatını, baltanı götürüb böyük oğlunu çağırdı. Gücü yenə ona çatırdı.

- Bu saat, çayımı içib gəlirəm. - Çay da bəhanəydi, əlindəkini yekunlaşdırırdı. Bunu İsmayıl kişi də bilirdi.

"Zalım oğlu axşamacan sancılır o stola, baş açmırsan oxuduğu nədi, yazdığı nə…"

* * *

Qaraşın oğlu Murtuz dirrikdə top axtarirdi. Tapıb barının üstündən bayıra, küçəyə atdı. O tərəf-bu tərəfə baxıb istədi özü də

qurbağa kimi dırmaşaraq barıdan o biri üzə aşsın, İsmayıl kişinin yaxınlaşdığını görüb qapıya tərəf yönəldi. İstər-istəməz yolları kəsişdi.

- Ə, bala, dirrikdə neynirdin?.. - İsmayıl kişi bilə-bilə soruşdu.

- Topumuz düşmüşdü… - Murtuz İsmayıl kişinin əlini qaldırmasından ehtiyatlandı.

- Yenə başlamısınız futbolu?..

Murtuz həmişəki kimi suyulub irişdi.

- Başqa yerdə oynamağa qoymurlar də, İsmayıl əmi. Bəs biz neyniyək?..

- Mən nə bilim, ə?.. - Barmağını silkələdi.

- Çalışarıq düşməsin... - Haçansa İsmayıl kişidən eşitdiyi sözdü, özünə qaytardı.

- Ə, haramzada, çalışmırsınız axı.

- Ətağa, çalışarıq! - Murtuz başını aşağı diksə də bir ayağını qaçaraq qoyub altdan-altdan kişinin hərəkətlərini izləyirdi.

- Ə, itil gözümdən!..

- Yaxşı… - Abırsız-abırsız irişərək qapıdan çıxdı.

Günü-gündən gədənin sırtılmağı, sitallığı İsmayıl kişini daha artıq əsəbləşdirirdi. ″Yamanca nadəmət şeymiş …″

Murtuz yaşca da, boy-buxunca da məhəllədəki oğlanların ən balacası, həm də hamısının başıqapazlısıydı. Əl quzusu kimiydi, hara buyururdular, təpəsi üstə gedirdi…

* * *

- Bu gün məktəbdə Əlinin oğlunu dara çəkmişdim. - Axşam Sənəm arvad şagirdlərinin dəftərlərini yoxlaya-yoxlaya təzə xəbəri evdəkilərə çatdırdı.

- Hə, nə deyir, düz-əməlli bir şey öyrənə bildinmi?. - İsmayıl kişi o saat arvadına yaxın oturdu.

- Hədələdim, neynədimsə heç nəyi boynuna almadı. Gözünün yaşını axıtdı, and-aman elədi ki, daha göyərçin saxlamırlar. Guya atası hamısını satıb…

- Bəs evlərinin üstündə uçuşan quşlar kimindi?..

- Deyir, əmisi Vəlinindi…

- Haramzada uşaqlığıyla səni yamanca çaşdırıb... - İsmayıl kişi güldü. - Əmioğlu deyil, bir həyətdə yaşamırlar? Nə fərqi göyərçin kimindi? Bir yerdə oynayır, nə qələt də qarışdırsalar birlikdə qarışdırırlar. Əlinin oğlu atmayıbsa, Vəlininki atıb, Əlininki də hökmən bundan xəbərdardı…

- Kişi, Vəlinin uşaqları hələ balacadılar axı…

- Nə bilim, vallah… - Dəqiq bir məlumat əldə edə bilməyən İsmayıl kişi yerində qurcalandı. - Bəhlulun oğlu da deyir ki, işdərbaşı Mahının oğludu. O da sizdə oxuyur?..

- Adı oxumaqdı, məktəbə gəlmir, avaranın, xuliqanın biridi…

- Ə, belə dərd olar? - İsmayıl kişi yanıb-yaxıldı. - Camaat uşağının ipini yığmır, öhdəsindən gəlmir də…

Daşın dəmirin üstünə düşüb danqıldamasıynan söz İsmayıl kişinin ağzında qaldı. Hələ lap erdi. Daşı adətən həyət-bacada işıqları söndürüb yatışanda atırdılar.

İsmayıl kişi tələm-tələsik geyinib Mahıgilə yollandı. Bir saatdan sonra qayıdıb gəldi. Arvadı toxtamağa imkan vermədi.

- Bir dəstə uşaqdı, - İsmayıl kişi dedi - Mahının oğluynan bərabər qapılarının ağzında yaxaladım. Hamısının raqatkasını alıb qırıqladım…

- Deməli, atan oymuş?.. - Arvadı səbrini basmadı. - Anasını görüb danışmadın?..

- Az, ağzın ağrımır ey, ona ana deyirsən. Çərhəyanın biridi. Başlayıb ki, kişisiz evə niyə hücum çəkmisən? Eləsi adamı durduğu yerdə şərə salar. Təpindim ki, bir də evin üstünə daş atsa, analı-balalı milisə verəcəyəm…

* * *

Səhər-səhər bütün ailə səs-küyə oyandı. Baxdılar ki, İsmayıl kişi evin üstündədi. Əlində dəhrə, balta armudun taxtapuşa uzanan qol-budağını doğrayıb tökür yerə.

- A kişi, meyvəsini yığmaq əvəzinə ağacı niyə qırırsan?..- Sənəm arvad aşağıdan yuxarı boylandı.

- Nə vaxtdı deyirsiniz, qır, mən də qırıram də… - İsmayıl kişi əlini saxlamadı. - Belə daha asandı, armudunuzu yığın, artıq-əskik danışmayın…

İsmayıl kişi zəndini ora-bura azdırsa da armud sarıdan da birdəfəlik xatircəm olmaq istəyirdi…

* * *

İsmayıl kişi qapıdan girəndə hirsi hələ soyumamışdı. Papağını çıxardıb mıxdan asdı. Keçib divanda dirsəkləndi.

- Nədi, a kişi, yenə kimə çığırırdın? - Arvadı nəvəsinin kolyaskasını ona sarı çevirdi.

- Görmürsən, dəqiqədə bir topla ağac-uğacı qırıq-qırıq eləyir, göy-göyərtini ayaq altında itirirlər? Qaraşın ağzıqara gədəsi də hay itidi, irişə-irişə canımı boğazıma yığıb.

- A kişi, uşağa qoşulma…

- Uşaq gedib öz xarabasının ayağında oynasın də.

- Yaxşı, bəsdi deyindin. Bax gör nəvən neynir ee…

Ailə üzvləri İbrahimin altı aylıq qızının başına yığılmışdı. Oyuncaqlarını kolyaskanın qırağından bir-bir aşağı tullayır, döşəməyə dəyərək danqıldadıqca üzlərinə baxıb şeytan-şeytan gülürdü. Bu, İsmayıl kişiyə ləzzət elədi.

- Ay səni ölməyəsən… - Əlini əlinə vurub şaqqıldadı.

Oyuncaqlar qurtaranda qız onların dalınca aşağı əyilib qığıldandı. Hamı bərkdən güldü.

- Hə, veymiyəm, niyə atıydın?.. - İlqar dilini əzdirdi.

Qızcığaz yumruqlarını gözlərinə basıb küsdü.

- Ə, uşağı incitməyin!.. - İsmayıl kişi təpindi.

Oyuncaqları yığıb təzədən kolyaskanın içinə tökdülər.

- Sən bir onun bicliyinə bax!.. - Sənəm arvad heyrətləndi.-Əlini altına tutanda atmır, aldadıb o biri tərəfə fırıldadır.

- Gör kimin nəvəsidi?.. - İsmayıl kişi yumruğunu sinəsinə döydü. - Bilirsiniz hələ bu gün neyniyib?..

- Neynəyib?..

- Əşi, məni lap mat qoyub ey.

- Di, yaxşı, şitini-şorunu çıxartma…-Arvadı əsəbləşdi.

- Divanda oturub qucağıma almışdım. Birdən qıçım istiləndi. Demə, yenicə başlayıb islatmağa. Gördü duymuşam, baxıram, dayandı. İnanırsınız, böyük adam kimi başını aşağı salıb kövrəldi. Bir tikə uşaq olasan, qəbahətini qanasan, möcüzədi, vallah…

- A kişi, sən də ağ eləmə... - Sənəm arvad inanmadı.

- Vallah, düz sözümdü, arvad. Özümün də matım-qutum quruyub…

Qəfil taxtapuşun dəmirinə dəyən daş hamını diksindirdi. Sənəm arvad başını pəncərədən bayıra çıxarıb bərkdən qarğadı.

- Daşatan, səni görüm bu şər vaxtı yiyəsi qolunu dibindəncə qurutsun!..

- Yox, bu daha ağ oldu! - İsmayıl kişi özünə yer tapmadı. - Durub indi sən də Əlinin, Mahının evini daşlayacaqsan, deyəcəklər, dəli olub…

- Ata, bu hardan ağlına gəldi?.. - İlqar sevindi. - Yaxşı fikirdi. Öz də biz dura-dura sən niyə daşlayırsan?..

- Bir də, təkcə onların yox ey, acığa qonşuların hamısının evini daşlamaq lazımdı. - Rahilə də onlara qoşuldu. - Aləm qarışsın bir-birinə. Hansıdısa elə biləcək tutulub, özünü yığışdıracaq.

- İndicə mən onlara göstərrəm daş atmaq, adama sataşmaq nə deməkdi! - İlqar qapıya doğru yönəldi. Səbirləri bir tikəydi.

- Dayanın, ay ata, işləri korlayarsınız. - İbrahim onları saxladı.

- Niyə korlayırıq?.. - Qardaşı soruşdu.

- Düzdü, daşı atacaqsınız, həmin adam susacaq... - İbrahim dedi. - Amma biz də daşların kim tərəfindən atıldığını heç zaman öyrənə bilməyəcəyik.

Bu fikir atasının beyninə batdı, qayıdıb əyləşdi.

- İbrahim düz deyir, qoy atsınlar, gec-tez bir gün ilişəcəklər.

İsmayıl kişi dilinə gətirməsə də bu daşatmanın da keçmişdəki kimi peşimançılıqla qurtaracağından qorxurdu…

* * *

Təzə quyunun ağzını birtəhər örtdülər. Kanalizasiyanın trubaları çatmadı. Əlacsızlıqdan pas atıb xallasa da davamlılığını artırmaq üçün iç-içə geydirdikləri peç trubalarını ucuna caladılar. Bir neçə yerdə göz qoydular ki, tutulanda məftilnən-zadnan təmizləyə bilsinlər…

- Atalar yaxşı deyib, görülmüş işdən gül iyi gələr. – İsmayıl kişi belini dikəldib dərindən nəfəsini dərdi.

Sənəm arvad sallana-sallana özünü vaxtında yetirdi.

- Qoçaq kişisən, amma bircə eybin var.

- O nədi?..

- Ərincəklik.

- Eh, ay arvad, səni qınamıram, pulsuz-parasız adama nə desən, yaraşır. Köpəyoğlun pulu-varı həm adamı qızılquşa döndərir, həm də bütün paxırını ört-basdır eləyir…

- Dalını gətirmə, məlumdu. - Arvadı ərkyana sözünü kəsdi.

Yaxşı vaxtlarında Sənəm arvadın adlı-sanlı qardaşı, bacısının əri, ümumiyyətlə, qohum-əqrəbası İsmayıl kişini urvatlı tutar, sayıb seçər, xeyirdə-şərdə onu eşidər, məsləhəti ilə hesablaşardılar. Amma indi heç…

- Gətirmə, deyirsən, gətirmərəm. - Çönüb lyuklarla əlləşən İbrahimə göz vurdu. - Ə, bir hovur dincəl, bala.

- Ürəyini qısma, a kişi, namxuda, baş qoşsan, on cavana dəyərsən.

- De də, gözünə dönüm, bu da pulnandı? De, qoltuğumuzun altı qarpızlansın. - Gülüşdülər. - Demək, tay məndən razısan?..

- Telefon məsələsini də yoluna qoyarsan, baxarıq. - Sənəm arvad sinidə gətirdiyi çay dəsgahını rahatladı. Əriynən oğluna çay süzdü.

- Düzələr, arvad, o da düzələr…

Müharibə veteranı olduğuna görə İsmayıl kişiyə telefon növbədənkənar çəkilməliydi, amma dörd ildi gözləyirdi. Nömrəmiz yoxdu, deyib, ona-buna xəlvəti çəkirdilər. Baş idarə, Bakı şikayətinə cavabı yerli təşkilata (narazılığı ondandı ha) göndərirdi ki, yoxla, cavab ver. Rabitə qovşağının müdiri də o saat çağırıb sıxma-boğmaya salırdı ki, göstər görüm, kimə çəkilib, sən qalmısan?..

İsmayıl kişi içində qovrulurdu. Desin, necə desin, deməsin, necə deməsin? İndiyəcən bir nəfər barmağını qatlayıb onu mərdiməzarlıqda suçlaya bilməzdi. Dələduzlar millətin zəif damarına yaxşı bələddilər, yoxsa bu oyunu oynamazdılar…

- Sən hələ gözlə, qoy başqaları çəkdirsin. - Arvadı rişxəndlə güldü.

- Təzəlikcə kim çəkdirib?.. - İsmayıl kişi çay içdiyi yerdə çeçədi.

- Qonşu məhəllədə ətsatan Baloğlan. Üç gün deyil heç.

- Hardan bilirsən, arvad? - Kişi öskürdü. - Kürəyimi yumruqla, keçsin.

- Oğlu mənim sinfimdə oxuyur… - Sənəm arvad ərinin kürəyini yumruqladı, ovdu.

İsmayıl kişi indiki idarə rəhbərlərinin, müdirlərin işdəklərinə mat qalmışdı. Axı onlarda bu cəsarət hardandı? Radio, televizor gün axşamacan bar-bar bağırır, qəzetlər yazırdı ki, müharibə veteranlarına hər cəhətdən borcluyuq. Onların şərəfinə heykəllər ucaldılır, xiyabanlar salınır, mahnılar oxunurdu.. Belə çıxırdı ki, əslində bunların hamısı gözdən pərdə asma, başaldatmadan başqa bir şey deyil...

Yadındadı, müharibədən qayıdandan sonra sürücülük oxumuş, sınıq-salxaq bir "Palutruka" götürmüşdü. Axşamacan çilingərin dalınca qaçırdı. Daha o yazıq da bu leşin orasını-burasını düzəltməkdən bezmişdi. Müdiriyyət isə şikayətini eşitmir, qulaqardına vururdu.

Axır bir gün qandırdılar ki, belə davam edə bilməz, dərdini-odunu bir barmaq kağızla Bakıya, Bağırova (o zaman respublikanın allahıydı) yaz. Yaz ki, müharibə veteranısan, odun-alovun içindən çıxıb gəlmisən, həm də düşməni əzib gəlmisən, amma burda, arxa cəbhədə sənin üzünə yaxşı baxmırlar, süründürürlər...

İsmayıl kişi də tənbəllik eləməyib yazdı. Avtobazanın direktoru həftəsində təzə maşının açarını özü öz əliynən gətirib ovcuna basdı…

* * *

Top darvazaya dəyib danqıldadı. Bel əlində ağacların dibini boşaldan İsmayıl kişi diksindi.

- Ay uşaq, kimdi orda?.. - Səsini çıxartdı ki, dağılışsınlar.

Təzə yığışırdılar. Bayaqdan sakitlikdi.

- Ə, hara vurursan, topu tut! - Hansıydısa o birinə acıqlandı.

- Niyə?.. - Kənardan soruşdular.

- Səsi eşitmədin?.. İsmayıl kişi evdədi. Düşəndə gedib gətirəcəksən?..

Toplarını götürüb uzaqlaşdılar.

İsmayıl kişi hər ehtimala qarşı darvazaya yaxınlaşdı. Bala qapısını açıb küçəyə baxdı. Murtuzun irişə-irişə uşaqların dalınca ayağını sürüdüyünü gördü. Tez qayıtdı…

* * *

- Baxın də, baxın. - İsmayıl kişi evdəkilərin diqqətini ekrandakı müharibə səhnəsinə yönəltdi. - Qoçaqlıq, igidlikdən danışırsınız. Çomaq davasıydı?.. Yer-göy od tutub yanırdı. O cəhənnəmin içində allah kimi saxladı saxladıydı… - Canlı xronikaydı.

Söz düşəndə kişini qınayırdılar ki, davada heç yaralanmayıb, dəyərli igidlik göstərməyib….

İsmayıl kişi müharibədə rabitəçi olmuşdu. Öz peşəsiynən öyünürdü: ″Stalin yoldaş deyirdi ki, sivyaz armiyanın ürəyidi!..″ Müharibənin əvvəlindən axırınacan döyüşsə də yaralanmamışdı. Qanlı-qadalı illərdən qulağının dibində balaca bir çapıq nişanə qalmışdı…

Sıraya düzüb əsgər aparırdılar. Arvad-uşaq ağlaşa-ağlaşa dallarınca su atır, əl eləyirdi. Ayaqyalın, başıaçıq bir oğlan uşağı onların arxasınca var səsilə bağırırdı:

- Ataa!..

Onlarla eyni sırada addımlayan ortaboylu, qarayanız kişi arabir çönüb ürəkparçalayan səsə kədərlə gülümsəyir, əl edirdi. Bərk kövrəlmişdi...

Uşaq dartınır, anasının qolları arasından qutarmağa çalışırdı.

- Getmə, ataa!.. - Oğlunu qucaqlayan ananın göz yaşları yanaqları aşağı süzələnirdi…

Uşaq qəfildən əyilib yerdən bir daş götürdü. Onların üstü ilə gedən komandirə tərəf qolaylandı.

- Sənin ananı! Atamı hara aparırsan?..

Komandir zirəng tərpənib vaxtında başını yana əydi. Dodağında təbəssüm şəhadət barmağı ilə uşağı hədələdi. Daş o qədər adamın arasında çovuyub İsmayılı tutdu. Düz qulağının dibindən dəydi. Çarpanaqdı, bıçaq kimi kəsdi. Üz-gözü, pal-paltarı qana batdı. Uşağın atası tez irəli çıxıb günahkarcasına yarasını silib sarıdı.

- Siz allah, bağışlayın… - dedi, - qanmadı, bilə-bilə atmadı…

Zərrə qədər də hirslənmədi. Əksinə, boğazına tıxanan qəhəri uda bildiyinə görə yüngülləşdi…

Dörd ildən artıq soyuq səngərlərdə yatdı, odun-alovun içinə girdi, bircə yeri də cızılmadı. Ən ağır, ümidsiz döyüşlərdən sağ-salamat çıxdıqca fikirləşirdi: ″Bu da Allahın işidi, demək, uşağın əli sayalıymış…″ Halbuki əvvəl bədliyə yozmuşdu.

- A kişi, gəlin çörəyinizi yeyin. - Sənəm arvad o tərəfdən ikinci dəfə çağırdı. - Televizor qaçmır…

İsmayıl kişi əyləşən kimi qaşığı bir qırağa itələdi.

- Ay arvad, mənim öz qaşığım hanı yenə?..

- Nə bilim, qaşıq qaşıqdı, ye də onunla.

- Yüz dəfə demişəm ki, mənim qaşığımı it-bata salmayın…

Sənəm arvad deyinə-deyinə qab-qaşığı töküşdürdü.

- Çəngəlin budu bax, burdadı,-gətirib göstərdi. - Qaşığı tapmadım. Bu dəfəlik birtəhər ye, incitmə bizi …

İsmayıl kişinin müharibədən yadigar bir dəst qaşıq-çəngəli, bir dəst də üzqırxanı (şotkalı-zadlı) vardı. Hamısı da xalis gümüşdəndi. Düşməni qovhaqovda polyak şəhərindən qənimət kimi götürmüşdü. Müharibənin axırınacan karına gəlmişdi. İndi də istifadə edirdi…

- Bunların əvəzinə qızıl götürəydin, deyəydim hə… - Sənəm arvad bir dəfə yarıciddi, yarızarafat ona sataşmışdı.

İsmayıl kişi arvadının sadəlöhlüyünə gülmüşdü.

- Arvad, sən belə şeylərin qədrini bilməzsən. Soldat üçün bunlar əvəzsizdi. Bir də, rəhmətliyin qızı, vurhavurda qızılmı gözə görünürdü? Bircə saat sonraya ümidimiz yoxdu. Ölüm həqiqi mənada qaşla göz arasındaydı…

Ancaq tamah salan tapılırdı. Sonradan onlara qoşulan həmyerlisi özünü nəsə çox qəribə aparır, gecələr yuxuda sayıqlayır, çığırıb-bağırırdı. Guya bunu soyurdular. Bir gün İsmayıl dözməyib onu sorğu-suala tutdu:

- Eloğlu, gecələr səni yatmağa qoymayan, əzab verən nədi?..

- Heç… - Oğlan əvvəl sirrini açmaq istəmədi.

- Yox, bu nəsə ciddi məsələyə oxşayır. - İsmayıl bərk dirəndi.

Həmyerlisi handan-hana yumşaldı.

- Amma kimsəyə deməyəsən haa!.. - Bəri başdan şərtini kəsdi.

- Deyəndə noolacaq?.. - İsmayıl kişi maraqlandı.

- Tutub-eliyəllər məni…

- Paho!.. - Söz verdi. - Yaxşı, dilimi dinc saxlaram…

- Hə, qardaş, allahdan gizlin deyil, səndən nə gizlədim. -Oğlan ürəyini boşaltdı. - Rostova girəndə bomba düşüb mərkəzi bankı verdi-veran eləmişdi. Pulları gördüm, özümü saxlaya bilmədim, yekə

bir kisəni yüzlük banderollarıynan doldurub torpağa basdırdım. Üstünə də işarə qoydum…

- Demək, onun fikridi sənə rahatlıq verməyən?..

- Hə… - Təsdiq mə′nasında başını tərpətdi.

Həmyerlisi Berlinə çathaçatda yaralandı. Bir də müharibə qurtarandan neçə il sonra təsadüfən küçədə rastlaşdılar. Sağalmışdı. Hal-əhvallaşdılar. İsmayıl kişi pulla maraqlandı.

- Eh, soruşma, qardaş... - Oğlan bərk göynədi. - Yadıma düşəndə tüstüm təpəmdən çıxır…

- Niyə axı?..

- Qospitaldan birbaş Rostova yollandım. Şəhərdə bərpa işləri gedirdi. Kisəni basdırdığım yeri tapıb qaranlığın düşməsini gözlədim. Lapatka kisəyə toxunanda sevincdən az qaldı ürəyim partlasın. Qantərə batsam da sürüyüb bir qırağa çıxartdım. Nə faydası, aylarla üstünə yağan qar-yağış pulların hamısını çürütmüşdü. Tərpədəndə xəzan yarpağı kimi sınır, ovulub tökülürdü. Neçə vaxt dəli kimi gəzib dolandım…

- Arvad, yeməyinə yedim, - İsmayıl kişi boşqabı kənara itələdi. - Amma bu qaşıqla o xörəkdə dad-tam adında şey bilmədim. Canıma qətiyyən yatmadı…

* * *

Faşistlər təzədən hücuma keçəndə İsmayıl kişigilin sıraları seyrəlmiş, sürsatları azalmışdı. Zarafat deyil, düşməni iki dəfə geri oturtmuşdular.

- Uşaqlar, özünüzü ölülüyə vurun!.. - Komandirin əmriydi.

Hiyləyə əl atmaqdan başqa çarə qalmamışdı. Aldanıb yan şığıyan düşməni bu dəfə də arxadan biçdilər. Daha bir dəstə göründü. Lap nağıllardakı kimiydi. Əcdahanın bir başını vururdun ikisi, ikisini vururdun dördü və s. əmələ gəlirdi. Yenidən torpağa sindilər. Düşmən hiyləni duyub hücuma keçməzdən qabaq kimyəvi qaz buraxdı. Bizimkilər əleyhiqazsız idi.

- Uşaqlar, nəfəs almayın!.. - Komandirin növbəti əmri eşidildi.

Qeyri-adi qoxusu burunlarını qıcıqlandırsa da nəfəslərini qısıb kimyəvi zəhərin üstlərindən duman kimi ötməsini gözlədilər. Qazdan

sonra faşistlər seyid cəddinə bel bağlayan kimi (guya çəyirtkə kimi qırılmışdılar) arxayınlaşıb ayaqlarının altına da baxmırdılar.

Gözü təzə çəkmələrinə düşən (özününkü deşilmiş, burnu qarğa dimdiyi kimi aralanmışdı) düşmən əsgəri birdən İsmayıl kişinin ayağını dartışdırdı. Ağrısa da dözür, ufuldamırdı. Faşistin zəli kimi qopmadığını görüb kənara itələdi, özciyəzi çəkmələrini çıxartdı. Ədəb-ərkanla cütləyib düşmən əsgərinin qoltuğuna dürtdü. Üstəlik onu söydü də.

- Tut, heyvan oğlu, heyvan. Adam balası kimi soyundura da bilmirsən…

Düşmən əsgəri çəkmələrə görə baş əyib (qanacaqlıymış) dalı-dalı gerilədi, üz qoydu qaçmağa...

İsmayıl kişi təzədən yerə uzandı. Amma ayaq barmaqları soyuqdan donurdu. Başının üstündən atdanan düşmən əsgərlərinin ayaqlarına baxdı. Axırıncının çəkməsi onunkundan da təzəydi. Mazdan-zaddan da o qədər sürtmüşdü ki, par-par parıldayır, işığı gendən adamın gözünə düşürdü.

İsmayıl kişi azca dikəldi. Yanından ötəndə badalaq vurub düşmən əsgərini yerə sərdi. Əl atmağıynan çəkmələrini dartıb ayagından çıxartdı. Faşist geri çönəndə İsmayıl kişi ona gözünü ağartdı. O da dinməz-söyləməz üst-başını çırpıb ayaqyalın yoldaşlarının dalınca götürüldü, asta qaçan namərddi.

İsmayıl kişi düşmən əsgərinin arxasınca baxaraq şaqqıldayıb güləndə böyründə uzanmış Sənəm arvad:

- A kişi, nədi, nəyə gülürsən?.. - deyərək onu silkələyib oyatdı.

- Görmürsən faşist köpəyoğlunu... - İsmayıl kişi hələ yuxuluydu, əməlli-başlı ayılmamışdı.

- Faşist? Hanı, əşi?.. - Arvadı yorğanın qulağını qaldırıb dikəldi.

- Necə hanı? Elə bu saat dartıb ayağından çəkmələrini çıxartdım ki… - İsmayıl kişi dedi.

- Ee, sən də… - Sənəm arvad əlini yellətdi. - Yarım əsrdi müharibə qurtarıb, amma sən hələ qurtarmamısan. Faşisti belə asdım, belə kəsdim... İndi də çəkmələrini soyundurursan. Bir bunu eşitməmişdik…

- Ay arvad, yuxudu də, neynim…

İsmayıl kişi bu illər ərzində müharibədən o qədər danışmışdı ki, evdəkilərin qulağı dolmuşdu. Müharibə haqqındakı ən ciddi söhbətinə belə nağıl, zarafat kimi yanaşırdılar. Elə bilirdilər, çoxunu özündən toqqaşdırır. İsmayıl kişi bunu günü-gündən sayıqlığı itirmək kimi qiymətləndirirdi. Hər şey əksinə olmalıydı. Nə qədər ki, onlar, müharibə veteranları sağdılar, onlara qulaq asmalı, eşidib öyrənməli, ayıq-sayıq dayanmalıydılar ki, şeytan, iblis xislətli müharibə qızışdıranlar bir daha kimsəni yolundan sapdırmaq fikrinə düşməsinlər…

İsmayıl kişi birdən daşı xatırladı. Yox, ən qəddar cəza, işgəncə naməlumluqdu. Dörd ildə soyuq səngərlərdə heç bu əzabı çəkməmişdi. Mərd-mərdanə, üzbəsurət dayanıb döyüşmək kişi işiydi…

İsmayıl kişi krantda əl-üzünü yuyub qurulandı. Porthaportla qaynayan çaydanı qazın üstündən götürdü. Çayniyə çay atıb dəmlədi. Divardan asılmış balaca radionun düyməsini burdu. Yüngül musiqi sədaları ev-eşiyin yuxusunu qaçırdı. "Balam, arvad necə oldu?.."

Sənəm arvad dərsə səhər-səhər gedirdi. Çaydanı da qazın üstünə qaynamağa o qoymuşdu. Evə girdi. Arvadı yatacağı yığırdı.

- Niyə belə gec, ay arvad?..

- Yatıb qalmışam. - Sənəm arvad dedi. - Gülməyinə oyandım.

Çay içə-içə baxışdılar.

- Bu gün bazardan nə alınacaq, arvad? - İsmayıl kişi soruşdu.

- Heç bilmirəm, vallah.

- Bəlkə həyətdəki çolpanı kəsim, gəlin bir sup bişirsin? Çoxdandı duru yeməyə tamarzıyıq. Bəsdi dolmanı, kotleti daş kimi doldurduq qarnımıza. - İsmayıl kişi duru xörəkləri xoşlasa da evdəkilər ondan qaçaqdı.

- Gərək ki, kartofumuz da qurtarıb. Gəlin (gündüz ev, biş-düş ona baxırdı) axşam axırıncıları qızartdı. Soğan da azalıb…

- Bir də, çörək eləmi?..

- Ay İsmayıl, sən allah, süd də alaydın.

- Süd mənlik deyil. - Bidonlarda gətirib satırdılar. Arvadlarla növbəyə dayanmaq lazımdı. Onların qar-qurundan, itələşməyindən, söyüş-fərşindən zəhləsi gedirdi.

- Ə, neyniyək bəs, kimə aldıraq? - Arvad çayını yarımçıq geri itələdi. - Süd alsan qatıq çalardıq. Gör neçə gündü ağartısızıq? Evimizdə bekar yenə sənsən də…

İsmayıl kişi bekarçılığın “ləzzətini” bu neçə ildə artıqlamasıynan dadmışdı. Əvvəllər işinin-gücünün adını bilərdi. Bekar qalandan buyruq quluydu, hara gəldi buyururdular…

Ömrünün çoxunu ticarətdə keçirən İsmayıl kişi təsadüfən yolu düşəndə bazarın içindəki keçmiş dükanının qabağından həyəcansız ötə bilmirdi. O daş dükan hərdən yuxusuna da girirdi… Cavan bir oğlan işlədirdi. Qısa müddətdə ağzınacan malla doldurmuşdu. İsmayıl kişinin vaxtında boş qalar, nə versələr onu da satardı.

Yaxşi satılan, “xadavoy”, qazanclı malları daha ″şapkasız″ vermir, fəhlə görüm-baxımsız mallarını maşına yükləmir, sürücü maşını yerindən tərpətmir, boş yeşikləri, qabları, qənd, un kisələrini, xarab malı, xəkəni, nəyi-nəyi pulsuz geri qəbul etmirdilər. Planı isə günü-gündən artırır, boynunun dalını kəsidirirdilər ki, doldur. Zorla harama şirnikləndirir, uçruma itələyirdilər. Firavan yaşayışa aparan yol buydumu?..

İsmayıl kişi gedişatla barışa, dəyişə, uyuşa bilmirdi. Xəmiri özgə maya ilə yoğrulmuşdu. Cavanların isə beyni qan, təcrübəsi az, yaddaşı kövrək, əqidəsi sürüşkəndi…

* * *

- İsmayıl kişi, sənə bir əziyyət verməк istəyirəm... – Səhər-səhər obexeest yekə qarnını dükanın qabağına dirədi.

- Xoşdu, nəçənnik, buyur. - Bu adamdan gözü heç su içmirdi.

- Beş kilo qənd çək, üstünə də beş dənə vışı sort çay qoy, hamısını yığ bir şeyə, ver bu gədəyə... - Yanındakı oğlanı göstərdi.

İsmayıl kişi deyilənləri yığıb hazırladı. Başını qaldıranda obexeesti görmədi.

″Gədə″ deyilən fırtırıqqarpan cücə kimi sağ olsuz-zadsız şeyləri götürüb düzəldi yola.

- Ay oğul, ay bala… - İsmayıl kişi dalınca çağırdı.

- Mənnənsən?.. - Oğlan təəccüblə geri çöndü.

- Hə, bir bəri qayıt.

- Nədi, əşi?.. - Qayıtdı.

- Əvvəla, əşi, sənin dədəndi! - İsmayıl kişi hirslə dedi. -İkincisi də, qoltuğundakıların pulunu kim verəcək?..

- Mən nə bilim, əşi?.. - Gədə çaşdı. - Onu nəçənnik bilər, sən bilərsən. - Sonra dönüb təzədən uzaqlaşdı.

Dalınca baxa-baxa qaldı. Bütün günü gözlədi. ″Nəçənnik-filan″ daha o tərəfə üzükmədi. Fikirləşdi ki, yəqin yadından çıxıb, yoxsa dədəsinə borcluydu?.. Sonra da istəməyə ürək eləmədi. Niyə, hansı suçuna görə? Deyəsən, boğazına keçən qəpik-qüpüklərin çatısıydı. Qaytarsa da müştərilər daha götürmürdülər. Guya şəstlərinə toxunurdu. Ona dəvə nalbəndə baxan kimi baxır, ayıbdı, deyib, uzaqlaşırdılar. Təzə söz tapmışdılar, deyirdilər, bu bizim mentalitetimizdi. Əcəb mentalitetdi!.. İsmayıl kişi də o qəpikləri yığıb kağız alır, (qanuni kağızlarını anbarda əkişdirib özlərinə satırdılar) maşınhaqqı, fəhləhaqqı ödəyirdi…

Nə böyük müsibət, nə böyük bəlaydı gözükölgəlilik, ilahi! Kimsəynən öcəşməyə nə həvəsi, nə də üzü vardı. Səsini çıxardacaqdı, paxırını qoyacaqdılar qabağına…

Həmin vaxtdan obexeest dükanın qabağından o tərəf-bu tərəfə ötdükcə dədəsinin mağazası kimi konserv, peçenye qutusu demir, siqaret demir, gördüyündən göz kirəsi istəyirdi. Utanıb-qızarmırdı da. İsmayıl kişi də elə bil sehrlənmişdi. Nəyə əlini uzatsa, büküb verirdi. Zəndlə gözünün içinə baxır, əbəs yerə orda nəsə axtarırdı.

Bir gün yenə peyda oldu. (Dadanmış qudurmuşdan betərdi.) Ədəb-ərkanla salamlaşdı. İsmayıl kişinin dalağı sancdı.

- Bir on kilo qənd, beş-altı da çay lazımdı. Yas yerinə göndərəcəyəm.

- Bu saat çəkib hazırlayaram. - İsmayıl kişi dedi.

- Sən hazırla, mən də bu tərəfə dəyib qayıdıram.

Aradan bir az keçdi. Xırdavatsatan oğlan dükana yaxınlaşdı.

- İsmayıl kişi, məni nəçənnik göndərdi ey…

- Hansı nəçənnik, a bala?.. - Bilə-bilə özünü avamlığa qoydu.

- Əşi, bazarın obexeestini tanımırsan?

- Yox, axı…

- Yəni, doğrudan, tanımırsan?.. - Təəccübləndi. - Qəribə adamsan...

- Tutaq ki, tanıyıram, nəyə göndərib, bala?..

- Deyir, burda qənd-çay var…

- Ərzaq dükanında qənd-çay olar də, xalası göyçək.-İsmayıl kişi məzələndi.

- Əşi, yox ey, ona çatası…

- Pulunu necə, göndəribmi?.. - Daha uzatmadı.

Oğlan İsmayıl kişinin xamlığına istehza ilə güldü.

- Nə pul, kişi? Obeexest adama pul verər? Onlar al molladı…

- Uzun danışma! - İsmayıl kişi üzünü bozartdı. - Pulunu gətir, malını apar, vəssalam! Bu dükan nə onun, nə sənin, nə də mənim dədəmindi, qandın?..

Oğlan yerindən tərpənmədi.

- Əşi, nə danışırsan, gözünü qan örtüb?..

- Ə, əkil başımdan!.. - Kişi əsəbləşdi.

Oğlan matı-qutu qurumuş uzaqlaşdı. Obexeest bir də onun mağazasına yaxın düşmədi. Eləcə aralıdan qanlı-qanlı süzüb (bu lap daşatmaya oxşayırdı) ötürdü. Eşidən-bilən inanmırdı.

- Neynəmisən, kişi? Əzrayılla çilingağac oynayırsan? Kimə arxayınsan? Yenə əvvəl qaynın vəzifədəydi. Bundan belə o dükanda necə salamat baş saxlayacaqsan?..

- Yeznə, dədə-babadan ticarət risk sevir... - Balaca qaynı da onların dediyini deyirdi. - Yüvürən yıxılmağına baxmaz. Qazanmaq üçün gərək maya qoyasan. Nəfdən də kimə palocnudusa nəzir-niyaz paylayasan ki, kənardan mırıldamasın. Guya bizimlə bağrıbadaşdılar dəyib-dolaşmırlar? Aylıq veririk. Sən vermirdin, o da o cür alırdı, hələ sevinməliydin…

- Yox, əşi?… - Bu ilki sərçələrin bildirkinə "civ-civ" öyrətməsi İsmayıl kişiyə toxunurdu.

- Hörmətin buynuzu olur? Əlini qabaq verib? Qazan də. O öz hesabının yiyəsidi. Sən döyülsən, başqasıdı, haqqını alacaq. Sənsən, ayda filan qədər geridi. Sənin öz gəlirin-çıxarın var, onun da öz. Guya hamısı ona qalır? Onu da dasqı, plan qoyub bazara göndərən var…

Evdə də danlayıb-dansıyırdılar. Heç cür anlamırdı ki, niyə hamı tərs danışır, düzü yox, əyrini müdafiə edir? Başlarına at təpmişdinəydi?..

* * *

İki nəfər tünükə, kəndçifason kişi yaxınlaşıb bir-birinə mane ola-ola əllərindəki pulu eyni vaxtda irəli uzatdı.

- On dənə "Avrora" ver... - Birinci alan kimi çəkildi, o biri qabağa keçdi. - Mənə də on dənə. - Heç biri başını qaldırıb İsmayıl kişinin üzünə baxmadı da.

İsmayıl kişi də heç nə unamadan onları yola saldı. Birdən kənarda marığa yatan obexeest gözünə sataşdı. Bayaqkı adamların qolundan yapışıb geri qaytardı.

- Vətəndaşlar şeyləri səndən alıb?.. - Salam-kəlamsız soruşdu.

- Hə… - Qeyri-iradi İsmayıl kişinin səsi boğuldu. Başa düşdü ki, obexeest ona tələ qurub. Kişilərə pul verib özü göndərmişdi.

- Pullarının qalığını niyə qaytarmamısan?.. - Bir qəpik hesabıynan hərəsindən on qəpik, cəmi iyirmi qəpik artıq almışdı. -Ağsaqqal kişisən, camaatı niyə aldadır, soyursan?..

Obexeest akt bağladı. İsmayıl kişi nəticəsini qabaqcadan təsəvvür edirdi. Qəsdə dolanda iki-üç qəpiklik cinayəti elə üfürüb şişirdirdilər ki…

- Kimsəni eşitmədin, axırı da belə… - Eşidib-bilən təzədən evdə də, çöldə də onu töhmətləndirdi.

Vasitəçilər də tapıldı.

- Kişi, daha ondan keçib. - Arvadı yasaladı. - Qonşu deyir, aktı cırdırmaq olar…

- Hamısı özünə gülür… - İsmayıi kişi əvvəl belə söhbətləri eşidəndə daş atıb başını tutdu.

- Özünü fikirləşmirsən, barı bizi, uşaqları fikirləş… - Arvadı dedi.

- Fikirləşdim, kimə ağız açacağıq? Hanı pul?..

- Görək hələ obexeest nə qədər istəyir?..

Obexeestin dini də, imanı da puldu, çox istədi. İsmayıl kişinin də deyilənə gücü çatmadı. Çox götür-qoydan, minnət-sünnətdən

sonra qərara gəldi ki, kiçik qaynına ağız açsın. Ticarətçiydi, onu başa düşərdi.

- Vallah, qəpiyimiz də yoxdu... - Qaynı arvadı ərini qabaqladı. - Özümüzə də pul lazımdı. Qalmışıq avara.. - Ərinin üzünə baxdı.

- Düz deyir, - qaynı təsdiqlədi. - Üzümüz yanınızda qaradı.

- Hə, atalar sözüdü, istəyənin bir üzü qara, verməyənin iki üzü də qara! - İsmayıl kişi yarızarafat, yarıgerçək xüsusi vurğuladı.

Fikirləşdi ki, ey gidi dünya, qaynı da xeyrini-şərini yaxşı qanır. Tutaq ki, pulu verdi, obexeest də İsmayıl kişidən əl çəkdi. İşləməyi, qazanmağı bacarmayandan sonra borcunu necə qaytaracaq?.. Lakin İsmayıl kişi bu günəcən belə şeyləri ağlına da gətirməmişdi. Subaykən qaynını evində saxlamış, arvadı (onda bacısıydı, indi yox?) paltarını yumuş, yemək-içməyini vermiş, cibinə xərclik qoymuşdu. Arada işə düşüb tutulanda İsmayıl kişi dalınca Şuşa qalasına çörək aparmış (çətin vaxtlardı), təzəcə sırıqlısını (hər adam tapmırdı) soyunub qaynının əyninə geyindirmişdi...

- Bu da qardaşın... - Arvadına gileyləndi.

- A kişi, bəlkə, doğrudan, yoxlarıdı?..

- Hə, qahmar dur, namını vermə…

İsmayıl kişi acığından yadların təklif etdiyi pula da yiyə durmadı. Qoy tutsunlar, dedi. Bir tərəfdən də ona görə ürəkli danışırdı ki, tutulacağına inanmırdı. Gözünün qabağında elə oyunlar oynanılır, cinayətlər işlənirdi ki, qəpik-qüpük məsələsi gülünc görünürdü...

İşin aparılması, baxılması neçə ay uzandı. Məhkəməyə çağırılmazdan əvvəl məlum oldu ki, İsmayıl kişiyə iş düşür. Rəngi qapqara qaraldı. Düşmənlə ölüm-dirim savaşında heç bu cür ürəyi əsməmişdi. Müharibədən qayıdanda gül-çiçək, toy-büsatla qarşılamış, ayağının altında qurban kəsmişdilər... Bəs həbsxanadan sonra ağsaqqal adam məhəllənin, tanış-bilişin üzünə necə çıxacaqdı?..

Arvad-uşaq ağlaşıb gizlicə obexeestin istədiyindən də iki-üç qat artıq (bu məhkəməydi) pul topalayıb gecəykən hakimə çatdırdılar. Veteranlığını nəzərə alıb (guya pulu yox haa!..) üç illiyə ticarətdən uzaqlaşdırdılar. Dünyadan xəbərsiz İsmayıl kişi hakimin, qanunların humanistliyinə heyran qalmışdı. Həqiqəti biləndə isə dünya başına uçdu. Gör kim kimi mühakimə etmişdi…

İsmayıl kişinin özgə elə bir işi-peşəsi yox idi ki, məşğul olub pul qazansın, ailəsini dolandırsın. Cavanlığında bir az müvəqqəti maşın işlətmişdi. İndi sürücülüyü də çoxdan yadırğamışdı. Yaşının bu vaxtında bacarmazdı.…

Sənəm arvad dil boğaza qoymurdu.

- Hə, döşünə döyürdün ki, bazarda kartof satmaq dükanda işləməkdən yaxşıdı, nəyi gözləyirsən?.. - Cana doyub, bezib demişdi. Alverdi, elə dükanda oturmuşdu də. - Niyə tərpənmir, hərəkətə gəlmirsən?..

Beləcə, İsmayıl kişi yavaş-yavaş ailə, uşaq yanında nüfuzunu itirdi, qohum-əqrəba genidi. Ortancıl oğlu Sibirə getdi. İkinci qızı istədiyi oğlana qoşulub qaçdı…

* * *

- Ay oğul, bəlkə daşı ətəyindən tökəsən? - Arvadının dəhmərləməsiynən İsmayıl kişi oğlunu yolundan döndərmək istədi.

Bir zaman yaxşı qazanmaq həvəsiynən böyük oğlu İbrahim də Rusiyanın şəhərlərini dolanıb neçə ildən sonra əli ətəyindən uzun qayıtmışdı.

- Ay ata, görürsən ki, burda rüşvətsiz yönnü bir iş tapmaq müşkül məsələdi. - İlham dedi. - Belə də sizə yükəm…

Bir yana baxanda oğlunu qınamırdı. Hara üz tuturdu rüşvət istəyirdilər. Ali savadlı mühəndis ola-ola orta ixtisaslı kəmsavadların əlinin altında fəhlə, buyruqçu kimi işləməyi şəninə sığışdırmırdı. Yenə yad yerdə nəyə desən razı olardı…

İsmayıl kişi övladlarını əzizləməz, öpüb-oxşamaz, həmişə arada pərdə saxlayardı. Ata istəyi, ata məhəbbəti daxilində, qəlbinin dərinliklərindəydi..

- Nə bilim, bəlkə də haqlısan… - Tezcə yumşaldı. Axı oğlu uşaq deyildi ki, qulağını çəkə, ağzının üstünə bir qapaz ilişdirəydi…

İlham Sənəm arvadın qonşuya keçdiyini görüb çamadanını götürərək həyətə düşdü. Ancaq darvazadan çıxmağa imkan tapmadı.

- Hara belə, a bala?.. - Qapının ağzında qarşılaşdılar. Anası qabağına durdu.

- Ay ana, sən allah, burax gedim, yolumdan saxlama. - Oğlu yalvardı.

- Yox, buraxmaram!.. - Çamadanı əlindən almağa çalışdı.

- Qulaq as, ana, onsuz da biletim var...

- Olsun də, nə böyük şeymiş!

- Yaxşı, heç hara getmirəm, di dincəl. - İlham geri qayıtdı. Anası bir az geniyən kimi üstündə oturduğu çamadanını götürüb evin arxasına keçdi. Ordan da qonşunun həyətinə atdandı.

- Ay İsmayıl, ə, niyə oğluyun qabağına durmadın? - Duyuq düşəndə bağçanın ayağında yalandan dümələnən ərini haraylayıb bərkdən hönkürdü. - Balam yiyə dərdindəncə çöllərə düşdü. Oxudular, diplom aldılar, hər şey düzəldi, a evi yıxılmış?.. - Ağlaya-ağlaya ərinə yaxınlaşdı. - Ə, eşitmirsən, sənnən döyüləm, niyə səsini içinə salmısan?..

Sənəm arvad ərinə çatanda yerindəcə qurudu. Üzü o yana dayanmış İsmayıl kişinin yanaqları aşağı yaş süzələnirdi. Ərinin ağladığını birinci dəfəydi görürdü. Onu həmişə ürəyibərklikdə günahlandırardı. Kişisini qucaqlayıb təzədən hönkürdü.

- Yaxşı, neynirsən?.. - İsmayıl kişi o saat özünü yığışdırdı. Qanrılıb çiyni üstündən evə sarı boylandı. - Uşaqlar görər, ayıbdı…

* * *

Sənəm arvad hər şeyi ərindən daldalamağa çalışsa da narahatlığı İsmayıl kişinin gözündən yayınmadı.

- Nədi, ay arvad, yumurtası tərs gəlmiş toyuq kimi niyə bir yerdə oturmursan?..

- Heç…

"Harda qaldı, ay allah, bu qız?.."

Kiçik qızı Gülmirə (dərziydi) işdən qayıtmamışdı. Adətən belə gecikməzdi. Böyük bacısı ilə (ərdəydi) bir sexdə dərzi işləyirdi… Aytəkingilin evi yaxındaydı. Qaranlıq qarışmamış onlara yollandı.

- Şər vaxtı xeyirdimi, ay ana?.. - Qızı həyəcanlandı.

- Gülmirə gəlib çıxmayıb, bala. Dedim, bəlkə sizdə ola..

Aytəkin barmağını dişlədi.

- Səhərdən gözümə bir cür dəyirdi, batmış…

- Sexdən bir çıxmamısınız?.. - Adətən yolun yarısını bir gələrdilər.

- Nə bilim, a, dedi, əlimdə yarımçıq işim var, gərək onu tikəm qurtaram…

Bədənnüma aynanın qabağından tapılan kağız evi yasa batırdı. Gülmirə yazmışdı ki, istədiyim oğlana qoşulub getdim, məni başqa yerdə axtarmayın…

Qonşular gözünün yaşını sıxıb tökən Sənəm arvadı sakitləşdirməyə çalışırdı.

- Özünü üzmə, qız köçəri quşdu, bir gün onsuz da uçmalıydı…

- Bir qız bir oğlanındı…

- Könül sevən göyçəkdi…

Xəbəri eşidib gələn qardaşı arvadı, bacısı təskinlik vermək əvəzinə Sənəmi qınadı.

- Az, qızıyın belə işi vardı, vaxtında niyə ipini yığmırdın?.. - dedilər.

- Vallah, heç nədən xəbərim yoxdu... - Sənəm and-aman etdi.

- Yaxşı, sən allah, necə anasan ki, duymamısan?.. – Qardaşı arvadı ağzını burdu. - Başımızı el içində yerə soxdu. Səni heç yarıyıb arvadlar cərgəsinə qoşulmayasan, belə qız!..

Sənəm arvad arada bir andını yandırdı ki, düzdü, qızını aparan oğlan Aytəkinin vasitəsilə elçi göndərəcəyini andırmışdı…

- Bəs sən nə cavab vermişdin? - Bacısı əsib-coşdu.

- Demişdim, fikirləşərik... - Sənəm arvad günahkar kimi dönə-dönə gah bacısının, gah da qardaşı arvadının üzünə baxdı. – Neyniyim axı, kişi oturub evdə, əlimizdə-ocumuzda pul-pənə yox…

- Elə odu, aaz, odu... - Qardaşı arvadı mə′nalı-mə′nalı uzada-uzada əlini dizinə çırpdı. - Həmən gədəyəcə qoşulub gedib. Qızın dini-imanı var?..

- İndiki qızlar bilirsən nədi?.. - Bacısı yanıb-yaxıldı.

Kənarda dilxor əyləşmiş İsmayıl kişini baldızıynan qaynı arvadının danışığı əməlli-başlı əsəbləşdirirdi.

- Bu başı batmış kimə çəkdi, ay bacı, belə?.. - Baldızının axırıncı sözləri onu lap cin atına mindirdi.

- Bilmirsən kimə çəkib, a baldız?.. - İsmayıl kişi istehza ilə qımışdı. - Vallah, sizəcə, qaynım arvadı ilə sənə çəkib. İkiniz də qoşulub qaçmamısınız? Yoxsa yaddan çıxıb hər şey?..

Səslərini xırpadan kəsib tez-tələsik yığışdılar. İsmayıl kişi elə bil bir az yüngülləşdi.

- Ürəyini qısma, arvad, hamısı özünə gülür. Bir iş olmasın, olandan sonra hətərən-pətərən danışmaq mə′nasızdı. Səhər açılar, öyrənərik görək kimdi, nəçidi…

Sonra gördülər ki, qızları heç pis yerə calanmayıb...

* * *

- Salam! Nə var, nə yox, ay İdris?..

- Sağlığın. - Dimdiyi çoxdan sınmış yağlı şapkasını düzəldə-düzəldə burnunun altında mızıldandı.

- Ayə, nətəərdi, latariyadan-zaddan satılırmı?..

Tiflisdən Gürcüstan lotoreyası daşıyıb satan İdris qohumuydu. Pullular paçka ilə götürür, qiymətli bir şey udub-eləyəndə ona yaxşı şirinlik verirdilər. Boynuna aldığına görə, hər ay (aya bir buraxılışdı) əlli-altmış paçka satırdı…

- Neçəsin verim?.. - İdris adəti üzrə əlindəki lotoreya paçkasını ona sarı uzatdı.

- Ə, qohum, udmur, ayna elə.

- Getmirsən mənnən Tiflisə?.. - Yalan-gerçək İsmayıl kişi ilə hər görüşəndə dirənirdi ki, gəl səni aparım gəzdirim.

- Yağmasan da guruldayırsan də, qohum. - Onu ağıldan seyrək kimi tanıyır, həmişə məzə üçün dindirib-danışdırırdılar. Hər nəydi, minnətsiz-sünnətsiz başını girləyir, çoxundan yaxşı dolanırdı.

- Seyid Lazım Ağanın cəddi haqqı, lap düz sözümdü, mən ölüm! Naftuluqdakı hamama da aparacağam səni. İnanmırsan?.. - Səyfason irişdi.

- Çimməyə yenə o hamama gedirsən?

- Bəs necə, zakaznoy maşın tuturam, Tiflis, abratnı! Hə, gedək?..

- Nə vaxt, amma düz haa!.. - İsmayıl kişi gerçəklədi.

- Gələn həftə. Birinci gün ağır gündü, ikinci gün sübh tezdən. Beşinci nömrənin tiracı da çıxacaq. Onu da gətirməliyəm…

İdrisin böyük qardaşı da Tiflisə işləyirdi. Pis də dolanmırdı. Çolpa, hinduşka alıb kəsir, yoldurub təmizlədir, sarıkök vurdurur, aparıb bir yerdən restoranlara təhvil verir, qayıdan baş da yükünü yağ, pendir, ədviyyat, iynə-sancaq, dərzilər üçün xırda-xuruşla tuturdu…

- Bəs mənim işimin-gücümün adı noolacaq, ay İdris?..

- Gəzmək, kefə baxmaq azdı?..

- Elə mənə yaraşır gəzmək…

İdris fikrə getdi.

- Onda bir az pul-pənə tap götür, neynəyəcəyini orda deyərəm…

İdrisə qoşulmaqda məqsədi yol-yolağı, ümumi vəziyyəti öyrənməkdi. Cibindəki qəpik-quruş uşaqlara ayın-oyuna güclə çatdı. İdrisdən borc aldı, yağ götürdü, rayonda qıtlaşmışdı. Alverçi Ziba (yaxın qonşusuydu) xəbər tutanda vaysındı ki, gərək çox gətirəydin, yağ tapılmır…

İsmayıl kişi neçə reys alverçi Zibaya yağ daşıdı. Özü bazara çıxartmağa qorxurdu. Gətirən kimi Zibaya xəbər göndərir, o da gəlib hamısını götürür, pulunu verirdi. Nə it görürdü, nə də qurd...

* * *

Sonra Tiflisdə də yağ qıta çəkildi. İsmayıl kişi bu dəfə pal-paltar satmağa girişdi...

Qoltuğunda iri bir bağlama bazarda dayanmışdı. Köhnə alverçilərdən sayılan Səfər (pal-paltar satırdı) birdən pis-pis irişə-irişə ona yaxınlaşdı. Çoxdandı gözə dəymirdi.

- Nə var, nə yox, ay İsmayıl kişi?.. - Əl uzatdı.

- Sağlığın, ay Səfər... - İsmayıl kişi onu görəndə həmişə özünü pis hiss edirdi.

- Hə, demək, sən də belə, ay İsmayıl kişi?.. - Əyilib qulağına bərkdən dedi.

- Nə belə, ə?.. - Səfəri tərs-tərs süzdü.

- Belə də. - Mə′nalı-mə′nalı qoltuğundakını göstərdi. -Axırda sən də gəlib bizim kimi alverə qurşandın…

- Həə, çatdı… - İsmayıl kişi əskik bir iş üstündə yaxalanmış kimi utandı. - Neyniyim, çarəsizlikdən, müvəqqətidi...

- Deməli müvəqqətidi? - Səfər rişxəndlə güldü. - Xətrinə dəyməsin, o vaxt mənə dediklərin yadındadı?..

- Haçan?..

- Qırmızıpapaq vaxtı...

Yadına düşəndə İsmayıl kişini xəcalət təri basdı. Gör ha, kimin ağlına gələrdi…

Müharibədən qayıdanda, əvvəl bir az sürücü işləmiş, sonra onu milisonerliyə götürmüşdülər. Bazara baxırdı. Boy-buxunlu, yaraşıqlıydı. Forma onu zabitəli, ciddi göstərirdi. Bazar alverçilərinin, möhtəkirlərin gözünün odunu almışdı. Səfər o vaxt bığ yeri təzəcə tərləyən on beş-on altı yaşlarında diribaş bazar uşağıydı…

- Ay oğlan, bəri dur görüm…- Bir dəfə qəfildən onu yanladı.

- Nədi, nəçənnik?.. - Əlindəkiləri arxasında gizlədərək sürtük baxışlarla altdan yuxarı üzünə baxdı. Çoxdan daraq dəyməyən uzun, pırtlaşıq saçları Səfəri qaraçı uşağına oxşadırdı.

- Əlindəkini göstər görüm.

- Bekara şeydi, nəçənnik… - Əsgər çəkmələriydi.

- Oğurluqdu? Düzünü de, haa…

- Oğurluq niyə olur? Tanış soldat verib satmağa... - İsmayıl kişi bazara çıxan gündən Səfəri qaralamışdı. Çox ütük, ayıq-sayıq uşaqdı, yaxınlaşdığını o saat duyur, tezcə əkilirdi…

- Kimin oğlusan, a bala?..

- Atam müharibədə qalıb…

- Necə yə′ni müharibədə qalıb?

- İtgin düşüb…

- Anan var?

- Hə, şikəstdi…

İsmayıl kişi Səfərin ailə vəziyyəti ilə yaxından maraqlandı. Atası, həqiqətən, müharibədən geri dönməmişdi. Öldü-qaldısı bilinmirdi. Anasının bir qıçı şikəsdi, onun-bunun evində qulluqçuluq edirdi. Kömək əli uzatmağa yaxın simsarı da yoxdu.

İsmayıl Səfəri peşə məktəbinə düzəltmək fikrinə düşdü. Anasını razı salmışdı. Amma özü ipə-sapa yatmır, bazardan əl çəkmirdi. Axırıncı dəfə öyüd-nəsihət vermiş, möhkəm hədələmişdi.

- Bir də səni bazarda görsəm, şöbəyə aparacağam. Qoy bassınlar qoduqluğa! - Uşağa, doğrudan, ürəyi yanırdı. - Bir başa düş, bala, alverin axırı yoxdu. Oxuyub elm-savad öyrənməlisən. Xoş gələcəyin, həyatın bundan asılıdı…

And içmişdi ki, oğlanı bu xatalı yoldan çəkindirəcək, köməyini əsirgəməyəcək. Ancaq həmin ili bacısı oğlu İsaya görə milis paltarını soyunmalı oldu. Üzünü görməsə də gözü götürməyənlər şərləmişdilər ki, oğurluğa dayısının tapançasıynan gedir. Neçə dəfə çək-çevirə salıb incitmişdilər. Axırda da rəis (pis adam deyildi) məsələni açıqca anlatmışdı.

- İsmayıl, qoçaq, ağıllı, bacarıqlı işçisən. Amma o cür bacıoğluynan sistemdə qalmaq qeyri-mümkündü. Ləkələnib-eləməmiş özxoşunla getsən yaxşıdı…

İndi milis paqonu daşıyan, asayişin, əmin-amanlığın keşiyində dayananların əksəriyyəti keçmiş ″kulak″ların, qaçaq-quldurun, Sovet hökumətinə güllə atanların (bəlkə buna görə aləm bir-birinə qarışmışdı) balalarıydı…

- Çərxi-fələk tərsinə dövran edir, İsmayıl kişi. - Səfər həyasız baxışlarıynan ona meydan oxuyurdu.

- Görürəm, Səfər, görürəm. Hardan biləydim ki, birinin küçələrdən məktəblərə, fabrik-zavodlara yığdığını o biri gəlib təzədən bazarlara, küçələrə tökəcək…

İsmayıl kişi o gündən alverin daşını atdı. Bir müddət də belə bekar gəzdi…

* * *

- Kişi, nə qədər bekar-behdin evdə oturacaqsan?.. - Sənəm arvad dolmuşdu. - Çox qazandın?..

- Alıb-satmalı bir şey qalmayıb, arvad... - Sözgəlişi dedi, bəhanəydi.

- Qalmayıb, get işini tələb et, dükanını qaytar.

- Eh, elə bilirsən asandı?..

Məhkəmənin kəsdiyi üç il başa çatsa da dükanını kim qaytaracaqdı? Lap qaytarsalar da təzə haqq-hesabla işlədə biləcəyinə inanmırdı. Qayda-qanun elə pozulmuşdu ki, it yiyəsini bə′zən heç yala görə də tanımırdı. Tədricən bazar, küçə alveriynən dükan, mağaza arasındakı fərq itməkdəydi…

- Barı pensiyanı düzəlt.

- Pensiya da pensiya ola… - Hamısından bezmişdi.

- Hər nədi, qənimətdi…

Halalca pensiyasını bir ay ora-bura yüyürüb-yortandan, neçəsinin saqqalının altından keçəndən sonra dava-dalaşla düzəltdi…

- Təzə iş tapmışam, arvad... - İsmayıl kişi bir gün evdəkiləri sevindirdi.

- Harda? Nə işdi? - Sənəm arvad inanmadı. - Doğru sözündü?.

- Hə. Stroykada qarovulda duracağam. Nə siz mənim üzümü görəcəksiniz, nə də mən sizin. - Zarafata saldı. - Nətəərdi?..

- Həmişə orda qalacaqsan?

- Bir sutka işdi, bir sutka istirahət…

Qulaqdincliyi, canrahatlığıydı. Lakin iş icraçısını gecə maşınla obyektdən oğurluq material çıxardarkən yaxaladıqdan sonra vəziyyti qəlizləşdi.

İş icraçısı əvvəl İsmayıl kişiyə hədə-qorxu gəldi.

- Sən kimsən, çəkil yoldan. - Dedi.

- Yox, çəkilməyəcəyəm! - İsmayıl kişi yerindən tərpənmədi. - Sənəd-sübut göstər, nə kefindi apar...

- Bilirsənmi günü sabah şələ-küləni bayıra atdırram?..

- Neynək, atdırarsan da atdırarsan, canın sağ olsun!..

İş icraçısı siqaret alışdırıb gəzinməyə, yüklü maşının böyürbaşına fırlanmağa başladı.

- Əşi, ağsaqqal adamsan, yolumuzdan saxlama bizi. - Bədliklə düzəlməyəndə məsələni xoşluqla yola verməyə çalışdı. Hətta girəvələyib cibinə pul da basdı. İsmayıl kişi çəltik qoz kimi sınmadı.

- Yox, mənimlə o zarafatlar keçməz!.. - Pulunu özünə qaytardı.

Təəccüblüydü, idarədə ona qarşı münasibət yaxşılaşmaqdansa, pisləşdi. Eşidib-bilən qarovulçu yoldaşları onu məsxərəyə qoydular. Başqaları bir obyektdə aylarla küllənib qalsalar da onun yerini tez-tez dəyişir, harda xarabalıq vardı ora göndərirdilər.

- Bu nə deməkdi, ay müdür?.. - Bir dəfə soruşdu.

- Səndən narazıdılar, İsmayıl kişi.

- Niyə?..

- Nə bilim, guya, gecələr postunda sayıq dayanmır, yatırsan. Yəqin qocalıqdandı?..

- Hansı xalası göyçəkdi məni şərriyən?.. - İsmayıl kişi odlandı.

Səhərəcən gözünü yummurdu. Növbəsi çatanda gündüzdən evdə yatıb yuxusunu alırdı.

- Əşi, nə bilim, birdi, ikidi?.. - Mə′nalı-mə′nalı qımışdı. Bəlkə acılayır, dil tapmırsan camaatla?..

Köhnə bayatıydı. Ömrü boyu kiminləsə ″dil tapmamaqda″ günahlandırılmış, söyülüb-döyülmüşdü. Evdə də, çöldə də…

* * *

-Bax, bu qulağında yaxşı saxla, bir də səni bu həyət-bacada topla tutsam, vurub qolunu-qıçını sındıracağam.-İsmayıl kişi başını aşağı salaraq qabağında dayanmış Murtuzun qulağını dartdı.- Eşitdin?..

- Hə... - Murtuz ufuldayaraq başını tərpətdi.

İsmayıl kişi bilmirdi neynəsin? Nə yaxşı döyüb-söyüb ürəyini soyuda, nə də anasına deyə bilirdi. Ehtiyatlanırdı ki, başqa yerə yozar. Yetimdi axı…

- Di itil gözümdən!

- Yaxşı.. - Murtuz kişini ləc-ləc süzərək ayaqlarını sürüyə-sürüyə uzaqlaşdı.

İsmayıl kişi hirslə qapını örtəndə Bəhlul o üzdən səsini qaldırdı.

- Əşi, əlimi qırdın, yavaş. - Qapını aralayıb içəri keçdi. -Axşamın xeyir. Qardaş, bu uşaqların əlindən hara qaçaq, bilmirəm.

- Ə, Bəhlul, sən öl bu Qaraşın gədəsinin yanında hamısı muştuluqdu…

Sənəm arvad eyvanda güldü.

- Sən də yekə kişi o fağırın yaxasından əl çəkmirsən.

- Ay onu fağır ilan vursun!..

- Neynəsin, onu da göndərirlər…

- Gəlməsin. Əl tulası kimi o qədər ora-bura buyuracaqlar ki, böyüyəndə tərgidə bilməyəcək, başında qalacaq.

- Dərdin-sərin qurtarıb. - Bəhlul kişi əlini yellətdi. - Çəmini tapmışam. Çatırışı bıçaqla toplarını iki bölürəm, vəssalam!

- Ehh, heç elə bil uşaq-zad olmamısınız, - Sənəm arvad başını buladı.

- Ə, valı dəyiş! - İsmayıl kişi qaş-gözlə him elədi.

Eyvana qalxdılar. İsmayıl kişi gəlinini çağırdı.

- A qızım, bizə bir xoruzquyruğu çay dəmlə. - Sonra Bəhlul kişiyə tərəf çöndü. - Yaxşı, danış görək təzə nə eşitmisən? Dünyada nə var, nə yox?..

- Əşi, dünyadı də… - Siqaretinin birini yandırıb qutunu İsmayıl kişiyə tərəf tutdu.

O da tez götürdü. Ləngisəydi qaytarıb cibinə dürtəcəkdi, xasiyyətinə bələddi. Çəkən deyildi. Bəhlulla oturandan-oturana yadına düşür, həvəsə dolurdu. Bəhlul da bunu bilirdi.

- Amma işləri (dünyanın) yaman vələn-cülandı. - İsmayıl kişi Bəhlulu söylətmək üçün hələ bir balaca qızışdırmalıydı. -Keçəl köpəyoğlu ″yenidənqurma″ ilə aləmi qatıb-qarışdırıb...

- Ə, yenidənqurma yox, yenidənqırma. - Bəhlul stulda silkələndi, səki gülürdü. - Axı, qardaş, onun okeanın dibində, Amerikanın sualtı qayığında nə iti azmışdı ki, bir az ağlı vardı, onu da oğurladaydı?..

- Bəhlul, deyir, ermənilər Stepanakertdə yenə nümayişə çıxıb?..

- Ə, hamısı respublika rəhbərliyinin livəliyindəndi. Ağızlarının kəsərini sınayıblar. Bir də, dallarında Raisa durub. Ermənilər Amerikada o boyda padarkanı havayı verdi köpəyin qızına?..

- Padarka-madarka boş söhbətdi. Respublika rəhbərliyi yava tərpənib vaxtında araqarışdıranların əl-ayağını yığışdırsaydı, iş belə yoğunumazdı. Heç hansı milləti fikirləşmir. Öz yalaqlarını, kreslo-kabinetlərini qoruyurlar...

- Uşaq-uşaq danışma, rusun barmağı olmasa…

- Vallah, rusun ağlı çatmadı ki, araya pərxaşdıq saldı, ikisi də onundu də. Ermənінin də kəlləsi işləmədi ki, vıza getdi, torpaq məsələsini ortaya atdı. Dünənə qədər hər yer oylağındı də, zatıqırıq. Harda istədin yaşıyır, kefini sürürdün. Avropalılar qonşularla qranit-sanı-zadı yığışdırmağa, qaynıyıb-qarışmağa, mehribanlaşmağa çalışır, bunlar da təzədən qudurub böyür-başını dalayır, düşmən qazanır…

- Deyirsən, yə′ni ermənilər Qarabağı alacaqlar, İsmayıl?..

- Nə bilim, ağlım kəsmir, ancaq belə getsə dəhşətli qırğın olacaq, Bəhlul.

- Əşi, qoymazlar ola. Bir də, erməni nədi ki, nə də müharibə eləyə?..

- Onu deyci olma, Bəhlul. Əsas onları üstümüzə qısqırdandı. Rusun o qədər silahı, texnikası var, bilmir hara yığsın. İvan ayı kimi şeydi, arağını-çaxırını bol elə, kimi, hansı tərəfi deyirsən, şüləsin…

- Deyirəm, ay İsmayıl, niyə axı biz sadə dildə, bircə kəlməynən başa düşürük ki, silah artımı dünyanı məhvə aparır, amma o başda duran böyüklər yox?..

- Hələ bir dinəndə bizi də borclu çıxardırlar.

- Demə tay…

- Sən görməmisən, Bəhlul, müharibə dəhşətli şeydi. Hələ onda belə texnika-zad nəəzirdi…

Rahilə çaylarını süzüb gətirdi. İki qonşunun söhbəti adətən arvad-uşaq yatışanacan uzanardı. Hər dəfə də İsmayıl kişi sözü hərləyib-fırlayıb müharibənin, daha doğrusu, öz xatirələrinin üstünə yönəldərdi.

- Bəhlul, nə başını ağrıdım, düşmən dabanına tüpürüb qaçır, biz də qovuruq. Bilirsən də işimiz-gücümüz sivyazdı…

- Əşi, bilirəm… - Bəhlul candərdi dilləndi. Bilirdi ki, başladımı, uculayacaq.

- Bir trafeyni tör-töküntü maşınımız vardı, çölün düzündə üç nəfər onda mürgüləmişdik. Hə, səhərin açılmağını gözləyirdik. Dan yeri təzəcə sökülməkdəydi. Birdən özbək balası (lap uşaqdı binəva) böyrümü dümsüklədi. Gözümü ova-ova soruşdum, nədi, nə var?..

Əlini göyə uzadıb:

- Qartala bir bax, - dedi, - gör necə şığıyır…

Allahdan olan kimi başımı o dəqiqə qaldırdım. Özgə vaxt saya salmazdım. Gördüm, İlahi, bomba göydə fırlana-fırlana düz üstümüzə yenir! Samolyot buluddaydı-nəydisə gözümə dəymədi. Amma zəifcə səsi eşidilirdi.

Qışqırdım ki, ay evin yıxılsın, qartal nəəzir, bombadı ey, bomba!. Yaxınlıqdakı xəndəyə tullandım, onlar da dalımca. Sən öl, faşist it oğlu nətəər metkalamışdısa bomba maşının ortasına düşüb darbadağın dağıtdı. Məftili-müftülü, katuşkaları, dəmir-dümürü düz-dünyaya səpələdi… Balam, allah adamı saxlayanda saxlayır, dana. Burnumuz da qanamadı…

Sonra təşəbbüsü Bəhlul kişi ələ keçirtdi. İsmayıl kişidən üç-dörd yaş kiçikdi. Müharibənin lap qurtarhaqurtarında səfərbərliyə alınmışdı. Ala-yarımçıq təlim-məşq keçincə faşistin külünü göyə sovurmuşdular. Bəhlul kişigili işçi qüvvəsi çatmayan Bakının neft mə′dənlərinə, mazutun içinə basmışdılar...

- Canın haqqı, İsmayıl, orda çəkdiyim sıntranı, əzab-əziyyəti sən heç müharibədə görməmisən. Yayın qızmarında da cəhənnəmdi, qışın sazağında da. Köpəyoğlunun trubası istidə necə qızırsa, cızdanağını çıxardır, toxuna bilmirsən. Qışda da yalın əllə yapışdınmı, dərini layca qopardır…

- Baba, ay baba! - Taxta hasarın o üzündən nəvəsi Bəhlul kişini harayladı.

- Nədi, ə?.. - Bəhlul kişi həvəssiz dilləndi.

- Çağırırlar, dur gəl.

- Kimdi, ə?..

- Nə bilim, bir kişidi…

- Kim ola, balam, bu vaxt?.. - Deyinə-deyinə ayağa qalxdı.

İsmayıl kişi də onunla aşağı yendi. Həyət-baca həmişəkindən fərqli olaraq əməlli-başlı işıqdı. Darvazaynan ev arasındakı elektrik xəttini İbrahim özü çəkmişdi. Qapının ağzında çölə, içəri, tualetə, evin kəlləsinə, böyür-başına neçə patron calayıb lampa taxmışdı. İsmayıl kişidən başqa buna hamı sevinmişdi.

- Nədi, qocalmısınız, gözünüz görmür yeri-yurdu?.. Bu qədər işığı neynirsiniz?..

- Qaranlıqdı də, əşi... - Sənəm arvad uşaqlara qahmar durmuşdu.

- Qaranlıqdı, qaranlıqdı! - Arvadın ağzini əydi. - Bəs filan qədər yazmağı necə?..

- Ata, Hacı Qara kimi az danış. - İbrahim dedi. - Heç qonşulara baxmırsan? Gecə səhərəcən həyətlərində neçəsi yanır. Bizimki də qaranlıq qarışdımı zülmətdə itir. - İsmayıl kişi yatanda işıqların hamısını söndürürdü.

- Onlarınkı havayıdı, yüz əməl edirlər şotçikə.

- Kimdən acizik, bizə imkan vermirsən axı…

- Mənə o cür işıq lazım deyil. Haçan öz ev-eşiyiniz olar, onda da necə kefinizdi elə də yandırarsınız. Mənim mantiyora yalvarmağa, cərimə ödəməyə halım yoxdu.

- Bəs dünən beş manatı niyə verirdin o culikə? Dədəsinə borcluydun?..

Nəzarətçi yalandan sayğaclarını dəyişmişdi ki, düz işləmir.

- Neynim, ay bala, - atası yumşaldı. - Köpəyoğlu dirənib ki, neçə ildi mənə xeyir vermirsən. Elə ilan dili çıxartdı ki, yazığım gəldi.

- Çox kasıbdı. Xəbərin var ki, səndən on dəfə yaxşı dolanır?..

- Tanıyıram. O cür dolanmaqdan da bir şey çıxmaz. Dilənçi nə qədər yığsa da gözü həmişə onun-bunun əlindədi.

- Görür əməl eləmirsən, ona da bir şey çatmır. Axırda özününkünü bu sayaq qopardır… - Bu, lap obexeestin nağılına oxşayırdı…

* * *

İsmayıl kişi bir vaxt oğlanları ilə çox öyünərdi. Onlar başqaları kimi küçədə avaralanmaz, pul, bazar-dükan tanımaz, izinsiz ayaqlarını qırağa qoymazdılar. Qohum-əqrəba onları uşaqlarına nümunə göstərərdi. Məktəbdə həmişə birincilər sırasındaydılar. Şəkilləri şərəf lövhəsini bəzəyərdi. Valideynlər rüblük iclaslarda başını aşağı salıb yaxşı oxumaq əvəzinə it daşlayan, top qovan, qaratikan koluynan kəpənək tutan uşaqlarına görə xəcalət təri axıdanda İsmayıl kişi müəllimlərin üzünə şax baxar, qürur duyardı…

İsmayıl kişi davanın (Böyük Vətən müharibəsi) hesabına ala-yarımçıq oxumuşdu. İstəyirdi oğlanları ali təhsil alsın, mənsəbə çatsın… Əvvəl İbrahim, sonra da ortancıl oğlu instituta girdi. Onları yanına salıb dərziyə apardığı yaxşı yadındaydı.

- Atalı-balalı hara belə, İsmayıl kişi?.. - Bazarda tanış-bilişlə rastlaşdıqca maraqlanırdılar.

- Bunlara kostyum tikdirəcəyəm... - Əhd eləsə də İbrahimdə gücü çatmamışdı.

- İkisi də institutda oxuyur?..

- Hə!.. - İsmayıl kişinin ürəyi sinəsinə sığmırdı.

- Öz gücünə, yoxsa?..

- Öz güclərinə! Kəllələri işləyir!

- Allah başacan versin!..

- Camaat övladını institutа düzəltmək üçün maşınını, ev-eşiyini satır, sənin lotoreyan evə, maşına düşüb fərz elə... - Bunları da İsmayıl kişiyə dərzi söylədi.

İsmayıl kişi göyün yeddinci qatındaydı. Qol-qanadı oğlanlarıydı. Hələ o biri, üçüncü də pərvazlanırdı. Bu tutuşla oğlanları böyük-böyük vəzifələrə yüksəlməliydi…

Oğlanları institutu müvəffəqiyyətlə bitirib qayıtdılar. Amma onları çağırıb vəzifəyə qoymadılar, böyütmədilər. Ölkəni taundan da betər sarsıdan rüşvət qurd ağacı içindən yeyən kimi yeyib dağıdırdı. Haqq-ədalət tərəzisi daha düz çəkmirdi. Qonşuların savadsız gədə-güdələri oğurluq-doğurluq pullandılar. Ev-eşik sahibi oldular, maşının birindən düşüb o birini mindilər…

Son vaxtlar İsmayıl kişini bir şey bərk yandırırdı. Pambıq, üzüm yığımı başlayanda İbrahimi (müəllimdi) kolxozçu kimi aylarla üzüm sahələrinə, pambıq tarlalarına basırdılar. Çox da özü nə üzüm, nə də pambıq yığırdı, yığdırırdı. Savadsız briqadirlər onu it yerinə də, qurd yerinə də buyurur, üstünə şeşələnirdilər…

- Əfəl, fərasətsiz çıxdınız! - İsmayıl kişi bir dəfə tıncıxaraq bütün hirsini, ağrı-acısını oğlanlarının üstünə tökdü. - Savadsız, dılğır gədələrcən də olmadınız…

Oğlanları durub-durub birdən partladılar.

- Nahaq bizi günahlandırırsan, ata. Biz sənə çəkmişik. Yaltaqlıq, başqasına yarınmaq, ütülüb-dürtülmək öyrətmədin bizə. Bacarmadığını bizdən niyə tələb edirsən?..

İsmayıl kişi gördü ki, oğlanları haqlıdı.

Kiçik oğlu "gözü çıxan" qardaşlarına baxıb elmin dalınca getmədi, sənəti seçdi…

* * *

Sənəm arvad gecənin bir vaxtı ayılıb ərini yerinin içində görmədi. Fikirləşdi ki, yəqin subaşına çıxıb. Xeyli keçsə də kişi gəlmədi. Qalxıb pəncərəyə yaxınlaşdı. Üzünü şüşəyə dirəyib həyətin hər tərəfinə nəzər yetirdi. Qaranlıqda gözünə tumançaq bir adam dəydi. İsmayıl kişiyə oxşayırdı da, oxşamırdı da. "Balam, bu nə işdi?.."

Paltarını əyninə keçirtdi. İçəridən oğlunu çağırmaq istədi.

- İlqar, ay İlqar!.. - Çağırdı da. Ancaq bu səs səhra üzərindəki yağışa bənzəyirdi, çətin oğluna çataydı.

Bir də baxanda ərinin siluetini açıq-aydın seçdi. Ağciyərliyinə arvadın həm gülməyi, həm də acığı tutdu. Qayıdıb çarpayısına çökdü. ″Başına hava gəlib nədi, bunun?..″

Bir az toxtayıb bayıra çıxdı. Pilləkənləri enəndə ayağını sərrast atmağa çalışdı ki, yıxılmasın. Bayaqkı qorxunun əsəri hələ canındaydı.

- Dəlisən, a kişi, gecənin bu vaxtı həyətdə neynirsən?..

İsmayıl kişi əlini ağzına apardı.

- Sss...

Barmaqlarının ucunda, ətrafa döyükə-döyükə ərinə yaxınlaşdı. Bəhlulgilin həyətindən ayaq səsləri, hənirti gəlirdi. Kimdi, nəyə çıxmışdısa işini görüb qayıtdı. Yerişindən eyvanın döşəməsi titrədi, cırıltı ilə qapı açılıb örtüldü, dalının sürməsi vuruldu…

İsmayıl kişi qəddini düzəltdi. Soyuğu canında indicə duydu. Əl-qolunu oynatdı, bədənini ovuşdurdu. Yeyin addımlarla evə tərəf yeridi. Matı-qutu quruyan Sənəm arvad da üşüdü.

İsmayıl kişi uzanan kimi yorğanı başına çəkdi. Yerinin içində xeyli titrətdi.

- O nəydi, a kişi, elə?.. - Arvadı daha dözmədi.

- Heç, yat, sabah danışaram.

- Yuxumu qaçırdandan sonra hara yatıram?..

İsmayıl kişi ona tərəf əyildi.

- Yuxuda dedilər ki, dur çıx bayıra, gözdə-qulaqda ol, evinin üstünə daş atacaqlar…

- Deyən kim idi?..

- Gözümə görünmədi, səsini eşitdim. Soruşdum, kim atacaq?.. Dedim, dələduz çaşar birdən düşmənimi də tanıdar mənə. Kölgə kimi qeybə çəkildi. Ağsaqqal vaxtımda şeytana uyub şirin yuxuma haram qatdım…

* * *

Darvazadan girəndə İsmayıl kişinin üz-gözündən qalibiyyət yağırdı.

- Gülürsən, - arvadı qabağına yeridi.

- Bu da sənə telefon! - Əlindəki kabeli, telefon aparatını göstərdi.

- Düzəldi, sən allah?..

- Bir-iki saata montyor gəlib düzüb-qoşacaq. Nahar fasiləsinə getdilər…

İsmayıl kişi telefona görə çox yüyrünmüş, nəhayət, dava-şavayla məqsədinə çatmışdı…

* * *

Hamısı telefonun ətrafındaydı. İsmayıl kişi maddım-maddım gah telefonun, gah da bir-birinin üzünə baxan arvad-uşağı dəhmərlədi ki, hə, nəyi, kimi gözləyirsiniz? Niyə qohum-əqrəbaya zəng vurub danışmırsınız, neçə vaxtdı məni keçəl eləmişdiniz ki, telefon çəkdir?..

Birinci gəlin irəli durdu. Çünki gözünü açanda evlərində telefon görmüşdü. Atasıgilin nömrəsini yığdı. Dəstəyi qardaşı götürdü. Biləndə ki, telefon çəkdiriblər, təbrik etdi. Sonra Sənəm arvad qızının qonşusuna zəng vurub telefona çağırtdırdı, bir-bir onunla danışdılar. Dəstəyi üstünə qoyub aralanan kimi zəng səsi eşidildi. Karıxıb qaldılar. Yenə Rahilə tərpəndi. Tanımadığı qadın səsiydi.

- Zəhmət olmasa İbrahimi telefona çağırın.

- Kimi? - Təəccüblə geri qanrıldı. - İbrahimi?..

- Bəli, bəli, İbrahimi. Bağışlayın, sizə əziyyət verirəm.

- Xoşdu… - Rahilə mızıldanaraq dəstəyi İbrahimə tərəf uzatdı.

- Kimdi, aaz?.. - Sənəm arvad qulaqlarını şəklədi.

- Nə bilim, bir qadındı… - Qayınatası, qayınanası olmasaydı Rahilə yəqin ki, qulağını dəstəkdən ayırmazdı.

- Alo?.. - İbrahim özü də çaşmışdı. - Bah, sənsən?.. - Handanhana gülə-gülə geri çöndü. - Bacımdı. - Yamanca qorxutdun bunları...

- Özün necə, qorxmadın?.. - Bacısı sataşdı. - Gülməsəydim tanımayacaqdın…

Söz-söhbətləri yalnız telefondan, onun faydasındandı. Məqamında maşından da vacibdi. Neçə kilometrlik məsafəni bir göz qırpımında aradan qaldırır, ürəkləri birləşdirirdi. Telefonu icad edəni də (kimliyini bilməsələr də) xatırlayıb rəhmət oxudular…

Arada başları televizora qarışdı. Bir müddət qara daş kimi susan telefon qəfil zınqıldayaraq özünü təzədən yada saldı.

- Alo, kimdi?.. Məzahir həkim lazımdı? Bu nə deyir, ə?.. -Rahilə dəstək qulağında təəccüblə İbrahimə tərəf döndü. - Məzahir həkimi istəyir…

- Məzahir həkim kimdi, ay bacı?.. - Rahiləni Sənəm arvad əvəz etdi. - Nömrə düzdü ey, amma burda o adda adam yaşamır. - Dəstəyi üstünə qoydu. - Qəribə adamdı, qır-saqqız olub qopmaq bilmir…

- Əşi, fikir verməyin. - İsmayıl kişi başına gələn adam kimi danışdı. - Belə şeylər çox olur. Hələ harasıdı?..

Növbəti dəfə telefona İlqar yaxınlaşdı. Yenə Məzahir həkimi soruşurdular. İsmayıl kişi dedi ki, əgər bu Qəmər müəllimənin oğlu Məzahir həkimdisə, evləri bazarın yanındadı. Onlarla bizim nə alıb-verəcəyimiz?..

Növbəti zəngdə Qəmər müəllimənin özünü xəbər alanda İsmayıl kişi lap dilxor oldu.

″Oyuna düşmədik? Daş bunun yanında muştuluqdu ki…″

Hərəsi bir fərziyyə söylədi. Guya qəsdən qurulmaydı, onlara sataşırdılar. İsmayıl kişinin acığına. Yə′ni sən elə etdin, biz də belə, di döz. Havayı telefon işlətmək asandı?..

Gecə keçincə hər yarım saatdan, iyirmi dəqiqədən bir zınqıltı təkrarlanaraq baş-beyinlərini apardı. İbrahim hirslənib poçta zəng vurmaq, məsələnin nə yerdə olduğunu öyrənmək istədi. İsmayıl kişi mane oldu.

- Axşamın xeyrindənsə sabahın şəri, deyiblər. Dəlinin yadına daş salma, acıqları tutar, telefonu birdəfəlik kəsərlər.

- A kişi, sən nə danışırsan, dünya dərəbəylikdi?..

- Aşıq gördüyünü çağırar, - İsmayıl kişi dedi, - fasfarağat dur..

Əlacı kəsilən İbrahim duyuq salmadan gizlicə telefonu xəttdən ayırdı…

* * *

Səhər-səhər süfrə arxasında hansısa dedi:

- Xəbəriniz var, bu axşam daş atmadılar…

- Heç telefon da zəhləmizi tökmədi. - İlqar əlavə etdi.

- Doğrudan da!.. - O saat telefonu, axşamkı haqq-hesabı xatırladılar.

İbrahim yenə duyuq salmadan telefonu xəttə caladı. O da elə bil buna bənd imiş, çır-çır çığırıb onu səksəndirdi.

- Nağayırdın, ə, buna? - Sənəm arvad yaxınlaşıb dəstəyi qaldırdı. - Eşidirəm. Xeyr, Qəmər müəllimə deyil. Hansı nömrədi? Kimdi?.. Nəyinə lazımdı?.. Dedim, yox də. Nəə?.. - Qulağından araladığı dəstəyi tərs-tərs süzdü.

- Nədi, ay arvad, nooldu?.. - İsmayıl kişi soruşdu.

- Deyir, görməmişsiniz…

- Düz tapıb də, daha niyə cırnayırsan?.. - Hamısı gülüşdü.

* * *

İsmayıl kişi poçtdan əhval-ruhiyyəsi duru qayıtdı.

- Əşi, bunların işi lap qəmədiyədi. Qəmər müəlliməgilin nömrəsini bizə veriblərmiş, onlara da təzəsini…

- Dəyiş-döyüşün mənası nədi?.. - Sənəm arvad soruşdu. -Niyə təzəni bizə verməyiblər?..

- Bu nömrə blakirovkaymış, deməyiblər heç. Acığadı də, canları çıxır. Yəqin Məzahir həkimdən bir şey qopardıblar.

- Niyə tələb etmirdin ki?..

- Day yorulmuşam, ay arvad. Qoy cəhənnəm olsunlar…

* * *

- Yatmısan, arvad? - İsmayıl kişi qaranlıqda arvadının böyrünü dümsüklədi.

- Yox, nədi?..

Kişinin hərəkəti onu çaşdırdı. Bir anlığa xəyalı keçmişə, cavanlıq illərinə uçdu. Amma nahaq, İsmayıl kişi elə şeyləri nə vaxtdı yadırğamışdı. Özünün də həmin həvəslə ona cavab verəsi halı yoxdu…

- Deyəsən, daşın hardan atıldığını tapmışam. - Pıçıldadı.

- Doğrudan? - "Saqqalı ağarmış, günaha batdım..." - Kimdi?..

- Niyə qışqırırsan? - Kişi acıqlandı. - Bax, arvad aramızda qalsın haa. Uşaqlar eşidər, cavandılar, xata törədərlər.

- A kişi, arxayın ol...

- Bu hələ gümandı haa…

- Ürəyimi üzmə də, qurtar…

- Bayaq Qızbəsgildə yerə-yurda əməlli-başlı fikir vermişəm. Evimizin üstünə atılanlar onların həyətindəki xır daşdandı.

- Deyirəm, axı neçə gündü niyə sakitlikdi…

Qızbəsgilin başı xeyir işə qarışmışdı, ortancıl oğlu evlənirdi.

* * *

İlqar pilləkənin ayağında ləngidi. Atasının təzə ayaqqabılarına diqqətlə baxa-baxa yuxarı qalxdı. Eyvanda çay içən kişini salamladı.

- Hə, ayaqqabılarım xoşuna gəldi?.. - Oğlunun baxışı İsmayıl kişinin nəzərindən yayınmamışdı.

- Pis deyil, - İlqar çönüb təzədən aşağı boylandı.

Paltarını dəyişib krantda yuyundu. Stulu çəkib atası ilə üzbəüz əyləşdi. Sənəm arvad tez çörək gətirdi. Yeyəndən sonra çayın soyumağını gözləmədən stəkanı başına çəkdi. Ağzı yandı. Elə bil acığını kişinin üstünə tökməyə bəhanə tapdı.

- Ay ata, neçə dəfə demişəm, dükan-bazardan bir şey alanda qiymətə görə çənə vurma, dava salma…

- Yenə nə olub?.. - Atası çayını arın-arxayın nəlbəkiyə tökdü.

- Dükançı Asif gileylənirdi, ayaqqabıların pulundan kəsmisən.

- Yalan sözdü, hələ bir manat da artıq vermişəm.

- Ay ata, axı kim bilməsə də sən yaxşı bilirsən ki, o ayaqqabılar mağazaya öz ayağı ilə gəlmir…

- Yox, oğul, mən hələ pulumdan bezməmişəm. İndi ki, belə oldu, sabah çığırda-çığırda o bir manatımı da qaytarıb alacağam.

- "Ciquli"sini remont eləyəndə mən onun dərisini soydum, heç cınqırını da çıxartmadı. Bəs o pulundan bezmişdi? Hamı bir-birindən dolanır də…

- Qələt eləyir, başını da daşa döyür o cür dolananlar. Aləmi kor qoyan elə siz cavanlarsınız!..

- A kişi, niyə qışqırırsan? - Sənəm arvad özünü yetirdi. -Nədi, ə, nəyiniz şərik düşüb yenə?.. - Oğluna acıqlandı.

- Ana, yüz dəfə demişəm, dükançılarla qiymət üstündə mübahisə etmə. Nə qədər artıq alsalar, dinmə, əvəzini mən öz cibimdən ödəyəcəm. Hamısı məni tanıyır, üzümə çırpırlar ki, atan gözündə tiri görmür…

Oğlunun sözü arvada toxundu.

- Sənin puluna qalmamışıq, ay bala. Heç kəsin də yanında gözükölgəliliyimiz yoxdu ki, qorxub-çəkinək…

- Tutaq ki, hamının qazandığı haramdı, bircə sizinki halaldı. - Oğlu dedi. - Məni də nəzərə alın də. Sizə görə sabah biri şeytanlasa, qanımın arasına girəcəksinizmi? Özünüz bilirsiniz ki, remont etdiyim maşınların çoxu levidi…

- Ə, sən əyri yolnan çalıb-çapıb sağa-sola səpələyəcəksən, əməlləriyin altını qoca vaxtımızda biz çəkəcəyik?.. - Kişi ciddiləşdi.

- Eh, sizinlə danışmaq çətindi… - Oğlu başını buladı.

- Ehi-mehi yoxdu, bir də bu həyətə dakumentsiz vurulmuş maşın gətirsən, mən bilirəm neyniyəcəyəm. Day bəsdi, eşitdin?..

- Bəs hara aparım?..

- Onu özün bilərsən!..

- Əşi, sən də ağ eləmə… - Sənəm arvad bu dəfə ərinə tərəf çımxırdı.

İsmayıl kişi hirsindən həyətə yendi. Ordan da bağçaya adladı.

"Belə dərd, belə müsibət olar?.. "Ölülər"də nətəərdi? Həə, Şeyx Nəsrullah diriltmək üçün kimin ölüsünün adını çəkirsə, razılaşmır. Hamısı suçlu, günahkardı axı. Onlardan nəyimiz əskikdi? Görə-görə, qana-qana ki, aldadırlar, susuruq. Çünki vicdanımız təmiz, yediyimiz-içdiyimiz halal deyil. Bir-birimizi aldatmaqla dolanırıq. Özümüz aldatmasaq da, oğlumuz, qızımız, qohum-əqrəbamız aldadır. Onların çatısını boğazımıza salıb dinmirik. Bir-birimizin qabağında gözükölgəliyik. Nə vaxt, necə yarandı axı bu vəziyyət? Kimdi ən böyük, əsl günahkar, ay allah?.."

* * *

Böyük qəbristanlıqdı. Ətraf da dolu adam. İtib-batmış, təpəyə çevrilmiş qəbrin üstündə ucaboy, topqarasaqqal, başı əmmaməli bir kişi dayanmışdı. Üzünü də tutmuşdu göylərə. Onlara heç gözünün ucuyla da baxmırdı. Mirzəsiydi, hər nədisə dəftər-qələm əlində yanında əmrə müntəzir dayanmışdı. Ara sakitləşəndə Şeyx Nəsrullaha oxşayan kişi göz-qaşla ona nəsə qandırdı. O da boğazını arıtlayıb cır səslə danışmağa.

- Camaat, cənabınız işini-gücünü atıb sizin şikayətlərinizi dinləməyə buyurub. İstəyir ölkədə qayda-qanun yaratsın, araqa-

rışdıranları, oğru-əyriləri, rüşvətxorları cəzalandırsın. Siz bu çətin və şərəfli işdə ona kömək etməlisiniz. Buna hazırsınızmı?..

Hərənin ağzından bir avaz gəldi. Ehtiyatlanırdılar.

- Sən öl, ilanı Seyid Əhməd əliynən tutmaq istəyir…

- Guya oğru-quldurı tanımır. Bizi bir-birimizə vuruşduracaq.

- Axırda da günah bizim boynumuzda qalacaq. Fitvaçı özüdü haa..

- Hə, nə deyirsiniz? Aydın danışın. - Mirzə bir də dilləndi.

- Hazırıq, hazır… - Mızıldandılar.

- Yaxşı, birinci kimdən başlayaq? - Mirzə səsini qaldırdı.

Özxoşuna irəli çıxan olmadı. Bir-birinin üzünə baxıb durdular. Axırda özü əlini qabaqdakılardan birinə tuşladı.

- Bəlkə səndən başlayaq, hə?. Qorxma, kimdən narazısansa de, bu saat başını bədənindən ayıraq, cəzasına çatdıraq.

- Mən?.. - Göstərilən adam qorxa-qorxa döyükdü.

- Hə, hə, sən!..

Uzun-uzadı, vasvaslıqla üst-başını düzəltdi. Nəhayət, qətiyyətlə irəli yeridi.

- Mən çox şeydən, çox adamdan narazıyam, amma bu ticarətçilər canımızı lap boğazımıza yığıblar. Bizi çalıb-çapır, talayırlar..

- Konkretləşdir, adını, familiyasını söylə... - Mirzə onun sözünü kəsdi.

- Biri, bazar başındakı çəpgöz gədə…nədi adı…

Böyürdən kimsə tapança kimi açıldı.

- Ədə, hey, mərdiməzar oğlu, mərdiməzar, ağzını burnunun altında farağat saxla. Xalam oğlunu satanın tikəsini qulağı boyda doğrayaram. Niyə öz qardaşını demirsən, hə, azacıq aşın duzudu?..

- Hansı qardaşımı, qonşu?.. - İrəli çıxan qorxa-qorxa soruşdu.

- Aptek müdirini!..

- Ey, ey…

Bircə anda qarpışma düşdü. Araya girib onları zorla sakitləşdirdilər. Mirzə saqqalını qaşıdı.

- Hə, nooldu, kişi, nə deyirsən, çəpgözü qara siyahıya yazım-yazmayım?..

- Yox, başına dolanım... - Kişi geriləndi. - Yazma, möhlət ver, fikirləşim.

- Möhlətdi, get fikirləş… - Mirzə çönüb curuna göz basdı.

Məsələnin qəlizləşdiyini görən kütlə ağzına su alıb susdu. Belə gözləmirdilər. Biri rüşvətxor, süründürməçi müdirindən narazıydısa, onun öz oğlu kolxoz sədriydi, ağzını açan kimi paxırını qoyacaqdılar qabağına. Başqasının arvadı doğum evində həkim, qardaşı milisdə rəis, dayısı bank müdiri, əmisi prokuror, bacısı notarius, qızı müstəntiq, xala-bibisi institutda, nə bilim harda kimdi, nəydi… Hamısı bir-birinə, ümumilikdə millətə quyu qazmaq, tələ qurmaq, rüşvət alıb-vermək yoluynan dolanırdı…

Böyür-başdakılar bir-bir sivişib aradan çıxdı, meydanda, Şeyxin qarşısında tək qaldı. Şeyx boy-buxununa, görkəminə yaraşmayan qəliz bir səslə cüyüldədi:

- Nədi, kişi, sən nəyi gözləyirsən?..

- Mən?.. Məni tanımadın?.. - İsmayıl kişi acı-acı güldü.

- Yooxx.. - Şeyx təəccüb və heyrətlə mirzəsinə tərəf döndü.

- Kefli İsgəndərəm də, ha-haa!.. - İsmayıl kişi dedi.

- A kişi, yenə nə hay-haraydı?.. - Sənəm arvad ərini dümsüklədi.

İsmayıl kişi ayıldı ki, yorğanı üstündə yoxdu. Sürüşüb yerə düşmüş, sümükləri tamam donmuşdu. Əyilib yorğanı qaldırdı.

″Qoca vaxtımda elə bircə kefli İsgəndərim çatmırdı…″

* * *

Sənəm arvad Rusiyadakı oğlundan məktub almışdı.

″Ana, yazırsan ki, otpuskaya niyə gəlmədin? İmkanlaşdıra bilmədim. Sənə bir sirr açacağam. İstəsən, atama deyərsən, istəməsən, deməzsən…″

- Tay demir ki, elə atasına oxuyuram… - Sənəm arvad məktubdan gözünü aralayıb ərinə gülümsədi.

- Dalını oxu görək nə sirdi?.. - İsmayıl kişi yerində qurcalandı.

″Məni bağışlayın, bir ildi evlənmişəm. Gəlməyə hazırlaşırdım, yoldaşım xəstəxanaya düşdü…″

- Bu nə yazır, ay başına dönüm?.. - Sənəm arvad təəccübləndi.

- Dalını oxu, dalını…

″Baba, nənə olmusunuz. Nəvəniz oğlandı. Tezliklə şəklini də göndərəcəyəm…″

Sənəm arvad başını qaldırıb ərinin üzünə baxdı ki, görsün münasibəti necə olacaq?

- Hə, arvad, demək, nəvəmizin sayı bu yandan da belə artdı. Həm də getdik rusa calandıq.. - İsmayıl kişi oğlunun sirrini çox sakit, gözlənilən bir xəbər kimi qarşıladı.

- Ə, rusdan tutmadan nə nəvə?.. - Sənəm arvad isə ağzını burdu. - Dilini-danışığını qanmayandan sonra…

- Niyə qanmırsan? Ya o bizim dilimizi öyrənər, ya da sən onun. - İsmayıl kişi özü rusca azdan-çoxdan bilir, yeri gələndə çulunu sudan çıxardırdı. - Təki sağ-salamat soraqlarını eşidək. Həmişə subay qalmayacaqdı ki?..

- Nə bilim… - Sənəm arvadın matı-qutu qurumuşdu. - O günü sənə danışdığım yuxu yadındadı? Dedim, yüyrük yüyrüyürdüm ey… Buymuşca…

- Nədi, ay ana, o nə kağızdı? - İbrahim qapıdan girdi.

- Məktubdu, qardaşın İlham ursetdən göndərib…

- Ver, oxuyum görüm nə yazır?

- Nə yazacaq, evlənib, üstəlik bir oğlu da olub…

- Bəs niyə sevinmək əvəzinə qaş-qabağını tökmüsən?..

- Axı mən belə gözləmirdim, ay bala.

- Hazırlaşmaq lazımdı. Gedək görək kimdi, nədi?..

* * *

İsmayıl kişi yandırmaq üçün ağacların xəzəlini dırmıqlayıb açıqlıqda komaladı. Çır-çırpını dəstələyib evin dalına daşıdı. Təzədən geri qayıdanda yekə, qırmızı bir top barının başından adlayıb ayağının altına düşdü. Fikir-xəyaldaydı, diksindi.

Küçədə haray-həşir, vurçatlasınla oynayan uşaqların səsi xırpadan kəsildi. Hansısa cəld barıya dırmaşıb həyətə boylandı. Tez də aşağı sürüşdü. Uşaqlara bəyan etdi:

- Sakit, İsmayıl kişi həyətdədi…

Öz aralarında pıçıldaşıb Murtuzu birtəhər yola gətirdilər. O, ehtiyatla qapını aralayıb başını içəri soxdu.

- İsmayıl əmi, olar topu götürüm?..

İsmayıl kişi onu dinməz-söyləməz xeyli süzdü. Murtuzun elə təkcə duruşu son zamanlar onu əməlli-başlı əsəbləşdirirdi.

- Ə, sən nə həyasız adamsan… - İsmayıl kişi deməyə başqa söz tapmadı.

- Uşaqlardı də…

- Ə, sənə arxayın olmasalar, buralara gəlməzlər axı. Niyə öz barılarının dibində oynamırlar?..

- Qoymurlar axı… Toplarını cırırlar…

Amma İsmayıl kişinin uşaqlara deyinməyi, acıqlanmağı o topcıranların xətrinə dəyir, şəstinə toxunurdu. Halbuki boş-boş danışıb özündən çıxmağı, yalandan guruldamağıydı. Tez də ürəyi yumşalır, hətta peşimanlayırdı. Axı uşaqlar, doğrudan da, hardasa oynamalıydılar. Bə′zilərinin (əlbəttə, valideynlərin) adamı saymaması (onların həyət-bacaları həyət-bacaydı, İsmayıl kişininki yox?) onu yandırır, haldan-təbdən çıxardırdı…

Murtuz həmişəki kimi boynunu büküb irişir, İsmayıl kişinin haçan yumşalacağını gözləyirdi.

- Get, day qurtardıq!..

- Yaxşı!.. - Qaraşın gədəsi irişməyini udub qapını çəkdi. Həmişəki kimi yalvarıb-yaxarmadı.

″Tülküyə bir bax, məni hədələyir, ə, yoxsa?..″

Murtuzun işlətdiyi axırıncı kəlməni İsmayıl kişi çox eşitmişdi. Ancaq indiki kimi fərqinə varmamış, əhəmiyyət verməmişdi. Allahın işinə bax, hamının başıqapazlısı onu hədələyirdi. Gədənin dalınca qapıya yeridi.

- Ə, bir geri dön!..

- Nədi?.. - Murtuz bir ayağını qaçaraq qoyub dayandı.

- Yaxın gəl.

- Hə… - Bir az yaxınlaşdı.

- O nə sözdü, ə, qoduq, dedin?.. - Murtuz başını aşağı salıb ayağı ilə yeri eşdi. - Niyə dinmirsən?..

* * *

İsmayıl kişi evdəkilərin nəzərindən yayınaraq axşamdan Qaraşın barısının dibində gəzib-dolanır, hər xışıltını, səsi diqqətlə dinşəyirdi. Yatmaq vaxtı çatanda barıdan o tərəfə uzanan alma ağacının qoynunda gizləndi.

Həyət-bacada əl-ayaq tamam yığışdı, işıqlar söndü, ətrafda sakitlik yarandı. İsmayıl kişi beləcə xeyli gözlədi. Səbri bir tikə olanda özünü danladı. "Qocaldıqca xərifləyirsən ha…"

Aşağı düşmək istəyəndə Qızbəsgilin qapısı yavaşca cırıldadı. Boylananda eyvanda Murtuzu gördü. Tursik-mayka döyükə-döyükə barıya (yaxınlarda köməkləşib hördümüşdülər) yaxınlaşdı. O yekəlikdə kişinin həyəcandan az qalırdı ürəyi sinəsini dağıtsın. "Hə, gəl, gəl!.."

Murtuz əyilib yerdəki xır daşdan birini götürdü, əvvəldən rahatladığı iri götüyün üstünə qalxdı. Başını uzadıb onların həyət-bacasını gözdən keçirdi. Arxayınlaşıb qolaylandı…

İsmayıl kişi matı-qutu qurumuş baxırdı. Dəmirin danqıltısına da qımzanmadı. Bir tərəfdən, qorxurdu səsini çıxarda, qaranlıqda gədənin zəhri-bağrı yarıla. O biri tərəfdən, İsmayıl kişiyə düşmənini tapmaq lazımdı, onu da tapmış, arxayınlamışdı…

Gədə tələm-tələsik aşağı düşdü. Əlini bir-birinə çırpıb geri dönəndə anasını eyvanda gördü.

- Ə, Murtuz, gecə vaxtı orda neynirsən?..

İsmayıl kişi daha özünü saxlaya bilmədi. Alma ağacındanca dilləndi.

- İsmayıl əmisindən hayıf alır, qırışmal. Ha-haa!..

Murtuz yerində dondu. Qaranlıqda baxışları ilə İsmayıl kişini axtardı. Tapdı, yoxsa tapmadı, birdəncə dönüb evlərinə tərəf götürüldü. İsmayıl kişi hələ də şaqqıldayıb gülürdü.

Qızbəs, daşın səsinə çıxan Sənəm arvad, uşaqları işıqları yandırıb heyrətlə ona tamaşa edirdilər…

# MÜNDƏRİCAT

Müəllifdən ........................................................................3

*Hekayələr*

1. Doğum evinin işıqları ..........................................................5
2. Qaydasız döyüş ................................................................15
3. Qəfəs .................................................................................26
4. Ən qiymətli .......................................................................44
5. Qaçhaqaçda.......................................................................46
6. Anım ..................................................................................53
7. Qarabağ dərdi...................................................................67
8. İlk məhəbbət .....................................................................82
9. Köhnə velisoped ...............................................................89
10. Kərim kişinin eşşəyi .......................................................97
11. Psixoloci an....................................................................109
12. Çətinlik ..........................................................................121
13. Havalı Qulu....................................................................130
14. Əks-səda .........................................................................140
15. Məhəbbət ........................................................................143
16. Susatan Şiraslanın oğlu.................................................148
17. Yaddaş ...........................................................................153

*Povestlər*

1. Qış günəşi .........................................................................174
2. Qisas .................................................................................228
3. Ömrə ağılan daş ...............................................................295

**EYVAZ ZEYNALOV**

# QIŞ GÜNƏŞİ

*Povest və hekayələr*

**Bakı — 2008**